RİZVAN CƏBİYEV

# ERKƏN TÜRKLƏR

## YAXUD
## ŞUMER KİLİDİNƏ TÜRK AÇARI

9755
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Nərgiz NƏŞRİYYATI
BAKI-2011

63.3(0)31 + 84(5Az)
C48

Elmi redaktor: ***Firudin Cəlilov,***
filologiya elmləri doktoru

Redaktor: ***Hidayət Musabəyli,***
M.Mehdizadə adına və
«Qızıl qələm» mükafatları laureatı,
Respublikanın Təhsil Əlaçısı

**Rizvan Cəbiyev.** «Erkən türklər, yaxud Şumer kilidinə türk açarı». Bakı, «Nərgiz» nəşriyyatı, 2011, – 480 səh.

*Əziz dost! Bu kitab sənə ünvanlanıb. Öz tarixini diqqətlə öyrən ki, keçmişi olmayanın gələcəyi də yoxdur.*

*Təssüflər olsun ki, yeniyetmə oğlan və qızlarımız, yaşlı nəsil, hətta bir çox tanınmış ziyalılarımız da öz tarixləri barədə aydın bilgiyə malik deyillər, məktəblərdə hələ də Nuhdan qalma uydurmalar əzbərlədilir. Türkün başlanğıc nöqtəsi, erkən etnosu, irsi mənsubiyyəti, linqivistikası, çoxsaylı tayfaların təkamülü və geneoloji əlaqələri, demək olar ki, tədqiq olunmayıb. Ziddiyyətlər o həddə çatıb ki, gənclərimizin, ziyalılarımızın da bir çoxunun ilkin Ata yurdumuz, ilk türk dövlətinin nə vaxt və harada formalaşması barədə dəqiq məlumatları yoxdur.*

*Siz Rizvan Cəbiyevin "Erkən türklər, yaxud Şumer kilidinə türk açarı" kitabını oxusanız bu və ya digər suallara çox cəsarətli cavablar tapacaqsınız.*

*Əziz dost! Üzünü öz Tarixinə çevir ki, sən də bu Tarixin bir parçası olasan.*

C $\frac{742000000}{079}$ 672-2011 © «Nərgiz», 2011



## I FƏSİL

## SUSAN QƏLƏMİMİZ VƏ SUSDURULAN TARİXİMİZ

Bəşəriyyətin tarixi türklərdən başlanır, dünyanın gələcəyi də türklərin adı ilə bağlıdır, çünki türklər göylərin övladıdır, «tanrı tək göylərdə doğulub», «tanrısifət»dir. Əcdadlarımız bu sözlərin doğruluğuna həmişə inanıblar, onun şərəfinə möhtəşəm abidələr ucaldıblar ki, gələcək türk oğulları və qızları bu sözlərdəki həqiqəti unutmasınlar.

Türklər bahar yağışları kimi dünyanın harasına səpələnsələr, ora həyat veriblər, dəli küləkbr kimi boz səhralarda əsməyi, torpaqlar fəth edib yeni yurdlar salmağı, at üstündə yatıb azad, sərbəst yaşamağı xoşlayıblar. Bütün tarixi boyu türkün ikicə böyük sərvəti olub: dili və qılıncı!

Aqillər öyrədir ki, hər bir türk özlüyündə bir millətdir. Tarixin axarını dəyişməyi bacaran bu millət, təəssüf ki, öz tarixini yaza bilmədi. Başımıza nə gəlibsə, həmişə başısoyuqluğumuzdan gəlib. Yer üzündə özünə, keçmişinə, gələcəyinə bizim qədər biganə olan ikinci millət yoxdur. Bu üzdən aydın, sadə və həqiqi tariximizi unudaraq ziddiyyətlər burulğanında çabalayır, hələ də keçmişdən miras qalan ən adi suallara ca-

vab tapa bilmirik: Biz kimik, haradan gəlmişik, hara gedirik?

Zaman adlı nəhayətsiz ümmanda min illərdir ki, öz Sahilimizi axtarırıq. Əbədiyyətin o biri ucunda qalan tariximizi zorla əlimizdən aldılar, bir qələmlə üstündən xətt çəkdilər, əvəzində bizi şahə qalxmış dalğaların, amansız tufanların və qasırğaların bu biri üzündə, qızmar günəşin yandırıb yaxdığı, sakit, boş və kimsəsiz səhralarda «kirayənişin» elədilər.

Ümumdünya tarixi adlandırdığımız şey – əslində özlərini ari, təmiz qanlı sayan, guya əqli cəhətdən başqalarından daha «üstün» olan xalqlar barədə mono tərifdən başqa bir şey deyildir. Tarix gödək tuman geymiş iyirmi iki kişinin ayaqları altındakı yumru, alabəzək top kimi zaman-zaman dünyanın bir ucundan o biri ucuna dığırladılır, kim daha güclüdürsə, kim daha fəndgirdirsə, top da həmişə onun ayaqlarında qalır.

Çinlilər bəşər sivilizasiyasının öz torpaqlarından pöhrələndiyini yazırlar. Qədim farslar da tarixin başlanğıcını İrandan götürürlər və ona qarşı Turanı qoyurlar. Bəs turanlılar kimlərdir? «İranda və Turanda yaxın qohum olan ari tayfalar yaşayırdılar. Onları irq və dil deyil, din ayırırdı. Zərdüştilikdən sonra qədim allahlara inamını saxlayanlar turanlılar, Zərdüşti dininin tərəfdarları isə iranlılar adlandılar».

Bu sözlər sovet məktəbinin ən böyük türkoloqu Lev Qumilyova məxsusdur. Zənnimcə, onu eyni müvəffəqiyyətlə və bəlkə də daha çox iranist adlandırmaq olar.





Yahudilər tarixin samilərdən başlandığını iddia edirlər və inanırlar ki, bütün xalqlar ən böyük sami olan Nuhdan və onun üç oğlundan törəmişlər.

Dünyanın coğrafiyasına sahiblənmək, millətlərin etnik və linqivistik xəritəsini dəyişdirib özününküləşdirmək uğrunda gedən qanlı savaş min illərdir ki, ara vermir.

Lakin kimin nə deməsindən, nə yazmasından və nə fikirləşməsindən asılı olmayaraq, tarixi həqiqət birdir, onu bölmək, parçalamaq, gizlətmək heç kəsə axıradək nəsib olmayıb və yəqin ki, heç vaxt da nəsib olmayacaq!

Dünyanı çiyinlərində daşıyan xalqların arasında türklərə yer verməyiblər. Biz tarixin qalın «cəngəllikləri» arasında özümüzü, «it-bata düşən» keçmişimizi axtarırıq.

Nə yazıq ki, dünyanın tanınmış tarixçiləri türklərin həqiqi tarixini, bəşər sivilizasiyasının «dan çağından» mövcud olduqlarını qəbul etmirlər. Ən dəhşətlisi odur ki, bu fikri bizim bəzi alimlərimiz də dəstəkləyir, axınla birgə üzərək türklərin tarix səhnəsinə çox gec çıxdıqlarını yazırlar. Türk dövlətçiliyinin qədim tarixə malik olduğunu söyləyən, sübut etməyə çalışan tədqiqatçılarımızın səsi isə Bakının «Qurd qapısı»ndan o yana keçmir.

Ürək ağrısı ilə qeyd etmək lazımdır ki, uzun illərdən bəri davam edən anti-türk siyasəti nəticəsində tariximiz saxtalaşdırılmış, millətimiz kökündən qoparılaraq tamamilə yad bir «orbitə» atılmışdır. Bu

üzdən yeniyetmə oğlan və qızlarımız, yaşlı nəsil, hətta bir çox tanınmış ziyalılarımız da öz tarixləri barədə aydın bilgiyə malik deyillər, məktəblərdə hələ də Nuhdan qalma uydurmalar əzbərlədilir. Türkün Başlanğıc nöqtəsi, erkən etnosu, tayfaların inkişafı və geneoloji ardıcıllığı demək olar ki, tədqiq olunmayıb. Ziddiyyətlər o həddə çatıb ki, gənclərimizin, elə ziyalılarımızın da türkiin Ata yurdu, ilk türk dövlətinin nə vaxt və harada formalaşması barədə dəqiq məlumatları yoxdur.

Türk etnoslarının, o cümlədən Azərbaycan türklərinin qədim kökləri, ilk bəşər sivilizasiyasına, ulu Şumerə bağlılığı barədə minlərlə təkzibedilməz faktlar mövcud olsa da biz hələ ki, dünyanı bu həqiqətə inandıra bilməmişik.

Türkün tarixini israrla birinci minilliyə bağlamaq istəyənlər qoy gəlib Qobustan qayalarına, Gəmiqayaya, Dəlidağa baxsınlar. Gəmiqaya petroqliflərinin 6-7 min il yaşı var, bu təsvirləri Şumerdən tapılmış rəsmlərlə mövzu və üslub eyniliyi birləşdirir. Sirli Dəldağ yazıları hələ açılmamış möcüzədir. Daşların üstündə heyvan şəkilləri, cürbəcür həndəsi cizgilər, Günəşin, ulduzların, ulduz topalarının, Bizim qalaktika kimi tanınan «Ağ yol»un müəmmalı təsvirləri vardır. Güman olunur ki, Dəlidağdakı bəzi şəkillər presessiya siklini əks etdirən ulduz xəritələridir.

Tanınmış dünya mütəxəssisləri Azərbaycan ərazisinin qədim Şumerlə yaxın əlaqəsi barədə çox qiymətli fikirlər söyləmişlər. Tur Xeyerdala görə Qobustan qayalarında burnuna Günəş şəkli çəkilən qayıq rəsmi Şumerin Günəş «allahı» Utla bağlıdır. Belə görünür ki, Qobustan sakinləri Günəş «allahı» Uta yaxından bələd idilər və ona sitayiş edirlərmiş. Qədim türk tayfası olan quti adının mənası da bunu təsdiqləyir: allahın oğlanları və ya allahın ruhunu daşıyanlar.





Amerikalı tədqiqatçı Ceyn Matlok uzun illər apardığı araşdırmaların son nəticəsi olaraq sensasiyalı bir kitab çap etdirmişdir. «Ey insanlar, hamınız türksünüz!»

Alim bu sanballı kitabında sübut etməyə çalışır ki:

• bəşər övladı dünyada ilk dəfə türkcə danışıb;

• elm, fəlsəfə və dinin yaradıcıları türklərdir;

• peyğəmbərlərin hamısının adı eyni kökdən, türkcədən gəlir;

• İngiltərədə, Fransada, Amerikada, Hindistanda, dünyanın əksər ölkələrində türk dilində çoxsaylı insan və yer adları vardır;

• Finlandiyadakı Kırkpınar, Yaponiyadakı Quyusuyu kimi yüzlərlə yer adı türk dilindədir:

• Hindistandakı «Mahabharata» kitabı əslində türklərin tarixindən bəhs edir;

• Romanı quran etrusklar türklərdir;

• Amerika hinduları əcdadlarının türklər olduğunu etiraf edirlər.

Ola bilsin ki, bəzi «ciddi», konservativ elm adamlarına Matlokun bu sözləri qeyri-ciddi, qeyri-elmi görünsün. Amma türklərin ilk bəşər sivilizasiyası ilə qohum olduqlarını sübut edəcək başqa dəlillər də vardır.

Bildiyimiz kimi, metaləritmə sənayesinin bünövrəsi ilk dəfə Şumerdə qoyulub. Bunu inkar etmək, sadəcə, mümkün deyildir. Faktlar göstərir ki, bu günkü Azərbaycan ərazisində yaşayan türklər metaləritmə sənayesinə yaxından bələd idilər. Qazax rayonundakı Babadərviş metaləritmə sobasından tapılan xəlitənin yaşı e.ə. V-IV minilliklərə gedib çıxır. Sənaye üsulu ilə parçalar istehsal edilməsinin və paltarlar tikilməsinin «müəllifi» də qədim şumerlərdir. Amma arxeoloji qazıntılar göstərir ki, türklər bu üsulla da tanış idilər. Mingəçevir ərazisindən yaşı dörd min ili keçən sənaye üsullu toxuculuq məmulatları, kətan parça və dəzgah tapılmışdır. Bu Şumer təcrübəsinin Azərbaycan ərazisinə gəlib çıxması heç vaxt təsadüfi ola bilməzdi. Açıq görünür ki, şumer-türk əlaqələrinin kökləri dərindir və bizim hələ bilmədiyimiz bir çox sirli boyutları vardır.

Min illər boyu yorulmadan, usanmadan, çəkinmədən türklərin insani keyfiyyətlərdən uzaq, «ruhu çirkli», quldur, qaniçən, vəhşi obrazını yaradanlar əcdadlarımızın əqli pozğunluğu barədə əfsanəyə demək olar ki, bütün dünyanı inandıra bilmişlər.

Bəzən açıq, bəzənsə üstüörtülü şəkildə deyirlər: barbar tayfaların yüksək inkişaf etmiş sivilizasiya ilə nə əlaqəsi ola bilər? Türklər heç vaxt ilk bəşər sivilizasiyasını quran xalqlar arasında olmayıblar. Türklərin tarixi eramızın birinci minilliyindən o yana keçmir.

Türkologiya üçün qadağa sayılan «zaman zonası»ndan qırağa cıxmağımızı həmişə əngəlləyiblər, beynimizə yeridiblər ki, türkün tarixi yeni eradan başlanır,





biz isə XI əsrdə zorla türkləşdirilmiş İrandilli-Qafqazdilli xalqlarıq.

Bizim ola-ola bizim olmayan tariximiz barədə danışmaq mənə həmişə ağır gəlir. Nə yazıq ki, babalarımız bizi türkün türk olduğunu sübut etmək kimi cəfəng bir problem qarşısında qoyublar. Keçdikləri yolu, qazandıqları zəfərləri, ulusun tarixini yazı ilə əbədiləşdirməyə həmişə laqeyid olublar, onun gələcəkdə bizi necə çətin vəziyyətə salacağı üzərində heç düşünməyiblər. Bu ona bənzəyir ki, bütün ömrün boyu halal zəhmətinlə bir xəzinə qazanırsan, amma qazandıqlarının haqq-hesabını aparmırsan. Həyatdan köçəndə isə bu xəzinəni varislərinə tapşırmaq əvəzinə, torpağa basdırırsan. Başqaları bu xəzinəni tapıb öz adına çıxır və halal dədə malı kimi xərcləyir.

Türklər qələm tutmaqda heç vaxt usta olmayıblar, onlar döyüşdə, qılınc çalmaqda usta olublar. Dədələrimiz düşmənə qarşı nə qədər güclü, cəsarətli sayılırdılarsa, zamana qarşı mübarizədə bir o qədər aciz və əliyalın idilər.

Məhz bu üzdən indi tarixin amansız axınına qarşı üzməyə, «Biz kimik, haradan gəlmişik və hara gedirik?» suallarına iynə ilə gor qaza-qaza cavab axtarmağa məhkum edilmişik.

Mən bu sətirləri yazarkən iki min yeddinci ilin baharında baş verən bir əhvalatı xatırladım. Günortadan xeyli keçmiş qapımızın zəngi çalındı. Orta yaşlı, saçları çallaşmış nurani bir kişi mənimlə görüşmək istəyirdi. Tanımasam da qapını açdım və içəri dəvət

etdim. Qonaq elə ayaq üstəcə gəlişinin səbəbini izah elədi:

– «Azərbaycan» qəzetində sizin yazınızı oxudum. Bununla bağlı yanınınza məsləhətə gəlmişəm.

Həmin dövrdə kitabın bəzi fəsilləri həqiqətən «Azərbaycan» qəzetində çap olunmuşdu. Qonaq (mən onun adını qəsdən çəkmək istəmirəm) çay içə-içə söhbətinə davam elədi:

– Siz çox doğru yazmısınız, Azərbaycan torpağının altı da qızıldı, üstü də. Sadəcə, bundan bizim xəbərimiz yoxdu. Bilirsiniz, vaxtilə Mədrəsə kəndində ermənilər yaşayırdı. Üç-dörd ləzgi ailəsindən, bir də aqronom Yusifdən başqa bu kənddə olanların hamısı erməni idi. Elə Yusifı də erməni saymaq olardı, çünki arvadı erməniydi, özü də həmişə ermənicə danışırdı.

Burda çoxlu dostlarım vardı, özünüz bilirsiniz, ermənilər qılığa girməyi dünyada hamıdan yaxşı bacarırlar. Bir dəfə Armais məndən xahiş etdi ki, ara, bizi Giceti dağına apar, peşman olmazsan. Əslində bu dağın adı Keçget dağıdır, görünür yasaq yer olduğundan oraya getmək qadağanmış. Elə sovet dövründə də bu dağa icazəsiz getmək olmazdı, çünki orada hərbi hissə yerləşirdi.

Soruşdum, xeyirdimi, a Armais?

– Xeyirdir – dedi. Sənin tanışların çoxdu, icazə al, dalında işin olmasın.

İsrar elədim ki, dağa getməkdə məqsədin nədir? Çox tərəddüddən sonra boynuna aldı ki, dağda xəzinə var, təxminən yerini də bilir. «İcazə al, gedib tapaq, – dedi, – səninlə yarı bölək». Gülüb qayıtdım ki, a başı batmış, olmaya baban Vahan kişi qızıllarını orada basdırıb?

– Ara, a gic musurman – dedi Armais, – mənim babam yox ey, sənin baban qızıllarını orada basdırıb. Şirvan şahlarının xəzinəsi var o dağda.

Güldüm və inanmadım. Armais bir neçə dəfə onu həmin dağa aparmağımı xahiş etsə də mən boyun qaçırdım. Əvvəla, xəzinə söhbətinə inanmırdım, ikincisi, hərbiçilər dağı möhkəm qoruyurdular. İcazə almaq üçün izahatlar yazmaq, anketlər doldurmaq, arayışlar təqdim etmək lazım idi.

Başınızı çox ağrıtmayım, Armaisi birtəhər başımdan elədim və bu söhbəti birdəfəlik unutdum. Ancaq doxsan ikidə baş vermiş bir əhvalat məni təzədən o illərə qaytardı.

Uzaq bir qohumum var, ekskavatorçu işləyir. Kəndimizin çobanı ərazidəki quyunun üstünə qoyulmuş ağır daşı qaldırıb quyunu təmizləməyi ondan xahiş edir. Qohumum daşı qaldırır, quyudan torpağı çıxaranda əvvəlcə rəngli qadın saçına rast gəlir. Ekskavatordan düşüb quyunu ehtiyatla qazır, əlinə üç qiymətli vaza keçir. Bu vazalardan birinin içində sikkəyə bənzəyən, üstü yazılı 16 qızıl, birində üstü nazik qızıl sapla bağlanmış dörd hissəli xəritə, birinin içində isə qızıl alma varmış. Qohumum nağıl edir ki, təsadüfən almanın saplağına toxundum, o, dörd yerə ayrıldı, ortasında güclü işıq saçan qara daş vardı.

Ekskavatorçu bu sirri düz iki il hamıdan gizlədir. Vazaları bazarda satır, qızılın üstündən iki sikkə götürüb qalanlarını alma ilə bir yerdə anasına verir ki, gizlətsin. Arvad da bu əşyaları torbaya doldurub evin tavanından asır. Qohumumun dediyinə görə anası xəstələnib ölməmişdən bir qədər əvvəl torbanı götürüb yerini dəyişir və bundan sonra torba bir daha tapılmır. Ekskavatorçunun dediyinə görə qızılları guman gələn hər yerdə axtarır, tavanı sökür, bağçanı qarış-qarış eşir, künc-bucaqları qazır. Torbanı tapa bilmir ki, bilmir. Ekskavatorçu xəritənin itdiyini söyləsə də açığı mən buna inanmadım, çünki o, yanıma gələndə xəritəni çox dəqiqliklə kağıza köçürə bildi. Deyirdi bu xəritəyə o qədər baxmışam ki, hər şey hafizəmdə qalıb. Amma məncə o, xəritəni mənə etibar etmirdi, ya da itirəcəyindən qorxurdu. Bəlkə heç qızılları da itməmişdi, məni azdırmaq üçün uydurmuşdu bu əhvalatı. Dəqiq bilmirəm, xülasə, biz heç kəsə bir kəlmə demədən düz on iki il bu xəritənin üzərində işlədik, təsvir olunan ərazini qarış-qarış öyrəndik. Bilirsiniz nə qədər həyəcanlı, əzabverici işdi? Hiss edirsən ki, ayaqlarının altında bütün taleyini dəyişə bilən bir xəzinə yatır. Sən ona yaxınsan, əlini uzatsan çatar, amma torpaq öz sirrini açmır ki, açmır.

Xəritəni hazırlayanlar coğrafiyanı, astronomiyanı, riyaziyyatı dərindən bilirlərmiş. Xəritədə açar rolunu oynayan bir ərəb sözü tez-tez təkrarlanır, romb şəkilli ərazi və onun relyefi təsvir olunur. 110 və 220 dərəcə bucaq altında keçən xətlər müəyyən bir nöqtədə kəsişirlər. Biz həmin kəsişən nöqtəni tapmağa çalışırıq və güman edirəm ki, buna çox yaxınıq.





Xəritədə bürclər müəmmalı şəkildə təkrarlanır. Müşahidə etmişik ki, oğlaq bürcü zamanı, dekabr ayında günəş düz bu dağın tuşundan çıxır...

Uzun söhbətin sonunda mən qonaqdan soruşdum:

– Bütün bunları mənə niyə danışırsınız?

Qonaq əvvəlcə döyükdü, sonra səsini bir qədər də alçaldıb sualıma belə cavab verdi:

– Başa düşmürsünüz, söhbət çox böyük bir sərvətdən gedir. Öyrənmişik, həmin dağda həqiqətən Şirvanşahların xəzinəsi gizlədilib. Xəzinədə Ənuşirəvanın heç bir pulla ölçüyə gəlməyən qızıl taxtı, çoxlu ləl-cəvahirat, ən başlıcası, zəngin kitabxana olmalıdır.

– Qardaş – dedim – varsa tapın. Mənim bütün bunlarla nə əlaqəm?

Nəhayət ki, bir saatlıq söhbətdən sonra qonaq əsil mətləbin üstünə gəldi:

–İşbazlar xəzinədən xəbər tutublar. Necə, nə yolla bilmirəm, ancaq indi həmin yerləri bir nəfər nüfuzlu adam satın alır. Çox güman ki, tarixilik baxımından dəyərli bir arxeoloji tapıntı it-bata düşüb məhv ediləcək. Axı orda bizim tariximiz yatır! Xahiş edirəm bizə kömək edin!

– Bəs bu sirri on iki il gizlədəndə niyə tariximiz yadına düşmürdü? O işbazdan sənin nəyin yaxşıdı ki?

Qonaq mənim bu sərt təpkimi gözləmirdi. Heyrətlə üzümə baxdı və heç nə demədən yavaşca ayağa qalxıb qapıya sarı yönəldi. Mən onu saxlamadım.

O bahardan bir neçə bahar ötsə də mən bu əhvalatı xatırlayanda həmişə içimdə bir qış soyuqluğu hiss edirəm. Bəli, bu, bizik, biz beləyik! Torpağın üstündəki nemətlərdən bəhrələnib altındakı sərvətləri görmürük, milli dəyərləri şəxsi maraqlarımıza asanlıqla qurban veririk. Bu günlə yatıb bu günlə dururuq.

Keçmişin zülmətindən incik-incik boylanan tariximiz bu biganəliyə görə bizi bəlkə də heç vaxt bağışlamayacaq.

Sovet dönəmində çox populyar olan bir mahnı vardı: «Hardan başlanır Vətən».

Biz Vətənin haradan başlandığını bilirikmi?

Vətəni tanımaq üçün gərək onun keçmişini öyrənəsən. Keçmişi öyrənmək üçün gərək əvvəlcə min illərin o biri ucunda dayanan Torpağın, Yurdun, Kişilərin taleyini, keçib gəldikləri əzablı, məşəqqətli yolları ipə-sapa düzüb Tarixə göndərəsən. Təssüf ki, bu günəcən Tariximizi özgələr yazıblar. Bilərəkdən, ya bilməyərəkdən adımızı, bioqrafiyamızı dəyişiblər.

Ata yurdumuzu, gerçək tariximizi unutdurmağa çalışıblar. İndi yeni Tariximizi yaratmaq kimi çətin və müqəddəs işi biz özümüz, sən, mən, o – hamımız bir yerdə görməliyik. Çünki tarix bakirə qız kimidir, ona yad nəfəsi dəyəndə kirlənir.

Tarix ana laylasıdır, gərək uşaq doğulduğu gündən beşiyinin başında çalınsın. Tarix ürəkləri ehtizaza gətirən həzin nəğmə kimidir, onu hamı əzbər bilməlidir, onu hamı oxumağı bacarmalıdır!





Vaxt-zaman bizi vadar edir ki, əldə olan məlumatları toplayıb bir daha saf-çürük edək, yad başların, yad qələmlərin güclü təsirindən yaxa qurtarıb Tariximizə yeni gözlə baxaq.

Gənc dost! Bu kitab Sənə ünvanlanıb. Tarixini diqqətlə öyrən ki, «tarixi olmayanın gələcəyi də yoxdur». Şəcərəni bilməsən, soy-kökünü tanımasan, əcdadlarının keçdiyi yollara boylanmasan, heç vaxt həyatda layiq olduğun yeri tapmayacaqsan. Bəşər sevgisinin ən birinci ünvanı Vətəndir. Vətən məhəbbəti dünyadakı bütün məhəbbətlərin ən təmizi, ən gözəli, ən müqəddəsidir.

Sən bu dünyada hər şeyi unudub tək bircə dəfə ulu torpağın, bu torpağın uğrunda canını fəda edən əcdadların barədə düşündünmü? Türk adının doğurduğu vəcddən, qürurdan, əzəmətdən heç olmasa bircə dəfə canına üşütmə düşdümü, gözlərin yaşardımı, için-için, yanıqlı-yanıqlı hönkürüb ağladınmı?

Boz çöllərimizdən, yovşanlı düzlərimizdən, sərin meşələrimizdən keçib, diş göynədən zümzüməli bulaqlarımızdan su içdinmi? Bahar yağışları boynunaboğazına doldumu, üz-gözünü islatdımı? Yurdumuzun təkrarsız gözəlliyindən öləsiyə ləzzət aldınmı?

Üstündə laqeyd-laqeyd gəzdiyin bu Torpağın sinəsinə çəkilən çalın-çarpaz dağlardan xəbərin varmı?

Ulu babalarının bir vaxtlar bütün dünyaya meydan oxuyan necə möhtəşəm dövlətlər qurub sənə ərmağan etdiklərini bilirsənmi?

Aratta – qədim Şumerlə cəngə çıxmağa cəsarət eləyən ən ilk Azadlıq qalamız!

Lullubi – haqqında çox az şeylər öyrəndiyimiz cəsur kişilərin sirli dünyası!

Subar – qədim Mesopotamiyada adı kimi özü də bir müəmma olan «müqəddəs yer-su», Şumer dilinə, Şumer mədəniyyətinə təsir etməyi bacaran yerli xalqın qurduğu Kİ.EN.QİR, Ölkə!

Quti – İkiçayarasına 91 il hökmranlıq eləyən yeddi çarın, yeddi cəsur, igid qardaşın yaratdığı tarixdə ilk federativ dövlət.

Turukku – Şumerin zəifləməsindən sonra hakimiyyət uğrunda savaşa atılan və ilk dəfə türk adını gerçəkləşdirən tayfa birləşmələrinin qurduqları möhtəşəm diyar!

Zamua, Manna, Midiya, Sakasin, Atropaten, Albaniya... Bu müxtəlif adlar altında bir xalqın, bir millətin, bir ölkənin, bir dövlətin tarixi gizlənib. Amma bu tarix hələ yazılmamış kitabdır, onu Sən, yetişməkdə olan gənc tarixçilər nəsli yazacaq.

Gənc dost! Üzünü öz Tarixinə döndər ki, sən də bu Tarixin bir parçası olasan.





## II FƏSİL

## TÜRKÜN BAŞLANĞIC NÖQTƏSİ: İŞIQDAN QARANLIĞA

9455

Dünyada hər bir kəsin mütləq öz kimliyi (pasportu) vardır. Bu kimlikdə onun şəxsiyyətini müəyyənləşdirən bütün faktlar göstərilir: adı nədir, atası, anası, babası kimdir, neçənci ildə, harada doğulub, gözünün rəngi, boyu, qan qrupu və s.

Hər bir millətin də öz kimliyi olur; bu kimliyi tarixçilər yazırlar: bu millət harada doğulub, necə formalaşıb, hansı irqə mənsubdur, soybabası, erkən etnosu kimdir. Yəni hər bir millət mütləq öz keçmişini öyrənməlidir, çünki "keçmişi olmayanın gələcəyi də yoxdur".

Türklərin keçmişi ilə bağlı informasiyalar dolaşıq və ziddiyyətlidir. Xalqın kökü, Başlanğıc nöqtəsi, ilk əcdadı barədə demək olar ki, heç bir tədqiqat işi aparılmayıb. Ara-sıra ortaya çıxan araşdırmalar isə problemi aydınlatmaq əvəzinə bir qədər də qəlizləşdirib.

Əvvəllər məsələni çətinə salan elmi yanaşma üsulu ilə bağlı idi. Təkamül nəzəriyyəsini ortaya atanlar iddia edirdilər ki, xalqlar ayrı-ayrı bölgələrdə, ayrı-ayrı zamanlarda, müstəqil şəkildə, bir-birlərindən xəbərsiz yaranıblar.

Eramızdan əvvəlki birinci minillikdə səmavi kitab olan Tövratın iddiaları dünyanı bir-birinə qarış-



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

dırdı. Tövrat yazırdı ki, bəşər övladı bir Atadan və bir Anadan doğub törəyib. Bu, o deməkdir ki, irqindən və dərisinin rəngindən, yaşadığı bölgədən asılı olmayaraq bütün insanlar eyni qandan və eyni kökdən gəlirlər. Təbii ki, bütün mövcud nəzəriyyələri vurub dağıdan bu ideya dərhal rədd edildi və iki min il ərzində yaxına buraxılmadı. Lakin on doqquzuncu yüzilliyin ortalarına doğru qədim Mesopotamiya xarabalıqlarından əsrlərin toz-torpağı altında qalmış möcüzəli «gil kitabə»lər tapıldı. Bu kitabələrdə inanılmaz hekayətlər nağıl olunurdu və bu «nağıllar» Tövratın yazdıqları ilə üst-üstə düşürdü: müasir insan 270 min il əvvəl Afrikada, bir Atadan və bir Anadan dünyaya gəlib. Bu gün homo sapiens adlandırdığımız bu insan onu yaradanlara, «göydən gəlmiş» dinqirlərə bənzəyirdilər. Homo sapiens çox sürətlə çoxalıb artmağa başladı. Onlara özləri kimi qəribə ad verilmişdi: qarabaş.

Qarabaşların uzun, yorucu və mürəkkəb tarixi barədə "Şumer kilidi"ndə ətraflı söhbət açmışıq. Yəqin ki, sonrakı fəsillərdə də bu məsələyə dönə-dönə, təkrar-təkrar qayıtmaq lazım gələcək. Mövzumuz gərəyincə təkcə onu deyək ki, əgər bəşər övladını nəhəng Həyat Ağacına bənzətsək, onun kökləri «gəlmələr», dinqirlər olacaq. Sonra bu köklərin üstündə vahid bir gövdə ucaldı – qarabaşlar. Dinqirlərlə eyni dildə danışan və bir tayfa halında yaşayan, israrla, fərq qoymadan özünə qarabaş" deyən bu insanlar, sonra müxtəlif səbəblər üzündən dünyanın dörd bir guşəsinə səpələndilər.





Beləliklə, gövdədən budaqlar ayrıldı. Zaman keçdikcə hər budağın üstündə də yeni budaqlar yaranırdı. Tədricən, yüzilliklər, minilliklər ərzində tayfalaşma dərinləşdi, yeni-yeni tayfa birləşmələri əmələ gəldi və bəşəriyyətin siması tamam dəyişdi.

Şumer mətnlərinə söykənən Tövratın yazdığına görə, Yer üzündə yaşayan bugünkü insanlar Noyun (Nuhun) üç övladından törəyib artmışlar. Tövratda bu üç budaqdan törəyən şəcərələr barədə müfəssəl söhbət açılır. Avropalılar bu üç budağı "dünyanı çiyinlərində saxlayan üç sütun" adlandırırlar.

Professor F.Cəlilovun da qeyd etdiyi kimi, Tövratda xalqların şəcərəsi etnik qohumluqdan daha çox siyasi-coğrafi duruma uyğunlaşdırılıb. Ona görə də əslində nə etnik, nə dil baxımından qohum olmayan xalqları eyni qrupa salmışlar. Fürsətçilər, xüsusən də yunanlar və ermənilər bundan məharətlə istifadə edərək sonralar Tövratın üzünü köçürəndə bura öz soykökləri sandıqları adları da artırmışlar. Bəzən bir "kökə" bir neçə xalq sahib çıxmışdır. Nuhun nəticəsi hesab edilən Qamərin oğlu Toqarma əslində Anadoludakı Malatya bölgəsinin qədim adıdır. Gürcü tarixçiləri ona Tarqomas, erməni tarixçiləri Torqom, yəhudi dininə tapınan Xəzər xanı İosif isə Toqarma adı verərək, soybabası sanmışlar. Halbuki gürcülər Qafqaz, ermənilər hind-avropa, xəzərlər isə türk dil ailəsinə aiddir.

Başqa bir yanlışlıq barədə F.Cəlilov «Tanrı elçisi İbrahim» kitabında belə yazır: İbrahimin Tövratda Samoğulları şəcərəsində verilməsi, çox güman ki, bir

yanlışlığın nəticəsidir. Çünki Asur və Aramın Samoğulları şəcərəsində sami kimi verilməsi doğru olsa da, Elamı samilərlə bir sırada vermək yanlışdır. Midiya (Mada) hökmdarı Kiaksar (Arbak) da Tövratda İbrahimin ulu soy babası Arpakşad adı ilə əks olunub. Başqa bir yerdə isə Mada Yafəsoğulları şəcərəsinə aid edilir.

Tövrat "bütün bəşəriyyəti çiyinlərində saxlayan üç sütunu" belə sıralayır:

Simin (bütün yəhudilərin atası) şəcərəsi: Elam, Asur, Arpakşad, Lud, Aram.

Xamın (isti, odlu, qaradərili) şəcərəsi: Xuş, Miteraim, Fut (Put), Xanaan (bəzi mənbələrdə Kenan). Bu qoldan Nubiya, Misir, Efiopiya, Liviya və s. ölkələr yaranmışdır.

Yafətin (Yafəs – gözəl, yaraşıqlı) şəcərəsi: Qamər (Qomer), Maqoq, Maday, Yavan, Fuval (Tuval), Meşex, Firas (Tiras).

Məsələni qəlizləşdirən və çətinə salan odur ki, tədqiqatçılar bu şəcərələrdən törəyən xalqlar barədə ən müxtəlif, bəzən daban-dabana zidd fikirlər söyləmişlər. Məsələn, Qərb alimləri bu üç şəcərənin bütün nəsilləri içərisində türkləri görmürlər. Bəzi tədqiqatçılar isə türklərin həm Sim (Sam), həm də Yafəs şəcərəsindən əmələ gəldiyini iddia edirlər. Arpakşad şəcərəsinin səkkizinci budağı olan Avraamın (İbrahimin) üç arvadı olmuşdur. Saradan yəhudilərin, Hacərdən ərəblərin, Qanturadan (Tövratda Ketura) isə türklərin yarandığı söylənilir.





Bu barədə geniş və hərtərəfli tədqiqat aparan görkəmli alimimiz Firudin Ağasıoğlu (Cəlilov) Yafəsoğullarının şəcərəsini bu şəkildə sıralayır:

1. İosif xana görə:

Toqarmanın oğulları: Aviyor (Uyğur), Tiras (Tirs), Avaz (Avar), Uquz (Hun), Basil (Barsil), T-r-na (Tarna), Xəzər, Yanur (Zaqora), Bulqar, Savir.

2. Əbü-l Qaziyə görə:

Türk (=Yafəsoğlu), Xazar, Saklab, Rus, Min (Minq), Çin, Kəməri (Kimari), Tarix.

Tarixoğulları: Tütək, Cigil, Bersaçar (Bersaçak), Emlak.

Tütəkoğulları: Amulca, Bakuy Dibxan, Gökxan, Alıncaxan, Moğol (Tatar).

Moğoloğulları: Qaraxan, Gürxan, Qırxan, Urxan.

3. M. Kalankaytukluya görə:

Qamer (Qamərlər), Maqoq (Keltlər, qalatlar), Maday (Madlar), Yavan (yunanlar), Tobel (fessallar), Mosoq (illiriyalılar), Tiras (trakiyalılar), Kedin (makedonlar).

M.Kalankaytuklu Qafqaz albanlarının bir hissəsinin Yafəsoğullarından olan Kedardan törədiyini, başqa bir hissəsinin isə Sisaqın nəslindən olan Aranın adıyla adlandırıldığını güman edir.

Fikir rəngarəngliyi göz qabağındadır. Türklərin yaranış tarixi, Başlanğıc nöqtəsi barədə alimlər ən müxtəlif rəylər söyləmişlər. Məsələn, Təbəri yazırdı ki, "Türk və xəzərlər Tireş (Tiras) oğullarındandır. "Türk tarixçilərinə və yüyrək dilli salnaməçilərə" istinad edən Rəşid əd-Din Fəzlullah iddia edirdi ki, "Nuh

(Allah ona rəhmət eləsin) Yer üzünün adamlarla zəngin olan hissəsini oğlanları arasında böləndə Doğu ölkələrini, Türküstanı və ona yaxın yurdları böyük oğlu Yafəsə verdi. Yafəs, türklərin təbirincə desək, Olcay ləqəbini aldı".

Bu necə olur, əgər xalqlar və millətlər Nuhun oğlanları Simdən, Xamdan və Yafəsdən törəyibsə, Nuh Türküstanı böyük oğluna nə cür verə bilərdi? Məntiqlə gərək Türküstan deyilən torpaq Yafəsdən sonra yaradılaydı.

Rəşid əd-Din Fəzlullaha görə Dib Yavku Nuhun şəcərəsindən olan Yafəsin (Olcayın) oğludur. Dib Yavku xanın da dörd oğlu olmuşdur: Qaraxan, Orxan, Kürxan və Küzxan. Təəssüf ki, Rəşid əd-Dinin şəcərə siyahısı nə Tövratın, nə də digər tədqiqatçıların verdiyi siyahı ilə düz gəlmir. Həmçinin, Yafəsin Dib Yavku adlı oğlunun olması da başqa qaynaqlar tərəfindən təsdiqlənmir. Digər uyğunsuzluq zamanla bağlıdır. Əksər tədqiqatçılar Dib Yavku xanın e.ə. VIII-VII əsrlərdə yaşadığını güman edirlər. Halbuki Yafəs bundan ən azı 1500-2000 il əvvəl doğulmuşdur.

Tanınmış dilçi alim Vaqif Aslanov ərəbdilli qaynaqlarda rast gəldiyi "Bəni-Qantura" (Qanturaoğulları) haqqında örnəklər verib yazır ki, orta əsr ərəb qaynaqlarında türklər haqqında bəhs edilərkən çox vaxt "Bəni-Qantura" deyimi ilə qarşılaşırıq.

Tövratda İbrahimin Sara, Hacər və Ketura (Qantura) adlı xanımlarından bəhs olunur. Tövratın türkcə və rusca tərcüməsində İbrahimin üçüncü arvadının





adı müvafiq olaraq Ketura və Xettura şəklində verildiyi kimi, oğlanlarının adları da fərqlidir.

"Və İbrahim başqa bir qadın aldı və onun adı Ketura idi. Və ona Zimrani və Yoşkanı və Medanı və Midyanı (Madian) və Yişbakı (İşbak) və Şuahı (Şuax) doğurdu. Yişbak Şebanın (Şevanın) və Dedanın babası oldu. Dedanın oğulları Aşurum və Letuşim və Leumim (Leyumim), Midyanın oğulları Eyfa və Efer və Hanok (Xanok) və Abida (Avida) və Eldaa (Eldaq) idilər. Və bunların hamısı Keturanın oğulları idi".

İslam qaynaqları İbrahimin Qanturadan olan övladlarını türklərlə bağlayır. Bir hədisdə belə kəlamlar var: "Hz.Peyğəmbər (s) buyurmuşdur: "Türklər sizə toxunmadıqca, siz də onlara toxunmayın. Zira, Qanturaoğulları Allahın ümmətinə verdiyi mülk və səltənəti əllərindən çəkib alacaqlar".

Beləliklə, türklərin yaranış tarixi, Başlanğıc nöqtəsi ilə bağlı bir neçə ehtimal ortadadır. Bunlardan ikisi xüsusilə diqqət çəkir: birincisi, türklər Yafəsoğullarından törəyiblər, ikincisi, Qanturaoğullarından əmələ gəliblər.

Göründüyü kimi, Yafəsoğulları kişi şəcərəsindən, Qanturaoğulları isə qadın şəcərəsindən törəmədir. Avraam (İbrahim) e.ə. 2123-cü ildə anadan olmuş (bu tarix müxtəlif mənbələrdə e.ə. XVIII, e.ə. XIX, e.ə. XX əsr kimi dəyişkən rəqəmlərlə göstərilir), bir versiyaya görə, 99 yaşında, yəni e.ə. 2024-cü ildə Qantura ilə evlənmişdir. Qantura İbrahimin üçüncü arvadı olduğundan bu qoldan türk şəcərəsinin yaranması təxminən e.ə. 1970-1960-cı illərə və bəlkə də

bir qədər sonraya təsadüf edəcəkdir. Halbuki həmin çağlarda artıq türk tayfalarının mövcud olduğu tarixi bəlgələrlə sübut edilmişdir. Deməli, Qantura Yafəsoğullarından törəmiş türk hökmdarının qızı ola bilərdi. Əgər belədirsə, onda türklərin qadın şəcərəsi kişi şəcərəsinə nisbətən daha cavandır. Ancaq məsələnin başqa bir tərəfi də vardır. Uzun yüzilliklərdən bəri davam edən gələnəyə görə soy-kök ata ilə bağlıdır, bu anlamda Qanturaoğulları türklərin soybabası deyil, qadın tərəfdən nəslin davamçıları olacaqdır. Bəzi faktları nəzərə alsaq, bu ehtimalın özü də xeyli şübhə doğurur.

Əvvəla, "arvadoğlu" deyimi türk üçün təhqirdir, ləyaqətin alçaldılmasıdır, aşağılayıcıdır. Bu gələnək indi də belədir, min illər əvvəl də belə olmuşdur. Bəlkə ərəb tədqiqatçıları bu adı türkləri hörmətdən salmaq üçün veriblər? Güman etmirəm. Əgər belə olsaydı, Məhəmməd peyğəmbər (s) və orta əsr ərəb salnaməçiləri türklər haqqında öykü ilə danışmazdılar. İkincisi və ən başlıcası, tariximizin ensiklopediyası sayılan "Kitabi-Dədə Qorqud"da Qanlı Qoca oğlu Qanturalıdan bəhs olunur. Fikir verdinizsə, Qanturaoğlundan deyil, məhz Qanturalıdan. Bildiyimiz kimi, Azərbaycan türklərində "lı, li, lu, lü" şəkilçiləri yer, məkan bildirmək üçün işlədilir. Məsələn, gəncəli, şəkili və ya kürdəmirli kimi. "Kitab"a görə Qantura qadın adı deyil, yer adıdır. Çox güman ki, Qantura Tövratdakı Keturanın tələffüz forması deyildir, bizim bilmədiyimiz, hələ tanımadığımız torpağın, ərazinin adıdır.





"Qantura"nın başqa bir təfsiri də mövcuddur. Fars əfsanəsində Feridunun üç oğlu olduğu göstərilir: Salm, İrəc, Tur. Ölkələr bölüşdürüləndə Feridun türk ellərini kiçik oğlu Tura verir, yəni farslara görə Tur bütün türklərin soybabasıdır. "Qan" bir çox tədqiqatçılar tərəfindən "yer, torpaq, məkan" bildirən söz kimi təqdim olunduğuna görə bu terminin "Tur (türk) torpağı" olduğu aydınlaşır və bu baxımdan Qanturaoğullarının "türk torpağının oğulları ola biləcəyi daha inandırıcı görünür. Lakin bu termin ümumiləşdirici məna daşıdığına görə türklərin yaranış tarixini, Başlanğıc nöqtəsini, soybabasını müəyyənləşdirməyə imkan vermir.

Ərəb salnaməçilərinə görə, Oğuz türkləri Yafəsin (Abulca-Olcay) soyundan törəmişlər. Yafəsin Elbesisə adlı qadınla evləndiyini deyən Təbəri iddia edir ki, yəcuc-məcucların (skitlərin) atası Yafəsin böyük oğlu Qamərdir. Qamərin Təbəristandakı Dümbavənd dağında uzun ömür yaşadığını vurğulayan tarixçi yazır ki, "Ərəb olmayan boylardan doğulan hökmdarların əksəriyyəti xəzər, türk və başqaları kimi, Yafəsoğullarından törəmədir".

Bu fikri bir çox Azərbaycan alimləri də dəstəkləyir. Onda belə çıxır ki, türklərin yaranış tarixi, Başlanğıc nöqtəsi Nuhun böyük oğlu Yafəs və Yafəsin böyük oğlu Qamərdir. Lakin sonrakı bölümlərdən də görəcəyimiz kimi, Nuh şəcərəsinin bəşəriyyəti çiyinlərində saxlayan "üç sütun" obrazında qəbul olunması tarixi həqiqətdən daha çox mifologiya məntiqinə bağlıdır. Nuhun hekayətində zaman və məkan anlayışı

daha çox şərti anlam daşıdığı üçün əslində doğrunun harada, yalanın harada olduğunu ayırd etmək çox çətindir.

Amma problemin başqa bir yönümü də vardır, Tövratı ələk-vələk eləyən və onun məlumatlarına şübhə ilə yanaşan dünyanın bir çox tanınmış alimləri sonda etiraf etməyə məcbur olmuşlar ki, bu nadir kitabın səhifələrində yer alan bütün fantastik əhvalatların arxasında mütləq tarixi həqiqət durur. Sadəcə bu ziddiyyətlərdən və mifoloji şərtiliklərdən yan ötərək həqiqəti axtarıb tapmağı bacarmaq lazımdır.

Elə biz də bu yolla getməyə çalışacağıq. Beləliklə, Tövratın məntiqinə görə, e.ə. iki mininci ilin lap başlanğıcında Yafəsin oğlu Qamərdən törəyən ilk türklər və onların nəvə-nəticələri sonrakı yüzilliklər boyunca sürətlə artdı, tayfalaşdı və tarixin müəyyən zaman kəsiyində bu tayfalardan yeni-yeni ləhcələr ayrıldı, zaman-zaman bu tayfalardan gah biri, gah da digəri göydə şimşək kimi çaxaraq parladı, öz nurunda dünyanı da aydınlatdı.

Bəs real tarix olaraq türkün Başlanğıc nöqtəsini harada axtarmaq lazımdır? Bütün atalarımızın ulu Atası, bütün analarımızın ulu Anası kimdir, türkün həqiqi tarixi hansı dönəmdən başlanır?





## III FƏSİL

## ERKƏN TÜRKLƏR. ONLAR KİMDİR?

Tariximizin başqa bir önəmli məqamı prototürklərin – erkən türklərin müəyyənləşdirilməsidir. Ziddiyyətlər və höcətləşmələr bizim üçün çox vacib olan bu sahədən də yan ötməyib. Bəzi Azərbaycan alimləri lulluları, qutiləri, suları prototürklər, yəni erkən türk tayfaları hesab edirlər. Başqa bir qrup alim isə qədim Azərbaycan ərazisində yalnız Qafqazdilli və İrandilli tayfaların yaşadıqları ehtimalını irəli sürür. Üçüncü qrup alimlər bu iki mövqe arasında "qızıl orta axtarır, Azərbaycan ərazisində həm prototürklərin, həm də müxtəlif etnik qrupların yanaşı yaşadıqlarını iddia edirlər. Məsələn, professor İ.Məmmədov yazır: "Bu məsələnin qiymətləndirilməsində, xüsusən də materialın kasadlığı şəraitində qəti fikir söyləmək, hər hansı versiyanı tamamilə rədd etmək, xüsusən də antik dövrdə ərazimizdə prototürk tayfalarının qətiyyən olmadığını iddia etmək düzgün olmazdı. Şübhəsiz, əhali etnik və dil baxımından rəngarəng idi. Biz hesab edirik ki, başqa tayfaların rolunu danmadan prototürk tayfaların antik dövrdə də ölkəmizin etnik-dil səhnəsində mühüm rol oynaması fikri həqiqətdir".

Kim haqlıdır?

Fikrimizcə, bu məsələdə problemin qoyuluşu ilə onun həlli metodları arasında bir ziddiyyət, bir uyğunsuzluq vardır. Erkən türk tayfalarını müəyyənləşdir-

məyə çalışan tədqiqatçılar nədənsə onları təkcə Azərbaycan ərazisində axtarırlar. Halbuki türkün ilkin Vətəni, Ata yurdu heç də təkcə Azərbaycan ərazisi deyildir. Deməli, erkən türklərin yalnız indiki Azərbaycan ərazisində axtarılması kökündən yanlışdır.

Məsələ burasındadır ki, bu gün dünyada onlarla türk tayfası yaşayır və onların hər birinin ayrı-ayrılıqda yaranma tarixi və deməli, erkən etnosu vardır. Lakin söhbət prototürklərdən gedirsə, onda biz bütün türk tayfalarının kökündə duran vahid, ilk, erkən etnosu müəyyənləşdirməliyik.

Fikrimizcə, problemin həllinə yanaşmada ikinci yanlışlıq eyni vaxtda bir neçə tayfanın prototürk olmasını iddia etməkdir. Tarixi inkişaf baxımından bu, sadəcə, mümkün deyildir. Hər bir xalqın bir Başlanğıc nöqtəsi və bir soybabası olduğu kimi, həm də bir vahid kökü, bir erkən tayfası ola bilər, sonrakı tayfalar məhz bu "kökün" üstündə qol-budaq atacaqdır.

Qədim Şumer mətnləri bəşər sivilizasiyasının yaranmasını və inkişafını müasir elmi qənaətlərdən fərqli şəkildə təqdim edir. Şumer mifləri bizi inandırır ki, ilk düşüncəli insan – homo sapiens bu günkü elmin iddia etdiyi kimi, heç də müxtəlif bölgələrdə və bir-birindən asılı olmayaraq meydana gəlməyib, düşüncəli insan göydən gəlmiş dinqirlər («allahlar») tərəfindən yaradılan bir Atadan və bir Anadan doğulmuşdur. Dinqirlər ilk insana Adap, ondan törəyənlərə isə qarabaş adı vermişdilər. Qədim əfsanəyə görə, bu gün dünyada mövcud olan bütün millətlərin kökündə eyni atadan və anadan doğub törəyən qarabaşlar dayanır.





Bu ideyanın əleyhinə çıxanlar çoxdur, lakin onun doğruluğuna inananların sayı da hər il sürətlə artmaqdadır. Son illərin elmi tədqiqatları sübut edir ki, irqindən, dilindən və yaşadığı bölgədən asılı olmayaraq bütün xalqlar həqiqətən eyni kökdən, yəni bir Atanın və bir Ananın hüceyrəsindən əmələ gəlmişlər. Bu isə o deməkdir ki, əslində, bütün millətlər bir Həyat Ağacının müxtəlif qol-budaqlarıdır. Deməli, biz vahid kök üzərində ucalan ilk türk budağını, tarixin ən alt zaman qatında formalaşan erkən türk etnosunu müəyyənləşdirməyə çalışmalıyıq. Problem heç də sadə deyildir və onun «bir zərbə ilə» həll ediləcəyini düşünmək sadəlövhlük olardı. Bir halda ki, bəşəriyyətin kökündə vahid bir tayfa – qarabaşlar durur, o zaman irqi və milli cizgiləri bəlirləyən və irsi yolla keçən fiziki xüsusiyyətlər yalnız təkamül yolu ilə mümkün ola bilərdi. Amma professor F.Ağasıoğlu (F.Cəlilov) yazır ki, «...dünyada qatışıq olmayan, saf irqi təmsil edən etnos yoxdur. Bir uşaq iki adamın (ata-ananın) törəməsi olduğu kimi, hər hansı bir etnos da ən azı iki irqin qatışığından yaranmışdır».

Professor F.Ağasıoğlu hər hansı bir etnosun formalaşmasında ən azı iki irqin iştirak etdiyini deyir. Bəs türk etnosu hansı irqlərdən yaranıb? Bu günə qədər türk xalqlarının hansı irqə mənsub olması barədə dolğun, sanballı, inandırıcı tədqiqat işləri aparılmayıb. Bu da ondan irəli gəlir ki, Azərbaycanda antropologiya elmi çox zəif inkişaf etmişdir, bu vacib sahəyə heç vaxt lazımi diqqət ayrılmamışdır. Antropoloqlar Q.Debetsin, R.Muğanlinskinin vaxtilə apardıqları işlər yarımçıq qalıb.

Gəlin əvvəlcə "irq"in nə olduğunu aydınlaşdırmağa çalışaq. 1985-ci ildə Moskvada nəşr olunan "Sovetskiy Ensiklopediçeskiy Slovar"ın 110-cu səhifəsində yazılır: "İnsan irqi vahid kökdən yaranmasına, irsi yolla keçən fiziki xüsusiyyətlərinə və ilkin yayılma vəziyyətinə görə müəyyənləşdirilir. Rasist nəzəriyyəsinin əksinə olaraq, dərinin rəngi, göz, saç, kəllə sümüyünün forması, bədənin uzunluğu və s. ikinci dərəcəli rol oynayır. Üç əsas insan irqi fərqlənir: neqroidlər, avropoidlər, monqoloidlər".

Sovet alimləri türkləri monqoloid irqə aid edirdilər. Lakin iyirmi il sonra yenə Moskvada çap olunan digər bir kitabda, "Tolkovıy slovar russkoqo yazıka" lüğətində irqin təfsiri yeni çalar almışdır. "İrq vahid kökdən yaranaraq irsi yolla keçən fiziki xüsusiyyətlər (dərinin rəngi, göz, saç, kəllə sümüyünün forması və s.) əsasında və ilkin yayılma vəziyyətinə görə tarixən formalaşan insan qruplarıdır".

İyirmi il ərzində mütəxəssislərin fikri niyə bu qədər dəyişmişdir? Əslində dəyişən bir şey yoxdur, sovet dövründəki açıq-aydın yanlış və saxta nəzəriyyə dünyanın qəbul etdiyi sərhədlərə gətirilmişdir. Sovet mütəxəssisləri bir tərəfdən "irsi yolla keçən fiziki xüsusiyyətləri" insan irqinin formalaşmasında başlıca komponentlərdən biri kimi təqdim edirdilər, o biri yandan isə iddia edirdilər ki, dərinin rənginin, saçın, gözün, kəllə sümüyünün formasının heç bir əhəmiyyəti yoxdur, bu, rasist nəzəriyyəsidir.

Doğrudan da, millətləri ari və aşağı irqə bölən rasist nəzəriyyəsinin mahiyyəti insanların fiziki və





psixi cəhətdən qeyri-bərabər qruplara bölünməsi, bəşər cəmiyyətinin mədəni-tarixi inkişafında onların oynadıqları həlledici təsir barədə siyasətə geniş meydan verməkdən ibarət idi. Guya birincilər Yer üzü sivilizasiyasının vahid yaradıcıları olduqları üçün hakim mövqe tutmalıdırlar, ikincilər isə yüksək mədəni inkişafı nəinki yaratmağa, hətta onu axıradək mənimsəməyə qadir olmadıqları üçün aşağıda durmalıdırlar. Bu nəzəriyyənin banisinin fransız J.A.Qobino olduğu iddia olunur. Əslində bu ideya ilk dəfə Yelena Blavatskaya tərəfindən ortaya atılmışdır.

Sovet dönəmində üzdə bu nəzəriyyəni pisləsələr də əslində həmişə bu yönümlü üstüörtülü siyasət aparılmışdır. Türklərə münasibət bunun ən bariz nümunəsidir. Sovet dövründəki "irq nəzəriyyəsi" ziddiyyətli idi, məgər ensiklopediyanı hazırlayan görkəmli mütəxəssislər bunu görmürdülər? Əlbəttə, görürdülər, amma onlara belə yazmaq əmr olunmuşdu. Bu saxta konsepsiyanın başlıca mahiyyəti türkləri dar "monqol qəlibinə" soxaraq onları Ata yurdlarından ayırmaqdan, "ilkin yayılma vəziyyətinə" görə Orta Asiyaya pərçimləməkdən ibarət idi. Türk tayfalarının fərqli fiziki xüsusiyyətlərə malik olmaları, onların Orta Asiyaya qərbdən, İkiçayarasından köç edə biləcəkləri ehtimalı bu "nəzəriyyəni" yaradanların heç vecinə deyildi. Türkləri hansı yolla olursa-olsun sıxışdırmaq, kökündən ayırmaq və təkləmək göstərişi verilmişdi, etiraf edək ki, bu siyasi sifariş peşəkarcasına olmasa da, böyük məharətlə yerinə yetirilirdi.

Sovet dönəmində türklər barədə çoxcildli monoqrafiyalar yazılırdı. Bu, istəyin, türklərə məhəbbətin nəticəsi deyildi. Bu əsərlərin başlıca məqsədi türklərin real tarixini "elmi şəkildə" təhrif etmək, onların Orta Asiya kökənli olmasını "sübuta yetirməkdən" ibarətdi. Türk tayfalarının fərqli fiziki xüsusiyyətlərini heç cür izah edə bilməyən sovet tarixçiləri L.Qumilyovun simasında əla "çıxış yolu" tapdılar. Qumilyov iddia edirdi ki, dünya mədəniyyətinə tufan kimi daxil olan cəsur və döyüşkən türk xalqının kökü çoxdan kəsilmişdir. Qumilyova görə, bu gün özünü türk adlandıranların bu cəsur və döyüşkən xalqla heç bir əlaqəsi yoxdur, onlar bu adı, sadəcə, mənimsəmişlər.

Ölü türk təhlükəsizdir, deməli, hər cür tərifə layiqdir, diri türk təhlükəlidir, deməli, vəhşi, barbar, qaniçəndir.

Bir irqin formalaşması üçün üç komponent əsas götürülür: vahid kök, irsi yolla keçən fiziki xüsusiyyətlər, tayfaların ilkin yayılma coğrafiyası.

Vahid kökü müəyyənləşdirməkdən ötrü hər bir etnosun, erkən tayfanın irsi yolla keçən fiziki keyfiyyətləri və ilkin yayılma vəziyyəti doğru müəyyənləşdirilməlidir.

Əvvəlcə irqləri bəlirləyən fiziki xüsusiyyətlərə aydınlıq gətirməyə çalışaq. Başlıca olaraq 8 fərqləndirici fiziki xüsusiyyət müəyyənləşdirilib:

1. Saçlar: yumşaq, cod, düz, qıvrım, qara, sarı, qırmızı (xınayı).
2. Gözlər: yaşıl, göy, qara, ala, qıyıq, badamı.





3. Çənə: yekə, kiçik (sivri, yastı).
4. Bədən: qalın və ya seyrək tüklü, tüksüz.
5. Sifət: xırda, uzun, yumru.
6. Kəllə sümüyü: böyük, kiçik, orta, yumru, uzunsov, yastı.
7. Boy: uzun, gödək, orta.
8. Dəri: ağ, qara, sarı, qırmızı.

Kəllə sümüyünün forması irqlərin müəyyənləşdirilməsində çox mühüm rol oynayır. Kəllə sümüyü formasına görə üç qrupa bölünür: braxikefal, dolixokefal, mezokefal.

Yunanca "kefalon" qafa, "dolixos" uzun, "braxos" gödək, "mezos" orta deməkdir.

Antropologiya elmində kəllə sümüyünün ölçüsü 70-88 rəqəmləri arasında götürülür. 76 ölçüdən aşağı olanlar braxikefal, 76-81 arası ölçüdə olanlar mezokefal, 81 ölçüdən yuxarı olanlar isə dolixokefal sayılır.

Türkləri avropoid irqə aid edənlər onları dolixokefal, monqoloid irqə aid edənlər isə braxikefal sayırlar.

Bu gün antropoloqlar beş insan irqi müəyyənləşdiriblər: avropoidlər, neqroidlər, monqoloidlər, avstraloidlər, amerikanoidlər.

İrqlə bağlı ilk təsnifatlaşdırma XVIII əsrdə aparılıb və yalnız dərinin rəngi əsas götürülüb. O dövrün mütəxəssisləri avropalıları ağ, asiyalıları sarı, afrikalıları qara hesab edirdilər. Sonra təsnifat dəyişdi. Neqroidləri qara, monqoloidləri sarı, hinduları qırmızı, avropoidləri ağ dərili saymağa başladılar. Bu təsnifata Avstraliya və Malayziya tipi də əlavə olundu.

Axtarış aparan alimlər bu təsnifata da "düzəliş" etdilər. Hər irqin öz daxili bölgələri müəyyənləşdirildi. Avropoidlərin braxikefal və dolixokefal tipləri üzrə xeyli lokal çeşidlər "ortaya çıxdı". Doğu Baltik, Alp, dinarid, turanidlər braxikefal, teuto-nordik, mediterran, dolo-nordik, taurid, indid dolixokefal tiplər sayılmağa başladı.

Tanınmış turkoloq İ.Rasonyi yazırdı: "Deniker turanid irqə turko-tatar, Hoddon isə turki adı vermişdir".

Bu gün müasir elm bu yanlış bölgüləri qəbul etmir. Söhbətimizin əvvəlindəki suala dönək: türklər hansı irqə aiddir?

Əlyazmasından faydalandığım "Doqquz Bitik" əsərinin müəllifi F.Ağasıoğlu yazır: "Antropoloji irqə dil ölçüsü ilə yanaşmaq olmaz, ayrıca sami irqi, fin-uqor irqi, hind-avropa irqi olmadığı kimi, ayrıca türk irqi də yoxdur. Bu baxımdan türk etnosu bir çox dünya dillərində danışan topluların da daxil olduğu avropoid irqə, azər xalqı da avropoid irqin kaspi çalarlı Aralıq dənizi tipinə aiddir".

Bəri başdan deyim ki, bu nəzəriyyənin çoxlu əleyhdarları olduğu kimi, tərəfdarları da az deyildir.

Bartucz, İ.Rasonyi əksər türkləri, Q.Debets azər və türkmənləri, K.Şahniyazov türkmən-qıpçaqları avropoid irqə, Z.Toğan, V.Bartold, S.Vaynşteyn və M.Kryukov qədim türkləri monqoloid irqə aid etmişlər.

İ.Dyakonov Azərbaycanda yaşayan qədim lulu tayfalarının Aralıq dənizi tipi olduğunu etiraf edir və eyni antropoloji tipdən olan qutilərin müasir Qarabağ





(Şuşa) türklərinə bənzəməsi fikrini irəli sürən fransız antropoloq E.T.Haminin ehtimalını təsdiqləyir.

Antropoloji araşdırmalar onu da göstərmişdir ki, qədim Aralıq dənizi tipin kaspi çalarını daşıyan azər-türkmən xalqlarının xalis saqa (skit) boyları ilə eyni görkəm cizgiləri vardır.

Anadolu türkləri üzərində aparılmış tədqiqatlara əsaslanan Kamuran Gürün bu "görkəm cizgilərini" belə verir: "Boy ortadan az uzun, vücud yapısı makroskel, böyük çoğunluqla dolixokefal, burun leptorrhinien, göz və saçların rəngi gənəlliklə orta, dəri rəngi açıq və ya ortadır".

Bu, avropoid irq türkün cizgiləridir. Lakin Mərkəzi Asiyada və bəzi digər bölgələrdə yaşayan qıyıq gözlü türklər də vardır. Müxtəlif fiziki xüsusiyyətlərə malik olan tayfalar vahid kökdən yarana bilərmi? Əgər yarana bilərsə, o zaman irqlər barədə qəbul olunmuş nəzəriyyəyə yeni korrektələrmi edilməlidir?

Professor F.Ağasıoğlu yazır: "Antropologiya elminə yaxından bələd olmayan tarixçilərin bir qismi bəzi türk boyları ilə yanaşı bütöv türk etnosunu avropoid hesab edir. Bir qisim tarixçilər isə bəzi müasir boylarla birlikdə qədim türkləri də monqoloid sayır".

Türk boylarını yalnız monqoloid, yaxud yalnız avropoid saymaq metodoloji baxımdan düzgün deyildir. Hər bir konkret türk boyuna aid fiziki görkəmi, lokal antropoloji tipi bütöv türk xalqına aid etmək ənənəsi bəzən siyasi səbəblər üzündən, bəzənsə naşılıqdan ortaya çıxır. Bir yanlış addım isə digər yanlış addımı doğurur. Məsələn, bütün türk boylarının mon-

qoloid sayılması nəticəsində etnogenez elmində belə bir yanlış ideya formalaşmışdır ki, avropoid tipli müasir türk xalqları sonradan məcburən türkləşdirilmişlər.

İ.Rasonyi "Tarixdə türklük" adlı kitabında Bartucza istinadən yazır ki, türklərdə monqoloid irqin zəif cizgiləri sezilməkdədir. Onun sözlərinə görə Orta və Doğu Anadoluda əksər dolixokefal tip daşıyıcılarının gəlmə olduğunu düşünmək yanlışdır. Çünki burada hələ neolit və tunc dövrlərindən braxikefal ilə yanaşı dolixokefal tip də vardı.

Antropoloqlar belə hesab edirlər ki, Yer kürəsinin bir çox bölgələrində hələ qədim çağlardan irqi hibrid zonaları mövcud olmuşdur.

Qayaüstü rəsmlərin və qəbirüstü abidələrin öyrənilməsi bu fikri bir daha təsdiqləyir. Qədim türk kurqanları yanında qoyulmuş daş heykəllərin fiziki görkəmini tədqiq edən antropoloqlar onların bəzisində avropoid, bəzisində isə monqoloid cizgilərin üstünlük təşkil etdiyini vurğulamış və bu nəticəyə gəlmişlər ki, türklərə aid daş heykəllər "qarışıq fiziki tipə" malikdir.

«İlkin olaraq Aralıq dənizi hövzəsində yaşayan türk etnosları sonralar çox geniş ərazilərə yayıldılar. Onların batıda qalan boyları tam avropoid tipini saxlamış, Altay torpağına miqrasiya edənlər monqoloid irqlə qarışıq tipə çevrilmiş, daha doğuya çəkilib əsas kökdən ayrı düşənlər (saxa) isə tam monqoloid kimi formalaşmışlar» (F.Cəlilov)

Beləliklə, türk etnosunun tarixi zaman və tarixi məkan çərçivəsində əvvəlcə avropoid irqə, müəyyən





kontaktlardan sonra isə həm avropoid, həm də monqoloid irqlərə aid olduğu iddia olunur. Hətta bəzi arxeoloqlar yazırlar ki, avropoid və monqoloidlərin ilk çarpazlaşması neolit və tunc dövründə, həm də doğuda deyil, məhz batıda baş vermişdir. Avropoid irqin dolixokefal tipi hələ qədimdə Kiçik Asiya, Quzey İran, Güney Qafqaz da daxil olmaqla Yaxın Şərq tayfaları içində də yayılıbmış. Bütün yuxarıda sadaladıqlarımızdan üç başlıca nəticə çıxartmaq olar:

1. Azərbaycan və İkiçayarası antropogenez bölgə olsa da, yeganə hibrid zona deyilmiş. Ciftləşmə və hibridləşmə, həm də dünyanın digər bölgələrində eyni sürətlə davam etmişdir.

2. Ön Asiya avropoid irqin Aralıq dənizi tipinə aid olan türk etnosunun Ata yurdudur. Quti adlanan tayfalar da avropoid irqin Aralıq dənizi tipinə aid olmuşlar.

3. Türk tayfalarının daha qədim olanları avropoid, sonrakı illərdə avropoid və monqoloid irqin qarışığı, daha gec dönəmlərdə isə bir sıra türk tayfaları sırf monqoloid irqə mənsub olmuşlar.

Lakin son illərin araşdırmaları bu nəticələrin doğru ola biləcəyinə xeyli şübhə yaradır.

İnsan irqinin formalaşmasında mühüm rol oynayan ikinci komponent tayfaların ilkin yayılma coğrafiyasıdır. Yəni, qısaca desək, ilkin türk etnosunu harada axtarmaq lazımdır?

Erkən türklərin formalaşdığı dövr və onun coğrafiyası ona görə çətin və mürəkkəbdir ki, birincisi, əldə kifayət qədər material yoxdur, ikincisi və ən

başlıcası isə həmin dövrün tarixi coğrafiyasını çizmək, etnogenezi müəyyənləşdirmək yeni metod, xüsusi yanaşma tələb edir. Bu sahəni tədqiq edən alim qədim dilləri, antropologiyanı, tarixi coğrafiyanı, ədəbiyyatı, mifologiyanı, astronomiyanı, numizmatikanı və digər sahələri dərindən bilməlidir. Tarixçilərimizin, qoy bu sözə görə məni bağışlasınlar, bugünkü "kor-koranə" münasibətilə həmin dövrə açar tapıb ona aydınlıq gətirmək iynə ilə gor qazmaq kimi bir şeydir. Burada "milli qeyrət" kimi populist meyar da köməyə çatmaz. Vaxtilə P.Buast deyirdi ki, tarixi doğru-dürüst anlatmaq üçün gərək dinini də, vətənini də, mənsub olduğun partiyanı da büsbütün unudasan.

Doğrudan da, tarix necə varsa, eləcə, olduğu kimi "kəşf edilib" insanlara çatdırılmalıdır. Hesab edirəm ki, bu dövr öz araşdırıcılarının, yeni nəsil tarixçilərinin, hər cür ehkamçılıqdan uzaq, qeyri-standart düşüncəli, milli və siyasi ambisiyalara əsir olmayan alimlərin yolunu gözləyir. Əvvəllər buraxılmış səhvləri təkrar etməyə bu gün bizim mənəvi haqqımız yoxdur.

Türk tayfalarının etnik coğrafiyasını öyrəndikcə adam təəccüb və heyrət içərisində qalır: yer üzündə türklər qədər hərəkətli, yaşam uğrunda amansız mübarizə aparan ikinci bir xalq yoxdur. Aramsız köçlər nəticəsində Ön Asiyadakı İkiçayarasından Mərkəzi Asiyadakı ikiçayarasınadək geniş, nəhəng bir əraziyə yayılmış türk tayfaları bu qədər böyük köçə rəğmən öz köklərindən heç vaxt qopmamışlar. Coğrafi mühit və köçəri həyat tərzi öz işini görsə də nə türklərin sosial-mədəni həyatına, nə də ləhcəsinə ağır zərbələr





vura bilməmişdir. Tədqiqatçı S.Malov yazır ki, "son 25 əsrdə türk dillərində bəlli tərkib və konstruksiyalar dəyişməmişdir". İstisnasız olaraq, dünyanın heç bir xalqında buna bənzər hadisə müşahidə olunmayıb. Türk babalardan oğullara, oğullardan nəvələrə keçən gələnəyə heç vaxt xəyanət etməz, əgər xəyanət etsə, o, artıq türk olmaz. Əcdadların çağırışı türk üçün həmişə müqəddəs sayılmışdır. Təsadüfi deyil ki, bu gün dünyaya səpələnən qırxdan çox türk tayfası harada yaşamasından asılı olmayaraq eyni adət-ənənələrə sahibdir, hansı ləhcədə danışmasından asılı olmayaraq bir-birlərini başa düşürlər.

Mövzumuzun başlıca sualına qayıdaq: irqlər necə yaranmışdır? İrqi xüsusiyyətləri bəlirləyən irsiyyət cizgiləri, fiziki mənsubiyyət, məsələn, dərinin rəngi, sifəti kəskin şəkildə fərqləndirilən çeşidli kəllə sümükləri homo sapiensin yarandığı ilk gündən mövcud ola bilərdimi, yoxsa bu dəyişikliklər uzun vədəli təbii proseslər, başqa sözlə desək, təkamül və hibridləşmə nəticəsindəmi meydana gəlmişdir? Təəssüf ki, bu vacib və önəmli məsələ bu günəcən axıradək araşdırılmayıb. Əgər güman etsək ki, qara dərililər qızmar Afrika günəşinin, ağ dərililər isə şimal soyuqlarının təsiri ilə təbii şəraitə uyğunlaşıblar, o zaman başqa bir çətin sual cavabsız qalır: bəs qırmızı və sarı dərili insanlar?

Əgər monqoloid və avropoid irqlərin ilk çarpazlaşması, bəzi alimlərin iddia etdiyi kimi, həqiqətən şərqdə deyil, qərbdə, Mərkəzi Asiyada deyil, Ön Asiyada baş veribsə, onda tədqiqatçılar yenə eyni çətin

sualla üz-üzə qalacaqlar: irsi yolla keçən fiziki xüsusiyyətlər, konkret halda kəllə sümüyünün quruluşu təkamül nəticəsindəmi öz formasını və keyfiyyətini dəyişmişdir? Sualı bir qədər də açıq qoyaq: irqlərdən hansı daha əvvəl yaranıb, hansı isə təkamül nəticəsində formalaşıb? Təbiətdə bitki və heyvanat aləminin eyni tipdən olan ən rəngarəng çeşidləri mövcuddur. Bunların hamısı təkamülün meyvələridirmi? Alimlərin bəziləri deyir – hə, bəziləri deyir – yox! Eynən irsiyyət problemində də sual bu şəkildə qoyulur: yaradılışdanmı, təkamülmü? Birmənalı cavab yoxdur, çünki məntiqi baxımdan bunların hər ikisi mümkündür. Elmdə isə məntiq çox vaxt heç nəyə yaramır və onu gərəksiz bir əşya kimi kənara tullamaq lazım gəlir.

Təbiətin gözəgörünməz bir əllə yaradılmış sirli, möcüzəli qanunları ilə həm bitki, həm də canlı aləm ən ağır təbii şəraitə uyğunlaşmağı, formasını dəyişməyi, bir sözlə, istənilən mühitdə yaşamağı bacarır. Eyni zamanda, təbiətin başqa bir möcüzəli qanununa görə, yaradılmış hər şey ikili xüsusiyyətə malikdir və bu ikililik olmasa həyatın mövcudluğu mümkün deyildir. Müasir tədqiqatçıların gəldiyi yekdil qənaətə görə, bütün irqlərdən olan insanlar bir Atadan və bir Anadan törəyiblər. Onda yenə məntiqi baxımdan belə çıxır ki, irsi yolla keçən fiziki xüsusiyyətlər, uzun tarixi proseslərdən sonra dəyişərək bu günkü halını alıb. Eyni zamanda intensiv tədqiqatlar nəticəsində sübut edilmişdir ki, dənizdə yaşayan bəzi canlılar milyon illər əvvəl necə idilərsə, eləcə də qalıblar, onlarda dəyişən heç nə yoxdur. DNT-nin öyrənilməsi əyani şəkildə göstərir ki, ataya və anaya məxsus cisimciklərdən yaranan yeni canlı öz valideynlərinin mənsub olduqları fiziki keyfiyyətlər üzrə inkişaf edəcəkdir. Bu «proqramdan» kənara çıxmaq, sadəcə, mümkün deyil.





1977-ci ildə Cənubi Afrikada tapılan daşlaşmış yosunun 3,1-3,4 milyard yaşı olduğu müəyyənləşdirilib. Bu mikroskopik təkhüceyrəli orqanizm idi. 1980-ci ildə Kaliforniya universitetindən olan Uilyam Şopfun rəhbərlik etdiyi tədqiqatçılar qrupu təkhüceyrəli yosundan daha yaşlı olan çoxhüceyrəli heyvan sümüklərini torpaq altından qazıb çıxardı, bu hüceyrələr eynən bu günkü formasına, zəncirvari telə bənzəyirdi. 3,5 milyard il əvvəl bu canlılar həyatın ibtidai formasında deyilmiş, artıq yüksək inkişaf mərhələsinə çatıbmış. Onda yenə məntiqi baxımdan belə çıxır ki, təkamül irsi yolla keçən fiziki keyfiyyətləri dəyişə bilməz. Elə isə bəs həyat hansı axarla davam etmişdir? Konkret halda, irqlər necə yaranmışdır? Əgər xatırlayırsınızsa, insanın yaradılması haqqındakı bütün Şumer miflərində dəyişməz bir epizod vardır.

«Model», yaxud «praforma» və ya daha aydın şəkildə desək, ilk Ata və ilk Ana əldə olunandan sonra Ninxursaq onların mayalarından yeddi cüt qatışıq və buna uyğun olaraq yeddi cüt anunnaki qadın hazırlayır, saflaşdırılmış gillə qarışdırılmış yeddi cüt mayanı lazım olan yerə qoyur ki, 14 yeni insan alsın – yeddi oğlan və yeddi qız. Bəs niyə yeddi? İnsan nəslini artırmaq üçün bir kişi və bir qadın bəs etməzdimi? Müasir tədqiqatçılar da bunun məhz belə olduğunu

sübut etmişlər: homo sapiens bir Atadan və bir Anadan törəyib. Bəs onda miflərdə dəyişməz halda özünə yer alan yeddi cütün sirri nədir? Əgər insan nəslini sürətlə artırmaq məqsədi qarşıya qoyulsaydı, bunu daha çox «surət» yaratmaqla əldə etmək olardı. Bəlkə dinqirlər artıq öz aralarında mövcud olan bütün irqlərin əkizini yaratmaq üçün bu yolu tutmuşlar? Mən bu sualın cavabını bilmirəm. Yəqin ki, hələ heç kəs bilmir. Mümkündür ki, təbiətin bir çox sirləri kimi, irqlərin necə yaranması da sonsuzadək müəmma olaraq qalsın.

Türklər zaman-zaman məhz bu «müəmmanın» qurbanı olublar. Hunların aqibəti buna ən gözəl örnəkdir. Əslində, hun adını bu tayfalara rus alimi K.A.İnostrantsev 1926-cü ildə vermişdir. Bunun da öz maraqlı tarixçəsi vardır. Eyni kökə malik və eyni dildə danışan iki tayfadan biri Asiyada, biri isə Avropa ərazisində yaşayırdı. Onların mədəni səviyyəsi də, irsi yolla keçən fiziki xüsusiyyətləri də bir-birindən fərqlənirdi. Bu, alimlər arasında çaşqınlıq yaratmışdı. Kim kimdir? Uzun müddət tədqiqat aparan K.A.İnostrantsev nəhayət, bu qənaətə gəldi ki, hər iki tayfa eyni kökdəndir və Asiyada yaşayan xunlardan fərqlənmək üçün Avropadakıları hun adlandırmağı təklif etdi. Doğrudur, xunların və hunların identik olmasına şübhə ilə yanaşanlar da vardı. Məsələn, amerikalı tarixçi Otto Menxen-Xelfen belələrindəndir. O, hesab edirdi ki, bu xalqların eyni dildə danışması hələ sübut olunmayıb, ikincisi xunların Seneqadan Volqaya keçidini təsdiq edən kifayət qədər tutarlı faktlar da tapılmayıb. Üçüncüsü və ən başlıcası isə bu xalqların mədəni səviyyəsi və incəsənəti bir-birindən xeyli fərqlidir.





Lakin L.Qumilyov belə hesab edir ki, bu «tapmaca» çoxdan öz həllini tapmış və tarixin arxivinə gömülmüşdür. Problemin həllinə «daha qədim mənbələrə» istinad edən VI əsr yazarı İordanın irəli sürdüyü versiya «kömək etmişdir». Bu versiyaya görə qotların kralı Filimer II əsrin ortalarında öz xalqını Visla ətrafındakı su ilə zəngin Oyum ölkəsinə gətirir. Ehtimala görə Oyum ölkəsi Dnepr çayının sağ sahilində yerləşirmiş. Burada Filimerin qot dilində «qaliurunami» adlanan cadugər qadınlara acığı tutur və kral onları səhraya qovur. Cadugər qadınlar bu boş çöllərdə «ruhu çirkli» köçərilərlə – xunlarla görüşürlər və beləliklə, xunlardan xeyli fərqlənən hun tayfaları əmələ gəlir.

L.Qumilyov yazır: «Görünür, elə belə də olmuşdur. Siyanbiylərin oxlarından və qılınclarından qaçan xunlar demək olar ki, qadınsız qalmışdılar. Əfsanədə göstərilən hibridləşmə xunları yox olmaqdan qurtaran yeganə vasitə ola bilərdi». Alim sözünə belə davam edir: «Bu hibridləşmə yeni landşaftla, ab-hava və etnik əhatə ilə xunların zahiri görünüşünü elə dəyişdirdi ki, ...onları fərqləndirmək üçün yeni adla – hun çağırmaq lazım gəldi».

L.Qumilyov başqa bir əsərində («Xunlar» və «Xunlar Çində») iddia edir ki, xunlar e.ə. I minilliyin əvvəllərində yerli monqoloid və Şimali Çindən gəlmiş avropoid əhali əsasında formalaşmış köçəri xalqdır. Çinlilərə məğlub olandan sonra xunların bir his-

səsi qərbə çəkilərək yerli uqrlarla qaynayıb qarışdı və sonradan Avropada hunlar kimi tanındı. Alimə görə hunların mədəniyyəti skif sarmatlarının mədəniyyəti ilə oxşar idi.

Bu məsələdə diqqət çəkən Asiya xunları ilə Avropa hunlarının eyniləşdirilməsi deyil, inandırıcı görünməyən çox qısa bir zaman kəsiyində, cəmi 90 il ərzində bir irqdən tamamilə yeni bir irqə keçidin baş tutması, həm də bütün Avropanı lərzəyə gətirən nəhəng hun imperiyasının yaradılmasıdır. Zənnimcə, «daha qədim mənbələrə» istinadən uydurulan cadugər qadınlarla «ruhu çirkli» köçərilərin hibridləşməsi barədə əfsanə alimlərin irqlərin formalaşmasının sirli təbiəti qarşısındakı acizliklərindən xəbər verir.

L.Qumilyov çox haqlı olaraq yazır ki, bu problem ənənəvi metodlarla çözülə bilsəydi, tarixçilər indiyəcən onu çoxdan həll edərdilər. Burada yalnız təbii elm olan etnologiya köməyə gələ bilər.

Lakin təbiətin elə müəmmalı sirləri vardır ki, onun qarşısında etnologiya elmi də acizdir.

Mən bu gün elmi ədəbiyyatda Avropa skifləri ilə Asiya skiflərinin oxşar və fərqli xüsusiyyətlərini araşdıran bir dənə də əsərə rast gəlməmişəm. Halbuki avropoid skiflərlə monqoloid skiflərin ən azından zahiri görkəm fərqi vardır. Eyni sözlər saklara da, kəngərlərə də aiddir.

Tədqiqatçılar uzun illər boyu beynimizə yeritməyə çalışıblar ki, erkən türklər Mərkəzi Asiyada formalaşıblar və buna görə də onlar monqoloiddirlər. Avropoid türklər çox gec, ya zorla türkləşdirmə, ya da





Ön Asiyada hibridləşmə yolu ilə yaranıblar. Amma heç kəs, məsələn, belə bir fakt üzərində düşünməyib ki, formalaşması XVI əsrə aid edilən qazax juzlarından, e.ə. IX-VIII əsrlərə aid edilən Asiya quzlarından min il qabaq görkəmcə onlardan xeyli fərqlənən Avropa quzları mövcud idi. Bəs bunu nə ilə izah etmək olar? Belə görünür ki, iki irqin ilkin olaraq harada – Ön Asiyadamı, yaxud Mərkəzi Asiyadamı hibridləşməsindən asılı olmayaraq problem yenə çözülməmiş qalacaq. Çünki birinci növbədə, «Erkən irqlərin özləri necə yaranmışdır» sualına cavab tapılmalıdır. Yuxarıdakı araşdırmamız da aydın göstərdi ki, irqlərin təkamül nəticəsində formalaşması mümkün olmadığı kimi, bir Atadan və bir Anadan fərqli fiziki görkəmə malik insanların törəməsi də mümkünsüzdür. Həm də bu zaman nəzərə almaq lazımdır ki, bir-birindən kəskin şəkildə fərqli fiziki görkəmə malik olan irqlər iki deyil, üçdür.

Bununla bağlı qədim əfsanələrdə heç bir iz tapmaq mümkün deyil. Heykəllərdə, konusvari möhür rəsmlərdə «allahlar» bir qayda olaraq ağ üzlü, sıx saqqallı kişilər kimi təsvir olunurlar. Qadın rəsmləri də bundan fərqli deyildir. Təkcə San-Lorensoda, olmeklərin mərkəzi şəhərində Amerikada mövcud olmayan beş neqroid baş heykəli tapılmışdır. Bu heykəllərin kimə aid ola biləcəyi üzərində bu gün də qızğın mübahisələr gedir. Əcəba, bu baş heykəlləri Afrikadan Amerikaya gəlmiş insanlaramı, yoxsa indi neqroid adlandırdığımız irqdən olan «allahlaramı» məxsusdur? Məsələ burasındadır ki, ilkin bəşər sivilizasiyası tari-

xində nə sıravi insanlara, nə də «yerli əhəmiyyətli allahlara» heykəl qoyulması faktına rast gəlinməmişdir.

İkinci ümid işığına C.A.Uyerpraytın «Journal of the Egyption Archaeology» məcmuəsinin XXI cildində dərc olunan məqaləsində («Some Celestial Associations») rast gəlmək olar. Bu məqalədə Misiri idarə edən ilk neterlərdən, o cümlədən «allah» Mindən danışılır. Minin şərəfinə Misirdə məbəd ucaldılmışdı, çünki o, regionu abadlaşdırmaq üçün çox iş görmüş, ən başlıcası göyü müşahidə edən cihazlar ixtira etmişdi. Uyerprayt yazır ki, bütün «allahlar» Misirə Ta-Urdan, Şumerdən gəlmişdilər, təkcə Min onlardan fərqlənirdi, Min Asiya kökənli idi. Bu, Misir «allahı»nın bizim monqoloid adlandırdığımız irqə aid olduğunamı işarədir? Doğrusu, bunu tam əminliklə söyləmək çətindir. Lakin elmi ədəbiyyatda «asiyalı» ifadəsi təkcə region bildirmir, həm də fiziki görkəm fərqini nəzərdə tutur.

Beləliklə, insan «allahlar» tərəfindən yaradıldıqdan sonra Afrikada qalan qarabaşlardan neqroid, İkiçayarasına aparılanlardan avropod, Mərkəzi Asiyada və digər ətraflarda yaşayanlardan isə monqoloid irqi yaranmışdır. Lakin «bu, nə üçün belə olmuşdur?» deyə soruşsanız doğru-dürüst cavab ala bilməyəcəksiniz. Çünki irsi yolla keçən fiziki xüsusiyyətlərin erkən zamanlarda necə formalaşması bu gün də sirr olaraq qalır.

Tövrat bütün irqlərin Nuhdan və onun arvadlarından törədiyini iddia edir. Belə çıxır ki, Sim və ya Sam avropoid, Xam neqroid, Yafəs monqoloid irqə





mənsub imiş. Maraqlıdır ki, üç protodil ideyası Herodotun «Tarix» kitabında qələmə aldığı həm yunan, həm də skif əfsanələrində təkrarlanır. Heraklın oğlanlarından üç müxtəlif dilli tayfa meydana gəlmişdi. Tarqıtayın da üç oğlu vardı və bu oğlanlardan olan uşaqlar üç müxtəlif dilli tayfanın bünbövrəsini qoydular.

Son illərin elmi nəticələrinə görə də vahid dildən üç yeni ləhcə yaranmış və bu üç protodil bəşəriyyətin linqivistik coğrafiyasını dəyişmişdir. Lakin eyni atadan və eyni anadan müxtəlif irqlərə məxsus insanların doğulması, bizim anlamımızca, mümkün deyildir. Elmi nöqteyi-nəzərdən bu, o zaman gerçəkləşə bilər ki, artıq təbiətdə mövcud olan müxtəlif irqlərin hüceyrələri birləşmiş olsun. Əgər Tövrat hekayətini həqiqət kimi qəbul etsək, o zaman Nuhun ya oğlanları, ya da onların arvadları Sara, Hacər və Ketura (Qantura) müxtəlif irqləri təmsil etməli idilər. Belədə yenidən söhbətin əvvəlinə qayıtmalı oluruq: bəs bu irqlər harada, nə zaman və necə formalaşmışdır? Qədim filosofların «toyuq əvvəl yaranıb, yoxsa yumurta?» sualının cavabı kimi, burada da heç bir çıxış yolu görünmür.

Tövratın bütünlüklə və istisnasız olaraq Şumer mətnlərindən qaynaqlandığını bilirik. Bəlkə Tövrat yazarları «yeddi cüt surət» barədə qədim Şumer əfsanələrinin sirrini bilirlərmiş və bəşəriyyətin Nuhun oğlanlarından törəməsi barədə süjetdə də indiyə qədər tapılmamış daha qədim Şumer mətnlərinə istinad etmişlər?

Bu yaxınlarda Rusiyanın NTV telekanalı ilə inanılması mümkün olmayan bir informasiya yayıldı.

Tədqiqatçılar Afrika cəngəlliklərində müasir dünya ilə heç vaxt əlaqəsi olmayan kiçik bir qəbilə aşkar etmişlər. Əlbəttə, möcüzəli olan bu deyil, ucsuz-bucaqsız cəngəlliklərdə zaman-zaman belə qəbilələrə rast gəlmək mümkündür. Lakin heyrətamiz cəhət odur ki, böyük həyatla əlaqəsi olmayan bu qəbilədə... inanmayacaqsınız, həm neqroid, həm avropoid, həm də monqoloid irqin nümayəndələri yaşayır. Tədqiqatçıların iddialarına görə, bu irqlər hibrid nəticəsində yox, eyni kökdən və eyni şəcərədən yaranmışlar. Yer üzündə analoqu olmayan bu hadisənin doğruluğuna inanmaq üçün gərək insan ağlını itirmiş olsun!

Bəs əgər doğru isə?

Bir vaxtlar «Komsomolskaya pravda» qəzetinin gündəmində uzun müddət müzakirə mövzusu olan əhvalatı yəqin ki, yaşlı nəsil yaxşı xatırlayır. Ağ dərili rus qadını ağ dərili ərindən zənci uşaq doğmuşdu. Əvvəlcə bunu qadının ərinə xəyanəti ilə əlaqələndirmək istəsələr də, sonra bunun yanlış olduğu ortaya çıxdı. Sadəcə, bu şəcərədən olan qadınlardan biri uzaq keçmişdə zənciyə ərə gedibmiş. Sən demə, insanın «gen yaddaşı» heç nəyi «unutmur», uzun onilliklərdən sonra bu «proqram» işə düşə bilir. Bütün yuxarıda deyilənlərdən sonra əminliklə hər hansı nəticə çıxartmaq çətindir. Amma çox ola bilsin ki, təbiətin bütün sahələrində olduğu kimi, insan övladı da yarandığı ilk gündən çeşidli fiziki görkəmə malik olmuşdur. Buna görə də türk etnosları hibrid zonalarından asılı olmayaraq lap erkən vaxtdan həm monqoloid, həm də avropoid irqə məxsus ola bilərdilər! Lakin





dərhal ortaya belə bir haqlı sual çıxır: üç irqin arasında türklər nə üçün doğuşdan iki qola ayrılmışlar, başqa sözlə, niyə neqroidlər arasında türk tayfaları yoxdur?

Bu suala hələlik cavab vermək mümkün deyil. Əgər dinqirlər yaratdıqları homo sapiensi ilk gündən qarabaş adlandırmışdılarsa və onların arasında doğuluşdan neqroidlər vardısa, o zaman niyə görə qədim Mesopotamiyada türkdilli neqroidlərə rast gəlmək mümkün olmamışdır? Bu yerdə türk xalqının böyük oğlu O.Süleymenovun «Şumernamə» əsərindəki bu sözləri necə xatırlamayasan: «Bundan da təəccüblüsü o idi ki, alınma şumer sözləri türk dillərində indiyədək qalmaqda olan və geniş təsvir edilmiş dialekt xüsusiyyətlərini özündə əks etdirirdi. Bu, o demək idi ki, şumerlər hər hansı bir türk toplumu ilə deyil, bir neçə türk tayfası ilə ünsiyyətdə olmuşlar. Bir şey də aydınca nəzərə çarpırdı: türklərlə ünsiyyət dönə-dönə, müxtəlif zaman qatlarında olmuşdur».

Türk-şumer əlaqələrinə elmi cəhətdən bu qədər dəqiq qiymət verən ikinci bir alimimiz olmamışdır.

Bəşər sivilizasiyasının lap başlanğıcında İkiçayarasında «naməlum tayfa» adlandırılan qarabaşlar yaşayırdı. Əslində, onlar heç də naməlum-zad deyildilər, bu torpaqların qanuni sahibləri idilər, Daşqından əvvəlki dönəmdən miras qalan, zaman-zaman dəyişərək ləhcələşən eyni dildə danışırdılar. Sonra bu yerlərə Şumer sivilizasiyasını yaradanlar, «odlu obyektlə göydən enən ədalətlilər» gəldilər. «Ədalətlilər» Daşqından əvvəl də Mesopotamiyada yaşayırdılar, gəl-

mişdilər ki, yarımçıq qalan işlərini davam etdirsinlər. Tədqiqatçılar səhv olaraq yerlilərin və "gəlmə"lərin hər ikisini «naməlum tayfa», yaxud şumerlər adlandırırlar. Halbuki şumerlər Bəşəriyyət Ağacının torpağın alt layında olan kökləridir, bu kökün üstündə vahid gövdə – qarabaşlar ucalmış, bu gövdədən bütün dünyamızı təmsil edən xalqlar – budaqlar əmələ gəlmişdir. Türklər bu budaqların ən birincisidir. O.Süleymenovun da çox haqlı olaraq qeyd etdiyi kimi, tarixin müxtəlif zaman qatlarında Mesopotamiyada yaşayan əcdadlarımız eyni dildə, amma müxtəlif dialektlərdə danışırdılar. Təsadüfi deyildir ki, qədim qaynaqlarda yanaşı yaşayan, amma bir-biri ilə amansız mübarizə aparan müxtəlif türk tayfa qollarının adı çəkilir. N.Marr əbəs yerə çuvaşları şumerlərin birbaşa varisləri hesab etmirdi. Lakin şumer-türk dillərindəki oxşar sözlər təkcə çuvaşlarda deyil, bu gün mövcud olan əksər türk tayfalarının, o cümlədən Azərbaycan türklərinin ləhcəsində də qalmaqdadır. Əslində, şumer-türk əlaqələri Azərbaycan türkcəsində daha qabarıq şəkildə hiss olunur.

Bəs bütün dünyada eyni ümumiləşdirici adla – türk çağırılan etnos necə və nə vaxt meydana gəlmişdir? Qarabaşları erkən türklər adlandırmaq olarmı? Bu suala birbaşa və qəti şəkildə cavab vermək mümkün deyildir.

Bizə çatan tarixi qaynaqlar e.ə. III minilliyin ortalarından e.ə. II minilliyin ortalarınadək uzanan dövrlər ərzində mövcud olan və bəzi tədqiqatçıların türk kökənli hesab etdikləri bir çox tayfaların və ölkələrin





adını çəkir: lullular, qutilər, su tayfaları, subarlar, turuklar, saklar (skitlər), kəngərlər... Bu tayfalardan bəzisi qədim Azərbaycan ərazisində, bəzisi Şumer torpaqlarında və Avrasiya çöllərində yaşayıb. Bunlardan hansı daha qədim etnosdur? Ümumiyyətlə, prototürkləri bu tayfaların arasındamı axtarmaq lazımdır?

Gəlin əvvəlcə lullu, quti və suları prototürk hesab edən alimlərin iddialarına aydınlıq gətirməyə çalışaq.

Arattalılar (bəlkə də su tayfaları?!), lullular və qutilər qədim Azərbaycan ərazisində yaşasalar da, onların milli mənsubiyyətləri bu günəcən mübahisəli olaraq qalır. Hələ orası da dəqiq məlum deyil ki, bu adlar bir tayfayamı, yoxsa bir mədəni ittifaqda birləşən bir neçə tayfayamı verilən addır. Bu tayfalardan hər hansı birini müasir və ya tarixən formalaşmış bir xalqın kökünə zorən "calaq etmək" cəhdi mütləq uğursuzluğa məhkumdur. Şumer tarixinin diqqətlə izlənməsi bu qənaətə gəlməyə imkan verir. Zənnimcə, nə Aratta (Su), nə lulu, nə quti adı etnik göstərici deyil, qədim mətnlər açıq-aydın göstərir ki, Şumerdə uzun əsrlər boyu milli mənsubiyyət bildirilməyib. Əhaliyə ya "qarabaş", ya da "lulu" deyilib. Ləhcələşmənin yarandığı və dərinləşdiyi bir neçə əsr boyu etnik qruplar formalaşmağa başlasa da onlar hələ kəskin fərqləndirici xüsusiyyətlərə malik deyildilər, bu etnik qruplar eyni mədəni ittifaqda birləşərək bərabər hüquq və bərabər imkanlarla çiyin-çiyinə yaşayırdılar. Lakin bu qruplardan bəziləri tarixən bu torpaqlarda məskunlaşmış, digərləri İkiçayarasına sonradan gəlmişdilər. Eyni zamanda İkiçayarasından dünyanın bir çox böl-

gələrinə də miqrasiyalar olmuşdur. Əgər məsələyə bu meyarla yanaşsaq, o zaman qədim Azərbaycan ərazisində yaradılan ölkələrin Şumerin bir parçası, onun siyasi, iqtisadi və mədəni dayaqlarından olduğu ortaya çıxar. Şumerin "uzaq əyalətləri" kimi yaradılan Aratta və Lullubidə milli mənsubiyyətlərin ilkin cücərtiləri çox ola bilsin ki, e.ə. III minilliyin birinci rübündən etibarən daha qabarıq şəkildə meydana çıxmağa başlamışdır. Vahid dildən yeni ləhcələr yaransa da bu ləhcələr hələlik sabit və aparıcı mövqeyə malik deyildilər. Lakin zaman keçdikcə hakimiyyət uğrunda mübarizə güclənmiş və məhz mərkəzi dövlətin zəifləməsi hakimiyyət uğrunda mübarizəyə təkan vermiş, tayfalaşmanı, "cəbhələşmə"ni, ayrılmanı dərinləşdirmişdir.

Əldə olan az-çox tarixi bəlgələr də bunu təsdiqləyir. Xronoloji ardıcıllığa diqqətlə fikir verək. Manna dövləti Urmiya gölünün cənubunda yerləşən Zamua ölkəsinin torpaqlarında yaradılmışdı. Lakin bu torpaqlarda Zamuadan daha əvvəl lullular yaşamışlar. Ona görə də qaynaqlarda "Zamua adlanan Lullume ölkəsi" termini işlədilmişdir. Boğazköy yazılarında Lullu ölkəsinin "çarlar çarı" İmmaşqunun adı çəkilir. Lullubi müstəqil ölkələri birləşdirən federativ dövlət idi. Bu ərazilərdə yaradılan Zamuada da eyni dövlət quruluşu saxlanılmışdı, dəyişən təkcə ad idi. Tarixi qaynaqların verdikləri məlumata görə Zaqroş dağlarının şərqində və şimal-şərqində yaşayan bütün xalqlar, o cümlədən lullular da "su tayfaları" adlanırdılar. Bizim gümanımıza görə "su tayfaları" həm də Aratta ölkəsində





yaşayan xalqların adıdır. Yəqin ki, bir çox qədim mətnlərdə Aratta ölkəsinin həm də "Su ölkəsi" adlanması heç də təsadüfi deyildir. Əgər diqqətlə fikir versək, bütün bu başgicəlləndirici "rebus"un çox sadə açması vardır: söhbət eyni ərazidən və eyni etnik tayfalardan gedir, sadəcə olaraq bu ərazidə yaradılan ölkələr müxtəlif dövrlərdə müxtəlif cür adlandırılmışdır. Əvvəlcə Aratta, sonra Lullubi, daha sonra Zamua. Və bu ölkələrdə su tayfaları – yenicə formalaşmağa başlayan müxtəlif etnik qruplar yaşayırdılar. Xeyli sonra bu etnik qrupların da öz adları yarandı.

Z.Bünyadov və Y.Yusifovun redaktoru olduğu "Azərbaycan tarixi" kitabında yazılır: "E.ə. III-II minilliklərdə lullu bir etnosa verilən ad deyilmiş. Lullu tayfa ittifaqı biri digəri ilə dil və etnik cəhətdən qohum olan və ayrı-ayrılıqda etnik ad daşıyan prototürk tayfaları birləşdirmişdi".

Hələlik "prototürk tayfaları" iddiasını bir kənara qoyaq. "Lullu", yaxud "lulu" Şumerdə geniş yayılmış söz idi, o həm şəxs adını bildirirdi, həm "kişi", "cəsur, qoçaq", "adam", "əhali", "camaat" demək idi, həm də "ölkə" anlamında işlədilirdi. Ona görə də "lulu"nun etnik mənşə daşımadığını deyən Azərbaycan alimləri tamamilə haqlıdırlar. Çox ola bilsin ki, bu ərazidə yaşayan bütün etnik qruplar bir yerdə "su tayfaları" adlandırılmışlar. Görünür, milli mənsubiyyətlərin hələ kəskin şəkildə bəlirlənmədiyi dönəmlərdə tayfalar müəyyən əlamətlərə görə fərqləndirilmişlər: Uruk şəhərində yaşayanlar – turuklar, bol sulu torpaqda yaşayanlar – su tayfaları, cəsur kişilərin yaşadığı yer –

lullular və s. Ona görə də su tayfalarının, bütövlükdə erkən türk tayfaları olduğunu birmənalı şəkildə qəbul etmək mümkün deyildir. Lakin bu tayfaların erkən türklərin formalaşmasında birbaşa iştirak etdiklərini danmaq da olmaz. Aratta və Lullubidən fərqli olaraq Qutium ölkəsi barədə nisbətən çox tarixi bəlgələr mövcuddur. Lakin bu bəlgələrdəki bəzi ziddiyyətli məqamlar onlara ehtiyatla yanaşmağı tələb edir.

Qədim mətnlər deyir ki, qutilərin öz dilləri vardı. Lakin bu dilin mənşəyi indiyəcən aydınlaşdırılmayıb. İ.Əliyevə görə kuti (quti) dili Qafqaz dil ailəsinə mənsubdur. E.A.Speyser bu xalqın müasir kürdlərlə identik ola biləcəyini iddia edir. F.Ağasıoğlu isə qutilərin erkən türklər olduğuna inanır və Şumer dilindəki türk sözlərini bununla izah edir. Alimə görə, 91 illik istila zamanı çoxlu türk sözlərinin Şumer dilinə keçməsi doğal bir şeydir.

A.Oppenxeym "Qədim Mesopotamiya" əsərində yazır: "Mesopotamiyadan çoxlu xalqlar keçmişdir, onların böyük əksəriyyəti özlərindən sonra yazılı abidələr qoyub getmişlər".

Təkcə qutilər haqqında bu sözləri demək olmaz. Qutilərdən bəhs edən bütün yazılı abidələr nədənsə Şumer dilindədir. Bu böyük xalqın dilində qısa çar siyahısından və müxtəlif mətnlərə səpələnmiş məhdud sayda sözlərdən başqa heç nə yadigar qalmamışdır. Quti tarixinin öyrənilməsinə əngəl törədən ikinci böyük problem Daşqınla bağlı ziddiyyətlərdir. Bu ziddiyyətləri dərindən araşdırmadan quti tarixini doğru-dürüst öyrənmək mümkün deyildir.





# IV FƏSİL

## DAŞQIN

Qədim Şumerdə əbədi həyat arzulayan bir çar vardı. Onun nəfəsləri kəsən hekayəti odda yandırılmış minlərlə "gil kitabə"lərə həkk olunub.

Lakin bu yazılar, əslində, daha qədim olan bir dastanın Assuriya variantıdır. Əfsanənin orijinalını bütünlüklə əldə etmək mümkün olmamışdır. Tədqiqatçılar belə güman edirlər ki, Assuriya versiyasında yalnız qəhrəmanların adları dəyişdirilmiş və süjet xəttinə çox cüzi əlavələr edilmişdir.

Maraqlı olan burasıdır ki, Gilqamış (Bilqamıs) tarixi şəxsiyyətdir və "Şumer çar siyahısı"na görə, Uruk şəhərinin beşinci hökmdarı olmuşdur. Dastanın Assuriya, Babil, Xaldey və s. variantlarının hamısında eyni personajlardan – Anunun ölkəsində yaşayan "allahlardan" – Enlildən, İştardan və Eadan bəhs olunur. Təkcə Daşqından salamat çıxan və orijinal mətndə Ziusudra adlanan qəhrəmanın adı dəyişdirilib: Utnapiştim, Xisutros, Atraxsis, Devkalion və nəhayət Noy (Nuh).

"Mən dünyaya Gilqamış barədə danışmaq istəyirəm. O, hər şey haqqında bilgisi olan bir insan, dünyanın bütün ölkələrini tanıyan bir hökmdar idi. O, müdrikdi, çox gizlinləri görmüş və bir çox sirlərə bələd olmuşdu. Daşqın günləri barədə qəribə hekayəti də bizlərə o gətirmişdir".

"Həmin uzaq günlərdə bolluq vardı, insanlar sürətlə çoxalıb artırdılar, dünya vəhşi öküz kimi böyürürdü. Və "böyük Allah" bu hay-küydən bərk qəzəbləndi. Enlil bu səs-küyü eşidib Şura üzvü olan "allahlara" müraciət etdi: İnsanlar dözülməz olublar, biz onların səs-küyündən yata bilmirik.

"Allahlar" insanları cəzalandırmağı qərara aldılar".

Təkcə Eanın insanlara rəhmi gəlir, gizlincə Ziusudraya xəbər verir və tapşırır ki, öz ailəsini xilas etmək üçün təcili gəmi düzəltsin.

"Öz evini uçurt, uyğun bir gəmi düzəlt, ora ailəni və Yer üzündəki canlılardan götür".

Ziusudra Eanın məsləhətinə əməl edir, nəhəng gəmi düzəldib bütün ailə üzvlərini, quşları, heyvanları ora doldurur və sel gələndə yola çıxır.

"Altı gün və altı gecə güclü külək əsdi, külək və su bütün dünyanı öz ağuşuna almışdı. Yeddinci gün külək sakitləşdi, kükrəyən dalğalar yatdı. Uzaqdan dağ zirvəsi göründü. Ziusudra və ailə üzvləri Nizir dağının kəlləsində lövbər saldı".

Ziusudra göyərçin uçurdur ki, yaxınlıqda quru torpaq olub-olmadığını öyrənsin. Göyərçin geri dönür, çünki hər yan su imiş, qonmağa quru yox imiş. Sonra qaranquşu buraxır, o da geri dönür. Daha sonra qarğa uçurdulur və qarğa geri dönmür. Çünki sel artıq geri çəkilmişdi və quru torpaqlar görünməyə başlamışdı.

Artıq min illərdir ki, Daşqın haqqında hekayət ağızdan-dildən düşmür. Güclü tufanla müşayiət olunan dəhşətli sel hər şeyi ağuşuna alıb aparır, şəhərlər, kəndlər, dağlar, təpələr, hər şey, hər şey suyun altında qalıb məhv olur. Tək bircə gəmi – bir ailə və ev heyvanları ilə yüklənən tək bir gəmi dəhşətli faciədən qurtularaq bəşəriyyəti məhv olmaqdan xilas edir.





Bu dəhşətli faciə haqqında tədqiqatçılara çatan ilk xəbər Tövrata aiddir. Sonralar məlum olmuşdur ki, bu barədə əksər xalqların, o cümlədən qədim xaldeylərin, assurların, akkadların, yunanların, hətta Cənubi və Şimali Amerika xalqlarının da öz versiyaları vardır, amma bu versiyaların hamısı qəribə şəkildə bir-birinə oxşayır. Təkcə adlar və xırda detallar fərqlidir. Bu oxşarlıq elə ilk baxışdan belə bir qənaət yaradır ki, bütün əfsanələrin arxasında bir real tarixi hadisə durur. Bu hadisənin gerçək olub-olmadığını müəyyənləşdirmək üçün alimlər ən azından iki çətin suala cavab tapmalıydılar. Birincisi, Yer kürəsində bütün canlıların məhvinə səbəb olan bu "real tarixi hadisə" harada, nə vaxt və necə baş vermişdir? İkincisi, dünyanın müxtəlif guşələrində yaşayan və son dönəmlərə qədər bir-birinin üzünü görməyən xalqların Daşqınla bağlı əfsanələrinin oxşarlığını, bənzərliyini nə ilə izah etmək olar?

Bu barədə bəzən bir-birinə daban-dabana zidd olan çoxlu fərziyyələr, mülahizələr və rəylər mövcuddur. Onların hamısı haqqında bu kitabda söhbət açmağa nə imkan, nə də lüzum yoxdur. Lakin geniş yayılmış bəzi mülahizələrə toxunmaq başladığımız mövzunu istiqamətləndirmək üçün çox vacibdir. Bu fərziyyələrdən biri Nyu-Yorkdakı Lamont Doqerti laboratoriyasının dəniz geologiyası üzrə mütəxəssisləri Bill Rayan və Uolt Pitmana məxsusdur. Bu mütəxəs-

sislər Ümumdünya Daşqınını Qara dənizlə bağlayırlar. Onlar iddia edirlər ki, 7 min il bundan əvvəl buzlaşma erası zamanı okeanların səviyyəsi o qədər aşağı imiş ki, Qara dəniz dünya su hövzələri ilə bütün əlaqələrini itiribmiş, onu Aralıq dənizi ilə indiki Bosfor boğazı deyil, çox nazik bərzəx bağlayırmış. Okeanlarda suyun səviyyəsi qalxdıqdan sonra Aralıq dənizinin şor suları güclü təzyiqlə nazik bərzəxi dağıdaraq Qara dəniz ətrafında hər şeyi məhv etmiş, çoxlu bataqlıqlar yaratmış və nəticədə bu ərazilərdə yaşayan insanlar müxtəlif yerlərə, o cümlədən İkiçayarasına köçməyə məcbur olmuşlar. Bu fərziyyə Tövratda təsvir olunan əhvalatla uzlaşsa da, bir sıra vacib suala, o cümlədən Qara dəniz faciəsi barədə hekayətin, məsələn, Amerika qitəsinə necə gedib çıxdığı, Aralıq dənizinin suları daşarkən Qara dənizə qədər ərazi su altında qaldığı halda İkiçayarasının nə üçün bundan ziyan çəkmədiyi barədə suala və digər ciddi suallara cavab vermir.

Daşqından danışarkən amerikalı professor Çarlz Hepqudun ideyası barədə söhbət açmamaq, sadəcə, mümkün deyildir. Çünki bu ideya uzun illər dəbdə olmuş və hətta Eynşteyn onu dəstəkləyərək, Hepqudun kitabına ön söz yazmışdır.

Hepquda görə, "Ümumdünya Daşqını" deyilən bir şey yoxdur və qlobal iqlim dəyişikliyindən də söhbət gedə bilməz. Hepqud buzlaşma erasını izah edən çox sadə bir mexanizm irəli sürür. Alim iddia edir ki, Yer qabığı çox zərifdir, demək olar ki, maye halında maddələrdən ibarətdir. Qütb papaqlarındakı buzların qalınlığı kritik həddə çatdıqda onun ağırlığı





altında Yer qabığı tarazlıq yaranana qədər aşağıya doğru sürüşməyə başlayır. Yer oxu əvvəlki vəziyyətini saxlasa da, Cənub və Şimal qütbləri yenə soyuq olaraq qalsalar da, kontinentlərin qabıqları olduqca böyük ərazidə aşağılara doğru sürüşür və beləliklə, qütblərdə yerdəyişməsi baş verir. Hepqud yazır ki, axırıncı dəfə belə hadisə 18 min il bundan əvvəl baş vermiş və təxminən on min il davam etmişdir. Vulkanlar, zəlzələlər və daşqınlarla müşayiət olunan bu proses zaman-zaman Yer kürəsinə fəlakətlər gətirmiş, Amerikanı və bütün Avrasiyanı öz cənginə almışdır.

Lakin bir vaxtlar hətta Eynşteynin də yüksək qiymət verdiyi bu ideya elm bilicilərinin çoxsaylı tənqidinə tuş gəldi və tezliklə bir kənara atıldı. Ola bilər ki, "bir kənara atıldı" ifadəsi yerinə düşməsin, çünki bu ideyanı dəstəkləyənlər hələ də vardır. Məsələn, Qrem Henkok Hepqud araşdırmalarına əsaslanaraq belə bir fərziyyə irəli sürüb ki, 2012-ci ildə qütblərin növbəti yerdəyişməsi gözlənilir və bu kataklizm özü ilə Yer üzünə çox böyük dəhşətlər və faciələr gətirəcək, planetimiz bir gecənin içində tamamilə suyun altında qalacaqdır.

Maraqlıdır ki, eyni sözləri Amerika kontinentində yaşayan qədim asteklər və mayyalar da söyləmişlər. Böyük sikl adlanan məşhur mayya təqvimi həm günlərin, ayların və illərin hesabını aparır, həm də ulduzların düzülüş vəziyyətini öyrənərək gələcəkdən xəbər verirdi. Mayya təqviminə görə, 2012-ci il dekabrın 21-də Böyük sikl başa çatır və həmin gün bütün dünya yenidən su altında qalaraq məhv olacaqdır.

Beləliklə, bu gün "Nuhun tufanı" adlandırdığımız faciənin necə, nə vaxt və harada baş verməsi barədə tədqiqatçılar arasında yekdil fikir yoxdur. Hətta Şumer "gil kitabə"ləri tapıldıqdan və Daşqın barədə daha qədim əfsanə mətni meydana çıxdıqdan sonra da məsələyə aydınlıq gətirilmədi. Bunun da öz səbəbləri vardır. Məsələ burasındadır ki, tədqiqatçılar Tövratda bəhs olunan Nuhun Tufanı ilə Şumer mətnlərində söz açılan Ümumdünya Daşqınını bir-birinə qarışdırırlar. Hətta dünyanın ən tanınmış alimləri də Ziusudra Daşqını ilə Nuhun Tufanının eyni olduğunu və yalnız adların dəyişdirildiyini iddia edirlər. Bu isə çox sadə bir səbəbə görə mümkün deyildir: əfsanələr zaman etibarı ilə üst-üstə düşmür. Şumer mətnlərində e.ə. XIII minillikdə, Tövratda isə e.ə. III minillikdə baş verən daşqından söz açılır.

Bir çox tədqiqatçılar bu gün də bu fikirdədirlər ki, Ümumdünya Daşqını deyilən bir şey olmayıb, bu, Şumer əfsanələrinin və macəra sevən alimlərin uydurduğu nağıldır. Onların fikrincə, eyni zamanda dünyanın hər tərəfini su basması nə nəzəri, nə də praktiki cəhətdən mümkün deyildir. Sadəcə, İkiçayarasında baş verən regional su qabarmaları şişirdilərək bu həddə çatdırılmışdır.

Bu nəzəriyyənin yaranmasına ilkin təkan verən ingilis arxeoloqu Leonard Vulli olmuşdur. Ur şəhəri ərazisində bir neçə "mədəni qatı" açan arxeoloq 3 metr qalınlığında təmiz, qatışıqsız gil təbəqə aşkarlamışdır. Bu cür təbəqə yalnız suyun yaratdığı çöküntü ola bilərdi. Arxeoloq insan yaşayışının izləri olmayan bu qatın yaranma tarixini də müəyyənləşdirmişdir: e.ə. 3200-cü il. Vulli elan etdi ki, o, Şumer mətnlərindəki Ziusudra və Tövratda adı çəkilən Nuhun Tufanının izlərini tapıb. Vulli yazırdı: "Şumer və yəhudi qaynaqlarının bəhs etdiyi Daşqının həqiqətən baş verməsinin təsdiq olunması bu əfsanələrdə göstərilən hər şeyin doğruluğuna dəlalət etmir. Daşqın ümumdünya xarakterli deyildi, yerli əhəmiyyətli idi. Çox güman ki, çayların qabarması 400 milə qədər olan əraziyə müəyyən təsir göstərə bilmişdir".





Yeni-yeni arxeoloji tapıntılar üzə çıxdıqca Vullinin bu ideyasına xeyli dəyişikliklər edildi: Daşqının tarixi bir neçə yüz il geri çəkildi, səbəb kimi isə "çay qabarması" deyil, dənizin daşaraq düzənliyi basması göstərildi.

Genetika alimi Stiven Oppengeymer Daşqını və qədim tayfaların miqrasiya səbəblərini öyrənərkən bu qənaətə gəlmişdir ki, fəlakət e.ə. 4000-3500-cü illər arasında baş verib, Ur şəhəri ərazisində tapılan gil qatı isə dünyada okeanların səviyyəsinin qalxması nəticəsində baş verən yerli xarakterli daşqından sonra yaranıb.

Şumer Ziusudrasının doğulduğu güman edilən Şuruppakda aparılan arxeoloji qazıntılar qalın gil qatları aşkarlayıb, alimlər müasir cihazların köməyi ilə bu qatın çox dəqiq tarixini müəyyənləşdiriblər: hadisə 4900 il əvvəl, başqa sözlə desək, e.ə. 2900-cü ildə baş vermişdir. Yəni Şuruppakın su altında qalması Ur fəlakətindən 700 il sonraya aiddir. Bu necə ola bilər? Belə çıxır ki, aramsız daşqınlar İkiçayarası əhalisinə göz verib işıq vermirmiş. Ən qəribəsi budur ki,

Eridu şəhəri ərazisində qazıntı aparan alimlər bu şəhərdə daşqının izlərinə yerli-dibli rast gəlməmişlər. Doğrudan da möcüzəlidir, Eridudan daha yüksəkdə yerləşən Ur şəhərində daşqının izləri qalıb, Eriduda isə bu izlər tamam-kamal yoxdur. O zaman alimlər şübhələnməyə başladılar: belə ola bilməz, bunun nəsə başqa izahı olmalıdır.

İkiçayarasının tarixi barədə uzun illər hegemonluq etmiş nəzəriyyəyə Avstriya Milli Universitetinin professoru Kurt Lambek son ağır zərbəni vurdu. O, uzun illər İran körfəzi rayonunu diqqətlə öyrənərək 1990-cı illərdə sensasiyalı bir bəyanatla çıxış etdi: İran körfəzinin sahil xətləri 18 min il əvvəl yaranıb, müasir sahil xətləri isə 6 min il əvvəl olduğundan 1-2 metr aşağıdır. Yəni dənizin o vaxtkı səviyyəsi İkiçayarasının bir çox rayonlarının su altında qalmasına səbəb olmuşdur. Bu proses tədriclə getdiyinə görə İkiçayarasında yaşayan insanlar zaman-zaman amansız fəlakətlə üz-üzə qalmışlar. Bəs 6 min il əvvəl İran körfəzi sularının 1-2 metr qalxmasına səbəb nə olmuşdur?

Beləliklə, şumeroloqlar yunan alimi Platonun, bir vaxt inadla rədd etdikləri fikrinə qayıtmışlar. Platon e.ə. birinci minilliyin axırlarında Misir kahininə istinadən yazırdı ki, Yer üzündə bir neçə dəfə qlobal daşqın olmuşdur. 9 min il əvvəl (Platon dövründə, yəni 11 min il əvvəl) baş verən daşqın zamanı ən yüksək inkişaf səviyyəsinə çatmış Atlanta cəmi bir gecə və bir gündüz ərzində suyun altında qalmışdır.

Misir kahininin Solona, Solonun isə Platona verdiyi informasiya bu gün elmi dəlillərlə sübuta yetirilmişdir. Kahin bir də xəbər vermişdir ki, bu cür qlobal fəlakətlər hər 125 min il ərzində təkrarlanır. Bu günə qədər heç kəs əhəmiyyət verməyib ki, Şumer mətnləri e.ə. 200. 000-ci illərdə baş verən qlobal buzlaşma dövrünün düz 125 min il davam etdiyini çoxdan xəbər vermişdir. Beləliklə, biz son buzlaşma dövründə yaşayırıq və onun "ömrünə" hələ 48 min il qalır (Şumer mətnlərinə və Platonun verdiyi informasiyalara görə).





Bəs bununla bağlı müasir elm nə deyir? Buzlaşma aşağı temperatur nəticəsində qütb buzları sahəsinin kəskin şəkildə genişlənməsidir. Buzlaşma dəniz səviyyəsinin aşağı düşməsi və su altında qalan quru torpaqların üzə çıxması ilə müşahidə olunur. Elmdə bu proses reqressiya adlanır.

Daşqın isə buzlaşmanın tərsidir, yəni hava temperaturunun yüksəlməsi qütb buzlarının bir hissəsinin əriməsinə səbəb olur, nəticədə dəniz və okeanlar qabararaq quru torpaqları basır. Bu proses **transqressiya** adlanır.

Uca Tanrı Kainatı, o cümlədən Yer kürəsini elə yaradıb ki, burada hər şey üzvi şəkildə bir-biri ilə bağlıdır, hər şey bir-birini tamamlayır və tarazlaşdırır.

Qədim dövrlərin hava şəraitinin öyrənilməsi (paleoiqlim) göstərmişdir ki, buzlaşma dövrü sanki müəyyən qaydalara tabe olur, ardıcıllıqla baş verir və təkrarlanır. Alimlər müəyyənləşdirmişlər ki, Yer üzündə ilk buzlaşma 2, 3 milyard il bundan əvvəl vulkan püskürmələri nəticəsində baş vermiş və həmin vaxtdan bəri müəyyən zaman kəsiyindən sonra təzədən təkrarlanır. Alimlər bunu şərti olaraq təkrarlanan faciələr qanunu adlandırmışlar. Alimlərin qənaətinə

görə, hər buzlaşma dövrü 100. 000 il çəkir, sonra isə bəzi mülahizələrə görə, 10 min illə 20 min il arası, Şumer mətnlərinə görəsə, 50 min ilə qədər çəkən buzlaşmalararası dövr başlanır.

Maraqlı burasıdır ki, kənar təsir olmasa, təbiət hər şeyi özü qaydaya salır. Bu qanunauyğunluqlardan biri də "müsbət əks-təsir" və "mənfi əks-təsir" prosesidir.

Temperaturun yüksəlməsi suların buxarlanmasına səbəb olur, su buxarları isə öz növbəsində parnik qazlarını çoxaldır. Parnik qazlarının çoxalması sayəsində temperaturun artması güclənir. Bu effekt "müsbət əks-təsir"dir.

Lakin temperaturun yüksəlməsi Arktika buzlarının bir hissəsini əridir, Atlantik okeanının şimalında yerləşən içməli suların səviyyəsi qalxır, bu isə əsas dəniz sirkulyasiyasının qarşısını kəsir, Qolfstrimə isti su axınını əngəlləyir. Nəticədə temperatur xeyli dərəcədə aşağı düşür. Bu prosesi mütəxəssislər "mənfi əks-təsir" adlandırırlar.

Yuqoslav riyaziyyatçısı və astronomu Milutin Milakoviç buzlaşma və daşqının səbəblərini öyrənərkən belə qənaətə gəlmişdir ki, Yerin orbital parametrlərinin silsilə dəyişmələri planetin Günəşdən aldığı enerji selinin şəklinin dəyişməsinin dövriliyi ilə bağlıdır. M.Milakoviçə görə, bu cür parametrlər üçdür:

1. Yerin orbiti hər 100. 000 ildən bir kürə şəklindən basılaraq ellipsvarı şəklə düşür.

2. Hər 41. 000 ildən bir fırlanma oxu orbit səthinə doğru 21-24 dərəcə arasında əyilir, yanvar aylarında Yerlə Günəş arasındakı məsafə maksimum həddə çatır, ona görə də bu dövrdə Şimal yarımkürəsində iqlim yumşaq, Cənub yarımkürəsində isə sərt olur.

3. Nəhayət, hər 25.920 ildən bir fırlanma oxu presessiya sikli nəticəsində konusvarı yavaş hərəkət cızır.

Bu üç parametrin birgə hərəkəti buzlaşma dövründə Günəş enerjisinin 20 faiz defisitini yaradır.

Lakin sənaye erasının başlanmasından üzübəri insanın təbiətə müdaxiləsi çoxalmış, müxtəlif qaz tullantıları atmosferi çirkləndirmiş, parnik effekti sayəsində təbii tarazlaşma prosesi pozulmuş, qlobal istiləşmə sürətlənmişdir. Alimlər hesablayıblar ki, insanın təbiətə müdaxiləsi bu şəkildə davam edərsə, onda 2012-ci ilədək qlobal temperatur 1-5, 5° C artacaq, XXI yüzilliyin sonunadək qütb buzlarının bir hissəsinin əriməsi dəniz səviyyəsinin 30-100 sm yuxarı qalxmasına səbəb olacaq. Bu isə o deməkdir ki, ən aşağı ovalıqlar, məsələn, Banqladeş və Hollandiya su altında qalacaq, böyük çay deltaları (Nil, Niger, Qanq) məcrasından çıxacaq, habelə dəniz səviyyəsindən aşağıda olan bir çox adalar növbəti faciə ilə üzləşəcək. Cənubi Avropada və Aralıq dənizi hövzəsində isə güclü quraqlıq baş verə bilər. Alimlərin qənaətincə 17 min il əvvəl də hadisələr eyni cür, həm də daha dəhşətli formada baş vermişdir.

Əvvəlcə onu deyim ki, qədim dövrlərin hava şəraiti barədə informasiyalar müxtəlif üsullarla əldə olunur:

1. Tarixi sənədlərin öyrənilməsi yolu ilə. Taxılın qiyməti, üzüm yığımlarının vaxtının dəyişməsi, kanalların buz bağlaması və s. barədə məlumatlar min il ərzində baş vermiş iqlim dəyişikliyini tədqiq etməyə imkan verir.

2. Ağac gövdələrinin öyrənilməsi yolu ilə. Ağac gövdələrinin dairəsinin illik inkişafı və sıxlığı iqlim şəraiti ilə bağlı olduğuna görə bu cür tədqiqatlar sayəsində 10. 000 il ərzində baş vermiş temperatur dəyişikliklərini öyrənmək mümkündür.

3. Oksigen izotoplarının öyrənilməsi yolu ilə. Bu metod daha geniş yayılmışdır və 100. 000 il ərzində baş verən iqlim dəyişikliklərini dəqiqləşdirməyə imkan verir.

4. Qütb buzlarının deşilərək, alınmış nümunələrin təhlili əsasında 500. 000 il ərzində iqlim dəyişikliyi barədə proqnoz söyləmək mümkündür.

Mayami Universitetinin professoru, dəniz dibindəki çöküntülərin və mərcanların izotop təhlili əsasında tarixin uzaq keçmişindəki iqlim dəyişikliklərinin öyrənilməsi üzrə çox nadir mütəxəssis sayılan Çezare Emiliani ömrünün çox böyük bir hissəsini bu problemə həsr etmişdir.

Məhz onun çox gərgin əməyi sayəsində son 20.000 ildən bəri baş verən iqlim dəyişikliklərinin və əfsanələşmiş Ümumdünya Daşqınının üstündən sirr pərdəsini götürmək mümkün olmuşdur. Emiliani uzun müddətli izotop təhlillərindən sonra sübut etmişdir ki, 17 min il bundan qabaq naməlum səbəblər üzündən tədricən artan iqlim dəyişiklikləri baş vermiş, Şimal qütbünün buzları xırdalanaraq parçalanmış və dünyanın xəritəsini dəyişə bilən qlobal daşqınlar olmuşdur. Emiliani axırıncı buzlaşma dövründə baş verən çoxlu sayda xırda və üç qlobal daşqının olduğunu müəyyənləşdirmişdir. Bu daşqınlar bir çox quru torpaqların su altında qalmasına, yeni landşaftların yaranmasına gətirib çıxarmışdır. Emiliani bu daşqınların baş verdiyi dövrləri də konkret göstərir. Birinci daşqın 14-15 min il əvvəl, ikinci daşqın 11-12 min il əvvəl, üçüncü daşqın isə 7-8 min il əvvəl olmuşdur.





Emilianinin bu kəşfindən sonra tədqiqatçılar hesablayıblar ki, son on yeddi min il ərzində həqiqətən suyun səviyyəsi 120 metr qalxmış, bu isə hətta ən uca dağların da su altında qalmasına imkan vermişdir. Bu daşqınlar nəticəsində Yer kürəsinin 5 faizi, yəni 25 milyon kvadrat kilometr torpaq sahəsi tamamilə su ilə örtülmüşdür.

Emiliani belə hesab edir ki, qütb buzlarının əriməsi nəticəsində 15 min il bundan əvvəl su bir çox adaların, qitələrin coğrafiyasını dəyişmişdir:

E.ə. 15 mininci ilədək Alyaska və Sibir arasındakı Berinq boğazı yox idi;

Cənubi İngiltərə ilə Şimali Fransa arasında La-Manş körfəzinin yerində vadi vardı;

Cənub dənizində, müasir Avstraliya, Tasmaniya və Yeni Qvineyanın yerində nəhəng Saxul kontinenti yüksəlirdi;

On iki min il əvvəl Yaponiyanın üç adası əvəzinə bir nəhəng ada mövcud idi;

On yeddi min il əvvəl İran körfəzi bugünkü yerində deyildi.

Görünür, tarixin qədim dönəmlərində olduğu kimi, son dönəmindəki daşqınlar da dünyanın xəritəsini kökündən dəyişə bilmək qüdrətinə malik olub!

Beləliklə, alimlər elmi təhlil yolu ilə Platonun yalan danışmadığını və qədim Şumer mətnlərindəki Ziusudra Daşqınının tarixi həqiqət olduğunu sübut

etdilər. Hətta zaman da uyğun gəlir. Emilianinin göstərdiyi ilk qlobal daşqın 14-15 min il əvvəl, yəni e.ə. XIII minillikdə baş vermişdir. Ziusudra Daşqınının da məhz həmin dövrə təsadüf etdiyi güman edilir.

Birinci qlobal Daşqının e.ə. XIII minillikdə baş verdiyi arxeoloji qazıntılar zamanı Nippur şəhərindən tapılan «çar siyahısı» ilə də təsdiqlənir. Bəzi tədqiqatçıların iddiasına görə, Berlindəki muzeydə saxlanan «çar siyahısı»nda «allahların» Yerdəki hakimiyyətindən bəhs olunursa, «Nippur siyahısı»nda insanların çarlıq illəri öz əksini tapıb. I Kiş dinastiyasından başlayıb İssinlə (Nisinlə) bitən həmin siyahı çarların sayını və hakimiyyət illərini bildirməklə 20 dinastiyanı əhatə edir. Biz Akkad dövlətinin yaranmasını (e.ə. 2371) istinad kimi götürərək qalan bütün dinastiyaların hakimiyyətdə olduqları illəri bərpa etməyə çalışdıq.

Yeri gəlmişkən, Şumer ərazisində Akkad çarlığının e.ə. 2371-ci ildə yaranması da mübahisəlidir. Məsələn, Şeylanın «çar siyahısı»nda akkadların hakimiyyətə gəlişi e.ə. XXVIII əsrə aid edilir. B. Turayev isə XX yüzilliyin əvvəllərindəki ən son məlumatlara istinad edərək akkad dinastiyasının çarlıq illərini e.ə. 2316-2174-cü illər kimi göstərir. Bu isə B. Turayevin də istinad etdiyi «Nippur çar siyahısı» ilə üst-üstə düşmür. Çünki «Nippur siyahısı»nda akkadların 197 il hakimiyyətdə qaldıqları qeyd olunmuşdur. Bütün tədqiqatçılara görə, akkadların siyasi tənəzzülü e.ə. 2174-cü ildə baş verdiyindən, onların hakimiyyətə gəlişi yalnız e.ə. 2371-ci ildə baş tuta bilərdi.

Digər tədqiqatçılar, o cümlədən Azərbaycan alimləri I Sarqonun hakimiyyətini e.ə. 2316 – e.ə. 2261-ci





illərə bağlayırlar. Bu isə nəinki «Nippur çar siyahısı» ilə, hətta Azərbaycan alimlərinin özlərinin qələmə aldıqları digər tarixi hadisələrlə uzlaşmır. Məsələn, əgər Akkad dövləti həqiqətən e.ə. 2316-cı ildə qurulubsa, o zaman qutilərin Şumeri tutması e.ə. 2093-cü ildə baş verməliydi. (Şumerin işğalından sonra Akkad 197 il, IV Uruk dinastiyası isə 26 il hakimiyyətdə qalıb). Halbuki əksər tədqiqatçılar qutilərin İkiçayarasını fəth etməsini e.ə. 2200-cü illə bağlayırlar.

Akkad dövlətinin e.ə. 2316-cı ildə qurulması bir də ona görə mümkün deyildir ki, həmin dövrdə Sarqon Şumerdən sonra bütün dörd regionu ələ keçirtməyə çalışmış, lakin öz səhv hərəkəti ucbatından «allahların» qəzəbinə gələrək məğlub olmuşdu. Sarqon yazırdı ki, qarabaşların ölkəsini işğal etdim və 54 il hakimiyyətdə qaldım. E.ə. 2317-ci ildə taxtdan salınan Sarqon Akkad dövlətini yalnız e.ə. 2371-ci ildə qura bilərdi.

Başqa bir fakt. Şumer siyasi hakimiyyətinə son zərbə vuran və «ağ ölüm» silahı ilə Tilmunun da məhv edildiyi müharibə e.ə. 2024-cü ildə baş vermişdir. Halbuki 197 il hakimiyyətdə qalan Akkad dinastiyasından sonra 26 il IV Uruk, 91 il Quti, 10 il V Uruk, 117 il III Ur sülaləsi taxt-taca sahib olub. Onda belə çıxır ki, sonuncu dörd dinastiya Şumeri onun süqutundan sonra idarə edibmiş. Amma Akkad dövlətinin yaranma vaxtını öz yerinə, e.ə. 2371-ci ilə çəkdikdə Nippur «çar siyahısı»ndakı bütün tarixlər bir-biri ilə tam uzlaşmağa başlayır.

## NİPPUR «ÇAR SİYAHISI»

| | Şəhər-dövlətlər və dinastiyalar | Çarların sayı | Hakimiyyət illəri | Çarlıq müddəti |
|---|---|---|---|---|
| 1. | I Kiş dinastiyası | 23 | E.ə. 37.510-e.ə. 13.000 | 24. 520 il |
| 2. | I Uruk dinastiyası | 12 | E.ə. 10. 663-e.ə. 8353 | 2310 il |
| 3. | I Ur dinastiyası | 4 | E.ə. 8353-e.ə. 8176 | 177 il |
| 4. | Avan dinastiyası | 3 | E.ə. 8176-e.ə. 7820 | 356 il |
| 5. | II Kiş dinastiyası | 8 | E.ə. 7820-e.ə. 3935 | 3895 il |
| 6. | Hamas dinastiyası | 1 | E.ə. 3935-e.ə. 3575 | 360 il |
| 7. | II Uruk dinastiyası | 3 (?) | E.ə. 3575-e.ə. 3095 | 480 il |
| 8. | II Ur dinastiyası | 4 | E.ə. 3095-e.ə. 2987 | 108 il |
| 9. | Adab dinastiyası | 1 | E.ə. 2987-e.ə. 2897 | 90 il |
| 10. | Mari dinastiyası | 6 | E.ə. 2897-e.ə. 2761 | 136 il |
| 11. | III Kiş dinastiyası | 1 (qadın) | E.ə. 2761-e.ə. 2661 | 100 il |
| 12. | Ağsaka dinastiyası | 6 | E.ə. 2661-e.ə. 2562 | 99 il |
| 13. | IV Kiş dinastiyası | 8 (7) | E.ə. 2562-e.ə. 2396 | 166 il |
| 14. | III Uruk dinastiyası | 1 | E.ə. 2396-e.ə. 2371 | 25 il |
| 15. | Akkad dinastiyası | 11 | E.ə. 2371-e.ə. 2174 | 197 il |
| 16. | IV Uruk dinastiyası | 5 | E.ə. 2174-e.ə. 2148 | 26 il |
| 17. | Quti dinastiyası | 24 | E.ə. 2148-e.ə. 2057 | 91 il |
| 18. | V Uruk dinastiyası | 3 (?) | E.ə. 2057-e.ə. 2047 | 10 il |
| 19. | III Ur dinastiyası | 5 | E.ə. 2047-e.ə. 1930 | 117 il |
| 20. | İssin dinastiyası | ? | E.ə. 1930 - | - |





Nippur «çar siyahısı»nın e.ə. 1930-cu illərdə, İssin (Nisin) dinastiyasının hakimiyyəti dövründə qələmə alındığı güman olunur. Belə görünür ki, həmin dövrdə «çar siyahıları» tərtib etmək dəbdə imiş.

Y.Yusifov yazır ki, e.ə. III minilliyin sonunda «Şumer hökmdar siyahısı» yazılmışdır. E.ə. XVIII əsrdə yeni adlar əlavə olunan bu siyahıda əfsanəvi dövrdən başlayaraq İkiçayarası hökmdarlarının adları çəkilmişdir. Assurların hakimiyyətini əks etdirən «çar siyahısı» da mövcud imiş. Babilistanın tarixi yazılan «çar siyahısı»nın olduğu da tədqiqatçılara məlumdur.

Lakin bunların arasında Nippur «siyahısı» daha önəmli yer tutur. Çünki bu «siyahı»nın fantastik təzahürlərdən arınaraq diqqətlə öyrənilməsi bu günə qədər mövcud olan bütün ehtimalları alt-üst edir. «Siyahı» İkiçayarasında yaranan ilkin bəşər sivilizasiyasının tarixini e.ə. IV minillikdən daha qədim dövrlərə çəkir. Belə görünür ki, Mesopotamiya ərazisində şəhər-dövlətlər hələ on üç min il əvvəl də mövcud imiş. «Siyahı»da bu şəhər-dövlətləri idarə edən II Kiş, Avan, I Ur, I Uruk və I Kiş çarlarından söz açılır. Amma bu necə ola bilər? Axı akademik elmə görə İkiçayarasında sivilizasiya yalnız altı min il bundan qabaq təşəkkül tapmışdır və ondan əvvəl bu yerlərdə inkişaf etmiş mədəniyyətin mövcudluğundan söhbət belə gedə bilməz.

Faktı izah etmək mümkün olmayanda ən asan yol onu rədd etməkdir. Konservativ tədqiqatçılar da məhz bu yolu tutdular. Berlin muzeyindəki «çar siyahısı» kimi, Nippur «çar siyahısı»nı da mifoloji təfəkkürün məhsulu elan edərək yaxına buraxmadılar. Hal-

buki bəzi müəmmalı cəhətlərinə və ziddiyyətlərinə baxmayaraq Nippur «çar siyahısı» çox qaranlıq mətləblərin üstündən sirr pərdəsini götürür. Bunların içərisində ən önəmlisi Daşqınla bağlıdır.

B.Turayev yazır ki, Nippurda tapılan «çar siyahısı» Daşqından sonra hakimiyyətə gələn dinastiyaları əhatə edir. Lakin təkcə I Kiş dinastiyasının 24. 510 il üstəgəl 10 il 3 ay və 3 gün davam etdiyini nəzərə alsaq, bu sözlərin həqiqətə uyğun olmadığını görəcəyik. Bəs Turayev nə üçün belə yazmışdır? Rus tədqiqatçı yaxşı bilirdi ki, çox uzun bir müddəti, 33. 263 ili əhatə etdiyinə görə Nippur «çar siyahısı» Nuhun tufanı üçün istinad mənbəyi ola bilməz. Bəs onda Turayev hansı daşqını nəzərdə tuturdu? Axı XX əsrin əvvəllərində əksər tədqiqatçılar Ümumdünya daşqanını e.ə. IV minilliyin sonları, e.ə. III minilliyin əvvəllərinə bağlayırdılar. Məsələn, S.Kramer yazırdı ki, daşqından sonra hansı şəhərin paytaxt olması üstündə Kişlə Uruk arasında yaranan konflikt müharibə həddinə çatmışdı və I Uruk dinastiyasının beşinci çarı Gilqamış e.ə. 2800-cü ildə bu məsələni müzakirə etmək üçün ikipalatalı parlamentin ilk iclasını çağırdı. Bu tarix Nippur «çar siyahısı» ilə heç cür uzlaşmır, arada çox böyük bir fərq yaranır. Bu siyahıya görə Gilqamışın e.ə. 2800-cü ildə parlamentin ilk iclasını keçirməsi, sadəcə, mümkün deyildir. Amma belə görünür ki, Nuhun tufanını və I Uruk dinastiyasını e.ə. IV-III minilliklərə bağlamağa çalışanlar həqiqətən yanılırlar.

İndi gəlin Urukla Kişi müharibə həddinə gətirən konfliktin e.ə. III minillikdə deyil, daha gec, Emilia-ninın hesabladığı birinci qlobal daşqından sonra, eramızdan əvvəlki XI minillikdə baş verdiyini təsəvvürümüzə gətirək. O zaman görəcəyik ki, qopmuş bütün daşlar dərhal yerinə oturur və Nippur «çar siyahısı» real anlam kəsb etməyə başlayır. Əgər Akkadın Şumeri işğalından (e.ə. 2371) əvvəl mövcud olan 13 dinastiyanın hakimiyyət illərini toplayaraq üst-üstə gəlsək, aydın olacaq ki, I Uruk dinastiyasının ilk çarı Meksiaqqaşer e.ə. 10.663-cü ildə, yəni Emilianinin xəbər verdiyi birinci qlobal daşqının nəticələri aradan qalxdıqdan sonra taxta oturmuşdur və təbii ki, I Kiş dinastiyası bu daşqından sonra deyil, yalnız əvvəl mövcud ola bilərdi. Onların çarlıq müddəti «siyahıya» görə 24.510 il çəkdiyindən ilk Kiş şəhər-dövlətinin e.ə. 37.510-cu ildə qurulduğu məlum olur (24.510+13.000).

Mənə elə gəlir ki, Nippur «çar siyahısı»nın başqa bir özəlliyi də vardır. Bu «siyahı»da birinci qlobal daşqının baş verdiyi konkret tarix kodlaşdırılmışdır. Bu, I Kiş dinastiyasının hakimiyyət illərini göstərən «üstəgəl 10 il 3 ay və 3 gün» rəqəmlərində öz əksini tapıb. Nə üçün Şumer mirzələri rəqəmləri cəmləyərək – 24.520 il şəklində yazmamış, onları «üstəgəllə» bir-birlərindən ayırmışlar? Fikrimizcə, əsas rəqəmdən ayrı göstərilən 10 il 3 ay və 3 gün problemin həllində açar rolunu oynayır. «Çar siyahısı»nı tərtib edənlər bununla bir eranın başa çatdığını, yeni eradan isə 10 il 3 ay və 3 gün keçdiyini vurğulamaq istəmişlər. Başqa cür desək, «siyahı» bizi başa salır ki, I Kiş dinastiyası eramızdan əvvəlki XIII minillik başlayanadək 24.510 il taxt-tacda oturmuş, yeni eradan 10 il 3 ay və 3 gün sonra hakimiyyəti itirmişlər. «Siyahı»da hakimiyyətin sona çatma səbəbləri göstərilməsə də, bu-

nun birinci qlobal daşqın olduğunu güman etməyə hər cür əsas vardır. Beləliklə, Nippur «çar siyahısı» sayəsində birinci qlobal daşqının dəqiq tarixini müəyyənləşdirmək mümkündür: e.ə. 12.989-cu il iyun ayının 3-ü. Bu tarix Emilianinin və digər müasir tədqiqatçıların qənaətlərini təsdiqləyir və onları tamamlayır.

Nippur «çar siyahısı»nın özəllikləri təkcə bununla bitmir. «Siyahı»nın diqqətlə öyrənilməsi göstərir ki, orada digər qlobal daşqınlar barədə də çox qiymətli informasiyalar «gizlədilmişdir». Nə qədər paradoksal görünsə də, məhz bəzi tədqiqatçıların «mifoloji yozum» kimi qələmə verdikləri fantastik rəqəmlər ikinci və üçüncü qlobal daşqının vaxtını müəyyənləşdirməkdə bizə kömək edir.

Nippur «çar siyahısı»nda göstərilir ki, I Uruk dinastiyasının 12 çarı 2310 il, II Kiş dinastiyasının 8 çarı isə 3895 il hakimiyyətdə qalmışlar. Bu tarixlər həqiqətən 12 və ya 8 insanın ömrünə sığmayacaq qədər uzun bir müddətdir.

I Uruk dinastiyasındakı çarların hökmdarlıq illərinə diqqətlə fikir verin:

Meksiaqqaşer – Günəş allahının oğlu, 325 il çar olub;
Enmerkar – Meksiaqqaşerin oğlu, 420 il çar olub;
Luqalbanda – çoban, 1200 il çarlıq edib;
Timmuz – ovçu, 100 il çarlıq edib;
Gilqamış – Luqalbandanın oğlu, 120 il çarlıq edib.

Tədqiqatçıların yazdıqlarına görə, guya Gilqamışdan sonra gələn 7 çarın adı qəsdən siyahıdan silinmişdir. Burada ilk baxışdan gözə çarpan ziddiyyət ondan ibarətdir ki, yer insanının 420 il (Enmerkar), yaxud 1200 il (Luqalbanda) çarlıq etməsi yalnız mifoloji





yozum kimi qəbul edilə bilər. Nippur «çar siyahısı»nda mifoloji təfəkkürlə real düşüncə tərzi sanki bir-birinə qarışmış və onların sərhəddi itmişdir. Görünür, elə bu səbəbdən əksər tədqiqatçılar «siyahını» fantastika adlandıraraq, ciddi qəbul etməmişlər. Amma «siyahı»ya ayrı bucaq altından, bir qədər fərqli yöndə baxdıqda vəziyyət dərhal dəyişir.

Platon deyirdi ki, 9 min (müasir hesabla II min) il əvvəl baş vermiş güclü daşqın Yer üzündə böyük fəlakətlər törətdi. Mayami Universitetinin professoru Çezare Emiliani də uzun illərin tədqiqatları nəticəsində ikinci qlobal daşqının 12-11 min il əvvəl (e.ə. X-IX minilliklərdə) baş verdiyi qənaətinə gəlmişdir. Maraqlı burasıdır ki, Emilianinin göstərdiyi həmin qlobal daşqının vaxtı I Uruk dinastiyasının 2310 illik hakimiyyət illərinə təsadüf edir. Tədqiqatçıların gəldikləri yekdil qənaət ondan ibarətdir ki, hər qlobal daşqın Yer üzündə böyük fəlakətlərə yol açmış, kəndlər, şəhərlər su altında qalaraq məhv olmuş, canını qurtararaq dağlara qaçan insanların nəvə-nəticələri yalnız uzun əsrlərdən sonra öz əvvəlki yurd yerlərinə dönə bilmişlər. Görünür, I Uruk dinastiyası da eyni dəhşətli aqibəti yaşamışdır.

İndi fərz edək ki, I Uruk dinastiyası taxta oturduqdan (e.ə. 10.663) bir qədər sonra (təəssüf ki, konkret rəqəm söyləmək çətindir) dəhşətli kataklizm Mesopotamiyada ciddi dağıntılara və insan ölümünə yol açmış, bu üzdən dinastiyanın fəaliyyətinə son qoyulmuşdur.

Daşqının konkret tarixi və nəticələrinin nə zaman aradan qalxması barədə əlimizdə heç bir məlumat ol-

madığından Emilianinin hesablamalarına istinad etmək məcburiyyətindəyik. Amerikalı alimə görə bu dəhşətli fəlakət insanları e.ə. X minillikdə yaxalamış və e.ə. IX minilliyə qədər davam etmişdir. Bataqlıqların quruması, torpağın əkinə yararlı hala düşməsi və insanların dağlardan enərək təzədən öz yurd-yuvalarına dönə bilmələri üçün neçə əsrlərin gərək olduğunu da nəzərə alsaq, I Uruk dinastiyasında 12 çarın nə üçün bu qədər uzun müddət «hakimiyyətdə qalmasının» üzərindən sirr pərdəsi götürülmüş olar. Belə görünür ki, «siyahı»nı hazırlayan mirzələr daşqından sonra növbəti dinastiyaya qədər «boş qalan» illəri də Uruk çarları arasında bölüşdürdüklərindən 420 və ya 1200 il kimi fantastik rəqəmlər alınmışdır.

Emilianinin araşdırmalarına görə, dünya üçüncü qlobal daşqına da məruz qalıb və onun acı nəticələri Mesopotamiyadan da yan ötməyib. Emiliani üçüncü qlobal daşqının e.ə. VII-VI minilliklərdə baş verdiyini göstərir. «Təsadüfə» bax ki, həmin dövr də II Kiş dinastiyasının «fantastik» hakimiyyət illəri ilə üst-üstə düşür. İndi gəl «təsadüfün» təsadüf olmadığını sübut elə görüm, necə sübut edirsən!

Sual olunur: nə üçün Nippur «çar siyahısı»nı tərtib edənlər qlobal daşqınlardan kənarda qalan dinastiyaların hakimiyyət illərini qələmə alarkən yer insanı üçün məqbul olan rəqəmlər seçmiş, digər üç halda isə buna əməl etməmişlər? Ağlı başında olan hansı insan bunun adi bir təsadüf olduğuna inanar?

Açıq görünür ki, e.ə. VII-VI minilliklərdə baş verən qlobal daşqın özündən əvvəlki daşqınlar kimi





böyük fəlakətlərə yol açmış, yer üzündə həyat iflic vəziyyətinə düşmüş, bu üzdən II Kiş dinastiyasının hakimiyyətinə son qoyulmuşdur. Ehtimal etmək olar ki, «çar siyahısı»nı tərtib edənlər dinastiyanın çarlığına son verən fəlakətdən sonrakı minillikləri də II Kiş sülaləsinin hakimiyyət illərinə əlavə etmişlər, eynən I Kiş və I Uruk sülaləsinin hakimiyyət illərinə əlavə etdikləri kimi.

Beləliklə, Nippur «çar siyahısı»na baxış bucağı azacıq dəyişdikdə, ortaya çıxan «fantastik» rəqəmlərin heç də fantastika olmadığı üzə çıxır. Vallah, kim nə deyir desin, Şumer tarixi həqiqətən inanılması zor olan möcüzələrlə doludur. Sual olunur: üç qlobal daşqın barədə müasir elmi qənaətin Nippur «çar siyahısı» ilə üst-üstə düşməsi bir təsadüf ola bilərdimi? Mən buna inanmıram!

Bu yerdə başqa bir «təsadüf» diqqəti cəlb edir. «Gəlmələr» yalnız hər 3600 ildən bir yerə qayıda bilirdilər. İkiçayarasında həyatın qəfil sıçrayış tempi ilə inkişafı da məhz bu illərlə üst-üstə düşür: e.ə. 11.000-ci, e.ə. 7400-cü və e.ə. 3800-cü illər. Əvvəlki iki yüksəliş nəticəsində əldə olunan nailiyyətləri əks etdirən bütün dəlil-sübutlar birinci, ikinci və üçüncü qlobal daşqın sayəsində suyun altında qalaraq məhv olmuş, sonuncu yüksəliş illərini əks etdirən «gil kitabə»lər isə dövrümüzə qədər gəlib çatmışdır.

İndi də Nuhun tufanının baş verə biləcəyi dövrü aydınlaşdırmağa çalışaq. Tövratda Noyun (Nuhun) şəcərə siyahısı verilib. Samilər (semitlər) Arpakşadın səkkizinci budağı Avraamın (İbrahimin) Saradan olan

nəslidir. Avraamın (İbrahimin) Sara ilə evlənməsi Z.Sitçinin hesablamasına görə, 2024-cü ildə baş vermiş, bir il sonra İsaak dünyaya gəlmişdir. Digər mənbələr bu hadisəni başqa cür yozurlar. Avraamın Hacərdən İsmayıl adlı bir oğlu varmış. 99 yaşı olanda Avraama vəhy gəlir ki, tezliklə Saradan uşağı olacaq. O zaman Sara da çox qocaymış və ər-arvad bu vəhyə inanmaq istəmirlər. Amma həqiqətən bir ildən sonra Sara İsaakı doğur.

Mən İbrahimin yaşadığı dövrü dürüstləşdirmək üçün onlarla mənbəni qarşılaşdırmalı oldum. Bunu ona görə etdim ki, Nuhun nə zaman doğulduğunu, Tufanın nə vaxt baş verə biləcəyini öyrənim və təbii ki, türklərin Başlanğıc nöqtəsinə, Yafəsə və Qamərə "açar" tapım.

Azərbaycan alimi F.Ağasıoğlu yazır: "Bibliya mətnlərinə baxanda İbrahimin e.ə. XVIII əsrin ortalarında yaşaması təsəvvürü yaranır. Ancaq tarixi gerçəkliyə uyğun gəlməyən Bibliya mətnlərində bir sıra ziddiyyətlər vardır".

Tövratda göstərilir ki, İbrahimin atası İkiçayarasının güneyində, xaldeylərin Ur şəhərində yaşayırmış. Lakin tarixçilər deyirlər ki, xaldeylər bu ərazilərə yalnız e.ə. birinci minilliyin axırlarında gəlmişlər.

Tövrata görə, İbrahimin tarixi Nəmrudun Babildə hökmdar olduğu dövrə düşür. Bəzi tarixçilər isə deyirlər ki, Babilin çar siyahısında Nəmrud adlı hökmdar yoxdur. Təbəri yazır ki, bizdən öncə keçib gedən elm mənsublarının hamısı İbrahimin Nəmrud bin Köş zamanında doğulduğunu zikr etmişlər.





Aramey yazarı Əbü-l Fərəc iddia edir ki, İbrahim Tufandan sonra Babildə ilk hökmdar olmuş Nəmrudun vaxtında deyil, bundan bir neçə əsr sonra doğulmuşdur.

Turayev yazır ki, Tövrat yəhudilərin soybabası Avraamın Ur və Harrana bağlılığını Hammurapi çağına (e.ə. - 1792-1750) aid edir.

Məsudiyə görə, İbrahim İsadan iki min il öncə yaşamışdır.

Belə çıxır ki, İbrahimin yaşadığı dövrü dəqiq şəkildə müəyyənləşdirmək qeyri-mümkündür.

Alimlər vəziyyətdən çıxış nöqtəsi kimi İsrailoğullarının Misirdən qaçması tarixini götürdülər. Alimlər bu məsələni dəqiqləşdirmək üçün düz yüz il araşdırma aparmış və cild-cild elmi əsərlər yazmışlar. Son sözümü bəri başdan deyim ki, hətta yüz illik araşdırmanın nəticəsinə də şübhə ilə yanaşanlar vardır. Məsələn, "Kratkaya istoriya yevreyev" kitabının müəllifi S.Dubnov bu tədqiqatçılardan fərqli olaraq yəhudilərin Misirdən qaçmasını e.ə. 1433-cü ilə deyil, II Ramzesdən sonra hakimiyyətə gələn I Meneftenin dövrünə – e.ə. 1250-ci ilə aid edir.

Tədqiqatçılar müəyyənləşdiriblər ki, Misirə köç edən Yakovun (Yaqubun) 12 oğlunun 70 nəfərə yaxın ailə üzvü varmış. Lakin onlar qısa zaman kəsiyində çox böyük sürətlə artıb çoxaldıqlarına görə bu, Misir faraonlarını narahat etmiş və onlar yəhudilərin həyatını çətinləşdirmək üçün hər cür tədbirə əl atmışlar.

Faraon III Tutmosun dövründə qul kimi işlədilən İsrailoğulları ondan sonra taxta çıxan II Amenhotepin

dövründə Misirdən qaçıblar. III Tutmosun e.ə. 1450-ci ildə öldüyünü deyən alimlər yəhudilərin Misiri tərk etməsini e.ə. 1433-cü ilə aid edirlər.

Çıxış tarixini biləndən sonra İbrahimin və Nuhun doğum illərini öyrənmək su içmək kimi asan bir şeydir.

Tövratda deyilir ki, yəhudilər Misirdə 400 (430) il yaşamışdılar. Deməli, onların bu ölkəyə köçü e.ə. 1833-cü ilə təsadüf edəcək. Yenə Tövrat yazır ki, yəhudilər Misirə gələndə İosif (Yusif) atası Yakovu (Yaqubu) faraonun yanına gətirdi. Faraon ondan "Neçə yaşın var?" deyə soruşanda cavab verdi ki, doğulduğum gündən 130 il keçib. Beləliklə, Yakovun (Yaqubun) e.ə. 1963-cü ildə dünyaya gəldiyi aydınlaşır.

Tövratın verdiyi başqa bir bilgiyə görə, Yakov (Yaqub) anadan olanda atası İsaakın 60 yaşı varmış. İsaak dünyaya gələndə isə atası Avraamın (İbrahimin) yüz yaşı tamam olmuşdu. Beləliklə, 1963-ün üstünə 160 gəlsək, 2123 rəqəmi alınacaq. Bu, 175 il ömür sürmüş İbrahimin anadan olduğu tarixdir.

Bu tarix qədim mətnlərin verdiyi məlumatlarla da üst-üstə düşür. Bu vaxta qədər heç kəs bu kiçik detala əhəmiyyət verməyib ki, Şumerin sonuncu hökmdarlarından biri olan Amar Sinin çarlığının 7-ci ili – e.ə. 2041-ci il mətnlərdə MU.NE.İB.RU.UM.BA.NUL. – "çoban İbrahimin çadırının hücuma məruz qaldığı il" adlandırılıb. Tədqiqatçılar inanırlar ki, burada söhbət İbrahimdən və onun çadırından gedir. Şumerdə daxili çəkişmələrin kritik həddə çatdığı həmin ildə İbrahimin 82 yaşı vardı, Şumerin məhvinə isə hələ 17 il qalırdı.

Yuxarıdakı rəqəmlərə istinad edərək indi gəlin təxmini də olsa Nuhun yaşadığı dövrü müəyyənləşdirməyə çalışaq. Avraam (İbrahim) Nuhun şəcərəsində səkkizinci budaqdır. Əgər biz hər şəcərinin formalaşması üçün orta bir rəqəm, 150 rəqəmini götürsək, o zaman tapacağıq ki, Nuhdan İbrahimə qədər 1050 il vaxt keçib. İbrahimin e.ə. 2123-cü ildə doğulduğunu bildiyimizə görə aydın olur ki, Nuhun özü e.ə. 3173-cü ildə dünyaya gələ bilərdi. Əgər Nuh tarixi şəxsiyyətdirsə o, Tövratın verdiyi informasiyalara uyğun olaraq, bizim göstərdiyimiz dövrdə – ya e.ə. IV minilliyin sonlarında, ya da e.ə. III minilliyin lap başlanğıcında doğulmuşdur. Beləliklə Ziusudra Daşqını ilə Nuhun tufanı arasında 8.000 il kimi uzun bir zaman fərqi yaranır.





Lakin gəlin etiraf edək ki, gerçək tarix baxımından Nuhun şəcərəsini e.ə. III minilliyə bağlamaq və bütün bəşəriyyətin Simdən, Xamdan və Yafəsdən törəndiyini iddia etmək bir qədər absurd görünür. Bəs onda e.ə. III minilliyə qədər yaşamış onlarla etnik qrupların, tayfa birləşmələrinin taleyi necə olsun? Bu nə cür bəşər tarixidir ki, cəmi "üç sütunun" çiyinlərində gedir, amma bu "üç sütunaqədərki" yüz minlərlə, bəlkə də milyonlarla insan millətlərin formalaşmasında heç bir rol oynamır? Bəs e.ə. III minilliyə qədər Übeyd mədəniyyətini yaradanlar, kökü e.ə. VI minilliyə gedib çıxan Samarra mədəniyyətinin qurucuları necə olsun? Bununla bağlı türk tarixçisi Bəsim Atalayın fikirləri çox maraqlıdır. O yazır: "Bu deyilənlər əsassızdır, heç bir elmi əsası yoxdur, başdan-başa uydurmadır. Əfsanə də deyil, büsbütün yalandır. Çünki şərqlilərin hər bir millətinin kökünü Nuha və Nuhun oğlanlarına aparıb çıxartmaq nə elmə, nə məntiqə, nə də tarixi gerçəkliyə sığmır".

Həqiqətən, mifologiya məntiqi gerçək tarixi çıxılmaz dalana soxub sanki. Burada nəsə öz yerində deyil, bu əhvalatın mütləq ayrı yozumu olmalıdır.

Bəlkə Tövratla qədim Şumer mətnləri başqa-başqa daşqınlardan söhbət açırlar? Bəlkə bu iki əfsanə arasında süjet oxşarlığından başqa ayrı heç bir əlaqə yoxdur?

Həqiqətən də, bəzi tədqiqatçıların fikrincə, e.ə. III minilliyin başlanğıcında İkiçayarasında məhəlli əhəmiyyətli daşqın olmuşdur. Ayzek Əzimov hətta bu daşqının konkret vaxtını da göstərir: e.ə. 2800-cü il. Vulli də daxil olmaqla başqa alimlər bu tarixi hətta 500-700 il geri çəkirlər. Hər halda tədqiqatçıların yekdil olmayan qənaəti belədir ki, Nuhun tufanı lokal ərazidə, həm də e.ə. IV-III minilliklərdə baş verə bilərdi. Çox ola bilsin ki, e.ə. IV-III minilliklərdə İkiçayarasında həqiqətən məhəlli xarakterli lokal Daşqın baş vermiş və bu, fəlakətə, insan ölümünə, yaşayış məskənlərinin su altında qalmasına yol açmışdır. Hekayətin yazarları İkiçayarasındakı Daşqını nəzərdə tutsalar da, öz əhvalatlarında Ziusudra haqqında ölməz Şumer sənət əsərindən yararlanmışlar.

Nuhun tufanı barədə əfsanə uzun əsrlər boyu mübahisə mövzusu olmuşdur. Bu əhvalatın bütünlüklə qədim Şumer mətnindən götürüldüyünü söyləyənlərlə yanaşı əfsanənin başdan-başa yalan və uydurma olduğunu iddia edənlər də vardır. Həqiqətən Nuh hekayətində tarixi reallıqlarla mifoloji təfəkkür bir-birinə elə qarışdırılmışdır ki, həqiqətin harada başlandığını, mifin harada qurtardığını ayırd etmək çox çətindir.





Tarixi reallıq ondan ibarətdir ki, son 15.000 il ərzində planetimizdə üç qlobal daşqın baş vermiş və böyük fəlakətlərə yol açan bu faciə e.ə. V minilliyə qədər davam etmişdir. Lakin Şumer mifindəki Ziusudra əhvalatı insanların yox olama təhlükəsi ilə üz-üzə qaldıqları e.ə. XIII minilliyə, I qlobal Daşqın zamanına aiddirsə, tarixi gerçəklik göstərir ki, Nuhun tufanı bu Daşqından çox-çox sonra ola bilərdi. Həmin dövrdə isə bütün Yer üzünü su ilə örtə biləcək qlobal daşqınlar olmadığından hekayətdəki əhvalatlar sanki göydən asılı qalır, Nuhun gəmisinin Ararat dağlarının zirvəsinə qədər çatan dalğalar üzərində üzməsi, su bir qədər çəkildikdən sonra gəminin bu dağa yan alması inandırıcı görünmür, ən adi məişət nağılına bənzəyir. Tövratı tərtib edənlər Şumer əhvalatını örnək kimi götürərkən məsələnin bu tərəfini nəzərə almayıblar.

İkincisi və ən əsası, millətlərin Nuhun üç oğlundan törəməsi barədə Tövratın verdiyi informasiya da zaman etibarı ilə tarixi gerçəkiliyə uyğun gəlmir. Görünür, Tövratın istinad etdiyi qədim Şumer mətnində bütün xalqların Ziusudranın oğlanlarından törəməsi barədə məlumat özünə yer alıbmış. Məntiqi baxımdan bu əhvalatda reallıq işartıları vardır, yəni, dəhşətli Daşqın yer üzündəki bütün insanları məhv etdiyindən və təkcə Ziusudra sağ qaldığından sonrakı nəsillər həqiqətən onun oğlanlarından törəyə bilərdilər. "Etana haqqında əfsanə"də ötəri də olsa qeyd olunur ki, dingirlər Tilmun istisna olmaqla qalan üç regionu insanların idarəçiliyinə verdilər. Diqqətlə fikir versəniz gö-

rəcəksiniz ki, Tövrat versiyasında da Asiya, Avropa və Afrika xalqlarının guya Nuhun oğlanları – Samdan, Xamdan və Yafəsdən törədiyi iddia olunur. Bu qiymətli incini tərtib eləyənlər yenə aradakı zaman fərqini nəzərə almayıblar.

Beləliklə, fikrimizi yekunlaşdıraraq əminliklə söyləyə bilərik ki, bütün dünyada Nuhun tufanı kimi tanınan hekayət üçün süjet xətti qədim Şumer mifindən götürülmüşdür. Üslubun, simvolların və ayrı-ayrı detalların oxşarlığı bunu qətiyyətlə deməyə əsas verir. Lakin hekayətin Ziusudra Daşqınından 8.000 il sonra yaşayan tarixi şəxsiyyətlərə bağlanması Tövrat yazarlarını və eləcə də tədqiqatçıları çıxılmaz dalana dirəmişdir. O üzdən mövzunun başlıca sualı bu gün yenə açıq qalır: Nuh tarixi şəxsiyyətdirmi? Əfsanənin yaranmasına rəvac verən əhvalat həqiqətən e.ə. IV-III minilliklərdəmi baş verib, yoxsa süjetdə 15.000 əvvəlki Daşqındanmı bəhs olunur?

Daşqınla bağlı dünyanın əksər ölkələrində əfsanələr, rəvayətlər mövcuddur. Məşhur alman coğrafiyaşünası d-r Riçard Andre bu sahədə ciddi araşdırmalar aparıb və aydınlaşdırıb ki, daşqınla bağlı Yer üzündə 500-dən çox əfsanə vardır. Bu əfsanələrdən 86-nı (20 Asiya, 3 Avropa, 7 Afrika, 46 Amerika, 10 Avstraliya və Sakit okean adalarındakı ölkələrə məxsus) tədqiq edən d-r Riçard Andre bu qənaətə gəlmişdir ki, onlardan 62-nin Mesopotamiya rəvayətləri ilə heç bir əlaqəsi yoxdur və müstəqil süjetlərə malikdir. Lakin 24 əfsanə arasında sıx bağlılıq telləri var, sanki onlar vahid kökdən, eyni mənbədən qaynaqlanır.





Bunların arasında Mərkəzi Amerikada yaşayan mexoakanesek qəbiləsinin hekayəti çox maraqlıdır. Allah Teskatlipoka sel vasitəsilə insanları məhv etməyi qərara alır. Təkcə Tetsipi salamat qalır, ailəsini gəmiyə mindirir, böyük miqdarda quş və heyvan götürür, taxıl və bitki toxumları tədarük edir, sonra dalğaların üzəri ilə xeyli üzür. Gəmi zirvəsi suyun üstünə çıxan bir dağa yan alır. Tetsipi yaxınlıqda qurunun olub-olmadığını öyrənmək üçün qartal başlı, aslan bədənli qrif quşunu havaya buraxır, lakin qrif geri dönmür. Çünki ətraf onun yeyib-dolanacağı insan cəsədləri ilə dolu idi. Tetsipi, eynən Mesopotamiya mətnlərində olduğu kimi, yeni-yeni quşlar uçurdur, ancaq onların heç birisi gəmiyə qayıtmır. Nəhayət, kolibri, isti ölkələrdə yaşayan əlvan tüklü milçəkquşu dimdiyində yarpaq, geri dönür. Bu işarəti aldıqdan sonra onlar yaxınlıqda torpağın olduğunu başa düşür və gəmini tərk edirlər.

Astek mifologiyasına görə, dəhşətli sel gələndə cəmi ikicə nəfər ər-arvad – Koekostli və Şoçiketsal sağ qalmışdı. Çünki hansısa İlahi qüvvə onları xəbərdar eləmişdi ki, gəmi düzəldib yola çıxsınlar və hündür dağın zirvəsinə çatanacan gəmidən düşməsinlər. Koekostli və arvadı uzun müddət bu dağın zirvəsində yaşayır, çoxlu uşaq doğub törədirlər. Ancaq uşaqlar danışa bilmirdilər. Sonra bir göyərçin onlara nitq qabiliyyəti verdi. Ancaq bacı-qardaşların nitqləri bir-birindən o qədər fərqlənirdi ki, onlar bir-birini başa düşmürdülər.

Kolumbiyadakı çibça, Ekvadordakı kanar hindu qəbilələrinin, Braziliyadakı tupinamba tayfalarının əf-

sanələrində də açıq-aydın Mesopotamiya izləri vardır. Həm də bu əfsanələrin kökü Kolumbun Amerikanı kəşf etməsindən çox-çox qədimdir. Yuxarıda dediklərimizdən hansı nəticələri çıxartmaq olar?

1. Bütün dünya xalqlarında Daşqın barədə əfsanələrin olması bu Daşqının qlobal xarakter daşıdığını, bütün Yer üzünü suyun basması barədə müasir elmi qənaətlərin doğruluğunu ortaya çıxarır.

2. Daşqın haqqında ən qədim "gil kitabələr" Şumer mədəniyyətinin ən alt qatına, yazı mətnlərinin yenicə meydana gəldiyi dövrlərə, e.ə. IV minilliyin ortalarına aiddir. Yazı mədəniyyətinin lap erkən çağında qələmə alındığına görə çıxara biləcəyimiz ikinci nəticə odur ki, bu miflər e.ə. IV minillikdən çox-çox əvvəl mövcud imiş. Bu tarixin nə qədər qədim olduğunu söyləmək çətindir, çünki bu günəcən əfsanələrin yarandığı dəqiq tarixi müəyyənləşdirmək mümkün olmayıb.

3. Bu əfsanələrdə tarix Daşqınaqədərki və Daşqındansonrakı dövrlərə bölündüyünə görə çıxara biləcəyimiz üçüncü nəticə ondan ibarətdir ki, bu əfsanələrin bəhs etdiyi faciəli hadisələrdən daha öncə Yer üzündə naməlum sivilizasiya varmış. Lakin bu günəcən həmin sivilizasiyanın həqiqətən mövcud olması və hansı zaman kəsiyində yaşaması da təsdiq olunmayıb. Nəzəri cəhətdən bu sivilizasiyanın yaranması Homo sapiensin mövcudluğu ilə eyni vaxta da düşə bilərdi, yaxud daha öncəki və ya bir qədər sonrakı dövrə də təsadüf edə bilərdi. Məsələn, bəzi alimlər Şumer mətnində bəhs olunan Daşqınaqədərki sivilizasiyanın 15 min il bundan əvvəl mövcud olduğu və





8 min il bundan əvvələdək "ömür sürdüyünü" israrla iddia edirlər. Z.Sitçin başda olmaqla digər tədqiqatçılar isə Daşqınaqədərki sivilizasiyanın başlanğıcını 445.000 il əvvələ çəkirlər.

4. Zaman-məkan etibarı ilə dünyanın fərqli dövrlərində və fərqli guşələrində yaşayan xalqların Daşqınla bağlı hekayətlərinin bənzərliyi insanda heyrət və təəccüb doğurur. İkiçayarası mədəniyyətindən təxminən 1500 il sonra yaşayan astek, mayya, ink və b. tayfaların Daşqın barədə şumerlər kimi düşünmələri, oxşar süjetli və oxşar motivli əfsanələr quraşdırmaları insanı düşünməyə məcbur edir. Bu əfsanələrdə təkcə ümumi təcrübə təsvir olunmur, həm də eyni simvolik dildən istifadə edilir.

Ümumdünya Daşqını problemini araşdıran Piter Ceyms və Nik Torn təəccüb və heyrət içərisində qalaraq belə yazırlar: Köhnə və Yeni dünyadakı əfsanələrin oxşarlığı problemi aydınlaşdırmaq əvəzinə, onu daha da mürəkkəbləşdirir, qatı dumana bürüyür. Bu, necə olur, ümumiyyətlə, belə şey mümkündürmü?

Tədqiqatçılar belə hesab edirlər ki, böyük həcmli gəmi düzəldib həm ailəsini, həm heyvanları xilas edən qəhrəman obrazını düşüncələrin oxşarlığı ilə izah etmək olar. Əgər iki xalq bir vaxtlar hər şeyi yuyub aparan sel dəhşəti ilə üzbəüz qalıbsa, onlar bir-birlərindən xəbərsiz, sağ qalan insanların nəhəng gəmi sayəsində qurtulduqları qənaətinə gələ bilərdilər. Lakin bu hekayətdə ən xırda detalların da üst-üstə düşməsi, motivlərin, stilistik üslubun, personajların talelərinin bənzərliyi insanı mat qoyur. Mesopotamiya əfsanəsi uzaq Amerika qitəsinə necə gedib çıxa bilər-

di? Bu işdə diqqət çəkən və inanılmaz görünən məqam odur ki, əfsanənin vətəni heç də Yeni dünya deyildir, onu 1500 il sonra İkiçayarasından Amerika qitəsinə gətirmişlər. Bu isə o deməkdir ki, Kolumbun kəşfindən az qala iki min il əvvəl okeanın o tayına keçməyin yolunu bilirlərmiş. Bu barədə saysız-hesabsız tədqiqatlar aparılmış və monoqrafiyalar yazılmışdır. Bu ehtimallardan ən populyar olanı budur ki, Orta Asiya və Sibirdən gələn türklər Berinq boğazı vasitəsilə Amerikaya keçmiş və oradakı yerli qəbilələr türklərdən törəmişlər. Doğrudur, tədqiqatçılar "türk" kəlməsini işlətməkdən qorxurlar, əvəzində "asiyalılar" terminini təkrar etməyi xoşlayırlar. Amma toplananların yerini dəyişməklə cəm dəyişməz.

Amerikada yaşayan qızıldərililərin türk mənşəli olması barədə müzakirələr son dövrlər səngiməh bilmir. Tarixçilər bu məsələdə fərqli mövqelər nümayiş etdirsələr də, hindu qəbilələrinin türk kökənli olması barədə getdikcə daha çox "dəlil-sübut" ortaya çıxır.

ABŞ-ın Arizona ştatında qızıldərililərin yaşadığı Havasu şəhəri vardır. Sakinləri qürurla bu adın türkcə olduğunu, türklərin isə onların əcdadları sayıldığını söyləyirlər.

Qızıldərililərin navaho klanından olan qəbilələrin yaradılış hekayəsi "Dine Bahane" kitabında kifayət qədər çox sayda türk sözləri vardır. Oradakı bir çox çağırışlar və dualar türk dilindədir.

Türkər Özdoğanın verdiyi informasiyaya görə bir sıra hindu qəbilələrinin əl işlərindəki – heykəltəraşlıq, zərgərlik məhsullarındakı naxışların bənzərliyi, musiqi çalarlarının yaxınlığı qızıldərililərin türk kökənli olması barədə ən yaxşı maddi sübutdur. Bir çox tədqiqatçılar qızıldərililərin üz cizgilərinin və göz quruluşlarının Orta Asiya türklərinə bənzərliyi barədə iddialar irəli sürmüşlər. Türk alimi Ləvənt Bozatlının verdiyi bilgiyə görə İngiltərənin Oksford Universitetinin mütəxəssisləri DNT testi keçirərək qızıldərili onenda qəbiləsi üzvlərinin və türklərin eyni genə sahib olduqlarını təsdiqləmişlər. Təəssüf ki, informasiyada DNT testinin hansı türk tayfası üzərində keçirildiyi göstərilmir.





Əgər qızıldərililərin türk mənşəli olması barədə ehtimalı qəbul etsək, o zaman Daşqınla bağlı Mesopotamiya əfsanəsinin də Amerikaya türklər tərəfindən aparıldığını qəbul etməliyik. Lakin o zaman başqa bir problemlə üzləşəcəyik: bəs Orta Asiyada və Sibirdə yaşayan "asiyalılar" Ziusudra hekayətini haradan bilirdilər?

Bu ehtimal Orta Asiya türklərinin İkiçayarasından köçmə olduqlarına sübut kimi qəbul edilə bilərmi? Ya bunun tamam başqa bir izahı vardır?

Bu və digər problemlərlə bağlı birinci kitabda – «Şumer kilidi»nin «Yeni dünyanın köhnə sirləri» fəslində ətraflı söhbət açılmışdır.

5. Bu deyilənlərdən çıxara biləcəyimiz sonuncu nəticə odur ki, bütün bu miflərin son ucunda sanki bir kök, bir əcdad, bir sehrli əl, yaxud bir sivilizasiya dayanır. Bu dəhşətli kataklizmi görən, yaşayan və ayaq basdığı hər yerə özü ilə daşıyan tək və yeganə sivilizasiya. Bu, mümkün olan işdirmi?

## V FƏSİL

## ŞUMER KİLİDİNƏ TÜRK AÇARI

Şumer qıfılbəndinə türk açarı asanlıqla düşdüyü kimi, türk kilidinə də Şumer açarı çox asanlıqla düşür.

Şumer açarından istifadə edərək bu gün qədim Azərbaycan tarixində baş alıb gedən bir sıra ziddiyyətli, mübahisəli və yanlış iddiaların üstündən sirr pərdəsini götürmək mümkündür. Bununla bağlı üç məsələyə öz münasibətimi bildirmək istəyirəm.

Birincisi, **Lullubilər dövləti.** Azərbaycan tarixinin qədim dövrünü yazan bütün tarixçilər bu adın izahında yanlışlığa yol verirlər. Məsələn, ali məktəblər üçün nəzərdə tutulmuş "Azərbaycan tarixi" kitabının (Z.Bünyadov və Y.Yusifovun redaktorluğu ilə) 1-ci cildində belə sətirlər vardır: "Farslar oxuyan və oynayan adamı "lulu" adlandırırdılar. Türk mənşəli hunların bir hissəsi "lulu" adını daşıyırdı. Lulu etnonimi şən təbiətli etnik qruplara da şamil edilirdi. Orta Asiyada qaraçı etnik qruplarına "lulu" deyirdilər".

Belə çıxır ki, "lulu" sözünün mənası oynaq, şən təbiətli insan deməkdir?

Dərslikdə daha sonra deyilir: "Lullu-lulu adı bəlkə də bənzətmə, yaxud əhalinin dilində tez-tez işlənən bir sözü yamsılamaq nəticəsində yaranmışdır. Güman etmək olar ki, qədim Azərbaycan sakinlərinin dilində lulu (yaxud lo-lo) sözü müəyyən məqsədlə tez-tez işlənmiş və buna görə də müvafiq ifadə kənar





əhali tərəfindən Azərbaycan sakinlərinə ümumi ad kimi şamil edilmişdir."

İddia kökündən yanlışdır, çünki "lulu" türk sözü deyildir, Şumer kökənlidir. Qədim Şumer piktoqramlarında qadın və kişi məfhumu onların cinsi orqanlarının simvolik işarəsi ilə şərtlənirdi. Kişi cinsi orqanı şərti işarəsi Şumer dilində birinci növbədə "kişi, sonra "adam", "insan", "sakin", "cəsur", "qoçaq" və s. anlamları bildirir. Bu şərti işarənin oxunuşu "lu"dur. Lu tək halda "kişi", yaxud "adam"dır. Cəm halda demək üçün "lulu" yazılır. Bu, həm "kişilər", həm "adamlar" (əhali), həm də "cəsur adamlar" mənasında başa düşülə bilər. Beləliklə, Şumer açarı ilə türk kilidini açanda "lulu" – "kişilər", "cəsurlar", Lullubi – "Cəsur kişilərin ölkəsi" anlamını verir.

Bu baxımdan "Su ölkəsinə mənsub lulu", yaxud "Subar ölkəsinə mənsub lulu" sözlərinin tarix kitablarımızda lulluların digər ölkələrin ərazisində qarışıq şəkildə yaşaması kimi təfsiri də məlum səbəbə görə səhvdir. Həmin cümlələr "Su ölkəsinin adamları, yaxud əhalisi", "Subar ölkəsinin adamları, yaxud əhalisi" kimi başa düşülməlidir.

Yeri gəlmişkən, e.ə. III minilliyə aid Uruk "gil kitabə"ləri içərisində bir həkim resepti tapılıb. Reseptin altında "Lulu, həkim" imzası vardır. Buradan aydın görünür ki, Lulu təkcə ölkə adı deyil, həm də insan adı imiş. Deməli, lulu məfhumu Şumerdə geniş yayılmışdı və bu da iki ölkə arasında çox yaxın sosial, mədəni və iqtisadi əlaqələrin mövcud olduğundan xəbər verir.

**Aratta ölkəsi haqqında.** Bu ölkənin varlığı barədə Azərbaycan oxucusu görkəmli tarixçi, gözəl alim, professor Yusif Yusifovun sayəsində son illər xəbər tutmuşdur. Alim müxtəlif qaynaqlardan əldə etdiyi məlumatların qarşılıqlı təhlili nəticəsində e.ə. III minilliyin birinci yarısında qurulmuş Aratta dövlətinin məhz Azərbaycan ərazisində yerləşdiyini sübut etmişdir. Lakin yenicə tapılan «Nippur çar siyahısı» Arattanın e.ə. III minilliyə deyil, e.ə. XI-X minilliklərdə mövcud olduğunu ortaya çıxarır. Bu, Azərbaycan dövlətçiliyinin çox qədimlərə qədər gedib çıxması barədə iddiaları təsdiqləyən ən tutarlı dəlildir.

Professor Yusif Yusifovun "Qədim Şərq tarixi" (Bakı, 2005-ci il) monoqrafiyasında bu dövlətin siyasi və coğrafi mövqeyi, hökmdarları barədə qısıtlı bilgilər verilir. Çox güman ki, bu, əldəki mənbələrin azlığından irəli gəlir. Əlbəttə, Assur, Akkad və xüsusilə qədim Şumer mətnləri daha geniş şəkildə tədqiq edilərsə, bu dövlət barədə daha çox və daha vacib bilgilər əldə etmək olardı. Hər halda Arattanın aşkara çıxarılması professor Yusif Yusifovun Azərbaycan xalqı qarşısında çox böyük xidmətidir.

Görünür, Aratta ilə Şumer imperiyasının arasında sıx əlaqə mövcud imiş. Bunu Arattadakı dövlət idarəetmə sisteminin Şumerlə oxşarlığı da təsdiqləyir. Şumer şəhər-dövlətlərində olduğu kimi, Arattada da hökmdarlar "en" rütbəsi daşıyır, məmurlara maşmaşe, sukkal, uqula deyilirdi.

Ola bilsin ki, Şumer imperiyasının zəiflədiyi dövrlərdə, digər ölkələr kimi, Aratta da müstəqilliyə can atmış və buna qismən nail olmuşdur.





"Etana haqqında əfsanənin bir yerində deyilir ki, dinqirlər idarəçilik asan olsun deyə, Yer kürəsini iki hissəyə və dörd regiona bölmüşdülər.

Bu regionlar aşağıdakılardır:

1. İkiçayarası və Aralıq dənizi hövzəsi;
2. Nil vadisi;
3. Hind vadisi;
4. Tilmun (Bu regionun harada yerləşməsi barədə alimlər bu gün də yekdil fikrə gələ bilməmişlər).

"Enmerkar və Aratta hökmdarı poemasının mətnində Aratta Aşandan və hündür dağ keçidləri silsiləsindən o tərəfdə, yəni İrandan cənubda yerləşən ölkənin paytaxtı kimi təsvir olunur". (Z.Sitçin, "Voynı boqov i lyudey, Moskva, 2006-cı il, səh. 285).

Əgər Z.Sitçinin göstərdiyi istiqamətə inansaq, Aratta heç də Azərbaycan ərazisində yerləşmir. Müəllif elə belə də iddia edir: Aratta Hind vadisində, dinqirlərin 3-cü regionunda qərar tutmuşdu!

Digər bir tarixçi, U.Van Dyuk ("Orientalia", №39, 1970) məsələni bir az da qəlizləşdirir. Alimə görə, Aratta ya İran yaylasında, ya da Hind çayının kənarında yerləşirmiş.

Beləliklə, Aratta ölkəsi hansı coğrafi ərazidə idi – Azərbaycanda, ya subkontinentdə, Hind vadisində?

Məsələ burasındadır ki, mərhum Y.Yusifov özü də "müxalif" fikirlərlə tanış idi və yazırdı ki, bəzi tədqiqatçılar Əfqanıstanda laciverd mədəninin olmasını əsas kimi götürərək Aratta ölkəsini Bədəxşanda və ona yaxın ərazidə yerləşdirirdilər.

Z.Sitçin və U.Van Dyuk nə üçün Arattanı Hind vadisinə çəkiblər? Əfsanədə göstərilən "Aşanı (Anşa-

nı) və hündür dağ keçidləri silsiləsini" İranın cənubunda, müasir Əfqanıstanın və Hindistanın şimal-şərq torpaqlarında axtardıqları üçün. Amma "Aşanı (Anşanı) və hündür dağ keçidlərini" İranın şimalında yerləşdirsək, o zaman Azərbaycan tarixçisi Y.Yusifovun daha doğru nəticəyə gəldiyi ortaya çıxmış olacaqdır. Çünki "Enmerkar və Aratta hökmdarı poemasında "İrandan cənubda" ifadəsi yoxdur!

Məsələni qəlizləşdirən başqa bir fakt ondan ibarətdir ki, Z.Sitçinin iddiasına görə, İnannanı hakimiyyət uğrunda mübarizədən uzaqlaşdırmaq üçün Hind vadisi regionuna göndərmişdilər və onun məbəd-malikanəsi də məhz bu ərazidə idi. Hind vadisi mədəniyyəti aşkara çıxarılarkən həqiqətən məlum olub ki, burada kişi allaha deyil, qadın allaha sitayiş edirlərmiş. Bu "allah"ın şəkilləri də tapılmışdır. Z.Sitçin bunun İnannanın konusvarı möhürlərdəki şəkillərinə və digər gil heykəllərinə bənzəməsi barədə ehtimal irəli sürür.

Bu ehtimalın doğru ola biləcəyinə ümid verən yeganə fakt "Sarqon haqqında əfsanə"də verilən uçuş marşrutudur. Əfsanədə göstərilir ki, İnanna Akkada, Sarqonun yanına "Elam və Şubur (Subar) ölkələrinin üstündən ox kimi ötərək" gəlmişdir. İnannanın daimi yeri Arattadakı malikanəsi və babasının ona bağışladığı Uruk məbədi idi. Əgər İnanna bu məbədlərdən Akkada gəlmiş olsaydı, cənubda yerləşən Elamın və ona yaxın olan Şubur (Subar) ölkələrinin üstündən heç vaxt keçə bilməzdi. Bəs nə üçün İnanna sevgilisinin yanına "öz evindən" – şimal tərəfdən deyil, cənub





tərəfdən gəlmişdir? Bu sualın mütləq məntiqi bir cavabı olmalıdır.

Bəlkə Aratta, Z.Sitçinin güman etdiyi kimi, doğrudan da Hind vadisində yerləşirmiş?

Lakin bunu şübhə altına ala biləcək çoxlu faktlar və mülahizələr vardır.

Birincisi, İnannanın üçüncü regiona, Afrikaya baş hökmdar və baş kahin göndərilə biləcəyi məntiqi baxımdan ağlasığmazdır. Bildiyimiz kimi, Yer kürəsi dinqirlər arasında bölüşdürülərkən Afrika Enkinin, Asiya və Avropa isə Enlilin payına düşmüşdü. Enlilin Nannadan (Sindən) olan nəvəsi İnannanın Enkinin idarəçiliyinə verilən regiona baş hökmdar və baş kahin göndərilə biləcəyi mümkün deyildir, çünki bu cür iddialar qardaşlar arasında həmişə ciddi konfliktə səbəb olmuş və hətta bəzi hallarda müharibəyə gətirib çıxartmışdır. Nil vadisində baş hökmdar olan Mardukun İkiçayarasında hakimiyyəti ələ keçirtmək cəhdləri qanlı qırğın silahının işə salınması, bütövlükdə dördüncü regionun və bu regionla birlikdə Mardukun oğlunun məhvi ilə nəticələnmişdi. Dinqirlər torpağı və hakimiyyəti çox sevirdilər, onu bir-birlərinə heç vaxt güzəşt etməzdilər.

İkincisi, Hind vadisi mədəniyyətinin mərkəzi şəhəri Xarappa şəhəri idi. Z.Sitçinin iddiasına görə, "Xarappa" və "Arappa" sözləri məhz "Aratta"dan törəmişdir. Lakin bu iddia kökündən yanlışdır. "Enmerkar və Aratta hökmdarı" poemasında belə misralar vardır: "İnannanın məbədi (malikanəsi) Xarappa kimi taxılla zəngin olan uzaq Aratta ölkəsində yerləşirdi və İnanna öz paltarını geyinərək tez-tez ora uçurdu".

Göründüyü kimi, «uzaq Aratta ölkəsi Xarappa kimi taxılla zəngin olsa da», onunla yaxın qonşuluqda deyildi və ən başlıcası, eyni regionda yerləşmirdi.

Hind vadisi mədəniyyətini yaradanların qadın ilahəyə sitayiş etməsinə və bu gil heykəllərin İnannaya bənzəməsi barədə ehtimala gəldikdə isə, fikrimizcə, Z.Sitçin burada da yanlışlığa yol vermişdir. Bu ilahənin kim ola biləcəyini Enlilin deyil, Enkinin nəslindən olan qadın ilahələrin arasında axtarmaq gərəkdir.

Hər halda bu dolaşıqlıq tarixçi alimlərimiz tərəfindən aradan qaldırıla bilər və qaldırılmalıdır. Arattanı Azərbaycana qazandırmışıqsa, onu müdafiə etməyi də bacarmalıyıq.

"Aratta" sözünün bəzi qaynaqlarda həm də "Su(a) ölkəsi" kimi göstərilməsi diqqət çəkir. Əgər Şumer qrammatikasına müraciət etsək, "Aratta" belə yazılacaq: AR.AT.TA – bunun tərcüməsi isə "sulu torpaq", yaxud "Su hövzəsindəki torpaq" anlamındadır. Türk həyat tərzi sanki Aratta adına da hopmuşdur.

Doğrudanmı "Su(a) ölkəsi" və "Aratta" eyni coğrafi əraziyə verilən müxtəlif adlardır? Açığı, bunu təsdiq edəcək kifayət qədər tutarlı dəlillər yoxdur. Bəzi alimlərin iddialarına görə, Su – Urmu gölünün şimal-şərqindən ta Van gölünə qədər olan ərazilərdə yaşayan bütün tayfaların, o cümlədən lulluların ümumi adı idi. Əgər Arattanın lullu torpaqlarında yaradılmış daha qədim ölkə olması barədə ehtimalı qəbul etsək, onda bu fərziyyə bir anlam qazanmış olar.

İndi də üçüncü qrup yanlışlıqlara nəzər salaq. N.Hüseynovanın qədim şərq tarixinə dair tərtib etdiyi





və Y.Yusifovun da öz monoqrafiyasında verdiyi «Xronoloji cədvəl»də homo sapiensin e.ə. X-VIII minilliklərdə yarandığı iddia olunur. Halbuki qədim Şumer mətnləri birmənalı şəkildə yazır ki, homo sapiens 250-270 min il bundan əvvəl yaranmışdır. Bu gün müasir elmi qənaət də Şumer miflərinin iddiasını təsdiqləməkdədir.

Məsələn, lap bu yaxınlarda (2009-cu ildə) Türkiyənin Qəhrəmanmaraş şəhərinin Döngəl kəndində yerləşən Dirəkli mağarasında aparılan arxeoloji qazıntılar zaman e.ə. XVI minilliyə aid «ana tanrı» fiquru tapılmışdır. Qazi Universiteti ədəbiyyat fakültəsinin arxeoloji bölməsinin üzvü doktor Cövdət Metih Erekin rəhbərliyi ilə aparılan qazıntılar zamanı aşkara çıxan torpaqdan düzəldilmiş bu heykəlin 18 min yaşı vardır. İddiaya görə, mağaradan tapılan bəzi yonma daş alətlərin yaşı 200 min illə 300 min il arasındadır. Arxeoloji tapıntılarla zəngin olan bu bölgənin ən qədim yaşayış məskənlərindən biri olduğu güman edilir.

Bizim tarix dərsliklərimiz Şumer şəhər-dövlətlərinin təşəkkül tapmasını III minilliyin birinci yarısına aid edir. Halbuki Uruk, Laqaş, Nippur və başqa şəhərlərdən tapılan arxiv sənədlərində Şumer şəhər-dövlətlərinin eramızdan əvvəlki IV, IX, XI minilliklərdə və hətta bundan da qədim dövrlərdə mövcud olması barədə qiymətli informasiyalar vardır (Bax: «Daşqın» fəsli).

Tarixçilərimiz I Kiş və I Uruk dinastiyalarının hakimiyyət illərini e.ə. XXVIII-XXIV əsrlərə bağlayırlar. Yenə də Şumer mətnlərinə inansaq, bu, kökün-

dən yanlışdır. Nippurdan tapılan «Çar siyahısı»nda I Kiş dinastiyasının ilk qlobal daşqından (e.ə. XIII minillik) əvvəl, I Uruk dinastiyasının isə həmin daşqından sonra (e.ə. XI minillik) hakimiyyətdə olduğu göstərilir.

Bu üzdən Azərbaycan ərazisində yaradılmış Aratta dövləti ilə bağlı xeyli yanlışlığa yol verilmişdir. Məsələn, əgər I Uruk sülaləsinin ikinci çarı Enmerkar e.ə. XI minillikdə yaşayıbsa, o özündən səkkiz min il sonra «təşəkkül tapan» Arattanın hökmdarı ilə necə məktublaşa bilərdi?

Yaxud bütün tarix dərsliklərimizdə yazılır ki, qutilər Akkadı işğal edib Şumerə yiyələndilər. Nippur "çar siyahısı bunu yalanlayır. "Siyahıya görə, Akkaddan sonra IV Uruk dinastiyası 26 il hakimiyyətdə olmuşdur. Qutilər IV Uruk dinastiyasını devirərək hakimiyyətə gəlmişlər.

Təəssüf ki, Azərbaycan ərazisində qurulan Lullubi, Quti və Aratta dövlətləri ilə bağlı tarixçilərimizin digər mövqeləri də bir çox hallarda qədim Şumer mətnləri ilə üst-üstə düşmür.





# VI FƏSİL

# QILINC VƏ QƏLƏM

Təbii bir sual ortaya çıxır: əgər türklər doğrudan da bu qədər dərin köklərə malik idilərsə, hətta bəşəriyyətin ilk mədəniyyət beşiyinin qurucularından sayılırdılarsa, o zaman nə üçün ilk türk yazı mətnləri bu qədər gec meydana çıxmışdır? Nə üçün Şumer sivilizasiyasının quruculuğunda iştirak edən digər tayfalar – akkadlar, babillər, assurlar, xaldeylər, arameylər bu əlifbadan bəhrələnərək özləri barədə dərin izlər qoymuşlar, türklər isə həmin dövrlərdə yaşadıqlarını «birco barmaq» yazı ilə də təsdiq etməmişlər? Əgər türklər əlifba ilə tanış idilərsə, nəyə görə öz tarixlərini yaratmamışlar? Şumer əlifbası bir çox dünya xalqlarının mədəniyyətinin inkişafına güclü təkan verdiyi, yəhudilər Şumer mətnlərindən istifadə edərək Tövrat kimi dünya incisi olan nadir bir kitab yazdıqları halda, az qala bütün dünyanı fəth edən türklər nə üçün uzun əsrlər, bəlkə də minilliklər boyu öz varlıqlarını göstərməmişlər? Doğrudanmı, bəzi alimlərin iddia etdiyi kimi, türklər tarix səhnəsinə yalnız e.ə. II yüzillikdə (L.Qumilyov) çıxmışlar?

Həqiqətən, sual türklərin keçdikləri yolun özü qədər mürəkkəb və çətindir. Ancaq bu çətin və az qala cavabsız suala cavab tapmadan doğru-dürüst türk tarixini yaratmaq da qeyri-mümkündür. Qurub-yaratmağı, tikib-ucaltmağı, qılınc çalıb ölkələr fəth etməyi

bacaran bir xalq nədənsə qələm tutmağa can atmayıb, bunu lüzumsuz, boş və əbəs yerə vaxt aparan yüngül bir əyləncə hesab edib. Dədələrimiz "qələmmi, qılıncmı?" seçimi qarşısında qılıncı seçiblər, qələmi isə gərəksiz bir şey kimi kənara atıblar. Əcdadlarımızın türk qürurundan doğan bu biganəliyi indi bizi tarixin haqlı sualları qarşısında əliyalın və aciz qoyub. Əgər Azərbaycan torpaqlarında ilk dövlət həqiqətən e.ə. XI minillikdə qurulubsa, bu ərazilərdə beş min il bundan əvvəl Quti kimi möhtəşəm dövlət yaranıbsa, əgər subarlar və turuklar barədə ən ilk məlumata eramızdan əvvəl XXIV əsrdə rast gəliriksə və bu məlumatı da özgə yazarların qələmindən oxuyuruqsa, bu, əcdadlarımızın öz tarixlərinə biganəliyinin ən bariz nümunəsi deyilmi? Polşa yazıçısı Veslav Brudzinskinin çox maraqlı bir sözü var, o deyir ki, tarixi yaradanlar eyni vaxtda həm də onu saxtalaşdırırlar. Hərdən təsəlli üçün öz-özümə deyirəm: bəlkə türk milləti təbiəti etibarilə saxtalaşdırmağı bacarmadığı üçün öz tarixini yaratmaq qayğısına qalmayıb?

Nə yazıq ki, minillər boyunca biz öz tariximizi yaratmağı başqa millətlərin əlinə buraxmışıq. Nəticə göz qabağındadır. Haqqımız tapdanmış, tarixin təkərini irəli aparan millətlər arasında heç vaxt öz layiqli yerimizi tuta bilməmişik. Və bu gün ən sadə suallar qarşısında aciz qalaraq onun-bunun əlinə baxmaqdayıq: biz kimik, haradan gəlmişik və hara gedirik?

Şumer şedevrindən – əlifbasından başqa xalqlar kimi lazımınca yararlanmadığımız barədə həqiqətin səbəblərini açıqlamaq üçün sanki "türk qılıncından"





və "türk biganəliyindən" başqa tutarlı cavabımız da yoxdur.

Amma kiminsə Allaha inanmaması ilə Böyük Yaradanın, Uca Tanrının mövcudluğu əskilməz. Türk varlığı da belədir. Cavabsız suallar qarşısında nə qədər aciz qalsaq da, türk mövcudluğu, onun çox qədim köklərə dayanması barədə həqiqət bundan nə artar, nə də azalar.

Gəlin əcdadlarımızı qınamağa tələsməyək, bir az da özümüzdə günah axtaraq və öyrənməyə çalışaq: biz öz tariximizi gün işığına çıxartmaq üçün lazım olan hər şeyi etmişikmi? Türk yazı tarixi dərindən-dərinə araşdırılıbmı, tədqiq olunubmu?

Rəfiq Özdəyin "Türkün qızıl kitabı" əsərində xəbər verilir ki, Esik (İssık) qəsəbəsində geyimi 4800 qızıldan düzəldilən bir gəncin basdırıldığı sərdabədə üstündə 26 hərfdən və iki cümlədən ibarət gümüş cam tapılıb. Alimlər bu yazını oxuyanda heyrətə gəliblər. Yazı VI əsrə aid olduğu güman edilən Orxon-Yenisey əlifbası ilə tərtib edilmişdi və həmin əlifbadan nə az, nə azacıq – 1100 il əvvəl "qələmə alınmışdı". "Gümüş cam yazısı"nda türk köklü sak hökmdarının 23 yaşlı oğlunun vəfatından bəhs olunurmuş.

F.Cəlilov bu yazı ilə tanış olduqdan sonra R.Özdəyin «Türkün qızıl kitabı»ndan gətirdiyim iqtibasın kənarında aşağıdakı qeydləri etmişdir: "İstinad edilən qaynaq elmdən uzaq olan həvəskar yazara aiddir və elmi cəhətdən yanlışdır. Halbuki Altay Amanjolov (bu sahənin əvəzsiz alimi) həmin yazını belə oxumuşdur: «Ağa! Sana oçuk! Bez çök! Bukin içrə azuk!»

Tərcüməsi: «Ağa! Sənə bu ocaq! (qəbir, yataq) (Düşmən) Diz çök! Xalqın azuqəsi (olacaq)». Yəni yazıda hökmdarın 23 yaşlı oğlunun ölümü barədə heç bir şey yoxdur»*.

Bu qeydlə əlaqədar bildirmək istəyirəm ki, «Gümüş cam yazısı»nda mənim diqqətimi cəlb edən onun mətnindən daha çox, bu mətnin Orxon-Yenisey əlifbası ilə qələmə alınmasıdır. Mətnin təfsirinə gəldikdə isə bu barədə təəssüflər olsun ki, bir-birinə zidd bir neçə mövqe mövcuddur. Məsələn, Murad Acinin "Aziatskaya Yevropa" (Moskva, 2006-cı il, səh. 544-545) kitabından aşağıdakı sətirləri diqqətə çatdırmaq istəyirəm: "İssık kurqanı Almatadan 50 kilometr uzaqda yerləşir. 1969-cu ildə sovet arxeoloqları orada unikal şəkildə dəfn olunan, əynindəki paltarı və digər əşyaları olduğu kimi qalan "qızıl adamın", türk çarının qəbrini aşkar etdilər. Kaş heç tapmayaydılar. Tapıntının tədqiqatı Moskvanın diktəsi altında aparıldı. Avropa mənsubiyyətli kəllə sümüyü dərhal yoxa çıxdı, çünki bu tapıntı Qərbin iddia etdiyi "vəhşi köçərilər" barədə rasist nəzəriyyəsinə uyğun gəlmirdi.

Baş geyiminin (dəbilqənin) üstündəki qiymətli daşlarla bəzədilib odlu işıq saçan xaç da sirli şəkildə itdi, dəbilqənin üzərində adicə deşiklər qaldı.

Həmin kurqanda üstü yazılı, e.ə. V əsrə aid olduğu bildirilən «Gümüş cam yazısı» tapılmışdı. SSRİ Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun görkəmli mütəxəssisləri tərəfindən aparılan tələsik, "isti-isti" təhlil heç bir nəticə vermədi.

* Əslində yazı soldan sağa belə oxunur: «Koçu anısı ağ eli Oğuz ər üçün Ogüsü çizib» Kurqan isə 16-18 yaşlı qıza aiddir. (Elmi redaktorun qeydi. )





Şərqşünas alimlərin yazdıqları rəydə göstərilirdi ki, gümüş cam üzərindəki yazı elmə məlum olmayan əlifba ilə yazılıb, onu aramey dilində oxumaq mümkün olmadı. Bu yazıya niyə məhz aramey dilində "açar" axtarıldığı bu günəcən heç kəsə bəlli deyildir".

Sovet imperiyası dağıldıqdan sonra alimlər təzədən «Gümüş cam yazısını» tədqiq edərək bu qənaətə gəldilər ki, yazarlar Orxon-Yenisey əlifbasından istifadə ediblər. Murad Acinin qənaətincə, gümüş camda bu sözlər həkk olunubmuş: "...borcunu yerinə yetir, su içmək təklif et. Əgər zəhər axırsa, təmizlə".

Məlumat üçün bildirim ki, Rəfiq Özdəyin "Türkün qızıl kitabı"nda mətnin aşağıdakı kimi oxunduğu iddia edilir: "Xan oğlu 23 yaşında öldü. İssık xalqının başı sağ olsun".

Cəmi ikicə sətirlik yazıya bir-biri ilə daban-dabana zidd olan dörd münasibət. Bunu tədqiqatçıların qeyri-peşəkarlığı ilə izah etmək lazımdır, yoxsa "Gümüş cam yazısı" heç Orxon-Yenisey əlifbası ilə qələmə alınmayıb?

Bəlkə də yeganə hal olsaydı, bunu normal qəbul edərdik. Təəssüf ki, öz tariximizə bu cür qeyri-peşəkar münasibət artıq yüz illər, bəlkə də min illərdir ki, davam edir. Bu münasibət təkcə "Gümüş cam yazısı"-na deyil, bütövlükdə türk tarixinə münasibətimizi ortaya qoyan ən bariz nümunə kimi yadda qalır. Başqalarını inandırmaq üçün birinci növbədə gərək özün inanasan! Biz isə nə özümüz inanırıq, nə də başqalarını inandıra bilirik. Faciəmiz də elə bundadır. Bizim acizliyimizdənmi deyim, laqeydliyimizdənmi deyim,

qeyri-peşəkarlığımızdanmı deyim, məharətlə istifadə edən əcnəbi tədqiqatçılar türklər barədə öz çürük nəzəriyyələrini çox asanlıqla dünyaya sırımağı bacarmışlar.

Ziddiyyətli şərhlərinə baxmayaraq "Gümüş cam yazısı"ndan, eləcə də kəngər yazılarından çıxan aydın nəticə budur ki, biz əcdadlarımızı lazımınca qiymətləndirməmiş və onların keçdikləri yolu dərindən öyrənə bilməmişik. Sən demə, ulu babalarımız, yeri gələndə, qılınc çaldıqları kimi, qələm tutmağı da yaxşı bacarmışlar.

22 hərfdən ibarət olan uyğur əlifbası elmə hələ e.ə. I minilliyin axırıncı rübündən bəllidir. Sovet ensiklopediyaları uyğurların bu əlifbanı soğdilər (soqdlar) vasitəsilə arameylərdən götürdüklərini yazmışlar. Bu ensiklopediyalarda soğdilər İrandilli xalq kimi təqdim olunur.

Soğdiləri özbəklərin və taciklərin əcdadları sayanlar da var. Bəzi mənbələrdə isə Orta Asiyada yaşayan saklardan törəmə olduqları iddia edilir. Tanınmış tədqiqatçı B.Tomaşek belə mülahizə irəli sürür ki, "soğd" sözü İran köklüdür, mənası "parlamaq", "alışmaq"dır. Tacik-fars lüğətində bu söz "su yığılan çökəklik", "bataqlıq" kimi təfsir olunur.

Bəs soğdilər kimlərdir, onlar nə vaxt yaşamışlar? Türk tarixinin atası sayılan Mahmud Kaşğari belə yazır: "Soğd – Buxara ilə Səmərqənd arasındadır. Bunlar türk qılığını almışlar, türk xasiyyətini götürmüşlər".

Deməli, soğdilər İran mənşəlidir, uzun illər Kəngər (Kanq) dövlətinin nüfuzu altında yaşamış, tarix səhnəsinə yalnız VI əsrdən sonra çıxmağa başlamış-





lar. Tacik tarixçisi B.Qafurov və rus tarixçisi L.Qumilyov Kəngər dövlətini zorla Soğd dövləti ilə identikləşdirməyə çalışsalar da tarixi bəlgələr bunu yalanlayır. Pənckənddə tapılan və eramızın VII əsrinə aid olan sikkələrin üstünə aramey ideoqramı ilə "çar" sözü yazılmışdır. Bu, Soğdiyə aid edilən ilk yazı mətnidir. Halbuki uyğur yazıları bundan azı min il əvvəl mövcud olmuşdur. Lakin bir sıra İranpərəst tarixçilər və onlara züy tutanlar, bu misala görə min dəfə üzr istəyirəm, dəvəni eşşəyin quyruğuna bağlamağa çalışırlar. Uyğurların guya aramey əlifbasını soğdilər vasitəsilə mənimsədikləri barədə iddia kökündən yanlışdır. Altay Məmmədovun çox haqlı olaraq dediyi kimi, "...İrandilli orduların görə bilmədiyi işləri İrandilli tarixçilər öz üzərlərinə götürərək uzun illər ərzində türk torpaqlarını qələmlə fəth etmək yolunu tutmuşlar".

Bəs uyğurlar özlərindən minlərlə kilometr aralıda, İkiçayarasının şimalında yerləşən arameylərin əlifbasından necə və hansı yolla yararlana bilərdilər?

Bu tapmacanın açarı, fikrimizcə, saklardır. Bu barədə "Ağ saklar, hökmdar sakları" fəslində ətraflı söhbət açacağıq. Fikirimizi qısaca belə ifadə edə bilərik: Uyğur əlifbası arameylərdən götürülməyib, bu əlifbanın mənbəyi qədim Şumer, daşıyıcıları isə saklardır.

Əlifba bəşəriyyətin öz mövcudluğu ərzində əldə etdiyi ən böyük nailiyyətdir. Əlifba nədir? Əlifba səslərin qrafik işarələrlə ifadə olunma formasıdır. Lakin yazı bu formaya çatana qədər uzun bir yol keçmişdir. İnsanlar əvvəlcə fikirlərini bildirmək üçün şəkillərdən, simvollardan, şərti işarələrdən istifadə edirdilər.

Həm də bu şərti işarələr səsləri, hətta hecaları da deyil, bütövlükdə hərəkətləri, hadisələri bildirirdi. Beləliklə, Şumerdə ilk piktoqrafik yazı (Bax: şəkil 1) meydana gəldi. Piktoqram – hərəkətləri, hadisələri və ya əşyaları bildirmək üçün istifadə olunan şəkil simvollarından ibarət idi. Bu zaman hər simvolik işarə öz təbiətinə uyğun gələn çoxlu mənanı ifadə edirdi. Ayaq şəkli – hərəkətlə bağlı bütün mənaları verə bilirdi. Məsələn, getmək, gətirmək, qaçmaq, uzaqlaşmaq, yaxınlaşmaq və s. Gecə şərti işarəsi (göy qübbəsi, altında ulduzlar) həm gecə, həm qara, həm qaranlıq, həm də xəstəlik, fəlakət, qorxu və s. bu qəbildən bütün mənaları ehtiva edirdi.

Piktoqramla yanaşı, alimlərin bu gün ideoqram adlandırdıqları yazı növündən də istifadə olunurdu. İdeoqram şərti işarəli yazıdır, lakin burada hər şəkil daha dar mənaları bildirirdi. İnsanlar öz fikirlərini daha yaxşı anlatmaq üçün yollar axtarırdılar. Piktoqram və ideoqramın ən üstün cəhəti o idi ki, onları müxtəlif dillərdə danışan bütün tayfalar oxuya bilirdilər. Çünki şəkillər bütün dillərdə eyni məna bildirirdi.

Müasir yazı sistemi səsli, fonetik işarələrə əsaslanır, bu sistemdə hər bir qrafem (səs-hərf) mütləq müəyyən səsə uyğun gəlir, şifahi qrafemlər isə hərflərin birləşməsi nəticəsində yaranır və təkcə mənanı deyil, həm də bütövlükdə səslərin kombinasiyasını ifadə edir.

Görünür, qədim Şumerdə istənilən dil daşıyıcısını tərcümə etmədən anlatmağı bacaran universal yazı sistemi yaratmağa çalışmışdılar. Belə yazılar məlumatın məntiqi yolla əldə olunmasına əsaslanırdı.








**Şəkil 1.** Şumer əlifbası. Piktoqrafik yazı

Bəzi tədqiqatçılar bu faktdan Şumer əleyhinə əks-arqument kimi istifadə etməyə çalışırlar. Onların fikrincə, əgər şumerlər həqiqətən yüksək inkişaf səviyyəsinə çatmış olsaydılar, bu cür primitiv yazı sistemindən deyil, daha təkmil-səsli, fonetik əlifbadan istifadə edərdilər. Məntiqi cəhətdən bu sözlərdə bəlkə də bir həqiqət payı vardır. Yəni öz elmlərində hətta müasir səviyyədən də çox-çox irəli getməyi bacaran şumerlər nə üçün yazı mədəniyyətində bu qədər geri qalmışdılar? Problemə Şumer yönümündən deyil, İkiçayarasında yaşayan müxtəlif dilli köçəri tayfaların inkişaf səviyyəsindən yanaşdıqda, sanki hər şey öz yoluna düşür və universal yazı sisteminin dahiyanəliyi ortaya çıxır.

Görünür, bu yazı sistemi sivilizasiyanın başlanğıc dövründə müxtəlif dillərdə danışan tayfaların bir-birlərini asanlıqla, tərcüməsiz anlamaları üçün qəsdən bu şəkildə düşünülmüşdü. Şumerdə səsli əlifbaya insan cəmiyyətinin inkişafına uyğun olaraq, təkamül yolu ilə, pillə-pillə, addım-addım yaxınlaşırdılar. Əlifbaya keçidə qədər gedən uzun yolda insanlar loqoqramdan, deoqramdan və nəhayət, silloboqramdan istifadə etmişlər.

Loqoqram tapmaca, rebus formalı şəkillər düzümü idi. Bu şəkillərin mənalarını tapıb birləşdirərək yazını oxumaq olurdu.

Deoqramda hər bir şərti işarə sözün özünü deyil, onun yaxın mənasını bildirirdi.

Silloboqram səsləri deyil, ayrı-ayrı hecaları bildirən şərti işarələrlə düzəlirdi. İnsanlar asta-asta, addım-addım hər səsi ayrıca bildirən qrafik işarəli əlifbaya doğru yaxınlaşırdılar.





Yazı mədəniyyəti tarixində Çin heroqliflərinin xüsusi yeri vardır. Yuxarıdan aşağıya doğru yazılan bu sistemdə hər söz ayrıca işarə ilə göstərilir. Məsələn, "danışır" demək üçün çinlilər ağız və ağızdan çıxan nəfəsi göstərirdilər. "Tez" anlatmaq üçün doğmaqda olan Günəşi təsvir edirdilər. "Qan" bildirmək üçün qan damarı şəkli çəkilirdi və s. Təbii ki, bu cür işarələr həddən artıq çox olduğundan onu öyrənmək çətin idi. Mütəxəssislərin dediyinə görə, Çin heroqlifləri altı min işarəni keçirmiş.

Sonra oxumaq daha asan olsun deyə, şəkilli yazılar xeyli təkmilləşdirildi. Əsas iki yazı sistemi yaranmışdı. Biri ox şəkilli, söz-heca formalı mixi yazı, ikincisi isə ayrı-ayrı samit səsləri bildirən səs-heca sistemli əlifba idi.

Birinci yazı sistemi Şumer piktoqramlarını əvəz etməyə başlamışdı. Türklərin "mıx", ərəblərin "mismari", almanların "paz hərf", rusların "klinopis" adlandırdıqları bu yazı növü İkiçayarasında yaşayan bütün tayfalar, o cümlədən türklər tərəfindən də istifadə olunurdu.

Samit səsləri bildirən heca-səs formalı yazılara finikiya əlifbası (Bax: şəkil 2) və türk runik yazıları (Bax: şəkil 3) aiddir. Hər iki əlifbanın İkiçayarası yazı sistemindən qaynaqlandığı və Aralıq dənizi hövzəsində yarandığı güman edilir. Bir vaxtlar türk runik (run) yazılarının İran qaynaqlı olması barədə absurd fikirlər ortaya atılmışdı. V.İ.İstrin "Yazının meydana gəlməsi və inkişafı" adlı əsərində göstərirdi: "Fars özülü əsasında qədim türk yazısı formalaşıb və nədənsə Orxon-Yenisey run yazısı adlandırılıb. Bu əlifbadan e.ə. VIII-VI əsrlərdə Mərkəzi Asiyada da istifadə olunmuşdur".



Şəkil 2. Finikiya əlifbası








Şəkil 3. Türk runik əlifbası

Poltava döyüşündən sonra Sibirə sürgün edilmiş İsveç zabitinin təsadüfən aşkar etdiyi Orxon-Yenisey yazısı düz iki əsr öz tədqiqatçısının yolunu gözlədi. Əvvəllər bu əlifbanın türklərdən başqa az qala dünyanın bütün xalqlarına aid ola biləcəyi barədə fərziyyələr ortaya atılmışdı. Nəhayət, 1893-cü ildə danimarkalı V.Tomsen özünün kəşf etdiyi sistem sayəsində bu yazılara açar tapdı. Sən demə, mətnlər türk dilində imiş.

Orxon-Yenisey yazılarının türklərə məxsus olması Qərb alimlərini heyrətə gətirmişdi. Və dərhal əks kampaniya başlandı. Fin alimi O.Donner belə bir ehtimal irəli sürdü ki, Orxon-Yenisey əlifbası İran mənşəlidir. Monqolustandan Macarıstana qədər uzanan böyük bir ərazidə tapılan bütün türk runik yazılarının sonrakı aqibətini də O.Donnerin vurduğu həmən "damğa" gözləyirdi.

Baxmayaraq ki, İran əlifbalarının runik yazılarla ən adi müqayisəsi belə "çox böyük, hətta rüsvayçı ziddiyyətlər aşkara çıxarırdı" (O.Süleymenov), Qərb və rus alimləri Orxon-Yenisey əlifbasının türklərə məxsus ola biləcəyi fikrini heç yaxına buraxmaq istəmirdilər. Nə olsun ki, mətnlər türk dilində idi, "vəhşi türk" dünya incisi olan əlifba yarada bilməzdi. O.Süleymenov "Şumernamə" əsərində bu fikri obrazlı şəkildə çox gözəl ifadə etmişdir: "Türk köçərisi rəsmi elmin təsəvvüründə Çin, İran və ərəb mədəniyyətlərinin əmcəyindən oğurluqla süd əmmiş Əbədi Vəhşi obrazında qalırdı".

Adi həyatda türk qılıncına yaxın düşə bilməyənlər öz qələmləri ilə türk tarixini "işğal edir", bu mey-





danda at çapıb qılınc oynadır, onu dağıdaraq tanınmaz hala salmaqdan xüsusi zövq alırdılar.

Türk runik yazılarının da başına məhz belə bir "oyun" gətirilmişdi. İran əlifbası ilə müqayisənin biabırçı nəticəsindən sonra german-skandinav variantı ortaya atıldı (Müqayisə üçün bax: şəkil 4).

German-skandinav əfsanələrinə görə, runik yazı allah Odinin müdrikliyi sayəsində meydana gəlmişdir. Məlumat üçün bildirim ki, Norveç və Qobustan qayaüstü yazıları möcüzəli şəkildə bir-birinə bənzəyir. Vikinqlərin olduqları bir çox ölkələrdə – B.Britaniyada, Finlandiyada və başqa yerlərdə aparılan arxeoloji qazıntılar zamanı tapılmış əşyaların – saxsı qabların, gəmi qalıqlarının üzərində Qobustan qaya rəsmlərinin eyni olan işarə-şəkillər aşkar edilmişdir. Hətta bir sıra Qərb alimləri elə bunu nəzərə alaraq Azərbaycanı vikinqlərin Ata yurdu hesab edirlər. Vikinqlərin tapındığı allah Odinin bir adı da Asar (Azar) imiş. Bu necə ola bilərdi? Doğrudanmı vikinqlər Azərbaycan türklərinin ulu babalarıdır?

Yaxınlıq və qohumluq göz qabağındadır, lakin bu qohumluğa baxış açısı müxtəlifdir. Məsələn, Azərbaycan alimi F.Ağasıoğlu belə hesab edir ki, bu əlifbanı və bu qayaüstü rəsmləri uzaq Skandinaviya ölkələrinə Azərbaycan xalqının ulu əcdadları olan Az tayfaları aparmışlar. Amma Qərb alimləri runik yazıları german-skandinav mənşəli hesab edir və ilk altı hərfinin transkripsiyasına görə onu futark (ilahi yazı) adlandırırlar.




**Şəkil 4.** German – skandinav runları





Tarixdə daha çox Orxon-Yenisey əlifbası kimi tanınan türk runik yazıları 34 hərfdən və ayırma işarəsindən ibarətdir. 34 hərfdən 5-i 9 saiti **(a-ə, e, ı-i, o-u, ö-ü)** bildirir. Yerdə qalan 29 samitdən 25-i sadə, dördü isə qoşa səslidir. Qoşa səsli samitlər bunlardır: LT, HT, HÇ, BŞ.

Sonuncu **bş** qovuşuq səsi bir qədər mübahisəlidir. Belə ki, F.Cəlilov özünün «9 bitik» əsərində qovuşuq səsləri **et(ed), nt (nd), nç** və **rt** şəklində təsnifatlaşdırıb. (Bax: şəkil 3).

Ə.Rəcəbov və Y.Məmmədovun «Orxon-Yenisey abidələri» kitabında isə et, nt, nç və bş qovuşuq səslərindən söz açılır. Bu zaman həm F.Cəlilov, həm də Ə.Rəcəbov və Y.Məmmədov sonuncu qovuşuq səsi **rt** və **bş**-nı bildirmək üçün eyni işarəni göstərmişlər: ⋈ Lakin fikrimizcə, Orxon-Yenisey abidələrində **rt** qoşa samitlərindən yox, **bş** qoşa samitindən istifadə olunub və bu, «baş» kimi oxunur. (Yenisey abidələrində). Orxon abidələrində isə bu qovuşuq səsə, ümumiyyətlə, rast gəlinməyib. Qəribədir ki, ümumgerman əlifbasında həmin işarə **db** qovuşuq səsi kimi oxunur, Danimarka və İsveç runlarında isə bu işarə və səs yerli-dibli yoxdur.

Orxon-Yenisey əlifbasının başqa bir özəlliyi bəzi samit səslərin sözün əvvəlində, ortasında və ya axırında işlənməsindən, habelə incə və ya qalın saitlə qoşalaşmasından asılı olaraq qrafik formasının dəyişməsidir. Belə işarələr 8-dir; **d, y, k, l, h, r, s. t.**

Türk runik yazılarının meydana gəlməsi barədə Azərbaycan alimləri arasında çoxsaylı fərziyyələr mövcuddur. Bəziləri türk runik yazılarının IV-VI əsr-

lərdə doğuya gətirilmiş aramey əlifbasından istifadə edən soğdlardan götürüldüyünü (halbuki türk runik əlifbası daxili strukturu, qrafik fondu və yazı texnikası ilə soğd əlifbasından ən azı 1500 il qədimdir), ikinci qrup türk runik yazılarının türk damğalarından yarandığını, üçüncü qrup e.ə. II-I minilliklərdə Aralıq dənizi hövzəsində işlənən hecalı yazılardan törəndiyini söyləyirlər. Dördüncü qrup belə hesab edir ki, türk runik yazısının banisi runik yazı işarələrinin 24 Oğuz boyuna damğa kimi verildiyini gerçəkləşdirən Oğuz xandır. Həqiqətən də 24 Oğuz boyunun hər birinin damğası türk runik yazılarına ya tam bənzərdir, ya da ona çox oxşayır*.




Başqa bir fərziyyəyə görə, Oğuz boy damğaları runik işarələrdən, runik işarələr isə daha qədim türk damğalarından götürülmüşdür (Bax: şəkil 5). Mübahisələr bu gün də bitməyib və türk runik yazılarının mənşəyi barədə bu gün də alimlərimiz arasında yekdil fikir yoxdur. Biz hələ də didişirik, fərziyyələr, ehtimallar irəli sürürük. Avropalı mütəxəssislər isə birmənalı şəkildə bildirirlər ki, runik yazı german-skandinav mənşəlidir, qurtardı getdi!

* Bu müqayisə ilk dəfə F.Cəlilovun «9 bitik» əsərində aparılmışdır.








**Şəkil 5.** Qədim türk damğaları və Şumer–Elam əlifbası

Ümumiyyətlə, runik yazının yaranması barədə hətta yekdil fikrə gəlmək də yetərli deyildir. Runik yazının türk mənşəli olmasını dünyaya qəbul etdirməliyik. Bunun üçün qeyrət və çaba gərəkdir, Qərb alimlərini susdura biləcək tutarlı dəlillər tapılmalı, ən başlıcası isə, bu sahənin tanınmış mütəxəssisləri ilə intensiv diskussiyalar aparılmalıdır. Özümüzün deyib özümüzün eşitdiyimiz arqumentlərlə Azərbaycan sərhədlərindən uzağa getmək olmaz!

Azərbaycan alimi F.Ağasıoğlu belə hesab edir ki, Aralıq dənizi hövzəsində yayılmış yazılardan üç qol ayrılmışdır. Birinci qol türk runik əlifbasıdır. Bu əlifbadan saqa, qamər, etrusk, issık, hun, german, göytürk, xəzər, uyğur, sekel (macar) yazıları meydana gəlmiş-

dir. İkinci qol Krit, Bibl, Kipr, Miken və qədim yunan yazılarıdır. Üçüncü və əsas qol finikiya əlifbasıdır. Bu əlifba bəşər yazı mədəniyyətinin inkişafında çox mühüm rol oynamışdır. Finikiya əlifbasından Fələstin, aramey, yəhudi, parth, soğd, manixey, gürcü, alban, hay yazıları meydana gəlib. Alimə görə, türk runik əlifbasını mənimsəyən etrusk və finikiya əlifbasını mənimsəyən yunanlardan latın qolu, soğd yazıları əsasında isə beşinci qol – uyğur və monqol qolları törəmişdir.

Lakin soğdlarla bağlı deyilən fikir bir qədər mübahisəlidir. Doğrudur, birinci minilliyin ortalarına doğru missionerlərin də «yüngül əli ilə» soğd əlifbası Babilistandan tutmuş İrana, Hindistana qədər çox geniş əraziyə yayılmışdı. Lakin uyğur əlifbası, yuxarıda da qeyd etdiyimiz kimi, daha dərin köklərə malik olduğundan heç vəchlə soğdlardan götürülə bilməzdi.



**Şəkil 6.** Bibl yazısı





F.Cəlilov yazır: "Müasir əlifbaların çoxunun qaynağında finikiya, onun da qaynağında Bibl yazıları durur (Bax: şəkil 6). Bibl yazıları ilə eyni qaynaqdan törəyən türk runik əlifbası isə arxaik formasını və əsas qrafik fondunu saxlamaqla ayrı-ayrı lokal bölgələrdə kiçik fərqlərlə işlənmişdir".

Gənc oxucular üçün maraqlı ola biləcəyini nəzərə alaraq ayrı-ayrı xalqların əlifbası barədə qısaca məlumat vermək istəyirəm.

**Yəhudi əlifbası.** Yalnız 22 samit hərfdən ibarətdir. Yəhudi əlifbası mistik məna daşıyır. Kabbala yəhudi əlifbasını üç qrupa bölür:

1) "Ana başlanğıcı" – həyat üçün vacib olan üç elementi bildirir, bunlar hava, su və oddur, onların işarəsi isə əlif, mim və şindir.

2) "Astral" məna daşıyan hərflər: bet, qimel, dalet, kaf, pxe, reş və tau. Bu hərflər yeddi planetin və yeddi istiqamətin (dörd coğrafi – şimal, cənub, şərq, qərb və üç astronomik – aşağı, orta, yuxarı) rəmzi işarəsidir.

3) Yerdə qalan 12 sadə hərflər 12 "Zodiak evi"ni simvollaşdırır.

**Ərəb əlifbası.** 28 hərfdən ibarətdir və ərəb mistikasına görə, bu hərflər Allahın nəfəsi, insana İlahi sözün verilməsi anlamına gəlir. 28 ərəb hərfi 28 Ay fazasına bərabərdir, guya hər bir hərf Ay təqviminin 28 günündən birini "idarə eləyir.

**Yunan əlifbası.** Bu əlifbada 35 işarə vardır. Bunlardan 24-ü "sadə", 11-i isə diftonq (samitlə ayrılmayan qoşa sait) işarələrdir. Pifaqorçulara görə, hər

bir hərfin mütləq bir rəqəmsal məna yükü vardır. Onlar belə düşünürdülər ki, Kainatın bütün sirləri rəqəmlərlə işarələnib və hərflərin rəqəmsal gücünün dərin mənasını açanlar Kainatın bütün sirlərinə vaqif ola bilərlər. Məsələn, onlar Y hərfini "Pifaqor hərfi" adlandırırdılar. Bu hərfin sağ budağı İlahi müdrikliyi, sol budağı isə insani müdrikliyi ehtiva edir. Bu iki budağı birləşdirən və aşağıya doğru uzanan düz xətt isə həyat yoludur. Pifaqor məktəbinə görə, həyat yolunun müəyyən nöqtəsindən sonra Y hərfində olduğu kimi, yollar haçalanır, bu yoldan birini hər kəs özü seçməlidir.

Qədim dövrlərdə hər bir hərfin rəqəmsal mənası olduğuna çox inanırdılar. Bu məktəbin bünövrəsini kabbalaçılar qoymuşlar.

Hərflərin və rəqəmlərin sehrli aləmi hələ də axıradək dərk olunmayıb. Siz bu işarələrin adi, primitiv görünüşünə baxmayın. Onların hər birinin arxasında İlahi məna, dərin hikmət, qeyri-adi riyazi tənasüb, bağlılıq vardır.

İslamda belə hesab edirlər ki, hərfləri Allah Özü yaradıb, hətta mələklərdən də gizlədərək onu təkcə Adəmə öyrədib.

Şumer əfsanələrinə görə, yerin və göyün Sahibi dünyanın sirlərini «tale ağacı» ilə yazırmış. Allah sözə Öz nurunu və hikmətini qatmışdır. Ona görə də Söz dünyada hər şeydən qüdrətlidir, orduların fəth edə bilmədiyini Söz fəth edir.

İnsanlar dünyanın ən böyük kəşfi olan yazıdan necə istifadə etmək barədə də uzun əsrlər düşünmüşlər. Axı qədim zamanlarda indiki kimi kağız, qələm, mürəkkəb yox idi. Ona görə də ilk yazarlar öz fikirlərini qayalar üzərində cızdıqları piktoqrafik işarələrlə bildirirdilər. Sonra daşlar üzərində yazılar meydana gəldi. Daha sonra gil lövhələrdən istifadə olundu. Gil lövhələri odda bişirdikdən sonra uzun müddət saxlamaq mümkün idi. İkiçayarasından tapılmış bütün qiymətli sənədlər gil lövhələrdən ibarətdir.





Dəri üzərində, yarpaqlar üzərində, papirus kağızlar üzərində yazılar da mövcud olmuşdur. Kağız isə ilk dəfə eramızın II əsrində Çində Tsay Lun tərəfindən kəşf edilib. Sonralar ərəblər bu üsulu öyrənərək onu İrana, Şimali Afrikaya, Kiprə, İspaniyaya və digər Avropa ölkələrinə yaymışlar.

Azərbaycan ərazisində çox qədimdən hərfləri əvəz edən damğalar mövcud imiş. Dəmir, dulus, kilim ustaları düzəltdikləri əşyaların üzərinə damğalarını vurmaqla həm öz adlarını, həm də damğaları yaşatmışlar.

Tarix bizdən daha hansı sirləri gizlədir? Dünyanın qəbul etmədiyi, israrla qəbul etmək istəmədiyi qədim türk mənşəyi barədə tarixi həqiqətlər görəsən nə vaxt gün işığına çıxacaq və ümumiyyətlə, çıxa biləcəkmi?

## VII FƏSİL

# URUK ŞƏHƏRİNDƏ YAŞAYANLAR – TURUKLAR

Biz öz tariximizə nə dərəcədə bələdik? Bu Vətəni, bu torpaqları, bu dili bizə miras qoyub gedən kişilərin taleyi, yaşamı, mübarizə yolu hər birimizi azacıq da olsa narahat edirmi, maraqlandırırmı? Gündəlik ağır həyat qayğılarından vaxt tapıb özümüz özümüzdən soruşuruqmu: biz kimik, haradan gəlmişik, hara gedirik?

İnsanın özünü dərk etməsi üçün ikicə şeyə ehtiyacı var: o, Tanrısını tanıyıb sevməli və öz tarixini öyrənməlidir.

Təəssüf ki, bizə hava-su kimi lazım olan bu iki şeyin heç birini bacarmadıq. Əvvəlcə Tanrı yolunu azdıq, sonra da öz tariximizə arxa çevirdik. Tanrı insanın inam yeri, tarix onun alınmaz qalası, qürur yeridir. Təcrübə göstərir ki, gənclərimiz, hətta bir çox ziyalılarımız da soy-kökümüzlə bağlı ən adi suallara belə cavab verməkdə çətinlik çəkirlər. Yer üzündə nə qədər türkün və türk tayfalarının yaşadığını çox adammı bilir? Türklərin hansı irqə mənsub olması barədə sual bu gün də açıq qalmaqdadır. Türkün Başlanğıc nöqtəsi haradan və nə zamandan götürülür? Hətta millətimizin adını bildirən "türk" sözünün mənşəyi, mənası barədə tanınmış alimlər, tariximizin aparıcı mütəxəssisləri belə öz aralarında razılığa gələ bilməmişlər.





Sonuncu sualdan başlayaq. "Türk" sözünün mənası nədir?

Alimlərin qənaətinə görə, turuk "türk" sözünün ilkin yazılış formasıdır. Babil və Akkad yazı mətnlərində adıçəkilən turuk termini necə və haradan yaranmışdır? Niyə məhz turuk? "Türk" etnonimini ələk-vələk edərək onun məna çalarlarını tapmağa çalışan tədqiqatçılar nədənsə bu sözdən daha qədim olan turuk formasının üstündən sükutla keçirlər. Sözün ilkin yaranışını aydınlaşdırmadan onun əsl mahiyyətini açmaq isə əlbəttə, mümkün deyildir. "Türk" sözünün şifrəsini açmağa çalışan alimlərin cəhdlərinin uğursuzluğu məhz bunun ən bariz nümunəsi hesab oluna bilər.

L.Minkaçi: "Türk" "yaradılış", "insan" deməkdir.

V.Tomson: "Türk" sözünün mənası "güc, qüvvə"dir.

V.Bartold: "Türk" sözü etnoqrafik deyil, siyasi məna daşıyır. "Türk" "türü" (qanun, adət, törə) sözündən əmələ gəlib və xalqların qanun əsasında birləşməsi anlamını verir.

N.Marr: "Türk" sözü "Tarxan" sözündən yaranıb, bu da "İlahi qüvvəyə bərabər", "seçilmiş" anlamındadır.

A.Bernştam: Bütün tayfa birlikləri bir yerdə "türk" adlanırdı.

Azərbaycan türkoloqu F.Zeynalov "türk" sözünün qəbilə başçısının adı ilə bağlı olduğunu bildirir. Alimə görə, "türk" etnonimi qüdrətli, qüvvətli, həm də yürümək mənasındadır.

Cavad Heyət: "Türk" sözü güc, qüdrət bildirməklə, həm də mərhəmətli, intizamlı olmaq anlamına gəlir". Cavad Heyət yazır ki, "türk" sözü Gögtürk dövlətini quran (552-ci il) və idarə edən Aşina qəbiləsinin adı olub və sonradan bütün millətə şamil edilib.

Lev Qumilyov da bu fikri təsdiqləyir. A.N.Kononova istinad edən alim yazırdı ki, "türk" dedikdə V əsrdə knyaz Aşinanın ətrafında birləşən, VI-VIII əsrlərdə isə xalq kimi formalaşan və türk dilində danışan Orda nəzərdə tutulurdu.

Bu fikirlərin nə qədər zərərli və yanlış olduğu göz qabağındadır. Çünki türklərin bir millət kimi VI-VIII əsrlərdə formalaşdığını iddia etməklə, əslində eramızdan əvvəl minilliklər boyu davam edən tariximizin üstündən bir qələmlə xətt çəkmiş olurlar.

Bəsim Atalaya görə, "türk" sözü "hər şeyin ortası" deməkdir, yəni gənc, igid və dəliqanlı.

Faruk Sümər iddia edir ki, "türk" həm güc, qüvvət, həm də doğmaq, törəmək, dünyaya gəlmək anlamındadır. O, A.Vamberinin "türk" sözünün "toruk", "türük" etnonimindən irəli gəldiyi barədə fərziyyəsini dəstəkləyir. Türk tədqiqatçısı Adilə Aydan "Türkün mənşəyi" adlı məqaləsində göstərir ki, ərəb əlifbası ilə iki şəkildə yazılan "türk" sözünü dörd cür oxumaq mümkündür: türk, türük, tork, törək.

Altay Məmmədov "türk" və "turuk" sözlərinin yaranması ilə bağlı öz ehtimalını irəli sürür. O yazır ki, e.ə. XIV əsrdə Urmiya gölü həndəvərində "türük" adlı xalq məskunlaşmışdı. Bu köçəri tayfa oturaq həyata keçdiyi üçün ona kənardan "tur"lar, yaxud "turuk"lar adını vermişdilər. "Tur" isə qədim türk dilində "durmaq", yəni bir yerdə dayanıb oturmaq anlamını verir.

"Türk" sözünün mənşəyi ilə bağlı alimlərin nə qədər rəngarəng və ziddiyyətli fikirlər söylədiyini gördünüz. Bu iddialar nəinki "türk" etnoniminin daxili mənasına və yaranma səbəblərinə aydınlıq gətirmir,





əksinə, problemi bir qədər də qəlizləşdirərək daha qara pərdəyə bürüyür.

İndi də problemlə bağlı bizim tarix dərsliklərimizə nəzər salaq.

1996-cı ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabında yazılır: "Son Assur qaynaqlarında "turukki" tayfa adı hələ akkadlı Sarqonun (e.ə. XXIV yüzil) dövlətinin hüdudları təsvir edilərkən çəkilmişdir. Bu qaynaqlardan aydın olur ki, turukki tayfa birliyi tarix səhnəsinə kutilər və lullularla eyni vaxtda çıxıb".

Belə çıxır ki, "turuk" tələffüzü yazılı qaynaqlarda həm də "turukki" şəklində işlədilmişdir. Bəs onda "turukki" sözü necə və haradan yaranmışdır? F.Cəlilov "Azər xalqı" kitabında (Bakı, 2005-ci il, səh. 40) yazır: "Türk sözünün qədim forması turuk şəklindədir və assurca olan mətnlərdə də həmin forma əks olunmuşdur. Lakin assur dili kontekstində türk adının fonetik oxunuşu tu. ru. ki olduğu halda, assuroloqlar onu turukki şəklində transkripsiya edirlər, yəni adın son samitini assur ləhcəsinə uyğun, geminat (qoşa) samit kimi oxuyurlar". Alimin fikrincə, bu adın qoşa samitlə oxunuşu alman alimi K.Riemşnayderin "Akkad dili" dərsliyində də (1975) təkrar edilmişdir: «Turukkutum».

Hətta bu izahdan sonra da "turuk" sözünün haradan yarandığı və nə anlama gəldiyi barədə sual cavabsız qalır. Doğrudan da, nə üçün termin bir cür yazılıb, başqa cür tələffüz olunur? Nəyə görə e.ə. 1800-cü ilə aid Babil mətnində də turuk deyil, turukki yazılış formasından istifadə edilmişdir?

F.Cəlilovun təfsir verdiyi turukki yazılış forması daha qədim Şumer mətnlərindən irəli gələ bilərdimi?

Əlimizdə heç bir yazılı mətn olmadığına görə "turuk" tələffüz formasının "turukki" yazılışı barədə yalnız ehtimallar söyləyə bilərik. Nə üçün həm assur, həm akkad mətnlərinin tədqiqatçıları turuk sözünün yazılışında eyni "səhvi" buraxmışlar? Bəlkə bu "səhv" daha qədim mətnlərdəki qrammatik qanunauyğunluqdan irəli gəlmişdir? Məlumdur ki, bir sıra önəmli tarixi faktlar ilkin olaraq məhz ehtimallara söykənmiş və sonralar arxeoloji qazıntılar, əldə olunmuş digər bəlgələrlə sübuta yetirilmişdir.

Diqqətlə fikir versək, turuk sözündə Uruk şəhər adı dərhal seçilir. Yəni bu söz T və Uruk fonetik səslərindən ibarətdir və TURUK terminінin Şumerin ən qədim mədəniyyət mərkəzlərindən biri olan Uruk şəhəri ilə əlaqəli yarana biləcəyi haqqında mülahizə irəli sürməyə imkan verir. Hər iki sözün təsadüfi səs oxşarlığı olduğu barədə hökm verməyə tələsməyin.

Məlum olduğu kimi, Şumerdə heç vaxt əhalinin milli tərkibi göstərilməyib. Amma bir zümrəni başqa zümrədən, bir peşə sahibini başqa peşə sahibindən fərqləndirən titullar mövcud olmuşdur. Məsələn, "Ur şəhərinin adamları", "Laqaş şəhərinin tacirləri", "Uruk şəhərinin döyüşçüləri" və s.

Yuxarıda qeyd etmişdim ki, Şumer qrammatika qanunlarına görə sözlərin əvvəlində və ya axırında yuxarı küncdə yazılan determinativ oxunmasa da, sözün mənasını təyin etməyə imkan verirdi. Mən sözün əvvəlinə artırılan determinativdən danışmışdım, indi də sözün sonunda qoyulan determinativə fikir verək. Ur(u) piktoqramla oxunarkən sadəcə Ur kimi tələffüz





edilir, söhbətin Ur şəhərindən getdiyini bildirmək üçün kəlmə belə yazılır: Uru$^{KI}$, amma "ki" tələffüz olunmur, əvəzində söz Ur şəhəri kimi başa düşülür.

İndi gəlin TURUKKİ sözünün Şumer piktoqramı ilə yazıla biləcəyi mümkün varianta göz ataq: Tİ.URUK.Kİ. Lakin şəhər adını bildirmək üçün bu söz Tİ.URUK$^{KI}$ şəklində yazılmalıdır. Şumer qrammatikasına görə iki sait yan-yana gəldikdə onlardan biri düşür. Bu halda kəlmə Tİ.URUK kimi yox, turuk kimi tələffüz ediləcək.

Tİ şərti işarəsinin məna çalarlarına diqqət yetirək. Əgər bu heca Tİ.Tİ(L) şəklində yazılıbsa, sonuncu heca tələffüz olunmur və Tİ burada "həyat" və bu sözdən yarana biləcək digər anlayışları əhatə edir. Əgər Tİ tək yazılıbsa (Tİ "ox" şərti işarəsi ilə göstərilir) bu, "döyüşçü", "müdafiəçi" anlamına gəlir.

Beləliklə, Tİ.URUK.$^{KI}$ – turuk etnonimi yazılışından asılı olaraq "Uruk şəhərində yaşayanlar", yaxud "Uruk şəhərinin müdafiəçiləri" anlamını verəcək.

Uyğurların «Oğuznamə» dastanında belə bir yer vardır: «Oğuz qağanın yanında ağ saqqallı, ağ saçlı çox mahir bir insan – kişi vardı, ağıllı, müdrik kişi idi. Onun adı Uruk-Turuk idi».

Heç şübhəsiz ki, xalq Uruk Turuk adını göydən götürməmişdi, onun mütləq bir mənbəyi, söykənəcəyi vardı. Bu mənbə Uruk şəhərindən olan turuklar barədə xalqın yaddaşlarda yaşadaraq gələcək nəsillərə ötürdüyü mifik simvol ola bilərdimi?

Bu barədə Azərbaycan alimi E.Əlibəyzadənin fikri də maraqlıdır. Müəllif özünün "Qədim dünyamı-

zın ulu kitabı"nda yazır: "Uruk sözü... indi də türk dillərində işlənir, bu da yurd-yuva, ocaq, nəsil-kök, əsil-nəcabət mənalarını verir. Müasir dilimizdə həm ayrıca "uruğun üzülsün", həm də... "uruk-turuğun kəsilsin", "uruk-turuğuna lənət" qarğışları var. Bu qarğışlardakı "uruk sözünün qədim Urukdan gəldiyinə, şəkilcə də, mənaca da bu sözün eyni ana kökə, eyni qaynağa bağlı olduğuna şübhə etmirik. Uyuşdurulub uruk sözünə qoşulan turuk/turuq/turuğ sözü və onun mənaları da bu fikrə yan alır. "Qədim türk lüğəti"ndə söz belə şərh olunur: "Turuğ: yuva, yataq, sığınacaq, məskən... ""

Beləliklə, turuk sözünün Uruk şəhər adından yarana biləcəyi barədə önəmli fərziyyə ortadadır. Şəxsən mən, turuk termininin «Uruk şəhərində yaşayanlar», «Uruk şəhərində məskən salanlar» anlamına gələ biləcəyinə daha çox inanıram. Əlbəttə, turuk tələffüzü Şumer mədəniyyətinin ilkin dövrlərində tayfa bildirən ad kimi işlədilə bilməzdi, çünki yuxarıda da qeyd etdiyim kimi, qədim mətnlərin heç birində tayfa adları yoxdur. Çox ola bilsin ki, bu ad əvvəllər Uruk şəhərinin bütün sakinlərinə deyilmişdir. Ehtimal etmək olar ki, bu ad mərkəzi hakimiyyət zəiflədikdən sonra mübarizəyə qalxan tayfalara fərqləndirici ad kimi kənardan verilmişdir.

"Turuk" sözünün "Uruk" şəhər adından yarandığı və "Uruk şəhərinin sakinləri" anlamına gəldiyi barədə ehtimalı qəbul etsək, o zaman F.Ağasıoğlunun "assur ləhcəsindəki qoşa geminat" barədə təfsiri və turukki yazılış forması özünü doğrultmuş olacaq. Çünki etnonimin əmələgəlmə səbəblərini aydınlaşdırmadan onun müxtəlif ləhcələrdəki transkripsiyasından söz açmağın elə bir önəmi yoxdur.





Turukki adına qədim qaynaqlarda məhz Şumer mədəniyyətinin son dövrlərində rast gəlinir. Bu faktın özü də göstərir ki, turuklar məhz bu imperiya zəiflədikdən sonra müstəqil siyasət yürütməyə, öz dövlətlərini quraraq tarix səhnəsinə çıxmağa başlamışlar.

Bir şəhər adından bütöv bir millətin adının yaranması tarixdə görünməmiş hadisə deyildir. Məsələn, akkadların adı, Sarqonun tikdirdiyi Aqade şəhər adından əmələ gəlib.

Bəlkə də çox adam bilmir ki, qədim yəhudilərin adı da Nippur şəhər adından götürülmüşdür. Nippur şəhər adı Şumer əlifbası ilə Ni.Bi.RU.[KI] şəklində yazılır, amma "Nippur şəhəri" kimi tələffüz olunur. Azərbaycan alimi F.Cəlilov "Tanrı elçisi İbrahim" əsərində yazır ki, "İbrahimin ata-babasının hansı ölkədən gəlməsindən asılı olmayaraq, doğulub ərsəyə çatdığı ölkə Babil idi". Bu fikrin tərəfdarları olduğu kimi, əleyhdarları da çoxdur. Leypsiq Universitetinin professoru Alfred Jeremias uzun tədqiqatlardan sonra bu qənaətə gəlmişdir ki, "Avraam semit əsilli babil deyildi, Şumerdə doğulmuşdu, şumerli idi".

Alim hətta onun doğulduğu şəhərin adını da çəkir: Nippur.

Professor Z.Sitçin isə özünün "Voynı boqov i lyudey» əsərində göstərir ki, Tövratda Avraamın (İbrahimin) ibrili olduğu yazılmışdır. Professor F.Cəlilov "ibri" sözünü "çayın o biri üzü" kimi təfsir etmişdir. Z.Sitçin isə tamam başqa cür düşünür: "Tövratda adın axırına artırılan **i** suffiksi həmin şəxsin doğulduğu

yeri bildirir. Məsələn, Gileadi "Gileadda doğulmuş" deməkdir. Şumer dilindən akkad (yəhudi) dilinə keçid zamanı **n** hərfinin düşməsi müşahidə olunur. Ona görə də Tövratda yazılan "Avraam ibridir" ifadəsi Avraamın İbridə, yəni Ni-bi-ru-da doğulduğu anlamına gələcəkdir. Simin şəcərəsindəki Eber (Yever) adı da Nippur şəhər adı əsasında formalaşıb, mənası "kəsişmə" deməkdir və tədricən, yüz illər boyunca dəyişərək yevrey (yəhudi) adına çevrilmişdir. Ona görə də turuk sözünün Uruk şəhər adından yarana biləcəyi barədə ehtimal heç də göydəndüşmə sayılmamalıdır.

Turukları Uruk şəhəri ilə o qədər çox ortaq nöqtə bağlayır ki, bunu bir bədəndə iki can da adlandırmaq olar. Bu qədər ortaq nöqtəni üçüncü bir xalqla ünsiyyətdən əldə etmək, sadəcə, mümkün deyildir. Turuklar Şumerin göbəyində doğulmuş, Urukda bir tayfa halında formalaşmış və sonralar güclü düşmənləri tərəfindən şimala doğru sıxışdırılaraq Urmiya gölü ətrafında dövlətlərini qurmuşdular.

Maraqlı burasıdır ki, İkiçayarasında türkdilli tayfalar təkcə turuklardan ibarət deyildi. Şumerin digər şəhər-dövlətlərində turuklarla bir dövrdə və hətta onlardan daha qədimdə ayrı-ayrı dialektlərdə danışan müxtəlif türk tayfaları mövcud olmuşdur. Şumer sivilizasiyası həqiqətən müəmmalarla doludur və ağla gəlməyən, mümkün olmayan hər şey burada gerçəkləşə bilir.

Nippur şəhərində arxeoloji qazıntılar zamanı tapılan üstəgəl formasında dörd tərəfə işıq saçan xaç bu şəhərin simvolu idi. Nippur şəhəri su və quru yolların kəsişdiyi yerdə salınmışdı, bu barədə bir qədər





əvvəldə söz açmışdım, həm dini, həm ticarət mərkəzi sayılırdı. Dörd tərəfə işıq saçan bərabərtilli xaç həm hərfi, həm məcazi mənada "kəsişmə" anlamını verirdi. Amma ən qəribəsi bu idi ki, Nippur xaçından fərqli olaraq Uruk şəhərində tapılan iks formalı xaçın ortasında dairə vardı və xətlər kəsişmirdi. Nə üçün? Bu barədə bir qədər sonra.

Əvvəlcə gəlin Şumer mədəniyyətindən sonra dünya xalqlarının xaçdan istifadə etmə tarixinə nəzər salaq. Bu gün Avropa ölkələrində geniş yayılan belə bir ehtimal mövcuddur ki, xaç yunan sözü "stauros" (sütun) və latın sözü "crux" (cəza aləti) terminlərinin birləşməsindən yaranıb. İlk xristianlar yuxarısına köndələn tir qoyulmuş o sütunu xaç adlandırırdılar ki, həmin sütunun üstünə vurulan taxtadan romalılar cinayətkarları asırdılar. Məhz buna görə də ilk xristianlar T formalı xaçdan istifadə edirdilər. Sonralar üstdəki tir sütunun ortasınacan endirilib bir qədər yana əyildi və X formalı şəklə düşdü, guya bu, Xristosun adının baş hərfi imiş. Bu sözləri deyən müdrik çox haqlıdır: həyat tarixin qaralamasını yazır, sonra tarixçilər onun üzünü öz istədikləri kimi köçürürlər.

Xaçın tarixi qətiyyən xristianlığın tarixi ilə bağlı deyildir. Avropalılar «sütun» və «cəza aləti» adlandırdıqları xaçla ilk dəfə eramızın 328-ci ilində Bizans çariçası Yelenanın "əsl cəza ağacı"nı – çarmıxı gördükdə tanış olmuşdular. O vaxta qədər onlar xaçı rədd edir və türklərin daşıdığı bu emblemi "heyvan nişanəsi" adlandırırdılar. Halbuki iks formalı nişana Urukdan daha əvvəl Şumer astronomiya və astrologiyasında rast gəlmək olar. Maraqlı burasıdır ki, qədim Misir

əlifbasında da iks simvolu xaça bənzəyir. Həm Şumer astrologiyasında, həm də Misir əlifbasında bu simvol "yer" anlamını verirdi, həm də planet mənasındakı "yer" deyil, "enmə yeri", "görüş yeri" mənasını bildirirdi.

Bu gün Qərb dünyası xaçın ilk vətəni olan Şumeri də, onu hamıdan qabaq dünyaya tanıtdıran türkləri də "unudaraq" xaçı xristianlığın rəmzi hesab edir və onu mənimsəyərək öz adına çıxır. "Entsiklopediya simvolov, znakov, emblem" kitabının 305-ci səhifəsində belə sətirlər vardır: "Hələ eramızdan çox-çox qabaq xaçdan dini məqsədlər üçün istifadə olunub. Skandinav ildırım allahı Toranın çəkici T şəkilli idi, tufanı və ildırımı simvollaşdırırdı. Cənubi Amerika hindularında xaç dünyanın dörd tərəfini və dörd küləyi təcəssüm etdirirdi. Yeni Zelandiya aborigenlərində, asteklərdə və dünyanın bir çox başqa xalqlarında xaç magik məna yükü daşıyırdı".

Göründüyü kimi, xaçı ilk dəfə gəzdirən və dünyaya tanıdan türklər bir yana qalsın, bu simvolun ilk beşiyi Şumer barədə də ensiklopediyada bir kəlmə deyilmir.

Türklər xristianlıqdan çox-çox qabaq boyunlarında bərabərtilli xaç gəzdirirdilər, çünki onların inancına görə, xaç həyat gücünü təcəssüm etdirir. Hətta Tanrıya ibadət edilən məbədlər xaç şəkilli bünövrə üzərində qurulurmuş. Qıpçaqlar da yəhudilər kimi alınlarına xaç döydürərlərmiş. Hətta bu adət onlarda eramızın birinci minilliyinin ortalarınadək davam etmişdir. Feofilakt Simokatta "Tarix" əsərində yazır ki, Xosrovun əsir aldığı bəzi türklərin alnında xaç şəklində çapıqlar varmış.





Romalılar qıpçaq təcrübəsindən bəhrələnərək sonralar qulların alnına xaç damğası vururdular, bu, həmin qulun azad olunmasına işarə idi.

Murad Aci özünün "Aziatskaya Yevropa" kitabında yazır ki, çox ola bilsin, xaçı türklər özləri icad etməmişdilər, onu Tibet mədəniyyətindən götürmüşdülər.

Tibetdə xaça vicra deyirdilər. Vicra həm Tibet, həm də Hind mədəniyyətində eyni anlamı verir və möhkəmlik, əzmkarlıq, məğlubedilməzlik rəmzi daşıyır. Hind mədəniyyəti Şumer mədəniyyətinin tərkib hissəsi olduğuna görə Tibet və İkiçayarası mədəniyyətlərin bir-birinə bağlılığı göz qabağındadır. Görünür, elə buna görə də indi ilkin dünya sivilizasiyalarının eyni kökdən yarana biləcəyi ideyası daha tez-tez eşidilməkdədir. Bunu sübut edəcək çoxlu təkzibedilməz dəlillər vardır. Biz bu barədə sonrakı fəsillərdə daha ətraflı söhbət açacağıq.

Ona görə də türklərin xaçı Tibet mədəniyyətindən götürə biləcəyi barədə ehtimal bir qədər mübahisəlidir. Çox ola bilsin ki, qərbdən şərqə "böyük köç" zamanı türklər bu ənənəyi özləri ilə Orta Asiyaya və Avrasiya çöllərinə daşımışlar. Bunu söyləmək üçün əlimizdə kifayət qədər inandırıcı əsaslar vardır.

Məsələ burasındadır ki, türklər həm üstəgəl, həm də iks formalı xaçdan istifadə etmişlər. Üstəgəl formalı xaç Şumerin dini mərkəzi Nippurun, iks formalı xaç isə siyasi hakimiyyətin paytaxtı olan Uruk şəhərinin simvolu idi. Üstəgəl formalı xaç dini anlam daşıyırdı, yerin və göyün qovşağını, maddi və mənəvi

gücün enerji ilə birləşməsini ehtiva edirdi. İks işarəsinə bənzəyən Uruk xaçı kəsişən xətlərdən yaranmamışdı, ortada dairə vardı və bu dairədən ətrafa dörd bərabərtilli şüa yayılırdı.

Bəzilərinə görə, ortadakı dairə dörd tərəfə işıq saçan Günəşin simvoludur və türklərin Göy Tanrısına işarədir. Buna görə də onlar xaçın üstünü qiymətli daş-qaşlarla bəzəyirlərmiş. Bəzilərinə görə isə, Uruk xaçının ortasındakı dairə Günəşin deyil, Enlilin baş hökmdar olduğu Yerin, ətrafa yayılan dörd bərabərtilli şüa isə dünyanın dörd bir guşəsinin, dörd regionun simvoludur.

Uruk şəhəri Şumerin siyasi idarəetmə mərkəzi sayılırdı. Enlil baş kahin kimi Nippurun, baş hökmdar kimi Urukun hamisi idi. Nippur və Uruk xaçlarını fərqləndirən də elə bu idi. Dini xətlər kəsişirdi, hakimiyyət xətləri kəsişmirdi.

Türklərin həm Nippur, həm də Uruk simvolikasından istifadə etməsini bu tayfaların hər iki şəhərin təcrübəsinə dərindən bələd olmaları ilə izah etmək olar. Bu, heç vaxt təsadüf ola bilməz ki, türk hökmdar tayfalarını təmsil edənlər ortası dairəli Uruk xaçından, digər türklər, ən çox isə kahinlər Nippur xaçından istifadə etmişlər. Turukların Uruk şəhəri, bütövlükdə Şumer mədəniyyəti ilə bağlılığını sübut edən bu cür faktlar kifayət qədərdir.

Türklər bayraqlarında üstəgəl formalı xaç gəzdirirdilər. Çünki türklərin inamına görə, bayraqda əcdadların ruhu yaşayır və düşmənlə ölüm-dirim savaşında bu ruh mütləq onlara kömək edəcək!





Üç vertikal və dörd horizontal məkan bölgüsü haqqında bilgi türkləri Şumerə daha da yaxınlaşdırır və təkzibedilməz şəkildə göstərir ki, bu iki xalq çox qədimdən bir-biri ilə sıx şəkildə qaynayıb-qarışmışlar.

Üç vertikal məkan bölgüsü Şumerdə "İlahi üçlük" adlandırılırdı, sonralar yunan alimləri qədim Şumer mətnlərindən istifadə edərək bu barədə çoxsaylı fəlsəfi traktatlar yaratmışdılar.

Şumerdə insanı kosmosun kiçik modeli sanırdılar. İlahi üçlüyü insan bədəninə köçürdükdə üç məkan alınır: aşağı, orta və yuxarı. Simvolik orta – ürək enerji mənbəyi, Ruhun evidir. Beyin (yuxarı hissə) materiya formasındakı həyatı ideya formasındakı ruhi başlanğıcla əlaqələndirir. Cinsi orqan insan bədəninin aşağı hissəsi, törədicidir, güc mənbəyi kimi yeni orqanizmlər yaradır. Şumerlərə görə, Kosmosda hər şey bu kiçik modelin qanunauyğunluqları formasında qurulub. Kainat Ruhun (Allahın) evidir. Qədim bilicilər insan bədənini, bu mikrokosmosu şəxsiyyətin sığındığı məbəd, Ruhun yaşadığı yer, Allahın evi hesab edirdilər.

Türklər "İlahi üçlüyə" Ruhun əbədi sifəti və ya "üç sifətdə birləşən Vahid" kimi baxırdılar. Məsələn, Altay türklərində bu "İlahi üçlük" – aşağı, orta və yuxarı törədən, yaşadan və cəzalandıran anlamını bildirirdi. Yəni, yaradan da, yaşadan da, cəzalandıran da tək Odur, yerin və göyün Sahibi olan Ruhdur, Allahdır.

Allah özündən bir parça ayırmaqla maddi dünyanı yaradır. İnsanlar da yeni nəsil yaratmaq üçün enerji vasitəsilə özlərindən bir parça ayırırlar. Bünövrəsi Şumerdə qoyulan ezoterik təlim öyrədir: insanın ruhu

(canı) həmin enerjidir ki, çox sonralar Tövrat ona «işıq – Allah» demişdir.

Türk inancına görə, Allah hər bir insanın daxilində yaşayır. Ona görə də ta qədimdən insanın özünə qəsd etməsi türklərdə günah sayılır, Allaha qəsd kimi dəyərləndirilir. "Kəndinə gəl, türk kəndinə gələndə böyük olur" fəlsəfəsi bu inancın təzahür formasıdır. Türk daxilindəki Ruhla birləşəndə bütövləşir, məğrurlaşır, ucalır və məğlubedilməz olur.

Xristianlar da "İlahi üçlüyü" "üç sifətin birləşdiyi Vahid" kimi təsəvvür edirdilər, lakin bu təsəvvür türklərdəkindən çox fərqlənirdi. Onlar "İlahi üçlüyü" monada, duada və triadanın – Ata, Ana və Oğulun bir vahiddə cəmlənməsi sanırdılar. S.Levi bunu belə şərh etmişdir: "Əgər Allah vahid olsaydı, O heç vaxt Kainatın Atası ola bilməzdi. Əgər Allah iki(li) olsaydı, ziddiyyətlər içində qalardı və gələcəkdə özü-özünü məhv edərdi. Ona görə də Allah üç rəqəmində cəmləşib".

Türk əfsanələrində "İlahi üçlüyün" mahiyyəti çox gözəl açılır. Məsələn, "Oğuz oğlunun Xızır payı" əfsanəsində deyilir ki, Xızır peyğəmbər Yer xana üç əşya bağışladı. Bunlardan balaca və yumru olanı – alma Yer xanın özünə çatacaqdı. Əbədi həyat simvolu olan almanı Yer xan bağçasında əkməliydi. Sevinc gətirən ağac parçası – qopuz Dağ xanın payına düşmüşdü. İnsanlara sevinc, mənəvi qida verən qopuz, Dağ xan qaynar bulağın suyundan içib, həmin bulaqda çiməndən sonra insanlarla "danışa" bilərdi. Uzun, parıltılı, kəsən əşya isə qılıncdı, Qodu xana çatmalıydı. Beləliklə, Oğuz əfsanəsi bu "İlahi üçlüyü" çox gözəl şəkildə qoruyub saxlamışdır:





1. Alma – əbədi həyat bəxş edir, törədicidir;
2. Qopuz – mənəvi qida verir, yaşadıcıdır;
3. Qılınc – güc-qüdrət bildirir, cəzalandırıcıdır.

Oğuz türkləri çox doğru olaraq belə düşünürdülər ki, insanın əbədi həyatı yalnız nəsil artırmaq yolu ilə mümkündür.

Əcdadlarımız mənəvi qidanı maddi qidadan üstün tutmuş və məhz onu yaşamı təmin edən atribut saymışlar. Çünki mənəvi qida Ruhun qidasıdır, Ruh isə türklər üçün elə həyatın özü deməkdir. Təsadüfi deyil ki, qədim türk duasında Göy Tanrıya belə müraciət olunur: "Ata, Ruhumuzun qidası olan Allah..."

Çox maraqlıdır ki, göydən düşən "üç müqəddəs əşya" əksər dünya xalqlarının əfsanələrində vardır. Məsələn, almanlarda Pəri qəhrəmana göydən düşən üç müqəddəs əşya bağışlayır: üzük, qılınc, çörək. Gördüyümüz kimi, türklərdən fərqli olaraq almanlar mənəvi qidaya deyil, maddi qidaya üstünlük vermiş və onu yaşam üçün başlıca atribut saymışlar.

Başqa bir türk xalqında – qazaxlarda da yaşadıcı atribut mənəvi qida, müqəddəs mətndir. Qazax əfsanəsinə görə, üç qardaşdan birinə, Adaya ox, Usuna çoban çomağı, Arqına müqəddəs mətn göndərilir.

Skiflərdə göydən düşən müqəddəs əşyalar dörd atributdan ibarət olsa da əslində "üç İlahi varlığa" identikdir. Bu atributlar boyunduruqdan, kotandan, camdan (bardaqdan) və qılıncdan ibarətdir.

Zənnimcə, bu əfsanədə boyunduruq və kotan eyni anlamı – əkinçiliyi, məhsuldarlığı bildirir, məhsuldarlıq isə türklərdə nəsil artırmanın simvoludur. Deməli, boyunduruq və kotan törədicidir.

Cam (bardaq) həyat bildirən suyun rəmzidir və yaşadıcı simvolikasına uyğun gəlir. Qədim Şumerdə də bardaq həyat rəmzi idi. Şumer atalar sözündə deyilirdi: çöldə bardaq kişi üçün həyatdır.

Qılınc – güc və qüdrət rəmzi olduğundan cəzalandırıcı funksiyasına identikdir.

Dörd horizontal məkan bölgüsünü də dünyanın əksər xalqları, o cümlədən qədim türklər Şumerdən əxz etmişlər. Dörd horizontal məkanın birinci mənası dörd regionu (İkiçayarası və Aralıq dənizi hövzəsi, Nil vadisi, Hind vadisi, Tilmun), ikinci mənası dörd cəhəti (güney, quzey, doğu, batı), üçüncü mənası dörd ünsürü (hava, su, od, torpaq), dördüncü mənası dörd hikməti (bərabərlik, birlik, qayda-qanun, müdriklik) bildirir.

Herodot yazırdı ki, Skifiya torpağı düztərəfli kvadrat formasındadır, çünki kvadrat skiflərin həyatında çox önəmli yer tuturdu.

Orxon abidələrində belə bir qeyd vardır ki, bərk torpaq türk Mogilyan xana kvadrat şəklində, dörd ucu olan dörd tərəfli məkan kimi təqdim olunub.

Beləliklə, türk-Şumer qohumluğu onların düşüncə tərzində də dərin iz salmış, türklər bunu Şumerdə yaşayaraq görüb-götürmüş, özləri ilə Qıpçaq çöllərinə, Altaya, Azərbaycana və dünyanın dörd bir tərəfinə daşıyaraq yaşatmışlar.





## VIII FƏSİL

# DƏDƏ QORQUD PEYĞƏMBƏRLİYİ

Avropa və sovet tədqiqatçıları şumerologiyada heç vaxt türk amilini yaxına buraxmamışlar. Çoxmillətli Şumer ölkəsində türklərin ola biləcəyi nədənsə, heç kəsin «ağlına gəlməmişdir». Mütəxəssislər sivilizasiyanın son dönəmlərində bu ölkədə yaşayan xalqları belə sıralayırdılar: cənubda şumerlər, babillər və xaldeylər, şimalda hurrilər, assurlar və arameylər. Mesopotamiyanın qədim dilləri barədə sanballı bir əsər yazan İ.Dyakonov da bu etnik tayfalar arasında türkləri görmürdü. Baxmayaraq ki, alim «səmimi şəkildə» etiraf edirdi ki, İkiçayarasında nə şumer, nə də bu ərazidə yaşayan digər tayfaların dilinə uyğun gəlməyən çox sayda toponimlər mövcuddur. İ.Dyakonov yazırdı: «İndi bir çox yaşayış məntəqələrinin adlarının Şumer mənşəli olmadığı barədə kifayət qədər tutarlı dəlillər mövcuddur. Hətta şumer dilinin özündə bəzi sözlər var ki, onlar nə şumer, nə də semit dillərinə uyğun gəlmir».

Lakin şumer dilinin türk ləhcələri ilə müqayisəli təhlili çoxlarını çaş-baş salmışdı. Mesopotamiyadakı qədim toponimlərin türk leksikası baxımından izahı da heyrətləndirici nəticələr verirdi. Təbii ki, «türkün dostları» bununla razılaşa bilməzdilər. «Təhlükənin» qarşısını almaq üçün ümidsiz çabalar başladı. Belə bir nəzəriyyə ortaya atıldı ki, leksikanın bir-birinə uyğun

gəlməsi dillərin qohumluğunu sübut etmək üçün tutarlı dəlil sayıla bilməz. Beləliklə, Şumer və Altay türklərinin qohumluğu ideyasını irəli sürən tanınmış alman alimi Hommel (həm də təkcə Hommel deyil) məsxərə hədəfinə çevrilib rüsvay edildi. Bəzi dillərin üstün mövqeyini isbat etmək istəyən elm siyasətçilərinin nəzərincə uca və dəbdəbəli hind-avropa «dil evlərinin» arasında «köçəri türk çadırları» çox miskin görünürdü. Barbarlar hara, yüksək Şumer mədəniyyəti hara? Hind-avropaçı alimlər buna inanmırdılar, bəlkə də heç inanmaq istəmirdilər.

N.Marr bu cür elm siyasətçilərini nəzərdə tutaraq yazırdı: «Mən bilmirdim ki, ən əvvəl strateq, siyasətbaz, diplomat və yalnız bundan sonra alim olmaq gərəkmiş».

Hamlet dəyirmanı işə salınmışdı, bu dəyirmanda çovdar dənindən təzə buğda unu almaq istəyirdilər. Saxta bir ailədə «cadu-pitiylə» «doğulmuş» hind-avropa dillərinin bir-birindən kəskin şəkildə fərqləndiyini görən «nəzəriyyə ustaları» əvvəlki «elmi tezisi» dəyişib indi də «sözlərin faniliyi» (O.Süleymenov) barədə yeni ideya irəli sürdülər. Sən demə, dilin «nüvəsi» – əsas söz fondu və «üz qabığı» – lüğət tərkibi olur. Zaman ötdükcə lüğət tərkibi dəyişir və iki min il ərzində, hətta yaxın qohumluqda olan dillərdə belə büsbütün başqa sözlərlə əvəz olunur. Dilin əsas söz fonduna aid edilən və hind-avropa dillərinin əksəriyyəti üçün ümumi sayılan terminlər isə bu fondun cəmi 1-2 faizini təşkil edir.





Bu yerdə hind-avropa dil ailəsi barədə bir neçə kəlmə söyləmək zərurəti yaranır.

«Hind-avropa dilləri» terminini dilçiliyə ilk dəfə F.Borr gətirib. Sonralar A.Şlayxer bu termini hind-german dilləri termini ilə əvəz etməyə çalışsa da, onun ideyası qəbul olunmayıb.

Bu «dil ailəsinə» 140 dil daxildir və bu dillərdə iki milyarddan çox adam danışır. Hind-avropa dillərinin qohumluğu barədə sistemli tədqiqata 1786-cı ildə V.Cousun Asiya cəmiyyətinə məruzəsindən sonra başlanmışdır. Belə güman edilir ki, hind-avropa protodilində beş min il bundan əvvəl Qara dənizin şimal ətrafında yaşayan xalqlar danışırmışlar.

Hind-avropa protodilini «bərpa etməyə» cəhdlər həmişə uğursuzluqla nəticələnmişdir.

Tədqiqatçılar hind-avropa dillərini 9 qrupa bölürlər.

1. Hind dilləri (benqal, pəncab, urdu, hindu və ölü dillər: sanskrit, prakrit).

2. İran dilləri (fars, əfqan, tacik, osetin, kürd, tat). Bəzi tədqiqatçılar skif dilini də «ölü dil» kimi «İran dil ailəsinə» daxil etməyə cəhd göstərmişlər, bu isə kökündən yanlışdır. (Belə görünür ki, hind-avropaçılar skif dilini hind-avropa dil ailəsinin kökündə duran protodil, ulu dil hesab edirlər).

3. Slavyan dilləri (şərqi slavyan – rus, ukrayna, belorus; qərbi slavyan – polyak, çex, slovak və qədim slavyan).

4. German dilləri (şərqi german – isveç, norveç, danimark, island; qərbi german – ingilis, alman, dar).

5. Baltik dilləri (litov, latış).

6. Yunan dilləri (qədim və yeni yunan).

7. Roman dilləri (ispan, portuqal, fransız, italyan, rumın, moldovan).

Bu «ailəyə» həmçinin alban (erməni və toxar), bir də hindoariya (hindu, urdu, benqal, maraxti, nepal, siqal və s. ) dil qrupları da əlavə edilmişdir.

Skaliger 1610-cu ildə çap etdirdiyi «Avropa dilləri haqqında düşüncə» kitabında Avropa dillərini II ana dili şəklində qruplaşdırmışdır. 4-ü böyük dil qrupu (bura yunan, latın (roman dilləri ilə birgə), tevton (german dilləri ilə birgə) və slavyan dilləri daxildir), 7-si isə kiçik dil qrupu təşkil edirdi (bura epirot (alban), irland, kimr (brit) bretonla birgə, tatar (?), fin (lopar dili ilə birgə), macar və bask dilləri daxildir).

Hind-avropaçılar belə hesab edirdilər ki, qohum dil genetik cəhətdən eyni olan dillərə deyilir. A.Meye yazırdı: «...iki dil o zaman qohum sayılır ki, onların hər ikisi əvvəllər istifadə edilmiş eyni bir dilin iki müxtəlif təkamülünün nəticəsi kimi meydana gəlsin. Qohum dillərin məcmusu dil ailəsini təşkil edir».

Tədqiqatçılar hind-avropa ailəsinə daxil olan dillərin qohumluğunu sübut etmək üçün şəkilçilərlə yanaşı, güclü daxili fleksiyanın, 8 halın, 3 cinsin (kişi, qadın, orta) və 3 kəmiyyətin (tək, dual və cəm) olduğunu əsas götürürlər. Fonetik oxunuş və məna etibarı ilə bir-birinə yaxın olan söz kökü – «nüvə» bu dillərin qohumluğunu sübut edən başlıca dəlil sayılır. Məsələn, «ana» sözünün hind-avropa dillərində yazılışına fikir verək:





Rusca – mat; qədim slavyanca – mati, matere;
Litovca – mote;
Qədim hind dilində – matere, sanskritcə – mata;
Farsca – madər;
İngiliscə – mother;
German dilində – mutter, mioter;
Qədim İsland dilində – mathir;
Toxar dilində – macar, matar.

Göründüyü kimi, bütün hallarda sözün kökü eynidir: ma. Lakin bu, həmin dillərin qohum olduğunu qətiyyətlə söyləməyə əsas verirmi? Bizcə vermir. Çünki «ma» hind-avropa dillərində alınma sözdür, bu söz şumer dilindən başqa dillərə keçmişdir. Hind-avropa dillərində eyni kökdən olan və təxminən eyni mənalarda işlədilən bir çox başqa sözlər də vardır. Lakin bu sözlərin mənşəyini, yaranma tarixini öyrənmədən həmin dillərin qohumluğu barədə iddia irəli sürmək olduqca yanlışdır.

Məsələn, latınca tipus möhür deməkdir. Fransızlar da möhür, nümunə (ottisk) anlamına gələn tipe sözündən istifadə edirlər.

İngilislərdə tayp – möhür və çap maşını mənalarını ehtiva edir. Eyni kökdən yaranan tabel sözü də həm ruslarda, həm də hollandlarda cədvəli bildirir. İndi bu oxşar fonetikanı və mənaları əsas götürərək bu dillərin qohumluğunumu iddia etməliyik? Halbuki bu xalqlardan daha əvvəl elamlar və hurrilər də gil lövhə, nümunə, möhür anlamını verən tuppi sözündən istifadə etmişlər. Hind-avropa dillərinə daxil olmayan qədim türk dilində də bişmiş kərpicə tup deyirdilər.

Amma bu söz nə hind-avropalılara, nə də türklərə aid deyildir, xalis şumer sözüdür. Şumerdə odda bişirilərək basma yolla nümunə (ottisk) alınan yazı lövhəsi dub adlandırılırdı. Son illərin texniki inkişafı sayəsində birmənalı şəkildə sübut edilmişdir ki, dünyanın əksər xalqlarının dillərində çoxlu şumer sözlərinə rast gəlmək mümkündür. İllər, əsrlər ötmüş, həmin sözlər bu dillərdə vətəndaşlıq hüququ qazanmış, amma eyni zamanda həmin sözlərin ilkin vətəni, əsil ünvanı tamamilə yaddan çıxarılmışdır. Həmişə və hər işdə olduğu kimi, burada da şumerlərə böyük haqsızlıq edilir, onların haqqı yeyilir.

Ad (kimlik) mənasında işlədilən nam sözünün iran illərinə aid olduğu güman edilir. İngilislər də "neym" sözünü eyni anlamda işlədirlər. Amma çox az adam bilir ki, bu söz şumer dilindən götürülmüşdür. Şumerlər «bu kimdir», «bu nədir» demək üçün «na. me» kəlməsindən istifadə edirdilər. Bu cür nümunələrin sayını istənilən qədər artırmaq olar.

Beləliklə, «türk faktorundan» yaxa qurtarmaq üçün ortaya daha «sanballı» bir nəzəriyyə atılmışdı: Rədd olsun lüğət tərkibi, yaşasın lüğət fondu! Şumer-semit genetik dil qohumluğunu heç cür sübut edə bilməyən dil siyasətçiləri bu qohumluğun mümkünlüyü barədə yeni manevr imkanları əldə edirdilər. "Ön Asiyanın qədim dilləri» kitabında İ.M.Dyakonov yazırdı: «Yalnız ən köhnə, ən sabit anlayışları ifadə edən sözlər, adətən, bütün lüğət fondunun cəmi 1-2 faizini təşkil edən sözlər müqayisə üçün material ola bilər. Riyazi dilçiliyinin verdiyi məlumata görə, hər





min ildə bu əsas söz fondunun da orta hesabla 15 faizi ölür, başqa sözlərlə əvəz olunur. Görünür elə buna görə də, məsələn, şumer dilinin hər hansı bir müasir dillə qohumluğunu müəyyən etmək mümkün olmamışdır – onları bir-birindən çox böyük zaman ayırır».

Nəhayət ki, xoruzun quyruğu göründü. Bütün bu saxta nəzəriyyə oyunları ona görə uydurulubmuş ki, hind-avropa dillərinin şumer linqvistika sisteminə oturmamasının səbəbləri «elmi» yolla əsaslandırılsın. Amma sözün «etibarsızlığı», söz fondunun zaman-zaman yadlaşa bilməsi «nəzəriyyəsi» nədənsə türk linqvistik sistemində işə yaramırdı. Türk dillərinin söz fondu, «nüvəsi» 25-30 əsr ərzində nə qocalmış, nə də ölmüşdü, nəhəng, güclü bir lokomotiv kimi sözdəyişdirici və sözyaradıcı lüğət tərkibini arxasına alıb irəli aparmaqda davam edirdi.

Görkəmli dilçi alim N.Marrın bununla bağlı sözləri çox düşündürücüdür: «Ədəbi fəallıqları ilə türklər VI əsrdən bəllidir, çinlilər isə bundan min il əvvəl də türkləri beləcə tanıyırdılar, elə bunun da əsasında mütəxəssislər bizi öyrədirlər ki, türk dilləri öz konservatizmi ilə seçilir. Belə ki, VI əsrə aid abidələr müasir dövrdə də mövcud olan dialektləri özlərində əks etdirirlər. Belə çıxır ki, türk dilləri 1300 il ərzində demək olar heç dəyişilməyib. Onu da nəzərə alaq ki, türk dilləri öz təbii mühafizəkarlığını əvvəlki minilliklərdə də hifz edə bilərdilər, yəni çinlilərin – «zəhmət çəkib» onlar barədə məlumat verdikləri dövrlərdə də, ondan qat-qat qədimdə də».

Bəyəm «nəzəriyyə ustaları» bunu bilmirdilər, bunu görmürdülər? Oljas Süleymenovun da obrazlı şəkildə ifadə etdiyi kimi, «nə qədər ki, hind-avropaçılar türk dillərini öz «imperiyalarının» ucqar əyalət şivələri hesab edirlər, nə qədər ki, bizim türkoloqlar «dayə köməyi» olmadan şalvarlarını bellərində saxlaya bilmirlər və öz möhtərəm müəllimlərinin təhqiredici həqarətlərini tutuquşu kimi təkrarlayırlar – biz öz evimizdə gözübağlı dolaşacaq və başımızı küncdən-küncə vuracağıq».

Bu sözlərin deyildiyi vaxtdan otuz il sonra vəziyyət heç dəyişməyib, bir otuz il sonra da dəyişəcəyinə isə ümid yoxdur. Çünki biz hind-avropaçıların tapdaq-tapdaq etdikləri yoldan qırağa çıxmağa ürək eləmirik, qorxuruq və mözücə baş verəcəyini gözləyirik.

İkiçayarasında və onun ətraf rayonlarında türk dil leksikasına uyğun gələn çoxlu oykonimlər (yaşayış məntəqələri), hidronimlər (su obyekti adları), digər oronimlər vardır. Bir vaxtlar mirvari boyunbağı kimi qədim Aypara regionunun boynuna dolanan bu kənd, şəhər, çay, dənizlərin adlarında müasir dövrlə eyniləşən türk damğası açıq-aydın görünməkdədir. Lakin problemin çətinliyi ondadır ki, bu toponimlərin bir çoxunun tarixi yazılı mənbələrdə qeydə alınan ilk türk tayfalarının tarixindən daha qədimdir!

Bu, necə ola bilər, tayfa özü formalaşmadan onun dil fonduna daxil olan sözlər necə meydana gələ bilər? Kitab boyu siz bu sözləri hələ çox eşidəcəksiniz: Şumerdə, həqiqətən, heç nə göründüyü kimi deyil, onun bir görünən, bir də görünməyən üzü vardır. Nə arxeoloji qazıntılar, nə radioizotop təhlil laboratoriyaları, nə də adət etdiyimiz başqa üsullar Şumerin «sirli üzünü» açıb göstərməyə yetməz. Bunun üçün tarixə baxış sistemimiz kökündən dəyişməli, yeni, qeyri-standart metodlardan istifadə edilməlidir! Bunlardan biri, bəlkə də ən birincisi qədim miflərdir!





Dayanın, gülümsəməyə tələsməyin, «elmi təfəkkürün yerinə mifoloji təfəkkürü qoymaq axmaqlıqdır!» deyərək ötüb keçməyin. Əgər siz həqiqətən bu şəkildə düşünürsünüzsə, o zaman miflərin həqiqi gücü barədə heç nə bilmirsiniz, şifahi yaddaşın yazı yaddaşından daha qədim və daha etibarlı olduğundan qətiyyən xəbəriniz yoxdur!

Hər bir əfsanə ilk əvvəl mütləq real tarixi hadisələrə söykənərək yaradılır, lakin zaman keçdikcə bu nüvə xalqın bədii təfəkkür süzgəcindən keçərək cilalanır, təzə «naxışlarla» bəzədilir, ona yeni-yeni əhvalatlar artırılır, yüz il sonra, min il sonra bu nüvədən, demək olar ki, əsər-əlamət qalmır, o, tamamilə dəyişərək yeni donda qarşımıza çıxır. Bu əfsanələrdə köklü şəkildə deformasiyaya uğramayan yalnız oykonimlər, antroponimlər və simvollardır. Simvollar bizi keçmişimizə qırılmaz tellərlə bağlayan, əcdadlarımızın tarixi, mənşəyi barədə qaranlıq minilliklərin arxasından ən dürüst xəbər çatdıran mötəbər qaynaqdır. Bu simvolların işığında keçmişə səyahət edərək onların arxasında yatan dərin mətləblərin üstündən sirr pərdəsini götürmək olar. Bu anlamda xalqımızın milli sərvəti sayılan həm «Kitabi – Dədə Qorqud», həm də

«Oğuznamə» dastanlarında bizə əvəzsiz informasiyalar yadigar qoyulmuşdur. «Oğuznamə» barədə ayrı fəsildə geniş söhbət açacağımız üçün burada yalnız «Dədə Qorqud» dastanları ilə bağlı bəzi fikirlərimizi sizinlə bölüşmək istərdik.

Filologiya elmləri doktoru Kamal Abdulla çox doğru olaraq yazır: «Sanki Dastan eninə də, uzununa da təhlil edilmişdir. Sanki burada ən xırda məsələ belə çoxdan hamıya məlumdur. Anlamadığımız və anlaya bilmədiyimiz, razılaşmadığımız və razılaşa bilmədiyimiz məqamların üzərindən elə tələm-tələsik keçib gedirik ki, sanki belə məqamlar heç yoxmuş».

Amma belə məqamlar həqiqətən çoxdur. «Kitab» haqqında, onun milli-mənəvi dəyərləri, etik-estetik, əxlaqi görüşləri, onlarca başqa məziyyətləri barədə Azərbaycanın və dünyanın çox görkəmli alimləri çox qiymətli fikirlər söyləsələr də, dastan heç vaxt mühüm tarixi qaynaq kimi dərindən araşdırılmayıb. «Kitab»ın sanki bir görünən, hamının başa düşdüyü və tanıyıb sevdiyi üzü var, bir də dərin qatda yerləşən, şərtiliklər və simvollarla dolu gizlin üzü. Miflərin bu üslubu Şumerdən başlanır, kim bilir, bəlkə də bu üslub Şumer dönəmindən daha qədimə gedib çıxır. (Bax: «Şumer kilidi», «Uzaq keçmişdən gələn «məktub» fəsli). Simvollarla şərtlənən bu gizlin «informasiya dünyasına» açar tapmaq üçün Şumer Müdrikliyinə, cisimlərin aşkar və məchul xassələri barədə təbiətin Ana qanununa bələd olmaq gərəkdir. «Kitab»da bu cür gizlin mətləbləri anladan məqamlar kifayət qədərdir və Kamal Abdullanın da qeyd etdiyi





kimi, tədqiqatçılar, təəssüf ki, bu məqamların üzərindən tələm-tələsik ötüb keçməyə çalışırlar.

Dastanda Basat öz soy-kökünü bu misralarla nişan verir:

***Anam adın sorar olsan – Qaba Ağac;***
***Atam adın deyərsən – Qağan Aslan;***
***Mənim adım sorarsan,***
***Aruz oğlu Basatdır*** – dedi.

Fikir verdinizsə, Basat öz atasından iki dəfə bəhs edir. Bir dəfə «Mənim adım sorarsan Aruz oğlu Basatdır», o biri dəfə isə «Atam adın deyərsən – Qağan Aslan»dır deyir.

Mətndən çıxan sadə məntiqə görə Aruz Basatın yaxın, Qağan Aslan isə uzaq soyudur, başqa cür desək, Aruz onun atası, Qağan Aslan isə ulu əcdadıdır. Qağan Aslan kimdir, nə üçün Dədəmiz oğuz boylarının kökünü Qağan Aslana bağlayır?

Dastanın başqa bir boyunda Qazan xan da öz soy-kökünü bu sətirlərlə tanıdır:

***Ağ qayanın Qaplanının erkəgində bir köküm var;***
***Ağ sazın Aslanında bir köküm var;***
***Ağ sunqur quşun erkəgində bir köküm var.***

Əgər birinci mətndə oğuz boylarının əcdadları «Qağan Aslan» şəklində təqdim olunursa, ikinci mətndə bu obraz «ağ sazın Aslanı» kimi verilir. «Qağan Aslanla», «ağ sazın Aslanı» arasında hər hansı yaxınlıq, əlaqə varmı?

Gəlin əvvəlcə "Ağ sazın" nə olduğunu aydınlaşdırmağa çalışaq. Qədim türk dillərində "Ağ" epiteti həm kiçildici, daraldıcı, məhdudlaşdırıcı, həm də müqəddəs, ilahi, göylərə bağlı mənalarda işlənmişdir. Bəs "saz" nədir? Dastanın tərtibatçıları bu sözü qamışlıq kimi təfsir etmişlər. O zaman "Ağ saz" kiçik qamışlıq, yaxud müqəddəs, ilahi qamışlıq olacaqdır. Bu isə tamamilə absurddur, çünki aslanlar qamışlıqda yaşamazlar, nə kiçiyində, nə də "müqəddəs"ində.

Bəs onda "Ağ saz" başqa nə anlama gələ bilər? Sən demə, qədim türk dillərində "sazın" ayrı mənası da varmış. Mərhum alimimiz Qiyasəddin Qeybullayev Azərbaycan türk dilinin təşəkkül tarixindən danışarkən "sazın" həm ceyillik, qamışlıq, həm də bataqlıq, bataqlıq ərazi anlamına gəldiyini yazmışdır. Amma aslanların bataqlıqda yaşaması da mümkün deyildir. Görünür elə bu üzdən tərtibatçılar İki "pisdən" daha "yaxşısını"– qamışlığı seçmək məcburiyyətində qalmışlar və zənnimcə, səhvə yol vermişlər. Dədəmiz nə demək istədiyini, nə anlatmağa çalışdığını həmişə yaxşı bilmişdir. Məsələ burasındadır ki, ilk bəşər sivilizasiyası hesab olunan Şumer Mesopotamiyada, böyük bataqlıq ərazinin kənarında salınmışdı. Dədəmiz "Ağ sazın Aslanında bir köküm var" deyərkən görünür məhz bataqlıq ərazidəki müqəddəs Ölkənin Aslanını nəzərdə tutmuşdur. Elə isə bəs "Ağ sazın Aslanı" kim ola bilər?

Gəlin bu sualı yadda saxlayaq və söhbətimizi qaldığı yerdən davam etdirək.





Dastandakı soy-köklə bağlı deyimə mütəxəssislərin münasibətləri fərqlidir. Əgər S.Əliyarlı mətndəki simvolik işarəyə istinad edərək onu «qədim türklər canavarla yanaşı, şiri də özlərinin əcdadları hesab edirdilər» şəklində yorumlayırsa, tədqiqatçılar O.Gökyay və V.Bartold Qağan Aslanı soy-kök anlamından çıxararaq terminin «kükrəmiş, qızışmış, öfkələnmiş» mənasına üstünlük verirlər. Lakin bu zaman «kükrəmiş, qızışmış, öfkələnmiş Aslanın» oğuzların soy babası kimi nə anlama gələ biləcəyini izah etmirlər.

Məsələyə M.Seyidov öz münasibətini belə bildirir: «Dədə Qorqud» boylarını yaradanlar oğuzların mifoloji təfəkkürünə sadiq qalaraq qaplana, aslana və sunqur quşuna «ağ» sifətini verməklə onların onğonluğunu, ilahiliyini, müqəddəsliyini, Ülgenlə bağlılığını gözə çarpdırmaq istəmişlər».

Təəssüf ki, M.Seyidovun bu qiymətli fikirləri ümumilikdə nə qədər cəlbedici görünsə də, bu obrazların arxasında yatan konkret məna yükü baxımından məqbul sayıla bilməz. Axı onğon totemdir, tarixdən bəllidir ki, hər bir türk tayfası inancından asılı olaraq bir quşu, yaxud vəhşi heyvanı ilahiləşdirərək özünə onğon seçirdi. Dastanda isə söhbət açılan mifik obrazlar – qaplan, Qağan Aslan, Ağ sunqur quşu və Qaba Ağac onğondan fərqlidir, daha yüksəkdir, çünki onlar dar mənada bir tayfaya məxsus totemin deyil, geniş mənada Oğuz ellərinin soy-kökünün rəmzi işarəsidir.

M.Seyidovun yuxarıdakı fikirləri ilə razılaşmayan qorqudşünas Bəhlul Abdulla da Dastandakı mifik obrazların onğonluğunu qəbul etmir, oğuz boylarının

bütün totemlərini adbaad saydıqdan sonra fikrini belə yekunlaşdırır: «Boyların onğonlarını bütünlüklə göstərməyə ona görə məcbur olduq ki, M.Seyidovun onğon bildiyi qaplandan, aslandan, qamışdan (saz) xilas ola bilək. Hələ onu demirik ki, əgər Qazan xan Salur boyundandırsa və özü də Salor-Salur Qazan adlanırsa, onda o öz boy onğonunu qaplana, aslana, qamışa bağlaya bilməzdi, çünki salurların onğonu Burkut quşudur».

Mifik obrazların onğon olmadığını çox doğru qeyd edən alim təəssüf ki, bu obrazların keçib gəldikləri başlanğıc nöqtəsini, onların real həqiqətdən mifik təfəkkürə çevrilmiş mənasını axtarmağa təşəbbüs göstərmir, «bəs nə üçün Oğuz xalqı öz soy-kökünü məhz bu obrazlara bağlamışdır?» sualına cavab axtarmır. Əgər Dədəmiz inamla «Atam adın deyərsən – Qağan Aslan», «Ağ sazın Aslanında bir köküm var» deyə peyğəmbərlik edirsə, bunun arxasında mütləq bizim bilmədiyimiz incə bir mətləb, üstü sirr pərdəsi ilə örtülü gözəgörünməz bir bağlantı olmalıdır.

Fikrimizi aydınlaşdırmağa çalışaq. «Kitab»ın orijinal mətnində Basatın Təpəgözə verdiyi cavab belədir:

***Atam adın sorar olsan – Qaba Ağac;***
***Anam adın sorar olsan – Qağan Aslan.***

Bəhlul Abdulla məhz bu misralara istinad edərək yazır ki, Basatla Qazan xan yaxın qohum idilər, ola bilsin ki, Basatın anası da Qazan xan nəslindən imiş. Tədqiqatçı fikrini bu sözlərlə davam etdirir: «Salur Qazan «Ağ sazın Aslanında bir köküm var» deməkdə





çox olsun ki, haqlıdır. Yadımıza salaq ki, abidənin səkkizinci boyunda Aruzun itmiş oğlu Basatı sazlıqda (qamışlıqda) bir aslan bəsləyib böyüdür».

Fikrimizcə, burada üç böyük yanlışlığa yol verilmişdir. Birincisi, Dastanın orijinal variantında, görünür, mirzələrin xətası üzündən birinci və ikinci misralardakı «atam» və «anam» sözlərinin yeri dəyişik düşüb. Çünki dünya bilicisi olan Dədəmiz heç vaxt «Atam adın sorar olsan – Qaba Ağac» deyə bilməzdi. Bir qədər sonra da görəcəyimiz kimi, Qaba Ağac (Həyat Ağacı) simvolu Şumer dövründən üzübəri bütün dünya xalqlarında Qadın başlanğıcı sayılır və heç ola bilməz ki, «Kitabi – Dədə-Qorqud» kimi möhtəşəm, əvəzsiz bir inci yaradanlar bunu bilməmiş olmasınlar. Dastanın tərtibatçıları sadələşdirilmiş variantda çox doğru olaraq bu səhvi düzəltmişlər. Lakin orijinal varianta istinad edən Bəhlul Abdulla görünür elə bu üzdən də yanlış nəticəyə gəlmişdir.

İkincisi və ən önəmlisi, qamışlıqda Basatı bəsləyib böyüdən aslan ən adi məntiqə görə Qazan xanın, Basatın, yaxud Oğuz elinin soy-babası sayıla bilməzdi, çünki bu aslan dişi idi, itmiş Basata döşlərindən süd verib böyütmüşdü. Dastanda isə söhbət bir xalqın atasından, ulu əcdadından, bir sözlə, erkək Aslandan, Xaqan Aslandan gedir.

Üçüncüsü, Qağan Aslan, Qaba Ağac simvoldur, mifik obrazdır, onu adiləşdirmək, bəsit mənada reallaşdırmaq olmaz. Bu obrazların mahiyyətini açmaq üçün «simvollar dünyasına» bələd olmaq, simvolların «dilini» bilmək lazımdır.

«Kitab»da «Qağan Aslan» ümumiləşdirilmiş obrazdır, o, gah qəzəbli, öfkəli, dəhşət saçan canavar kimi, gah da bir xalqın soy-kökünü bildirən hökmdar kimi təqdim olunur.

Qanlı Qoca oğlu Qanturalı Sarı donlu Selcan xatunu almaq üçün üç canavara qalib gəlməliydi. «Kitab»da deyilir: «Ol üç canvərin biri Qağan Aslandı, bir qara buğaydı...»

Basatın soy-kökü isə belə nişan verilir: «Atam adın sorar olsan – Qağan Aslan». Hər iki Aslan eyni mifik obrazın dəyişmiş formalarıdır. Oğuz ellərinin «Bəy yigit, öyünərsə ər öyünsün, Aslandır» deyimi ilə «Canvərlər sərvəri Qağan Aslan» deyimi arasındakı daxili bağlantı göz qabağındadır. Hər iki halda eyni xarakterik cizgilər – güc, qüvvət, qüdrət və birinci olmaq önə çəkilmişdir. Məsələyə bu yöndən yanaşdıqda «Qağan Aslan»ın təkcə «kükrəmiş, qızışmış, öfkələnmiş» ola biləcəyi barədə yozum inandırıcı görünmür və əslində, öz mənasını itirir, çünki bu yozum Dastan müəlliflərinin çatdırmaq istədikləri mətləbdən çox uzaqdır.

Bəs onda Qağan Aslan kimdir?

Qağan – Kağan onomastikasının yaranma tarixi çox maraqlıdır. Qədim türklər tayfa başçısını, bu günkü anlamda desək, öz liderlərini Ata adlandırırdılar. Bu, həm «böyük», «ağsaqqal», həm də «hökmdar» anlamına gəlirdi. Sonra Ata ilə sinonim kimi işlədilən Kan kəlməsinə üstünlük verildi. Orxon-Yenisey abidələrində Kan ata mənasında işlədilmişdir. Görünür, bu kəlmədən daha çox qan bağlılığını önə çəkmək





üçün istifadə etmişlər. Daha sonralar hökmdarla atanı bir-birindən ayırmaq üçün kan kaana, kağana, xaqana dönüşmüş, yenidən qayıdaraq kan (xan) şəklinə düşmüşdür. Termin bütün inkişaf mərhələsində ilkin mənasını – Ata və Hökmdar anlamını qoruyub saxlamışdır. Deməli, «Kitab»da söhbət sadəcə, aslandan deyil, Ağ sazın, bataqlıq kənarındakı müqəddəs ölkənin Aslanından, hökmdar Aslandan, bir tayfanın Atası olan Aslandan gedir. Bəs onda Aslan hansı mənaya gəlir? Qədim Şumerdə hər şey simvollar üzərində qurulmuşdu, bu atributların mahiyyətini anlamadan qədim Ön Asiyada baş verən hadisələri izah və şərh etmək qeyri-mümkündür.

Əgər biz Şumer miflərinə diqqətlə fikir versək, onda görəcəyik ki, Nanna (Sinin) simovlu Ay, Utun simvolu Günəş, Enkinin simovlu İlan olduğu kimi, Enlilin simvolu da Aslandır. Enlil həm də bütün yer üzünün baş hökmdarı idi. Onda belə çıxır ki, «Kitab»da təsvir olunan Qağan Aslan Enlildir? Bəs Oğuz bilicilərini belə bir ciddi qənaətə gəlməyə nə vadar etmişdir?

Türk tayfalarının bəlli bir qismi, o cümlədən oğuzlar özlərini hökmdar tayfaları hesab edirdilər. Hökmdar anlamını bildirmək üçün Şumerdə «en», türklərdə isə «ağ» epitetindən istifadə olunurdu. Ağ saklar, ağ quzlar (çar skifləri), ağ hunlar, ağ sarmatlar hökmdar tayfaları idi. Bəs bu epitet necə və haradan yaranmışdır? Mən sonrakı bütün təkrarlar üçün qabaqcadan dönə-dönə üzr istəyirəm, çünki türk tayfalarının taleyi ilə sıx bağlı olduğu üçün bu hekayəti kitab boyu dəfələrlə təkrar etməyə məcbur olacağam.

Qədim Şumer əfsanələrinə, eləcə də oğuz tayfalarının inancına görə hökmdar tayfaları – «yarımallahlar» dinqirlərlə yer insanlarının izdivacından əmələ gəlmiş, törəyib artaraq müasir dövrümüzə qədər gəlib çatmışlar. İlk belə ittifaq Enlilin nəvəsi, Nanna (Sinin) oğlu Utla yer qadını arasında baş vermiş, nəticədə hökmdar tayfalarının ilk nümayəndəsi Meksiaqqaşer dünyaya gəlmişdir. Göründüyü kimi, bu qohumluğun son ucunda Yer üzünün baş hökmdarı, Ananın böyük oğlu Enlil durur. Əgər Mesopotamiyadan tapılmış konusvari möhür rəsmlərə inansaq, Enlil həmişə Aslanın belində təsvir olunur (Bax: şəkil 7). Sonrakı fəsillərdən də aydın görəcəyimiz kimi, Ananın və Enlilin adı özlərini hökmdar nəslindən hesab edən türk tayfalarının panteonunda önəmli yer tutmuş və ilahiləşdirilmişdir.



**Şəkil 7.** Enlil aslanlar arasında





Bu yerdə kiçik bir haşiyəyə çıxmaq zərurəti yaranır. Dövlət başçısını göylərlə bağlamaq ənənəsi təkcə türklərə aid deyildir. Şumerlə birbaşa əlaqəsi olan və olmayan monarxiya üsul-idarəli bütün ölkələrdə kralı «allahın oğlu» sayırdılar, «göydə allah, yerdə O» deyirdilər. Məsələn, İran, Efiopiya, Yaponiya, Çin və bir sıra başqa ölkələrin inancına görə imperatorlar sadə adamlar arasından seçilə bilməzdilər, allahın iradəsi və istəyi ilə taxt-taca oturan bu hökmdarlar öldükdən sonra onları mütləq ən yaxın adamları – oğulları və ya qardaşları əvəz etməliydi.

Amma bu ölkələrdən fərqli olaraq türklərdə tək bir nəfər deyil, bütöv qəbilələr «allahın oğulları», «allahın ruhunu daşıyanlar» hesab olunurdular. Türk inancına görə bu tayfalar və tayfa birləşmələri Göylə Yerin, «allahlarla» ölümlü insanların izdivacından doğub törəmiş, artmış və bununla yerdə qalan digər tayfalardan fərqlənmişlər.

Bütün yuxarıda sadalananların son nəticəsi kimi inamla demək olar ki, Şumer əfsanələrindən süzülüb gələn və «Kitab»ımızda oğuzların ulu əcdadı kimi təqdim olunan Qağan Aslan adi bir mif, adi bir nağıl deyildir, o simvolik məna yükündən daha ağır bir yük daşıyır, ulu babalarımızın konkret reallıqlara söykənən, qan yaddaşı ilə nəsillərdən nəsillərə ötürülən həyat öyküsünü anladır. Bu öykü türk şəcərələrinin güman edildiyindən də uzaqlara gedib çıxdığını, Aslan belindəki baş hökmdarın nəslindən törəmə olduğunu bəyan edir.

«Kitab»dakı ikinci simvol Qaba Ağacdır. Tədqiqatçılar nədənsə bu günə qədər Dədəmizin «Anam

adın sorar olarsan – Qaba Ağac» önərisinə əhəmiyyət verməmiş, onun şərhinə kifayət qədər yer ayırmamışlar. Halbuki «Kitab»dakı məhz bu misra özündən əvvəl və sonra gələn misraların açarıdır, Qağan Aslanın və bütövlükdə Oğuz ellərinin qədim Şumerlə bağlantısını ortaya qoyan ən tutarlı dəlildir.

Altay türklərinin yaşatdığı bir rəvayətdə deyilir ki, Tanqrıçılıqdan çox-çox qabaq türklərin sitayiş etdikləri bir Tanrı vardı. Əfsanəyə görə, bu Tanrı Yerin mərkəzində, "göbəyində" yaşayırdı, burada nəhəng, zirvəsi Ülgenin evinə çatan yol (yel) ağacı bitmişdi. Türklər ona "Ülgen ağacı" da deyirdilər.

"Yerin göbəyi"ndə yaşayan Türk Tanrısı kimdir? "Ülgen evi"nin mənası nədir? Hündürlüyü "Ülgen evi"nə çatan ağac nəyin simvolik açarıdır? Rəvayətlərin quru yerdən yaranmadığını bilirik, bəs bu əfsanə ilə qədim əcdadlarımız bizə nə çatdırmaq istəmişlər?

Moskvada 2007-ci ildə nəşr olunmuş «Ensiklopediya simvolov, znakov, emblem» kitabında belə bir məlumat vardır: "Yel ağacı əbədi həyatın simvoludur, həm də Həyat Ağacı simvolikası ilə sıx bağlıdır. Həyat Ağacı isə Kainatın qadın başlanğıcını təcəssüm etdirir".

Ağac dünyanın bütün xalqlarında Kosmosun və İnsanın simvoludur, çünki İnsan Kosmosun kiçildilmiş modelidir. Xarici görünüşcə budaqlar əllərin, gövdə bədənin, köklər ayaqların oxşarıdır. Yaşam oxşarlığı da vardır: hər ikisi toxumdan törəyir, böyüyür, yetkinləşir, bar verir, qocalır və ölür. Ağacın meyvələri insanın uşaqlarına identikdir.





Altay türklərinin əfsanəsinə görə, yol (yel) ağacı "Yerin göbəyində bitmişdi, zirvəsi "Ülgen evi"nəcən çatırdı.

"Yerin göbəyi" varmı, varsa, o haradadır? Sən demə, "Yerin göbəyi" varmış. "Yerin göbəyi" omfol adlanır. "Dünyanın yaradılması və qaydaya salınması buradan başlanmışdır. Omfol Kainatın dini mərkəzi, maddi və mənəvi gücün enerji ilə birləşməsi, Yerin və Göyün qovşağı, yeraltı dünyaya girişdir. Yerin oxu və ya Həyat Ağacı omfola söykənir, hündürlüyü dünya dağının zirvəsinə çatır. Omfol makrokosmos elementi kimi həm də ana bətnindəki uşağı təcəssüm etdirir". ("Entsiklopediya simvolov, znakov, emblem", səh. 401).

Bu izahatlardan sonra müxtəlif məkanda və müxtəlif zamanda yaradılmış Altay və Oğuz türklərinin əfsanələrini qarşılaşdırdıqda çox maraqlı mənzərə alınır. "Kitabi-Dədə Qorqud" Qaba Ağacı türklərin Anası adlandırır. Kainatın Ana başlanğıcının rəmzi olan bircə ağac var: yol (yel) ağacı, yaxud Həyat Ağacı. Açıq-aydın görünür ki, hər iki türk əfsanəsi eyni kökdən yaranıb və eyni informasiyanı çatdırmaq istəyib. Bu informasiya nədir?

Bu sualın açarı "Yerin göbəyi" ifadəsindədir. Xatırladım ki, "Entsiklopediya simvolov, znakov, emblem" kitabında "Yerin göbəyi" belə şərh olunur: Dünyanın yaradıldığı və qaydaya salındığı yer, Kainatın dini mərkəzi, maddi və mənəvi gücün enerji ilə birləşməsi, yerin və göyün qovşağı. Bəs bütün bu elementləri özündə birləşdirən "Yerin göbəyi" haradadır? Bu çətin sualın çox sadə cavabı var: Şumerdə!

Ensiklopediyanın tərtibatçıları nədənsə bu qədim xalqın haqqını yeyir və onun adını çəkmək istəmirlər. Amma "gil kitabə"lər nağıl edirlər ki, Nippur həm məcazi, həm maddi mənada "kəsişən" şəhər idi, o, yerlə göyü qovuşdururdu, dünyanın bütün ticarət yolları Nippurdan gəlib keçirdi. Nippur həm də Şumerin dini mərkəzi sayılırdı. Bəs onda "Yerin göbəyi" ilə Nippurun nə əlaqəsi? Əgər biz göbəyin insan həyatında oynadığı rola fikir versək, o zaman məsələnin mahiyyəti tam açılmış olar. Uşaq doğularkən onu ana bətnindən ayırmaq üçün göbəyini kəsirlər. Göbək və kəsilən bağırsaq hələ doğulmamış körpəni ana bətni ilə birləşdirən və onun yaşamını təmin edən vasitədir. İş burasındadır ki, qədim Şumerdə ibadət ayinlərinin keçirildiyi məbədə, çoxpilləli, zirvəsi buludlara çatan hündür zikkuratlara göylə yeri birləşdirən bir "göbək" kimi baxırdılar və oranı "Yerin göbəyi" adlandırırdılar. Zikkuratların hündürlüyü bəzən 160-170 metrə çatırdı. Burada yerin və göyün Sahibinə dualar oxunurdu. Şumerdə ibadət yerlərinə həm də DUR.AN.Kİ. deyirdilər. Bu sözün Şumercədən tərcüməsi "yerlə göyün qovşağı"dır. Sonralar DUR. AN. Kİ-lər monastır adlandırıldı. "Monastır" sözünün yunan dilindəki "monos" – tək, vahid sözündən yarandığını iddia edirlər. Bu iddianın yanlışlığı ondan bəllidir ki, Yunanıstanda çoxallahlılıq hökm sürürdü, təkallahlılığa yunanlar monastırın yaranma tarixindən daha gec keçmişlər. Halbuki "monastır" sözünün türkcə izahı mənanı daha dəqiq açır. Ta qədimdən türklər Allahın evinə "manastur" deyiblər. «Manas» – türkcə Allahın ruhu, «tur»





isə məbəddir, Şumer "dur"u məbəd olan kimi. Manastur, yəni Ruhun evi, Allahın məbədi. Başqa bir fikrə görə, "tor" qədim türk dillərində həm də "xilas etmə" anlamına gəlir, belədə "manastor" "Ruhun xilas edildiyi yer" olacaqdır.

Beləliklə, zikkuratın tikildiyi ərazi "yerlə göyün qovşağı", "Yerin göbəyi" hesab olunurdu. Sonralar məcburiyyət qarşısında qalıb zikkuratı Nippurdan Yerusəlimə köçürəndə bu şəhər də Allaha ən yaxın məkan sayılan "Yerin göbəyi" hesab olunmağa başladı.

Göründüyü kimi, həm yuxarıda adını çəkdiyim ensiklopediyada, həm Altay və Oğuz türklərinin rəvayətlərində eyni məkandan söhbət açılır, amma heç birində bu məkanın adı çəkilmir.

Nippurdakı zikkurat yerin və göyün Sahibinin şərəfinə ucaldılmışdı, ona "An(a)nın məbədi" deyirdilər. Əgər "An(a)nın məbədi" ilə "Ülgen evi"ni qarşılaşdırsaq, görəcəyik ki, hər ikisi çox ucadır, başı buludlara dəyir, hər ikisi "Yerin göbəyi"ndə tikilib, hər ikisi Ana adlanır (oğuzlar Ülgenə həm də Ağ Ana deyirdilər) və s. Buradan çıxan nəticəyə görə, Şumer An(a)sı türk Ülgeninin prototipidir. Bu qənaəti gücləndirən başqa bir fakt ondan ibarətdir ki, Altay türkləri Tanrıya ibadət yerlərini – monastırları bir qayda olaraq səkkiztilli tikirdilər. Səkkiztilli divarların üstünü örtən günbəzlər də səkkiz ləçəkdən ibarət olurdu. Səkkiz rəqəminin qədim Şumerdə yerin və göyün Sahibinin simvolik rəmzi olduğunu bildiyimizdən bu məbədlərin kökünün haradan gəldiyi tamamilə aydınlaşmış olar.

Altay türklərinin rəvayətində türklərin sitayiş etdiyi Tanrıdan bəhs olunur. Bu Tanrı "Yerin göbəyi"ndə yaşayırmış. Qədim türklərin hələ Tanqrıçılıqdan daha əvvəl sitayiş etdikləri bu Tanrı kim ola bilər?

Fransız din tədqiqatçısı Jan Pol Ru yazırdı ki, Altay türkləri hələ eradan çox-çox əvvəl "Göy Adamına", "Günəş Adamına" sitayiş edirdilər, bu "Adam" "Yerin göbəyində" yaşayırmış. Tədqiqatçı "Göy Allahı", "Günəş Allahı" yazmır, məhz "Göy Adamı"ndan, "Günəş Adamı"ndan söhbət açır. Nə üçün? Bu "Adam" kim ola bilərdi?

Şumerdə baş hökmdar Enlil həm də «hava allahı», «işıq allahı» sayılırdı. Enlilin Nannadan olan nəvəsi Ut isə «Günəş allahı» idi. Göylə Yerin, «allahlarla» insanların ittifaqı, izdivacı məhz Utla rəsmiləşdirilmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi Utun yer qadını ilə nikahından doğulan Meksiaqqaşer insanlar arasından seçilən ilk çar oldu. Meksiaqqaşerlə həm də I Uruk dinastiyasının bünövrəsi qoyuldu. Bəlkə də Altay türkləri öz əfsanələrində bu izdivacın doğurduğu reallığı simvollaşdırıblar. «Günəş allahı» Utun nəslindən olduqlarını bizə çatdırmaq istəyiblər? Həqiqətən, Meksiaqqaşerlə yeni nəslin, yeni sülalənin, yeni tayfanın bünövrəsi qoyulmuşdu. Bu təməl ilahi təməl idi, başlanğıcını «Günəş allahı» Utdan, «işıq allahı» Enlildən, Yerin və Göyün sahibi Anadan alırdı.

Meksiaqqaşerdən start götürən ənənə, hətta Şumer sivilizasiyasının süqutundan sonra da dəyişmədi, türkdilli ölkələrə, tayfa birləşmələrinə başçılar irsi





yolla təyin olunurdular, yəni çar mütləq göylərlə yerin ittifaqından doğulmalıydı.

Amma fransız tədqiqatçı Yan Pol Ru Altay türklərinin «yerin göbəyində» yaşayan «göy adamına», «günəş adamına» sitayiş etdiklərindən xəbər verir. Şumer tədqiqatçılarının «allah» əvəzinə «adam» kəlməsindən istifadə etmələri görünməmiş hadisədir. Şumer sivilizasiyasının ən qüdrətli dönəmlərində belə buranın insanları, qarabaşlar dinqirlərin göydən gələn «allah» olduqlarına inanırdılar. Bəs onda «göy adamı», «günəş adamı» deyimi necə və haradan yaranmışdır? İndi bu suala dəqiq cavab vermək çətindir. Amma ehtimal etmək olar ki, yerli xalq sivilizasiyanın hansı dönəmindəsə dinqirlərin əsil Tanrı olmadıqlarını öyrənə bilmişdilər, artıq onları «allah» kimi deyil, kosmosdan gələn adamlar kimi görməyə başlamışdılar. Buna baxmayaraq, göy, kosmos insanlar üçün həmişə sirlərlə dolu möcüzəli bir aləm olmuşdur və elə bu səbəbdən kosmosdan gələnlər yerli xalqın gözündə yenə sitayiş obyekti kimi qala bilərdi. Dünya xalqları arasında ilk dəfə məhz türklərin çoxtanrıçılıqdan imtina edərək təktanrıçılığa meyil göstərməsi ehtimalımızın doğru ola biləcəyinə işıq tutur.

Beləliklə, Oğuz-Altay qarşılaşdırması açıq-aydın göstərir ki, «Kitab»dakı Qaba Ağacla Altay türklərinin yol (yel) ağacı eyni anlam daşıyır, yəni hər ikisi Həyat Ağacını ehtiva edir. Yakutların «Ağ oğlan» dastanında göstərilir ki, Həyat Ağacı göylər tərəfindən göndərilmişdir. «Oğuznamə»nin qəhrəmanı isə su içində bitən hündür ağacın koğuşundan çıxan qadınla evlənir.

Fikrimizi başqa bir dəlil də təsdiqləyir. Rəvayətə görə, «yerin göbəyində» bitən yol (yel) ağacı çox hündürmüş, göydə «Ülgen evi»nə çatırmış. Məsələ burasındadır ki, qədim türk dillərində «qaba» sözü həm «kobud, yonulmamış», həm də «böyük, hündür, uca» anlamında işlədilirmiş. Uca Ağacın «Ülgen Ağacı» olması ehtimalı ona görə böyükdür ki, hər iki simvol Kainatın Qadın Başlanğıcını bildirir. «Anam adın sorar olsan – Qaba Ağac» söyləyən Oğuz eli tək bircə sətirdə böyük bir tarixi yığcam şəkildə ifadə etməyi bacarmış, öz şəcərəsinin «yerin göbəyinə», Nippuradək uzanıb getdiyini gizli eyhamla bizə çatdırmışdır.

Qaba Ağac simvolu həm də Altay və Oğuz türklərinin eyni kökdən, eyni Vətəndən çıxdıqları ehtimalını təsdiqləyir.

Üstündə dayanmaq istədiyim üçüncü simvol «ağ sunqur quşudur». Sunqur, yaxud şonqar quşu el arasında tərlan, alıcı quş və ya qızılquş adı ilə tanınan şahinin üç növündən biridir. «Kitab»da Qazan xan «Ağ sunqur quşun erkəgində bir köküm var» deyərək, nədənsə oğuzların həm də ağ sunqur quşuna bağlı olduqlarını xəbər verir. Önərinin anlamı nədir? Nə üçün məhz sunqur quşu?

Bu məsələyə toxunan qorqudşünas alim Bəhlul Abdulla yazır: «Qazan xan son olaraq «Ağ sunqur quşun erkəgində bir köküm var» deyir. Sözügedən bu quş Qayı boyunun onğonudur. Amma bu da var ki, sunqur quşunun ağ sunqur, qara sunqur və boz sunqur adları (bəlkə də növləri) vardır. Qazan xan da sunqur quşlarının təyin əlamətləri olan ağ, qara, boz rənglərdən ağ rəngin qutsal, tanrıya məxsusluğunu bildiyindən kökünü ağ rəngli sunqur quşuna bağlı bilmişdir».





Bu sözlər «Kitab»ın çatdırmaq istədiyi mətləbi əks etdirmir, əvvəla, ona görə ki, ağ rənglə epitetlənə bilən başqa quşların arasından nə üçün məhz sunqur seçilmişdir?

İkincisi, alimin özünun də qeyd etdiyi kimi, sunqur quşu yalnız bir boyun onğonudur, Dastanda isə bütün oğuz boylarının kökündə duran simvolik obrazdan söz açılır. Yəni, «Kitab»da sunqur quşu bir boyun totemindən daha yüksəkdə durur, o, bir xalqın soykökünün bağlandığı ulu əcdaddır.

«Kitabi – Dədə Qorqud» elə yüksək sənət abidəsidir ki, orada hər bir obraz, hər bir simvol mütləq bir məna kəsb edir və arxasında tariximizin bir parçası yatır. Bu tarix qatı simvollar «dumanına» büründüyündən, biz onun əsil mahiyyətini anlamırıq, alt mənasını, «qaranlıq üzünü» görmürük.

Sunqur quşu obrazının haradan və necə meydana gələ biləcəyini aydınlaşdırmağa çalışaq. Araşdırmalar maraqlı nəticələrə gətirib çıxarır, türk-şumer əlaqələrinin kökünün çox qədim və dərin olduğunu təkrar-təkrar söyləməyə imkan verir.

Türk tayfalarında şahin quşu simvolu həm totem kimi, həm də tayfa adı kimi geniş yayılmışdır. Bəhlul Abdulla yazır ki, oğuz Yapaq boyunun onğonu şahin cinsindən olan qırğı, Qayı boyunun onğonu isə sunqurdur. Professor F.Cəlilov Xəzər boylarını sadalayarkən onların arasında quzğun boyunun adını çəkir. Quzğun da şahin cinsindən olan yırtıcı quşdur. Bir sıra orta əsr mənbələrində və müasir yazarlarda, həmçi-

nin, ayrıca ağ sunqur tayfasının olduğu qeyd edilir. Mannadan tapılmış şəkillər arasında ikibaşlı şahin quşunun rəsmi vardır.

Midiya tarixini araşdırarkən yenə şahin quşuna, sunqur simvoluna rast gəlirik. Altı Midiya tayfasından biri parataken adlanırdı. Azərbaycan alimi Q.Qeybulllayevə görə, parataken boro toqan türk sözünün yanlış tələffüz formasıdır. Burada boro qədim türk dillərində boz, toqan isə sunqur quşudur. Fikrimizcə, «boz sunqur quşu» birləşməsində «boz»-«boro» rəng anlamında deyil, daha çox «pozmaq», «dağıtmaq», «məhv etmək» mənasında işlədilib. Çox ola bilsin ki, paratakenlər, yəni boz sunqurlar qara maqlar, neqativ enerjili maqlar olmuşlar. Məsələ burasındadır ki, Şumerdə neqativ enerjili cadugarlara lillu deyirdilər. «Lillu» sözünün birinci mənası «gecə vaxtı ulayanlar», ikinci mənası isə «havada uçanlar» anlamına gəlirdi. Onların şahin başlı, quş qanadı rəsmləri bu günəcən qalmaqdadır (Bax: şəkil 8). Lillular yer üzünə hər cür xəstəlik və bəlalar gətirmişdilər. Arxeoloji qazıntılar zamanı bu demonlardan qorunmaq üçün oxunan çox sayda ovsun mətnləri – şurpular tapılmışdır.

Tədqiqatlar göstərir ki, sən demə, konusvari möhür – rəsmlərdəki şahin başlı, quş qanadlı təsvirlər təkcə qara maqlara aid deyilmiş. Araşdırmalar təsdiq edir ki, qədim Misirdə və Şumerdə ağ magiya daha geniş yayılıbmış. (Ətraflı məlumat almaq üçün «İlan xalqı» fəslinə bax). Ağ maqlar da eynən qara maqlar kimi «havada uçan quş» şəklində, şahin cildində təsvir olunurlarmış. Hətta ilk baxışdan onları bir-birindən ayırmaq da xeyli çətinlik törədir (Bax: şəkil 9).







**Şəkil 8.** Şahin başlı, quş qanadlı demonlar. (Şumer möhür - rəsmindən)



**Şəkil 9.** Şahin başlı maq. (Şumer möhür - rəsmindən)

Misir heroqlifləri arasında şahin quşu rəsminə rast gəlmək mümkündür. Bu heroqlifin önəmi ondan ibarətdir ki, əlifba hərfi kimi həm konkret səs bildirir, həm də simvolik məna yükü daşıyır, yəni şahin quşu heroqlifi «Allah Qor» deməkdir.

Amma ən maraqlısı bu deyil. Sən demə, «allah» Qorun bütöv adı Qor-Kut imiş. Qədim Misir əfsanələrindən birində deyilir ki, döyüşdə düşmənə məğlub olacağını görən faraon kömək üçün «allah» Qor-Kuta müraciət edir. Qor-Kut «işıq saçan» qanadlı Günəş diskində düşmənin üzərinə yuxarıdan aşağıya elə şığıyır ki, onların işıqdan gözləri kor, səsdən qulaqları kar olur.

Erik fon Deniken özünün «Sfinksin gözü» əsərində yazır: «Edfu məbədinin divarlarında qanadlı Günəş diskinin rəsmi cızılıb, bütün otaq və salonlarda həndəsi dəqiqliklə təkrar olunan bu rəsmləri iki söz müşayiət edir: «kut» və «api». «Kut»un mənalarından biri «daşımaq», «yaymaq», «intişar etmək»dirsə, «api» dəyişməz olaraq eyni anlamı bildirir: «uçan», «uçub gələn».

Dədəmizin də Qorqut adını daşıması və üstəlik «Ağ sunqur quşun erkəgində bir köküm var» deməsi məncə çox mətləblərdən xəbər verir.

Adlardakı və simvollardakı bu qədər dərin yaxınlıq, heç şübhəsiz adi təsadüf nəticəsində yarana bilməzdi, əksinə bu mifoloji yaxınlığın arxasında real tarixi hadisələrin durduğunu, türk kökünün tarixəqədərki bəşər layınacan uzanıb getdiyini söyləmək üçün əlimizdə hər cür əsas vardır.







**Şəkil 10.** Şumer astronavtları şahin quşu cildində (Şumer möhür - rəsmindən)

Bu anlamda türklərin soy anasının Api adlanması da çox düşündürücüdür. Bu barədə sonrakı fəsillərdə söhbət açacağımız üçün mövzunun davamı kimi qısaca onu deyim ki, görünür, əcdadlarımız soy anasına Api adını verməklə köklərinin «göydən uçub gələnlərə» bağlı olduğunu israrla bildirmək istəmişlər.

Sunqur quşunun Şumer paralelləri təkcə bununla bitmir. Arxeoloqların İkiçayarasından qazıb çıxardıqları konusvari möhür-rəsmlərdə tez-tez «uçan allahların» şəklinə rast gəlmək olar. Şahin başlı, quş qanadlı bu rəsmlərdə astronavtların təsvir edildiyi iddia olunur (Bax: şəkil 10). Bizim üçün önəmlisi budur ki, qədim Şumer əfsanələrinə görə bu astronavtlara türk hökmdar tayfalarının soy babası sayılan Ut (Od, işıq saçan) başçılış edirmiş. Ut, bir qayda olaraq, möhür-rəsmlərdə quş qanadlı paltarda əks olunur. Bir sıra tədqiqatçılar Utu və onun başçılıq etdiyi dəstəni «Şahin-astronavtlar» adlandırırlar.

Beləliklə, «Ağ sunqur quşun erkəgində bir köküm var» önərisinin ötəri araşdırması da bizi qədim Şumer dönəminə, əfsanəvi «allahlara», «qeybə çəkilmiş planetdən» gələn dinqirlər zamanına aparıb çıxarır. Dədəmizin simvol «dumanına» bürünən, şərtiliklərlə dolu hər üç önərisi sanki bir-birini tamamlayır və bir-birini təsdiq edir. Təsdiq edir ki, türkün tarixi bəşər sivilizasiyasının tarixi ilə yaşıddır, qədim Mesopotamiya bütün türk tayfalarının Ata yurdu, ilkin Vətənidir! Kökümüz isə Yer üzünün hökmdarı Enlilə və günəş «allahı» Uta bağlıdır.

İndi də söhbətimizin əvvəlinə qayıdaq. Biz yuxarıda qeyd etmişdik ki, İkiçayarasında və onun ətraf bölgələrində şumer mənşəli olmayan çoxlu oykonimlər və hidronimlər mövcuddur. İ. Dyakonov etiraf edirdi ki, bu cür «yad» sözlərə, hətta şumer leksikasında da rast gəlmək mümkündür. Amma bu alınma sözlər nə samilərin, nə də yaxın ətrafda yaşayan digər





xalqların dillərinə uyğun gəlmir. Toponimlərin türk dilləri ilə identikliyi göz qabağında olsa da, sovet və avropalı mütəxəssislər bu oxşarlığı təsadüfi sayırdılar, ona görə ki, əvvəla «qədim Mesopotamiyada türklər yaşamamışlar», ikincisi, «bu qədim sözlər türk etnoslarının tarix meydanına çıxmalarından daha yaşlıdır».

«Kitabi – Dədə Qorqud» dastanlarından seçib ayırdığımız təkcə üç simvolun şərhi açıq-aydın göstərir ki, türklər Şumerdə yad deyildilər, əksinə, onlar bu ərazilərdə yaşayan yerli xalqın bir parçası, şumer dilinə təsir edə biləcək qədər inkişaf etmiş ayrılmaz tərkib hissəsi olmuşlar.

O ki qaldı toponimlərin türk etnoslarından daha «yaşlı» olmasına, bunun da çox sadə səbəbləri vardır. Bu şəhər, dağ və çay adlarına öz damğasını vuran yerli xalq toponimlərin meydana gəldiyi dönəmlərdə hələ bir etnos kimi formalaşmamışdı. Təsadüfi deyil ki, qədim Mesopotamiyanın bütün əhalisi fərq qoymadan özünü qarabaş adlandırmış və bu vəziyyət sivilizasiyada qopmalar, parçalanmalar başlayana, mərkəzi hakimiyyət uğrunda mübarizədə yeni-yeni tayfa birləşmələri yaranana qədər davam etmişdir.

Fikrimizcə, problemin dolaşıq tərəfi ondadır ki, tədqiqatçılar həm dəftərxana dilinin daşıyıcılarını, həm də yerli əhalini «naməlum xalq» adlandırıb eyniləşdirmiş, onların hər ikisini bir adla, abstrakt «şumer» adıyla çağırmışlar.

Bizim qənaətimizə və Şümur miflərinin dəmir məntiqinə görə dəftərxana dili yer mənşəli deyildi, o, göydən gəlmişdi. Yerli xalq isə bu dildən bəhrələn-

mək və ona təsir etmək imkanına malik olmuşdur. Nə Şumerin, nə də ətraf bölgələrdə yaşayan digər xalqların linqvistikasına oturmayan «yad» sözlər yerli xalqın, qarabaşların dilindəydi. Eyni zamanda, həmin sözlərin türk linqvistikasına uyğunluğu inamla deməyə imkan verir ki, tarixin ən alt zaman qatından siyasi hakimiyyətin iflasına qədər keçən uzun minilliklər boyu Şumerdə qarabaş adı altında, həm də bizim əcdadlarımızın soyları, çox sonralar türk adlanacaq toplumlar yaşayırdılar. Onlar İkiçayarasında yerli xalq olduqları üçün milli mənsubiyyət cizgilərinə bu əraziyə sonradan gələnlərdən daha gec sahib olsalar da, əvəzində gələcək türk tayfalarının ulu əcdadları kimi ən azından öz ləhcələrini axıradək qoruyub saxlamış və inkişaf etdirə bilmişdilər.

Tariximizi yazanlar bizi həmişə kökümüzdən məhrum etməyə çalışmışlar. Ağacın kökünə balta çalanda qol-budaqları da quruyur. Biz bu gün kökü kəsilmiş nəhəng ağacın günündəyik.

Xalqları daha qədimliyinə və ya törəmə olmasına, əqli və fiziki imkanlarına görə "ari" (təmiz, saf) və "aşağı" (qarışıq) irqlərə bölənlər türkləri həmişə ikincilərə aid etmişlər. Bu anlama görə, türklər müxtəlif etnik komponentlərin qarışığından yarandığı üçün daha qədim köklərə malik deyillər və məhz bu səbəbdən tarix səhnəsinə çox gec çıxmışlar. Ən pisi budur ki, təslimçi əhval-ruhiyyəli bəzi tarixçilərimiz nəinki bu təhqiramiz nəzəriyyəyə qarşı çıxmamışlar, əksinə, öz kökümüzə əcnəbilərdən daha çox balta çalmışlar.





# IX FƏSİL

## AĞ SAKLAR, HÖKMDAR SAKLARI

Saklar bəşəriyyəti çiyinlərində saxlayan nəhəng sütuna bənzəyirlər. Bu sütunun kökləri tarixin ən alt qatlarına qədər uzanıb gedir. Sakların tarixi – dünyanın gizli tarixidir. Bu tarixi öyrənmədən, bilmədən, bu sirli-müəmmalı xalqın mənşəyini, kimliyini aydınlaşdırmadan Şumer düyününü açmaq mümkün deyildir. Türklərin hələ qələmə alınmamış, hələ zülmət qaranlıqdan gün işığına çıxmamış tarixinin açarı da sakların əlindədir.

Sakların keçmişi boz-bulanıq səmada bir topa qara bulud kimidir, gah saçlarını yolub göz yaşı tökür, gah da qatı dumanın arxasından sıyrılıb çıxaraq günəş kimi gülümsəyir. Saklar tilsimli Şumer yolunun üstündə qapısız-bacasız bir qaladır, nə içəri girmək olur, nə də içəridən çölə çıxmaq.

Türk xalqlarının ən qədim mənəvi dəyərlərini özündə birləşdirən «Dədə Qorqud» dastanlarında ağısqa (ağ saqa) tayfalarının adı çəkilir. Ağsaqa qalasından söz açılır, ancaq başqa nə bir söz var, nə də bir işarət.

Dünya saklar barədə demək olar ki, heç nə bilmir.

Hələ Strabon yazırdı ki, sakların keçmişi başdan-başa müəmmadır, «tarixçilər öz tədqiqatlarında bu tayfalar barədə dəqiq və həqiqətə uyğun olan heç bir məlumat verməmişlər».

Sakların gizli üzünü, görünməyən üzünü heç kəs açıb baxa bilməmişdir.

Axı kimdi bu saklar, onlara nə üçün sak demişlər, sözün mənası nədir, etnonim öz mənşəyini haradan almışdır?

Saklar barədə informasiyalar elə dolaşdırılıb ki, həqiqətin harada, yalanın harada olduğunu ayırd etmək çox çətindir. Kimi bu tayfaya saq deyir, kimi saqa. Kimi sak yazır, kimi də saqat. Saxa, şaka, hətta skit və skif adlandıranlar da çoxdur. (Təəssüf ki, uzun minilliklərdən bəri davam edən xətadan biz də qaça bilmədik və etnonimi qaynaqlarda olduğu kimi vermək məcburiyyətində qaldıq).

Etnonimin yazılışındakı xaos, hərc-mərclik, təəssüf ki, sakların etimoloji tədqiqatına da öz damğasını vurmuşdur. Bəzi tədqiqatçılara görə saklar və skiflər eyni kökdəndir, bəzi tədqiqatçılar skiflərin yalnız bəlli bir hissəsinin sak adlandırıldığını deyirlər. Üçüncü qrup alimlər belə hesab edirlər ki, saklar və skiflər ayrı-ayrı tayfalardır.

Bütün bu hərc-mərcliyin başlıca səbəbkarı kimi Herodot göstərilir. Herodot yazmışdır ki, əhəmənilər bütün skiflərə bir yerdə sak deyirdilər. Əhəmənilərin iddiasına görə üç tip saklar mövcud olub.

Birinci, xumavarka sakları. Hərfi tərcüməsi «bizim saklar» deməkdir. Z.Həsənova görə xumavarka sakları Fərqanədə, Kaşqar vilayəti ətrafında yaşadıqlarına görə farslar «bizim saklar» deyərkən dil oxşarlığını nəzərdə tutublar.

İkincisi, tiqraxauda sakları. Tərcüməsi «şişpapaq saklar» deməkdir. Onlar Sır-Dəryadan aşağıda, Aral gölü ətrafında yaşayırdılar. Azərbaycan alimi Ə.Muxtarovaya görə Sır-Dərya ilə Amu-Dərya çaylarının arasında Kanq (Kanqar) türk dövləti qurularkən artıq bu ərazidə saklar mövcud imiş.





Üçüncüsü, taradrava sakları. Qədim fars dilindən tərcümə ediləndə bu söz «dənizin arxasındakı saklar» anlamını verir. F.Cəlilov belə hesab edir ki, bu saklar Qara dənizin şimal tərəfində, Ural və Volqa çaylarının arasında yerləşirdilər.

Herodot özü dörd sak torpağının olduğunu yazır və bu ölkələri əhəmənilərdən fərqli ünvanlarda yerləşdirir.

Birincisi, Sakaransae Xəzər dənizinin şərq tərəfində, Qara Boğaz-qoldan şimalda qurulmuşdu.

İkincisi, Saqartii müasir İranla Əfqanıstan sərhədləri boyunca məskunlaşmışdı.

Üçüncüsü, eyni ad altında başqa bir sak ərazisi Ekbatan şəhəri ilə Urmiya gölünün arasındaydı.

Dördüncüsü, Sakasena, yaxud Sakaşena müasir Azərbaycan ərazisində yerləşirdi.

Nə üçün saklar bu qədər geniş bir əraziyə səpələnmişlər, nəyə görə farslar skifləri sak adlandırmışlar? Təəssüf ki, bu suallara indiyəcən heç kəs dəqiq və əsaslandırılmış cavab verə bilməyib. Herodotun məlumatından «nəticə» çıxaran bəzi alimlər dərhal belə qənaətə gəliblər ki, saklar irandilli xalq olmuşlar. Bu yanlış fikir istorioqrafiyada bu gün də hakim mövqe tutmaqdadır.

Sakların tarixinin araşdırılmasında, təəssüf ki, bu cür yanlışlıqlara hər addımda rast gəlmək olar. Saklar barədə çox hallarda dolaşıq və ziddiyətli fikirlər söy-

lənilmişdir. İlk sak dövləti e.ə. XXVII əsrdə qurulub. Ömrü 99 il çəkən bu dövlət barədə elmi ədəbiyyatda demək olar ki, heç bir məlumat yoxdur. İlk dəfə XX əsrin 20-ci illərində Lenqton tərəfindən tapılıb nəşr etdirilən «Nippur çar siyahısı» ilə üzə çıxan bu dövləti çoxları mifik sayaraq qəbul etmir.

Xalqın bəxti kimi tarixi də elə ilk gündən düyünə düşmüşdür!

A.Berinştamın və M.Mayrxoferin də çox haqlı olaraq qeyd etdikləri kimi, sak etnoniminin mənşəyi bu günəcən aydınlaşdırılmayıb. Təəssüf ki, iranşünas alimlər etnonimin yaranma vaxtını və səbəblərini bilmədən, hətta öyrənməyə cəhd belə göstərmədən «sak» sözünə bir anlam verməyə çalışmışlar. Bu isə çox vaxt ən absurd nəticələrə gətirib çıxarmışdır.

Məsələn, V.İ.Abayev belə hesab edir ki. «sak» etnonimi osetin dilində «maral» deməkdir və tayfaların adı bu sözdən yaranmışdır. O.Jemerenyeyə görə, «sak» qədim İran dillərində «getmək», «qaçmaq», «axmaq» (su kimi) mənasını bildirir və «yurdsuz, vətənsiz, gəzərgi» anlamına gəlir.

Q.Beyli düşünür ki, «sak» sözünün ilkin mənası hələ tapılmayıb, amma irandilli xalqlar üçün sak «ərlər», «kişilər» deməkdir. Müəllif fikrini əsaslandırmaq üçün «Riqvedi»dən misal çəkir. Bu hind əfsanələr toplusunda sak kişi sözünün sinonimi kimi işlədilmişdir.

Bəzi türk tədqiqatçıları sak sözünü türk leksikası ilə izah etməyə çalışmışlar. Bunların arasında ən populyarı «sağ» sözüdür. Bu sözün türk dillərində bir





çox çalarları vardır: sağ (salamat, zirək, diribaş), sağ (heyvanları sağmaq anlamında), buradan da sağın, sağan və s. sözlər yaranmışdır. Sak sözünün qədim türkcədə, həm də «ayıq-sayıq», monqolcada (saki) – «qoruyan», «mühafizə edən» demək olduğu irəli sürülür. Başqırdlarda saka «ov etmək» imiş.

Fikrimizcə, bütün bunların heç bir elmi əsası yoxdur və tədqiqatçıların quru ehtimallarından başqa bir şey deyildir. «Sak» sözünü uyğun gələn və gəlməyən hər şeyə pərçimləyib ondan zorla etnik tayfa adı quraşdırmaq, ən azından, yanlış cəhdlərdir.

Sakların irandilli olması barədə fikir bu gün tədqiqatçılar arasında üstün mövqe təşkil edir. E.N.Minns saqaları türk və irandilli boyların türk dominantı ilə qarışığı sayırdı. V.Müller, M.Rostovtsev, Y.Dümezil, V.Abayev sakların yalnız irandilli olduqlarını yazırdılar. Bəzi Azərbaycan tarixçiləri də (məsələn, İ.Əliyev) ölkəmizdə təkcə irandilli saqa boylarının olduğunu iddia edirlər.

Avropanın və sovet alimlərinin böyük əksəriyyəti sakların irandilli tayfalar olduqlarına üstünlük vermişlər. Lakin sakların türkdilli olması qənaətinə gələn tədqiqatçılar da yox deyildir. Məsələn, A.N.Bernştam yazır: «Etnik tərkibinə görə saklar müxtəlifdir. Biz belə hesab edirik ki, saklar arasında güclü türk özəyi mövcud idi».

İran tarixçisi Məhəmməd Həsənxan sakları türkdilli xalq hesab edir. Amma bu müəlliflərdən hələ çox-çox qabaq Bizans tarixçisi Menandr xəbər verirdi ki, türklər qədimdə sak adlanırdılar.

Azərbaycan alimi Q.Qeybullayev çoxillik araşdırmalarından sonra bu qənaətə gəlmişdir ki, çoxsaylı

arxeoloji qazıntılar və antropoloji tədqiqatlar skif və sakların arasında türkdilli tayfaların olduğunu üzə çıxarmışdır. Aral dənizi hövzəsində, Mərkəzi Qazaxıstanda, Tuvada və Altayda aparılan kütləvi qazıntılar bu ərazilərdə skif və sarmat tayfalarının mədəniyyəti ilə eyniləşən vahid sak mədəniyyətinin mövcudluğundan xəbər verir.

T.A.Trofimovanın tədqiqatları göstərmişdir ki, e.ə. VIII-V əsrlərdə Aralıq dənizi hövzəsində yaşayan saklar artıq qarışıq irqə məxsus idilər, xüsusən də qadınlar arasında avropoidlər və monqoloidlər seçilirdilər.

F.Cəlilova görə saklar Ön Asiyada, daha dəqiq desək, Azərbaycan ərazisində yerli xalq idi, e.ə. II minilliyin ortalarında hələ güclü siyasi qüvvə kimi meydana çıxa bilməmişdilər. Herodot sakların Araz qırağında yerləşdiklərini xəbər verir. F.Ağasıoğlunun fikrincə, «Araz qırağı» ifadəsinin Doğu Anadoludan Xəzərə qədər hansı bölgəni bildirməsi aydın deyil, hər halda bu ölkə Ön Asiyadır. Çünki Herodot həm Qızıl Üzən çayını, həm də indiki Araz çayını Araz adlandırır. Həmin çağlarda Kiçik Asiyada subar, kuman, qaşqay, urmu boyları vardı. Belə ki, o çağlarda türkdilli boyların qonşuluğunda və içində saqa-qamər boylarının Arazın yuxarı, orta və aşağı axarında yaşaması mümkün və təbii idi».

Görünür söhbət e.ə. birinci minillikdə Azərbaycan ərazisində qurulmuş sak dövlətindən – Sakasindən gedir. Lakin F.Cəlilovdan fərqli olaraq digər müəlliflər sakların Azərbaycan ərazisinə gəlmə olduqlarını





iddia edirlər. Həm də F.Cəlilovla bu müəlliflərin məlumatları arasında ən azı min illik zaman fərqi vardır.

Sak və skif tədqiqatçılarının problemə tamamilə sərbəst münasibətləri üzündən bu sahədə çox böyük xaos, qarmaqarışıqlıq yaranmışdır. Ziddiyyətlər həm zamanla, həm etnik tərkiblə, həm də etnotoponimlə bağlıdır. Əvvəlcə skif və sak müxtəlif etnik icmalara verilmiş ad hesab olunurdu. Məsələn, assur mənbələrində Saka və İşkuz Midiyanın müxtəlif vilayətləri kimi göstərilir. Lakin sonra tədqiqatçılar bu etnonimləri eyniləşdirdilər, yəni saklar və skiflər eyni xalqlardır. Məsələn, V.F.Minorski yazırdı ki, «E.ə. VII əsrin ortalarında kimmerlərin ardınca Saka skifləri gəldilər və onların mərkəzi əyalətlərindən biri Strabonun Sakasena adlandırdığı və ermənicə «Şaka şenliyi» anlamına gələn Şakaşena oldu».

Bir qədər sonra bəzi müəlliflər sakların və skiflərin simasında yenidən müxtəlif tayfaları görməyə başladılar. Və hərc-mərclik bu şəkildə indi də davam etməkdədir.

Sakların Ön Asiyaya gəlişi barədə ən azı on versiya mövcuddur. Onlardan bəziləri ilə tanış olaq.

İ.M.Dyakonov, E.İ.Krupnov, K.V.Trever, İ.H.Əliyev, V.F.Minorski, A.M.Xazanov və başqaları iddia edirlər ki, Ön Asiyaya, o cümlədən Midiya ərazisinə e.ə. VIII-VII əsrlərdə gələn saklar skif adlanırdılar. Kür və Araz çayları arasında qurulmuş Sakasena Ön Asiyadakı «Skif çarlığının» özəyini təşkil edirdi.

B.Qafurovun ehtimalına görə, Ön Asiyada 28 illik hakimiyyətdən sonra e.ə. 584-cü ildə saklar yeni-

dən Qara dəniz ətrafına qayıtdılar. Lakin bütün saklar getmədilər, onların bir hissəsi Qərbi Azərbaycan ərazisində qalıb Sakasena dövlətini qurdular. B.Qafurova görə, Albaniya ərazisindəki saklar İrandilli hesab olunurdular, amma Sakasena Skif çarlığına daxil edilməmişdi. Bu ərazidə yaşayan saklar «dönmə skiflər» adlanmışlar.

Üçüncü iddiaya görə saklar Zaqafqaziyaya e.ə. VI əsrdə, skiflərdən ayrı halda, həm də Dərbənddən keçərək gəlmişlər. Bu iddianın müəllifi V.V.Struvedir. Alim belə hesab edir ki, Sakasena Skif çarlığına daxil deyildi.

Q.A.Melikaşvili Sakasenanı sak adlandırdığı kimmerlərin adı ilə bağlayır və güman edir ki, onlar bu əraziyə e.ə. VIII əsrdə gəlmişlər. Azərbaycan alimi Yusif Yusifovun isə tamamilə ayrı, orijinal bir fikri vardır. O, Ön Asiyada qurulmuş dövləti kimmer-skif-sak padşahlığı adlandırır. Alim belə hesab edir ki, bu tayfalar Ön Asiyaya ayrıca gəlmişlər və üç müstəqil padşahlıq yaratmışlar.

Partatuanın başçılıq etdiyi skiflər Urartunun cənubunda, Hubuşkia ölkəsinə yaxın bir ərazidə yerləşdilər. İspakın başçılıq etdiyi skiflər isə Manna ərazisinin qərb və şimal-qərb torpaqlarını işğal etdilər. Tuqdammenin qurduğu sak dövləti Kür və Araz çaylarının arasındaydı. E.ə. VII əsrin ortalarında Tuqdamme hər üç ölkəni birləşdirib vahid Sak dövləti yaratdı, özünü isə sakların və qutilərin hökmdarı elan etdi. Midiyanın qüvvətlənməsi ilə e.ə. VI əsrdə Sak dövləti tənəzzülə uğradı. Y.Yusifov belə hesab edir ki, Azərbaycan ərazisinin həm şimalını, həm də cənubunu əhatə edən ilk vahid dövləti Tuqdamme yaratmışdır.





Başqa bir mövqe Azərbaycan alimi Q.Qeybullayevə məxsusdur. Alimin sözlərinə görə, Albaniyaya gələn saklar etnik tərkibcə skif deyildilər, yalnız həyat tərzinə görə skif idilər. Q.Qeybullayev sonra öz sözlərinə belə şərh verir: "Həqiqət ondan ibarətdir ki, saklar, iskutlar (skiflər – R.C.) və kimmerlər Ön Asiyaya soxularkən hər biri müstəqil, yəni konkret etnosu təmsil edirdi. Bunu e.ə. VIII-VII əsrlərə aid bəzi qədim mənbələr də təsdiqləyir. Ona görə də, bir sıra tədqiqatçıların iddia etdikləri kimi Sakasena Skifiyanın özəyini təşkil edə bilməzdi... əgər onlar doğrudan da skiflər, yəni dar mənada işquzlar olsaydılar, o zaman Strabon onları sak deyil, skif adlandırardı. Heç bir antik müəllif Kür və Araz çayları arasında yaşayan saklara münasibətdə skif etnonimindən istifadə etməmişdir. Strabon – Sakasen, Pliniy – Sakasan, Ptolomey – Sakapan, Arrian – Sakesin terminini işlətmişdir.

Azərbaycan ərazisində qurulmuş dövlətlə bağlı Z.Həsənov da yeni, orijinal və maraqlı bir ideya irəli sürmüşdür. Bildiyimiz kimi, Herodot skifləri və sakları eyni xalq hesab edirdi, təkcə fərq burasındaydı ki, onlara, Herodota görə, skif adını yunanlar, sak adını isə farslar vermişdilər. Z.Həsənov Herodotun skiflər, Rəşid əd-Dinin isə oğuzlar barədə verdiyi məlumatları qarşılaşdırarkən bu məlumatlar arasında çox qəribə yaxınlıq, oxşarlıq aşkar etmişdir.

* Herodot yazırdı ki, skiflərin, yəni sakların vətəni Asiyadır. Rəşid əd-Din də belə hesab edir ki, oğuzların Ata yurdu Türküstan, yəni Mərkəzi Asiyadır.

* Həm skiflər, həm oğuzlar şimala hərbi yürüş zamanı eyni çaydan – Volqadan keçməli olurlar.

* Həm skiflər, həm də oğuzlar, mütəxəssislərin Dunay və Dnepr kimi müəyyənləşdirdikləri ikiçayarasında yerləşirlər.

* Həm skiflər, həm də oğuzlar Xəzər dənizinin qərb sahillərindən keçərək cənuba doğru üz tutur və Midiya torpaqlarına çatırlar.

* Həm skiflər, həm də oğuzlar bu ərazidə yeni dövlət qururlar.

* Skiflərin və oğuzların Misirə hücum marşrutları da tamamilə üst-üstə düşür. Hər iki halda Misir hökmdarı qoşunları sərhəddə qarşılayır və müharibəsiz təslim olur. Həm skiflər, həm də oğuzlar Misirdən sonra bir müddət Suriyada dayanırlar.

* Herodotun və Rəşid əd-Dinin nağıl etdikləri süjetdə çox vaxt, hətta ən xırda detallar da bir-birinə uyğun gəlir. Herodot skiflərin yol üstündə rastlaşdıqları qırxıqbaşlardan söz açır. Onlarla vuruşmaq çox çətindi, çünki bədənlərinə sülügən boyası – qurğuşun turşusu sürtdüklərinə görə ox batmırdı. Rəşid əd-Dində də eyni əhvalat təkrarlanır. Qırxıqbaşlarla, it-Berakın tayfası ilə rastlaşan Oğuz xan ilk və sonuncu dəfə məğlub olur, çünki vuruşduğu döyüşçülərə heç bir ox batmırdı. Sən demə, it-Berakın adamları döyüşdən əvvəl bədənlərinə yapışqan sürtürlərmiş.

Beləliklə, bütün yuxarıdakı məlumatları birləşdirib ümumi nəticə çıxarsaq, onda aydın olacaq ki, həm Herodot, həm də Rəşid əd-Din əslində, eyni tayfalardan söz açırlar.





Bu tayfalar, Herodota görə, Azərbaycan ərazisində «Skif çarlığı» qurmuşdular. Antik müəlliflər bu çarlığı daha çox Sakasena, yaxud Sakesin kimi xatırlayırlar. Rəşid əd-Din isə oğuzların qurduqları dövləti Azərbaycan adlandırır. Bir çox sonrakı müəlliflərdə bu ad daha çox Oğuz eli kimi tanınır.

Lakin bu da hamısı deyildir. Başqa mənbələrdən bu ölkənin digər adları da məlumdur. Məsələn, Tövratda həmin ölkənin adı Aşkenaz kimi çəkilir.

Assurlar etnotoponimin Aşquzay, yaxud İşquzay formasından istifadə etmişlər. Bizans tarixçisi Feofan isə «hunların ölkəsi»ndən danışır və yazır ki, Bizans çarı İrakli və xəzərlər Albaniyada, hunların ölkəsində görüşdülər. Q.Qeybullayev belə güman edir ki, Feofan «hunların ölkəsi» deyərkən qədim Sakaseni, indiki Gəncə zonasını nəzərdə tuturdu. Niyə belə olmuşdur? Nə üçün qədim Azərbaycan ərazisində qurulan sak dövlətinin ətrafında bu qədər hərc-mərclik yaranmışdır? Yaxud gəlin sualı başqa cür qoyaq: skiflərin, kimmerlərin, hunların, oğuzların ümumiləşdirici adla – sak çağırılması elmi cəhətdən nə dərəcədə doğrudur? Saklar F.Cəlilovun iddia etdiyi kimi, Azərbaycan ərazisində e.ə. İkinci minillikdə həqiqətən mövcud idimi? Bir qədər də konkret desək, sakların Ata yurdu Ön Asiyadır, yoxsa Mərkəzi Asiya?*

Saklara aid bütün məsələlərdə olduğu kimi, burada da çox ciddi hərc-mərclik nəzərə çarpır.

* Mən saka – qamər boylarının Azərbaycan ərazisinə gəlişindən deyil, qayıdışından bəhs etmişəm. Yəni, saka-qaməq boylarının Ata yurdu Ön Asiyadır, Mərkəzi Asiya deyildir. (F.Cəlilov).

Tədqiqatçıların böyük əksəriyyəti sakların Ata yurdu kimi Mərkəzi Asiyanı nişan verirlər. Məsələn, B.A.Litvinson belə hesab edir ki, ən qədim saklar Orta Asiyada və Qazaxıstan ərazilərində yaşamışlar. Alimə görə, saklar son tunc dövrü tayfalarının birbaşa varisləridir. Onların bir hissəsi Qafqazdan keçərək Ön Asiyaya gəlmişlər. Bu fikrə qoşulan İ.M.Dyakonov, E.İ.Krupnov, K.V.Trever, İ.H.Əliyev, V.F.Minorski və başqaları sakların Orta Asiyadan Ön Asiyaya köçünü bir qədər sonraya, e.ə. VIII-VII əsrlərə çəkirlər. V.V.Struveyə görə saklar Zaqafqaziyaya e.ə. VI əsrdə Dərbənddən keçərək gəlmişlər.

Bütün yuxarıda deyilən ziddiyyətli fikirlərə aydınlıq gətirməyə çalışan Azərbaycan alimi Qiyasəddin Qeybullayev yazır: «Sakların Kür və Araz çayları arasına gəlmə vaxtı və şəraiti hələlik, axıradək aydınlaşdırılmayıb. Təkcə bir şey dəqiq məlumdur: saklar şərqdən, Mərkəzi Asiyadan köçüb gəlmişlər».

Təəssüf ki, digər tədqiqatçılar kimi Q.Qeybullayev də bu rəydədir ki, Azərbaycan ərazisinə Mərkəzi Asiyadan köçüb gələn saklar bir etnos kimi elə orada da formalaşmışdılar. Lakin bu, çox sadə bir məntiqə görə mümkün deyildir: bir xalqın əcdadı, soy-kökü bir-birindən xəbərsiz dünyanın iki ucunda təşəkkül tapa bilməz.

Məsələ burasındadır ki, alimlər sak adının ilk dəfə assur mənbələrində, e.ə. VII əsrdə, onların Ön Asiyaya hücumu ilə əlaqədar çəkildiyini güman edirlər. Saklar Ön Asiyaya həqiqətən Mərkəzi Asiyadan gəlmişdilər. Lakin onlar bir etnos kimi Mərkəzi Asiyada formalaşmamışdılar, formalaşa bilməzdilər.





Fəslin əvvəlində də qeyd etdiyimiz kimi, Nippurdan tapılmış «çar siyahısı» ağ sakların Şumeri 99 il idarə edən Ağşaka dövlətindən söz açır. Tədqiqatçılar bu dövləti «görməzliyə» vursalar da, onun varlığı bir sıra qaynaqlarda öz əksini tapıb. Həmin qaynaqlarda Sakli, çox güman ki, Sak ili, yaxud Sak eli adlanan bu şəhər-dövləti idarə edən on ikinci Şumer dinastiyasının e.ə. 2661 – e.ə. 2562-ci illər arasında hakimiyyətdə olduğu ehtimal edilir. Ortaya haqlı bir sual çıxır: eramızdan əvvəlki üçüncü minilliyin birinci yarısında Şumeri 99 il idarə edən bir xalqın Ata yurdu iki min il sonra Mərkəzi Asiya necə ola bilərdi? Belə çıxır ki, saklar Ön Asiyaya iki dəfə köç etmişlər, bir e.ə. III minillkdə Şumerə gələrək onu işğal etmiş, təzədən Orta Asiyaya qayıtmış, növbəti dəfə isə e.ə. birinci minillikdə Dərbənddən, yaxud başqa bölgədən keçərək yenidən Ön Asiyaya, o cümlədən Azərbaycan ərazisinə qayıtmışlar. Bu fikrin nə qədər absurd olduğu göz qabağında deyilmi?

Qədim türk tarixinin öyrənilməsində əvəzsiz xidmətləri olan F.Cəlilov (F.Ağasıoğlu) özünün «Qədim türk eli. Saqa-Qamər boyları» kitabında bu məsələyə aydınlıq gətirməyə çalışır. «Baxmayaraq ki, Herodotdan üzübəri antik çağ və Bizans qaynaqları Azaq saqaları haqqında xeyli bilgi vermişdir və son iki əsrdə bu bilgilər əsasında yüzlərlə tədqiqat əsəri yazılmışdır, ancaq hələ saqa problemlərinin əsas düyünləri açılmamışdır. Belə ki, bu düyünlər sırasında saqaların dili, etnik kökü və ilkin yurdu məsələləri öndə durur».

Həqiqətən də, sak «düyünü» bəzi alimlərin də «yüngül əli ilə» əsil «Qordi düyünü»nə çevrilmiş və onu axıradək açmaq bu günəcən mümkün olmamışdır.

Belə görünür ki, sak adı e.ə. birinci minilliyin VII əsrindən o yana antik mənbələrə məlum deyilmiş. Herodot yazır ki, farslar bütün skifləri bir yerdə sak adlandırırdılar. Bu məlumat hansı dönəmə aiddir? Yenə də sualın cavabını Herodotda tapırıq. Herodot yazır ki, skiflərin ulu əcdadı Tarqıtay pers çarı Dariusun skiflər üzərinə yürüşündən min il öncə yaşamışdır. F.Cəlilov bu müharibənin e.ə. 512-ci ildə baş verdiyini deyir və Herodota əsaslanaraq saqaların hələ 3500 il bundan qabaq mövcud olduqları, həmçinin Azərbaycan ərazisində yaşadıqları barədə ehtimal irəli sürür. Amma T.T.Rays bu tarixi 200 il də geriyə – e.ə. 1700-cü illərə çəkir.

Yenə Herodota görə ilk saqa tayfaları Heraklın oğlu Saqatdan (Skitdən) törəmişlər.

Bu qatmaqarışıq məlumatlardan anlaşılan təkcə odur ki, saklar və skiflər eyni kökdəndir. Amma əhəmənilər nədənsə onları skif yox, sak adlandırmışlar. Niyə? Görkəmli Azərbaycan alimi Qiyasəddin Qeybullayev də eyni sualı verir və ona cavab tapmağa çalışır. Niyə görə bir tayfaya iki ad verilmişdir? Nə üçün bu tayfalara yunanlar skif, farslar sak demişlər? Q.Qeybullayev əvvəlcə Pliniydən belə bir sitat gətirir: «Yaksartdan (Sır Dərya) o tərəfə skif tayfaları yaşayır, farslar nədənsə onları sak adlandırırlar... Skif xalqlarının sayı-hesabı yoxdur». Q.Qeybullayev daha sonra antik müəlliflərdən Xerilin və Diodor Siciliyalının sözlərini yada salır: «...hətta qoyun otaran sak çobanları da mənşəcə skif kökündəndir» (Xeril). «Skiflərin yaşadığı və əhalisinin özünü sak adlandırdığı





Skif torpaqları Şimali Hindistandan Emod dağı ilə ayrılır» (D.Siciliyalı).

Bu ehtimalların heç də inandırıcı görünmədiyini yazan Azərbaycan alimi iddia edir ki, antik müəlliflərdəki skif və İran mətnlərindəki sak etnonimləri arasında bərabərlik işarəsi qoymaq mümkün deyildir. Qədim fars mənbələrində sak adı konkret etnik tayfalara şamil edilir, Pliniyin xəbər verdiyi «skif» etnonimi isə etnik mənşə bildirmir, bütün sakların ümumiləşdirici adı kimi verilir.

Maraqlı və maraqlı olduğu qədər də ziddiyyətli görünən bu fikirlər (məsələn, Q.Qeybullayevin əksinə olaraq, farslar konkret etnosları deyil, bütün skifləri bir yerdə sak adlandırırdılar) bütövlükdə «nə üçün skifləri sak adlandırmışlar?» sualına cavab vermir və «sak» etnoniminin mənası, mənşəyi, yaranma səbəbləri yenə axıradək açılmamış qalır.

Yuxarıda da gördüyümüz kimi, bəzi mənbələrdə təkcə skiflər deyil, bir çox başqa etnoslar da (kimmerlər, oğuzlar, hunlar, hətta sarmatlar) saklarla eyniləşdirilmişlər. Daraya aid olduğu bildirilən «Nəqşirüstəm» qədim fars gil kitabəsində sakların adı çəkilir. Həmin sənədin Babil surətində sak əvəzinə qimira yazılmışdır.

Azərbaycan alimi Kamil Əliyev «Azərbaycan əhalisinin etnogenez probleminə dair» məqaləsində Azərbaycan ərazisinə yeni köçəri dalğasından söz açarkən yazır: «Bu köçəriləri sak, analoji olaraq, həm də qimira adlandırırdılar».

Təzədən fəslin əvvəlində verdiyimiz sualın üzərinə qayıdaq: Bu, niyə belə olmuşdur? Nə üçün ayrı-ayrılıqda müxtəlif cür adlandırılan tayfalara bir yerdə

həm də sak demişlər? Ümumiyyətlə, sak etnonimi necə və haradan yarana bilərdi?

Təəssüf ki, bu önəmli suallara tarixçilərin heç biri cavab verməmişdir. Təkcə Herodot yunanlar və skiflər arasından topladığı miflərə əsaslanıb belə yazırdı ki, Heraklın üç oğlundan biri Saqat (Skit) adlanırdı və skiflər (saklar) bu şəcərədən törəmədir. Lakin yunan miflərinin daha qədim kökə, Şumer kökünə söykəndiyini bildiyimizdən sakların mənşəyini ilkin bəşər sivilizasiyası dönəmlərində axtarmaq heç də əsassız olmazdı.

F.Ağasıoğlu «Qədim türk eli. Saqa-qamər boyları» kitabında yazır: «Daha çox saqa və kuman boylarının etnoqrafik göstəricilərindən biri dünyasını dəyişən soylu bəylərin anıt daş heykəlləridir. Ukraynada bulunan bu anıt daş heykəldə olduğu kimi, onların harada tapılmasından asılı olmayaraq əksərinin «sağ əlində bardaq, sol əlinin isə kəmərdə olması» pozası bir kanonik xarakterə malikdir».

Alim çox haqlı olaraq belə nəticəyə gəlir ki, xronoloji baxımdan bu gələnək Avropadakı Qıpçaq çölünə və Sibirə Ön Asiyadan aparılmışdır. Qədim Şumerdə bir atalar sözü geniş yayılmışdı: çöldə bardaq kişi üçün həyatdır. Görünür, məhz bu düşüncə tərzinin nəticəsidir ki, İkiçayarasındakı arxeoloji qazıntılar zamanı tapılan əşyalar arasında bir əlində su bardağı tutan, o biri əli kəmərində olan gil heykəllər və konusvari möhür rəsmləri çoxluq təşkil edir. Bunların arasında ən məşhuru Suriyanın Hələb şəhərinin arxeologiya muzeyində saxlanılan İnanna – İştarın heykəli-





dir. Bu heykəldə İnanna sağ əlində su bardağı, sol əli kəmərində təsvir edilmişdir. (Bax: şəkil 11.)



**Şəkil 11.** İnanna – İştarın Suriyanın Hələb şəhərindəki muzeydə saxlanılan heykəli

Əlbəttə, təkcə heykəl oxşarlığına görə iki böyük mədəniyyətin qohumluğu barədə iddia irəli sürməyin yanlış ola biləcəyini mən anlayıram. Məsələ burasındadır ki, skitlərə (saklara) məxsus qəbirüstü abidələrin və digər daş heykəllərin elmi tədqiqatını aparıb təsnifatlaşdıran bir sıra rus və Qərb alimləri bu eyniliyi inkar etmirlər. Fərq təkcə burasındadır ki, rus və Qərb alimləri sakları türk mənşəli deyil, İran mənşəli sayırlar, amma nədənsə bunu qəbul olunmuş tarixi fakt kimi qələmə verərək, heç sübut etməyə çalışmır-

lar da. 1983-cü ildə Moskvada nəşr olunan «Qədimdə Orta Asiya, Qafqaz və xarici Şərq» kitabında D.Rayevskinin məqaləsinin başlığı artıq hər şeyi deyir: «Avrasiya çöllərindəki irandilli xalqların dini-mifoloji sistemində daş heykəllərin təcəssümü».

Sonrakı fəsillərdən də görəcəyimiz kimi, antik müəlliflər sak (skit) tayfalarının heç də hamısını irandilli saymırdılar. Amma bu faktları «görməyən» və ayaqlayıb keçən «tarix siyasətçiləri» İrana yarınmaqdan daha çox türkləri sıxışdırıb əzməkdən ötrü neçə əsrlərdir ki, eyni havanı çalmaqda davam edirlər.

Doğrudan da, türk olmağın məsuliyyət yükü çox ağırdır. Nə qədər ki, dünyanın «tərəfkeşlik», «ayrı-seçkilik» siyasəti davam edir, bu yükü çəkmək dözülməz dərəcədə ağır olacaqdır. Amma biz öz həqiqətimizə – türk həqiqətinə inanırıq və nə vaxtsa dünyanın da bu həqiqətə tapınacağına içimizdə heç vaxt sönməyən bir inam işığı vardır.

Bütün bu məsələləri araşdıran O.Süleymenov yazır: «Asiya və Avropa mədəniyyətlərinin qarşılıqlı təsiri problemlərinə həsr etdiyi «Qərbi Avropa etnoslarında şərq motivləri» kitabında Q.Potanin maraqlı bir nəticəyə gəlir. Onun fikrincə, mədəniyyətin həlledici anları o zaman əxz edilə bilər ki, hər iki xalq eyni bir mənəvi həyatla yaşamış olsun, eyni bir pərəstiş obyektinə, mərasimlərə malik olsun, bu halda bir tayfanın o birisindən nəyisə mənimsədiyindən deyil, qarşılıqlı təsirindən, əməkdaşlığından danışmaq olar».

Eyni sözləri Mesopotamiya torpaqlarında uzun minilliklər boyu birgə yaşayan xalqlar, o cümlədən





türk etnosları barədə də əminliklə söyləmək mümkündür. Qısa qonşuluq, yaxud zaman-zaman baş verən təsadüfi yaxınlıq nəticəsində tayfalar bir-birilərindən çox şey öyrənə bilərlər, lakin mənəvi dünyanın açarı olan dini baxışları, bir xalqın yaşam boyu nəsillərdən nəsillərə ötürdüyü bayramları, mərasimləri, adət və ənənələri təsadüfi təmas nəticəsində mənimsəmək qeyri-mümkündür. Əlində qab tutmuş balbal (bu söz qədim türklərdə «insanı simvollaşdıran mərasim daşı» anlamına gəlir) gələnəyi də belələrindəndir*.

Nizami Gəncəvi hələ 800 il bundan əvvəl yazırdı ki, türklər islamdan əvvəlki dövrlərdə əlində qab tutmuş qadın balbala sitayiş edirlərmiş. Bu, Şumerdən, əlində bardaq tutmuş İnannanın «mərasim daşına» çevrilən, heykəlləşən təsvirlərindən üzübəri süzülüb gələn və min illərin təcrübəsinə söykənən bir gələnək deyilmi?

Beləliklə, dünya istər inansın, istər inanmasın, türk sak tayfaları bir əli kəmərində, bir əlində bardaq tutan heykəl gələnəyini heç şübhəsiz ki, öz ilkin vətənlərindən, yalnız və yalnız qədim Şumerdən əxz edə, özləri ilə Avrasiya çöllərinə, Azərbaycana, Orta Asiyaya, Sibirə və dünyanın digər yerlərinə daşıya bilərdilər.

Türklərin şumer mənşəli olmasını əngəlləyən ən başlıca maneə – tarixdə ilk geniş miqrasiyanın qərbdən şərqə deyil, şərqdən qərbə, yəni Orta Asiyadan Avropaya doğru olması barədə yanlış ideyadır. Şübhə

* Türklərdə kişi heykəlinə «daş baba», qadın heykəlinə «daş nənə» deyirdilər. «Balbal» isə öldürülən düşmənin simvoludur. (Elmi redaktorun qeydi).

etmirəm ki, bu ideyanı da siyasətçilər düşünmüş və «elm dəllallarının» əli ilə həyata keçirmişlər. Məqsəd türkləri öz köklərindən qoparmaq, tarixini oğurlayıb mümkün olduqca yaxın zamanlara çəkmək və onları Orta Asiyanın qızmar günəşi altında «susuzluqdan» qurudub məhv etmək olmuşdur.

Amma yüzlərlə, minlərlə təkzibolunmaz dəlil bunun əksini sübut edir: xalqların ilk «böyük köçünün» yönü batıdan doğuya doğru idi, yoxsa altı min il əvvəl Nippurda və digər Şumer şəhərlərində tikilən çoxpilləli zikkuratların eynisinin e.ə. birinci minillikdə Altun-Təpədə tapılmasını başqa nə ilə izah etmək olar?

Beləliklə, sakların ilkin mənşəyi və tayfa adının yaranması barədə bəlkə də ən doğru ehtimal Şumer torpağı və qədim Mesopotamiyanın köklü əhalisinin adı olan «qarabaş» sözünün şumer dilində yazılış formasıdır: sağ giga. Bu söz piktoqramda belə göstərilirdi: insan başı üstəgəl göy qübbəsi və altında ulduzlar. Sonuncu ideoqram qara, gecə, qaranlıq, fəlakət, xəstəlik və s. qəbildən olan çalarları özündə birləşdirir. Baş piktoqramının tələffüz forması – saq, göy qübbəsinin tələffüz forması isə «gica» – gecə, yəni qaradır. Saq şumercə hərfi mənada baş, məcazi mənada hündür, uca, zirvə anlamına gəlir.

Şumer əhalisi sivilizasiya süquta uğrayana qədər fərq qoymadan özünə «qarabaş» deyirdi. Niyə, burada yaşayan insanların hamısının saçı qara olduğu üçünmü? Heç inanmıram. (Yeri gəlmişkən, «qara başım qurban sənə» deyən oğuz türklərinin lüğətində də bu sözün tez-tez işlədilməsi xeyli düşündürücüdür).





«Qarabaş» adını yerli əhaliyə kim və nə üçün vermişdi? Bu sualın cavabını «Etana haqqında» qədim Şumer əfsanəsində tapmaq olar. Mifdə deyilir ki, yeraltı mədənlərdən qızıl çıxarmaq çox ağır iş idi. Nibirudan gələn 300 anunnaki Afrika mədənlərində gecə-gündüz, istirahət bilmədən çalışsalar da, işin öhdəsindən gələ bilmirdilər. Ağır əzab-əziyyətə, işgəncə həddinə çatmış zəhmətə tab gətirməyən anunnakilər bir gün üsyan qaldırdılar. Onlar tələb edirdilər ki, mədənlərdə işləmək üçün sərəncamlarına yeni qüvvələr verilsin. Dinqirlər məsləhət-məşvərətdən sonra Afrika cəngəlliklərindəki meymunlardan ucuz işçi qüvvəsi yaratmaq qərarına gəldilər. Əfsanəyə görə, tapşırığı müvəffəqiyyətlə yerinə yetirən Enki ilə Ninxursaq əldə etdikləri insan nəslinə «qarabaş» – qul, xidmətçi adını qoydular. Çünki bu insanlar dinqirlərə xidmət göstərmək, mədənlərdə və başqa ağır işlərdə anunnakiləri əvəz etmək üçün yaradılmışdılar. «Təsadüfə» bax ki, qarabaş sözünün türk dillərindəki mənalarından biri də məhz «xidmətçi», «qulluqçu», «kəniz» deməkdir.

Piktoqram tələffüzünə görə dinqirlər yaratdıqları insana «saq-gecə», «saq-qara», yaxud «qara saq» deyirdilər.

Zaman keçəcək, dövran dəyişəcək, göylərlə yerin, dinqirlərlə sakların izdivacından yeni tayfalar yaranacaq və onlar özlərinə «ağ sak» deyəcəklər. Amma hər ikisi bir yerdə – həm qara saklar, həm də ağ saklar Şumer əhalisinin bel sütunu, özəyi, sonradan qol-budaq atacaq «bəşəriyyət ağacının» yeganə gövdəsi idi.

Mən bu ideyanı qəbul etməyin çətin, hətta mümkünsüz ola biləcəyini başa düşürəm. Onun ən zəif nöqtəsi, əgər bu günkü elmin gözü ilə yanaşsaq, kökündə mifin, bir əfsanənin dayanmasıdır.

Elə isə gəlin problemə başqa bir yöndən açar tapmağa çalışaq. Fərz edək ki, qarabaşların yaranması haqqında Şumer hekayəti həqiqətən mifik təfəkkürün nəticəsidir və qəbul edilə bilməz. Lakin qarabaşların konkret bir xalq kimi mövcudluğu artıq əfsanə deyildir və onlar iki min il ərzində Şumerin yerli xalqı, sivilizasiyanın başlıca aparıcı qüvvəsi olmuşlar. Şumer dağıldıqdan sonra bu yerli xalqın aqibəti də dərhal unuduldu və heç bir qaynaqda yada salınmadı. Tədqiqatçılar nədənsə bu faktın üstündən həmişə sükutla keçir və qarabaşlar yerli-dibli yoxmuş kimi davranırlar. Lakin iki min il siyasi hakimiyyətdə qalan bir xalq qısa müddətdə tarixin qaranlıqlarına gömülə bilməzdi!

A.Oppenxeym özünün «Qədim Mesopotamiya» əsərində yazır: «Mesopotamiya sakinlərinin linqvistik mənsubiyyətlərinin aydınlaşmağa başlandığı gündən ta siyasi müstəqilliyin sonuna kimi ölkənin cənubunda şumerlər, babillər və xaldeylər, şimalda isə assurlar, hurrilər və arameylər yaşayırdılar».

Qrem Henkok isə belə güman edir ki, şumerlər Nippurun cənub ucqarından İran körfəzinədək bütün ərazini tutmuşdular. Onların qonşuluğunda isə akkadlar, babillər, assurlar, xaldeylər, arameylər və digər milli azlıqlar məskən salmışdılar.





Beləliklə, çox vacib və önəmli sualla qarşı-qarşıyayıq: Nippurun cənub ucqarından İran körfəzinədək böyük bir ərazini tutan «naməlum tayfa» – şumer kimdir?

Bizim qənaətimizə görə, Şumerdə naməlum tayfa yox idi, lakin Nippurun cənub ucqarından ta İran körfəzinədək yayılan böyük tayfa birləşməsi, heç şübhəsiz, anunnakilər də ola bilməzdilər. Çünki onların sayı Yer üzündə 300 nəfərlə 600 nəfərdən o yana keçməmişdir.

Bəs onda tədqiqatçıların şumer adlandırdıqları böyük tayfa birləşməsinin adı nə idi? Ən azı şimal və cənub qonşuları kimi onların da mütləq bir adı olmalıydı, amma nədənsə yoxdur və hamı onları sonradan verilmiş abstrakt «şumer» adı ilə çağırır. Niyə? Bütün tayfa birləşmələrinin linqivistik mənsubiyyətləri və irqi xüsusiyyətləri önə çıxdığı vaxtda belə böyük bir ərazidə yaşayan əhalinin «naməlum» qalması nə ağla sığır, nə də məntiqə.

Linqivistik mənsubiyyətlərin bəlirlənməsi, əslində, parçalanmanı və ləhcələşməni dərinləşdirməli, kimin kim olduğunu ortaya çıxarmalı idi. Şumerdə isə hətta milli azlıqda qalanlar da gün işığına çıxdıqları halda, minilliklər boyu siyasi hakimiyyətdə olanlar, dilləri, dinləri, mədəniyyətləri ilə həmişə öndə gedənlər nədənsə kölgədə qalır və tədqiqatçılar tərəfindən «naməlum tayfa» adlandırılırlar.

Ən qəribəsi, bəlkə də ən möcüzəlisi budur ki, sivilizasiyanın süqutundan dərhal sonra bu «naməlum tayfa» tarixin qaranlıqları içərisində yoxa çıxır və bir

daha görünmür. Vəziyyətin ümidsiz dərəcədə anormal olduğu göz qabağında deyilmi?

İki min il tarixə hökmranlıq edən bir xalqın varlığı bir müəmmaydısa, yoxluğu da başqa bir müəmmaya dönüşdü.

Şumer kilidi qarşısında aciz qalan elm bu «müəmmanı» açmaq əvəzinə onu daha da dolaşdırmaqdan, «dağlı tayfalar», «keçmişdən miras qalan sivilizasiya» barədə mücərrəd ehtimallar irəli sürməkdən başqa ayrı çarə tapa bilmir. Halbuki qədim Şumer mətnlərinə və eləcə də dünyanın digər xalqlarının miflərinə səpələnmiş parçaları yan-yana düzsək, o zaman «naməlum tayfanın» möcüzəli və sirli tarixi barədə olduqca qəribə, həm də olduqca ağlabatan bir hekayət öyrənmiş olarıq.

İlk insan Afrika cəngəlliklərinin altındakı «qaranlıq dünyada» – Həyat evində yaradılmış, sürətlə artıb çoxalmağa başlamışdır. İnsan əvvəlcə yalnız Afrikada, şaxtalardakı ağır işlərdə anunnakiləri əvəz edirdi. Sonra Mesopotamiyadakı anunnakilərin tələbi ilə onların bir hissəsi İkiçayarasına gətirildi. Daha sonra homo sapiens anunnakilərin quruculuq işləri apardıqları hər yerə – bütün dünyaya səpələndilər. Yeddi Atadan və Yeddi Anadan törəyən insanlar əvvəlcə bir dildə və bir ləhcədə danışırdılar. Lakin vaxt, zaman adlı nəhayətsizlik öz işini görməkdəydi. Gələcəkdə yaranacaq bütün xalqların kökündə duran «proto insan» – qarabaşlar minilliklər keçdikcə dəyişir, formalaşır, ilkin ləhcəni itirirdilər. Bu gün dünyanın müxtəlif uclarında yaşayan xalqların lüğət fondunda





mütləq şumer sözləri tapmaq mümkündür. Bircə gün də İkiçayarasında yaşamayan və bu regionla heç bir əlaqəsi olmayan xalqların «şumercə» danışması elmi nöqteyi-nəzərdən mümkünsüz görünür və olduqca düşündürücüdür.

Linqivistik mənsubiyyət irqlərin formalaşmasında heç bir rol oynamır, əvəzində dil başqa bir həqiqəti ortaya çıxarır: hind-avropa dil ailəsinə mənsub olan insanların danışığı Mesopotamiyada vahid kök üstündə inkişaf edən və dövlət dili kimi dəftərxanada işlədilən dildən kifayət qədər fərqlidir. Niyə, bilirsinizmi? Bu, həmin tayfaların İkiçayarasına sonradan gəldiklərini, yerli əhali ilə qaynayıb-qarışaraq ortaq sosial həyat tərzinə və ortaq mədəniyyətə yiyələndiklərini, dəftərxana dilindən və yerli xalqın danışıq ləhcəsindən bəhrələndiklərini göstərir. Məhz bu üzdən bəzi tədqiqatçıların çoxsaylı çabalarına rəğmən İkiçayarasına sonradan köçüb gələn xalqların dili ilə dəftərxana dili arasında daxili yaxınlıq müəyyən edilməmiş, «naməlum tayfanın» dili müasir linqivistik sistemdə öz yerini tapa bilməmişdir.

Şumer dilinin müqayisə ediləbiləcəyi yeganə dil – türk dilidir. Çünki çox sonralar türk adlanacaq bu tayfalar İkiçayarasında yerli xalqdı, onlar sivilizasiyanın çiçəklənməyə başladığı dövrdən də xeyli əvvəl burada yaşayırdılar, «gəlmələr» ilk təması məhz onlarla qurmuş, məhz bu yerli xalq möhtəşəm Şumer sivilizasiyasının inkişafında aparıcı rol oynamışdır.

Daşqınaqədərki dövrdə «gəlmələrlə» eyni dildə danışan bu xalqın böyük faciədən xilas olan hissəsi

uzun minilliklər boyu dağların su çıxmayan zirvələrində yaşamış, tarixin erroziyası onlardan da yan ötməmiş, illər, əsrlər qazanılmış təcrübə və vərdişlərin xeyli zəifləməsinə, lüğət fondunun hissediləcək dərəcədə dəyişməsinə, yeniləşməsinə gətirib çıxarmışdır. Şumer dilinə yaxın dildə danışan bu köçəri tayfalar sular çəkildikdən sonra təzədən İkiçayarasına enərkən ilkin sivilizasiyanın sönük cücərtilərindən başqa bir şey qalmamışdı. Lakin dil əski şumer sözlərinin bir hissəsini tutub saxlaya bilmişdi. Piktoqram meydana çıxdıqdan dərhal sonra ilkin arxiv sənədlərində ortaq türk-şumer sözlərinin yer alması, İkiçayarasında çox qədim tarixə malik olan türk toponimlərinin qalması, türk damğalarında şumer izlərinin mövcudluğu (F.Cəlilov çox haqlı olaraq yazır ki, türk damğaları şumer piktoqramlarından daha qədimdir) bu «əməkdaşlığın» dərin köklərindən xəbər verir. Beləliklə, bütün yuxarıda deyilənləri ümumiləşdirsək, inamla söyləmək olar ki, dünyanın ən müxtəlif guşələrinə səpələnmiş hibrid zonalarından asılı olmayaraq, bəşəriyyətin kökündə özlərini qarabaş adlandıran saklar dayanır.

A.Oppenxeymin də dediyi kimi, linqivistik mənsubiyyətlərin önə çıxdığı ana qədər İkiçayarasının yerli əhalisi fərq qoymadan burada yaşayanların hamısına qarabaş, «saq gica» deyirdi və uzun əsrlərin ünsiyyəti nəticəsində qısaca olaraq saq(sak) halına düşmüşdü. Onlar özlərini Kenqirin – Suberin sahibi və varisi hesab edirdilər, vahid dilə, dinə və mədəniyyətə söykənirdilər. Sonrakı bütün mədəniyyətlər bu va-





hid kök üzərindən cücərməyə başlamışdı. Təsadüfi deyil ki, əhəmənilər bütün skifləri bir yerdə sak adlandırmışlar. Skiflər çoxdilli tayfa idilər. Herodotun yazdığına görə bütün Skifiyanı gəzmək üçün ən azı yeddi dil bilmək lazım gəlirdi. Strabon isə bu dillərin sayını hətta 70-ə qaldırmışdı. O yazırdı ki, «...Dioskuriada şəhəri qonşu xalqlar üçün ümumi ticarət mərkəzi sayılırdı. Bu şəhərə 70 xalqın nümayəndəsi toplaşırdı (inandırıcı görünməyən başqa bir məlumata görə, bu xalqların sayı hətta 300-ə çatırmış). Onların hamısı başqa-başqa dillərdə danışırdılar». Bu xalqların arasında türkdilli tayfalar da vardı. Lakin sak adını skiflərə kənardan verməmişdilər, Herodotun istinad etdiyi əhəmənilər özlərinə qədər mövcud olanı dilə gətirmişdilər. Çünki Şumerin köklü əhalisi linqivistik mənsubiyyətlərin aydınlaşmağa başladığı vaxtdan çox-çox əvvəl dəyişməz şəkildə eyni adla çağırılmışlar. Qarabaş, yaxud qısaca sak! Sak etnonimi Şumer sivilizasiyasının iflasınadək heç bir konkret etnosu bildirməmiş və bütün əhalinin ümumi adı kimi işlənmişdir.

Təsadüfi deyil ki, Kiş, Uruk, Ur, Avan, Hamas, Adab və Maridən sonra Şumerin paytaxt şəhəri Ağsak adlanırdı. Bu, «Kitabi – Dədə Qorqud»da adı çəkilən həmən Ağsaqa qalasıdır, ya yox, bunu söyləmək çətindir. Amma bizim üçün önəmli olan budur ki, Şumer ərazisində hələ Akkaddan xeyli qabaq sakların adından yaranan bütöv bir şəhər-dövlət mövcud imiş və qədim əlyazmalarına görə Sakli adlanırmış.

Bu anlamda sakların tarixini eramızdan əvvəlki hər hansı minilliyə bağlamaq cəhdi iflasa məhkumdur. Çünki saklar bəşər tarixinin lap başlanğıcından

mövcud olmuşlar. Bu adda salınan hər hansı şəhər, yaxud qurulan ölkə heç vaxt sakların vahid etnos kimi erkən tarixini əks etdirə bilməz. Lakin eyni zamanda, başqa bir mühüm cəhəti də nəzərdən qaçırmaq olmaz. Mesopotamiyanın uzun minilliklər boyu qarabaş (sak) adlanan yerli əhalisi Şumerin iflasından sonra Ata yurdundan uzaqlarda bu adı ən əziz xatirə kimi yaşatmış və beləliklə, məhdud sayda tayfalar və tayfa birləşmələri uzun müddət sak etnonimi ilə tanınmışlar. Bu tayfalar alimlərin «naməlum» adlandırdıqları və Şumerin süqutundan sonra «yoxa çıxan» həmən unudulmuş tayfalar idi!

Əgər Ağsaka şəhər-dövləti Şumer sivilizasiyasının başlanğıcı hesab edilən tarixdən təxminən 1200 il sonra qurulmuşdusa, bu şəhər-dövlətdən 1000 il sonra başqa bir yerdə və daha böyük ərazidə ayrıca sak dövləti yarandı, onu Şumerdə olduğu kimi, yenə sak eli, sak elat, yaxud Herodotun nişan verdiyi kimi Skolot adlandırırdılar.

Herodot yazırdı ki, Tarqıtayın oğlanlarından yaranan ilk skif tayfalarının hamısına bir yerdə «skolot» deyirdilər. Skif (sak) tayfalarının banisi sayılan Tarqıtayın üç oğlu vardı. Böyük oğlu Lipoksaydan avxat, ortancıl oğlu Arpoksaydan katiar (traspi), kiçik oğlu Kolaksaydan paralat boyları törəmişdi və onların dördü bir yerdə «skolot» adlanırmış.

Skolot sözünün mənası üstündə alimlər yekdil rəyə gələ bilməmiş və hər kəs etnonimi öz bildiyi kimi təfsir etmişdir. Z.Həsənova görə, hətta iş o yerə çatıb ki, bu müxtəliflik Herodotun söylədiyi fikirlərin





tərcüməsində də öz əksini tapıb. Məsələn, Q.A.Stratanovski həmən cümləni belə verib: «Bütün skif tayfaları bir yerdə «skolot», yəni hökmdar tayfaları adlanırdı». Amma yenə Z.Həsənova görə, Herodotdan ən doğru tərcümə İ.Martınova məxsusdur: «...onların adı «hökmdar» sözündən yaranan skolot idi».

A.Qudli də Herodotun mətnini ingilis dilinə buna bənzər şəkildə tərcümə edib: «Bütün tayfalar bir yerdə öz çarlarının şərəfinə skolot adlanırdılar».

Q.Qeybullayev belə hesab edir ki, skolot skif tayfalarının bəlli bir hissəsinin adı olmuşdur. Gənc və istedadlı tədqiqatçımız Z.Həsənov «skolot» sözünün mənasını bir qədər də dəqiqləşdirməyə çalışır. O yazır: «Skif anlayışı..., daha geniş etnosların daxil olduğu dairəni əhatə edir. Skolot isə skif tayfalarından birinin – «çar skifləri»nin daxil olduğu tayfa ittifaqını bildirir».

Tədqiqatçı daha sonra öz sözlərinə belə şərh verir: «Skolot sözünün kökü ilk skif çarının adından götürülüb. Bunu «skolot» sözünün strukturundan da aydın görmək olar: S-kol-ot. Burada s komponenti yunan, yaxud skif sözlərinin başlanğıcıdır, ot suffiksi qədim türk dilləri üzrə mütəxəssislər tərəfindən «od» kimi mənalarındırılır. Sözün kökü olan kol isə ilk skif çarı Kolaksayın adından götürülüb».

Skolot sözünün başqa təfsirləri də mövcuddur. Birincisi, müxtəlif türk dialektlərində hökmdar anlamına gəlir. İkincisi, çara məxsus olanlar, kol tərəfindən idarə olunanlar, odlu Kolun tərəfdarları deməkdir.

Üçüncüsü qal-ot, yaxud od qalayan sözündən yaranıb. Bu fikrin təsdiqi kimi monqollardakı od allahı Ot-Qal, Qal-Ot və ya Ot Qalaxan misal göstərilir.

Lakin bu konsepsiyada ilk baxışdan gözə çarpan bəzi uyğunsuzluqlar vardır. Herodot «skolot» etnoniminin «hökmdar» sözündən yarandığını bildirmişdir, hər halda tərcüməçilər onun fikrini bu şəkildə təqdim etmişlər. Bunu əsas götürən Z.Həsənov da sözün strukturundakı «kol»a istinad edərək, «skolot»un çar skifləri olduğunu, «sar skifləri»nin isə kolaksaydan törədiklərini irəli sürmüşdür. Lakin burada bir yanlışlıq olduğu göz qabağındadır.

Herodota görə skif və sak müxtəlif adlar olsa da, nəticədə eyni tayfaları bildirir, çünki bu adlardan birini yunanlar, digərini isə farslar vermişlər. Əgər söhbət həqiqətən eyni tayfalardan gedirsə, o zaman skolot, yəni çar skifləri elə çar sakları, hökmdar saklar, daha dəqiq desək ağ saklar olacaqdır. Ağ sakların tarixini Tarqıtayın oğlu Kolaksayın adına bağlamaq, bu tarixi ən azı min il geri çəkmək deməkdir. Çünki ağ saklar hələ e.ə. XXVII yüzillikdə mövcud idilər və bu dinastiya Şumeri 99 il idarə etmişdi.

İkincisi, skiflər hökmdar tayfasından olduqlarını etnonimin sonuna «qur-kur» suffiksi qoşmaqla çatdırırdılar. «Qur-kur» isə şumercə hərfi mənada dağ, zirvə deməkdirsə, məcazi mənada hər şeydən ucada duran, yəni hökmdar anlamına gəlir. Saklarda hökmdar tayfalarını başqalarından fərqləndirmək üçün ağ prefiksindən istifadə edilirdi. Deməli, adına «ağ», yaxud «qur-kur» artırılmayan tayfaların hökmdar nəslindən gəldiklərini iddia etmək yanlış ideyadır.





Herodot yazırdı ki, əhəmənilər hökmdar və qeyri-hökmdar tayfalarına fərq qoymadan bütün skiflərə sak deyirdilər. Təsadüfi deyil ki, bu məsələyə öz münasibətini bildirən İ.M.Dyakonov bir sıra tədqiqatçılara istinadla güman edir ki, skif və skolot etnonimi eyni mənşəlidir. Bu isə «skolot» termininin «hökmdar» sözündən yarana biləcəyi ehtimalını şübhə altına alır.

Problemə yanaşmada bir mühüm cəhət mütləq nəzərə alınmalıdır. Herodot «...onların ümumi adı «hökmdar» sözündən yaranan «skolot» idi» deməklə faktı nə təsdiq, nə də inkar edir, sadəcə, öz dövründə mövcud olan versiyalardan birini dilə gətirir. Herodot «Tarix» əsərində bu üsuldan gen-bol istifadə etmiş, öz konkret fikrini bildirdiyi məqamlar istisna olmaqla, qalan bütün hallarda yalnız mövcud versiyaları ortaya qoymuşdur. Əgər məsələyə bu yöndən yanaşsaq, o zaman Herodotun nə üçün «...onların ümumi adı «hökmdar» sözündən yaranan «skolot» idi» dediyini dəqiqləşdirməyə ehtiyac duyulur.

Bu yerdə «tarixin atası» barədə bir neçə söz demək zərurəti yaranır. Bu adı ona filosof Siseron (e.ə. 106-43-cü illər) vermiş, o vaxtdan çox sular axıb, çox fəsillər dəyişsə də, dünyamız üçün Herodot bu gün də «tarixin atası» olaraq qalmışdır. Baxmayaraq ki, Herodot nə birinci tarixçi olub, nə də birinci olmağı qarşısına məqsəd qoyub.

Herodotun təqribən eramızdan əvvəl 490-cı ildə Kiçik Asiyanın cənub-qərbində, əfsanəvi Halikarnas

şəhərində doğulduğu güman edilir. Herodotun atası qəddar və qaniçən Likdama qarşı üsyanda iştirak etdiyi üçün ailəsi ölkədən sürgün edilmişdir. Yaşadıqları Samos adasında Herodot öz dövrünün siyasi mənzərəsini öyrənməyə girişir. Herodot hər şeyin kökünə çatmağı xoşlayırdı və bu üzdən məlumatları ilk əldən toplamaq qərarına gəlir. Beləliklə, uzun, yorucu və macəralarla dolu səyahət illəri başlanır. Əvvəlcə Kiçik Asiyanı başdan-başa gəzir. Sonra İtaliyanı, Siciliyanı, Kipri, Suriyanı, Rusiyanı dolaşır, Babilistanda uzun müddət dayanmalı olur, ardınca Misirə yollanır. Finikiya, Kolxida, Qara dəniz ətrafı gəzintilərində «Tarix» əsəri üçün bolluca məlumatlar toplayır. Herodot söhbət etdiyi adamların ölkənin tarixi, coğrafiyası, topoqrafiyası barədə söylədikləri ən xırda təfərrüatları da dəftərçəsinə qeyd edirdi. Beləcə, bu gün də bütün dünya alimlərinin stolüstü kitabına çevrilən «Tarix» əsəri yarandı. Sonradan İskəndəriyyə alimləri 9 muzanın sayına uyğun olaraq «Tarix» əsərini də 9 cildə ayırdılar. Herodot öz əsərini yunan dilinin İoniya dialektində yazmışdır. E.ə. 443-cü ildə Furiyaya köçən Herodot təxminən e.ə. 425-ci ildə vəfat etmişdir.

Herodot Şərq ölkələrinin tarixi, coğrafi mövqeyi, yerli xalqların adət-ənənələri, dini görüşləri barədə qiymətli məlumatlar vermiş, həmin xalqların ən maraqlı mif və əfsanələrini toplayaraq gələcək nəsillərə çatdırmışdır. «Tarix» əsərində Midiya barədə, burada yaşayan xalqların dili, dini və adət-ənənələri barədə bu gün üçün əvəzsiz olan məlumatlar tapmaq olar. «Tarix» əsərində müasir Azərbaycan ərazisində yaşayan kaspilər, utilər, mitanlar barədə geniş məlumatlar almaq mümkündür.





«Tarix»dəki informasiyaların həqiqətə nə dərəcədə uyğun olması zaman-zaman alimlər arasında mübahisə predmetinə çevrilmiş və bu mübahisələrdə ən çox Herodotun məlumat qaynaqları şübhə altına alınmışdır. Məsələn, rus tarixçisi B.Turayev təəssüflə qeyd edir ki, tədqiqatçılar Kiçik Asiya karfagenlərinin və Ktesiyanın etibarsız xəbərlərinə əsaslanaraq Midiya haqqında yazan Herodotun verdiyi məlumatlarla kifayətlənmək məcburiyyətində qalmışlar.

Qədim dövrlər üzrə tanınmış tədqiqatçı Erix fon Deniken yazır ki, «Herodot heç vaxt «təmiz» tarixçi olmayıb... Mən bir dəfə nəyə görəsə Herodotu vərəqləməli oldum və heyrətə gəldim. Herodotun söylədiyi tarixi faktların heç biri müasir misirşünasların dedikləri ilə üst-üstə düşmürdü... Herodotun və müasir alimlərin məlumatları arasındakı fərq o qədər böyük, o qədər biabırçı idi ki, özüm müstəqil tədqiqat aparmaq qərarına gəldim».

Ziddiyyətli fikirlərə və birmənalı olmayan yanaşmalara baxmayaraq, Herodot nəhayətsiz bəşər okeanında əzəmətlə ucalan nəhəng qayaya bənzəyir. Faktlara vicdanlı münasibəti sayəsində dünyanın hansı tərəfindən baxsan, Herodot ucalığı əlçatmaz görünür.

Yenidən söhbətimizə qayıdaq. Bizim qənaətimizə görə, «skolot» sözünün «çar skifləri» ilə identikləşdirilməsi yalnız bir halda gerçək ola bilər. Ağ sakların, yəni hökmdar nəslindən olan sakların e.ə. III minillikdə qurduqları dövlət Sakli (Sak ili, yaxud Sak

eli) adlanırdı. Əgər problemə bu yöndən yanaşsaq, o zaman bu hadisədən min il sonra «çar skifləri» kimi tanıdığımız məhdud sayda sak tayfalarının qurduqları dövləti vətən həsrəti ilə yenidən Sak elat, yaxud yunanların tələffüzüncə Skolot adlandırmalarını anlamaq mümkündür və bu mənada etnonimin «hökmdar» sözündən yarandığını iddia etmək tamamilə təbii görünür.

Azərbaycan alimi F.Cəlilov da «skolot» etnoniminə «sak elat» şəklində təfsir verir. Yəni, professor F.Cəlilovun sözləri ilə desək, «Kolaksay çar olandan sonra el (dövlət) quruluşuna uyğun saqa boylarının hamısına birlikdə sak elat (skolot) adı verildi».

Açıq görünür ki, yeni yurd yerlərinin sak adı ilə adlandırılması təcrübəsi həm Şumer sivilizasiyası dövründə, həm də Şumer siyasi hakimiyyətinin tənəzzülündən sonrakı dönəmlərdə də tez-tez təkrar edilmiş, İkiçayarasından qopan saklar hər təzə məskəndə qurduqları ölkəni nostalji olaraq yenə öz adları ilə çağırmışlar.

Hər halda sayı milyonları ötən, «Nippurun cənub ucqarından İran körfəzinədək» böyük bir ərazini tutan «naməlum tayfa», bəzi tədqiqatçıların israrla iddia etdikləri kimi heç də izsiz-tozsuz əriyib yoxa çıxmamışdı, onlar özlərindən sonra mütləq bir iz qoymalıydılar və bu izi qoymuşdular. Sadəcə heç kəs bunu görmək istəmir. Güclü dövlətlərin amansız təzyiqi ilə İkiçayarasında siyasi hakimiyyəti itirən qarabaşlar – Urmiya gölündən Avrasiya çöllərinə, Avrasiya çöllərindən Mərkəzi Asiya və Sibirədək ən müxtəlif ərazilərə yayılan «naməlum tayfalar» qurduqları ölkələri İkiçayarasındakı adları ilə sak çağırırdılar: sakli, sak elat, saxa, sakaransae, sakartii, sakasena və s. Qarabaşlar İkiçayarasındakı təcrübəni də, vərdişləri də, panteonu da özləri ilə hər yerə daşıyaraq yaşadırdılar. Azərbaycanda Strabonun «Armeniyanın yaxşı torpaqları» adlandırdığı ərazidə qurulan dövlət Sakasin, yaxud Sakasena adlanırdı. Sakasena xalis türk ölkəsi idi, türk damğası bu ölkənin adına elə vurulub ki, onu başqaları ilə qarışıq salmaq, sadəcə, mümkün deyildir.

Təəssüf ki, Sakasenanı erməniləşdirmək, hətta farslaşdırmaq cəhdləri olmuşdur. Bəzi tədqiqatçılara görə, «şen» sözü erməni dilindədir və mənaca «kənd» deməkdir. Digər tədqiqatçılar isə belə iddia edirlər ki, «şen» fars dilindəki şauna (yaşayış məntəqəsi) sözündən yaranıb. Problemə aydınlıq gətirən Azərbaycan alimi Q.Qeybullayev çox doğru olaraq qeyd edir ki, Sakasena-Şakaşenadakı sen-şen komponenti türk-monqol dillərində mənsubiyyət bildirən sin, çin və şin suffiksinə uyğundur. Alim fikrini sübut etmək üçün peçeneq tayfalarından olan kabukşın etnonimini, xəzərlərin şəhəri Saksin və Sarışın toponimlərini misal göstərir. Q.Qeybullayevə görə, əslində, sözün düzgün yazılış forması Sakasindir, vaxtilə Arrian da ölkənin adını məhz Sakesin şəklində göstərmişdir.

Məlumat üçün bildirim ki, şen sözü təkcə ermənilərdə deyil, türklərlə qonşu olan bütün xalqlarda, o cümlədən gürcülərdə, kürdlərdə, tatlarda «kənd», «yaşayış məntəqəsi» mənasında bu gün də işlənməkdədir. Ona görə də Sakasini Şakaşena formasına salıb

erməniləşdirmək cəhdləri iflasa məhkumdur. Erməni mənbələrində Sakasena erməni torpaqları kimi göstərilir. Bu yanlış fikrin yaranmasına başlıca səbəb Strabonun sakların «Armeniyanın yaxşı torpaqlarını» işğal etməsi barədə ifadələri səbəb olmuşdur.

Buna münasibət bildirən Q.Qeybullayev yazır: saklar Ön Asiyaya e.ə. VIII-VII əsrlərdə gəlmişdilər, ermənilərin əcdadları da, bir konsepsiyaya görə bu gün yaşadıqları ərazilərə təxminən elə bu vaxtlar köçmüşlər. Təbii ki, Sakasena e.ə. VII əsrdə, yaxud ervanditlərin hakimiyyəti dövründə erməni torpaqlarında yerləşə bilməzdi.

O zaman Strabon səhvə yol vermişdir? Q.Qeybullayev yazır: məsələ burasındadır ki, Strabon öz əsərində iki dəfə Hirkan (Xəzər) dənizindən aşağıda, cənubda olan, iki dəfə isə Kür və Araz çayları arasında yerləşən Sakasena barədə məlumat verir və sakların hücumlarından danışarkən qeyd edir ki, «saklar Armeniyanın yaxşı torpaqlarını işğal edərək onu öz adları ilə Sakasena adlandırdılar». Strabon həmçinin Sakasena ilə birlikdə Kaspiana və Araksena ərazilərini də erməni vilayətləri hesab edirdi.

Q.Qeybullayev daha sonra yazır: tədqiqatçılar indiyəcən belə bir fakta diqqət yetirməmişlər ki, Sakasena, Araksena və Kaspiana Strabonun istinad etdiyi mənbə zamanında həm Albaniyanın, həm də Atropatenanın ərazisində mövcud idi. Ermənilər e.ə. II əsrin başlanğıcında Kür və Araz çayları ərazisində Albaniyaya məxsus olan Sakasena, Araksena və Kaspiananı deyil, Atropatena torpaqlarında yerləşən vilayətləri





işğal etmişdilər. Hələ Strabondan dörd əsr əvvəl Herodot yazırdı ki, Armeniya Dəclə və Fərat çaylarının başlanğıcını götürdüyü dağlıq ərazidə yerləşirdi.

Strabonun nişan verdiyi «yaxşı torpaqlar» heç vaxt Ermənistanın tarixən formalaşmış sərhədləri daxilində olmamışdır.

Yenidən mövzuya qayıdaq. Azərbaycan ərazisində sakların izini saxlayan çoxlu yurd yerləri qalmaqdadır. Saka=tala–sak talası, Qan-zak (müasir forması Gəncə) – sak torpağı, Sakatlı (Saatlı) – saka məxsus olan, Pirsakat (Pirsaat) – sak ocağı, Arsak, Biləsakan və s. və i. a. Qax rayonu ərazisində Sakandərə indi də vardır. Təsadüfi deyil ki, Cənubi Azərbaycan kəndlərindən biri Sakan, Bakıətrafı kəndlərdən biri isə Şaqan adlanır. Sakların türkdilli olmalarına damğasını vuran ən böyük fakt dünyanın müxtəlif uclarında yerləşən əksər türk xalqlarında sak adı ilə bağlı yaşayış məntəqələrinin və çeşidli tayfa adlarının mövcudluğudur. Azərbaycanda Şaki (Şəki), qazaxlarda şaqa, özbəklərdə şakay (şekey), qırğızlarda saka (saqe), türkmənlərdə şaklar (sakın cəm forması), noqaylarda şaukay, xakaslarda sakay (saqay), yakutlarda saxa və s. Maraqlıdır ki, türkdilli Xakasiyada iki ləhcədən biri məhz sakların adı ilə saqay adlandırılır. İndi bu ləhcədə 60 min nəfər əhali danışır.

# X FƏSİL

## «ÇAR SKİFLƏRİ» VƏ ŞUMER PANTEONU

Skiflərlə bağlı minlərlə tədqiqat işi yazılıb, bir-birindən fərqli onlarla mülahizələr söylənilib. Onların mənşəyi, etnonimin mənası, skiflərin Ata yurdu ilə bağlı alimlər arasında bu günəcən yekdil qənaət yoxdur.

Skiflər barədə məlumat verən Herodot öz əsərində daha qədim mənbəyə, Aristeyə istinad edir. Aristey yazır ki, skiflər issedonların təzyiqi altında öz torpaqlarını tərk etməyə məcbur qaldılar və gedib kimmerlərin yaşadıqları əraziləri tutdular. Skif torpaqlarına səfər edən Aristey görünür öz poemasını ilk mənbədən informasiya toplayaraq yazmışdır. Lakin T.Sulimirskiyə görə, skiflər haqqında ilkin xəbəri Aristey və Herodotdan hələ çox qabaq, e.ə. VIII əsrdə Hesoid vermişdir.

Maraqlıdır ki, Assur yazılarında aşquzayların öz qonşuları tərəfindən sıxışdırıldığı və onların gedib qimirayların torpaqlarını zəbt etdikləri bildirilir. Herodotun Aristeyə istinadən verdiyi məlumatla Assur mənbələrindəki xəbərin identikliyi göz qabağındadır. Assurlar təkcə skif əvəzinə aşquzay, kimmerlər əvəzinə qimiraylar yazmışlar. Yəni bu iki məlumatda adlar dəyişik olsa da, eyni xalqdan söhbət getdiyi aydınlaşır. Bunu təsdiqləyəcək başqa bir fakt Tövratda skifin aşquz, assur mənbələrində aşquzay, babil mətnlə-





rində isə işquzay adı altında keçməsidir. Sonradan da görəcəyimiz kimi, əslində söhbət ondan gedir ki, yunan dilindən transkripsiyada tədqiqatçılar tayfanın adını səhv olaraq «skif» yazmışlar və bu yanlışlıq uzun yüzilliklər boyudur davam etməkdədir.

Linqivistik mənsubiyyətinə görə skiflərin İran dillərinə yaxın olduğu bildirilir. Bütün skiflərin irandilli olması barədə ideya əksər tədqiqatçılar tərəfinndən qəbul edilmişdir. Halbuki skif dilində bu günəcən heç bir yazı mətni tapılmayıb. Bu dilin qrammatik quruluşu və leksik tərkibi də, material yoxluğu üzündən, kifayət qədər araşdırılmamışdır. Skif dili barədə fikir söyləməyə imkan verən yeganə mənbə antik qaynaqlarda mühafizə edilən toponim və etnonimlərdir.

Bütün bunlara baxmayraq, sovet və qərb alimləri iddia edirlər ki, skif dili deyəndə İran dillərinin şimal-şərq qolunu təşkil edən İran dialektləri nəzərdə tutulur. İranşunaslar osetin dilini skif dilinin dialekti hesab edirlər. Heç bir dəlil-sübuta söykənmədən bu yanlış ideya bu gün də hakim mövqe tutmaqdadır.

Halbuki skiflərə məxsus toponimləri, etnonimləri və antroponimləri ötəri nəzərdən keçirdikdə belə burada türk «izləri» daha qabarıq nəzərə çarpır. Məsələn, Skifiya dövlətinin formalaşdırılmasını başa çatdıran (e.ə. 340) çar Atey adlanırdı. Atey – Ata isə türk mənşəli sözdür və ta qədimdən başçı, lider anlamını verir. Küloba, Soloxa, Karaqadeyaşx, Çertomlık və başqa şəhər adları türk dilləri baxımından çox asanlıqla şərh olunur. İranşünaslar isə bütün bunları görmür və qəbul etmirlər. Hətta iş o yerə çatıb ki, bəzi

tədqiqatçılar (məsələn, R.Kuzeyev) yeni eranın başlanğıcına qədər Avrasiya çöllərində, Qərbi Sibirdə və Qazaxıstan ərazisində yaşayan xalqlar arasında, ümumiyyətlə, türkdilli tayfaların olmadığını iddia edirlər.

Halbuki, hələ Strabon yazırdı ki, Kaspi dənizindən şərqə doğru yaşayan əksər tayfalar day adlanır. Onlardan bir qədər də şərqə tərəf massagetlər və saklar yerləşmişlər. Qalan tayfaların hər birinin öz xüsusi adı olsa da, hamısı bir yerlə skif çağırılır.

Dayların türk tayfaları olduğu əksər tədqiqatçılar tərəfindən qəbul edilmişdir. Dayların buraxıb getdikləri bir sıra toponimlər bu gün də Azərbaycan ərazisində qalmaqdadır. Kürdəmir rayonu ərazisində, Kür çayının sol sahilində yerləşən çox qədim tarixə malik bir kənd var: Daykazımlı. Mən ulu əcdadlarımızın yadigar qoyub getdiyi bu kənddə doğulmuşam. Day tayfalarının başqa bir imzası Salyan rayonundakı Daykənd adında «ilişib» qalıb.

Skiflərin hansı dildə danışması barədə antik dövrdən üzübəri verilən məlumatlarda üç başlıca istiqamət diqqəti cəlb edir.

1) skiflər irandilli xalqdır;

2) skiflər türk-monqol dil ailəsinə mənsubdur;

3) skiflər Qafqaz dillidir.

Yuxarıda da qeyd etdiyim kimi, skiflərin irandilli olması barədə ideya aşırı üstünlük təşkil edir.

Halbuki hələ antik dövrdən üzübəri bütün skif tayfalarının İrandilli olmadığı dönə-dönə vurğulanmışdır. Məsələn, Pliniy Sekund Böyük özünün «Təbii tarix» əsərində Skifiya ölkəsində yaşayan tayfaların





adını çəkir: udinlər, albanlar, sarmatlar, utidorslar, paxarlar, amazonlar və savramatidlər. Müəllif xüsusi olaraq vurğulayır ki, bu tayfaların hamısı İran dilində danışmırdı.

T.Sulimirski dönə-dönə bu fikrə qayıtmışdır ki, skiflər vahid xalq deyildilər. Onun nöqteyi-nəzərincə «skif» adı altında eyni həyat tərzi keçirən, eyni mədəniyyətə malik olan və bəzən vahid kökdən törəyən müxtəlif köçəri tayfalar yaşamışlar.

F.V.Müller bütün tədqiqatlarının son nəticəsi kimi bu qənatə gəlmişdir ki, skiflərin irandilli olması faktı hələ öz təsdiqini tapmayıb.

Z.Həsənovun «Çar skifləri» monoqrafiyasında gəldiyi son nəticə belədir: «Biz belə düşünürük ki, bütün skiflər vahid dil ailəsinə mənsub deyildilər. Bizim ehtimalımıza görə «çar skifləri» və Herodotun «Korun oğlanları» adlandırdığı tayfalar Altay dil sisteminə daxildir».

Azərbaycan alimi Q.Qeybullayev 1991-ci ildə çap etdirdiyi «Azərbaycanlıların etnogenezinə dair» (rus dilində) monoqrafiyasında antik mənbələrə istinad edərək skifləri linqivistik mənsubiyyətlərinə görə üç qrupa bölür:

1) Yerli, irandilli skiflər. Onlar e.ə. II minillikdən mövcuddurlar və bu skiflərin varisləri müasir alanlar və osetinlərdir. Həmçinin Zaqafqaziyada yaşayan udinlər, iberlər, lazlar, kolxlar da qədim skiflərin törəmələri hesab olunur.

2) Asiyadan köçüb gələn türkdilli tayfalar, o cümlədən skolotlar.

3) Skifiya ərazisindən kənarda yaşayan, aralarında müxtəlif tayfaların, o cümlədən türklərin də olduğu və antik müəlliflər tərəfindən ümumiləşdirici adla «skif» çağırılan xalqlar.

Q.Qeybullayev «skif» etnoniminin iki başlıca mənasını bir-birindən ayırmağı məsləhət görür. Birincisi, Qədim Şərq (Assur) mənbələrində işlədilən iskutay konkret etnik tayfaları bildirir. İkincisi, antik mənbələrdə skit və skut kimi göstərilən etnonim bütün tayfaların ümumiləşdirici adıdır.

Müəllif daha sonra yazır: yunanlar üçün skif konkret etnik məna bildirmirdi, onlar skif (köçəri) həyatı keçirən bütün tanış tayfa və xalqları bu ümumiləşdirici adla çağırırdılar. Amma qədim farslar skif etnonimi ilə tanış olmadıqlarından Behistun qayaüstü yazılarında konkret tayfa adı bildirən sak sözündən istifadə etmişlər. Və alim son nəticə olaraq belə qənaətə gəlir ki, saklar (konkret olaraq Albaniyada yaşayan saklar) etnik mənşə etibarı ilə skif deyildilər, yalnız köçəri həyat tərzinə görə skif adlanırdılar.

Strabon yazırdı ki, tarixçilər öz tədqiqatlarında saklar barədə dəqiq və həqiqətə uyğun olan heç bir məlumat verməmişlər. Eyni sözləri skiflərə də aid etmək olar. Skiflərin dili, mənşəyi, Ata yurdu, skif-sak «ortaqlığı» ilə bağlı qızğın mübahisələr bu gün də davam etməkdədir. İki barışmaz cəbhə üz-üzə dayanmışdır.

Bəzi tədqiqatçılar skiflərin Ata yurdu kimi Altayı və Mərkəzi Asiyanı nişan verirlər. Bu ehtimala üstünlük verənlər həddən çoxdur. Amma başqa bir qrup





skif mədəniyyətinin Ön Asiyada təşəkkül tapdığı ideyasını irəli sürür. Bu tədqiqatçılar belə güman edirlər ki, skiflər Ön Asiyadan Mərkəzi Asiyaya və Sibirə köçmüş, onların bir hissəsi isə Şimali Qara dəniz ətrafında yerləşmişdir. V.V.Texov da bu fikri dəstəkləyir. O yazır: «Skif mədəniyyəti Ön və Kiçik Asiyadan dünyaya yayılmışdır». A.M.Xazanov güman edir ki, skif mədəniyyəti Ön Asiyada yerləşən ölkələrin sivilizasiyalarının təsiri nəticəsində formalaşmışdır. A.İ.Terenojskinin gəldiyi nəticə də bu fikirlə üst-üstə düşür. «Skiflər Şimali Qafqaza və Şimali Qara dəniz ətrafına gələnə qədər Ön və Kiçik Asiyada yaşayırdılar».

Skif-sak «ortaqlığı» məsələsində də alimlər arasında yekdil qənaət yoxdur.

Herodot yazırdı ki, Şimali Qara dəniz ətrafındakı skiflər özlərinə skolot deyirdilər. Herodota görə, skif adını onlara yunanlar vermişlər. İ.M.Dyakonov belə hesab edir ki, yunan sözü olan skif (skit) assuriya aşquzayına və babil işquzayına uyğun gəlir. İ.M.Dyakonov yazırdı ki, aşquzay və ya işquzay skiflərin özləri tərəfindən verilən addır, çünki nə assurlar, nə də babillər yeni tayfalara öz adlarını qoya bilməzdilər. Etnonimə şərh verən alim belə hesab edir ki, aşquzay (işquzay) yerli skudatha etnoniminin fonetik deyiliş formasıdır və bu etnonim Şimali Qara dəniz ətrafında yaşayan tayfalara verilmiş skolot etnониminə uyğun gəlir. E.A.Qrantovski Dyakonovun o ehtimalını qəbul etmir ki, aşquzay və işquzaydakı əvvəlinci **a** və **i** suffiksini assurlar artırmış, etnonimdəki **d** hərfini **z** hərfi ilə əvəzləyərək sözü öz qrammatikalarına uyğunlaşdırmışlar.

Azərbaycan alimi Q.Qeybullayev də Dyakonovun ehtimalını yanlış sayır. Tədqiqatçı belə hesab edir ki, skolot və iskutay (iskuday) etnonimlərinin bir-biri ilə heç bir əlaqəsi yoxdur. Çünki «skolot» cəmi bir neçə tayfanın adı olduğu halda, antik müəlliflər bütün tayfalara bir yerdə «skif» deyirdilər.

Gördüyünüz kimi, sak-skif «ortaqlığı» ətrafında alimlərin qopardığı «tozanaq» elə xaos, hərcmərclik yaratmışdır ki, sanki problemin həllində heç bir çıxış yolu görünmür.

Gəlin biz də tapdanmış yolla gedərək «skif» etimologiyasına çıraq tutmağa çalışaq. Alimlərin rəyləri bu məsələdə xeyli fərqlidir. Məsələn, N.Marr hesab edir ki, skif qızılaxtaran və ya qızıl emal edən adama deyirlərmiş. Marra görə, qızıl çıxarılan yer isə Altaymış. V.İ.Abayev «skif» etnonimini German dillərindəki «skitya» sözü ilə eyniləşdirir və mənasının «ox atan» olduğunu iddia edir. Q.Qeybullayev skifin köçəri anlamına gəldiyini irəli sürür və belə hesab edir ki, Asiyadan köçüb gələn skiflər türk dilli, yerli xalq sayılan tayfalar isə irandillidir.

Həsən Ata türk tayfalarının skit-iskut formalı tələffüzünün «iskitürk» (əski türk) deyimindən yarandığını iddia edir. Ziya Gög Alpın fikrincə, skit adı türklərin müqəddəs sandıqları beş heyvandan birinin – itin adı ilə bağlı meydana gəlmişdir. Əfsanəyə görə, ilk türk xaqanı və İbrahim peyğəmbərin müasiri Oğuz xanla vuruşmuş it-Berak tayfası skitlərin əcdadı hesab olunur. Lakin başqa mənbələrdə bu məlumat yalanlanır.

Herodot skiflərin mənşəyi barədə dörd versiya irəli sürür. Onlardan ən populyar olan ikisi belədir.





Skiflərin ulu babası Tarqıtay baş allah Zevsin Börüsfen (börü qədim türk dillərində qurd deməkdir) çayının (indiki Dnepr) qızı ilə izdivacından doğulmuş, skif tayfaları isə Tarqıtayın üç oğlundan törəmişlər. Herodotun söhbət açdığı ikinci versiyaya görə, skiflər Heraklın üç oğlundan törəmiş üç tayfadan biridir. Maraqlı burasıdır ki, yunan variantında üç müxtəlif tayfadan yalnız biri skif adlanırdısa, əfsanənin skif variantında üç tayfanın hamısına bir yerdə skif adı verilmişdir.

Beləliklə, Herodotun danışdığı hər iki əfsanədə skiflərin kökü yunanlara bağlanır və onların tarix səhnəsinə çıxma vaxtı e.ə. ikinci minilliyin ortalarına aid edilir.

Herodot Skifiyadan topladığı əfsanələrə istinad edərək üçüncü versiya irəli sürmüşdür. Bu versiyaya görə Şimali Qara dəniz ətrafında yaşayan və skolot adlanan «çar skifləri» Zevsdən, yerdə qalan skif etnosları isə Herakldan doğularaq törəyib artmışlar.

İranşünas tarixçilər Herodotun «əhəmənilər skiflərin hamısına bir yerdə sak deyirdilər» sözlərini əsas gətirərək mahiyyətinə varmadan və heç bir dəlil-sübut göstərmədən skiflərin farsdilli saklar olduğunu iddia edir, onların tarix səhnəsinə çıxma vaxtını isə e.ə. ikinci minillikdən e.ə. birinci minilliyə çəkirlər.

Açıq etiraf edək ki, skif xalqları arasında türkdilli tayfaların olması barədə barmaqla sayıla bilən antik və müasir tədqiqatçıların «solo çıxışları» iranşünas tarixçilərin «xoru» içərisində demək olar ki, eşidilmir.

Fikrimizcə, sak-skif eyniliyini araşdıran əksər tədqiqatçıların başlıca səhvi problemin əsil mahiyyətini müəyyənləşdirməyə cəhd göstərməmələridir. Linqivistik cizgilərin bəlirlənməsi uzun və mürəkkəb tarixi proseslər nəticəsində meydana çıxır. Zənnimcə, problemin həllindəki ikinci və daha böyük yanlışlıq dillərin yaranması ilə bağlı nəzəriyyələrin arasındakı dərin uçurum üzündən baş vermişdir.

Bu gün elm dillərin ailə qrupları üzrə təsnifatlaşdırılması ideyasından imtina etməkdədir. Bu ideyaya görə dillər bir-birindən asılı olmayaraq müxtəlif yerlərdə yaranmışdır. Amma linqivistik texnologiyanın təkmilləşməsi sayəsində dilçi alimlər bir-birindən on minlərlə kilometr aralıda yerləşən və tarixən heç vaxt görüşməyən xalqların leksikasında qəribə şəkildə bir-birinə bənzəyən həm oxşar səslər, həm də çoxlu oxşar sözlər müşahidə etməyə başladılar. Lakin bu, nə elmi, nə də məntiqi baxımdan mümkün deyildi, dillərin bir-birindən asılı olmayaraq müstəqil şəkildə yaranması ideyasının həm ruhuna, həm mahiyyətinə zidd idi. Beləliklə, alimlər ilk dəfə protodil ideyası barədə ciddi şəkildə düşünməyə başladılar və bu ideyanı dəstəkləyən genetiklərin, etnoqrafların, arxeoloqların, linqivistlərin sayı getdikcə çoxaldı.

Protodil – etnosun danışdığı erkən dil deməkdir. Qədim Şumer mətnləri də, Tövrat da eyni sözləri yazır: əvvəl bir dil və bir ləhcə vardı. 1994-cü ildə Berklidəki Kaliforniya Universitetinin alimləri uzun illərin tədqiqatından sonra bu qənaətə gəldilər ki, yüz min il əvvəl insanlar eyni dildə danışırdılar. Bu barədə «Erkən türklər. Onlar kimdir?» fəslində daha geniş və ətraflı söhbət açdığımız üçün təkrara yol vermədən qısaca deyək ki, qədim Şumer sivilizasiyasının ilkin dövrlərində İkiçayarasında kəskin linqvistik dialektlər hələ yaranmamışdı, burada yaşayan bütün əhali fərq qoymadan özünə qarabaş deyirdi. İrandilli tayfalar Ön Asiyada yerli xalq deyildi, bir versiyaya görə bu torpaqlara yalnız e.ə. birinci minillikdə Mərkəzi Asiyadan köçüb gəlmişdilər.





Saklar isə bəşər sivilizasiyasının lap başlanğıcından mövcud idilər, bu üzdən bütün skifləri iranməşəli sak adlandıranların, bu tayfaların tarixini hər hansı minilliyə bağlamağa cəhd edənlərin təşəbbüsü bəri başdan iflasa məhkumdur. Əgər obrazlı desək, sakların bəşər sivlizasiyasındakı yerini və rolunu dəqiq müəyyənləşdirmədən skiflərin mənşəyini aydınlaşdırmaq mümkün deyildir.

Z.Həsənova görə, ümumiyyətlə, heç vaxt «skif» sözü mövcud olmayıb, bu termin etnik mənşəyindən asılı olmayaraq bütün köçəri tayfaları bildirmək üçün yunanların istifadə etdikləri etnonimin yanlış transkripsiyası sayəsində ortaya çıxmışdır. Qədim yunan dilini öyrənən və Herodotun «Tarix»ini orijinaldan oxuyan tədqiqatçı müəyyənləşdirib ki, tarixin atası öz kitabında «skif» deyil, «skuz» yazmışdır.

Əvvəlcə gənc alimin «Çar skifləri» monoqrafiyası haqqında bir neçə söz. Tədqiqatçı skifologiya sahəsində bu vaxtacan özünə möhkəm yer tutan «çin səddini» cəsarətlə vurub dağıtmağı və problemin üzərinə öz elmi zəkasıyla işıq salmağı bacarmışdır.

Zaur Həsənov bütün Azərbaycan istorioqrafiyası tarixində ilk dəfə yeni, olduqca orijinal metodologiyadan istifadə edərək təkcə fonemlərin, morfemlərin, söz və cümlələrin müqayisəsi yolu ilə deyil, həm də mifologiya və dil sistemlərinin qarşılaşdırılması yolu ilə dərin elmi təhlillər aparmışdır. Zaur Həsənovun əsəri skifologiya tarixində yeni söz, yeni baxışdır. Dünyanın və ölkəmizin ən tanınmış ziyalıları, tarixçiləri və digər elm adamları bu tədqiqat əsərinə çox yüksək qiymət vermişlər.

Tarix elmləri doktoru, görkəmli Azərbaycan alimi və skifoloqu, mərhum Q.Qeybullayevin «Çar skifləri» kitabına yazdığı rəydə deyilir: «Z.Həsənov rus tarix-arxeologiya ədəbiyyatında «skif» kimi işlədilən termini Herodotun e.ə. V əsrdə yazdığı «Tarix» kitabından çox doğru olaraq «skuz» kimi oxumuşdur. Birmənalı şəkildə deyə bilərəm ki, Z.Həsənovun əsəri elmdə yeni sözdür».

«Skif» etnoniminin strukturuna və yunanca yazılış formasına diqqət çəkən Zaur Həsənov öz şərhində belə deyir: Herodotda sözün iki cür yazılış şəklinə rast gəlirik: skuzes (tək halda) və skuzay (cəm halda). Herodotun işlətdiyi EkuÖng terminin fonetik oxunuşu rus dilinə belə çevrilmişdir:

≤ (s), k (k), U (i), Ö (f) = skif

Etnonim ingilis tərcüməçiləri tərəfindən «Scyth» (skuz) kimi tələffüz olunmuşdur. Burada **Ö** ruslarda





olduğu kimi **f** deyil, orijinala daha yaxın olan yumşaq **z** səsi ilə əvəzlənmişdir.

Türkcəyə tərcümədə də etnonimin fonetik oxunuşu türk dillərinin qrammatik qaydalarına uyğunlaşdırılıb. Türk istorioqrafiyasından (tarixi mənbələr haqqında elm) bəzi samitlərin əvvəlinə **i** səsinin artırıldığı bəllidir (Məsələn, stəkan – istəkan, smarıc – ismarıc, Rəvan – İrəvan və s.) Türk dillərinin ahəng qanununa görə sonra gələn sait mütləq əvvəlkinə uyğunlaşdırılır, yəni skuzdakı «u» **i** kimi tələffüz olunacaqdır. Rusların **f**, ingilislərin z kimi oxuduqları söz sonluğu **th** türk dilində **t** kimi səslənmiş və beləliklə, yunan skuzu türkcədə **iskit** formasına düşmüşdür.

Assuriya mətnlərində termin aşquzay, (İ.Dyakonova görə, həm də asquzay), babillərdə işquzay kimi verilir. Tövratda etnonim aşquz şəklində xatırladılır (daha dəqiq desək - aşkenaz).

Beləliklə, tarixçilər arasında daha çox skif kimi tanınan etnonimin müxtəlif dillərdə fonetik oxunuşu fərqlidir, bu termin skuz, aşquz, aşquzay, işquzay, skit, iskit, skut və iskutay sözlərinə identik olmaqla, əslində, türk quz (oğuz) tayfalarının adını bildirir. «Bu, skifologiya tarixində əsil inqilabdır!» desək, heç də yanılmarıq. Zaur Həsənovun xidməti sayəsində skiflərin mənşəyi ilə bağlı uzun onilliklər boyu gedən mübahisələrə, yanlışlıqlara, onların irandilli olması barədə hegemon mövqeyə ağır, sarsıdıcı zərbə vurulmuşdur!

İndi də skifologiya probleminin bu günəcən az aydınlaşdırılmış başqa bir yönünə diqqəti cəlb etmək

istəyirəm. «Çar skifləri» kimdir, onları niyə belə adlandırmışlar?

Herodotun söylədiyinə görə, «çar skiflərinin» soykökü yunan Olimpinin baş allahı Zevsə və onun oğlu Herakla bağlıdır. Başqa bir versiyada bu tayfaların erkən tarixi Tarqıtayın oğlanlarına, konkret olaraq Kolaksaya gedib çıxır. Maraqlıdır ki, Herodotun söylədiyi hər iki versiyada tayfa iki başlıca qola ayrılır: «çar skiflərinin» soy babası Tarqıtay baş allah Zevsdən, yerdə qalan skiflər isə yarımallah Herakldan törəyiblər.

Tədqiqatçıların yekdil qənaətinə görə skiflər arasında tək bircə tayfa birləşməsi, adının sonunda «qur-kur» olanlar «çar skifləri» adlanırdı. Adından da göründüyü kimi, bu tayfalar idarə edən, başçılıq edən, hökmdarlıq edən tayfalardır və onların hamısı bir kökdən, ilahi kökdən, hökmdar kökündən gəlirlər. Maraqlıdır ki, həm yunan, həm də skif versiyasında tayfanın kökü «göylərlə» bağlanır. Niyə?

Skif tarixinin yunan mifologiyasına istinadən şərhi bir neçə səbəbə görə ümidverici deyildir. Birincisi, yunan mifologiyasının özü Şumerdən qaynaqlanır. İkincisi, skiflər (oğuzlar) yunanlardan daha qədim kökə malikdirlər. Üçüncüsü, skif mifologiyasında elə özünəməxsus cəhətlər vardır ki, bunun yunan mifologiyasında qarışılığı yoxdur.

Gəlin əvvəlcə aydınlaşdırmağa çalışaq: skiflərin sıravi və hökmdar tayfalara bölünməsi nə ilə bağlıdır?

Bu sualın cavabını e. ə XVI əsrdən çox-çox qabaqlarda, qədim Şumer mətnlərində axtarmaq lazımdır. Əgər xatırlayırsınızsa, «gəlmələr» iki zümrəyə bölünmüşdülər: hökmdar nəslindən gələn dinqirlər və sıravi anunnakilər. Sonra Yer üzündə də belə zümrənin bünövrəsi qoyuldu – «allahlarla» izdivacdan yaranan yarımallahlar nəsli və sadəcə, yer insanları. Bu barədə sizə əvvəlki fəsillərdə məlumat vermişdik.

Əgər Daşqınaqədərki dövrdə anunnakilərin Yer qadınları ilə evlənməsi «allahların» qəzəbinə səbəb olurdusa, Daşqından sonra qaydalar bir qədər yumşalmışdı, görünür dəhşətli fəlakətin acı nəticələri buna səbəb olmuşdu. İndi, hətta «allahlar» da tez-tez Yer qadınları ilə izdivaca girir və yalnız «ilahi izdivacdan» doğulanları hakimiyyətə gətirirdilər. Bu məqsədlə Uruk şəhərində «gecə əyləncə otağı» - Qİ.QU.NU yaradılmışdı. Bu əyləncə otağına tez-tez Ut (başqa variantlarda Od, Utu, Şamaş) İnanna (İştar), Ninsun və başqaları ilə yanaşı, «ilahi izdivac»dan doğulan «yarımallah» kişilər də gəlirdilər. Görünür, məhz belə bir görüşdən sonra Utun Yer qadınından bir oğlu olmuşdu – Meksiaqqaşer. Meksiaqqaşer əvvəlcə Uruk məbədinin kahini idi, sonra atasının və bibisi İnannanın yardımı ilə Daşqından sonra Yer insanları arasından seçilən ilk hökmdar və baş kahin oldu. Beləliklə, İkiçayarasında yeni sülalənin, «yarı allah, yarı insan» olan hökmdar sülaləsinin bünövrəsi qoyuldu.

Ut (Şamaş) və İnanna Enlilin kiçik oğlu Nanna (Sinin) əkiz övladları idi. Urukun beşinci hökmdarı Gilqamış (Bilqamıs) isə Urukun üçüncü hökmdarı Luqalbanda ilə ilahə Ninsunun (hərfi mənası vəhşi inək) izdivacından doğulmuşdu. Ninsun Ananın kiçik qızı,

həm də Enlilin bacısı Bau ilə Enlilin böyük oğlu Ninurtanın məhəbbətindən dünyaya gəlmişdi. Şumer əfsanələrində bir-birinə sadiq olan yeganə cütlük kimi qələmə verilən Ninurta və Baunun iki oğlu, yeddi qızı vardı. Ninsun bu qızların ən böyüyü idi. Beləliklə, göründüyü kimi, göylərlə yerin ittifaqından, gəlmələrlə yerlilərin izdivacından doğub törəyən «yarımallahlar» birbaşa Ananın və Enlilin şəcərəsinə bağlı idilər və buna görə də özlərini hökmdar nəsli sayır, törəyib artdıqca, bu titulu fəxrlə gəzdirirdilər.

Orxon-Yenisey abidələrinə diqqətlə nəzər saldıqda, çox maraqlı bir hadisənin şahidi oluruq. Qədim türk qəbilələrinin hamısında ölkənin hökmdarı istisnasız olaraq bu təyinlə müşayiət olunur: «tanrısifət», «tanrı tək tanrı yaratmış», «tanrı tək göylərdə doğulmuş» və s. və i. a.

Qədim Şumerdən başlayan bu ənənə, türk hökmdar tayfalarının tanrıdan yaranması barədə hekayət uzun minilliklər boyu bir an belə unudulmamış və nəsillərdən nəsillərə ötürülərək yaşadılmışdır!

Hökmdar tayfası ideyasının yunanlardan deyil, Şumerdən qaynaqlandığını sübut edən başqa bir fakt rəqəmlərin simvollaşdırılmasıdır. Rəqəmlərdən mətnləri möhürləmək, onların simvolik mənasından yazı dili kimi istifadə etməklə, informasiyalar çatdırmaq məhz Şumer dühasının məhsuludur.

Z.Həsənov 1-dən 8-dək olan rəqəmlərin skif inancındakı yerini çox doğru müəyyənləşdirib. Bunların arasında 7 və 8 xüsusilə önəmlidir, çünki bu rəqəmlər skif dini baxışlarının təməl daşıdır. Bu ideyaya görə,





8 yalnız hökmdar tayfalara aiddir, 7 isə yerdə qalan bütün digər skifləri simvollaşdırır. Rəqəmlərin belə möcüzəli bölgüsünə səbəb nə ola bilərdi?

Bu tapmacanın üstündən sirr pərdəsini yenə qədim Şumer əfsanələri götürür. Şumer əfsanələrinə görə, səkkiztilli ulduz Yerin və Göyün hökmdarının – Ananın simvolik işarəsidir. Yəqin elə buna görə də 8 rəqəmi müqəddəs sayılmış, hökmdar tayfalarını göylərin, onun hökmdarı Ananın himayə etdiyinə dərin inam yaratmışdır.

Yeddi rəqəmi Şumerdə Yer kürəsinin simvoludur. Şumerlər planetləri dışarıdan Günəşə doğru sayırdılar və Yer bu sırada yeddincidir. Ananın böyük oğlu Enlil Yer üzünün baş hökmdarı sayıldığından, bütün konusvari möhür rəsmlərində onun başı üstündə mütləq yeddiтilli ulduz təsvir olunur. Beləliklə, 7 Şumer panteonuna görə Yer üzünün baş hökmdarı Enlilin simvoludur və hökmdar tayfalarına daxil olmayan bütün skiflərin onun himayəsi altında olduğuna bir inancdır.

Beləliklə, Şumerdən qaynaqlanan skif inancına görə, 8 göyün, 7 isə yerin rəmzidir və «çar skifləri»-nin ilahi bağlantısına, insanların Göylə Yerin ittifaqından doğulduqlarına işarətdir!

Dünyanın heç bir xalqında, o cümlədən skiflərin guya Zevsdən və Herakldan törədiyini iddia edən yunanlarda 7 və 8 rəqəmlərinin skiflərdə olduğu kimi mənalandırılmasına bənzər bir hal qeydə alınmamışdır.

Məlumat üçün bildirim ki, yeddiтilli ulduz simvolundan Avstraliyanın və İordaniyanın bayraqlarında

da istifadə olunur. İngiltərənin müqəddəs Mixail və müqəddəs Georgi, habelə Türkiyənin Osmaniyyə ordenini də yedditilli ulduz bəzəyir.

Xristianlarda yedditilli ulduz Ruhun yeddi nişanəsi kimi tanınır: məhəbbət, sevinc, dözüm, şəfqət, rəhm, inam, səbr.

Samilərdə yedditilli ulduz «maqların ulduzu» adlandırılır. Doğrudur, onlarda yedditilli ulduz, həm də məhəbbət ilahəsi Astra Astartın (Misir mifologiyasındakı Astra Astart Şumer ilahəsi İnannanın adlarından biridir) simvolu idi.





## XI FƏSİL

# SAK – SKİF – QUZ ÜÇBUCAĞI, YAXUD QALİBLƏRİN MƏĞLUBİYYƏT YOLU

Əvvəlki fəsildə sak və skif etnonimlərinin bəzi məqamlarda eyniləşdiyinin şahidi olduq. Bu, hökmdar tayfalarından danışarkən, özünü daha qabarıq şəkildə büruzə verir. Həmçinin, onu da öyrəndik ki, «skif» fonetik oxunuşca elə «skuz», yaxud «quz» deməkdir. Beləliklə, bəşəriyyətin və xüsusilə, qədim türklərin tarixi barədə bütün konsepsiyaları alt-üst edən qəribə üçbucaq – yeni baxışlar sistemi alınır: saklar, skiflər və quzlar eyni kökdəndir, daha dəqiq desək, bir çox hallarda bu adlar altında eyni etnosdan və eyni tayfadan söhbət açılır.

Problemə aydınlıq gətirmək üçün əvvəlcə gəlin görək quz nə deməkdir, onun məna yükü nədir və etnonim öz mənşəyini haradan götürmüşdür?

Skif-skuz etnonimləri identik olduğuna və yalnız fonetik oxunuşca fərqləndiyinə görə quz (skuz) da ümumiləşdirici ad olmalı, köçəri həyat tərzini ehtiva etməlidir. Bəzi tədqiqatçılar bunun məhz belə ola biləcəyini istisna etmirlər. Məsələn, Z.Həsənov yazır: oq+üz birləşməsində «oq» oğlu, soy-kök anlamında, «üz» isə üz tutmaq, kiminsə arxasınca getmək mənasında ola bilər. Bu halda «oğüz» yolçu, yollar oğlu de-

mək olacaqdır ki, bu da onların həyat tərzinə tamamilə uyğun gəlir.

Bəzi tədqiqatçılar skuz etnonimini rus və yunan dillərindəki «skitalets» və skit sözləri ilə müqayisə edirlər. Həmin sözləri isə hər iki dildə «köçəri» deməkdir. B.Dal elə belə də yazır: «Yunan mənşəli «skit» rus dilindəki «skitalets» felinə uyğun gəlir».

Tədqiqatçılar etnonimin ağıla gələn və gəlməyən bütün məna çalarlarını araşdırmağa çalışmışlar. Onlarla səhifədən ibarət bu tədqiqat işlərini qısa sətirlərdə belə təqdim etmək olar:

Oğuz – ilk süd, bulama;

Öküz – qoşqu heyvanı, tayfanın totemi;

Öqüz – çay, etnosun sitayiş yeri;

Uuz, uquz – çay, qədim türkcədə sututar;

Küz – payız;

Quz – dağın gün düşməyən tərəfi;

Qüzey – şimal, yaxud şimalda yaşayan xalq;

Oq+uz – oq qədim türklərdə soy bildirir, bu gün işlətdiyimiz «oğul» sözü də bu kökdən yaranmışdır. Tayfa birləşmələri quz adlandığına görə «oğuz» uz tayfalarından törəyənlər deməkdir (Z.Həsənov).

Oğuzda «uz» cəm şəkilçisidir, yəni «oqlar» deməkdir (F.Cəlilov).

Kuz şimal, quz isə dağın gün düşməyən tərəfi olduğundan, quzlar «şimal xalqı» ola bilər. Orta Asiyada formalaşan quzlar şimal istiqamətinə üz tutdular. Qədim çin mənbələrində həmin xalqın adı «xu» kimi keçir. Xu isə çin dilində «şimal barbarları» deməkdir (Rəşid əd-Din).





«Doğulandan bir il sonra İsa peyğəmbər kimi dil açıb belə dedi: «Hökmdar çadırında doğulduğum üçün məni Oğuz çağırın!» (Rəşid əd-Din).

Tədqiqatçılar etnonimin digər məna çalarlarını da aydınlatmağa çalışmışlar. Məsələn, Z.Həsənova görə o – quz birləşməsində «o» qədim türkcədə «hörmətli ağa» anlamında işlədilib. Bu halda oquz «böyük quz», «şanlı, şöhrətli quz» ola bilər.

«Oquz» versiyasında etnonim «çaya sitayiş edənlər» anlamına gəlir. Fikri möhkəmləndirmək üçün Herodotdan misal çəkilir. Herodotun yazdığına görə «çar skifləri» suya sitayiş edirdilər.

Etnonimin «öküz» versiyasından yarandığını iddia edənlər də vardır. Onların qənaətincə skif (oğuz) və buryat inancına görə bu tayfaların əcdadı öküz olmuşdur.

M.Seyidovun oğuzla bağlı çoxlu yozumlarından biri belədir: o+q+uz, yəni «bacarıqlı, qadir, ilahi işıq, oda hakim olan».

Kamil Vəli Nərimanoğlu və Fəxri Uğurlunun hazırlayıb çap etdirdikləri «Oğuznamələr» kitabına yazılan «Ön söz»də etnonimin maraqlı bir təfsiri özünə yer alıb: «Oğuz səhərlə, dan işığıyla peyda olursa, onda bu ad «Ağ üz» kimi yozula bilər. «Ağ» sözünün «ok» – «oğ» şəkli türk dillərində indi də qalmaqdadır; «uz» sözü isə ahəng qanununa uyaraq «üz» şəklinə düşmüşdür. Yaxud da ola bilsin «uz» sözü elə əvvəldən «uz» şəklində olmuşdur».

Çox təəssüf ki, müəlliflər «ağuz»un nə anlama gələ biləcəyi üzərində dayanmamışlar.

Halbuki etnonimin mənşəyi baxımından bu, çox önəmlidir. Tədqiqatçılar «Oğuz»un bütün məna çalarlarını ələk-vələk etsələr də, «ağuz» terminini ətraflı araşdırmağa heç kəs səy göstərməmişdir. (İlkin süd, bulama mənasından başqa). Fikrimcə, «oğuz»un ilkin yaranma səbəbi məhz bu deyimlə bağlıdır.

Azərbaycan alimi Q.Qeybullayev oğuzları hökmdar tayfaları olan oqurlarla eyniləşdirir. Alim belə hesab edir ki, «oqur» fonetik oxunuşca elə «oquz» deməkdir, saraqurlar isə sarı oquzlardır. Macar türkoloqu Y.Nemet onoqur etnoniminin «on oğuz» olduğunu bildirir.

Mən bir qədər yuxarıda müxtəlif tədqiqatçıların quzla bağlı ipə-sapa düzdüklərini təsadüfən yan-yana yığmadım. Bu fikirləri diqqətlə izlədikdə çox incə mətləblər üzə çıxır.

Məsələn, əksər tədqiqatçılar uz, quz və oğuz etnonimləri arasında bərabərlik işarəsi qoyurlar. M.Artamanov yazır ki, uz, quz və oğuz sözləri eyni etnosa verilmiş müxtəlif adlardır.

Bu fikir əsasən doğru olsa da, etnosun linqvistik mənsubiyyəti baxımından qeyri-dəqiqdir. Sözlərimi aydınlaşdırmağa çalışım. Skifoloqlar belə hesab edirlər ki, skif adı altında müxtəlif dilli tayfalar birləşmişlər. Herodota görə bu tayfalar ən azı 7, Strabona görə 70, dəqiq olmayan digər məlumata görə isə, hətta 300 dildə danışırdılar. Skif skuz (quz) sözünün yanlış tələffüz formasıdırsa, deməli söhbət quzların müxtəlif dilli olmasından gedir. Halbuki bütün tədqiqatçıların yekdil qənaəti bundan ibarətdir ki, oğuzlar türkdilli





tayfalardır. Onda belə çıxır ki, «quz», «oğuz»la identikləşə bilməz. L.Qumilyova görə, quzlar qədim turanların, sarmatların və alanların birbaşa varisləridir. Bir çox antik və müasir tədqiqatçılar həm turanları, həm sarmatları, həm də alanları irandilli xalq hesab edirlər. Amma oğuzlar irandilli deyil, bu, artıq sübuta ehtiyacı olmayan aksiomadır. Bəs onda həqiqət haradadır? Elə mətləbin incəliyi və «oğuz» etnoniminin «sirri» də burada üzə çıxır.

Z.Həsənov çox doğru olaraq yazır ki, bütün skiflər deyil, yalnız «çar skifləri» türk dilində danışırdılar. Əslində, bu sözlər məhz oğuzlara aiddir, yəni bütün quzlar deyil, yalnız hökmdar quzlar türk dilli idilər. Görünür, etnosun adı da buradan yaranmışdır: ağ quzlar! «Ağ» qədim türk dillərində hökmdarlığı, ilahi ucalığı, göylərlə bağlantını göstərirdi. «Ağ quz»un tələffüz olaraq «ağuz» və «oğuz» şəklinə düşməsi isə zamanla və yaşamla bağlı olan təbii bir prosesin nəticəsidir. Əvvəlki fəsillərdə dediyimiz kimi, hökmdar tayfalarının közərən işığı çox uzaq keçmişdən, Şumerdən süzülüb gəlir. Şumerdə ilkin olaraq ağ saklar hökmdar tayfaları hesab olunurdu. Bu gələnək sonrakı minilliklər boyu davam etdi, ad dəyişsə də, mahiyyət dəyişmədi, ağ saklar ağ quzlara, ağ quzlar ağ hunlara, ağ hunlar ağ sarmatlara dönüşdü...

Beləliklə, aydın görünür ki, sak, skif, hun, quz, sarmat adı altında keçən bütün tayfalar deyil, yalnız hökmdar tayfalar türkdillidir və onların seçilməsi üçün bəlli bir simvol vardır: «ağ», yaxud «qur-kur». «Ağ»la başlayan etnonimlər ümumiləşdirici, «qur-kur»la qurtaran etnonimlər isə konkretləşdirici mahiyyət daşıyır.

Buradan çıxara biləcəyimiz ən doğru və eyni zamanda, ən heyrətamiz nəticə ondan ibarətdir ki, türkdilli tayfaların kökü, bir çox tədqiqatçının israrla sırımaq istədiyi kimi, heç də eramızdan əvvəlki birinci minilliyə deyil, daha uzaq keçmişə, ağ saklarla başlayan Şumer dönəminə gedib çıxır.

Herodot skiflərin soybabası Tarqıtayın e.ə. XVII-XVI yüzilliklərdə yaşaya biləcəyini qeyd edirdi. Bu, eyni zamanda, quzların tarixidir, çünki skif deyilən etnos yoxdur, skif skuzun yanlış transkripsiyasıdır.

Lakin problem tədqiqatçıların «yüngül əli ilə» burada da xeyli qəlizləşdirilmişdir. Məsələ burasındadır ki, skiflərin soybabası Tarqıtay hesab olunduğu halda, oğuzların soybabası Dib Yavku xan göstərilir. Yəni oğuzlar müstəqil etnos hesab olunur və onların təşəkkül tarixi daha yaxın keçmişə çəkilir.

Məlumat üçün deyim ki, sovet alimləri oğuzların tarixinin eramızdan əvvəlki dönəmə gedib çıxa bidəcəyi ehtimalını, ümumiyyətlə, yaxın qoymurdular. S.P.Tolstovun, V.V.Bertoldun, V.A.Qordoyevskinin, S.Q.Ağacanovun, F.Y.Yeremeyevin və başqalarının əsərlərində oğuzların çoğunluqla uyğurlar olduğu, eramızın VII əsrində türk xaqanlığı tərkibində «doqquz oğuz» tayfa ittifaqı kimi meydana gəldiyi, IX əsrdə qırğızlar tərəfindən sıxışdırılaraq Çinin Sintszyan və Tansu əyalətlərinə köçdüyü, X əsrdə isə Sır-Dəryanın orta və aşağı axarlarından şimalda Volqa və Don çayına, cənub-qərbdə Manqışlağa, qərbdə Xəzər dənizinə kimi yayılan geniş bir ərazidə dövlət qurduqları göstərilir. Bu alimlərin iddialarına görə, oğuzlar Azərbaycan ərazisinə yalnız XI əsrin 30-40-cı illərində köçüb gəlmişlər.





Lakin həm antik, həm də son illərin tədqiqatları sovet alimlərinin bu yalanını kifayət qədər tutarlı dəlillərlə ifşa etmişdir. Bu tədqiqatçıların əsərlərində Şimali Qara dəniz sahillərində yerləşən tayfaların e.ə. VII əsrdə cənub istiqamətinə möhtəşəm yürüşündən bəhs olunur, amma fərq təkcə bu yürüşü keçirən tayfaların adındadır. Bəziləri onları skif, digərləri isə oğuz kimi tanıdırlar.

Q.A.Startanovski yazır ki, e.ə. 720-ci ildə skiflər indiki Türküstanın qərbindən Qara dəniz sahillərinə gəlmişlər, e.ə. 623-cü ildə Midiyanı işğal etmişlər. Rəşid əd-Din də eyni vaxtı və eyni əraziləri göstərir, amma öz əsərində skiflərdən deyil, oğuzlardan bəhs edir. Onun yazdığına görə, bu fakt yəhudi tarixçiləri tərəfindən də təsdiqlənir. Tövratda qeyd olunur ki, Yaxın Şərqdə qurulan ilk türk dövləti Aşquz adlanırdı.

«Türkmənlərin nəsil şəcərəsi» əsərinin müəllifi Əbü-l Qazi də eyni fikirdədir. Bu faktı Azərbaycan alimləri Z.Bünyadov, R.Şükürova və başqaları da müdafiə edirlər.

Bir çox müəlliflər skiflərin e.ə. VII əsrdəki möhtəşəm yürüşündən sonra Manna və Midiyanın işğal olunduğunu, bu ərazilərdə ömrü 150 il (digər mənbələrdə 28 il) çəkən «skif çarlığı»nın qurulduğunu yazırlar. Strabon və Azərbaycan alimi Q.Qeybullayev e.ə. VI əsrdə təxminən eyni ərazilərdə sakların yaratdıqları Sakasena (Sakasin) dövlətindən bəhs edirlər. Bir çox orta əsr müəlliflərində isə bu ölkə «Oğuz eli»

adlandırılır. Söhbət eyni ölkədənmi gedir? Şübhə etmirəm. Bütün hallarda Tövratın «ilk türk dövləti» hesab etdiyi Aşquz – yaxud başqa cür adlandırıldığı kimi, «sikf çarlığı», Sakasena və ya Oğuz eli tarixən formalaşan Azərbaycan torpaqlarında qurulmuşdu.

Yenidən söhbətin əvvəlində başladığımız mövzuya qayıdaq. Türk tarixini mümkün olduğu qədər üzübəri çəkmək istəyənlərin cəhdləri sayəsində yaranmış ziddiyyətləri, boşluqları aradan qaldırmaq üçün, belə görünür ki, hələ çox çabalar göstərmək lazım gələcək.

Herodota görə, skiflərin (skuzların) soybabası Tarqıtay təxminən e.ə. XVII-XVI əsrlərdə yaşaya bilərdi. Oğuzların soybabası Dib Yavku xanın isə e.ə. IX-VIII əsrlərdə yaşadığı güman edilir. Onun dörd oğlu vardı: Qaraxan, Orxan, Kürxan və Küzxan, Oğuz Qaraxanın Ay qızı Ay qağanla nikahından doğulmuşdu. Bəs Oğuz xanın həyatı tarixin hansı dənəminə təsadüf edir? Təəssüf ki, bu problem də indiyəcən öz həllini tapmayıb. Məsələn, Əbü-l Qazi hesab edir ki, Oğuz xan e.ə. IV minillikdə yaşamışdır. Orta əsr tədqiqatçılarının bir çoxu Oğuz xanı İbrahim peyğəmbərin müasiri və həmyaşıdı hesab edir. İbrahim peyğəmbər bəzi müasir tədqiqatçıların hesablamalarına görə, e.ə. XX yüzilliyin əvvəllərində yaşamışdır. Lakin biz yəhudi yazarların verdiyi bilgiyə söykənərək İbrahim peyğəmbərin bir qədər gec, təxminən e.ə. XXII yüzilliyin əvvəlində doğulduğunu güman edirik. Azərbaycan alimi F.Cəlilov hətta bir qədər də irəli gedərək İbrahim peyğəmbərlə Oğuz xanın eyni adam ola biləcəyi ehtimalını irəli sürür. Alim «Tanrı elçisi İbrahim» əsərində yazır: «İbrahimlə Oğuz xan arasında oxşar cəhətlər çoxdur. Hər iki patriarxın hələ körpə ikən öz toplumu içində tək Tanrı inancına tapınan hənif olması, hər ikisinin Şam şəhərinə m. ö. XVIII əsrdə (Oğuz zamanında) getməsi kimi məsələlər biri digərini təkrar edir və tamamlayır».





Lakin Z.Həsənov bunların doğru ola biləcəyinə inanmır. Tədqiqatçı Oğuz dönəmini israrla e.ə. VII əsrə aid edir və bununla bağlı belə yazır: «Məntiqi cəhətdən görünür ki, Oğuz xan oğuzları Şimali Qara dəniz ətrafına gətirən hökmdardır və burada Herakl haqqında əfsanədə deyildiyi kimi, Skif dövlətinin əsasını qoyan (təxminən VIII-VII əsrlər) Skif dünyaya gəlmişdir».

Burada aydınlaşdırılması vacib olan bir neçə problem ortaya çıxır.

Əvvəla, bir yunan əfsanəsinə söykənərək skif dövlətinin təşəkkül tarixini gerçəkləşdirmək o qədər də ağlabatan görünmür. İkincisi, skif (skuz) dövlətinin banisi Skifdirsə, bəs onda Dib Yavku xan, onun oğlu Qaraxan, ən başlıcası, oğuzları formalaşdıran Oğuz xan özü kimdir? Onda belə çıxır ki, skiflər və quzlar ayrı-ayrı etnoslardır? Axı bu, Z.Həsənovun öz konsepsiyasına da daban-dabana ziddir. Skiflərin quzlar olduğu barədə ideyanı ilk dəfə məhz Z. Həsənov irəli sürmüş, bir sıra elmi qarşılaşdırma yolu ilə çar skiflərinin oğuzlar olduğunu əsaslandırmağa çalışmış və mən deyərdim ki, buna çox gözəl nail olmuşdur! Z.Həsənov tərəfindən skiflərin çoxsaylı yürüşləri barədə Herodotdan və oğuzların yürüşləri barədə Rəşid

əd-Dindən gətirdiyi faktların, hadisələrin, atributların inanılmaz dərəcədə oxşarlığı, bir çox hallarda isə identikliyi bu iki ad altında bir xalqın və bir tayfa birləşməsinin olduğunu söyləməyə hər cür əsas verir. Bəs elə isə nə üçün quzların soybabası Tarqıtayın e.ə. XVII, yaxud XVI əsrlərdə, oğuzların soybabası Dib Yavku xanın isə bundan az qala min il sonra mövcudluğu iddia olunur? Fikrimizcə, problemin bu şəkildə qoyuluşunda bir yanlışlıq vardır.

Hələ Herodot yazırdı ki, skiflərin Qara dəniz ətrafında yaşayan bəlli bir hissəsi hökmdar tayfası skolot adlanır. Z.Həsənov isə skolot etnoniminin yaranmasını Tarqıtayın kiçik oğlu Kolaksayın adı ilə bağlayır. Bu isə o deməkdir ki, Z.Həsənovun söz açdığı «çar skifləri», yəni skolotlar hökmdar quzların mövcud olduqları güman edilən e.ə. VII əsrdən ən azı 900-1000 il əvvəl yaşamışlar. Amma unudulur ki, erkən hökmdar tayfaları nə Tarqıtay, nə də Kolaksay dönəmində meydana gələ bilməzdi. Bu ənənənin Şumerdən süzülüb gələn bəlli bir tarixi vardır. Nə ağ quzlar, nə də skolotlar «göydən zənbillə düşməmişdilər», onlar ağ sakların varisləri və birbaşa davamçıları idilər. Hökmdar tayfaları ənənəsi ayrı-ayrı çarların adı ilə bağlı deyildir, bu ənənə ağ sakların Şumeri idarə etdikləri illərdən də çox-çox qabaq başlanmış, ta oğuzlara və hətta onlardan neçə-neçə əsr sonraya qədər ara vermədən, dayanmadan uzun bir yol keçmişdir.

Beləliklə, Tarqıtay və Dib Yavku xan dönəmləri arasında 9-10 əsr fərq yaransa da, təhlillər və aparılan





paralellər hər iki halda eyni türk tayfalarından söhbət getdiyi ehtimalını irəli sürməyə imkan verir.

Faktlara nəzər salaq.

Rəşid əd-Dinə görə, oğuzların soybabası Dib Yavku xan Nuhun şəcərəsindən Yafəsin oğludur. Əbü-l Qazi də Rəşid əd-Din kimi türklərin Yafəsdən törədiklərini yazır və şəcərəni belə sıralayır:

Tarixoğulları: Tütək, Çigil, Bersaçar, Emlak.

Tütəkoğulları: Amulca, Bakuy Dibxan, Gögxan, Alıncaxan, Moğol (Tatar).

Moğoloğulları: Qaraxan, Urxan, Gürxan və Qırxan.

Hər iki yazar Oğuzun atası kimi Qaraxanı göstərir.

Gördüyünüz kimi, tarixçilərin diqqətsizliyi, bir az da dəqiq desək, istifadə edilmiş mənbələrin etibarsızlığı ucbatından türkün yaranış tarixi barədə məlumatlar tamamilə dolaşdırılmışdır. Ərəblər belə hesab edirdilər ki, türklər Yafəsin oğlu Qamərdən törəyiblər. Əbü-l Qazi və Rəşid əl-Din də türkləri Nuhun şəcərəsindən olan Yafəsə bağlayırdı. Əbü-l Qazi türklərin moğoloğullarından, Rəşid əd-Din isə Dib Yavku xandan doğulduqlarını iddia edirdi.

Z.Həsənov Dib Yavku xanın yaşadığı dövrü e.ə. VIII-VII əsrlərə aid edir. Əbü-l Qazinin təsvir etdiyi moğoloğulları təxmini hesablamalara görə bundan XI-XII əsr əvvəl mövcud olmuşlar. Rəşid əd-Dinin söhbət açdığı Dib Yavku xan isə moğoloğullarından ən azı 600-700 il qabaq yaşamışdır.

İndi bu tarixlərdən hansı daha inandırıcı, etibarlıdır? Məncə, heç birisi. Çünki Tövratda qələmə alınan Nuh hekayəti əslində, zamansız və məkansızdır, o,

Dünyanı fəlakətə aparan Daşqından sonra insan oğlunun yaşam öyküsünü, təbiət qüvvələrinə təslim olmadığını və ayaq üstə dim-dik durmağı bacardığını bizə çatdırır. Əgər Tövratın mifik təfəkküründən real tarixə keçid alsaq, o zaman qətiyyətlə deyə bilərik ki, türklər bəşər sivilizasiyasının ilk günlərindən mövcud olmuşlar, onlar superetnos olan qarabaşların ilkin budaqlarından biri, bəlkə də birincisidir.

Söhbəti qaldığı yerdən davam etdirək.

Z.Həsənov Tarqıtayın oğlanları ilə həm Dib Yavku xanın, həm də Oğuz xanın oğlanları arasında çox maraqlı paralellər aşkara çıxarmışdır.

Əvvəlcə Dib Yavku xandan başlayaq. Z.Həsənov bu adın mənasını belə şərh edir: «dib» – taxt-tac, mövqe, «yavku» – xalqın bələdçisi, xalqı ardınca aparan.

Amma bizim fikrimizcə, «dib» sözünün türk dillərində başqa bir məna çaları da vardır: birinci, kökdə duran, ilkin. Beləliklə, Dib Yavku – adının mənasına görə də oğuzların başlanğıc nöqtəsi, şəcərənin yaradıcısı hesab olunur. Eynən Tarqıtay kimi. Z.Həsənova görə, Tarqıtay adının çoxşaxəli mənalarından biri yaradan, kökdə duran, xalqı irəli aparan, başçıdır.

Lipoksay Tarqıtayın böyük oğludur, mənası uca, hündür, nəhəng deməkdir. Qaraxan isə Dib Yavku xanın böyük oğludur, mənası da Lipoksay adının mənasına uyğun gəlir: uca, hündür, nəhəng.

Oğuzların və skiflərin adyaratma prinsiplərini qarşılaşdıran Z.Həsənov bir-biri ilə sıx şəkildə uzlaşan çox zəngin məqamlar üzə çıxarmışdır.





Bildiyimiz kimi, «göy kultu» Şumer dönəmində yaranmışdı, bu sivilizasiyada iştirak edən bütün xalqlar kimi, türklər də «göy kultu» ilə yaxından tanışdılar. «Göy kultu»nda üç məkan – yuxarı, orta, aşağı və üç ünsür – göy, hava, yer (su) böyük rol oynayırdı. Həm skiflərin, həm də oğuzların adyaratma prinspləri və buna uyğun olaraq seçdikləri simvollar heyrətləndirici dərəcədə bir-birinə yaxındır.

Tarqıtayın oğlanlarından Lipoksayın adı yer ünsürünü bildirir və özündə dağ simvolunu təcəssüm etdirir. Arpoksay adının mənası su ünsürünə daxildir və dənizi təcəssüm etdirir. Kolaksay adı isə göy ünsürünə uyğun gəlir və günü təcəssüm etdirir.

Əfsanəyə görə Oğuz xanın iki qadından altı oğlu olmuşdur. Tarqıtayda olduğu kimi Oğuz xan da öz oğlanlarına «göy kultu» ilə bağlı olan üç məkan və üç ünsürə uyğun gələn üç simvol seçmişdir. Günxan, Ayxan və Ulduzxan yuxarıya, göy ünsürünə, Gögxan ortaya – hava ünsürünə, Dağxan və Dənizxan isə aşağıya, yer (su) ünsürünə aiddir.

Tarqıtayın oğlanlarının adında sonluq kimi «say», Oğuzun oğlanlarında isə xan əlavəsindən istifadə edilib. Z.Həsənova görə, həm «say», həm də «xan» qədim türk dillərində eyni mənanı, hakimiyyəti, hökm etməyi, üstünlük saxlamağı bildirir.

Beləliklə, adların fonetik fərqliliyinə baxmayaraq həm adyaratma prinsipləri, həm atributların daxili oxşarlığı, həm də əfsanələrdəki mahiyyət yaxınlığı (hər iki halda xalqın başlanğıc nöqtəsindən, ilkin hökmdar tayfalarının yaranmasından söz açılır) bunu

deməyə əsas verir ki, bu hekayətlərdə eyni zaman, eyni məkan və eyni tayfaların təşəkkül tarixi öz əksini tapmışdır.

Eyni ölkə anlamına gələn "skif çarlığı", Sakasin və "Oğuz eli" adlarından, habelə bir çox digər faktlardan da aydın görünür ki, söhbət hökmdar tayfalarından gedəndə skif-skuz-sak uçbucağında qəribə bir harmoniya, uyğunluq yaranır və bu tayfalar sanki eyni ortaq nöqtədə birləşirlər.

Uyğurların 42 səhifəlik «Oğuznamə» dastanında maraqlı bir epizod vardır. Oğuz xan döyüşlərin birində Urum xaqanını məğlub edir. Urum xaqanının Urus bəy adlı qardaşı öz oğlunu «dağ başında, dərin çay ortasında yaxşı qorunan balığın» yanına göndərib ona belə tapşırıq verir: «sen takı uruşğulardan son balukanı benqə saklab gəlgilı, deb dedi» (sən balığı mənə saxlayıb vuruşlardan sonra yanıma gəl, dedi).

Urus bəyin oğlu Urum xaqanın məğlubiyyətindən sonra həmin balığı da götürüb çoxlu hədiyyə ilə Oğuz xanın yanına gedir. Oğuz xan deyir: «Mənə çoxlu altun gətirmisən, balığını yaxşı saxlamısan. Onun üçün sənə Saklab adı qoydum».

Urus bəyin oğlunun Oğuz xana verdiyi cavab da çox maraqlıdır: «Bizim xoşbəxtliyimiz sənin xoşbəxtliyindir, bizim soyumuz sənin nəsil ağacının budağıdır».

Deyirlər ki, hər xalq öz dilində yaşayır. Təkcə arxeoloji materiallar deyil, tətbiqi sənət əsərləri də, miflər də, simvol və damğalar da tariximizi yaşadan ən gözəl saxlancdır. Təəssüf ki, biz miflərimizə heç





vaxt tutarlı tarixi qaynaq kimi baxmamışıq, onun ardıcıl olaraq, elmi əsaslarla öyrənilməsinə səy göstərməmiş, bununla da keçmişə, soy-kökümüzə uzanan cığırları öz üzümüzə qapatmışıq.

Mif hər xalqın tarixi yaddaşıdır, bu yaddaşda dəyərli olan simvollar – keçmişdən sabahımıza xəbər gətirən informasiyalardır. Süjetlər dəyişə, əhvalatlar nağıl danışanların təhkiyəsi ilə yeniləşə, təzələnə bilər, lakin simvollar heç vaxt itmir və axıracan dəyişməz olaraq qalır.

Xalqın yadaşında Saklab Oğuz elinin bir parçası, «nəsil ağacımızın budağı» kimi ilişib qalıb. Amma bu sözün necə yaranması, mənşəyi barədə informasiya uzun illərin «palçığı, toz-torpağı» içərisində it-bata düşmüşdür. Nağılçı əsas simvolu qoruyaraq Saklab adının yaranmasına xalqın anlaya biləcəyi bir yozum vermişdir. «Balığını yaxşı saxlamısan, onun üçün sənə Saklab adı verdim».

Oğuz xanın öz ətrafına topladığı digər türk ulusları barədə də dastanda eyni üsulla informasiya verilir: kanq-kunq səsi çıxaran təkərli araba düzəltdiyinə görə birinə kanqlı (kəngər), çayı keçmək üçün ağıl və fərasət göstərdiyinə görə başqasına qıpçaq, qalıb bağlı şəhər qapılarını ordunun üzünə açacağı üçün digərinə Qalaç (Xalaç) adı qoyulur. Burada mifoloji təfəkkür, etnosların yaranmasına sadəlövh xalq yanaşması bizim üçün qətiyyən önəmli deyil. Əhəmiyyətli olan kanqlı, qıpçaq, xalaç, saklab və b. tayfaların eyni kökdən gəlməsi, bizimlə eyni dildə danışması barədə informasiyalardır.

Bu sözləri dönə-dönə, təkrar-təkrar, həm də çox ucadan söyləmək lazımdır: biz əcdadlarımızın tarixi yaddaşına, keçmişimiz barədə qiymətli, əvəzsiz informasiyalarla dolu olan miflərimizə heç vaxt ciddi yanaşmamışıq, onu nağıl kimi oxumuşuq, sətirlərdə gizlədilən simvollara da elə nağıl kimi baxmışıq. Bu barədə az-çox təpər göstərmək istəyənləri elmdən uzaq, cahil, qeyri-ciddi adam hesab edib lağa qoymuşuq. Halbuki yəhudilərin, misirlilərin, yunanların, elə bir çox başqa xalqların mifoloji tarixi barədə yüzlərlə, bəlkə də minlərlə cild əsər yazılmış, bədii-sənədli filmlər çəkilmişdir. Biz isə əcdadlarımızın yaradıb yadigar qoyduqlarına üstdən aşağı, kinayə ilə, bəzənsə çəkingən uşaqlar kimi utana-utana baxmışıq. Halbuki «Oğuznamə», «Kitabi – Dədə Qorqud» kimi dünya şedevrləri olan dastanlarımıza bir qədər başqa gözlə, tarixi qaynaq kimi yanaşsaydıq, bu günəcən qaranlıq qalmış bir çox mətləblərin üstündən sirr pərdəsi götürülmüş olardı.

Oğuzların Mərkəzi Asiyada formalaşdığını iddia edənlər və onların tarixini e.ə. birinci minilliyə çəkənlər zəhmət çəkib Şumer tarixini, mifologiyasını bir qədər diqqətlə oxusunlar. Hətta otəri müqayisə etdikdə belə qədim türk simvollarıyla Şumer simvolları arasında dərin bağlantı tapmaq mümkündür. Əgər türklər həqiqətən Mərkəzi Asiyada formalaşıblarsa və Ön Asiyaya yalnız e.ə. VII əsrdə gəliblərsə, o zaman türk – şumer bağlantılarını nə ilə izah etmək olar?

Türklərin ulu Şumerə bağlantılarını görmək üçün şamançılığa nəzər salmaq kifayətdir. Şamançılığın





yaranma tarixi çox qədimlərə gedib çıxır. Mirəli Seyidov yazır: «Türk soylarının, qəbilələrinin, qəbilə birləşmələrinin, xalqlarının ən əski ibtidai dini görüşləri, az sonra qamçılıq – şamançılıq öz axarı ilə, təbiətlə qarşılaşmadan üzə çıxmış, təbii yolla yaranmış və o, başlıca olaraq uzaq keçmişdəki qanyaddaşının, yavaş-yavaş özünü göstərdiyi vaxtlardakı xalq təfəkkürü» kimi meydana gəlmişdir.

Türk elində qam-şamanlar başlıca olaraq xalqın mənəvi dünyası ilə, onun daxili aləminin, ruhunun sağlamlaşdırılması ilə məşğul idilər. Onlar dövlətə başçılıq edən, insanın yaşadığı maddi aləmi idarə edən hökmdarların sağ əli, yaxın məsləhətçisi sayılırdılar. Baş şamanın xeyir-duası olmadan hökmdarlar heç bir işə rəvac verməzdilər. Bu bölgü öz mənbəyini dini baxışların ilkin formalaşdığı Şumerdən alırdı. İlk olaraq məhz Şumerdə insanın mənəvi dünyasını, onun göylərə bağlantısını möhkəmləndirmək üçün möhtəşəm kahinlik institutu yaradılmışdı.

Dünyanın və insanın yaranması haqqında türk təfəkkürü eynən Şumer mifoloji təfəkkürü ilə uzlaşır. Bu barədə bir çox türk əfsanələri mövcuddur. Daha geniş yayılmış bir variantda deyilir ki, Ağ Ana Ülgenlə Erliki yaratdı. (Şumerdə Yerin və Göyün baş hökmdarı Ananın iki oğlu kimi – Enlil və Enki). Dünyanı böyük okean tutmuşdu. Okeanın üstündə ağ qaz uçurdu. (Şumerdən götürülmüş yəhudi variantında deyilir ki, əvvəlcə ancaq böyük okean vardı və bu suların üstündə ilahi ruh uçurdu). Ülgenlə Erlik okeanın dibindən palçıq götürüb sulara səpdilər, palçığın düşdüyü yerlərdə quru torpaq yarandı.

Başqa bir türk əfsanəsində dünyanın yaranması belə təsvir olunur: «Əvvəl yer üzündə heç nə yoxuydu, vaxt öz-özünə eləcə gəlib keçirdi. Sonra heyvannlar, cücülər, otdar, ağaşlar yarandı, axırda Allah insanı yaratdı».

«Yaradılış» haqqında Şumer əfsanəsində Günəş sisteminin formalaşması və canlı həyatın meydana gəlməsi eynən bu ardıcıllıqla davam edir. (Bax: «Şumer kilidi», «Göy dramı», yaxud yaradılış haqqında inanılmaz Şumer həqiqəti» fəsli).

Türk mifik baxışlarına görə Göylə Yer əvvəlcə bir olmuşlar. Lakin insanlar o qədər çox törəyib artmış, o qədər pis əməllərə qurşanmışlar ki, bunu görən Göy acıqlanıb Yerdən aralanmışdır.

Şumer əfsanəsində «Göyün hələ göy, yerin hələ yer olmadığı» çağlardan danışılır, daha sonralar törəyib artan insanların səs-küyündən «allahların» necə qəzəbləndiklərindən və onları cəzalanlırmaq istəmələrindən söz açılır.

Türk xalqlarının mifologiyasında Yer qadın başlanğıcıdır. (Eynən Şumerdə olduğu kimi, Tiamat qadın başlanğıcıdır, «ulu nənədir», məhz onun parçalanmasından indi yaşadığımız Yer planeti yaranmışdır). Türk inancına görə, Göy yağış vasitəsilə Yeri mayalandırır və bundan ətrafdakı bütün canlılar əmələ gəlir.

«Ağ oğlan» yakut əfsanəsində deyilir ki, Ulgen ağ çiçəkdən ilk insanı – Ağ oğlanı yaratdı. Qardaşı Erlik də ona baxıb ağ insan yaratdı, ancaq Ülgen bu insanı qara rəngə boyadı. Özü yerüstü dünyanın, qardaşı isə yeraltı dünyanın tanrısı oldu. (Şumer miflə-





rində də Enlil bütün yer üzünün, qardaşı Enki yeraltı dünyanın Tanrısı idi. Afrikadakı bu yeraltı dünyadan şumerlər qızıl-gümüş çıxararaq toza döndərir və onu öz planetlərinə göndərirdilər).

Bütün bu mifoloji paralellər türklərin Şumerdə yabançı olmadıqlarının göstəricisidir. Mərkəzi Asiyada formalaşan və Mesopotamiyada siyasi hakimiyyətin iflasından az qala 1500 il sonra Ön Asiyaya gəldiyi iddia edilən bir xalq şumer təfəkkür tərzinə, onunla birgə yaşamadan necə yiyələnə bilərdi?

Türk dünyasının şifahi yaddaşı olan «Oğuznamə» sənət abidəsində tariximizin ən qaranlıq çağları barədə inanılmaz informasiyalar tapmaq mümkündür. Sadəcə bu qiymətli külçə zamanın erroziyasından, tarixin toz-torpağından təmizlənərək ortaya çıxarılmalıdır.

Dastanda deyilir ki, Oğuz «yarımallah» idi, çünki Dib Yavku xanın böyük oğlu Qaraxanla Ay «allahının» qızı Ay qağanın izdivacından dünyaya gəlmişdi. Oğuzun birinci arvadı da yer mənşəli deyildi, Günəş şüası ilə göydən enmişdi. Oğuz bu qadından olan oğlanlarına Gün, Ay və Ulduz adı qoymuşdu.

Əgər adi məişət nağılı kimi yanaşsaq, burada təəccüblü heç nə yoxdur. Adətən, bütün nağıllarda bu cür uydurmalara rast gəlmək olur: xalçalar uçur, güzgü uzaq elləri göstərir, qəhrəman ağ qoçun belinə minib ağ dünyaya, qara qoçun belinə minib qara dünyaya düşür. Sehirli pəri öz aşiqinin yanına qurbağa cildində gəlir və s. və i. a. Xalqın fantaziyasının həddi-hüdudu yoxdur. Ancaq hər nağılın içində keçmiş təcrübələrdən qopub gələn nəsə vardır. Xalq bu xatirə-

ləri nəsillərdən nəsillərə ötürərək yaddaşlarda yaşadır. Tarixi təcrübələri diqqətlə öyrənib miflərdəki simvollarla qarşılaşdırdıqda gözlənilməz nəticələr ortaya çıxa bilir.

Əvvəlcə Qaraxandan və onun qadını Ay qağandan başlayaq. Türk mifoloji təfəkkürünə görə Ay qağan göydən gəlib və o, Qaraxanla izdivacdan sonra «yarımallah» Oğuz xanı doğurub. Ay qağan kimdir və türk mifologiyasına haradan düşə bilərdi?

Bildiyimiz kimi, Şumerdə Nanna (Sin) Ay allahı sayılırdı. Məhz onun oğlu ilə yer qadınının izdivacından sonra ilk hökmdar tayfalarının təməli qoyulmuşdu. Urukun beşinci hökmdarı Gilqamış (Bilqamıs) da göylərlə yerin ittifaqından doğulmuşdu, onun anası Ninsun Ay ilahəsi idi.

Başqırdların «Ulan Batır» əfsanəsində Ayxıl öz şəcərəsini belə təqdim edir:

***Mənim adım Ayxıldır,***
***Atam ölkə hökmdarıdır,***
***Anam Aydır, göyə məxsusdur.***

Görünür, Şumer əfsanələrindəki Ay ilahəsi Ninsun «Oğuznamə»dəki Ay qağanın prototipidir. Belə olan halda, Oğuzun özü də Urukun beşinci hökmdarı Bilqamısla identikləşir.

Türk mifologiyasının əvəzolunmaz tədqiqatçısı Mirəli Seyidov yazır: «Oğuzun anası Ay qağan şumerlərin İştarı, hərdən isə türk xalqlarının Umayı ilə eyniləşir... Bizcə Ay qağanın istər adına, istərsə də mifik keyfiyyətlərinə görə türkdilli saqların, yakutların Ay ilahəsi ilə etnik soy birliyi vardır. Deməli, Umay adındakı «ay» tərkibi oğuzların ulu nənəsi, Oğuzun anası Ay qağan ilə bir kökdən və bir gendəndir».





İndi də gəlin özümüzə belə bir sual verək: nə üçün xalq Oğuz xanı «yarımallah» hesab edirdi? Nəyə görə dastanda Oğuz xanın birinci arvadı Günəş şüası ilə yerə enir? Nədən ötrü Oğuz xanın oğlanlarına o dönəmə uyğun türk adları qoyulmamış, onlar göyün atributları olan Gün, Ay və Ulduz adı ilə çağırılmışlar? Cavab verəcəksiniz ki, bu, dastanı quraşdıran xalqın seçimidir, belə istəmiş, belə də söyləmişdir. Lakin xalqın mifoloji təfəkkürü boş yerdən yaranmır, o mütləq müəyyən həyat həqiqətlərinə söykənərək formalaşır.

Oğuz xalqı keçmişin hansı təcrübəsindən bəhrələnərək öz qəhrəmanını «yarımallah» hesab edə bilərdi?

Xalqın nəsillərdən-nəsillərə ötürərək yaşatdığı inanca görə, Oğuz «göylə-yerin izdivacından» doğulduğu üçün «yarımallah» sayılırdı. Hələ dil açmamış körpə anasına üz tutaraq belə deyir:

– Mən hökmdar çadırında doğulduğum üçün adımı Oğuz qoyun.

Diqqətlə fikir verin, dastan müəllifləri bu cümlədə «Oğuz» sözünün mənasını kodlaşdırıblar və «Oğuz»un hökmdar anlamına gəldiyini verməyə çalışıblar. Bu isə bizim qənaətimizin doğruluğuna ən tutarlı sübutdur: oğuz ağ+uz, yaxud ağ+quz sözündən yaranıb. Əgər hökmdar anlamına gəlmirsə, nə üçün hökmdar çadırında doğulduğuna görə uşağa Oğuz adı qoyulmalıdır?

Dastanda Oğuz xanın Günəş şüası ilə yerə enən göylər qızı ilə izdivacından söz açılır. Nə üçün «göylər qızı» başqa nağıllarımızda olduğu kimi, məsələn, uça-uça, yaxud sehirli pəri qızı libasında gəlmir, məhz Günəş şüası ilə yerə enir?

Çox ola bilsin ki, «Oğuznamə»ni yaradanlar bunun əsil mənasını və mahiyyətini heç özləri də bilmirdilər. Çünki örnək götürülən təcrübədən çox zaman keçmişdi, illər, əsrlər boyunca söyləntidə nəsə itmiş, ona nəsə əlavə olunmuş, ancaq Günəş obrazı bir simvol kimi qalmışdı. Divin canı şüşədə olan kimi, yaşadılan informasiyanın canı da məhz Günəş simvolunda idi. Günəş hökmdar tayfalarının bünövrəsini qoyan Utun obrazıdır. Fikrimizcə «Göylər qızının» Günəş şüası ilə enməsi oğuz tayfalarının soy-kökünün Günəş «allahına» bağlantısının mifik təsvirindən başqa bir şey deyildir. Xalq özü də hiss etmədən bu ənənənin keçmişin dərin qatlarından süzülüb gəldiyini və davam etdiyini yaddaşlara köçürərək nəsillərdən nəsillərə ötürmüşdür.

M.Seyidovu oxuyarkən maraqlı bir fikirə rast gəldim. Alim bəzi türk xalqlarında Umay quşunun həm də Qumay quşu adlandırıldığını yazır. Burada «qu» sarı, sarımtıl anlamına gəlir. Sarı rəng isə ta qədimlərdən türklərdə günəşin rəmzi hesab olunur. Qumayın çoxanlamlı «may» hissəsi bir çox türk dillərində qadını, dişi cinsi bildirir. Alimin iddia etdiyinə görə, elə bu üzdən bəzi türk xalqlarında Umaya **May ana** da deyirlər.

Bizcə, bu qiymətli fikirlərə mütləq kiçik bir düzəliş lazımdır. Həqiqətən, Şumerdə qadına «um, əm, am», anaya «əmə», «uma», «ama» deyirdilər. Türk Umayının mənası elə üstündədir: «Ay ana», yaxud Şumer əfsanələrində olduğu kimi «Ay ilahəsi». «Oğüznamə» türk anasının göylər qızı olduğunu, ulu Şumerlə bağlantısını Umay adında əbədiləşdirmişdir.





Şumerdə Ay, Günəş həyatın, məhsuldarlığın rəmzi sayılırdı. «Ay ana» simvoluna gələn Umay da türk mifologiyasında həmişə həyat verən ilahə, məhsuldarlıq ilahəsi hesab edilmişdir.

Türk inam və inancının şumer panteonu ilə müqayisəsi çox maraqlı məqamlar ortaya çıxarır. Herodotun qələmə aldığı yunan əfsanəsində «çar skifləri»nin kökü baş allah Zevsə və Borüsfen (Dnepr) çayının qızı Qeyaya bağlanır. Şumer əfsanələrində hökmdar tayfalarının ulu babası günəş «allahı» Ut və heç bir mətndə adı çəkilməyən Yer mənşəli qadındır. Oğuz tayfalarının görünür, daha sonrakı dönəmlərə aid olan əfsanələrində şəcərənin ən son ucunda Yer oğlu Qaraxan və göylər qızı Ay qağan durur. «Yarımallah» Oğuzun da ilk uşaqları göydən günəş şüası ilə gələn qadından doğulub törəmişdir. Bir skif əfsanəsində isə sanki bu mifoloji yozumlardan daha fərqli bir versiya ortaya qoyulmuşdur: skiflərin nəsil şəcərəsi Papaydan və Apidən törəmişdir.

Papay kimdir? Papay (Babay) müxtəlif türk ləhcələrində ulu, əcdad, ata, yaxud baba deməkdir və bütün türk xalqlarının lüğət fondunda bu gün də qalmaqdadır. Professor F.Cəlilov bununla bağlı belə yazır: «Qədim türk ləhcəsində Papay (Babay) onomasstikası ucalıq, ilahilik bildirən qutsal deyim olmuşdur.

Skif mifoloji yozumunda Papay dünyanın yuxarı qatı ilə, göylərlə bağlanır. Skif qadın şəcərəsinin başlanğıcını qoyan Api öz mifoloji yozumuna görə aşağını, Yer-suyu təmsil edir. Skif mifologiyasında xalqın soy-kökünün yuxarı ilə aşağının, Göylə Yerin izdivacından yarandığı açıq simvollarla bildirilir».

Ümumilikdə bu fikir doğru olsa da, görünür, mifoloji yozum bir qədər də dəqiqləşdirilməlidir. Araşdırıcılardan heç kəs bu günəcən Api adının etimologiyasına, ilkin məna daşıyıcısına fikir verməmişdir. Əgər Papay (Babay) tutumuna görə ata, baba, yaxud ulu əcdaddırsa, bəs onda Api nə deməkdir? Bəzi tədqiqatçılar bu sözü «ulu nənə» kimi qələmə verməyə çalışırlar. Əslində, bu məna dəyişikliyi çox sonralar yaranmışdır, «api» ilkin olaraq heç də «ulu nənə» deyilmiş.

Bu ada ilk dəfə Misirdəki Edfu məbədinin divar yazılarında rast gəlirik. Bu divar yazılarında «api» dəyişməz olaraq «uçan», «uçub gələn» mənalarında işlədilmişdir. Heç şübhəsiz ki, bu söz türk lüğət fonduna təsadüfən, göydən gəlib düşməmişdir. Çoxanlamlı mifologiya yaradan əcdadlarımız hər halda nə dediklərini, bu ad altında gələcək nəsillərə nəyi çatdırmaq istədiklərini yaxşı bilirlərmiş. Bu, torpağın dərin qatlarında basdırılmış sərvətə bənzəyir. Onu qazıb çıxartmaq, təmizləyib külçə halında insanlara göstərmək tarixçilərimizin, arxeoloqlarımızın, etnoqraflarımızın, mifoloqlarımızın işidir.

Əgər türk mifologiyası bir tərəfdən hökmdar tayfalarının kökündə ata tərəfdən «allah» Utun dayandığını təsdiqləyirsə, digər tərəfdən bu kökün ana tərəfdən də göydən uçub gələn Apiyə, yaxud Günəş şüası ilə yerə enən Ay qağana, «Ay ana» Humaya-Qumaya bağlı olduğunu xəbər verir. Bunlar, ilk baxışdan göründüyü kimi, heç də bir-biri ilə ziddiyyət təşkil etmir, əksinə, bir-birini tamamlayır, bizi tarixin daha dərin qatlarına endirir, türk tayfalarının uzun minilliklər boyu Şumerdə yaşadıqlarını, «allahlarla» dönə-dönə, təkrar-təkrar təmasda olduqlarını, bərabər hüquqlarla çiyin-çiyinə işlədiklərini etibarlı şəkildə bizə çatdırır.





İndi də sonuncu sualı aydınlaşdırmağa çalışaq: Oğuz xan nə üçün öz oğlanlarına o dönəmdə geniş yayılan türk adları deyil, Gün, Ay və Ulduz adı qoymuşdur?

Bu sualın cavabını da yenə Şumer tarixində tapmaq olar. Qədim Mesopotamiyada «göy kultu» geniş yayılmışdı. Biz bu barədə əvvəlki fəsillərdə ətraflı söhbət açmışıq. «Göy kultu» inancında əsas obrazlar Günəş, Ay və ulduzlar idi. Bəşər sivilizasiyasının ilkin dövrlərində bu, insanları daim itaətdə saxlamaq, öz ağalarına sədaqətlə xidmət etmək və cızıqlarından çıxmamaq üçün əbədi sevgi və daimi qorxu mənbəyi kimi düşünülmüşdü.

Qarabaşlar (saklar) məbədlərə gedərək dualar oxuyur, Günəşin, Ayın və ulduzların şərəfinə qurbanlar kəsir, gündəlik həyatlarını yaxşılaşdırmaq üçün onlardan rəhm diləyirdilər. «Oğuznamə»də Günəş, Ay və Ulduz sadəcə simvol deyildir, o, həm də oğuz ellərini qədim Şumerə bağlayan qırılmaz tellərdir.

Dastanda xalqın mifik təfəkkürü real həyat hadisələri ilə birləşərək qəribə harmoniya yaratmışdır. «Oğuznamə» müəllifləri ağızdan-ağıza keçərək onlara gəlib çatan Gün, Ay və Ulduz simvoluna təxəyyüllərinin gücü ilə yeni şəkil vermiş, gələcək nəsillərə türkün çox qədimlərə gedib çıxan həyat öyküsünü anlatmışlar – oğuzların kökü ağ saklara, ilkin hökmdar tayfalarına bağlıdır.

Ay və Ulduz simvolikası bu gün bir çox türk ölkələrinin dövlət atributlarında özünə yer tutmaqdadır. Azərbaycanın və Türkiyə Cümhuriyyətinin dövlət bayraqlarına fikir verin. Doğan Ay və ulduz. Bu rəmzləri islam simvolikası kimi dəyərləndirməyə cəhdlər olsa da, əslində, bu fikir yanlışdır, türkün tarixini mümkün olduqca üzü bəriyə çəkməkdir. Günəş, Ay və Ulduz bir simvol kimi öz ilkin mənbəyini Şumerdən alır.

Uyğur dilindəki «Oğuznamə»ni oxuyanlar xatırlayırlar: Oğuz xan onu saymayan Urum xaqanının üstünə qoşun çəkir. Dastanda deyilir: Oğuz xan düşərgə saldı, gecə uyuyub yatdı. Dan yeri ağaranda Oğuz xanın çadırına gün təki bir şüa girdi. Şüanın içindən boz tüklü, boz yallı böyük bir erkək qurd çıxdı. Boz qurd insan kimi dil açıb dedi: Ay Oğuz, mən sənə bələdçilik etmək üçün gəlmişəm. Sabah səninlə birgə öndə gedəcəyəm, qoşunlarına yol göstərəcəyəm.

Boz qurd onları ilk döyüş yerinə, buz dağın ətəklərinə gətirir və yoxa çıxır.

İkinci dəfə də boz tüklü erkək qurd Oğuz xanın qarşısına çıxır, «indi eli, bəyləri buraya gətir, mən





sənə yol göstərəcəyəm» deyir. Boz qurdun bələdçiliyi ilə Oğuz xan bütün düşmənlərinə qalib gəlir.

Boz qurd Hindistanı, Tibeti, Suriyanı almaqda da Oğuz xana yol göstərir.

Yol göstərən boz qurd. Türklərin mifoloji tarixində boz qurd obrazı mühüm yer tutur, onu bütün türklərin əcdadı hesab edirlər. Bu barədə onlarla məqalələr yazılmış, qiymətli fikirlər söylənmişdir. Lakin bəzi türk tayfalarında boz qurddan daha əvvəl köpək ilahi varlıq sayılmış, nəslin törədicisi hesab edilmişdir.

Təəssüf ki, bu günəcən heç bir tədqiqatçımız türklərdə köpək, yaxud yol göstərən boz qurd obrazının mənşəyi, yaranma səbəbləri və qaynaqları barədə dərin elmi araşdırma aparmamışdır.

Yol göstərən köpək simvoluna ilk dəfə qədim Nil vadisi əfsanələrində rast gəlirik. Hətta Misir əfsanələrinin birində çətinə düşmüş insanlara yol göstərən çaqqal başlı «allahdan» bəhs olunur. Başqa bir mifdə isə gecələr azmış insanlara bələdçilik edən Sirius ulduzundan danışılır. Siriusun başqa bir adı «köpək ulduzu»dur. Həmin əfsanədə deyilir ki, biz Sirius ulduzundan gəlmiş «balıq-adamların» – suda-quruda yaşayan insanların törəmələriyik. Sirius sanki nəhəng Orion ulduzunun ayaqları altında yatan bir köpəyə bənzəyir. Görünür, elə buradan da bir çox dünya xalqlarının mifologiyasında yol göstərən köpək obrazı özünə yer tapmışdır.

Asar (Osiris) haqqında əfsanədə də köpək aparıcı rol oynayır. İsida öldürülmüş ərini axtararkən ona köpək, başqa bir variantda isə çaqqal kömək edir. Mifə görə, ölümündən sonra Osirisin ruhuna da məhz

çaqqal başlı «Allah» Anibus (başqa bir variantda bu ad Uruautedir) kömək göstərir. Osirisin ruhu köpək cildinə düşərək oğlu Qora ən çətin döyüşündə yardım eləyir. Paralellik göz qabağındadır – yol göstərən qurd və yol göstərən köpək. Kim kimdən götürüb? Məsələ burasındadır ki, Misir əfsanəsindəki Osiris Misir mənşəli deyildir, bu əfsanə Misirə kənardan gətirilib. Osirisin əsl adı isə Asardır. İnanmayacaqsınız, Asar türklərin mifik soy babası olan Utun ən qədim adlarından biridir. Güman edilir ki, türk as (az) tayfaları öz adlarını məhz Asardan almışlar.

Oğuz-Şumer panteonundakı bir çox digər məqamlar da iki xalq arasındakı təmasların təsadüfi olmadığından xəbər verir. Şumerdə dini və siyasi hakimiyyət bir əldə cəmləşmişdi. Baş «allah» həm yerli əhəmiyyətli «allahlara», həm də kahinlik institutuna başçılıq edirdi. Oğuz elində də beləydi. S.Rüstəmxanlının da «Göy tanrı» əsərində yazdığı kimi, Oğuza qədər türklərdə baş hökmdar, həm də baş şaman sayılırdı. Yəni elin atası və xanı hesab edilən hökmdar mütləq şaman olmalıydı. Amma Oğuz dönəmində vəziyyət artıq bir qədər dəyişmişdi. Oğuz etnosun atası, Uruq Turuq isə ağsaqqalı idi. Doğrudur, dastanda Uruq Turuq şaman adlandırılmasa da, hadisələrin gedişindən görünür ki, o, Dədə Qorqud kimi el ağsaqqalı, həm də ən çətin anlarda xanın məsləhətçisi və baş şaman vəzifəsini icra edirmiş.

Şumerdə «Ana kultu» vardı, çünki Ana Yerin və Göyün baş hökmdarı idi. Onun şəninə nəğmələr qoşulur, dualar oxunur, adına qurbanlar kəsilirdi. Ana ulu, müqəddəs, toxunulmaz və hər şeydən uca tutu-





lurdu. Türk xalqlarının müqəddəs bildikləri üç varlığı – Vətəni, Torpağı və Qadını Ana adlandırması təsadüfi ola bilməzdi. Qədim Şumerdə övlad doğuran qadına ama, əmə deyirdilər. Dünyanın bir çox xalqları məhz bu sözdən qaynaqlanan ma, mami, mama, mem və s. sözlərdən yararlandıqları halda, türklər ilkin kəlmədən imtina edərək daha müqəddəs olanını, Ananı seçdilər. «Ana haqqı – Tanrı haqqı» deyən oğuz eli minillərin həyat təcrübəsindən irəli gələn bir inancla Ananı Tanrıya bərabər tuturdu, çünki Ana Tanrının öz adıydı. Oğuz inancına görə Ağ ana baş göy tanrısı idi.

Oğuz türklərinin yeni il bayramı Novruz da, təkcə adını istisna etməklə, qədim Şumerdən süzülüb gəlir. Bu bayramın köklərini gah ərəblərə, gah farslara bağlamış, onu gah Cəmşidin taxta çıxması, gah da islam dini görüşləri ilə əlaqələndirməyə çalışmışlar.

Şumerdə hər il aprel ayının 1-də yaz gecə-gündüz bərabərliyini böyük təntənə ilə qeyd edirdilər, bu bayram düz on iki gün çəkirdi. 12 rəqəmi 12 göy cisminin (9 planet üstəgəl Günəş, Ay və Nibiru), 12 «zodiak evi»nin varlığı ilə ilişgili olduğu üçün Şümerdə müqəddəs sayılırdı. Bayram əsil el şənliyinə çevrilir, adamlar təzə paltar geyinərək küçələrə axışır, çalıb-oynayır, əylənir, göy ulduzlarının şərəfinə qurban kəsir, dualar oxuyurdular. Hər günün öz «proqramı» vardı. Məsələn, bayramın birinci günü Ananın məbədi önünə toplaşaraq ibadət edir, dualar oxuyur, sonra meydan tamaşaları göstərir, mahnı və dastan səsləndirirdilər. Ən çox «Yaradılış» dastanı ifa olunurdu.

İkinci gün qurbanlar kəsilirdi, kahin kəsilmiş qoyunun qanını divarlara çiləyirdi. Şumer inancına

görə, bu, xüsusi magik mahiyyət daşıyırmış. Üçüncü və dördüncü günlər insanlar bir-birilərinin evlərinə qonaq gedirdilər. Beşinci gün günahlardan təmizlənmə günü idi. Kahin hər kəsi ayrıca dinləyir və onların günahlarını bağışlayırdı...

Sonuncu, on ikinci gün yenə məbədlərdə dualar oxunur, sonra ümumxalq şənliyi keçirilirdi.

Bəs bu bayram necə yaranmışdır?

Şumer novruzunun yaranma tarixi çox maraqlıdır. Qədim mətnlərə görə əvvəllər İkiçayarasında həm yaz (nisan ayında), həm də payız (tişrit ayında) gecə-gündüz bərabərliyi böyük təntənə ilə qeyd olunarmış. Lakin sonralar payız gecə-gündüz bərabərliyinin bayram edilməsi bizə məlum olmayan səbəblərə görə unudulmuşdur. Əvəzində, yeni ilin gəlişi (Şumerdə nisan ilin birinci ayı hesab olunurdu) daha əzəmətli və yaddaqalan şəkildə keçirilməyə başladı. Bu barədə orijinal Şumer mətnləri hələ tapılmayıb. Amma qədim şumer adətləri üzrə hazırlanan mərasimdən bəhs edən Babil mətnlərindən aydın olur ki, bu bayram daha çox dini xarakter daşıyırmış. Bəzi tədqiqatçılar belə güman edirlər ki, Babil mərasimləri şumerdəkindən xeyli fərqlənirdi və o, Mardukun siyasi hakimiyyətinin möhkəmləndirilməsinə yönəldilmişdi.

Digər Şumer mətnlərindən əldə etdiyimiz qısa fraqmentlərdən aydın olur ki, yaz bayramı öz başlanğıcını Ananın Yerə rəsmi vizitindən götürmüşdür. Bu hadisə buğa bürcündə, e.ə. 3800-cü illərin birində baş verib. Uruk şəhərində Göyün və Yerin baş hökmdarının şərəfinə möhtəşəm bir məbəd ucaldılmışdı. Ana (akkad mətnlərində Anu) və həyat yoldaşı Antu həmin məbədin açılışında iştirak etmək üçün Yerə gəlmişdilər. «Gil kitabə»lərin verdiyi xəbərə görə, nisan ayının 1-də Urukda bu gün dövlət başçılarının qarşılanma törənindən daha əzəmətli və daha atəşfəşanlı bir mərasim düzəldilmişdi. Həm də bu mərasim bir gün deyil, düz on iki gün davam etmişdi. Göyün və Yerin baş hökmdarının səfəri yaz gecə-gündüz bərabərliyi gününə təsadüf etdiyindən sonrakı bütün illərdə nisan ayının 1-i eyni təmtəraqla düz 12 gün qeyd olunmağa başladı və dönməz adət halını aldı. Belə görünür ki, qədim Şumerdə şəxsiyyətə pərəstiş bizim günlərdə olduğundan heç də geri qalmırmış. Bəlkə də bu, Ananın şəxsiyyətini Yer insanlarının gözündə fetişləşdirmək üçün qabaqcadan düşünülmüş bir siyasi aksiya idi. Lakin əsrlər ötdükcə bayramın siyasi yönü unuduldu və o, ən adi məişət törəninə çevrildi. Yeni il – bahar bayramı minilliklər boyu xalqımızın həyatında çox mühüm yer tutmuş, nəsillərdən-nəsillərə, tayfalardan-tayfalara ötürülərək yaşadılmış, təkmilləşdirilmiş, lakin əsas kökünü və məzmununu saxlamışdır. Şumerdə olduğu kimi, Oğuz ellərində də bahar bayramı ümumxalq şənliyi kimi qeyd olunur, küsülülər barışır, insanlar bir-birilərinin evinə qonaq gedir, meydan tamaşaları göstərilir, musiqi çalınır, nəğmələr oxunur. Kəndimizdəki yaşlı insanlardan eşitdiyimə görə, onlara da öz babaları danışarmış ki, qədimdə bayram düz on iki gün çəkərmiş. Novruz axşamından sonra insanların hələ bir müddət (bir həftə, ya da on gün) bayramlaşmaq üçün bir-birlərinə qonaq getməsi adəti bu gün də qalmaqdadır. Görünür, zaman keç-

dikcə Şumerdə müqəddəs sayılan 12 rəqəminin simvolik mənası unudulmuş, lakin bayram ovqatını saxlamaq, qonaq getmək, yumurta döyüşdürmək, şənliklər düzəltmək, küçədə, bazar içində, gəzintilər zamanı bayramlaşmaq adətini isə, hətta altı min il kimi çox böyük bir məsafə də yaddaşlardan poza bilməmişdir.

Mən bu sətirləri yazdıqca öz-özümə düşünürəm: nə yazıq ki, babalarımız bizi türkün türk olduğunu sübut etmək kimi cəfəng bir problem qarşısında qoyublar, keçdikləri yolu, qazandıqları zəfərləri, ulusun tarixini yazı ilə əbədiləşdirməyə həmişə laqeyd münasibət göstəriblər, onun gələcəkdə necə böyük fəsadlara yol aça biləcəyi üzərində heç düşünməyiblər. Bilirsiniz bu nəyə bənzəyir? Sən bütün ömrün boyu halal zəhmətinlə bir xəzinə qazanırsan, amma qazandıqlarının haqq-hesabını aparmırsan, həyatdan köçəndə isə bu xəzinəni varislərinə tapşırmaq əvəzinə, torpağa basdırırsan. Başqaları bu xəzinəni tapıb öz adına çıxır və halal dədə malı kimi xərcləyir.

Əgər ulularımızın keçdikləri həyat yolunu tarixin toz-torpağı altında qalan həmin xəzinə hesab etsək, o zaman təəssüflə qeyd etmək lazımdır ki, xalqlarımıza məxsus olan bu əmanətdən onun əsil sahiblərinə heç nə çatmayıb. Türklər qələm tutmaqda usta olmayıblar, onlar döyüşdə, qılınc çalmaqda usta olublar. Dədələrimiz düşmənə qarşı nə qədər güclü, cəsarətli sayılırdılarsa, zamana qarşı mübarizədə bir o qədər aciz və əliyalın idilər. Məhz bu üzdən indi tarixin amansız axınına qarşı üzməyə və «Biz kimik, ha-





radan gəlmişik, hara gedirik?» suallarına iynə ilə gor qaza-qaza cavab axtarmağa məcbur qalmışıq.

Bu vaxtacan tədqiqatçılarımızdan heç kəs belə bir suala cavab tapmağa çalışmayıb: İkiçayarasının həm şimalında, həm cənubunda, həm də mərkəzində yaşayan, eyni dilin çeşidli ləhcələrində danışan, çox sonralar sak, kəngər, etrusk, subar, turuk, hun, qıpçaq, uyqur, kuman, karluk, oğuz və s. adlanan bu etnoslar necə və hansı zərurət üzündən tarixin müxtəlif zaman qatlarında mövcud olmuşlar?

Bir zəncirin eyni halqaları olan bu etnosların geneoloji ardıcıllığı, bir-birinə təsiri və qarşılıqlı münasibətləri, onların ilk və son aqibətləri indiyəcən tutarlı şəkildə araşdırılmamışdır. Əgər bu tayfalar daha qədim bir kökün budaqlarıdırsa, onda bu kök necə adlanırdı?

Z.Həsənov «Çar skifləri» kitabında çox cəsarətli bir nəticəyə gəlmişdir: «Herodotun və Rəşid əd-Dinin təsvir etdikləri quzlar-oğuzlar eyni dərəcədə bütün müasir türklərin əcdadları hesab olunurlar».

Amma gəlin qərar verməyə tələsməyək. Çünki ortada aydınlaşdırılması gərəkən çox mühüm bir problem vardır. Əgər oğuzların soy babası Tarqıtaydırsa, Tarqıtay isə təxminən 3800 il bundan əvvəl yaşayıbsa, bəs onda e.ə. III minilliyin axırlarına doğru bütün Şumeri işğal edən qutilərin, qədim mətnlərdə e.ə. III minilliyin ortalarına aid edilən subarların, tarixi onlardan da dərinə uzanan ağ sakların taleyi necə olsun? Məntiqi cəhətdən belə çıxır ki, bu tayfalar türkdilli deyildilər.

Bu, həqiqətən belədirmi?

## XII FƏSİL

# SUBAR – KENGİR: BİR ALMANIN İKİ ÜZÜ

Aysız-ulduzsuz zülmət bir gecə təsəvvür eləyin, sonra da fantaziyanıza güc verib mümkün olmayan belə bir şey düşünün: aydın bir səhərdə dayanaraq bu zülmət qaranlığa baxırsınız. Qarşınızda açılacaq mənzərəni xəyal edə bildinizmi?

Tarix də belədir. İyirmi birinci yüzilliyin aydınlığından baxanda keçmişimiz bizə qaranlıq gecə kimi, «qara duman» kimi görünəcək. Bu qaranlığa işıq tutacaq bəlgələr - aydınların yazıb qoyduqları xronikalar da çox vaxt işə yaramır, çünki bu bəlgələrdəki ziddiyətlər, uyğunsuzluqlar yolumuza çıraq tutmaq əvəzinə bəzən bizi daha da qatı zülmətə bürüyür. Tarixçinin işi, vallah, çox zordur, o bütün ömrü boyu sanki iynə ilə gor qazır.

Mən subarlar barədə düşünəndə nədənsə həmişə gözümün önünə zülmət kimi qaranlıq gecə və iynə ilə gor qazan tarixçilərimiz gəlir. Bunun nə üçün belə olduğunu, doğrusu, heç özüm də dəqiq bilmirəm. Bəlkə ona görə ki, tarixçilərimiz iynə ilə gor qazmağın əzabından qorxaraq subarlar barədə bu qədər az yazmışlar? Ya bəlkə də tarixin qaranlıq dolanbaclarında yollarına işıq tutacaq bir nəsnə tapa bilməmişlər?





Səbəb nə olursa-olsun, nəticə çox acınacaqlıdır. Tariximizin mühüm bir parçası araşdırılmamış, etnogenezimizin formalaşmasında əhəmiyyətli rol oynayan subar tayfalarının təşəkkül tarixi, irqi və linqivistik mənsubiyyətləri, etnonimin yaranma səbəbləri, mənası, mahiyyəti açılmamışdır. Bu gün subarlar bizdən o qədər uzaqdırlar ki, onlara çatmaq sanki bir xəyal kimi görünür.

Gəlin biz ənənəvi yoldan bir qədər kənara çıxaq və keçmişdən gələcəyə doğru deyil, gələcəkdən – indiki günlərimizdən keçmişə doğru yolçuluğa çıxaq.

Azərbaycanın cənub bölgəsindəki rayonlardan biri Biləsuvar adlanır. Eramızın birinci minilliyində bu, möhtəşəm bir şəhərin adı olub. Respublikamızın şimal bölgəsində suvarlar başqa bir toponimə də öz damğalarını vurublar: Qaleysuvar.

Kimdi bu suvarlar? Onların Azərbaycan türkləri ilə hər hansı bağlantıları varmı?

Suvar adı ilk dəfə Ptolomeyin əsərlərində xatırlanır. V.V.Bartold isə belə hesab edir ki, suvarlar bulqar türk tayfalarından dönmədir, yaxud onun bir hissəsidir. Elmi ədəbiyyatda bu adın daşıyıcılarının Xəzər dənizinin şimal-qərbində hunlarla qarışıq şəkildə yaşadıqları qeyd olunur. Görünür, məhz bu səbəbdən bir çox mənbədə suvarlar, həm də hun adlandırılırlar.

Görkəmli Azərbaycan alimi Q.Qeybullayev suvarları savarlarla eyniləşdirir. O savarlarla ki, K.Kreçmerə görə, hələ Herodotdan yaxşı tanıdığımız «kişi öldürən amazonkaların» adı bu sözdən yaranıb: sava-

ramat-savromat. Bu fikri dəstəkləyən Q. Qeybullayev iddia edir ki, birinci minilliyin V əsrində bünövrəsi qoyulan Şabaran (Şabran) şəhəri də savarların adı ilə bağlıdır. Bu toponim «savar» kökünün «an» suffiksi ilə birləşməsindən əmələ gəlmiş, zaman keçdikcə türk dil qanunlarına uyğun olaraq **s-ş**, **v-b** əvəzlənməsi nəticəsində Şabran şəklinə düşmüşdür.

Bəs savarlar kim idi və onlar Xəzər dənizinin şimal-qərbinə haradan gəlmişdilər? Q.Qeybullayev yazır ki, savarlar (suvarlar) Azərbaycan ərazisinə bir neçə axınla köç etmişlər. ilk axın birinci minilliyin lap başlanğıcında gerçəkləşmiş və nəticədə Şabran şəhəri salınmışdır.

Suvarların ikinci axını VI-VII əsrlərə təsadüf edir. Onlar 515 və 546-cı illərdə kütləvi şəkildə Albaniyaya soxulmuşlar. Suvarların bu istilasından Azərbaycanın cənub bölgəsindəki Biləsuvar şəhəri və Quba ərazisindəki Qaleysuvar (Qalesuar) qalası yadigar qalmışdır.

Əgər suvarlar Azərbaycan ərazisinə sonradan gəlmişlərsə, bəs onların Ata yurdu haradır, bu tayfaların etnik tərkibi necə formalaşmışdır?

Təəssüf ki, Azərbaycan tarixçiləri bu suala aydın, konkret və inandırıcı cavablar verməmişlər. Ümumiyyətlə, Azərbaycan alimləri nədənsə həmişə suvarlardan yan keçmiş, Azərbaycan türklərinin etnogenezində mühüm rol oynayan bu tayfaların varlığını sanki heç görməmişlər. Orta və ali məktəblərimizin tarix dərsliklərində Azərbaycan ərazisində yaşayan bütün etnik tayfalar barədə az və ya çox dərəcədə da-





nışılsa da, suvar tayfaları demək olar ki, toxunulmaz qalmışdır.

Mən bu qısa qeydlərimlə həmin boşluğu doldurmaq fikrindən çox uzağam. Bu işi bizim peşəkar tarixçilərimiz görməlidirlər və inanıram ki, yaxın gələcəkdə bu problemin həllinə diqqət artırılacaqdır. Əslində, mən bu günümüzlə keçmişimiz arasında kiçik bir körpü qurmaq və suvarların tarixin alt laylarına uzanan köklərini araşdırmaq istəyirəm.

Söhbətimizə ondan başlayaq ki, eramızdan əvvəlki III minilliyin ortalarından yazılı mənbələrdə adı keçən subar etnonimi ilə suvar etnoniminin oxşarlığı diqqət çəkir. Bu, sadəcə, fonetik oxşarlıqdır, yoxsa bu oxşarlıq onların daha dərin bağlantılarından xəbər verir?

Əvvəlcə onu qeyd edək ki, qədim türk dillərində həm «sub», həm də «suv» eyni mənanı verir: su, çay. Söz köklərinin bu eyniliyi suvarların subar tayfalarının varisləri və davamçıları olduqlarını inamla söyləməyə imkan verirmi?

Bəzi tədqiqatçılar «sub» kökü ilə bağlı öz şübhələrini dilə gətirirlər. Buna Zamua ölkəsindəki yüksək Sub dağlarının adı səbəb olmuşdur. Dağı su anlamına gələn sözlə adlandırmaq nə dərəcədə ağlasığandır? Üstəlik, Dağıstan xalqlarından birinin dilində «sub» dağ deməkdir.

Fikrimizcə, bunun suvar və subar tayfaları ilə heç bir əlaqəsi yoxdur. Məsələ burasındadır ki, e.ə. III-II minilliklərdə Zaqroş dağlarında və Urmiya gölünün cənubunda ayrıca su tayfaları yaşayırdılar və

bütün mənbələrdə bu tayfalar suv, suvbi, yaxud sumbi adlandırılıb. İrəli qaçaraq deyim ki, bir çox qaynaqlarda, hətta Aratta da mixi işarələrlə «Su ölkəsi» kimi göstərilmişdir.

«Sub», həmçinin, latınca yanında, ətrafında, altında, aşağısında demək olduğundan «subar»ı «çay yaxınlığındakı, çay ətrafındakı ölkə» kimi də təfsir etmək mümkündür. Ancaq bunun üçün əvvəlcə latın «sub»unun mənşəyini, yaranma tarixini dəqiqliklə araşdırmaq lazımdır.

Z.Bünyadovun və Y.Yusifovun redaktor olduqları «Azərbaycan tarixi» dərsliyində yazılır: «Bir sıra tədqiqatçılar «su» etnonimini İkiçayarasının şimalında geniş bir ərazidə yaşayan Subir (Subar) və Urmiya gölü hövzəsində yerləşən suvbi (sumbi) tayfa adlarının qısaldılmış (şəkilçisiz) forması hesab edərək Subər (Subar) adlarını sonrakı türk mənşəli sabir (suvar) tayfalarının adları ilə eyniləşdirirlər».

Onu da əlavə edək ki, qədim mənbələrin çoxunda, hətta lulluların da daxil olduqları tayfa birləşmələrində təmsil olunan xalqların hamısına bir yerdə «su tayfaları» deyirdilər. Görünür, həmin dövrdə «su» birləşdirici ad olmuşdur. Qədim mənbələr ayrıca Sutium ölkəsinin varlığından da xəbər verirlər. Bunun subarlarla hər hansı bağlantısı varmı?

Faktlara müraciət edək.

Azərbaycan tarixçisi F.Cəlilov yazır ki, e.ə. üçüncü minillikdə indiki Bağdadın aşağı hissəsinə Kenqir (Kəngər), yuxarı hissəsinə isə Subartu (Subar) deyirdilər.





Bu fikirlə ona görə razılaşmaq mümkün deyil ki, şumer dilindəki kenqir sözü elə türk dilindəki suber deməkdir və təəccüblü də olsa, hər ikisi Ölkə anlamına gəlir. Təbii ki, bu səbəbdən Şumerin bir hissəsinə Kenqir, başqa bir hissəsinə isə Suber deyilə bilməzdi.

Biz Suber adının yaranması barədə «Şumer kilidi»nin «Kenqir, Sennaar, yoxsa Şumer» fəslində ətraflı söhbət açmışıq. Qısaca xatırladım ki, İ.M.Dyakonov Kİ.EN.QİR sözünün hansısa yerli xalqın dialektində guya «sumer» şəklində səsləndiyi barədə iddiaların heç bir əsli və elmi əsası olmadığını yazmışdı. Biz də sübut etməyə çalışmışdıq ki, İ.M.Dyakonovun elmi cəhətdən əsaslandıra bilmədiyi bu dialektdə yerli xalq olan türklər danışırdılar. Şumerdə ölkəyə Kİ.EN.QİR (Kenqir) deyirdilər. Bu məcazi bir ifadəydi, tərcümədə «müqəddəs yer, dağ» mənasını verən Ölkə anlamına gəlirdi. Türklər şumer tələffüzündəki «dağ» sözünü «su» sözü ilə əvəz edərək Ölkəni Sub+er (su, yer) formasına salmışdılar. Dəyişikliyə səbəb o idi ki, türklərin yaşam tarixində Ölkəni susuz təsəvvür etmək mümkün deyildir.

Kənardan gələnlər Şumeri Kenqirdən daha çox Suber (Sumer) kimi tanıyırdılar. Belə görünür ki, e.ə. IV minilliyin sonlarına doğru, bəlkə də e.ə. III minilliyin başlanğıcından Şumer ləhcəsindəki kenqir adı ilə yerli xalqın dialektindəki suber adı yanaşı işlədilmişdir.

O.Süleymenov yazır: «E.ə. III minilliyin ortalarında akkadlar Şimali Mesopotamiya vilayətlərini Suber, Suber-t (t qadın cins şəkilçisidir) adlandırırdılar.

(Amma bu adı akkadlar verməmişdilər – R.C.). E.ə. I minillikdə Şimali Mesopotamiyada kiçik Şuber dövləti qalmışdı. O zamanlar Şuber termini Assuriyanın Ölkə anlamına gələn poetik sinonimi kimi işlədilirdi. Mesopotamiyanın cənubunda, Dəclə və Fərat çaylarının aşağı axarında da subari, yaxud şubari köçəri tayfası haqqında məlumat vardır».

Belə görünür ki, Suber sözü etnik və linqivistik mənsubiyyətlərin daha qabarıq şəkildə üzə çıxması ilə İ.M.Dyakonovun «yerli» hesab etdiyi xalq tərəfindən lokallaşdırılmış, geniş mənada Ölkə adından daha dar mənada etnotoponimə çevrilmişdir. Bunu ölkənin həm cənubunda, həm də şimalında ayrıca şuber, yaxud subar tayfalarının qalması da təsdiqləyir.

Tədqiqatçıların tarixi həqiqəti görməməsi, bəlkə də görmək istəməməsi ucbatından subar tayfalarının kimliyi, bu günəcən doğru-dürüst aydınlaşdırılmamış, onların türkdilli olduqları birmənalı şəkildə qəbul edilməmişdir. Bu yanlış ənənə elə bu gün də davam edir, subarların mənşəyi barədə bir-birinə daban-dabana zidd olan fikirlər söylənir. Ən pisi budur ki, tarix dərsliklərimizdə subar tayfalarının adı yerli-dibli çəkilmir. F.Cəlilovun qısa qeydlərini nəzərə almasaq, Azərbaycan alimləri bu böyük tayfa birləşməsi barədə, demək olar ki, heç nə yazmamışlar.

Əvvəlcə F.Cəlilovun qeydlərinə qısa sətirlərdə nəzər salaq.

* Subarlar haqqında məlumatlar beş min ildir ki, davam edir. Məlum olur ki, e.ə. II minilliyin ortalarında Sibirə qədər getmiş, iki min il sonra subar soylu boylar yenidən Xəzərin üstündən Ata yurda dönmüşlər.




* İkiçayarasına soxulan samilər Akkad şəhəri ətrafında güclənib subarları şimala doğru sıxışdırırdılar.

* Aşağıdan assur, yuxarıdan Qafqazdilli hurri tayfalarının arasında qalan subarlar üç qola ayrıldılar. Onların bir hissəsi qərbə, bir hissəsi şərqə çəkildi. 38-ci paralel boyu qərbə gedən subarlar başqa tayfalar arasında əriyib etnik və linqivistik görkəmlərini itirdilər. Şərqə gedənlər əvvəlcə Urmiyə gölü hövzəsində yerləşdilər. Daha sonralar isə Sibir və Türküstan tərəfə miqrasiya etdilər.

* Mərkəzdə qalan subar tayfaları Dəclə və Fərat çaylarının yuxarı axarlarında, Van gölündən qərbdə, indiki Bitlislə Diyarbəkr arasında yerləşib öz dövlətlərini qurdular.

Assuriya və Urartu kimi iki təcavüzkar dövlətin arasında qalan subarlar döyüşkən ruhları və cəsarətləri sayəsində zaman-zaman öz düşmənlərinə ağır zərbələr vurmağı bacarırdılar.

Etnonimin kökündəki türk damğasına (sub) baxmayaraq subarların kimliyi mübahisə obyekti olaraq qalır. Onların Mesopotamiyada yerli xalq olması da tədqiqatçılar tərəfindən birmənalı qarşılanmır. Tarixi coğrafiyada subarlar, adətən, İkiçayarasından şimal-qərbdə, Van gölü ilə Urmiya gölünün arasında, Yuxarı Zab çayı ətrafında yerləşdirilir. Təkcə F.Ağasıoğlu yazır ki, qədim dövrlərdə İkiçayarasının aşağı hissəsi kenqir, yuxarı hissəsi isə subar adlanırdı. Biz isə belə düşünürük ki, «suber» və «kenqir» bu ərazilərdə işlədilən iki ləhcənin fərqli fonetik səslənişi olsa da, ma-

hiyyətcə eyni anlama gəlir. Sadəcə, Şumer dövləti parçalanarkən yerli xalq o dövr üçün ümumiləşdirici Suber adını İkiçayarasının mərkəzində yaratdığı ölkəyə vermişdi. Hətta bir qədər sonra formalaşan Assuriya dövlətinin «poetik sinonimi» də (O.Süleymenov) Suber, yaxud Subert idi.

Türk linqvistikasındakı «Şumer izini» qəbul etməyən sovet və qərb alimləri bu oxşarlığı daha çox «yan təsirlərlə» əlaqələndirməyə çalışırlar. Tarixdə bu cür hallar olmuşdur.

Kiçik Asiyanın şərqində, Anadoluda yaşayan hetlərin panteonları və əfsanələri bütünlüklə və başdan-başa Şumerdən götürülüb. Hett dilinin şifrəsi açılarkən aydınlaşıb ki, bu dildə çoxsaylı Şumer piktoqramlarından, hecalarından və bütöv sözlərdən istifadə edilmişdir. Hetlər bu dili fəal şəkildə öyrənirdilər. Hətta Şumer-hett məktəb lüğəti tapılmışdır. Bu iki xalqın heç bir mədəni, sosial və linqvistik əlaqələrinin olmadığı tarixdən bəllidir. E.ə. 1600-cü ildə hetlər Babilistanı işğal edəndə Şumer artıq bir xalq və bir dil kimi mövcud deyildi. Alimləri çaş-baş salan da elə budur. Necə olur ki, Şumer dili, ədəbiyyatı və dini min il sonra, həm də Asiyanın tamam başqa bir hissəsində yerləşən bir xalqın dilinə, dininə və mədəniyyətinə bu qədər böyük təsir göstərə bilmişdir?

Məşhur şumeroloq Z.Sitçinin sözlərinə görə, alimlər bu yaxınlarda sübut etdilər ki, bu iki mədəniyyətin arasında körpü rolunu hürrilər oynamışlar.

Bəzi mənbələrdə hürri, bəzi mənbələrdə hürrit yazılan bu sözün mənası "azad insanlar" deməkdir.





Bəlkə və çox güman ki, dilimizdəki "hürriyyət" – azadlıq sözü məhz bu kökdən yaranıb.

Hürrilər Şumer ölkəsinin şimal hissəsində, böyük bir ərazidə yaşayırdılar. Ən böyük ticarət mərkəzi Balix çayı üzərində yerləşən Harran şəhəri idi.

Mahmud Kaşğarinin "Divani-lüğət-it türk" əsərinə inanmış olsaq, "balix" qədim türk sözüdür, hündür divarla əhatə olunmuş şəhər, qala deməkdir. Belə çıxır ki, hürrilər bu sözü türklərdən əxz etmişlər, yaxud hürrilər bu torpağa gələnə qədər orada artıq türk izi, yaxud türk damğası olmuşdur?

Yaxud, Aran Nuhun səkkizinci şəcərəsi olan İbrahimin (Avraamın) qardaşının adı idi. Qafqaz albanlarının türk hissəsinin Aran adlanması faktı da tarixdən bəllidir. Z.Həsənovun "Çar skifləri" əsərində "aran" qədim türk sözü kimi təfsir olunur və "bol suyu olan yer", "taxılı bol olan yer", "geniş əkinçilik ərazisi" anlamına gəldiyi bildirilir. Türk toponimləri İkiçayarasının şimal hissəsinə necə və haradan gəlib çıxmışdır? Biz bu suala «Dədə Qorqud peyğəmbərliyi» fəslində aydınlıq gətirməyə çalışdıq. Xatırlayırsınızsa, yazmışdıq ki, türklər bu ərazidə yerli xalq olduğundan həm İkiçayarasındakı toponimlərə öz damğalarını vurmuş, həm də sonradan gələn tayfaların, tayfa birləşmələrinin, hətta şumerlərin linqivistikasına güclü təsir göstərə bilmişdilər.

Araşdırmalar sübut etmişdir ki, bütün mifoloji hett mətnlərinin ilkin mənbəyi məhz hürri mətnləridir. Tədqiqatlar dərinləşdikcə başqa bir qaranlıq məsələyə də aydınlıq gətirilmişdir. Sən demə, hürri mətn-

ləri eynilə qədim Şumer mətnlərinin təkrarı, yaxud onun dəyişdirilmiş surətidir. Hətta hürri incəsənəti də forma, məzmun və simvolika baxımdan Şumer incəsənəti ilə üst-üstə düşür.

Necə və hansı yolla?

Bizim tarix dərsliklərimizdə hürrilərin e.ə. II minilliyin başlanğıcından Suriya, Şimali İkiçayarası və Urmiya gölünədək olan ərazilərdə yaşadıqları bildirilir.

E.ə. XIV-XIII əsrlərdə hürrilər Mitanni dövlətini yaratmışdılar. Hətta onların öz ağalıqlarını qutilər və lullular üzərinə də yaya bildikləri ehtimal olunur. Bəzi alimlər Herodotun "Tarix"indəki matiyenləri hürrilərlə eyniləşdirməyə cəhd göstərmişlər. Lakin özbəklər və qaraqalpaqlar arasında muyten, mitan, mütten türk soy adlarının olması bu ehtimalı yalanlamışdır.

Manna onomastikasında hürri mənşəli adlara təsadüf edilir. Alimlərin fikrincə, bir sıra türk adları, o cümlədən Zaza, Lidaya hürri kökənlidir.

Şumerlə heç bir iqtisadi, siyasi və mədəni əlaqəsi olmayan hetlər hürri "körpüsü" sayəsində qədim sivilizasiyanın "ortaq ölkəsinə" çevrilmişdir. Bu baxımdan, bəlkə türklərin də taleyi hetlərin taleyinə bənzəyir? Bəlkə onlar da Şumer-türk "ortaqlığına" hürrilər və ya digər başqa xalqlar sayəsində çata bilmişlər?

Əldə olan faktlar bunu təsdiqləmir. Məsələn, türk dillərində də "azad, azadlıq" mənasını verən hürri etnonimi, sən demə, bu xalqın özünə məxsus deyilmiş. Şumer mətnlərində Zaqroş dağları "Hurrum" adlandırılmışdır.





Faktlar göstərir ki, şumer və akkadların şimal qonşusu olan hürrilər e.ə. III minillikdə İkiçayarasındakı yerli sakinlərlə qaynayıb-qarışmış və III Ur sülaləsi dövründə Şumer həyatında mühüm rol oynamışdır. Hürrilərin mənşəyi barədə çeşidli ehtimallar mövcuddur. Məsələn, bir vaxt alimlər belə hesab edirdilər ki, hürrilərin Kür-Araz mədəniyyəti ilə yaxın bağlılığı vardır, onlar Ön Asiyaya məhz buradan miqrasiya etmişlər.

Başqa bir mülahizəyə görə hürrilərin əcdadları subar tayfaları olmuşlar. İ.Dyakonov yazırdı ki, hürrilərin tutduqları ərazidə əhalinin etnik tərkibi, mənşəyi və soy-kökü, onların sonrakı taleləri barədə alimlər arasında yekdil fikir yoxdur. Buna baxmayaraq, alim bir sıra tədqiqatçılara istinad edərək subarlar və hürrilər arasında yaxın bağlantı ola biləcəyi ideyasını irəli sürmüşdür. Həqiqətən də, bir sıra qərb alimləri subarları hürrilərin əcdadları hesab edir, hürri mədəniyyətinin subar mədəniyyətindən qaynaqlandığını bildirirdilər. Yəni xetlərlə şumerlər arasında «körpü» rolu oynayan hürrilər, əslində özləri də «subar körpüsündən» keçməli olmuşlar.

Bəs subarlar özləri kimdir?

Fikrimizcə, bir etnos kimi, e.ə. III minilliyin başlanğıcına doğru formalaşan subarlar yerli xalq olan qarabaşların (sakların) ayrılmaz tərkib hissəsi, bel sütunu, başlıca aparıcı qüvvəsi idi. Mərkəzi hakimiyyət uğrunda mübarizə gücləndikcə, tayfalaşmalar da dərinləşir, qarabaşlar yeni-yeni qollara ayrılırdılar. Qədim türk ləhcəsində Suber, Sumer adlanan Kİ.EN.QİR ölkəsinin sakinləri daxili çəkişmələr, gərgin mübarizə-

lərdən sonra öz əvvəlki dayaqlarını getdikcə daha çox itirir və amansız rəqabətə tab gətirməyərək parçalanır, yurd-yuvalarını tərk edir, şimala və cənuba doğru çəkilmək məcburiyyətində qalırdılar. Bu tayfaların İkiçayarasından apara biləcəkləri ikicə şey vardı: minilliklərə söykənən qədim Şumer təcrübəsi və bir vaxt birləşdirici, ümumiləşdirici məna kəsb edən adlar. Həm subarlar, həm kəngərlər, həm saklar bir vaxt dünyaya meydan oxuyan superetnosun – qarabaşların dağılmış, didərgin düşmüş, cəlayi vətən olmuş hissələri, parçaları idi. Ən maraqlısı budur ki, bu üç etnosun hər biri Azərbaycan türklərinin formalaşmasında mühüm və əvəzsiz rol oynamışdır.

Bizim də laqeydliyimiz ucbatından subarların türkdilli tayfalar olması barədə ideya elmi ədəbiyyatda bu gün də birmənalı qarşılanmır.

Müxtəlif qaynaqlarda gah subar, gah subartu, gah şubur, gah da subir kimi yazılan bu tayfalar barədə çeşidli məlumatlar verilmişdir. Çox vaxt su və subar tayfalarını eyniləşdirirlər. III Ur sülaləsi sənədlərində və Şumer ədəbi mətnlərinin Babil surətlərində Su Zaqroş dağlarının şərqində və şimal-şərqində yaşayan tayfaların, o cümlədən lulluların ümumi adı kimi verilmişdir. E.ə. III minilliyin ikinci yarısına aid Akkad yazılarında da Su ölkəsindən bəhs olunur.

Su ölkəsi Subartunun bəzi qaynaqlardakı yozumudurmu, yoxsa bu ölkələr həqiqətən müxtəlif regionlarda yerləşmişlər?

Bununla bağlı e.ə. təxminən 1800-cü ildə hakimiyyətə gəlmiş Hammurapinin qələbələrindən bəhs edən Babil mətninə nəzər salmaq çox maraqlı olardı.





**"Böyük allahların köməyi ilə Mardukun sevimlisi çar Şumerin və Akkadın gücünü özünə qaytardı.**

**...O, Emutbalanın qoşunlarından və onun çarı Rim-sindən üstün oldu. Mardukun vuruşduğu qüdrətli silahın sayəsində Hammurapi Eşnunu, Subartu və Qutium qoşunlarını məğlub etdi.**

**Mardukun böyük qüdrəti ilə o, Sutium, Turukki, Kamu qoşunlarını əzdi.**

**Anu və Enlilin bəxş etdiyi böyük qüvvətlə o, Subartu ölkəsinədək olan bütün düşmənlərini əzdi".** (Z.Sitçin. "Voynı boqov i lyudey", s. 20-21).

İndi də e.ə. 2371-cı ildə hakimiyyətə gəlmiş Akkad çarı Sarqondan bəhs edən "Sarqon haqqında əfsanə" poemasından bu sətirlərə nəzər salaq:

***"Əlli dörd il hökmdarlıq etdim,***

***Qarabaşlı insanlara sahib oldum və onları idarə elədim.***

***Günlərin birində mənim çariçam İnanna***
***Göydə hökmranlığını buraxıb,***
***Yerin üzəri ilə, Elam və Şubur ölkələrinin üstü ilə ox kimi uçaraq,***
***Yorğun halda öz quluna yaxınlaşdı,***
***Uzanıb yerinə girdi.***
***Mən öz bağımdan bunu gördüm,***
***Yaxınlaşıb öpdüm və onunla yatdım".*** (Z.Sitçin. "Voynı boqov i lyudey", s. 301).

Birinci mətndən çıxan nəticə ondan ibarətdir ki, Sutium və Subartu ayrı-ayrı ölkələrdir və coğrafi ərazi baxımından da bir-birlərindən aralıda yerləşirlər. Çünki mətnə görə Subartu işğal olunmuş ərazi-

lərin lap sonuncusudur. Həmçinin o da məlum olur ki, Subartu, Qutium və Turukki e.ə. XX yüzillikdə artıq bir dövlət kimi formalaşaraq öz düşmənləri ilə müharibələr aparırdılar.

Birinci mətnlə ikinci mətnin qarşılaşdırılmasından əldə etdiyimiz nəticə isə ondan ibarətdir ki, Babil mətnində adı çəkilən Subartu ilə Akkad mətnindəki Şubur eyni ölkəyə verilmiş müxtəlif adlardır. İ.Dyakonov da bunu təsdiqləyir. Onun yazdığına görə, Subartu ilə Şubur eyni kökdəndir və bu müxtəlif adlar altında əslində bir ölkə, bir xalq nəzərdə tutulur.

Həmçinin, yuxarıdakı mətndən aydın görünür ki, Sutiumla Subartu tamamilə ayrı ölkələrdir və coğrafi vahid kimi müxtəlif bölgələrdə yerləşirlər. Lakin bu ölkələrin etnik tərkibi, linqivistik mənsubiyyətləri bu günəcən dəqiqləşdirilməmişdir. Eyni zamanda, Sutiumdan fərqli olaraq Subar dövlətinin coğrafi ərazisi barədə də fikirlər haçalanır. Alimlər Subarı Şumerdən kənarda, şimal-qərbdə, Van gölünün cənubunda yerləşdirirlər. Bu isə tarixi ardıcıllıq baxımından qeyri-dəqiqdir. Çünki yuxarıda da qeyd etdiyimiz kimi subarlar İkiçayarasında yerli xalqdı, qədim Mesopotamiya onların Ana Vətəni, Ata yurdu idi. Subarlar bu ərazilərə sonradan gələnlərin, bir tərəfdən hürrilərin, digər tərəfdən assurların güclü təzyiqi nəticəsində doğma yurd-yuvalarını tərk etməyə, şimala, Urmiya və Van göllərinin arasına çəkilməyə məcbur olmuşdular.

Qədim mətnlərin diqqətlə öyrənilməsi fikrimizin doğruluğunu bir daha təsdiqləyir.





İndi Sarqon haqqında əfsanənin aşağıdakı misralarına bir qədər diqqətlə nəzər salaq: "Günlərin birində mənim çariçam İnanna... Elam və Şubur ölkələrinin üstündən ox kimi ötərək yorğun halda mənə yaxınlaşdı".

İnanna Elam və Şubur (Subar) ölkələrinin üstündən keçərək Akkada gəlir. Əgər Elam İkiçayarasının cənub-şərqində yerləşirsə və Subar ölkəsi, alimlərimizin mülahizələrinə görə, şimalda, Urmiya və Van gölləri hövzəsindədirsə, onda bu necə marşrutdur? Belə çıxır ki, İnanna cənub-şərqdən şimal-qərbə getmiş, oradan isə təzədən geriyə, Akkada qayıtmışdır. Görəsən qədim mətndə marşrut düz göstərilməyib, yoxsa biz Subar ölkəsini doğru məkanda axtarmırıq? Nəzərə alsaq ki, daha sonralara aid olan mətndə Hammurapinin Subartu ölkəsinədək bütün torpaqları işğal etməsindən bəhs olunur, deməli, e.ə. XVIII əsrdə Subartunun şimalda yerləşdiyi təsdiq olunur. O zaman bu mətnlərdən çıxan üç nəticədən birini seçmək lazım gəlir:

1) Ya Şuburla Subartu eyni ölkə deyildir;

2) Ya Akkad mətnindəki marşrut əfsanəni quraşdıranların diqqətsizliyinin nəticəsidir;

3) Ya da Subartu ölkəsi, F. Ağasıoğlunun dediyi kimi, əvvəllər İkiçayarasında yerləşirmiş, İnannanın Elamdan və Şuburdan keçən marşrutu isə tamamilə doğrudur.

Birincisi, Şubur və Subartu adlarının eyni ölkəyə şumerlər və akkadlar tərəfindən verildiyi artıq alimlər tərəfindən sübuta yetirilmişdir. İkincisi, əfsanə yazar-

larının diqqətsizliyi barədə iddia ağlabatan deyildir. Əgər İnanna Elamdan keçərək Akkada gedirsə, Şubur mütləq İkiçayarasının mərkəzində yerləşməlidir. Başqa marşrut yoxdur.

Beləliklə, Sarqon dövrünə aid olan mətn professor F.Ağasıoğlunun araşdırmalarının həqiqət olduğunu üzə çıxarır. E.ə. XXIV yüzillikdən də xeyli qabaq Subar dövləti mövcud idi və bu türkdilli tayfalar Mərkəzi İkiçayarasında yaşayırdılar.

Subar tayfalarının türkdilli tayfalar olması barədə bizə nə bəllidir?

F.Ağasıoğlu Subar etnonimini "sub ər" – "çay adamı" kimi təfsir edir. Məncə, bu ehtimalın bir qədər təftişə ehtiyacı vardır.

Fikrimin izahına ondan başlayım ki, bəzi Azərbaycan alimlərinin "ar" komponentini hind-avropa dilləri ilə bağlamaq cəhdi yanlışdır. "Ar" şumercədir, hər yerdə su anlamında işlədilir. "Ar" komponenti ilə düzələn "ar. iş" Şumer sözü türkcə «əkinçi» anlamını verir.

Qədim türk dillərində "ar" komponenti ilə düzəldilən sözlərin çox böyük əksəriyyəti su ilə bağlıdır.

Cığatay və çuvaş dillərində "ar" su deməkdir. Arqu – böyük çay, arğı – çayın qoludur.

Azərbaycan türklərinin işlətdikləri arx – su kanalı, arat – suvarılan torpaq, arxac – heyvanlara su içmək üçün ayrılan yer, aran – suyu bol olan geniş ərazi deməkdir.

«Ar»ın türk dillərində başqa bir məna çaları da məlumdur: təmiz, saf, ilahi mənşəli kişi. Türklər təmiz qanlı, qatışığı olmayan kişilərə «ari» deyirdilər. Sonralar «ar»dan türklərin lüğət fondunda geniş yayılan «ər» forması yaranmışdır. Tarixin uzun zaman kəsiyində çox cüzi dəyişikliyə uğrayan «ar», qatışığı olmayan, saf, ilahi mənşəli kişidən sadəcə «kişi»yə çevrilmişdir.





Herodot skiflərdən (saqalardan) danışarkən yazırdı ki, tərkibində "ar" komponenti olan bütün tayfalar dinlə bağlı idi, onlar kahin sayılırdılar. Bu sözləri subar tayfalarına da aid etmək olarmı?

Erməni tədqiqatçısı E.Sevortyanın «Qədim türk dilləri lüğəti»ndə "ar" komponenti ilə düzəldilən "arba", uyğur ləhcəsindəki arpağ, arbağ sözlərinin gələcəkdən xəbər vermək, cadu etmək, ovsunlamaq və s. anlamda işlədildiyi açıqlanır. Çox ola bilsin ki, qədim türklərdə cadugərlik və kahinlik eyni məna yükü daşıyırmış.

O.Süleymenov "Şumernamə" əsərinin bir yerində yazır: "Sub-yer sulu torpaq kimi başa düşülürdü, türklər buna məhkum idilər, çünki ulu əcdadlarının yaşayış məskənlərini bataqlıqlarda, adalarda, su hövzələrində, ikiçay aralarında seçmək barədə çağırışları onlar üçün müqəddəs sayılırdı".

İndi türklərin məskən saldıqları ərazilərə fikir verin: Orta Asiyada Sır-Dərya və Amu-Dərya çaylarının arası, Uralda Ural və Volqa çaylarının arası, Azərbaycanda Kür və Araz çaylarının arası, Mesopotamiyada Dəclə və Fərat çaylarının arası... Türklərin ayağı dəyən hər yerdə bol sular və təbii ki, becərilən torpaqlar vardı.

Beləliklə, subar sözünün məna çalarını tapmaq üçün üç versiya mövcuddur:

1) F.Ağasıoğlunun təklif etdiyi sub ərlər, "su adamları";

2) İ.Dyakonovun təfsirincə – su səhrası;

3) E.Sevortyanın "Qədim türk dilləri lüğəti"ncə – cadugər su tayfaları", yaxud kahinlər;

1. F.Ağasıoğlu etnonimi "ar-ər" dəyişkən komponentdən istifadə edərək "sub ər" – su adamları kimi oxumağı təklif edir. Türk dilləri baxımından bu, təbii görünür və tamamilə mümkündür. Faktlar göstərir ki, qədim türklər təmiz, qatışığı olmayan, göylərə izdivacdan yaranan kişilərə münasibətdə «ar» komponentindən istifadə ediblər. Bu anlamda «subər», yaxud «subar», «su hövzəsində yaşayan ilahi mənşəli kişilər» ola bilər. Lakin bol sulu torpaqda yaşayanlara "su adamları" deyilməz, adətən bu epitet dənizə, okeana çıxışı olanlara, xüsusilə, gəmiçiliklə məşğul olanlara verilir. Enkinin adını xatırlayın: Ea – evi suda olan. Çünki Enki gəmiçilik işlərinə başçılıq edirdi və həyatı çox vaxt suda keçirdi. Bu anlamda subarları "su adamları" adlandırmaq, sadəcə, düzgün deyildir.

2. İ.Dyakonov belə hesab edirdi ki, "Şubir", ya da ki, "Subar"da "bir, bar" sonluqları "çöl, səhra" anlamına gəlir və "su səhrası" deməkdir. Səhra adətən susuz torpaqlara verilən addır və bu baxımdan "su səhrası" bir qədər absurd görünür.

3. Etnonimin "cadugər su tayfaları", yaxud "kahinlər" şəklində təfsir olunması da, fikrimcə, inandırıcı deyildir. Çünki "sehrbaz, cadugər" anlamını bildi-





rən daha qədim türk sözü vardır: maqa. Sonrakı fəsillərdən birində bu barədə ətraflı söhbət açılacaq. Türklər cadugərliklə, sehrbazlıqla məşğul olan bütün tayfaları maq, muğ, moq köklərindən yaranan terminlərlə çağırmışlar. Amma bu yerdə Herodotun sözlərini də unutmaq olmaz. O yazır ki, adları «ar» komponenti ilə bitən bütün tayfalar dinlə bağlıdır, yəni kahindir.

Beləliklə, aydın olur ki, eramızın birinci minilliyində Azərbaycan ərazisinə gələn, buradakı türklərlə qaynayıb qarışan suvarlar (savarlar) türkdilli subar tayfalarının birbaşa varisləridir. İkiçayarasında yerli xalq hesab olunan subarlar Şumer sivilizasiyasının təşəkkülündə və yüksəlişində də əhəmiyyətli rol oynamışlar.

Bu yerdə Subərə alternativ kimi işlədilən və Şumercə ölkə anlamına gələn, müxtəlif qaynaqlarda Kİ.EN.QİR, kengir, kanqar, kengeres, kanq, kanqyuy və s. formada işlədilən etnotoponimdən danışmamaq mümkün deyildir.

Kengir, Mesopatomiyanın ən qədim adıdır. Sözün etimoloji təhlilini "Şumer kilidi" kitabının "Kengir, Sennaar yoxsa Şumer?" fəslində araşdırmağa çalışmışıq. Kengir çoxmənalıdır, həm "odlu obyeklə göydən enən ədalətlilər", həm də "müqəddəs yer-dağ" anlamına gəlir. Eynən suber kimi, kengir adı da Şumerin iflasından sonra etnonim və etnotoponim kimi dünyanın müxtəlif bölgələrinə daşınmışdır.

Bəs məşhur türk tayfalarından birinin xalis Şumer sözü olan kenger (kəngər) adlanmasını nə ilə izah

etmək olar? Bu tayfalar Mərkəzi Asiyadan tutmuş Qərbi Avropaya, o cümlədən Azərbaycan ərazisinə qədər geniş bir sahədə yaşayırdılar.

Sovet türkoloqlarından S.O.Klyoştornı Suriya, gürcü və erməni mənbələrinə istinad edərək yazırdı ki, hələ V əsrdə Qafqaz Albanıyası ilə İberiya arasında, Göyçə gölünün şimal hissəsində, Qərbi Azərbaycan torpaqlarında Duxar, yaxud Toxar adında vilayət və onun mərkəzi Toxar qalası mövcud imiş. Klyaştornının xəbər verdiyinə görə, bu ərazi xeyli əvvəllər Kəngəri, sonralar isə "Peçeneqlər ölkəsi" adlanmışdır.

Zaqafqaziyada türkdilli kəngərlərin mövcudluğu eramızım I əsrindən məlumdur. Kəngərlər Zaqafqaziyanın iki bölgəsində – Qərbi Albaniyada, Gürcüstanın və Ermənistanın sərhəd vilayətlərində, bir də Naxçıvan ərazisində yaşayırdılar. Bu gün Naxçıvanda Kəngər düzü və Kəngərli sülaləsi mövcuddur. Ağdam rayonu ərazisində Kəngərdağ və Kəngərli toponimləri qalmışdır. Qaynaqlar səfəvi qızılbaşların arasında kəngərlu tayfalarının adlarını çəkir. Bu gün Cənubi Azərbaycan ərazisində üç Kəngərlu kəndi vardır.

Lakin kəngərlərin Zaqafqaziyaya, o cümlədən Azərbaycan ərazisinə nə vaxt və haradan gəldikləri indiyəcən aydınlaşdırılmayıb. Görkəmli Azərbaycan alimi Q.Qeybullayev kəngərlərin oğuz tayfaları olmadığını yazırdı, buna sübut kimi səlcuq-oğuz tayfalarını sadalayan Mahmud Kaşğarinin əsərində bu ada rast gəlmədiyini göstərirdi.





Orta əsr qaynaqlarında Aralıq dənizinin şimalı da daxil olmaqla Sır Dərya çayının aşağı və yuxarı axarları kəngərlərin qədim yaşayış məskəni kimi təqdim olunur. IX əsrdə yaşayan ərəb tarixçisi ibn Xordadbeh Sır Dərya çayını Kəngər çayı adlandırmışdır.

Kimdir kəngərlər, onların İkiçayarasındakı Kİ.EN.QİR ölkəsi ilə hər hansı bağlantısı varmı? Bəlkə saklar və subarlar kimi kəngərlər də Şumerin iflasından sonra yeni torpaqlar axtarışına çıxarkən bu adı da mənəvi xəzinə olaraq özləri ilə qərbdən şərqə daşımışlar? Ya da bəlkə bu, tarixin bir kinayəsi, sadəcə təsadüfi söz oxşarlığıdır?

Kenqer (Kəngər) adının ilk dəfə nə vaxt meydana çıxdığı, "kəngər" sözünün ilkin məna yükü barədə müxtəlif mənbələrdə müxtəlif fikirlər söylənilir.

Doğrudur, müxtəlif dövrlərdə bu terminin təfsirini verməyə çalışıblar, fikrimcə, bu cəhdlərin heç birisi uğurlu alınmayıb. Məsələn, Əbü-l Qazi Bahadır xan kəngər adını bir əfsanə ilə bağlayır. Bu əfsanəyə görə, düşmən üzərində qələbə çalan Oğuz xan o qədər çox qənimət ələ keçirtmişdi ki, onları atlarla daşıyıb qurtarmaq mümkün deyildi. Guya qoşunun içərisindən bir nəfər vəziyyətdən çıxış yolu axtararaq araba icad etmiş və bu arabaya «kanq» adı vermişlər. Çünki araba hərəkət edən zaman "kanq-kunq"a oxşayan cırıltı salırmış.

Başqa bir rəvayətdə deyilir ki, bir zamanlar bərk aclıq düşmüşdü, insanlar ölməmək üçün nə düşdü yeyirdilər. Sonralar «kəngər» adlanan tayfanın adamları

türklərin bir vaxt "xanqar" adlandırdıqları cır ənginar (?) meyvəsi ilə dolandıqlarına görə onları belə çağırmışlar.

Həsən Ata isə "xanqar-kanqar" sözünün "h`unq-uqr", "h`un-qar", "h`un-avar" sözlərinin birləşməsindən yarana biləcəyi ideyasını irəli sürür.

Kəngər tayfaları haqqında rus tarixçiləri L.Qumilyov və M.Artamonovla yanaşı, bir sıra Qərb və Şərq alimləri də önəmli məlumatlar vermişlər. Bu sahədə görkəmli Azərbaycan alimi, professor Qiyasəddin Qeybullayevin zəhməti xüsusilə çox böyükdür. Məhz onun səyi nəticəsində kəngərlər barədə söylənən dolaşıq və ziddiyyətli fikirlərə aydınlıq gətirilmiş, Cənubi Qafqazda kəngərlərin mövcudluğu tarixi dəqiqləşdirilmişdir.

Professor Əsməd Muxtarovanın "Türk xalqlarının tarixi" kitabında kəngər tayfalarının siyasi, iqtisadi və mədəni həyatı barədə geniş və hərtərəfli məlumat toplanmışdır.

Mən bu sahədə Altay Məmmədovun böyük xidmətlərini qeyd etmək istərdim. Onun 1996-cı ildə çap etdirdiyi, tarixi faktlarla zəngin olan "Kəngərlər" kitabı tariximizin bu qaranlıq səhifəsinə xeyli işıq salır. Müəllif çox haqlı olaraq yazır ki, "indiyəcən tarixçi alimlər türklərin yarandığı ilk məkanı qəti müəyyənləşdirə bilməmişlər, heç türk irqini də dəqiq təyin edə bilməmişlər".

Eyni sözləri türk tayfalarının ən qədim və ayrılmaz qolu olan kəngərlər barədə də demək olar.

Beləliklə, kimdi kəngərlər?..





"Qədim türk dili lüğəti"ndə "kengeres-kenq" sözünün genişlik, böyüklük, çoxluq, zənginlik, səxavət mənasını verdiyi bildirilir.

Rəşid əd-Dinin "Oğuznamə" əsərində kanqlılar arabanın ilk ixtiraçıları kimi təqdim olunurlar. "Kanqlı" elə "arabalı" deməkmiş.

"Oğuznamə" əsərinin tərcüməçisi, tərtibçisi və şərhçisi R.Şükürova müqəddimədə Əbü-l Qaziyə istinad edərək yazır ki, kanqlı (kəngər) və uyğur tayfaları çox qədim tayfalardır. Onlar hətta Oğuzdan da xeyli əvvəl mövcud idilər.

Professor Əsməd Muxtarova özünün "Türk xalqlarının tarixi" monoqrafiyasında yazır: "Eramızdan əvvəl IV-III əsrlərdə Qərbi Türküstanda yeni türk tayfa birləşmələri təşəkkül tapdı. E.ə. II əsrə aid Çin mənbələrində Kanq (Çin mənbələrində bu ad Kanszyuy və Kanqyuy şəklində yazılırmış) dövləti haqqında da məlumatlar vardır".

Müəllif daha sonra yazır: "Antik mənbələrdən məlumdur ki, e.ə. I minilliyin əvvəllərində Kanq dövlətinin təşəkkül tapdığı ərazidə sak-massaget tayfaları məskunlaşmışdı". Bəlkə də Sır-Dərya çayının bir adının Kanqar olması heç də təsadüfi deyil? Kanqların bu əraziyə nə vaxt və haradan gəldiyi aydınlaşdırılmayıb. Amma onlar türk tayfalarının ənənəsinə sadiq qalaraq özlərinə ikiçayarasını – Sır-Dərya və Amu-Dərya çaylarının aralığını məskən seçmişdilər. Kanq, Kanqar sözünün etimologiyasını müxtəlif cür yozurlar: bəziləri "inadcıl, qətiyyətli, cəsur, mərd", bəziləri isə "cəsarətli və alicənab" kimi. "Kanq" sözünün

Dağlıq Altaydakı kanq ("dik qalxmış dağ"), ya da İran dillərindəki kan (kanal, çay) sözündən törəyə biləcəyi ehtimalı da irəli sürülür. Ə.Muxtarovaya görə, kanqlar sonradan hunlarla birgə kanqar (kəngər) adı ilə qərbə köç etmiş və onlar Cənub-şərqi Avropaya, oradan isə Azərbaycan ərazisinə gəlmişlər.

Əsməd Muxtarovanın yazdığına görə, erkən orta əsr mənbələrində kanqlar "kəngər" adlandırılır və peçeneqlərlə eyniləşdirilirdilər. Bizans müəllifi Konstantin cənub-şərqi Avropada yaşayan peçeneqlərin bir hissəsinin həm də kanqar adlandırıldığını yazmışdır. Ə.Muxtarova öz tədqiqatları nəticəsində belə qənaətə gəlmişdir ki, "kəngər" etnonimi qədim peçeneqlərin bir hissəsinin – Kanq dövlətində yaşamış hissəsinin adıdır. Mənası isə Kanq ərləri, Kanq adamları deməkdir.

Mən kəngərlərin siyasi həyatı barədə tarixçilərin qənaətlərinə münasibət bildirmək fikrindən uzağam. Çünki qarşıma qoyduğum məqsəd bu deyil. Mən aydınlaşdırmaq istəyirəm ki, erkən kəngərlər harada təşəkkül tapmışlar, onlara bu adı kim vermişdir?

Bütün çaylar dənizə tökülür, eyni zamanda bütün çayların həm də başlanğıcını götürdüyü bir mənbə olmalıdır. Bəs kəngərlər öz başlanğıclarını hansı mənbədən almışlar?

Ə.Muxtarova da, A.Məmmədov da kəngərlərin Orta Asiyada eramızdan əvvəl IV yüzillikdə ömrü 700 il sürən nəhəng bir imperiya qurduqlarını qeyd edirlər. Q.Qeybullayev isə kəngərlərin Cənubi Qafqazda mövcudluğu barədə eramızın birinci əsrində





məlumat verildiyini yazır. Sovet türkoloqu S.Klyaştornı Göyçə gölünün şimal hissəsinə, Qərbi Azərbaycan ərazisinə eramızın V əsrindən çox-çox əvvəl Kəngəri deyildiyi barədə məlumat verir. Bu tarix professor Q.Qeybullayevin göstərdiyi tarixlə üst-üstə düşür. Beləliklə, məlum olur ki, Mərkəzi Asiyada qurulmuş Kanq (Kanqar) dövləti ilə təxminən eyni vaxtda Cənubi Qafqazda, Azərbaycan ərazisində də kəngər tayfaları və kəngər torpağı varmış. Bu, nəyi sübut edir?

İki şeydən birini:

1. Ya Orta Asiyada Kanq dövləti quran türklərlə Azərbaycan ərazisindəki kəngər tayfalarının sıx əlaqələri varmış, yəni onlar Xəzər dənizinin şimal hissəsindən keçərək eyni vaxtda şərqdən qərbə və qərbdən şərqə köç edirlərmiş;

2. Ya da Azərbaycan ərazisindəki kəngər tayfaları ilə Orta Asiyadakı kəngər tayfaları eyni məkandan müxtəlif ərazilərə miqrasiya etmişlər.

Birinci variant ağlabatan görünmür, çünki adətən bir xalqın miqrasiyası, yaşadıqları imperiyanın süqutundan sonra düşmənlərin ardıcıl və amansız hücumundan, ya da təbii fəlakətdən qorunmaq məqsədilə həyata keçirilir. Halbuki eramızın I əsrində Kanq dövləti özünün ən qüdrətli və çiçəklənən dövrünü yaşayırdı.

İkinci variant daha inandırıcı görünsə də, başlıca suala cavab vermir: bəs onda kəngərlər Azərbaycan və Orta Asiya ərazilərinə haradan köçmüşlər?

Bu suala birbaşa və qəti şəkildə cavab vermək qeyri-mümkündür. Ancaq müxtəlif tarixi faktlardan çıxış edərək bəzi mülahizələr irəli sürmək olar.

Əgər kəngərlər həqiqətən Şumer kimi böyük bir imperiyanın bağrından qoparaq dünyanın müxtəlif guşələrinə səpələnmişdilərsə, uzun illər yaşadıqları və yaşatdıqları təcrübəni, məsələn, dövlət idarəçiliyini, yazı mədəniyyətini, memarlıq üslubunu, gündəlik yaşam tərzinə çevrilən adət-ənənələri mütləq ən müqəddəs miras kimi özləri ilə aparmalı idilər.

Bu baxımdan Şumer və kəngər təcrübələrindən paralellər çox maraqlı məqamlar ortaya çıxarır.

Altay Məmmədov "Kəngərlər" kitabında Çin mənbələrinə istinad edərək yazır ki, kanqların sistemə salınmış qanunları, Qanunlar Məcəlləsi mövcud imiş. Bildiyimiz kimi, ölkəni Qanunlar Məcəlləsi ilə idarə etmək təcrübəsi məhz şumerlərə məxsusdur. Sonralar bu təcrübədən Akkad, Babil və Assur dövlətləri də istifadə etmişlər. Bəs kəngərlər Qanunlar Məcəlləsi yaratmağı və ölkəni qanunlarla idarə etməyi kimdən əxz etmişdilər? Yenə də eramızdan əvvəl III əsrə aid bir Çin salnaməsində göstərilir ki, kanq xalqı Çin əlifbasından və yazı sistemindən fərqli bir yazıya malik imiş. Beləliklə, türk yazı mədəniyyətinin tarixi 1000-1100 il önə atılmış olur. Deməli, hər halda türk yazı tarixi bu gün bizə təqdim edildiyindən daha qədimmiş.

Kanqlar üfüqi formada yazılan bu əlifbanı kimdən öyrənə bilərdilər?

Sualın bircə cavabı var: Heç şübhəsiz ki, Şumerdən! Kəngərlər əlifbanın vətəni olan Ölkədə yetişib formalaşmışdılar və e.ə. I əsrdə Çindən fərqli yazı sisteminə malik olmaları bir daha təsdiq edir ki, onların Ata yurdu Orta Asiya deyildir!





Aşağıda Şumer və kəngərlərin həyatından, yaşam tərzindən gətirəcəyimiz digər paralellər də kəngərlərin məhz Şumerdən qopub gələ biləcəyini bir daha təsdiqləyir.

Tarixdə ilk təkərin və ilk arabanın icadı şumerlərin adı ilə bağlıdır. Amma bir çox Qərb alimlərinin köçəri, barbar, vəhşi kimi qələmə verdikləri bir tayfa hələ eramızdan əvvəl, "dünyanın o biri ucunda", Avropadan və Mesopotamiyadan çox-çox uzaqlarda dahiyanə Şumer ixtirasını təkrarlayır. Bu, təsadüfidir, yoxsa uzun illərin birgə əməkdaşlığından süzülüb gələn təcrübənin nəticəsi?

A.Məmmədovun kitabında kəngərlərlə eyniləşdirilən peçeneqlərin "hökmdar tayfalarından" bəhs olunur. Bu adətə görə, başçı olmaq hüququ ailəyə deyil, yalnız seçilmiş tayfalara verilirmiş. Peçeneqlər həmçinin öküz başlı şeypurlardan istifadə edirlərmiş.

Kanqar dövlətinin ərazisində Şumer təcrübəsinə söykənən metaləritmə peçlərinin, Altun-Təpədə birbaşa Şumer sivilizasiyasına bağlı olan zikkuratların, Nannanın (Sinin) simvollarından biri sayılan öküz heykəlinin, digər oxşar memarlıq abidələrinin tapılması yeganə doğru olan bir nəticə çıxarmağa imkan verir: İkiçayarası bəşəriyyətin yaşam qaynağı, ilham mənbəyi olmuşdur. Qarabaşlar sivilizasiyanın süqutundan sonra ilahi Aypara nostaljisini özləri ilə dünyanın hər yerinə daşımışlar. Bu həsrət inklərin Kusko şəhərində də, Azərbaycan torpaqlarında qurulan Sakasena və Kəngəri dövlətlərində də, Mərkəzi Asiyada ömrü 700 il çəkən Kanq (Kəngər) imperiyasında

da, Sibir adında da qabarıq şəkildə önə çıxır. Türklər Şumer mədəniyyəti dağıldıqdan min illər sonra da özlərinin kenqir ölkəsindən olduqlarını unutmamışdılar. Vətən sevgisi, yurd həsrəti, keçmişlə bağlı xatirələr türk ulusunda həmişə müqəddəs sayılıb. Kanq imperiyası da yuxarıda gördüyümüz kimi, nəsillərdən nəsillərə ötürülən və heç vaxt unudulmayan Şumer nostaljisi üzərində qurulmuşdu. Dəclə və Fərat çaylarını bol sulu Sır Dərya və Amu Dərya əvəz edirdi. Ölkəni qanunlarla idarə etmək təcrübəsi də unudulmamışdı. Dəftərxana işlərindən tutmuş suvarma sistemlərinə, memarlıqdan tutmuş metaləritmə sənayesinədək hər şey ulu əcdadlarımızın yaddaşlarda yaşatdıqları «İlahi Aypara» regionunu, tədqiqatçıların Şumer adlandırdıqları Kİ.EN.QİR-i xatırladırdı. Türklər müqəddəs sandıqları hər şeyi yaşadıb ucaltmağı, həqiqətən, çox gözəl bacarmışlar.





# XIII FƏSİL

## SÜRGÜN OLUNMUŞ XALQ

Mən qutilərdən danışarkən həmişə anlamadığım şəkildə həyəcanlanıram. Onların inanılmaz cəsarəti, döyüşlərdəki amansızlığı, gündəlik yaşamdakı demokratik ruhu məndə dərin hörmət və məhəbbət hissi oyadır. İçimdə belə bir hiss var ki, sanki qutilər müasir türklərin timsalında öz təkrarsız talelərini təzədən yaşayırlar!

Qutillər kimdir? Əslində, onlar barədə o qədər az şeylər bilirik ki... Qutilərin etnik və linqivistik mənsubiyyətləri, erkən formalaşmaları, Ata yurdları bir yana qalsın, hətta onlarla bağlı ilk baxışdan mübahisəsiz görünən bir çox önəmli məsələlər barədə tarixçilərin mövqeləri kifayət qədər düşündürücüdür.

Məsələn, qutilər Şumeri nə vaxt işğal etmişlər, onların siyasi hakimiyyəti nə qədər çəkmişdir?

İ. Halken qutilərin Şumeri fəth etməsi tarixini e.ə. 2622-ci il kimi göstərir. Digər tədqiqatçılar E.Meyer, Ş.Günaltay və başqaları Quti çarlıq dövrünü e.ə. 2550-2374-cü illərə aid edirlər. Bu fərziyyəyə görə, guya qutilər dövlətinin Şumerdəki ömrü 186 il sürmüşdür. Amma digər tədqiqatçılar tamam ayrı rəqəmlər söyləyirlər: 91, 124, 132 il və s. Azərbaycan alimi F.Cəlilova görə, qutilərin Şumerdəki hakimiyyəti 91 il 40 gün çəkmişdir. Məsələyə İ.Dyakonov nöqtə qoymağa çalışmış və Azərbaycan alimləri də

onunla razılaşmışlar: qutilər Şumeri e.ə. 2200-cü ildə işğal etmiş, e.ə. 2109-cu ildə hakimiyyəti itirmişlər.

Qutilərin nə Şumerdən əvvəlki, nə də Şumerdən sonrakı taleyi barədə ötəri fraqmentlərdən savayı elmi ədəbiyyata heç nə bəlli deyildir.

Ən pisi budur ki, əldə olan bəzi faktlar, hətta Şumer dönəminin özünü də şübhə altına almağa əsas verir.

B.Turayev özünün «Qədim şərq tarixi» kitabında Kişdən başlayan və İssinlə bitən 20 çar dinastiyasının siyahısını dərc edib. Bu siyahı ilə kitabın «Daşqın» fəslində ətraflı tanış oldunuz. Bunların arasından bizim üçün önəmli olan üçünü gözdən keçirək. Bu siyahıda Akkad dinastiyası 15-cidir və Akkadda II çar 197 il hakimiyyətdə qalmışdır. Dördüncü Uruk dinastiyasında 5 çar 26 il, Quti dinastiyasında isə 24 çar, B. Turayevə görə, 124 il və ya 125 il 40 gün taxtda oturmuşlar. Akkad dövlətinin yaranma tarixi (e.ə. 2371) bəlli olduğundan bu siyahıya görə, qutilər Şumerə e.ə. 2200-cü ildə deyil, e.ə. 2148-ci ildə girmişlər. Əgər onlar 91 il hakimiyyətdə qalıblarsa, o zaman işğal etdikləri ərazini e.ə. 2057-ci, 124 il hakimiyyətdə olublarsa, e.ə. 2024-cü ildə tərk etmişlər.

Lakin «bu rəqəmlər nə qədər dəqiqdir?» deyə soruşsanız, sizi qane edən cavab ada bilməyəcəksiniz. Çünki Şumer tarixi ilğım kimidir, gözə aydın görünən çox şey bir andaca dağılıb yox ola bilir. Ona görə də sabah kimsə B.Turayevin «çar siyahısı»nı təkzib edən yeni faktlar ortaya qoyarsa, mən buna qətiyyən təəccüblənmərəm.

Qutilər hansı dildə danışırdılar?





Bu barədə tədqiqatçılar çeşidli mülahizələr söyləmişlər. Məsələn, E.A.Speyser qutiləri kürdlərlə eyniləşdirir, amma fikrini isbat etmək üçün ortaya heç bir tutarlı dəlil qoymur. Akademik İ.Əliyev də qutilərin Qafqaz dil qrupuna mənsub olduqları ehtimalını irəli sürmüş, amma bu ehtimalın təsdiqlənməsinə cüzi ümid verən heç bir fakt söyləməmişdir.

Azərbaycan alimi Kamal Əliyev e.ə. III minillikdə müasir Azərbaycan ərazisində əsasən, lullu və quti tayfalarının yaşadıqlarının müşahidə olunduğunu yazır. Alim iddia edir ki, mənbələr bu ərazilərdə üçüncü etnik komponent kimi mehrani dilində danışan mehranilərin olduqlarını göstərir. K.Əliyev yazır: "Lulluların, qutilərin və mehranilərin tayfa dili elam dili ilə qohum olmaqla bir-birinə çox yaxın idi».

Lakin burada kifayət qədər şübhəli görünən bir məsələ vardır. Mehrani sülaləsinin təməlini Sasani şahı Xosrov Ənuşiravanın qohumu Mehran qoymuşdur. Eramızın VI əsrində 30 minlik ailə ilə Qərbi Albaniyanın Girdiman vilayətinə köçən Mehran burada Girdiman knyazlığını yaratdı və beləliklə, mehranilər sülaləsi meydana gəldi. Buna görə də eramızın VI əsrində təşəkkül tapan mehranilərin guya e.ə. III minillikdə qutilər və lullularla birlikdə yaşaması barədə hansısa mənbədə göstərilən fakt heç də ağlabatan deyildir.

Quti dilinin elam dili ilə qohumluğunu isə İ.Dyakonov da təsdiqləyir. O özünün «Midiyanın qədim dövrlərdən e.ə. IV yüzilliyə qədərki tarixi» əsərində yazır: qutilər elam dil qrupuna aiddir, bu qrupa elamlar, kassilər, lullubilər və kaspilər daxildir.

Q.Hüzinq və F.Orkun da quti və lullubilərin elam dili ilə qohumluğu barədə mülahizə irəli sürmüşlər. Lakin öz fikirlərini heç bir konkret dəlillərlə sübut edə bilməmişlər. Ümumiyyətlə, quti dilinin elam dil qrupuna daxil edilməsinin özü kifayət qədər mübahisəlidir. Məsələn, İ.Əliyevə görə, lullubilər akkad mənbələrində subar adlandırılıb. Q.Qeybullayev bu fakta istinadən yazır ki, subarları assur mənbələrindəki suv və subilərlə eyniləşdirmək olar. Suvlar və subilər isə türkdilli xalq hesab edilir. İ.Dyakonov özünün başqa bir əsərində («Ön Asiyanın qədim dilləri») əvvəlki fikrindən fərqli olaraq iddia edir ki, kassilərin elam dil qrupu ilə qohumluğu hələ sübut olunmayıb. Elə bu üzdən kassi dilinin quti dili ilə qohumluğu da şübhə altına düşür. Professor Y.Yusifov qeyd edir ki, mixi yazılarda quti dilini «qəribə dillər» cərgəsinə daxil edirdilər və onu «qarışıq dil» adlandırırdılar. Müəllif yazır: «Yəqin ki, quti dili prototürk dili kimi hind-avropa və başqa dillərlə yaxın təmasda olmuş və onlar qarşılıqlı təsirə məruz qalmışlar. İkiçayarası qədim dövlətləri süquta uğradıqdan sonra «quti» etnonimi də artıq sənədlərdə işlədilmədi».

Quti dilinin hurrilərin və urartuların dilinə yaxın olduğunu irəli sürən tədqiqatçılar da vardır. Lakin bu iddiaya baxmayaraq, quti çar adlarını nə hurri, nə də urartu dilində izah etmək mümkün olmamışdır.

Professor F.Cəlilovun qənaətincə, qutilər əski türk dilində danışırdılar. Alim fikrini sübut etmək üçün quti çar adlarının türk adları ilə müqayisəli təhlilini aparmışdır.





Qutilərin linqivistik mənsubiyyətlərinə öz münasibətini bildirən Q.Qeybullayev çox haqlı olaraq yazır: «Bütövlükdə qutilərin və lullubilərin etnik mənşəyi barədə dəqiq heç nə söyləmək mümkün deyildir. Biz belə hesab edirik ki, şumer dilinin etnik mənşəyi problemi axıradək öyrənilmədən Ön Asiyadakı prototürk etnosların mənşəyi barədə dəqiq fikir söyləmək mümkün olmayacaq».

Ali məktəblər üçün nəzərdə tutulmuş «Azərbaycan tarixi» kitabının birinci cildində qeyd olunub ki, mixi yazı qaynaqlarında kuti adı ku kimi göstərilmişdir. Etnonimin kökü «ku»dur, t qədim türk dillərində cəm şəkilçisini bildirir. «Ku» sözü türk dilləri baxımından izah edilərsə, onu «ağ, ağımtıl, sarı, sarımtıl» kimi mənalandırmaq olar. Bu, həm də onunla təsdiq olunur ki, mixi qaynaqlarının birində «ağbəniz kuti qullarından» söz açılır. Z.İ.Yampolskinin ehtimalına görə, «kuti», yaxud «quti» etnonimi Azərbaycanla bağlı yad edilən uti tayfalarının adına uyğun gəlir. Sonralar sözdəki k (q) hərfi düşmüş və etnonim uti formasını almışdır.

Sözün yazılışı ilə bağlı mübahisələrin olduğu da bəllidir. Bəziləri etnonimin Kuti, digərləri isə Quti şəklində yazılmasına tərəfdardırlar. Digərləri isə belə hesab edirlər ki, hər iki variantdan istifadə etmək olar, çünki türk dillərində k-q yerdəyişməsi lap qədimdən məlumdur. Bəzi tədqiqatçılar etnonimin «kurti» yazılış formasından söz açır və görünür, bu fakta əsaslanaraq qutiləri kürdlərlə eyniləşdirməyə cəhd göstərirlər. Lakin bu ehtimal kökündən yanlışdır. Etnonim

mixi yazı qaynaqlarında həqiqətən «kurti» formasında göstərilə bilər. Kur – şumercə həm dağ, həm uzaq, yadelli ölkə, həm də nəhəng, uca, əzəmətli anlamını verir. Ti yazılışından asılı olaraq «döyüşçü», yaxud «həyat», «yaşam» deməkdir. Şumer dil qanunauyğunluğuna görə yan-yana işlədilən iki samitdən biri ixtisara düşdüyündən, «kurti» «kuti» şəklində tələffüz olunacaqdır. Beləliklə, kuti (quti) yazılışından asılı olaraq «dağda yaşayanlar, dağ adamları», «dağda yaşayan döyüşçülər», yaxud «uzaq, yadelli ölkə» mənasında başa düşülə bilər.

Maraqlıdır ki, qədim Şumer əfsanələrində həm kuti, həm də quti yazılış formalarına rast gəlirik. Onlardan biri toponim, digəri isə etnonimdir. «Naramsin haqqında kuti əfsanəsi»ndə deyilir ki, bütün dörd regionu ələ keçirməyi planlaşdıran və özünə müttəfiq axtaran Naramsin Afrikaya, müharibə allahı Nerqalın kult şəhəri Kuta gəldi, orada fil sümüyündən sütun ucaltdı və bu sütunda Afrikaya gəlişi barədə yazı həkk etdirdi.

İnannanın təşviqi və Nerqalın himayəsi ilə Misiri, Maqanı ələ keçirən Naramsin İkiçayarasındakı şəhər – dövlətləri də bir-birinin ardınca işğal edirdi. Lakin Nippurda o, Ananın müqəddəs məbədini, ekuru (akkadca zikkurat) təhqir etdi. Bu vaxt İkiçayarasında olmayan Enlil bərk qəzəbləndi və özünün «cəza dəstələrinə», İkiçayarasından şimal-şərqdə, dağlarda yerləşən qutilər ordusuna əmr göndərdi ki, Akkadı yerlə yeksan etsinlər. Əfsanədə deyilir: «Quti qoşunları çəyirtgə sürüsü kimi Akkada cumdular, əllərinə düşən





hər şeyi və hər kəsi məhv etdilər. Damda olan elə damdaca öldü, evdə olan elə evdəcə qətlə yetirildi... başları kəsildi. Möminlər dindar olmayanlara qarışdı, qəhrəmanlar qəhrəmanların üstünə qalandı, yalançıların qanı doğruçuların üstünə axdı».

Dinqirlər belə qərara gəlmişdilər ki, nə İnannanın, nə də Naramsinin hərəkətlərini onlara bağışlamaq olmaz. Göstəriş verdilər ki, Aqade şəhərinin daşı daş üstündə qalmasın. Qutilər öz vəzifələrini yüksək peşəkarlıqla yerinə yetirdilər. Şəhər dağıdıldı, yandırıldı və yerində təkcə külü qaldı.

Beləliklə, biz əfsanədə iki Kutla (qutla) tanış oluruq, biri Afrikada şəhər, biri isə Xəzər dənizinin sahillərində eyni adda ölkə və tayfa.

Yeri gəlmişkən bildirim ki, Kuta (Kut) şəhərinin Afrikada yerləşməsi barədə iddia da mübahisəlidir. A.Oppenxeylm özünün «Qədim Mesopotamiya» kitabında Kuta şəhərini İkiçayarasının mərkəzində, indiki Tell-İbrahim şəhərinin ərazisində yerləşdirir. Z.Sitçin isə «Göyə nərdivan» əsərində yazır ki, Naramsin Afrikaya, Nerqalın kult mərkəzi olan Kut şəhərinə gəldi və burada yazılı abidə ucaltdı. Bunlardan hansı daha doğrudur? Əvvəla, kut, yaxud Kuta şəhərinin müasir Azərbaycan ərazisində yerləşən qutilərlə heç bir əlaqəsi yoxdur. İkincisi, indi Tell-İbrahim adlanan Kuta şəhəri Afrikadakı kult mərkəzi ilə eyni adı daşısa da, görünür, onunla identik deyilmiş. Bunu isbat edəcək ən başlıca dəlil ondan ibarətdir ki, Ana yer kürəsini oğlanları arasında bölərkən Afrikanı və Nil vadisini Enkiyə vermişdi. Enkinin oğlu olan Nerqal təbii ki,

əmisi Enlilə aid Aypara regionunda özünə kult mərkəzi tikə bilməzdi.

Qutilərə dair çox nadir və mübahisəli məlumatlardan biri də onların Ata yurdu ilə bağlıdır. Qutilərin Urmiya gölünün cənub və qərb bölgələrində məskunlaşdığı güman edilir. Lakin onlar bir etnos kimi bu torpaqlarda formalaşmamışdılar. «Naramsin haqqında əfsanə»də deyilir ki, bir vaxt qutilər Nippur şəhərində yaşayırdılar. Bu, nə zaman olmuşdur? Təəssüf ki, suala cavab vermək mümkün deyildir. Lakin qutilərin Ata yurdunun Ön Asiya, Şumerin Nippur şəhəri olması və onların Azərbaycan torpaqlarına sonradan gəlmələri barədə məlumat da az önəm daşımır. Bəs qutilər öz Ata yurdlarını nə üçün tərk etmişlər? Əfsanədə bu suala belə cavab verilir: «Öz ağalarının üzünə ağ olduqları üçün». Deməli, qutilər dinqirlərə qarşı üsyan qaldırmışdılar və misligörünməmiş bir cəsarətlə «allahları» öldürməkdən belə çəkinməmişdilər. Buradan çıxara biləcəyimiz nəticə odur ki, sonradan quti adlanan bu tayfalar qədim Şumer ərazisində özünü qarabaş (sak) adlandıran yerli xalqın tərkib hissəsi idi. Onlar dinqirlərin ağır müstəmləkə siyasətinə dözməmiş və ayağa qalxmışdılar. Lakin cəsarətin bədəli ağır oldu: üsyançıları Nippurdan qovdular. Əfsanədə deyilir: «Utu (Şamaş) onları sürgün etdi». Çox güman ki, «sürgün yeri» – sonradan qutilərin müstəqil federativ dövlət formalaşdırdıqları Azərbaycan torpaqları idi. «Naramsin haqqında əfsanə»də Quti ölkəsi Umman Manda kimi təqdim olunur, «Umman Manda» isə uzaq, güclü qardaşların ordusu» deməkmiş. «Güclü





qardaşlar» İkiçayarasının şimal-şərqində yerləşən, «Enlilin ən ucqar torpağı» sayılan Qutium ölkəsinin başçıları, yeddi çar, yeddi qardaş idi. Onlar eyni atadan və eyni anadan doğulmasalar da ruhu, canı bir olan vahid federativ dövlət qura bilmişdilər. Bu hadisənin təxminən 4500-5000 il bundan əvvəl baş verdiyini nəzərə alsaq, o zaman qutilərin bir xalq kimi demokratik ruhuna və dövlətçilik ənənəsinə həsəd aparmaq olar.

Əfsanədə daha sonra deyilir: «Allahlar qutilərin yaşadıqları ölkədə bir sıra şəhərlər salmışdılar».

Bu hadisə nə vaxt olmuşdur və ya ümumiyyətlə, olmuşdurmu? «Allahların» Azərbaycan ərazisində yaşamaları və hətta şəhərlər salmaları fantastik hekayələrin süjetinə oxşayır. Lakin bu fantastik hekayəni uyduran mən deyiləm, «Naramsin haqqında əfsanə»də belə deyilir. Tarix dəfələrlə sübut etmişdir ki, mütəxəssislərin inanmaq istəmədikləri bir çox qədim Şumer mifoloji informasiyalarının arxasında mütləq real hadisələr və real şəxsiyyətlər durur.

Gəlin biz də bir anlığa «Narimsin haqqında əfsanəyə» adi məişət nağılı kimi deyil, tarixi mənbə kimi yanaşaq və burada verilmiş məlumatları saf-çürük etməyə çalışaq. Naramsin tarixi şəxsiyyətdir və 2291-ci ildə Akkadın hökmdarı olmuşdur. (Bu rəqəm bir qədər mübahisəlidir. Çünki bəzi tədqiqatçılara görə, ikinci piramida müharibəsinə dair qədim Şumer əfsanəsi e.ə. 2300-cü ildə çar Naramsinin tapşırığı ilə akkad dilinə tərcümə edilmişdir. Bu isə o deməkdir ki, Naramsin e.ə. 2291-ci ildə deyil, bu tarixdən daha

əvvəl taxta oturmuşdur). Deməli, əfsanədəki hadisələr e.ə. XXIII yüzillikdə cərəyan edir. Bəs dinqirləri Xəzər dənizi ətrafındakı dağlarda yaşamağa nə vadar edə bilərdi?

Belə bir fakt diqqət çəkir ki, Nuhun ilk yeddi şəcərəsi yaşamaq üçün mütləq dağlıq zonanı seçmişdir. Tövrata görə Tufandan sonra Yaxın Şərqdə yaşamaq üçün üç yararlı dağlıq ərazi vardı: Kiçik Asiya, Qara dəniz və Xəzər dənizi ətrafındakı dağlar.

İndi biz dəqiq şəkildə bilirik ki, Tövratda təsvir olunan Nuhun Tufanı ilə Şumerdəki Ziusudra Daşqınının arasında çox böyük zaman fərqi vardır. Həm də Nuh haqqındakı əfsanədə bir Seldən danışılırsa, əslində, bir-birinə bənzəyən üç qlobal Sel olmuşdur. Ən maraqlısı budur ki, Günəşin ətrafına 3600 ilə dövrə vuran «qeyb olmuş» planet hər dəfə Yerə məhz bu qlobal daşqınlardan sonra yaxınlaşmış və deməli, dinqirlər İkiçayarasına enə bilmədiklərindən ilk illər dağlarda yaşamağa məcbur olmuşlar. E.ə. XIII minillikdən başlayan və ardıcıl şəkildə üç dəfə təkrar olunan qlobal daşqın e.ə. V minilliyə qədər davam etmişdir. Tövratda Nuhun yeddi nəslinin dağlarda yaşadığı qeyd olunur. Burada konkret tarix önəmli deyil, önəmli olan odur ki, hər dəfə daşqınlardan sonra suyun səviyyəsi o qədər yuxarı qalxırmış ki, düzənliklər yaşam üçün yararsız hala düşür, suyun çəkilməsinə, bataqlıqların quruması yüzilliklər gərək olurmuş. Görünür, elə məhz buna görə də e.ə. XIII minilliklə e.ə. IV minilliklər arasında İkiçayarasında baş verən hadisələr barədə heç bir yazılı bəlgə tapılmamışdır.





S.Kramerin tərcümə etdiyi Şumer «gil kitabə»sində belə sətirlər vardır:

***Enlil dağa qalxdı və ətrafa boylandı.***
***Aşağıda su dəniz kimi axırdı.***
***Yuxarıda ətirli sidr ağacları ucalırdı.***
***O dəni yuxarı qaldırdı və dağda torpağa səpələdi.***
***Bu dəndən bol məhsul yetişəcəkdi.***
***Dağda taxıl və çörək olacaqdı.***

Poemada təsvir olunan bu hadisə üç qlobal daşqının hər birindən sonra baş verə bilərdi. Dinqirlərin Yerə gəlmə ardıcıllıqları e.ə. 11.000, e.ə. 7400 və e.ə. 3800-cü illər olduğu üçün dinqirlərin uzun illər dağda yaşamasını bu tarixlər arasında axtarmaq lazımdır. Alimlər hesablayıblar ki, buğda və arpa Yer kürəsində ilk dəfə təxminən 12 min il əvvəl mədəniləşdirilmişdir. Deməli, poemada təsvir olunan hadisələr ilk qlobal daşqından sonra baş vermişdir.

Tədqiqatçılar uzun Şumer mətninin bərpa edə bildikləri fraqmentlərini «Ninurtanın qəhrəmanlığı və əməlləri» adlandırmışlar. Bu əfsanəyə görə Enlil və oğlu Ninurta Yer üzündə bitkiləri və ağacları ilk dəfə sudan yuxarıda qalan dağların zirvəsində becərmişlər. Əfsanədə deyilir ki, əvvəlcə meyvə ağacları və kol bitkiləri, o cümlədən taxıl və üzüm tənəyi əkildi. «Anunnakilər insanlara möcüzəli ağ üzüm və ağ şərab, möcüzəli qara üzüm və qırmızı şərab bəxş etdilər».

«Ninurtanın qəhrəmanlığı və əməlləri» poeması bu sözlərlə qurtarır: «düzəngahlar əkinə yararlı olanda Ninurta taxılı dağdan aşağı endirdi və Ölkə yenidən arpa-buğda əldə etdi».

Əfsanə adlansa da, əslində, bu poema sırf tarixi gerçəklikləri sadalayır: Daşqından sonra həyat dağlarda davam etmişdir, sel hər şeyi məhv etdiyinə görə arpa, buğda, meyvə ağacları yenidən mədəniləşdirilmişdir. Ən başlıcası isə Ölkə Daşqından əvvəl də mövcud imiş və Ninurta ona təzədən bu nemətləri bəxş etmişdir.

Bəs bu əhvalat harada, su altında qalmayan hansı dağ zirvəsində baş verə bilərdi?

Poemadakı bu sətrə diqqət yetirək:

***Yuxarıda ətirli sidr ağacları ucalırdı.***

Sidr şam fəsiləsindən olan həmişəyaşıl iynəyarpaqlı ağacdır, gövdəsinin hündürlüyü 25 metrdən 50 metrə qədər çata bilir. Yaxın Şərqdə sidr meşəliyi Livanda, Kiprdə və bir də Azərbaycan ərazisində bitir. Azərbaycanda sidr ağacının üç növü məlumdur. Ancaq qədim mətnlərdən bizə çatan xəbərə görə, Daşqından sonra Enlil və komandası Livanda və Kiprdə deyil, Tövratda Ararat kimi qeyd olunan Nizir dağında yerə enmişdir. Nizir dağı Araratın qədim adıdırmı?

Araşdırmalar göstərir ki, əslində, tarixdə Ararat deyilən bir dağ olmamışdır. Bu dolaşıqlıq Tövrat tərcüməçilərinin, o cümlədən ermənilərin adı ilə bağlıdır.

Ziusudra əfsanəsində qırx günlük səyahətdən sonra gəminin Nizir (Nisir) dağında lövbər saldığı xəbər verilir. Tövrat isə yazır: «Və gəmi yeddinci ayın 17-ci günündə Ararat dağları üzərində oturdu. Və sular onuncu aya qədər getdikcə azaldı, onuncu ayın 1-də dağların başı göründü».





Ararat dedikdə bu gün Böyük və Kiçik Ağrı adı ilə tanınan qoşa dağlar nəzərdə tutulur. Bu, çox qədim addır, bu ərazidə yaşayan türk vedibasar tayfası dağlara Ağrı yox, Arğı demişlər. Arğı isə həmin dağların ətəyində yaşayan arqu türk tayfalarının adından yaranmışdır. Maraqlı burasıdır ki, «arqu» qədim türk dillərində «böyük çay», «arğı» isə «çayın qolu» deməkmiş.

Gənc tədqiqatçı Ramiz Əsgər özünün «Mahmud Kaşğari və onun «Divanı» əsərində arqu sözünü «iki dağ arası» kimi təfsir edir. Bunun nə dərəcədə doğru olduğunu mən bilmirəm. Əgər sözün strukturuna əsaslanıb onu qədim türk dilləri baxımından şərh etsək, arqu (ar-su, qu-sarı) «sarı su», yaxud «sarıçay» anlamına gələcəkdir.

«Kitabi-Dədə Qorqud» dastanlarının tərtibatçıları «arqu»ya belə təfsir vermişlər: «İnad, sözə qulaq asmayan, iki divar və ya iki dirək arasına vurulan ağac».

Ağrı dağına nə vaxtdan Ararat adı verilib? Heç bir vaxt! Ararat adı bir yanlışlığın nəticəsində meydana gəlmişdir. Tövratın orijinal nüsxəsində rrt sammitləri ilə verilən və Urartu şəklində oxunan bu söz erməni tərcüməçilərinin də yüngül əli ilə əvvəlcə Urarat, daha sonra Ararat şəklinə düşmüşdür. Ona görə də bir çox tədqiqatçılar Araratı «mövcud olmayan dağ» adlandırırlar.

Rus tədqiqatçısı A.R.Novoseltsev yazır: «Erməni tərcüməçilər nə üçün belə ediblər sualına cavab verərkən bunu yalnız tərcüməçilərin... bilgilərinin azlığı ilə izah etmək olar». Ermənilər özləri ta qədimdən Ararat dağına Masis deyirdilər. Bu da pəhləvi dilindəki «masist» – «ən böyük» sözündən alınıb.

Eramızın I əsr yazarı İosif Flavi Nuh gəmisinin yan aldığı dağın Ararat, yaxud Ağrı deyil, İkiçayarasının quzeyində yerləşən Kordien dağ silsilələri olduğunu iddia edir. Qurani-Kərimin Hud surəsində (11/44) Nuhun gəmisinin Cudi dağının zirvəsinə oturduğu xəbər verilir. Bu dağa dair şərh verən Z.Bünyadov yazır ki, Cudi dağı Dəclə çayının kənarındakı Civrənin 32 km. cənub-şərqində, Türkiyənin Mardin və Siirt vilayətləri hüdudunda, Türkiyə-İraq sərhəddindən 15 km məsafədə yerləşən, hündürlüyü 2100 metrə çatan bir dağdır. Nuhun gəmisinin Cudi dağı üzərində oturması barədə məlumat ilkin olaraq qədim Mesopotamiya əfsanəsində dilə gətirilmişdir.

Ziya Bünyadov dühasına hörmətim sonsuzdur, lakin deməliyəm ki, qədim Mesopotamiya əfsanələrində Cudi dağından deyil, Nizir (Nisir) dağından söhbət açılır.

Amma bu yerdə bir vacib informasiyanı xatırlatmaq yerinə düşərdi. Nuhun gəmisinin qalıqlarını axtaran fransız tədqiqatçılar çoxsaylı səfərlərdən həmişə əliboş geri dönmüş, ümidlərini üzdükləri bir anda onu məhz Cudi dağında tapmışlar. Amma bu tapıntının məhz mifoloji Nuh gəmisinə aid olduğu bu günəcən təsdiqlənməmişdir.

Q.Beyl 1895-ci ildə alman dilində çap olunan «Müsəlmanların İncil əfsanələri» əsərində yazır ki, Ararat dağının Nuhun tufanı ilə heç bir əlaqəsi yoxdur. Bu məsələ eramızın X əsrindən sonra, bir yanlışlıq üzündən ortaya çıxmışdır. Təəssüf ki, bütün bunları bilə-bilə, görə-görə dünya bu gün də bir erməni yalanına uyaraq Ararat dağını Nuhun tufanı ilə bağlamaqda davam edir.





Beləliklə, qədim mətnlər Ziusudranın Nizir dağında lövbər saldığı barədə məlumat verirlər. O dağ ki, lullular ona Kinipa deyirdilər.

Bəs Nizir, yaxud Kinipa dağı harada yerləşirdi? Məsələni gün işığına çıxara bilən və ya onu daha da qara dumana bürüyən bir fakt vardır. Sən demə, lulluların Kinipa adlandırdıqları Nizir dağı Zamua ölkəsində, Azərbaycan ərazisində yerləşirmiş. Bu barədə Z.Bünyadovun və Y.Yusifovun redaktor olduqları "Azərbaycan tarixi" dərsliyində də məlumat verilir. Assur qaynaqlarından götürülən bu məlumatda deyilir ki, II Assurnasirpal Süleymaniyyə keçidini aşaraq Zamua ölkəsinin Nisir (Nizir) dağına yaxınlaşdı. Tövratın orijinal mətninə görə Nuhun gəmisi Urartu dağlarından birinə oturmuşdur. Urartu I minilliyin əvvəllərində Ön Asiyada qurulmuş ən qüdrətli dövlət idi. Lakin Nuhun tufanı e.ə. I minillikdən çox-çox qabaq baş vermişdir və şübhəsiz ki, zaman etibarı ilə bu tarixlər üst-üstə düşmür. Çox güman ki, Tövrat yazarları qədim Şumer mətnlərində adı çəkilən Nizir (Nisir) dağının e.ə. birinci minillikdə mövcud olan Urartu dövlətinin ərazisində yerləşdiyini bilirdilər və «Urartu dağları» deyərkən məhz Nizir dağını nəzərdə tutmuşlar.

İndi də Urartunun sərhədlərinə nəzər salaq. Ən qüdrətli çağlarında dövlətin sərhəddi şimalda Araz çayına və Göyçə gölünə, şərqdə Urmiyə gölünə, cənub-qərbdə Dəclə çayına və Fərat çayının yuxarı axar-

larına qədər uzanırdı. Qədim mətnlər Nizir (Nisir) dağının Zamua ölkəsində olduğunu yazırlar. Zamua ölkəsinin ərazisində sonralar Manna dövləti qurulmuşdu. Urartunun tez-tez Mannaya yürüşlər etdiyi, çapıbtaladığı, torpaqlarını zəbt etdiyi tarixi mənbələrdən bizə məlumdur. O zaman ehtimal etmək olar ki, Tövratda «Urartu dağları» kimi qələmə verilən Nizir (Nisir) dağı Naxçıvan ərazisindəki Gəmiqayadan başqa biri deyildir. yerli əhali arasında geniş yayılan əfsanəyə görə Nuhun gəmisi məhz burada lövbər salmışdır. Dağın zirvəsi həqiqətən daşa dönmüş gəmini xatırladır və görünür, bu üzdən xalq ona Gəmiqaya adını vermişdir. Elmi ədəbiyyatda Qapıcıq kimi tanınan bu dağ silsiləsinin hündürlüyü 3 min metrə çatır. Uzaq keçmişdən süzülüb gələn törəyə görə Qapıcıq dağı müqəddəs yerdir, xalq bura niyyət tutaraq gəlir, nəzirlər verir, qurbanlar kəsirmiş. Keçmişin ənənəsi bu gün də davam etməkdədir. Ola bilsin ki, Qapıcıq dağı qədim dövrlərdən müqəddəs ocaq sayıldığı üçün xalq ona Nəzir dağı deyirmiş. Düşündürücüdür ki, dağın ətəklərində yerləşən kəndin adı da Nəsirvazdır.

Başqa bir maraqlı detal. Azərbaycan ərazisində – Naxçıvanda, Kəlbəcərdə, o cümlədən qədim torpaqlarımız olan Zəngəzurda, Göyçə (Sevan) gölü ətrafında aşkar edilən qayaüstü rəsmlər, daş üzərində təsvirlər və keramika üzərindəki şəkillər bu regionun qədim Şumer mədəniyyət abidələri ilə sıx bağlantısından xəbər verir, bu rəsmlər arasında mövzu və üslub eyniyyəti vardır.

Gəmiqaya petroqliflərini uzun illər boyu tədqiq edən tarix elmləri doktoru Nəcəf Müseyibli yazır:





«Məlum olduğu kimi, Yaxın Şərq regionunun tərkib hissəsi olan Naxçıvan bölgəsi bu regionun qədim mədəniyyətlərinin güclü təsiri altında inkişaf etmişdir. Naxçıvanın bir sıra arxeoloji abidələrində Yaxın Şərqlə iqtisadi-mədəni əlaqələri bilavasitə əks etdirən çoxsaylı maddi mədəniyyət qalıqları aşkar edilmişdir».

Alim daha sonra yazır ki, bu yaxınlıq Gəmiqaya abidələrində də özünü göstərir. Buradakı bəzi petroqliflər Mesopotamiya ərazisindəki qədim yaşayış məskənlərində aşkar edilən gil məmulatı üzərindəki təsvirlərlə analogiya təşkil edir. Bunlar insan, heyvan şəkilləri və müxtəlif simvolik işarələrdir. Yaxın paralellik bəzən bütöv səhnələrin, bəzənsə ayrı-ayrı rəsmlərin məzmununda öz əksini tapmışdır. Gəmiqaya təsvirlərinin əhatə etdiyi bütün mərhələlərə – e.ə. IV minilliyin sonu, III minilliyin əvvəllərindən başlayaraq ta II minilliyin sonu, I minilliyin əvvəllərinə qədərki dövrlərə aid rəsmlərə Yaxın Şərqin maddi mədəniyyət abidələrində rast gəlinir (Bax: şəkil 12).

Fikrimizcə, bu mövzu və üslub yaxınlığını yaylağa qalxmış maldarların «özfəaliyyəti» kimi qələmə vermək yanlış olardı. Qayaüstü rəsmlər və daş üzərində təsvirlər, qədim insanların dini və kosmik düşüncələri daş üzərinə köçürülməzdən xeyli qabaq insanların yaddaşlarına hopmalı və gündəlik yaşam tərzinə çevrilməliydi. Ən önəmlisi, Gəmiqaya petroqliflərini hansısa mədəniyyətin güclü təsiri ilə bağlamaq cəhdləri də doğru deyildir. Burada söhbət daha yaxın, daha qlobal ilişgilərdən getməlidir. Çünki svastika, xaç, «göy kultu» ilə bağlı digər simvollar ötəri təsir

gücündən yarana bilməzdi, bu bilgilər daha dərin köklərdən, «bir mədəni federasiyada» (O.Süleymenov) çiyin-çiyinə yaşayan, düşüncələri və dini baxışları eyni olan insanların bir-birlərinə qarşılıqlı təsir imkanlarından xəbər verir.




**Şəkil 12.** Yuxarıda sağda: Mesopotamiyadan tapılmış möhür-rəsm. Solda: Gəmiqaya petroqlifi. Oxşarlıq göz qabağındadır. Aşağıda sağda: Mesopotamiyada qazıntılar zamanı aşkarlanmış qədim vaza. Solda: enyi süjetli Gəmiqaya petroqlifi





N.Müseyibli Gəmiqayadakı təsvirləri altı təsnifat qrupuna bölür: insan, heyvan, araba rəsmləri, müxtəlif mövzulu səhnələr, işarələr (simvollar) və qeyri-müəyyən rəsmlər.

Gəmiqayadakı petroqliflər qədim tariximizin gün işığına çıxarılması baxımından ən mötəbər qaynaqlardan biridir. Bu geniş və əhatəli mövzuda bir sıra görkəmli alimlərimiz, o cümlədən Vəli Əliyev, Nəcəf Müseyibli çox dəyərli işlər görmüşlər. Biz mövzumuz gərəyincə bu təsnifatlardan yalnız bir neçəsi, amma üstün olaraq işarələr üzərində qısaca dayanmaq istərdik.

Şumer simvollar ölkəsi idi, simvolların ən gözəl informasiya daşıyıcısı ola biləcəyi barədə ideya ilk dəfə qədim Şumerdə, bəlkə də bu sivilizasiyadan daha əvvəlki dönəmlərdə gerçəkləşdirilmişdir. Hər bir simvolun öz mənası və yaranma tarixi vardır. N.Müseyibli çox doğru olaraq simvolları yazı mədəniyyətinin ilk pilləsi olan piktoqramla (şəkli yazı) və ideoqramla (obrazlı yazı) eyniləşdirir. Ancaq bu gün bir çox tanınmış mütəxəssislər belə hesab edirlər ki, piktoqram və ideoqramdan fərqli olaraq bəzi simvollar insanların ibtidai düşüncələrinə deyil, gələcək insanların ağlına, zəkasına ünvanlanmışdır. Başqa cür desək, bu mütəxəssislərə görə həmin simvollar yazı təkamülünün ilk pilləsi kimi meydana gəlməmişdir, onu böyük inkişaf yolu keçmiş elmli və dərin düşüncəli insanlar məqsədli şəkildə, "gizli danışıq dili" kimi yaratmışlar.

Gəmiqayada simvolik işarələr həddən artıq çoxdur. Bu işarələr həm ayrı-ayrılıqda, həm də müxtəlif kompozisiyaların tərkibində verilmişdir.

N.Müseyibli Gəmiqayada 16 növ işarə qeydə almışdır. Bunlar aşağıdakılardır:

1. Dairə formalı işarələr;
2. Düzbucaq və kvadrat şəkilli işarələr;
3. Düz və sınıq xətlərdən ibarət işarələr;
4. «Həyat ağacı» təsvirləri;
5. Müxtəlif formalı svastikalar;
6. Dalğavari xətlərdən ibarət işarələr;
7. Nöqtələrdən ibarət işarələr;
8. Xaç təsvirləri;
9. Səkkiz rəqəminə bənzər işarələr;
10. Haçaşəkilli işarələr;
11. Lövhəyəbənzər işarələr;
12. Aypara şəkilli işarələr;
13. Qarmaqşəkilli işarələr;
14. P şəkilli işarələr;
15. T şəkilli işarələr;
16. Qeyri-müəyyən formalı işarələr.

Bu işarələrə çox geniş bir ərazidə – həm qədim Azərbaycan torpaqları olan Zəngəzur, Göyəm (indiki Ermənistan), Kəlbəcər qayaüstü təsvirlərində, həm də Anadolu abidələrində rast gəlmək mümkündür. Maraqlıdır ki, bu daş üzərində təsvirlərin hamısı yaranma tarixi, icra üslubu və mövzu oxşarlığı baxımından vəhdət təşkil edir. Onları birləşdirən başqa bir cəhət də nəzərə çarpır: petroqliflər Kiçik Qafqazın dəniz





səviyyəsindən 2500-3500 metr yüksəklikdə yerləşən və çox geniş əraziyə yayılmış dağ yaylaqlarında tapılmışdır. Bu isə istər-istəməz adamda belə bir təsəvvür oyadır ki, sanki eyni mədəniyyətə və eyni düşüncə tərzinə malik olan bu insanlar hansı təhlükədənsə qaçaraq Kiçik Qafqaz dağlarına sığınmışlar.

Mövzuya keçid almaq üçün əvvəlcə aydınlaşdırmağa çalışaq: simvolika nədir və necə meydana gəlmişdir?

Mədəniyyətin bütün fenomenləri kimi simvolikanın da bir görünən, bir də görünməyən üzü vardır. Mütəxəssislər belə hesab edirlər ki, bir gündəlik tələbatla bağlı meydana çıxan sosial, bir də universal simvolikalar mövcuddur.

«Sosial simvolikaların» yaranması çox sadədir: insan gündəlik həyat təcrübəsində təkrarlanan bir çox olayları rəmzi atributlarla işarələyir və bu, cəmiyyətin ümumi istifadə malına çevrilir. Məsələn, ağır, üzücü müharibə şəraitində düşmən tərəflər danışıq aparmaq məcburiyyətində qalmış və bunun üçün yuxarı qaldırılmış ağ parçadan istifadə etmişlər. Zaman keçdikcə ağ bayraq qaldırmaq barışığın, təslim olmanın simvoluna çevrilmişdir. Yaxud, şamın başına fırlanıb özünü yanar oda çırpan pərvanə şərq ədəbiyyatında məhəbbətin, ağ göyərçin sülhün rəmzi kimi yaddaşlara hopmuşdur. Belə simvollar indi də yaradılır, yəqin ki, gələcəkdə də yaradılmaqda davam edəcəkdir.

Bir də universal məna yükü daşıyan sakral, ezoterik, germetik simvollar mövcuddur. Onların yaşını

heç kəs bilmir, nə vaxt və hansı məqsədlə yaradıldığı barədə də quru ehtimaldan başqa bir şey söyləmək mümkün deyildir. Belə simvollara Gəmiqaya petroqliflərində də rast gəlirik. Bunların arasında dairə, üçbucaq, kvadrat, xaç, svastika, düz və qırıq xətlər, həyat ağacı, digər işarələr çox önəmli yer tutur. Fikir verdinizsə, bu işarələrin çoxu həndəsi fiqurlardır və bu fiqurları ibtidai düşüncə tərzinə malik olan insanlar yarada bilməzdilər.

Gəmiqayada dairə işarəsindən çox geniş istifadə olunub. Bunlar sadəcə dairədən, ortasına nöqtə qoyulmuş dairədən, daxilinə xaç çəkilmiş dairədən və s. ibarətdir. Mütəxəssislər Gəmiqayadakı dairə işarəsini qədim türklərin Günəşə sitayişinin rəmzi kimi dəyərləndirirlər. Bunların arasında daha çox mübahisəyə səbəb olanlardan biri daxilində xaç təsvir olunmuş dairədir. Günəş simvolu olan dairənin içərisində xaç işarəsinin nəyə görə yerləşdirilməsi və bütövlükdə bu işarənin semantikası haqqında elmi ədəbiyyatda müxtəlif fikirlər mövcuddur.

Bəzi mütəxəssislər belə hesab edirlər ki, od simvolu olan xaçı Günəş simvolu olan dairənin içərisində yerləşdirən insanlar Günəşi «səma odu» kimi dərk etmişlər.

V.A.Rıbakova görə, Günəş diskinin daxilinə çəkilmiş xaç «dünyanın dörd guşəsi» deməkmiş O.N.Həbibullayev bu işarənin yaranmasını qədim insanların təsərrüfat həyatı ilə bağlamağa çalışır. Müəllif yazır: «Qədim əkinçi üçün dünyanın dörd bir tərəfindənsə, daha çox ilin dörd fəsli vacib olmuşdur. Ona görə də





bizə elə gəlir ki, dairənin xaç vasitəsiylə dörd hissəyə bölünməsi ilin fəsillərini simvollaşdırır».

Hər iki fikri doğru sayan Azərbaycan alimi N.Müseyibli belə hesab edir ki, həm O.Həbibullayevin, həm də V.Rıbakovun tamamilə müxtəlif ərazilərdə yaranmış, formaca eyni olan işarə haqqında fikirləri məhz həmin ərazi üçün məqbul sayıla bilər.

Bu ehtimallara münasibət bildirməzdən əvvəl istərdim ki, dairənin və xaçın yaranma tarixinə qısaca nəzər salaq. Digər bütün simvollar kimi, dairədən də ilk dəfə qədim Şumerdə istifadə olunub. Bizə qədər gəlib çatan məlumatlara görə dairə həm kainatı, həm günəşi ehtiva etmiş, həm də 3600 rəqəmini bildirmişdir. (Ətraflı məlumat almaq üçün «Uruk şəhərində yaşayanlar – turuklar» fəslinə bax.)

Kainatı eyniləşdirən dairə onun sonsuzluğunun, əbədiliyinin, Günəşi bildirən dairə isə onun ilahiliyinin, kamilliyinin, «göy kultu»nun başlıca ünsürü olmasının simvoludur. «Qeybə çəkilmiş planet»in Günəş ətrafına dövretmə müddəti 3600 ilə bərabər olduğundan şumerlər, həm də 3600 rəqəmini dairə ilə işarə etmişlər.

Dairənin bir simvol kimi əbədilik, sonsuzluq, ideallıq, həm də Günəş anlamına gəlməsi bu gün bütün dünyada qəbul edilsə də, çox vaxt unudurlar ki, bu ideyanın «ilk müəllifi» Şumerdir.

Azərbaycan alimləri xaçın yaranmasını insanların ibtidai görüşləri ilə bağlamağa çalışırlar. Bu alimlərin iddiasına görə iki ağacı xaç şəklində qoyub birbirinə sürtəndə, od alındığına görə əcdadlarımız onu

müqəddəs hesab etmişlər. Digər tədqiqatçılar isə xaçın yox olmaq, ölmək, sıfıra bərabər tutulmaq anlamına gəldiyini ehtimal edirlər.

Əlbəttə, bu fikirlərin heç bir elmi əsası yoxdur. N.Müseyiblinin də çox doğru olaraq qeyd etdiyi kimi, xaç işarəsi ayrı-ayrı xalqlarda müxtəlif zaman kəsiyində müxtəlif mənalarda istifadə oluna bilər, lakin bu, işarənin ilkin yaranışında daşıdığı semantik məna yükü ilə üst-üstə düşməyəcəkdir.

İndi də söhbətimizin əvvəlinə, V.Rıbakovun və O.Həbibullayevin dairə içərisinə çəkilmiş xaçla bağlı dedikləri fikrə qayıdaq. Həqiqətən, eyni simvolların müxtəlif xalqlarda müxtəlif məna yükü daşıması mümkündür, lakin eyni anlama gələn oxşar simvolların həmin xalqlarda təsadüfən təkrarlana biləcəyi ağlasığan deyildir. Daha sadə şəkildə desək, həm Misirdə, həm Çində, həm Finikayada, həm də Azərbaycanda dairə öz yuvarlaq formasına görə bir-birindən xəbərsiz halda Günəş kimi göstərilə bilər, lakin həmin ölkələrdə dairənin daxilinə xaç çəkilirsə və bu zaman mənalar da eyni, yaxud bir-birinə yaxın olursa, pardon, bu artıq təsadüf olmayacaqdır. Fikrimizcə, müxtəlif ölkələrdə təkrarlanan bənzər simvollar «ortaq mənbə» barədə daha gerçəkçi bir ehtimalın yaranmasına təkan verir.

Bu gün heç kəs məni inandıra bilməz ki, Gəmiqayada dairənin xaçla dörd yerə bölünməsinin Şumerlə heç bir bağlantısı yoxdur, bu gün heç kəs məni inandıra bilməz ki, bu simvol tunc dövrü maldarları-





nın yaylaq macəralarının, ibtidai düşüncələrinin təsadüfi nəticəsi kimi meydana gəlmişdir.

Arxeoloji ədəbiyyatda bir nöqtəli dairə, demək olar ki, yekdilliklə günəşin simvolu kimi qəbul edilib. Misir heroqlifində ortasında bir nöqtə olan dairə «Ra» kimi oxunur və Günəş allahını bildirir. Qədim Çin heroqlifində də bir nöqtəli dairə günəşin simvoludur. Finikiya və qədim brahmi yazılarında da dairə içərisinə nöqtə qoyulmuş heroqlifdən istifadə edilmişdir. Bu, bir daha onu göstərir ki, Gəmiqayadakı petroqlifləri yaradanlar, dairə içərisinə nöqtə qoymaqla günəşi və «günəş allahını» simvollaşdıranlar bəşər sivilizasiyasının ilkin dövrlərində mövcud olan dini-fəlsəfi baxışlara bələd idilər və bunu öz inkişaf səviyyələrinə uyğun şəkildə daş üzərinə köçürmüşdülər.

Həm Gəmiqayada, həm də Kür-Araz mədəniyyəti tayfalarının dünyagörüşündə öküz buynuzunu xatırladan aypara şəkli önəmli yer tutur. Qədim Şumer ərazisi yuxarıdan baxdıqda Ayparaya bənzədiyinə görə mütəxəssislər çox vaxt onu Aypara regionu adlandırırlar. Amma iş təkcə bununla bitmir, Şumerdə aypara həm də insanların astral inamları ilə bağlı bir simvoldur. Bildiyimiz kimi, Ay Şumer «göy kultu»-nun başlıca atributlarından biri sayılırdı. Təktanrıçılıqdan qabaq türk panteonunda da Ay müqəddəs sayılır və ona sitayiş edilirdi. Yaxud Gəmiqayadakı dalğavari xətlərdən ibarət işarələr bir tərəfdən bu ərazilərin qədim insanlarının suya müqəddəs varlıq kimi baxdıqlarını ortaya qoyursa, digər tərəfdən qədim türklərin suyu qoşa dalğalı xətlə göstərən Misir he-

roqlifi və Şumer piktoqramı ilə tanışlığının xəbərçisidir.

Şumer konusvari möhür-rəsmlərində rast gəldiyimiz «həyat ağacı» simvolikası qədim mətnlərdə daha çox dünyanın qadın başlanğıcı kimi dəyərləndirilib. «Dədə Qorqud» dastanlarında «Anam adın deyərsən – Qaba Ağac» önərisi qədim türklərin bu simvola yaxından bələd olduqlarını ortaya çıxarır. Bunun ən tutarlı sübutu Gəmiqayada qeydə alınmış 20-yə yaxın «həyat ağacı» rəsmidir.

Ezoterik təlimə görə kvadrat yerin, torpağın simvoludur. Kvadrat həm də kişi başlanğıcı sayılır və dairəyə (qadın başlanğıcına) qarşı qoyulur. Kvadratın hər bucağı dünyanın bir qütbünə doğru yönəldiyindən o, həm də bütün dünyaya sahib olmaq anlamına gəlir.

Heç təsadüfi deyildir ki, türk panteonunda mühüm yer tutan Ananın səkkiztilli ulduz simvolikası iki kvadratı üst-üstə qoymaqla alınırdı. Səkkiztilli ulduz Şumerdə həm göy, səma, ulduz, kainat, həm də ilahi varlıq, «allah» anlamına gəlirdi.

İndi gəlin kvadratla bağlı türk inancına nəzər salaq. Kvadrat türklərdə müqəddəs hesab olunurdu. Çox güman ki, buna səbəb türklərin öz soy-köklərini göylərlə bağlamaları idi. Antik müəlliflərin yazdıqlarına görə, hətta bütün Skifiya ölkəsi kvadrat şəkilli imiş. Türklər yaşadıqları evləri də kvadrat formasında tikirdilər. O da məlumdur ki, səkkiz rəqəmi hökmdar türk tayfalarının müqəddəs rəqəmi sayılırdı. Türklər məbədləri 8 tilli bünövrə üzərində ucaldır, onların gümbəzini səkkiz ləçəkdən ibarət hörürdülər.





Simvolik mənasına görə kvadrat həmçinin, bərabərliyi, qayda-qanunu və müdrikliyi ehtiva edirdi. Əgər siz türkün tarixini diqqətlə oxusanız, o zaman görəcəksiniz ki, bütün bu keyfiyyətləri özlərində formalaşdıran türklər yaşam boyu ünsiyyətdə olduqları insanlar arasında dilinə, dininə görə ayrı-seçkilik salmamış, elmə üstünlük vermiş və həmişə qayda-qanunla yaşamışlar.

Gəmiqayada aşkar olunmuş Yaxın Şərq motivlərinə malik təsvirlərin müqayisəli təhlili bir sıra maraqlı nəticələr çıxartmağa imkan verir. Azərbaycan alimi N.Müseyibli bununla bağlı yazır: «Qədim dövrlərdə müxtəlif tip antropomorf təsvirlər insanın bəzi ideyalarının əks etdirilməsi üçün əsas vasitələrdən biri olmuşdur. Mesopotamiyanın e.ə. V-IV minilliklərə aid mədəniyyətləri üçün saxsı qablarda «güzgü effekti» ilə antropomorf rəsmlərin çəkilməsi səciyyəvi idi. Samarra və Tell-Arpaçı abidələrində aşkar edilmiş gil qabların üzərində belə təsvirlərə rast gəlinir. Samarrada tapılmış qab üzərində ayaqları bir-birinə yönəlmiş 4 qadın rəsm edilmişdir. Onlar səkkiz əqrəb təsviri ilə əhatə olunublar. (Bax: şəkil 13). Qadınların hamısının sola yönələn saçları elə çəkilib ki, ümumilikdə bu kompozisiya svastika ideyasını canlandırır. Samarradan tapılmış başqa qablar üzərində də zoomorf təsvirlər vasitəsilə həmin ideya təkrar olunmuşdur... Bu faktlar svastika – əbədi hərəkət ideyasının vətəninin Mesopotamiya olduğunu sübut edir».




**Şəkil 13.** Yuxarıda solda: Tell-Arpaçı mədəniyyətinə aid keramika (3,5). Sağda: eyni rəsmi təkrarlayan Gəmiqaya petroqlifi (1,2,4). Aşağıda (8,10): – «güzgü effekti»ni əks etdirən möhür-rəsm. 10-cu şəkildə: Samara mədəniyyətinə aid svastika təsvir olunub. Sol tərəfdə (6,7,9): Gəmiqayadan tapılmış daş üzərində rəsmlər.





E.ə. IV minilliyə aid Tell-Arpaçı qabı üzərində sxematik insan rəsmləri qolları və dizdən qatlanmış ayaqları geniş açılmış vəziyyətdə göstərilib. Onların başları bir-birinə doğru yönəlib. Maraqlıdır ki, Samarra və Tell-Arpacı gil qablarında təsvir edilən ideya Gəmiqayada eynilə təkrarlanır. Belə ki, daşlardan birində «güzgü effekti» ilə tək insan rəsmi qeydə alınmışdır. Gəmiqayada bu ideyadan başqa daşlar üzərində də istifadə olunub.

Yaxın Şərqin qədim dini-mifoloji obrazlarından biri də insan başlı, heyvan bədənli (öküz, şir və s.) fantastik varlıqlardır. Həm Mesopotamiyada, həm də Misir məbədlərində belə varlıqların təsvirinə tez-tez rast gəlinir. Yunan mifologiyasında bu cür fantastik varlıqlar kentavr adlanır.

Son illər aparılan tədqiqatlardan sonra Gəmiqayada da belə təsvirlər tapılmışdır. Burada kontur təsvir edilən öküzün başı qollarını yana açmış insan rəsmi ilə tamamlanır. Kentavrda olduğu kimi burada da insanın qurşaqdan yuxarı hissəsi rəsm edilib.

Göründüyü kimi, Yaxın Şərqin ayrı-ayrı bölgələrində tapılan təsvirlərlə Gəmiqaya təsvirləri həm məzmun, həm də üslub cəhətdən eyniyyət təşkil edir. Bu, təsadüfi, yaxud qısa müddətli kontaktın nəticəsi ola bilməzdi.

Bəşər sivilizasiyasının ilkin dövrlərinə aid olan bu rəsmlərdəki üslub və məzmun eyniliyi Naxçıvanın tunc dövrü tayfalarının Yaxın Şərqin mədəniyyət mərkəzləri ilə sıx bağlılıqlarından, onların ortaq düşüncə, ortaq ideologiya və ortaq yaşam tərzinə malik olduq-

larından xəbər verir. Doğrudur, bu faktlara söykənərək Naxçıvandakı tunc dövrü tayfalarının məhz Nippurdan Azərbaycan ərazisinə sürgün edilən qutilər olduğunu söyləmək çətindir. Ancaq fikrimizcə, bu ehtimalı da birdəfəlik kənara atmaq doğru olmazdı.

N.Müseybli «Böyük Kəsik. Eneolit dövrü yaşayış məskəni» məqaləsində yazır: «Böyük Kəsikdən tapılmış it fiqurları çox ehtimal ki, ritual məqsədlərlə hazırlanmışdır. Arxeoloji materiallar həm şimali, həm də cənubi Übeyd mədəniyyəti tayfalarının inamlarında itlə bağlı təsəvvürlərin müəyyən yer tutduğunu söyləməyə əsas verir. Belə ki, Şərqi Türkiyədə, Fərat çayı sahilindəki Dəyirmantəpə qədim yaşayış məskəninin e.ə. V minilliyin sonlarına aid Übeyd mədəniyyəti təbəqəsində iri həcmli gil qab içərisində dəfn olunmuş İtin skeleti tapılmışdır. Eridunun Übeyd mədəniyyəti nekropolundakı bəzi qəbirlərdə it sümüklərinə rast gəlinmişdir. Bir qəbirdə isə İtin oğlan uşağı ilə dəfn edildiyi aşkarlanmışdır. Böyük Kəsikdəki it fiqurlarının əsasında duran ideyalar da çox güman ki, mənşə etibarı ilə Übeyd mədəniyyətinə bağlı olmuşdur».

Ən təəccüblüsü odur ki, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi zamanı Tovuz rayonunun Tovuzçay ərazisində insanla İtin birgə dəfn edildiyi bir neçə qəbir tapılmışdır. Xalqın mənəvi dünyası ilə bağlı olan it kultunun formalaşması üçün onun bu adətlə uzun əsrlər qarşılaşması gərəkdir, bu törənin hansısa mədəniyyətin təsiri ilə yaranması barədə fikirlər qətiyyən inandırıcı görünmür.





Türklərdə it kultunun formalaşmasının çox qədim kökləri vardır.

Başqa önəmli fakt ondan ibarətdir ki, petroqliflər – vəhşi heyvan, balıq, qayıq ən çeşidli insan şəkilləri, simvolik işarələr möcüzəli şəkildə dünyanın dörd bir tərəfinə səpələnmişdir. Daş üzərində təsvirlərə Azərbaycandan başqa Kareliyada, Oneqa gölü ətrafında, Murmansk vilayətində, Belomorsk şəhəri yaxınlığında, həmçinin Norveçdə, İsveçdə və Finlandiyada da rast gəlmək olar. Məzmun və üslub oxşarlığı cəsarətlə onu deməyə imkan verir ki, bu oxşarlıq təsadüfi deyildir. Bu təsvirlərin arxasında eyni «müəllim», eyni düşüncə, eyni ideya və eyni yönləndirici əl dayanır. Sadəcə, bu düşüncəni daş üzərinə köçürən insanların inkişaf səviyyəsindən asılı olaraq rəsmlərin üslubunda azacıq fərqlər meydana gəlmişdir.

Beləliklə, söhbətimizin əvvəlinə, qutilərə qayıdaq. Qədim mətnlər Utun qutiləri Nippurdan qovduğundan və «allahların» onlar üçün şəhərlər saldığından söz açır. Bu informasiyaları mifoloji təfəkkürün nəticəsi kimi yorumlamaq ən asan işdir. Biz ən çətinindən yapışmalı və qutilər dövlətinin qurulduğu əraziləri qarış-qarış, axtarmalıyıq. Tariximizin bu qaranlıq dövrü səbrlə, diqqətlə, əzmkarlıqla öyrənilərsə, mən inanıram ki, bizi qabaqda hələ çox sürprizlər gözləyəcək. Azərbaycan tarixinin ən qədim dövrü yerin dərin qatlarında yatan qızıl külçəsinə bənzəyir, onu arayıb-axtarmaq, tarixin lilindən-palçığından təmizləyib üzə çıxartmaq üçün fədakar insanlara, əzabkeş alimlərə, yorulmaz arxeoloqlara çox böyük ehtiyacımız vardır. Nippurdan sürgün olunan qutilərin erkən

dövrü barədə əlimizdə heç bir ipucu yoxdur. Hələlik. Biz bilmirik ki, «allahlarla» qutilərin dağlardakı ilk görüşü nə vaxt, harada və necə keçmişdir. Biz bilmirik ki, «allahlar» qutilərə nə üçün şəhərlər tikmiş və bu şəhərlərin izini harada axtarmaq lazımdır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi zamanı təsadüfən aşkar edilən qədim mədəniyyət abidələrimiz açıq-aydın göstərir ki, biz öz həqiqi tariximiz barədə ya heç nə bilmirik, ya da çox az şey bilirik. Azərbaycan torpaqlarının dərin qatları hələ çox sirləri gizlətməkdədir. Neftdən də, dəmir-filiz yataqlarından da qiymətli olan milli sərvətimiz – tariximiz bizdən byük fədakarlıqlar gözləyir. Türkün tarixini keçmişin qaranlıqları içərisində «gömmək», üstümüzə hər cür çirkab atıb bizi ləkələmək istəyənlərin acığına deyil, Uca Tanrının bizə verdiyi şansı dəyərləndirmək, tarixi öz çiyinlərində irəli aparan xalqların sırasında layiq olduğumuz yeri tutmaq, əsil türk tarixini dünyanın kar olmuş qulaqlarına çatdırmaq üçün bu fədakarlığı göstərməliyik. Ümid edirəm ki, tariximizin gələcək Ziya Bünyadovları, Yusif Yusifovları bu işin öhdəsindən ləyaqətlə gələ biləcəklər.

Beləliklə, mövzunu yekunlaşdıraraq belə bir suala cavab tapmağa çalışaq: qutiləri erkən türklər saymaq olarmı? Bu suala birmənalı şəkildə «hə», yaxud birmənalı şəkildə «yox» demək üçün əlimizdə kifayət qədər bəlgələr yoxdur. Məhz dəlillərin azlığı min illərin qatı dumanına bürünmüş quti tarixinə çıraq tutmağa imkan vermir. Buna baxmayaraq, əlimizdə olan azacıq ipucları ilə problemə nöqtə boyda da olsa işıq salmağa çalışaq.





1. «Quti» etnonimi öz mənşəyini haradan almışdır?

Azərbaycan alimi İ.Məlikovun araşdırmaları göstərmişdir ki, hat, kassii və şumer dillərində işlənən «qut» sözü eyni mənanı verir.

Qədim dillər üzrə tanınmış mütəxəssis V.V.İvanov «qut» etnoniminin türk dillərinə haradan keçə biləcəyi barədə mülahizə yürüdərkən çıxılmaz vəziyyətə düşmüşdür. İkiçayarasındakı bir çox xalqların dilində işlənən bu söz Mərkəzi Asiyaya necə gedib çıxa bilərdi? F.Ağasıoğlu bununla əlaqədar yazır: «Altay nəzəriyyəsi sərgisində (türklərin ilk dəfə Şərqdən Qərbə doğru köçü barədə ideya nəzərdə tutulur – R.C.) hat-türk əlaqəsi fantastik görünür. Yəni zaman (4-5 min il) və məkan (Anadolu - Altay) ölçüləri həmin nəzəriyyə ilə uyuşmur. Ona görə də alim (V.V.İvanov – R.C.) qədim hat, hett və türk dillərində «ruh» anlamında işlənən «qut» sözünün Qərbdən Şərqə aparılmasını hər hansı bir ölü dillə bağlamağa çalışır».

Bir çox tədqiqatçılar belə hesab edirlər ki, «qut» qədim türk sözüdür, «tanrı» anlamında işlədilmişdir. «Qut» qaraqalpaq, altay, qırğız, başqırt dillərində quday, kutay, xozay şəkilində bu gün də qalmaqdadır.

Professor F.Cəlilov yazır: «Şərq dillərində indi daha çox şamanizm termini kimi işlənən «qut» sözü «ruh» anlamını bildirir. Koreya dilində isə «qut» sözü «maq», yaxud «şaman» deməkdir».

Qəribə burasıdır ki, «qut» sözü bu gün dünyanın bir çox dillərinə səpələnmiqşdir. Teonim iran dillərində «xuda», «xoda», german dillərində «qod», «qolt», ingilis dilində quud (allah) şəklində qalmışdır. Bir

növ beynəlmiləlləşmiş bu söz Azərbaycan folklorunda və toponimlərində də dərin iz buraxmışdır. Azərbaycan folklorunda işlənən «qodu-qodu» mərasim nəğməsi qədim şamanizmin izini indi də yaşadır. Oğuz rayonundakı Qudulu, Masallı rayonundakı Qodman kəndləri də qədim «qut» sözünün yadigarıdır.

«Qut» türk dillərindəki adlara da öz damğasını vurub. Hələ X əsrdə Bizans imperatoru Konstantin «Dövləti idarə etmə» əsərində peçeneqlərin altı bölgəsini sadalayır və bu bölgələrdən birini knyaz Kurkutun idarə etdiyini yazırdı. Kutlu, Kutluq, Kutluay türk xalqlarının onomastikasında bu gün də geniş şəkildə istifadə olunmaqdadır.

Türk dillərində ilkin olaraq tanrı anlamında işlədilən bu söz sonralar mənasını dəyişərək «səadət, xoşbəxtlik» rəmzinə çevrilmişdir. «Qutatqu bilik»də «qut» xoşbəxt edən anlamına gəlir. Anadolu türkləri bayramlarda, ad günlərində, şadlıq, sevinc gətirən digər mərasimlərdə adətən, «qutlu olsun» deyirlər. German dillərində qutentaq, ingilis dilində qudmorninq təxminən eyni məna kəsb edir.

Bəs türklər nə üçün «qut» sözünü «tanrı» anlamında işlətmişlər? Bu sözün ilk təfsirinə e.ə. III yüzilliyin ikinci yarısında çin mənbələrində rast gəlirik. Bu mənbədə hun hökmdarının titulu belə yazılır: ç'enq-li qu-t'i şan-yu. Çin tarixçisi S.Tsyan özü bu titulu belə tərcümə edir: əlahəzrət göylərin oğlu. S.Tsyana görə «qut» oğul deməkmiş.

Z.Həsənov «Çar skifləri» monoqrafiyasında yazır: «qut deyəndə qədim türklər «göylərin elçisi», yaxud «allahın ruhunu daşıyan» anlamını nəzərdə tuturdular. Beləliklə, «qut» çin dilindən tərcümədə olduğu kimi «oğul» mənasını verir, ancaq bu, sadəcə, «oğul» deyil, «Allahın oğlu»dur, yaxud «Allahın elçisi», «Allahın ruhunu» daşıyandır».





Çox güman ki, «qut» sözü şumer dilindən türk dilinə keçmişdir. Türk dili bu sözü ən müqəddəs abidə kimi min illərdir ki, qoruyub saxlayır, yaşadır və şumer-türk ortaqlığının simvolu kimi nəsillərdən nəsillərə ötürür. Bunun ən bariz nümunələrindən biri türk oğuz elinin peyğəmbəri sayılan Dədə Qorqud adında ilişib qalıb. «Qor» qədim türk dillərində «od» deməkdir. «Qorqut – Qorun – od allahının, günəş «allahı»nın oğlu, yaxud «Günəş allahının ruhunu daşıyan» anlamına gəlir. Misirin Edfu məbədinin divarlarında «daşımaq», «yaymaq», «intişar etmək» anlamını verən «kut» adına tez-tez rast gəlirik. Günəş «allahı» Qorun bir adı da məhz Qor Kut imiş.

Bəs nə üçün qutilərə «allahın oğlu», ya da «allahın ruhunu daşıyan» adı verilə bilərdi? Bu suala «Naramsin haqqında əfsanə»dəki informasiya gün işığı sala bilər: «Bir vaxt qutilər Nippurda yaşayırdılar. Öz ağalarına qarşı çıxdıqları üçün Utu (Şamaş) onları Nippurdan qovdu».

Bildiyimiz kimi, günəş «allahı» Ut Nippurda yaşayırdı və Şumerdə meydana gələn hökmdar tayfaları onun adı ilə bağlıdır. Çox güman ki, hökmdar tayfalarına daxil olan qutilərin üsyankar hərəkəti, anunnakiləri öldürməsi «allahları» qəzəbləndirmişdir. Bu tayfaların taleyinə məsuliyyət daşıyan Ut onları «allahların» qəzəbindən qorumaq üçün Nippurdan sürgün etmişdir.

Qutilər «allah» Utun oğlanları idi. Onlara xoş münasibət göstərilməsinin, daima himayə altına alınmalarının səbəbini yalnız bununla izah etmək olar. Üsyan edərək anunnakiləri öldürmələrinə baxmayaraq, qutilər üçün yaşayış məskənləri tikilmiş, regionda asayişi bərpa etmək məqsədilə Enlil məhz qutilərdən «cəza dəstəsi» düzəltmişdi. Əfsanədə deyilir ki, Enlilin ucqar əyaləti olan Qutiumda çox qoçaq kişilər yaşayırdılar. Enlil uzaq səfərlərə çıxarkən, bir ölkəni ram etmək istərkən, mütləq onları özü ilə aparırdı.

Bu yerdə İbn Əbu-d-Dünya ləqəbi ilə tanınan ərəb tarixçisi əş-Şeyx Əbu Bəkr əl-Müfid əl-Cərcəraninin Peyğəmbər səlavətullaha istinadən «Axır zamana dair» əsərində gətirdiyi hədisi xatırlamamaq olmur. Peyğəmbər səlavətullah belə demişdir: «Ulu Tanrı «mənim bir ordum vardır, ona «türk» adı vermişəm, onu Şərqdə yerləşdirmişəm. Bir millətə acığım tutsa, türkləri onun üzərinə müsəllət edərəm» deyir».

Qutilərin və türklərin taleyindəki bu möcüzəli bənzəyiş adi bir təsadüfün nəticəsi ola bilərdimi?

Deməli, əvvəlcə Nippurda yaşayan və sonra dağlara, bu günkü Azərbaycan torpaqlarına sürgün edilən tayfalara «qut» adı şumerlər – «allahlar» tərəfindən verilmişdir. İlk baxışdan da aydın görünür ki, «quti» adı daha çox siyasi xarakter daşıyır, sanki bununla qutilərin «allahla» qohumluğu, hökmdar tayfalarından olduqları nəzərə çatdırılır.

2. Erkən quti tayfaları tarixin hansı dönəmindən formalaşmağa başlamışdır? Bu suala birmənalı şəkildə cavab vermək çətindir. Yazılı mənbələrdə qutilərin adına ilk dəfə e.ə. III minilliyin ikinci yarısında





rast gəlirik. Lakin əfsanədə deyilir ki, «bir vaxt qutilər Nippurda yaşayırdılar». Bir anlıq bu xəbərin doğru olduğunu qəbul etsək, o zaman həm də qutilərin daha qədim tarixə malik olduqlarını qəbul etməliyik. Əgər bu ehtimalda zərrə qədər həqiqət payı varsa, onda qutilərin tarixi ən azı 3 min illə ən çoxu 8 min il arasında geriyə çəkilməlidir. Hətta qutilərin «allahlarla» dağlardakı ilk «görüşü» üçüncü qlobal daşqından sonra baş versə belə, qutilər yenə də həm Azərbaycanda, həm də Mesopotamiyada ən qədim xalq sayıla bilər.

3. Bəzi qədim qaynaqlarda «ağbəniz quti qulları»ndan söz açılır. Bu isə Avropa türklərinin də daxil olduğu avropoid irqin başlıca fiziki keyfiyyətlərindən biridir. Fransız antropoloq E.T.Hami qutiləri avropoid irqin Aralıq dənizi tipi hesab etmiş və onların müasir Qarabağ (Şuşa) türklərinə bənzərliyi ideyasını irəli sürmüşdür. Rus alimi İ.Dyakonov da bu fikri təkzib etməmişdir.

4. Qutilər zəngin bir mədəniyyətin içərisində formalaşmalarına baxmayaraq, öz əlifbalarını yaratmamış, özlərindən sonra, demək olar ki, yazılı abidələr buraxmamışlar. Onların daş sütunlar üzərində həkk etdirdikləri bütün mətnlər Şumer dilində olmuşdur. Qələmə laqeyd münasibətdə qutilər bütün dünya xalqları arasında yalnız türklərlə identikləşə bilərlər. Şumer dönəmində türk etnoslarından heç birinin yazılı abidələri tapılmamışdır. Dünya tarixini qılıncları ilə yazan türklər qələm tutmağa ciddi şəkildə həvəs göstərməyiblər.

5. Qutilər həddən artıq qoçaq, cəsur, döyüşkən və üsyankar xalq idi. Onlar hətta öz ağalarını, «allah-

ları» öldürməkdən belə çəkinməmişlər. Bu keyfiyyətlərinə görə də qutilər türklərlə identikləşir. Türkün cəsurluğu, mərdliyi, döyüş məharəti bütün dünyada məşhurdur. Ona görə də bir çox xalqlar xarici düşmənlərdən qorunmaq, yaxud yeni torpaqlar işğal etmək üçün muzdlu türk əsgərlərindən yararlanmağa və ya onlarla müttəfiq olmağa çalışırdılar.

6. Cəsurluğuna və döyüşdə amansızlığına görə qonşu ölkələrdə qutilərə kin və nifrət bəsləyirdilər, onları «vəhşi», «barbar» adlandırır, fürsət düşdükcə qutilərin düşmən obrazını yaradırdılar. Hətta qutilərin qələbəsindən bəhs edən daş sütunlar da kinlə dolu idi. Qutilər barədə ən inanılmaz, ağlagəlməz şayiələr yayır, onları gözdən salmağa çalışırdılar.

Bu gün türklər də eyni aqibəti yaşayır. Neçə yüzilliklər boyudur ki, türklərə qılıncla qalib gələ bilməyənlər onu söz silahı ilə məğlub etməyə çalışırlar. Qərb dünyası, eynən quti dönəmində olduğu kimi, böyük canfəşanlıqla türklər barədə ən ağlasığmaz şayiələr yayır, onun vəhşi, qaniçən, quldur, başkəsən obrazını yaratmağa cəhd göstərir. Uzun illər əsarətdə saxladıqları Avropada türklərə pataloji nifrət formalaşdırılmışdır. Müasir dünyamızın türklərə əvvəllər açıq, indi isə bir qədər pərdələnmiş düşmən münasibəti bu nifrətin quti dönəmindən, tarixin uzaq keçmişindən süzülərək gəldiyini və bu nifrətin sanki heç vaxt ara vermədiyini, min illərdir ki, davam etdiyini göstərir.

7. Bu gün qərb dünyasının öyündüyü demokratiyanın ilk vətəni qutilər ölkəsidir. Bu «vəhşi», «qan-





içən», «quldur» xalq Şumerdən sonra tarixdə ilk federativ dövlət qurmuş, yeddi bölgə eyni demokratik dəyərlər əsasında vahid ittifaqda birləşmişdi. Ölkəni «yeddi qardaş, yeddi çar» idarə edirdi. Hökmdarlar xalq içərisində böyük nüfuza malik olan adamlar arasından seçilir, bəlli müddətdən sonra seçkilər təzədən keçirilirdi. Bu, şumer təcrübəsindən xeyli fərqli sistemdi. Şumerdə, eləcə də bu təcrübədən yararlanan digər ölkələrdə hakimiyyət atadan oğula keçirdi. Qutilər isə belə hesab edirdilər ki, hökmdar tayfasında ad-san qazanmış hər kəsin çar olmaq səlahiyyəti vardır. Maraqlıdır ki, Azərbaycan torpaqlarında qurulan Lullubi, Zamua ölkələrində də Qutidə olduğu kimi federativ dövlət yaradılmışdı.

Demokratik ruhuna görə qutiləri ancaq türklərlə müqayisə etmək olar. Döyüşdə öz amansızlıqları ilə seçilən türklər gündəlik həyatlarında dostcanlı, mehriban, qurub-yaratmağı və qayda-qanunla yaşamağı sevən insanlardır.

8. Qutilərin danışıq dili barədə ən çeşidli spekulyasiyalar mövcuddur. Şumer kimi mürəkkəb sivilizasiyalarda irqi, etnik və linqivistik kateqoriyalar çox nadir hallarda üst-üstə düşür. Yazı mətnləri onların hazırlandığı cəmiyyətdəki danışıq dili barədə aydın təsəvvür yaratmır, etnik qrupların formalaşma prosesini izləməyə imkan vermir. Amma buna baxmayaraq bu yazı mətnləri sayəsində biz «tarixin dan çağında» (A.Oppenxeym) Mesopotamiyada ilkin türk tayfalarının yaşadığını sübuta yetirə bilərik.

Bizi qutilərlə bağlayan yeganə işıq məhdud sayda çar siyahısıdır. Təəssüflər olsun ki, daş sütunlarda

və digər qədim mətnlərdə həkk olunan cüzi quti sözlərini tarixçilərimizdən heç kəs toplayıb bir araya gətirməyə təşəbbüs göstərməmişdir. Çar adlarının elam, urartu, Qafqaz dilləri ilə müqayisəsi isə heç bir nəticə verməmişdir. Quti çar adlarının türk dilləri ilə müqayisəli təhlilini ilk dəfə yorulmaz, zəhmətkeş alim Firudin Cəlilov aparmışdır. Quti çarları ilə geniş yayılmış türk şəxs adlarının müqayisəsi görün necə maraqlı nəticələr ortaya çıxartmışdır.

Sarlaq – Sarı kan (Kuman xanı)

Yarlaq – Yarlakar kan Ata (qədim türk yazısında)

(Orxon-Yenisey mətnlərinə aid Suci abidəsində bu ad belə keçir: «Uyğur yerindən (mən) Yağlakar kan Ata gəldim»).

İbran(um) – İmrən («Kitabi – Dədə Qorqud»da)

İnqe-şuş – İnqa-türü (Əmir Teymurla vuruşan xan)

İnim Abaqeş – İnim Kültegin (qədim türk yazısında)

Elulumeş – Elalmış, Eltutmuş (türk adları)

Kurum – Kurum xan (qədim bulqar və Altın Orda xanları)

Tirikan – Diri-kan (həmçinin Tarkan, Türkan).

Mən bilmirəm bütün yuxarıda deyilənlər qutilərin erkən türklər olduğunu deməyə kifayət qədər əsas verir, ya yox. Ancaq mən onu dəqiq bilirəm ki, bu problemin həlli üçün köklü araşdırmalar aparılarsa, qarşıda heç gözləmədiyimiz sürprizlərlə üzləşə bilərik.

9. Quti tarixində məni heyrətə gətirən bir şey etnosun yazılı mənbələrdə qəfildən peyda olduğu kimi, qəfildən də yoxa çıxmasıdır. Tədqiqatçılara görə,





qutilər barədə ilk yazılı mənbə e.ə. III minilliyin ikinci yarısına aiddir. Yenə tədqiqatçılar iddia edirlər ki, Şumerin iflasından dərhal sonra, e.ə. II minilliyin başlanğıcından bu mənbələrin heç birində qutilərin adına rast gəlinməmişdir.

Bir tayfanın assimilyasıyası, digər tayfalar arasında «əriyib» yox olması uzun sürən çox çətin prosesdir və təəssüf ki, bizim bunu izləməyə heç bir imkanımız yoxdur. Çünki yazılı mənbələrdə bununla bağlı ya nəsə tapmaq qeyri-mümkündür, ya da müxtəlif dilli qaynaqlarda eyni tayfa tamamilə başqa adlar altında keçdiyinə görə etnosun izini itiririk.

Şumer göylərində ildırım kimi çaxan cəsur, savaşqan, üsyankar quti tayfalarının başına birdən-birə nə gəldi? Onlar nə üçün yoxa çıxdılar və ümumiyyətlə, yoxa çıxdılarmı?

Tarix bənzəri olmayan çox qəribə elmdir, hər şeyin aydınlaşdığını, həqiqətin bərqərar olduğunu zənn etdiyi bir vaxtda sanki daha qaranlıq bir zülmətə düşürsən. Tapılan hər cavab özü ilə yeni suallar doğurur, bu sualların cavabını axtararkən əvvəlkindən də çətin problemlərlə qarşılaşırsan. Beləliklə, sanki hər şey yenidən başlanır, mübahisələr bitib tükənmir, axtarışlar, sübutlar və əks sübutlar nəhayətsizliyə qədər uzanıb gedir.

Dünyada mütləq həqiqət deyilən bir şey yoxdur. Zaman adlı nəhayətsizliyin alt qatlarına, ağlımızın yetə biləcəyi qədər dərinliklərə endikcə, bütün həqiqətlər nisbi anlam daşımağa başlayır, biz fərziyyələrin, ehtimal və gümanların əsirinə çevrilirik. Amma bu fərziyyə və gümanların nə vaxtsa təkzibolunmaz də-

lillərlə isbatlana biləcəyi ehtimalı da çox böyükdür, tarix bunu dönə-dönə, dəfələrlə təsdiq etmişdir.

Biz əvvəlki fəsillərdə rusların Herodotdan «skif» kimi tərcümə etdikləri etnonimin müxtəlif dillərdə çeşidli fonetik oxunuşunun şahidi olduq: skuz, skut, skit, iskit, aşquz, aşquzay, işquzay. Etnonimin, həmçinin, iskutay və iskuday tələffüz formaları da mövcuddur. Bütün bu hərc-mərclik içərisində daha çox diqqət çəkən bircə şey var, o da «quz» və «qut» teonimləridir. Türk dillərində z-t əvəzlənməsi qədim dönəmlərdən üzübəri müşahidə edilir, bu dillərdə z fonemi yerindən asılı olaraq bəzən d, bəzənsə t kimi tələffüz oluna bilir. «Qut»un «quz» formasına düşməsi, türk fonetikası baxımından çox təbii və zamanla bağlı olan bir məsələdir. Görünür, heç də təsadüfi deyil ki, İ.Dyakonov «Bütün şərq mənbələri skif-skudları Manna və qismən Midiya ilə bağlayırlar» deməyə məcbur olmuşdur. Yazılı mənbələrdə skuzun (skutun) aşquz (işquz), yaxud aşquzay (işquzay) formalarına daha çox rast gəlirik. Tövratda bu ad Aşkenazdır. Nə üçün assur, babil və qədim yəhudi mənbələrində etnonim sadəcə quz, yaxud skuz kimi deyil, aşquz, işquz şəklində işlədilmişdir?

E.T.Minns belə hesab edir ki, söz önündəki ilk sait (a-i) ona görə artırılıb ki, «skuz»dakı qoşa samitlər (sk-şk) asanlıqla oxunsun. İ.Dyakonova görə də, «ikisamitli sözlərin önünə sadələşdirici sait artırmaq semit dil fonetikası qaydalarından irəli gəlir».

Amma bizim fikrimizcə, İşquzun ən doğru şərhi Oğuz elinin tarixi salnaməsi sayılan «Kitabi – Dədə





Qorqud»da özünə yer alıb. Dastanda deyildiyi kimi, oğuzlar 24 boydan, qəbilədən ibarət idilər və bu tayfalar bir-biriləri ilə düşmənçilik edən iki barışmaz qola ayrılmışdı: İç oğuz (işquz) və Taş oğuz (dış oğuz). İç oğuzlar, yaxud işquzlar Ön Asiyada qüdrətli bir dövlət qurmuşdular. Bu dövlətdən kənarda yerləşənlərin hamısı Dışoğuz sayılırdı. Türkmənlərin «Oğuznamə»sində Oğuzun sərhədləri belə sıralanır: «Balkan taqında oturadıran oğuzlar, Köpettaqın ətəklərində oturadıran oğuzlar, Alıs ilindən olan oğuzlar, Tejen, Murqan, Amıderya kənarında oturadıran oğuzlar, Sırlı derya kənarında oturadıran oğuzlar, Ural taq ətəkində oturadıran oğuzlar, Xar al dənizi kənarında oturadıran oğuzlar, Sebizte, Çırıklıta oturadıran oğuzlar, Basta oturadıran oğuzlar, Diyarbəkirdə oturadıran oğuzlar, Xankatta, Kəttə oturadıran oğuzlar, Kaspi kənarında oturadıran oğuzlar, Xülas, İçoğuzdan, Dışoğuzdan adamlar gələdirlər».

O. Süleymenov e.ə. VII əsrə aid ideoloji sxemin bu gün də bəzi türk xalqlarında saxlandığını yazır: Başqırd adında (qazaxca iştеqi) və Sibir türklərinin adında (özteqi). O. Süleymenov iddia edir ki, «türk dilindəki işoğuz assur mətnlərində işquz şəklində yazılmışdır. Semit dillərində o saiti tələffüz olunmadığından, görünür, «oğuz» «quz» şəklinə düşmüşdür. Məsələn, ərəblər oğuzu quz şəklində yazır və tələffüz edirlər».

Amma işquzay və isquzaydan daha öncə, görünür, etnonimin ilkin mənbəyə daha yaxın olan iskutay (iskuday) forması mövcud imiş. Azərbaycan alimi

Q.Qeybullayev assurların ümumtayfa adı kimi işlətdikləri aşquzayın əslində, yazılış etibarı ilə iskutaya (iskudaya) identik olduğu gümanındadır. Q.Qeybullayev yazır ki, antik mənbələrdə «skit» və «skut» kimi göstərilən etnonim bütün tayfaların birləşdirici adıdır. İ.Dyakonov isə iskutayı (iskudayı) hökmdar tayfalarını bildirən skolotla eyniləşdirir. Z.İ.Yampolski belə güman edir ki, Atropatena ərazisində və Qafqaz Albaniyasında məskunlaşan utilər qədim kutilərin varisləridir. Sadəcə, zamanla «kuti» adındakı boğaz səsi **k** düşdüyündən etnonim uti şəklini almışdır. Beləliklə, bir ucu açıq qalan dairə yaranır: əvvəlcə quti adlanırdılar, sonra skut oldular, skut iskutaya dönüşdü, iskutay isə əvvəlcə skuza, sonra skifə çevrildi, beləcə məlum oldu ki, dünyanın az qala yarısından çoxunu əsarət altına alan quzlar (oğuzlar) bir vaxt Şumeri diz çökdürən, onu 91 il öz ağalığında saxlayan cəsur, döyüşkən qutilərin birbaşa varisləridir. Qut-quz etnonimlərinin yazılı ədəbiyyatda bu qədər dəyişkən formaya düşməsi isə onu işlədən xalqların dil qanunlarından irəli gəlmişdir.

Dünyanın «göbəyində» yaşayıb «Günəş Adamına», «Göy Adamına» sitayiş edən babalarımızla, «dünyanın göbəyindən», Ata yurdu Nippurdan qovulan dədələrimizin eyni «yer-su»dan çıxdıqlarını və eyni kökdən gəldiklərini anlamaq, məncə, o qədər də zor olmasın gərək!

Çoxlarının güman etdiyi kimi, İkiçayarasındakı siyasi hakimiyyətin süqutundan sonra qutilər heç də tarix səhnəsindən silinməmişdilər, onlar, sadəcə,





«cildlərini dəyişərək» qaynaqlarda başqa ad altında görünməyə başlamışdılar. Bu, qutilərin günahı deyildi, tarix yazarları qələmlərinin uğuyla «fələyin çərxini» bir azca başqa səmtə çevirmiş və türklərin taleyi öz «orbitindən» qoparaq yad və tamam uzaq bir «orbitə» atılmışdı. Onlar hələ bu «orbit»də çox çabalamalı, öz kimliklərini təzədən dünyaya sübut etmək məcburiyyətində qalmalıydılar: Biz kimik, haradan gəlmişik və haraya gedirik?

Əslində, «qut» adının birdəfəlik unudulduğunu söyləmək heç də doğru olmazdı. Bu ada e.ə. VII əsrə aid Assur mənbələrində hələ də rast gəlmək mümkündür. Assur çarı Asarxaddon (e.ə. 681-668) Manna üzərində qələbəsini belə əbədiləşdirmişdi: «Mən Manna ölkəsinin adamlarını, dinc oturmayan kutiləri darmadağın elədim».

Asarxadonun bu məlumatı bir neçə səbəbdən önəmlidir. Əvvəla, məlum olur ki, kutilər, bəzilərinin iddia etdikləri kimi, heç də tarix səhnəsindən silinib getməmişdilər. İkincisi, əgər türk dövləti Mannanın adamları «dinc oturmayan kutilər»dən ibarət idisə, deməli, kutilər türkdilli xalqlardır. E.ə. VII əsrin ortalarında qədim Azərbaycanın həm cənub, həm də şimal ərazilərini birləşdirib vahid sak dövləti yaradan Tuqdamme özünü «sak və kuti ölkəsinin hökmdarı» elan etmişdi.

Eramızın VI-VIII əsrlərinə aid edilən Orxon-Yenisey abidələrində, orta əsr qaynaqlarında, digər mənbələrdə ara-sıra da olsa, yenə bu tayfa adına rast gəlirik. Orxon-Yenisey yazılarında bir neçə dəfə Tun-

qut və onların əcdadları sayılan kıtaylar xatırlanır. Kut tayfa adı «Mogilyan xanın kitabəsi»ndə də çəkilir:

«Yigirmi yaşımda basmıl, ıdıkut oğuşım budun ərti. Arqış ıdımaz teyin sülədim k... t içgərtim qalın əbru gəlirtim» (İyirmi yaşımda basmıla, öz xalqım ıdıkuta (ulu kuta(?) – R.C.) qarşı getdim. Vergi ödəmədilər deyə qoşun çəkdim... tabe etdim çoxlu (qənimət alıb) evə gətirdim).

X-XI əsr mənbələrində isə hökmdar tayfaları arasında yenə kutriqur adına rast gəlirik.

Görkəmli tədqiqatçı P.F. Sum XVIII əsr fransız alimi Deqinin çoxcildli «Hunların, türklərin və monqolların tarixi» kitabına istinad edərək yazır ki, bir çox türkmənoloqların qots, yaxud quts adlandırdıqları etnoslar Avropa uzlarından başqa birisi deyildir. Quzların bəzi Avropa mənbələrində uz kimi göstərildiyi hamıya məlumdur. Alimə görə, qotslar (qutslar), xəzərlər, patsianaklar (peçeneqlər) və uqrlar türkdilli tayfalardır. Anna Komnina quts-uts etnonimini «unn» sözünün pozulmuş tələffüz forması hesab edir.

Bütün yuxarıda deyilənlərdən sonra fikrimizi yekunlaşdırıb inamla deyə bilərik ki, «quz» və «qut» eyni kökə malik skut, skuz və quts (qots) etnonimlərinin müxtəlif fonetik səsləndirilməsindən yaranan, yazılı mənbələrdə əvvəlcə qut (quti), sonra iskutay (iskuday), daha sonralar isə aşquz, aşquzay (işquzay) və oğuz formasına düşən eyni türkdilli tayfalardır. Bu tayfalara verilən və daha geniş yayılmış skif etnonimi isə qədim yunancadan yanlış transkripsiya sayəsində meydana gəlmişdir.





# XIV FƏSİL

## İLAN XALQI

Keçmişimizin ən qaranlıq dönəmlərindən biri Midiya ilə bağlıdır. Midiya tarixi ağzı açıq qazana bənzəyir, hər gələn bir çömçə salmış, ancaq heç kəs qazanın dibinə çata bilməmişdir. Dünya sivilizasiyası tarixində özünəməxsus yer tutan Midiyanın əsil «siması» təəssüf ki, bu günəcən açılmayıb.

Hələ iyirminci əsrin əvvəllərində rus tarixçisi B.Turayev yazırdı: «Qədim dünyanın tarixdə az-çox mühüm rol oynamış ölkələri arasında tədqiqatçılar üçün ən əlçatmazı Midiya dövlətidir. Bu vaxtacan tarixçilər Kiçik Asiya karfagenlərinin qaynaqlarına, hətta Ktesiyanın etibarsız xəbərlərinə əsaslanaraq Midiya haqqında yazan Herodotun məlumatları ilə kifayətlənmək məcburiyyətində qalmışlar».

Nə Daranın Behistun qayaüstü yazıları və Assuriya hərbi qaynaqlarında özünə yer alan ötəri, cansıxıcı məlumatlar, nə də Oppert, Vinkler və Praşekin çabaları tarixin Midiya çuxurunu doldura bilmədi.

Bu gün də Midiyanın «obrazı» bir müəmma olaraq qalır. Çoxları onu İran torpaqlarında yaradılmış farsdilli dövlət sayır.

Herodot tərəfindən sadalanan altı Midiya tayfasının etnik mənşəyi, ilkin vətəni, onların linqivistik mənsubiyyəti barədə uzun onilliklərdir ki, bitib tükənməyən mübahisələr gedir. Tədqiqatçılar bu tayfa-

ları etnik tərkibinə görə iki yerə bölürlər: irandillilər və irandilli olmayanlar.

Eliza Reklü O.Oppert və Lenormana istinad edərək yazır ki, Midiya dövlətini təmsil edən altı tayfadan ikisi ari və İran mənşəli, dördü isə, çox güman ki, «Turan əsilli» əkinçilər olub. Bu tayfalar da iki qrupa ayrılıblar: oturaq əkinçilər və maldar nomadlar.

İ. Dyakonov isə maq, budi və bus tayfalarını irandilli olmayanlara, arizantları, paratakenləri və struxatları irandilli olanlara ayırırdı.

R.Fray belə hesab edirdi ki, bu tayfa birləşməsi irandillilərin və irandilli olmayanların hibridindən yaranmışdır.

Azərbaycan alimi Q.Qeybullayev hər iki fikri rədd edərək yazır ki, tayfa birləşmələri ilk əvvəl yalnız etnik və dil cəhətdən qohum olan etnoslar arasında baş verir. Hibridləşmə bu prosesin ikinci mərhələsidir. Ona görə də, Midiya tayfa birləşmələri müxtəlif etnik qruplardan yarana bilməzdi.

İ.Əliyev isə hətta bu qohum etnosların adını da çəkir. Alimin fikrincə, «Assiriyalıların bütöv bir vahid kimi qələmə verdikləri maday, görünür, ilk əvvəl irandillilərin deyil, kaspidilli tayfaların ittifaqından əmələ gəlib».

Midiya tarixinin əvəzsiz bilicisi olan Q.Qeybullayev ömrünün çox böyük bir hissəsini bu problemin aydınladılmasına həsr etmişdir. Məhz onun yorulmaz əməyindən, qlobal axtarışlarından sonra Midiya ilə bağlı bir sıra qaranlıq məqamlar gün işığına çıxmışdır. Mən bu fəsildə daha çox onun qeydlərindən faydalanmağa çalışmışam.





Beləliklə, Herodot Midiyada yaşayan altı tayfanın adını çəkir: bus, arizant, struxat, parataken, budi və maq.

**Buslar.** E.Qrantovski belə hesab edir ki, bus fars dilindəki buza (sərxoşedici içki) sözündən yaranıb.

Alimin iddiasına görə bu söz indiyəcən buzlamac şəklində tat dilində qalmışdır. Buzlamac isə çətənə şirəsi ilə yoğrulmuş xəmirdən hazırlanan kökəyə deyilir.

E.Qrantovskinin bu fikrinə münasibət bildirən Q.Qeybullayev yazır: «Buzlamac xalis türk sözüdür və tat dilinə türklərdən keçmişdir. Bozlamac sözünə «Kitabi – Dədə Qorqud»da rast gəlmək olar. Söz «buz» kökündən, la suffiksindən və «yemək» anlamına gələn «omac» əlavəsindən yaranıb, mənası «buzlu yemək» yaxud «sərinləşdirici yemək»dir.

Yeri gəlmişkən qeyd edim ki, eramızın birinci minilliyinə aid edilən Orxon-Yenisey abidələrində, Tun-Haunq məbədindən tapılmış əlyazmasında Buzaç tutuk adına da rast gəlirik.

Bus etnonimi başqırd və qırğız dillərində buçman və buşman şəklində qalmaqdadır. V.Radlov Sibirdə buçman tayfasının mövcudluğundan söhbət açır. Qədim türk dillərindəki s-ç-ş yerdəyişməsinin mümkünlüyü bus və buç (buş) etnonimlərinin eyni kökdən gəldiyini deməyə əsas verir.

Q.Qeybullayevə görə, bus Xəzər xalqlarındakı bizal etnoniminin yaranmasına da təsir göstərmişdir. Alimin fikrincə, bizal buzal və bozalın təhrif olunmuş formasıdır. Bozal isə öz növbəsində boz teonimindən

və el komponentindən əmələ gəlmişdir. Bu etnonim Tovuz rayonu ərazisindəki Bozalqanlı, Kəlbəcər və Laçın rayonlarındakı Bozlu kəndlərinin adlarında qalmaqdadır. Mingəçevir rayonundakı Boz dağ, oğuzlardakı bozox boylarının adında da bus (boz) etnoniminə rast gəlirik.

Diqqətlə fikir versək, görərik ki, bus həm də qədim türk dillərindəki sub teoniminin çevrilmiş formasıdır. Sub, sadəcə su idisə, bus (buz) bərkimiş, kristallaşmış sudur. İşə bax ki, şamançılığın başlıca tərkib hissəsi olan qam teonimi də maq tayfa adından yaranmışdır. Türklər bu üslubdan tez-tez istifadə edirdilər. Dünya tarixində silinməz izlər buraxan Kaspi və Kazax tayfa adlarının kökündə duran Kas (Kaz) da sak etnonimindən çevrilərək əmələ gəlmişdir.

Fikrimizi yekunlaşdıraraq əminliklə söyləyə bilərik ki, Midiya tayfası buslar türkdilli olmuşlar.

**Arizantlar.** Bu adı müxtəlif iran dillərində izah etməyə çalışır və «ari tayfası» anlamına gəldiyini iddia edirlər.

Q.Qeybullayevin fikrincə, etnonimin real forması türk dillərindəki araz kökündən və cəm şəkilçisi t suffiksindən yaranmış, ilkin tələffüz forması arazat olmuşdur. Alim yazır: ola bilsin ki, n fonemi Herodot və ya onun istifadə etdiyi qaynaq tərəfindən artırılmışdır. Mümkündür ki, etnonimin ariz forması türk tayfaları arıs, orus və urus adı ilə bağlı meydana gəlsin. «Alban tarixi»ndə Arajank toponimi xatırladılır. «VII əsr erməni coğrafiyası»nda həmin toponim Arospijak şəklində verilmişdir. XVII əsr erməni yazarı





Zaxar Akulski isə toponimin Arasank formasından istifadə etmişdir.

Qarabağ mahalının arxiv sənədlərində Azərbaycan kəndi Ariz yada salınır. Culfa rayonunda və İran Azərbaycanında Arazin kəndləri vardır.

Arizant etnoniminin yaranması ilə bağlı fikrini yekunlaşdıran Q.Qeybullayev belə yazır: «Midiya tayfası arizantın adı (araz etnonimi) bu gün də türk dillərinin daşıyıcısı kimi toponimlərdə yaşamaqdadır».

Bu fikrə əlavə olaraq bildirək ki, «Kitabi – Dədə Qorqud»da adı çəkilən Alp Aruz, Aruz oğlu Basat, Qazan bəg oğlu Aruz bəg adları da görünür bu Midiya tayfasının adı ilə eyni kökdəndir.

«Avesta»nın orijinal nüsxəsinin hansı əlifba ilə və hansı dildə yazıldığını dəqiqləşdirmək mümkün olmamışdır. Çünki farslar Midiyada hakimiyyəti ələ keçirəndən sonra onu xeyli dəyişdirdilər, «ari siyasətini» təbliğ edən silaha çevirdilər. İlk əvvəl 21 cilddən ibarət olan «Avesta»dan bu gün cəmi bir kitab qalıb. E.ə. V əsrə aid olduğu güman edilən və əhəmənilərin daş üzərinə həkk etdirdikləri «fars kitabəsi» mixi əlifba ilə və üç dildə hazırlanmışdır. Eliza Reklü həmin mətnləri nəzərdə tutaraq yazır: «Üç dildə olan bu yazılarda biz divarlarda fars dilindən sonra ikinci yerdə duran hansısa iltisaqi dilə rast gəlirik. Bir sıra mütəxəssislərin də fikrini nəzərə alsaq, düşünmək olar ki, bu dil türk dilinə uyğundur».

Eliza Reklu belə hesab edir ki, türk dili deyəndə Midiyada işlənən xalq dili, yeni arizantların dili nəzərdə tutulur. Tədqiqatçı sözünü belə yekunlaşdırır:

«Şpigelin də xatırlatdığı kimi, tədqiqatçılar Midiyanın iki bölgəsində, məhz ölkənin qədim əhalisinin danışdığı dilin işləndiyini qeyd edirlər. Ariləri «əsarət altına alan» bu turan mənşəli dildə çoxlu kitabələr mövcud imiş».

Midiya dili tayfa dillərindən ibarət idi. Əgər Midiyadakı tayfa ittifaqı etnik və linqivistik cəhətdən qohum olan xalqlar arasında qurulmuşdusa, təbii ki, bu zaman dövlət səviyyəsində işlədilən arizant tayfalarının dili bütün əhali tərəfindən qəbul ediləcək və başa düşüləcəkdi.

**Struxatlar.** Tədqiqatçıların böyük əksəriyyəti bu tayfanı irandilli hesab edirlər. Lakin fikirlərini sübut etmək üçün tutarlı dəlillər gətirə bilmirlər. Bu etnonimdəki at suffiksi qədim türk dillərinə məxsusdur, at suffiksi ilə skif tayfası avxatın, müasir türk tayfası sarqatın adları meydana gəlmişdir.

Q.Qeybullayev yazır: «Etnonimin ilk komponenti olan «strux»un yerli tələffüzünü bərpa etmək çətindr. Ola bilsin ki, qədim yunan tarixçisi, yaxud əsərin üzünü köçürənlər bu adı təhrif etmişlər. Ehtimal etmək olar ki, komponent çatar (qədim yunan dilində **ç** hərfi olmadığına görə Herodot komponentin ilk hərfini **s** hərfi ilə dəyişdirə bilərdi), satar, yaxud şatar formasında olub... Sat, çat, çata, şat, satı etnonimləri Sibir xalqları arasında bu gün də geniş yayılmışdır».

Alim belə hesab edir ki, sturxat etnonimini satarkat, yaxud şuturkat formasında bərpa etmək daha düzgün olardı. Çünki bu etnonim orta əsr toponimləri Şatar və Şuturda özünü göstərir. Yaqut əl-Həməvi





Arranda, Gəncə ilə Bərdə arasında Şatar toponimini yada salır. Bu gün Bərdə və Cəlilabad rayonlarında Şatırlı kəndləri mövcuddur.

Bizim fikrimizcə, struxat etnoniminin başqa bir təfsiri də mümkündür. S+truk+at. S qədim yunan dilində, bir qayda olaraq söz önünə artırılan komponentdir və heç bir məna kəsb etmir. Ən azından skif (skut, skuz) etnonimini yada salsaq bəsdir. Trux e.ə. III minilliyin ortalarından yazılı mənbələrdə adı çəkilən turukların yunan dilinə uyğunlaşdırılmış formasıdır. At komponenti qədim və müasir türk dillərində geniş işlədilir. Bu komponentlə həm tayfa adları, həm də çoxsaylı məişət sözləri yaranmışdır.

Tayfa adları: bayat, aralat, paralat, oyrat, saqat, sarqat və s.

Digər sözlər: aukat, sovqat, ovqat və s.

Z.Həsənova görə, at komponenti türk dillərində yerinə görə dəyişən mənalarda istifadə olunur. Bunlardan ən geniş yayılanı «etmək», «durmaq, dayanmaq», «düzəldilmək, yaradılmaq»dır.

Beləliklə, struxat yeni təfsirə görə «təzədən formalaşan turuklar» anlamına gəlir ki, bu da həm məntiqi, həm də elmi baxımdan tamamilə mümkündür.

**Paratakenlər.** İranşünas tarixçilər bu etnonimi «yuyunub təmizlənənlər» şəklində təfsir edirlər. Q.Qeybullayevə görə, parataken türk boro-toğan sözünün təhrif olunmuş formasıdır. Bor, boro türk dillərində boz, toğan isə şahin cinsindən olan şonqar (sunqur), qırğı və çalağan anlamına gəlir, yəni parataken – boz şahinlər, yaxud boz sunqurlar. Q.Qeybullayev belə

hesab edir ki, boz sunqur quşu bu tayfanın ongonu ola bilərdi.

Z.Həsənov paralat etnonimini təhlil edərkən qədim türkcədə bar teoniminin getmək, hərəkətdə olmaq, par teoniminin isə vurmaq, kəsmək, doğramaq anlamına gəldiyini vurğulayır. Bu kontekstdə boro-toğan «köçəri boz sunqurlar», yaxud «vurub dağıdan boz sunqurlar» anlamına gələcəkdir.

Erməni tədqiqatçı Sevortyanın S.P.Tolstovun elmi nəticələri barədə verdiyi xəbər də çox əhəmiyyətlidir. S.P.Tostova görə, «bar», «bor» türkcədə «sututar» anlamını verir və öz mənşəyini e.ə. III-II minilliklərdən alır. Əgər S.P.Tolstovun təfsirini nəzərə alsaq, boro toqan «sututar sunqurları» ola bilər.

Boro teonimindən türk xalqları geniş şəkildə istifadə etmişlər. Peçeneq və kəngərlər arasında boro-talmat, başqırdlar arasında boro-nayman, monqollarda boro-toqan tayfalarına rast gəlmək mümkündür. D.Yeremeyev və F.Metsovski qeyd edirlər ki, orta əsrlərdə Ön Asiyada türk bozdoğanlu tayfası mövcud olmuşdur. Azərbaycanın Laçın rayonunda Bozdoğan kəndi, Gəncədə Toqana qəsəbəsi vardır. Rəşid əd-Din İranın Astrabad vilayətində Qara Tuqan ərazisinin olduğunu bildirir.

Məncə, boro-toğanın əsil mənası xalqımızın tarixi salnaməsi olan «Kitabi – Dədə Qorqud»da daha yaxşı açılır. (Əlavə məlumat almaq üçün «Dədə Qorqud peyğəmbərliyi» fəslinə bax.)

Toğan-şahin simvolu qədim türklər arasında geniş yayılmışdı və bir çox yazılı mənbələrdə, o cümlədən Orxon-Yenisey abidələrində bu ada tez-tez rast gəlirik.





Hər halda etnonimin dərindən təhlili açıq-aydın göstərir ki, paratakenin irandilli tayfalarla heç bir əlaqəsi yoxdur!

**Budilər.** Bu tayfa adının iran dillərində təfsiri heç cür mümkün olmamışdır. Lakin onların türkdilli tayfalar olduqları da indiyəcən sübuta yetirilməyib. Buna baxmayaraq, Azərbaycan alimi Q.Qeybullayev budilərin türkdilli xalqlara daha yaxın olduğunu yazır. Müəllif budi etnonimini cənubi Rusiya çöllərində yaşayan qıpçaq bout tayfası ilə müqayisə edir. Rəşid əd-Din isə monqollar arasında budat etnoniminin olduğunu vurğulayır. Bud və at komponentlərindən ibarət olan bu etnonimdəki at sonluğu türk dillərinə xasdır. Bir qədər əvvəl bu sonluqla bitən türk tayfa adlarından və məişət sözlərindən gətirdiyimiz misallar da fikrimizi bir daha təsdiqləyir.

Şimali Qara dəniz ətrafında yaşayan skif tayfalarından biri budni adlanırdı. Etnonimin kökü «bud»dur, o, **n** foneminin və **i** affiksinin artırılması yolu ilə yaranmışdır.

Orta əsrlərdə Azərbaycan ərazisində podar və ya padar tayfaları yaşayırdılar. Həmin tayfa adları bu gün bir çox toponimlərdə öz əksini tapmışdır, məsələn, Kürdəmir rayonu ərazisindəki Padar kəndi buna əyani misaldır. Güman edilir ki, bu toponim «bud» teonimi ilə eyniləşən «pod», yaxud «pad» köklərinə ar komponentinin artırılması yolu ilə əmələ gəlmişdir. Türk xalqlarının dilində ar komponenti ilə yaranan çoxsaylı etnotoponimlər mövcuddur.

Hələ eramızın birinci minilliyinə aid Orxon-Yenisey abidələrində «soy, qəbilə, boy» anlamını bildirən bod teonimindən istifadə edildiyi məlumdur. Türklər həmçinin «xalq» məfhumunu bildirmək üçün «budun» terminini işlədirdilər. Budi və budun sadəcə fonetik oxşarlıqdır, yoxsa konkret tayfa adını bildirən budi etnonimi son minillik ərzində dəyişərək ümumiləşdirici budun şəklinəmi düşmüşdür?

Təəssüf ki, Quba rayonunun ərazisindəki Buduq kəndi və buduqlar da araşdırmalardan kənarda qalmışlar. Ləzgi dil ailəsinə aid olan buduqların çox əski kökə dayandıqları öyrənilsə də, bu tayfaların təşəkkül tarixi bu günəcən axıradək aydınlaşdırılmayıb. «Buduqlar Midiyadakı bud tayfalarının varisləridirmi?» sualı da bu günəcən açıq qalıb və öz gələcək tədqiqatçılarının yolunu gözləyir.

**Maqlar.** Maq tayfa adının mənşəyi və ilkin etnik tərkibi bu günə qədər dəqiqləşdirilməyib. Fikrimizcə, bunun başlıca səbəbi odur ki, maqların tarixini araşdıran bütün tədqiqatçılar onun meydana gəlməsini nədənsə e.ə. I minilliyə bağlayırlar. Məhz zaman məhdudiyyəti maqların həqiqi tarixini və tayfanın mənşəyini öyrənməyə imkan verməmişdir. Gəlin tələsməyək və hər şeyə ardıcıllıqla nəzər salmağa çalışaq.

Maqları irandilli hesab etməyin çətin olduğunu yazan İ.Dyakonovun fikrinə görə, etnonim əvvəlcə konkret bir tayfanın adı kimi meydana gəlmiş və yalnız bundan sonra zərdüşti dininin kahinlərinə deyilməyə başlanmışdır. Q.Qeybullayev sanki bu fikri davam etdirərək yazır ki, kahinlərin maq adlandırılması





bu vəzifəyə təyin olunanların yalnız maq tayfaları içərisindən seçilmələri ilə bağlıdır.

O zaman ortaya belə bir haqlı sual çıxır: bəs Midiya tayfası nə üçün özünü maq adlandırmışdır? Etnonim necə və haradan yaranmışdır?

Bu fikrə aydınlıq gətirməyə çalışan Q.Qeybullayev yazır: «Assuriya və Urartu mənbələrində maq tayfa adına rast gəlmirik. Bu qaynaqlarda mana və manna terminlərindən istifadə olunmuşdur. Eyni zamanda, antik müəlliflərə və İran yazarlarına manna etnonimi bəlli deyildi. Onlar öz mənbələrində maq sözünü işlətmişlər».

Alim daha sonra fikrini belə yekunlaşdırır: «Biz belə hesab edirik ki, maq yerli etnonim formasıdır, ona görə də Assuriya və Urartu qaynaqlarında işlədilməyib, manq, yaxud manqa şəklində tələffüz olunub. Mana (manqa) etnonimi isə belə görünür ki, öz mənşəyini Altay tayfalarından almışdır».

T.Hacıyev «Azərbaycan onomastikasının problemləri» əsərində bu məsələni bir qədər də dəqiqləşdirməyə çalışır. O belə güman edir ki, Altay türkləri manna etnonimində **n** fonemini bu tayfalara xas olan qoşa samit **nq** kimi tələffüz edərək «manqa»ya çevirmişlər, daha sonralar isə **n** fonemi düşərək söz maq formasını almışdır.

Bu fikir maq etnoniminin yalnız e.ə. birinci minillikdə yaranması ehtimalını qəbul etdikdə doğru sayıla bilər. Əslində isə, professor A.Şükürovun da çox haqlı olaraq qeyd etdiyi kimi, «maqların tarixi zərdüştliyin tarixindən min illər qabaqdır».

Vaxtilə Diogen Aristotelin «Fəlsəfə haqqında» kitabına istinad edərək yazırdı ki, maqların tarixi misirlilərin tarixindən daha qədimdir. Görünür, Aristotel bu sözləri erkən mənbələrə əsaslanaraq xəbər vermişdir. Dəqiq tarixi bilinməyən bir papirus yazısını tədqiqatçılar «Çar Xeops və maqlar» adlandırmışlar. Çar Xeops Misirin faraonu Xufuya yunanlar tərəfindən verilən addır. Faraon Xufu tarixə Giz yaylasında ucaldılan nəhəng Xufu (Xeops) piramidası ilə düşmüşdür. Bu piramidanın e.ə. III minillikdə tikildiyi güman edilsə də, əslində, son dövr tədqiqatları piramidanın bu tarixdən qat-qat yaşlı olduğunu təsdiqləyir.

Corc A.Bartonun torpaq altından qazıb çıxardığı və mətnini bərpa etdiyi «gil kitabə»də e.ə. 8670-ci ildə baş vermiş ikinci piramida müharibəsinin yekunlarından danışılır. E.ə. 2300-cu ildə Naramsinin tapşırığı ilə daha qədim Şumer mətnindən akkad dilinə tərcümə edilən bu əfsanədə müharibə zamanı Enkinin kiçik oğlu Ninqişzidin – Totun dünyaya gəldiyi xəbər verilir. Tot, əfsanəyə görə, Şit ölkəsində doğulmuşdu, bu, Misirin ən qədim adıdır. Lakin akkadlar bu ölkəyə nə Şit, nə də Misir yox, Maqan deyirdilər. «Enki və Kainat» adlı poemada da Maqan ölkəsinin adı çəkilir.

***Ölkələr Maqan və Tilmun baxaraq mənə***
***Tilmun gəmiləri şalban daşıyır.***
***Maqan gəlmiləri göyə qədər yüklənib,***
***Meluxxidən «maqilum» yelkənli gəmilər***
***Qızıl və gümüş gətirir onlar.***
***Hamısını daşıyırlar Nippura***
***Enlilə, yer üzünün hökmdarına.***





Bu, Totun dünyaya gəldiyi və akkadların Maqan adlandırdıqları qədim Misirdirmi, yoxsa daha sonralar salınmış tamam ayrı bir ölkədirmi, indi bunu dəqiqləşdirmək çətindir, ancaq əslində, bunun bizim üçün bir o qədər əhəmiyyəti də yoxdur. Fakt odur ki, maq sözü Midiyanın maq tayfalarından min illər, bəlkə də çox-çox minilliklər qabaq mövcud olmuşdur. Qədim Misirin, Nil vadisi mədəniyyətini yaradanların yaşadıqları regionun maqların ölkəsi adlandırılması da təsadüfi deyildi.

Bir sıra qədim mətnlərdə Erkən Zamandan, bu Erkən Zamanda yaşayan Heliopol «allahlarından», onların «qızıl çarlıq» dövründən bəhs olunur. E.ə. 3100-cü ildə başlayan Birinci Misir Dinastiyasından çox-çox əvvəl Nil vadisi regionunu idarə edən bu «allahlar» Enkinin klanından idilər. Misirdə ona Ptax deyirdilər. Qaynaqlara görə dahi gen mühəndisi və təbiətin Ana qanununa dərindən bələd olan Enki-Ptax Misiri cənnətə döndərməyi bacarmışdı. Enkidən sonra hakimiyyətə gələn «allahların» hamısı ezoterik elmin mahir biliciləri və «üstün bilgili» maqlar sayılmışlar.

Qədim mənbələrdə Tot «əlifbanı icad edən və magiyanın himayədarı» kimi tanıdılır.

Britaniya muzeyində saxlanan Çester Bitt papirus yazısında Qorun anası, Osirisin bacısı və arvadı İsida cadugarlığın və magiyanın mahir bilicisi kimi təqdim olunur. İsida qədim misirlilərin yaddaşında «iti dilli», saatlarca dayanmadan çox gözəl «ovsun oxumağı bacaran» bir maq kimi qalmışdır. Bu papirus

yazısında Ra (Marduk) isə «atəş nəfəsli İlan» kimi verilir. Ranın «üstün bilgiləri» barədə çoxlu rəvayətlər qalmışdır. Ümumiyyətlə, bu klanda bütün «allahlar» gizli elmin mahir biliciləri və davamçıları idilər.

Bəs nə üçün qədim mənbələrdə maqlar barədə, ezoterik elmin nəticələri barədə heç bir informasiyaya rast gəlmək olmur? E.A.Uollis-Bacın yazdığına görə, kahinlər bütün elmlərdən xəbərdar idilər, onlar bu elmlərin arasında təkcə ezoterik təlimi gizlin saxlayır, kənar adamlara öyrətmir, yazıya almır, davamçılarına şifahi şəkildə ötürürdülər. Heç vaxt pozulmayan qaydaya görə kahinlər qnozisə, yazıya köçürülməyən «üstün bilgiyə» yiyələnməliydilər. Bu üzdən qaynaqlarda maqlar və onların təlimləri barədə ya çox az şey yazılıb, ya da heç nə yazılmayıb. Bu gizli təlim kənar adamlara öyrədilmədiyi üçün kahin kastasında olanların hamısının genetik qohum olduğunu söyləməyə hər cür əsas vardır.

İranşünas alimlər belə bir rəy formalaşdırıblar ki, Avropa xalqlarında geniş yayılan kahin, münəccim, sehrbaz sözləri Midiyadakı maq tayfalarının adına sinonim kimi yaranmışdır və guya magiya sözü də həmin tayfanın adındandır.

Bəs magiya özü nədir?

Azərbaycan Sovet Ensiklopediyasında «magiya»ya belə şərh verilir: yunanca «maqlimose» sözündəndir, «cadugarlıq, sehribazlıq» deməkdir. Magiya insanın fövqəltəbii gücünə inamdır, təbiət hadisələrinə təsir etmək bacarığıdır.

Avropadakı kahin, münəccim, sehribaz sözlərinin Midiyadakı maqlara sinonim kimi meydana gəl-





məsi barədə iddia yanlış olduğu kimi, «maq»ın yunanlardan götürüldüyü barədə iddia da, bir qədər əvvəl gördüyümüz kimi, kökündən səhvdir.

Heç şübhəsiz ki, «maq» sözü Şumerdə və Misirdə yaranmışdı, çünki insanların mənəvi dünyalarını yönləndirən kahinlərin hamısı münəccim, cadugər və sehrbaz idilər. B.Turayev «Qədim Şərq tarixi» kitabında yazır ki, qədim Şumer mətnlərinin son dövrlərinə aid qaynaqlarda «gələcəkdən xəbər verən dil», «cadugərlərin, sehribazların dili» terminlərinə rast gəlirik. Görünür, bu dil ana dilindən – Şumer dilindən fərqlənirmiş və yalnız kahinlər tərəfindən işlədilirmiş. Şumerdə bütün kahinlər maq idi, amma bütün maqlar kahin deyildi. Eynən Midiyada olduğu kimi.

Bəşəriyyətin bütün «ilklərini», o cümlədən magiyanı da dünyaya Şumer bəxş etmişdir. Belə görünür ki, Şumerdə ayrıca «hökmdar tayfaları» kimi, ayrıca «kahin tayfaları» da mövcud imiş. Əvvəllər, bir qayda olaraq, məbədlərdə kahinlər anunnakilər arasından seçilirdi. Sonra bu işi seçilmiş insanlara da etibar etməyə başladılar. Şumer mətnlərindən, hətta ilk belə kahinin adı da bəllidir: Enmeduranki. Yer insanları arasından seçilən bu kahinə Enki Müdrikliyi (təbabət elmini), rəqəmlərin sirrini, ME-ləri işlətmək bacarığını, Yer və Göy elmlərini öyrətmişdi. Bütün kahinlər fövqəltəbii gücə malik olduqlarından, görünür, bu təlim Göy elmləri sırasına daxilmiş.

Maqların fövqəltəbii gücü barədə meksikalı mütəxəssis Karlos Kastenado bir-birindən dəyərli 9 cildlik kitab yazmışdır. O deyir ki, insan Uca Tanrının ya-

ratdığı ən mükəmməl əsərdir. İnsan bədənini, onun malik olduğu fövqəltəbii gücü, qüdrəti müasir elmlərin köməyi ilə öyrənmək mümkün deyildir. Karlos Kastenadoya görə, müasir elmlər yanlış istiqamətdə inkişaf etdiyinə görə heç vaxt ideal səviyyəyə çata bilməz, elə bu üzdən də təbiətin sirlərini axıradək açmaq qabiliyyətindən məhrumdur. Müəllif iddia edir ki, hər təsadüfi adam maq ola bilməz, maqlar seçilmiş insanlardır, bu seçilmişlər uzun sürən təlimlərdən sonra «görə bilən» statusu alır və təbiətin gizli saxladığı genetik kodun sirrini öyrənirlər.

İnsan bədəni ən heyrətamiz qabiliyyətlərə malikdir, biz bunun uzaqbaşı 3-5 faizindən istifadə edə bilirik. Karlos Kastenadonun qələmə aldığı «Don Xuan təliminə» görə insan bədənində «genetik kodu» idarə edə bilən «yığma nöqtəsi» mövcuddur. Adi insanın bütün həyatı boyu bu «yığma nöqtəsi» yalnız bir dəfə – öləndə işə düşərək öz yerini dəyişir. Maqlar məhz bu «yığma nöqtəsini» idarə etməyi bacardıqları üçün insan bədəninin bütün fövqəl gücündən istifadə edə bilirlər. Karlos Kastenado yazır ki, «yığma nöqtəsinin» yerini dəyişməklə insan quş kimi uçur, təbiətdə mövcud olan bütün canlıların cildinə düşür, ruhunu bədənindən çıxartmağı və dünyanın istənilən nöqtəsinə göndərməyi bacarır. Maqlar öz fövqəltəbii güclərindən istifadə etməklə təbiət hadisələrinə təsir etməyi, ildırım çaxdırmağı, tufan qopartmağı, yağış yağdırmağı, külək əsdirməyi, hətta paralel dünyalara səyahət etməyi gerçəkləşdirə bilirlər. Maqlar ağlasığmaz bacarıqları və ilahi istedadları sayəsində ən ağır dərdə düçar olmuş xəstələri sağaltmağa, insanların düşüncələrini oxumağa və idarə etməyə, hətta ölüləri diriltməyə qadir imişlər. Ola bilər ki, bu sözlər kimlərəsə inandırıcı görünməsin, onu uydurma, fantastika sayanlar da tapılsın. Ancaq doqquz cildlik mükəmməl bir əsərin müəllifi olan Karlos Kastenado dünyada tanınmış və elmdə qəbul edilmiş mütəxəssisdir.





Bundan başqa, Karlos Kastenadonun dedikləri nə qədər ağlasığmaz görünsə də, onları təsdiqləyəcək qədim «gil kitabə»lər qalmışdır. Bu «kitabələrin» indi əfsanə adlandırdığımız mətnlərində Şumer sivilizasiyasını yaradanların göydə quş kimi uçduqları, ölüləri diriltməyi bacardıqları, bir sıra başqa fövqəltəbii gücləri qələmə alınmışdır. Ən yüksək inkişaf səviyyəsinə çatan bu insanlar təbiətin gizli sirrini – «genetik kod»u idarə etməyi öyrənmişdilər, müdrikliyə – tibb elminin ən qaranlıq sirlərinə yiyələnmişdilər. (Əlavə məlumat almaq üçün «Şumer kilidi» kitabının «Xəyalət ardınca» fəslinə bax).

Beləcə, güman etməyə əsas var ki, dinqirlər, xüsusilə dini təlimə başçılıq edən kahinlər dünyanın müxtəlif guşələrinə yayılmış maq tayfalarının ilk müəllimləri, bəlkə də əcdadları olmuşlar.

Midiya maqları haqqında fikir bildirən Feopomi yazır ki, maqların təliminə görə, ölmüş insanları diriltmək mümkündür, bunu ancaq maqların sehriylə etmək olur. Rodoslu Yevdem də bu fikri təsdiqləyir.

«Yer üzündə əvvəl bir dil və bir ləhcə vardı» postulatı, həm də «Yer üzündə əvvəlcə bir maq tayfası vardı» ideyasını doğurur və bu ideya müasir tədqiqatçıların fikirləri fonunda olduqca real görünür.

Bunu sübut edəcək ən tutarlı dəlil Midiya tayfaları ilə Şumer kahinlərini eyniləşdirən ilan kultu və ilan simvoludur. Alban tarixçisi Moisey Xorenski midiyalıları «ilandan doğulanlar» adlandırır. Maq tayfalarının adı da qədim türkcədə ilan anlamına gəlir. Hind-avropalılar isə bütün Midiya tayfalarına fərq qoymadan mar deyirdilər. Mar fars dilindən tərcümədə ilan deməkdir. Azərbaycan alimi Arif Rəhimov öz avtoreferatında qətiyyətlə bildirir: «Gəlmə hind-avropalıların bütün midiyalılara verdikləri «mar» adı hərfi mənada türk-monqol sözü «maq»dan İran dillərinə tərcümə edilmişdir. Bu isə «maq» tayfalarının türk-monqol mənşəli olduğunu deməyə əsas verir».

Bu sətirləri oxuyarkən yadıma cavanlıq illərində baş vermiş bir əhvalat düşdü. O vaxt mən «Azərbaycan gəncləri» qəzetində işləyirdim. Tələbəlik illərindən tanıdığım bir alim dostumun çox maraqlı məqaləsini qəzetdə çap etdim. Günlərin bir günü redaksiyaya o çağlar ölkədə yaxşı tanınan və böyük nüfuz sahibi olan bir alim gəldi, çap olunmuş kitabını göstərərək həmin məqalənin ondan köçürüldüyünü bildirdi. Amma iş təkcə iradla bitmirdi, alim təkidlə qəzetdə düzəliş verilməsini tələb edirdi. Mən pis vəziyyətdə qalmışdım, çünki o zamanlar qəzetdə düzəliş vermək ağır qəbahət sayılırdı və bunun bütün məsuliyyəti mənim üzərimə düşdüyü üçün işdən çıxarılmaq təhlükəsi ilə üz-üzə qalmışdım. Cavanlıq illərindən bir az hövsələsiz olduğuma görə, alim dostuma zəng vurub bir-iki ağır söz dedim. Ancaq dostum plagiat olduğunu qətiyyətlə inkar edirdi. Uzun təkiddən və hədə-qorxular-





dan sonra dostum boynuna aldı ki, məqaləni həqiqətən köçürüb, ancaq Azərbaycan alimindən yox, alman alimindən! Sən demə, onların hər ikisi bir mənbədən «istifadə» ediblərmiş.

Fikrimcə, burada da eyni durum yaranmışdır. Nə türklər farslardan köçürmüşlər, nə farslar türk dilindən tərcümə etmişlər. Sadəcə, iki xalqın da istifadə etdiyi mənbə eynidir: Şumer.

Məsələnin bu tərəfinə aydınlıq gətirərkən, çox maraqlı məqamlar ortaya çıxır. Tövratda deyilir ki, ilk insan qısır yaradılmışdı. Tövratdakı qısır insanın bilgi alması barədə alleqorik hekayət məhz ilanla bağlıdır. Nə üçün ilan? Tövratdakı hekayətin götürüldüyü Şumer mətni bu alleqoriyaya aydınlıq gətirir. Tövratdakı ilanı anlatmaq üçün işlədilən «naxaş» sözü yəhudi dilində, həm də «sirləri bilən», «misi tanıyan» mənalarını verir.

Məsələ burasındadır ki, insan genetikasının dərin bilicisi, Şumer Müdrikliyinin rəmzi sayılan Enkinin epitetlərindən biri BU.ZUR – «sirləri açan» və «faydalı qazıntı yataqlarını tanıyan» kimi hərfi məna bildirir. Amma eyni zamanda, ilan Enkinin simvolu idi, bütün konusvari möhür rəsmlərində Enkinin təsviri qoşa ilanla müşayiət olunur (Bax: şəkil 14). İlan həm də müdrikliyə çatan bütün kahinlərin rəmzi işarəsi sayılırdı. Şumerlər təbiətin Ana sirri olan «genetik kod»u bir-birinə sarmaşan qoşa ilan şəklində təsəvvür edirdilər. (Bax: şəkil 15). Görünür, elə buradan da «ilan xalqı», «ilandan törəyənlər» anlayışı meydana gəlmişdir.



**Şəkil 14.** Enki özünün məşhur ilan simvolu ilə




**Şəkil 15.** Bu Şumer möhür-rəsmi sübut edir ki, hələ altı min il bundan əvvəl qədim İkiçayarasında DNT-dən xəbərdar idilər





Amerikanın Yukatan ştatının ilk sakinləri də özlərini «ilan xalqı» adlandırırdılar. Əfsanəyə görə, onların başçıları İtsamnanın adı tərcümədə «lələkli ilan» deməkmiş. Atsek qəhrəmanı Kotsolkoatlın, mayya qəhrəmanı Böyük Allah Kukulkanın adları da yenə «lələkli ilan» kimi tərcümə olunur. Bu hindu qəbilələri özlərinə «ilandan törəyənlər» deyirdilər.

«Təsadüfə» bax ki, antik tədqiqatçıların «ilandan törəyənlər» adlandırdıqları Midiyanın axırıncı çarı Astiaqın adı da tərcümə ediləndə «əjdaha», yaxud «böyük ilan» anlamına gəlir.

Dünyanın demək olar ki, bütün xalqlarında ilanla bağlı çeşidli nağıllar, əfsanələr uydurulmuş, ilan sitayiş yerinə, totemə çevrilmişdir. Lakin mifologiyada ilana münasibət ikilidir. O gah insanların düşməni, gah da müdrikliyin, xeyirxahlığın simvolu kimi təqdim olunur. Bu günün özündə də ilanların kinli və intiqamçı, comərd və xeyirxah olmaları barədə real hadisələr danışılır. Magiyanın ikili təbiəti (ağ və qara magiya) görünür əfsanələrə də öz təsirini göstərmiş, ağ ilanlar xeyirxahlığın, qara ilanlar şər qüvvələrin təmsilçisinə çevrilmişlər.

Yunan mifologiyasında igid Persey qaniçən Meduza-İlanı öldürür. Qədim hind əfsanələrindən birində deyilir ki, ilanabənzər bədheybət asurlar «allahlarla» düşmənçilik edirdilər. Tövrata görə ilk insanları məhz İlan aldadaraq yoldan çıxartmışdır. Tövratda belə deyilir: «İnsanı yoldan çıxartdığı üçün Allah onu qarnı üstə sürünməklə cəzalandırdı». Məntiqi cəhətdən belə çıxır ki, İlan Allah tərəfindən cəzalandırılana

qədər yerdə sürünmürmüş. Bunu hind əfsanələri də təsdiqləyir. Bu əfsanələrdən birində başqa planetdən gələn (Tövrat onları «ispolin» adlandırır) naqalardan danışılır. Yeraltı dünyada yaşayan bu ilanabənzər məxluqlar öz cildlərini dəyişməyi və insan şəklinə düşməyi bacarırlarmış.

Türk xalqlarının mifologiyasında da İlan obrazı geniş yer tutur. Azərbaycan nağıllarında yeraltı dünyada qurulmuş İlanlar padşahlığından söz açılır. Həm də bu ilanlar iki hissəyə bölünürlər: xeyir qüvvələri təmsil edən ağ ilanlar və şər qüvvələri təmsil edən qara ilanlar.

İlanların guya bir vaxtlar dünyanı idarə etməsi barədə mifologiyanın kökləri çox dərindir. Hətta bu günün özündə də «ilan xalqı» anlayışını mifoloji aspektdən çıxararaq ona real elmi don geyindirməyə çalışan tədqiqatçılar vardır. Belə güman edilir ki, «ilan xalqı» serpentoidlər ilk dəfə 270 milyon il əvvəl mövcud olmuşlar.

Məsələn, rusiyalı mütəxəssis, «Avesta» tədqiqat qrupunun əməkdaşı Anatoli Steqalin belə hesab edir ki, yer üzündə insanların texniki sivilizasiyasından çox-çox qabaq serpentoidlərin bioloji sivilizasiyası yaranmışdır. (Serpentoid yunan sözü «serpento»dan yaranıb və mənası «ilan» deməkdir).

Arxeoloji qazıntılar zamanı aşkar edilən stexonixozavr kərtənkələsinin qalıqlarını öyrənən kanadalı paleontoloq Deyl Rassel belə qənaətə gəlib ki, «bu kərtənkələlərin baş beyni insanabənzər meymunlarda olduğu kimi, çox sürətlə böyüyə bilirmiş. Bu isə o de-





məkdir ki, müəyyən təbii şərait yarandıqda, onlar düşüncəli məxluqa çevrilə bilərdilər».

Əlbəttə, bütün bunları, sadəcə, fantastika, insan təxəyyülünün hüdudsuzluğu kimi dəyərləndirərək ötüb keçmək olardı. Lakin miflər heç vaxt boş yerdən yaranmır. Əgər bu gün dünya xalqlarının mifologiyasında «İlan xalqı» deyilən bir anlayış özünə yer alıbsa, bunun mütləq müəyyən məntiqi açıqlaması olmalıdır. Mifoloji informasiyaları, L.Qumilyov kimi, «elmin, mədəniyyətin antipodu» adlandırıb onu yalnız yalan, uydurmaca saymaq dövrü çoxdan arxada qallmışdır. İndi dünyanın ən böyük zəka sahibləri belə düşünürlər ki, mifik informasiyalara sistemli şəkildə, dövrün, zamanın kontekstində, real tarixi şəraiti öyrənərək qarşılaşdırma yolu ilə qiymət verilməlidir. Onlar simvolları bizi uzaq keçmişə bağlayan ən qırılmaz tellər hesab edirlər və sübut etməyə çalışırlar ki, simvollar düşünülərək, məqsədli şəkildə yaradalmışdır və bizim üçün, ən azından, arxeoloji tapıntılar qədər dəyərlidir.

«İlan kultu»nun qısaca gözdən keçirilməsi, birinci növbədə, bu tayfaların inanclarının daha qədimdən təşəkkül tapdığını, ikinci növbədə isə, onların irandilli olmadıqlarını ortaya qoyur.

Herodot «Avesta»nın təbliğ etdiyi adətlərlə farsların adətləri arasındakı fərqləri sadalayır. «Farsların çoxdankı adətlərinə gəlincə, mən bu məlumatı verə bilərəm: heykəllər, tanrılar üçün məbəd və mehrablar ucaltmaq onlarda qəbul olunmamışdı. Bunu kim edirdisə, onu səfeh sayırdılar». Farslar, eləcə də «ilan kultu»nu səfehlik sayaraq onu rədd etmiş və həmişə

ona qarşı açıq mübarizə aparmışlar. Təkcə bu fakt onu göstərir ki, Midiya tayfaları ilə irandilli xalqlar heç vaxt genetik qohum ola bilməzdilər, çünki onların mənəvi dünyaları bir-birindən əsaslı şəkildə fərqlənirdi.

Təəssüf ki, indiyəcən heç bir tədqiqatçı Herodotun midiyalıların irandilli olmadıqlarını sübut edən açıq işarətlərinə diqqət yetirməmişdir.

Midiyanın axırıncı çarı Astiaq haqqında hekayəti qələmə alan Herodot yazır: «Astiaqın qızı doğuldu, adını Mandana qoydular. Bir dəfə Astiaq yuxuda görür ki, qızı altını isladıb, bu su onun paytaxtını və bütün Asiyanı bürüyüb. Hökmdar yuxuyozan maqları çağırır, maqlar yuxunun böyük fəlakət anlamına gəldiyini izah edəndə, o, bərk qorxuya düşür. Ona görə də qızını midiyalıya deyil, Kambis adlı bir farsa ərə verir. Bundan bir il sonra Astiaq yenə yuxuda görür ki, qızının bətnindən üzüm tənəyi çıxıb böyüdü, uzanıb bütün Asiyanı tutdu. Hökmdar yenə maqlara müraciət edir.

Herodot yazır: Yenə maqlar gəldi və Astiaqa birinci dəfə dediklərini təkrar etdilər. «Hökmdar, bizim üçün də tamamilə vacibdir ki, hakimiyyət sizin əlinizdə qalsın. **Əgər o, fars uşağının əlinə keçərsə, onda yad əlinə keçmiş olacağıq və biz midiyalılar qul vəziyyətinə düşəcəyik.** Farslar bizə yadlar kimi həqarətlə baxacaqlar. Lakin nə qədər ki, siz, bizim həmtayfamız hakimiyyətdə qalarsınız, biz də sizin idarənizə və fikrinizə böyük ehtiramla şərik olarıq».





Bu hekayətdən açıq-aydın görürük ki, midiyalılar fars deyildilər və onlar hakimiyyətin yad əllərə düşəcəyindən ehtiyat edirdilər.

Antik qaynaqlar Midiya dövlətinin təşəkkülünü e.ə. VIII əsrin sonu, e.ə. VII əsrin əvvəllərinə aid edir və bunu çar Deyokun adına bağlayırlar. Assuriya mənbələrində bu tarix daha konkret göstərilir: e.ə. 673-cü il. Həmin ildə assurlar əleyhinə yönələn, mannalıların, kimmerlərin və skiflərin də müdafiə etdikləri xalq üsyanı baş vermiş, nəticədə Ön Asiyada yeni, qüdrətli Midiya dövləti yaranmışdı.

Aşquzların tarixini araşdıran O.Süleymenov belə bir fikir söyləyir: e.ə. VII əsrin 70-ci illərində Manna ilə ittifaqda çıxış edən midiyalılar üsyana qalxdılar. Üsyançılar aşquzları (işquzları) köməyə çağırdılar. Assuriyanın içərilərinə soxulan aşquzlar üsyançıların qələbəsinə çox böyük kömək göstərdilər. Tədqiqatçı daha sonra yazır: Bu hadisədən 70 il sonra yəhudilərin «İeremiya» kitabının 593-cü bölməsində Midiyadan asılı olan ölkələr sadalanır, onların arasında midiyalıların keçmiş müttəfiqləri Aşquzla Mannanın da adları vardır.

Midiyanın süqutu barədə Herodot belə xəbər verir: «Astiaq 35 illik hökmranlıqdan sonra hakimiyyətdən düşdü. Onun qəddarlığı ucbatından midiyalılar farslara tabe oldular. Qalisin o tayında, Asiya üzərində Midiyanın hakimiyyəti, iskitlərin ağalığını nəzərə almasaq, 128 il sürdü. Nəticədə midiyalılar farslara tabe olduqlarına çox peşimançılıq çəkdilər və Daraya qarşı üsyana qalxdılar. Lakin məğlub edildilər və yenidən farslara tabe olmaq məcburiyyətində qaldılar».

Herodota görə Midiya dövlətinin özülü e.ə. 671-ci ildə qoyulmuş, e.ə. 553-cü ildə isə süqut etmişdir.

Qaynaqlarda Midiyanın adına ilk dəfə Assur hökmdarı III Salmanasarın dövründə, «qara obelisk» kimi tanınan daş sütunda, e.ə. 834-cü il hadisələri ilə bağlı rast gəlirik: Kir Amaday. Əski şumer sözü olan kir görünür «ölkə», «torpaq» anlamında işlədilmişdir: Amaday torpağı, yaxud Amaday ölkəsi. Sonrakı mənbələrdə etnotoponim Kir Maday və Kir Matay kimi tanıdılır. Assur qaynaqları Manna ərazisində və ondan kənarda yerləşən çarlıqları sadalayarkən Qızıl Üzən çayının hövzəsində paytaxt şəhəri Saqbitu olan Amaday vilayətinin adını çəkir. Saq+bi+tu sözündə «bi» cəm şəkilçisi, «tu» torpaq olduğundan oykonim «Saqların torpağı» mənasını verir. Bu isə o deməkdir ki, Amaday vilayətində yaşayan əhalinin başlıca qüvvəsini saklar təşkil edirmiş. Əslində, Midiya bu ölkəyə qərb müəllifləri tərəfindən verilən addır. Bu dövlət Tövratda Maday, «Avesta»da Armatay, elamlarda Maktabe, latın və yunan qaynaqlarında Media adlandırılır. Sasanilər dövründə Midiyanın May, ərəb mənbələrində Mah kimi qeyd olunduğu məlumdur.

Elmi ədəbiyyatda midiyalıların mənşəyi barədə başlıca olaraq iki mövqe hakimdir. Birinci mövqeyə görə Maday (Matay) etnoniminin daşıyıcıları irandillidirlər və bu əraziyə e.ə. birinci minillikdə farslarla bir yerdə Qərbi Avropadan köçüb gəlmişlər. İkinci mövqe ondan ibarətdir ki, midiyalılar Qərbi Avropadan köçsələr də, farslar Orta Asiyadan miqrasiya etmişlər.





Təəssüf ki, bir-iki Azərbaycan alimindən başqa midiyaşünasların heç biri problemi türk-monqol dilləri baxımından şərh etməyə təşəbbüs göstərməmişdir.

Əvvəlcə Tövratda verilmiş Nuh əfsanəsinə diqqət yetirək. Səmavi kitabda Yafəsin oğlanları belə adlanır: Qamər, Maqoq, Maday.

Alimlər qamər boylarının prototürklər olduqlarına inanırlar. Bu qədim türk tayfası elmi ədəbiyyatda qamər, kimmer, qimir, qımır və b. adlar altında keçir. Bu boy adının kökündə duran «qam» teonimi «maq»ın çevrilmiş formasıdır. Qamçılıq türk şamançılığının məhək daşlarından biridir. Şamançılıq isə öz növbəsində başlanğıcını qədim Şumerdən götürmüşdür.

Maqoqları «yəcuc-məcuc» adlandıran ərəblər onları türk tayfaları iskitlərlə (skitlərlə) identikləşdirirlər. Antroponimin kökündə duran «maq» sözü yenə diqqət çəkir.

Yafəsin üçüncü oğlu Madayın adından qərb müəlliflərinin Midiya adlandırdıqları dövlət yaranmışdır. Bəs «maday»ın mənası nədir? Tədqiqatçıların fikrinə görə, digər türk dillərində «maq» ilan olduğu kimi, monqol dilində «maday» da ilan deməkdir. Beləliklə, türk-monqol dilləri baxımından şərh edilərsə, tayfanın və dövlətin adı bütün hallarda ilan simvolikası ilə bağlı olacaqdır.

Etnotoponimin başqa təfsirlərinə də qısaca göz ataq. Q.Qeybullayev belə hesab edir ki, maday (mAtay) etnoniminin daşıyıcıları türkdilli xalqlardır. Alimi bu qənaətə gətirən başlıca səbəblərdən biri sözün strukturundakı «ay» sonluğudur: mat+ay. «Ay» sonlu-

ğu Altay türklərinə xas olan dil faktorudur və bütün hallarda mənsubiyyət bildirir. Alim misal olaraq Altay, Baday, Kultay bölgələrinin adını çəkir. V.Radlov Sibirdəki Kalaqaltay, Kandaqatay, Sanqıltay, Tarbaqatay vilayətləri barədə söhbət açır.

Türk etnonimi iskutay (iskuday) da eyni dil faktoruna söykənən struktur əsasında yaranmışdır.

«Mat» sözünün mənşəyini müəyyənləşdirməyin çətin olduğunu yazan Q.Qeybullayev bu teonimin türklərə məxsus olduğuna əmindir. Alimdə bu əminliyi yaradan başlıca dəlil isə ondan ibarətdir ki, bu teonimlə yaranan tayfa adlarına Sibirdə hələ də rast gəlmək mümkündür: madır, mat, matı. Qazaxlarda ayrıca matay, atalıq-matay, kantaqay-matay, gəncə-matay və b. etnik icmalar mövcuddur. «Manas» kimi, «Dədə Qorqud» kimi türk xalqlarının tarixi salnaməsinə çevrilən «Matay Qara» dastanı bu adı özündə saxlayan ən böyük yadigardır.

Etnotoponimin bir qədər gözlənilməz nəticələr verən üçüncü təfsiri də vardır. Onun müəllifi gənc Azərbaycan alimi Z.Həsənovdur. Tədqiqatçı Altay, Kalaqaltay, Kandaqatay, Tarbaqatay toponimlərində «ay» sonluğunu deyil, «tay» sonluğunu ayırır. Z.Həsənova görə türk dillərində «tay» həm ayrıca söz kökü kimi, həm də suffiks kimi işlədilə bilir. Əgər «tay» kökü türk dillərində «ayğır» deməkdirsə, «tay» suffiksi mənsubiyyət bildirir. Müəllif yazır ki, bu gün on səkkiz türkdilli xalqda «tay» «ayğır» mənasında işlədilir. Müasir türk dil qrupunda cağatay bölməsi vardır ki, özbək dili də bura daxildir. Tarixən Azərbaycan ərazisində yaşayan cığatay tayfası mövcud olmuşdur.





Z.Həsənov yazır: «Tay» semantikasının daha geniş axtarışı çox maraqlı məqamlar ortaya çıxarır. Sən demə qədim türklərdə tay (day) göylə, tanrı ilə bağlı işlədilmişdir. Dayçin-Tenqri, Daysun-Tenqri rəsmləri, bir qayda olaraq, at üstündə təsvir olunurdu. Bu kontekstdə «dayçin» – göy atı, «daysun» isə su atı mənasını verir. Monqollarda aristokratlara, feodallara «tayci» deyirdilər. Çin panteonunda isə «tay», «böyük, uca» anlamında işlədilirmiş. «Tay-suy» – zəmanənin böyük tanrısı, «tay-tsey» – böyük yurd, «tay-şan» – uca dağ və s.

Maraqlıdır ki, Azərbaycan ərazisində yaşayan skif tayfalarından biri day (tay) adlanırdı. Azərbaycan türkcəsində bu gün də atın balasına «dayça», «ayğıra» «day» deyilir. Həm şumerdə, həm qədim türklərdə eyni sözün bir neçə məna çaları olurdu. Görünür, at ilxısı saxladıqları üçün bu tayfa adı bir tərəfdən «ayğır»a uyğun gəlirdisə, başqa bir tərəfdən dayların göylərlə bağlılığından nişan verirdi.

Miran qalasının xarabalıqları altından tapılan bir əlyazmasında Tay adına rast gəlirik. Mətn belədir: «...Qul ana bayraqdara işıq, qoyunçu adamlara nitq, Tay bilgəyə (biliciyə) bir... işıq fərman...»

Bəs bu kontekstdə «ma+tay» etnotoponimini necə izah etmək olar? Çox güman ki, sözün birinci hissəsi olan «ma» «maq»ın qısaldılmış formasıdır və ilkin tələffüzdə (maqtay) qoşa samitlərdən biri ixtisara düşərək «matay» şəklini almışdır. Bu ehtimalda «matay» «göydən gələn maqlar», yaxud «göylə bağlı olan maqlar» anlamını verəcəkdir.

İranşünas alimlər midiyalıların farsdilli olduqlarını isbat etmək üçün bu ərazidəki çoxsaylı İran mənşəli sözləri önə çəkirlər. Q.Qeybullayev buna cavab olaraq yazır ki, Midiyada İran mənşəli sözlərin olduğunu heç kəs inkar etmir. Lakin bu şəxs adları Qərbi Avropa və sovet alimləri tərəfindən həddən artıq şişirdilmişdir. Bu antroponimlər heç də region əhalisinin irandilli olmasını qətiyyətlə deməyə imkan vermir və çoxlu cavabsız suallar doğurur.

Probleme soyuq düşüncə ilə yanaşan tədqiqatçılar gördülər ki, İranşünas alimlərin çox güvəndikləri Midiya sözlərini İran dilləri ilə izah etmək ya kifayət qədər əsaslı olmur, ya da tamamilə qeyri-mümkün görünür. Onlardan biri «bağ»dır. «Ağ» kimi, «bağ» da qədim türklərdə göylə, tanrı ilə, ilahi qüvvələrlə yaxın təması, qohumluğu bildirmişdir.

Orxon-Yenisey abidələrində «bağ» sözü müxtəlif mətnlərdə və müxtəlif mənalarda işlədilmişdir. Təəssüf ki, abidənin başlıca tədqiqatçıları bu məna çalarları arasından yalnız ikicəciyini seçib ayırmışlar. Məsələn, H.N.Orkun «bağ»ı «müttəfiq», S.Y.Malov «soy, qəbilə, tayfa» kimi tərcümə etmişdir. Fikrimizcə, S.Y.Malov orijinala daha yaxın olsa da, sözün bütün məna yükünü aça bilməmişdir. Çünki bu mətnlərdə «soy, qəbilə, tayfa» anlamına gələn «bağ» sadəcə, tayfa və qəbiləni deyil, göylərlə, tanrı ilə bağlı olan tayfa və qəbiləni ehtiva edir. Diqqətlə fikir versəniz, görəsəcəksiniz ki, Orxon-Yenisey abidələrində «bağ» sözü yalnız xaqan tayfalarından danışılarkən «bodun»un önünə təyinedici sifət kimi artırılır. Məsələn,





1-ci Tuva yazısında xaqanın dilindən bu sözlər deyilir: «Altı bağ bodunum küçligin (ü)çün arkak elim taşım... bunta tikdi».

Tədqiqatçılar Ə.Rəcəbov və Y.Məmmədov mətni belə tərcümə etmişlər: «Altı qəbiləli xalqım güclü olduğu üçün... elimin daşını burada qoydu».

Tərcümə qeyri-dəqiqdir, çünki mətndə sadəcə «altı qəbiləli xalqdan» yox, göylərlə, tanrı ilə bağlı olan xalqdan söhbət gedir. Mətndəki «bağ» teonimi həm də ona görə önəmlidir ki, bu, göy türklərin mənşəyini, Şumerlə yaxın bağlantılarını ortaya çıxarır. Fikrimizi izah etməyə çalışaq.

Uyuk-Tarlık abidəsində belə bir mətn vardır: «Atım El Toğan tutuk. Bən tenqri elimkə elçisi ertim. Altı bağ bodunka beg ertim».

Mətni belə tərcümə etmişlər: «Adım El Doğan tutuk. Mən müqəddəs elimə elçi idim, altı qəbiləli xalqın bəyi idim».

Əvvəla Toğan adının Doğan kimi verilməsi sözü ilkin mənasından azdırır. Toğan qədim türklərdə şahin quşuna, Dədə Qorqudun oğuz türklərinin kökünü bağladığı ağ sunqur quşuna deyirdilər. «Şahin-Toğan» simvolu şumer «allahlarının» «göydə uça bilən» qisminə, o cümlədən Günəş «allahı» Uta aid idi.

İkincisi, «tenqri elimkə»nin «müqəddəs elimə» şəklində tərcüməsi də mənanı tam əhatə etmir. Abidənin yazarları «müqəddəs elimə» demək istəsəydilər «ıduk elimkə» yazardılar. Çünki göy türklərdə «müqəddəs» sözünü bildirmək üçün həm də «ıduk» terminindən istifadə olunmuşdur. Abidədə isə «tanrı

elindən», tanrıdan yaranan «hökmdar tayfalarının» elindən danışılır. Bu «tanrı eli» «altı bağ bodunka»dan, yəni «altı ilahi mənşəli tayfa»dan ibarətdir. Bu mətndə «bağ» sadəcə qəbilə, tayfa deyil, ilahi ucalıqda duran qəbilə, tayfadır.

İndi də «hökmdar tayfalarından» bəhs olunmayan mətnlərdə abidə yazarlarının üslubuna diqqət yetirək. Tonyukuk abidəsində xalqa müraciətlə bu sözlər deyilir: «Sabının tükənti eşitgil: ulayı iniyigünüm, oğlanım, biriki oğuşım, bodunım, biriyə şad apıt bəylər, yıraya tarkat buyruq bəylər».

Tərcüməsi: «Sözümü tükənənədək eşit məndən sonra duran kiçik qardaş və qohumlarım, oğlum, birləşmiş qəbiləm, xalqım, sağdakı şad və apa bəylər, soldakı tarkanlar və buyruq bəylər».

Mətndə «biriki oğuşım» – birləşmiş qəbiləm ifadəsi diqqət çəkir. «Altı bağ bodunka» da, əslində tayfa birləşməsidir, amma nədənsə birinci halda «bağ bodunka», ikinci halda isə «biriki oğuşım» şəklində yazılmışdır. Niyə? Çünki «bağ» sadəcə «qəbilə» deyil, «ilahi mənşəli qəbilə»dir və abidə yazarları məhz bu fərqi çatdırmaq üçün «bağ» terminindən istifadə etmişlər.

Orxon-Yenisey abidələrində bəzi şəxs adlarında titullardan qabaq «bağa» terminindən istifadə edilmişdir. Tədqiqatçılar bu sözü sadəcə «titul» kimi təqdim etməklə kifayətlənmişlər. Fikrimizcə, bu, doğru deyildir. məsələn, Tun-Bağa Xaqan, Alp İnançı Bağa Tarkan adlarında «Xaqan», «Tarkan» həmin şəxslərin cəmiyyətdə tutduqları mövqeyi bildirən tituldursa,





bəs onda «bağa» nədir? Bizcə türklər «bağ» sözündə olduğu kimi, «bağa»da da şəxsin tanrıya bağlılığını, tanrıya qohum olduğunu çatdırmaq istəmişlər. Abidədə xaqanlar öyülərkən onların məhz «tanrısifət», «tanrı tək tanrı yaratmış», «tanrı tək göylərdə doğulmuş» epitetləri önə çəkilmişdir. Lakin bu epitetlər göy türklər dönəmində yaranmamışdı, ağ saklarla, çar skifləri ilə birgə doğularaq nəsillərdən nəsillərə ötürülmüş, Mərkəzi Asiyaya, eramızın birinci minilliyinə qədər gəlib çatmışdır.

Orxon-Yenisey abidələrinə görə bəlli türk tayfaları VI-VIII əsrlərə qədər hələ də özlərinin «səmavi tayfalar», «göylə bağlı tayfalar», «göylərin yaratdığı tayfalar» olduqlarına inanır, öz ölkələrini «tanrı eli» adlandırırdılar.

Bütün bunlardan sonra inamla demək olar ki, «bağ» sözü türk dillərindən hind-avropa və slavyan dillərinə keçərək «boq» şəklinə düşsə də, öz ilkin mənasını itirməmişdir.

Yaxud, götürək «spaka» sözünü. Bir çox tədqiqatçılar, o cümlədən Fasmer və Trubaçev belə hesab edirlər ki, «spaka» həm hind-avropa, həm də slavyan dillərində alınma sözdür. Trubaçev bu sözün konkret olaraq türk dillərindən alındığını yazır. O.Süleymenovun da obrazlı şəkildə qeyd etdiyi kimi, slavyan «sobaka»sının «valideynləri» tapılsa da, İran nümunələri indiyəcən «atasız-anasız» qalıb. Tədqiqatçı «spaka»nın türk sözü «is-bak»dan yarandığını yazır. «İs-bak» isə lap qədimdən türkcədə «izə baxan», «iz götürən» – köpək anlamında işlədilmişdir.

Bu ehtimal həm də onunla təsdiqlənir ki, Assuriya qaynaqlarında yadelli tayfaları yürüşə aparan igid İspakın adı çəkilir və onun ölkəsi Aşquzay kimi təqdim olunur. Aşquz, Tövratın verdiyi bilgiyə görə Ön Asiyada qurulmuş ilk türk dövlətidir. Çar Asarxaddonun dövrünə aid mənbələrdə Aşquzay ölkəsində «ispakan» titul adının və öz başçılarını «köpək» adlandırmaq ənənəsinin hələ e.ə. VIII əsrdən də xeyli qabaq mövcud olduğu göstərilmişdir.

Assuriya və Urartu mənbələrində Midiyaya aid edilən Bari, Uşkaya, Zivia, Kundur, Kular, Tarvi və s. toponimlər İran Azərbaycanı ərazisində Bari, Uskiya, Zibia, Kundur, Kulardağ, Tori şəklində bu gün də qalmaqdadır. Əgər iranşünas alimlərin iddia etdikləri kimi, burada dil iki dəfə dəyişmişsə, yerli əhali isə XI-XII əsrlərdə zorla türkləşdirilmişsə, bu toponimlər öz «simasını» təxminən 20 əsr ərzində necə qoruyub saxlaya bilmişdir?

Bir sıra Midiya, skif və alban sözlərinin qarşılaşdırılması da bu dillər arasındakı yaxın qohumluqdan xəbər verir. Məsələn, midiyalıların işlətdikləri Ata sözü öz mənşəyini şumer «ada»sından almışdır. Skiflər isə Ata əvəzinə Atey deyirdilər.

Midiyalılarda Asau sözü vardı, mannalılar bu sözü Aza, albanlar Asay kimi işlədirdilər. Midiya «Zata»sı mannalılarda «sato», Midiya Zanezanı albanlarda sanesan, amamaş isə amam kimi tələffüz olunurdu.

Beləliklə, aydın görünür ki, iranşünas alimlərin problemin mahiyyətini açmadan, onun qədim Şumer kökünü araşdırmadan Midiyanı farslaşdırmaq cəhdləri heç bir tənqidə dözmür.





Strabon yazırdı ki, midiyalılar irandilli tayfalardır. Eyni zamanda, qeyd edirdi ki, farslar ox atmağı, at sürməyi, keçə papaq qoymağı midiyalılardan öyrənmişlər. Anlamaq olmur ki, bu necə qohumluqdur. Tədqiqatçılar türk tayfalarının qohumluğundan danışarkən bu qohumluğun birinci şərti kimi onların sosial həyat tərzlərinin, adət-ənənələrinin, hətta müharibə aparmaq taktikalarının eyniliyini misal göstərirlər. Burada isə aydın olur ki, iki qohumdan biri ox atmağı, at minməyi, keçə papaq qoymaq ənənəsini digərindən mənimsəmişdir! Belə etnik qohumluq olurmu?

Yaxud, bəzi tədqiqatçılar bu ərazidə mixi yazıları ilk dəfə midiyalıların işlətdiklərini söyləyirlər. Deməli, iranlılar mixi yazıları da midiyalılardan əxz etmişlər. Əgər Midiya əhalisi irandilli əhali idisə və bu əhali Qərbi Avropadan farslarla bir yerdə köçüb gəlmişdisə, onda allah eşqinə söyləyin, qarşı tərəfin mixi yazılardan xəbərsizliyini necə başa düşmək olar?

Başqa bir misal. İranşünaslar ciddi-cəhdlə inandırmağa çalışırlar ki, atəşpərəstlik ilk dəfə bu ölkədə meydana gəlib, onlar oda sitayişi irandilli tayfaların qədim dini baxışları kimi təqdim edirlər. Bu gün bütün dünya bu inancdadır ki, atəşpərəstliyin vətəni İrandır və onun tarixi e.ə. I minillikdən o yana keçmir. Lakin faktlar başqa şey deyir.

Od bir simvol kimi bəşər tarixinin yarandığı ilk gündən mövcuddur. Şumerdə yeni il axşamı Günəşi qarşılamaq üçün böyük tonqal qalayırdılar. Şumerdə belə hesab edirdilər ki, Odda ilahi qüvvə gizlənib, o, Müdrikliyin simvolu, həyat enerjisinin mənbəyidir.

Tüsadüfi deyil ki, qədim Mesopotamiyada Günəş allahına Ut-Od deyirdilər.

Başlanğıcını Şumerdən götürən od simvolu bu gün bütün dünya xalqları arasında geniş yayılıb. Od «ilahi dəmirçi» sayılan yunan Qefestin, Roma Vulkanının, skandinaviya Torasının, Baltik Perkunasının, slavyan Perunasının atributu sayılır. Hindistan ənənəsinə görə od – ilahi işıq və ilahi müdriklikdir.

Zərdüştilikdə od yaradılışın prinsipidir, Artanın ilahi ədalətidir. Avestaçılar odu mənəvi və fiziki təmizliyin açarı, allah Ahura Mazda ilə insanlar arasında «vasitəçi» sayırdılar. Zərdüşti dininə görə Müqəddəs Odun üç təcəssüm forması vardır.

1) Dadgah atəşi – yaxud ailə ocağında yanan od;

2) Adaran atəşi – yaxud məbədlərdə yanan od;

3) Behram atəşi – yaxud göydə yanan od.

Zərdüştilikdə od ilahi işığın, mənəvi və fiziki aydınlığın, istiliyin, məhəbbətin və enerjinin simvoludur.

İndi də qədim türklərin od inancına nəzər salaq. Yunan yazarı Feofilat Simokatta türklər barədə belə yazırdı: «Türklər odu hər şeydən uca tuturlar, havaya və suya ehtiram göstərir, torpaq haqqında himn oxuyur, yeri-göyü yaradanı Tək Tanrı adlandıraraq ona sitayiş edirdilər».

Zərdüştilikdə olduğu kimi, türklər də həm göydəki Oda (Günəşə, Aya, ildırıma, şimşəyə), həm də yerdəki oda – ailə ocağına tapınırdılar. Göydəki Od türklər üçün müqəddəs idi, hətta ildırım vuran ağacları pir sayaraq ona nəzir aparır, heyvanları ildırım vuranda isə ətini yemir və onu təntənə ilə dəfn edirdilər.





Türklərdə od – ailə üçün hər şeydir. Ocaq yanırsa, odu sönmürsə, deməli bu ailə möhkəmdir, uzunömürlüdür. Türklərdə ocağın sönməsi pis əlamətdir, ailənin dağılacağına işarədir. Heç bir türk ailəsi ocağın üstünə su tökməyə, ocağa tüpürməyə icazə verməz.

Zərdüştilərdə olduğu kimi, türklərdə də od – şər qüvvələrlə mübarizədə başlıca vasitədir. Hələ vaxtilə Menandr yazırdı ki, türklər qonaqları xanın yanına buraxmazdan əvvəl onları od üstündən keçirirdilər ki, şər qüvvələrdən təmizlənsinlər. Əcnəbi qonaqlar isə xanla görüşdən əvvəl mütləq iki tonqal arasından keçməliydilər.

Türklər bir yurddan başqa yurda köçəndə odu sönməyə qoymur və özləri ilə aparırlarmış. Yeni yurd yerləri isə böyük tonqal qalamaqla şər qüvvələrdən təmizlənirmiş.

Monqollarda gəlini ailəyə qəbul etməzdən qabaq mütləq od üstündən atlandırırdılar.

Buryatlarda evdən başqasına od vermək qadağandır.

Altay türklərində uşağı olmayan qadınları oda qurban verirlərmiş.

Gördüyünüz kimi, atəşpərəstlik ayinləri türk xalqlarında o qədər güclüdür ki, bu cür ənənənin yaranması üçün uzun əsrlər, bəlkə də minilliklər gərəkdir. Hər halda oda sitayişin kökləri türklərdə zərdüştilik dinindən çox-çox qədimə uzanır.

Z.Həsənov yazır ki, skif panteonunda «od kultu» vardı. Herodot Tarqıtayın oğlu Kolaksayı «odu ram edən çar» adlandırmışdır. Z.Həsənova görə, Kolaksa-

yın adı etimoloji baxımdan həm «odu körükləyən», həm də «metal» anlamına gəlir.

Skif panteonunun digər ilahəsi Tabitinin adı da etimoloji baxımdan həm «od», həm də «metal» deməkdir.

Beləliklə, türklərin «od kultu» zərdüştilikdən ən azı 1000-1200 il əvvəl başlayır. Lakin bu da son hədd deyildir. Türkiyədə çıxan «Hürriyyət» qəzeti 1993-cü il aprel ayındakı saylarının birində türklərin oda tapınmasının 4500 il tarixi olması barədə çox maraqlı bir yazı dərc etmişdir. Qəzet xəbər verir ki, Fransanın «Qlozel muzeyi»ndə saxlanan və indiyəcən heç kəsin diqqətini cəlb etməyən bir sənəd tapılmışdır. «Əlifbanın başlanğıcı və «Qlozel kitabələri» mövzusunda Strabon Universitetində keçirilən konfransda məruzə ilə çıxış edən qədim yazılar üzrə mütəxəssis Kazım Mirşan və Xaluq Tarcan «Qlozel kitabələri»nin qədim türk əlifbası ilə yazıldığını sübut etmişlər. Bizi maraqlandıran «Keyik rəsmi üzərində yazı»da bu sözlər həkk olunmuşdur: «Atəşə inanırkən tək tanrını buldular». Deməli, hələ 4500 il bundan əvvəl türklər oda sitayiş edirlərmiş.

Azərbaycan alimi E.Əlibəyzadə Altaydakı Pazırık kürqanından dini ayinlərin icrasını əks etdirən parça üzərində rəsm tapıldığını xəbər verir. Bu parçada oda sitayiş edən iskit-türk qadını təsvir olunub.

Bir sıra sovet və qərb alimləri günəş «allahı» Mitranı Misir və Şumer günəş «allahlarından» qabağa çəkərək «od allahı» ideyasının dünya xalqlarına farslardan keçdiyini iddia edirlər.





Bu, həqiqətin təhrif olunmasından başqa bir şey deyildir. Dünyamızdakı bütün «ilk»lərin bünövrəsi Mesopotamiya və Nil vadisi sivilizasiyalarında qoyulmuşdur. Günəş «allahları», Qor və Ut (Asar) bu mifoloji gerçəkliyin elə uca zirvəsidir ki, onu danmaq sadəcə, mümkün deyildir. Ən başlıcası isə, qədim türklər öz köklərini Günəş allahı Uta bağlayır və özlərini «od oğlu», «od allahının ruhunu daşıyanlar» nəsli hesab edirdilər! Bu isə türk atəşpərəstliyinin tarixini 4500 ildən daha qədimə, bəşər sivilizasiyasının «dan çağına» aparıb çıxarır.

Başqa bir tərəfdən, son dövr tədqiqatçılarına görə, ümumiyyətlə, atəşpərəstlik farslara midiyalılardan keçmişdir. Tədqiqatçıların fikrincə, bu dini cərəyan Midiyanın o hissəsində görünməyə başlamışdır ki, orada maqlar yaşayırdılar və həmin ərazidə sonralar Atropatena dövləti quruldu. Alimlərin yekdil qənaəti budur ki, Zərdüşt e.ə. VI əsrdə Atropatenada doğulmuş və orada yaşamışdır.

Problemə hansı nöqtədən baxsaq, onun son ucunda Şumer sivilizasiyası və İkiçayarasında yerli xalq hesab olunan qədim türklər görünür. Bunu midiya-sarmat əlaqələri fonunda bir daha müşahidə etmək olar.

Yunan tarixçisi Klavdiy Ptolomey özünün məşhur «Coğrafiya dərsliyi»ndə sarmatları üç qrupa bölür:

1. Hökmdar sarmatlar.
2. At əti yeyən sarmatlar.
3. Hiperborey sarmatları.

Əvvəlcə sarmatların kimliyini aydınlaşdırmağa çalışaq. İstoriyaqrafiyada geniş yayılmış fikrə görə sarmatlar daha qədim tarixə malik olan savromatların birbaşa varisləridir. Savromatlar e.ə. VII-IV əsrlərdə Volqa və Ural çayları ətrafındakı çöllərdə yaşamışlar. Antik müəlliflər savromatları «qadınların idarə etdiyi xalq», yaxud amazonka adlandırmışlar. K.F.Smirnov sarmatları irandilli xalq hesab edir, rus tarixçiləri L.Y. Malovitskaya, B.E.Maksimeno və başqaları da bu fikri təsdiqləyirlər. Lakin sarmatların etnik mənşəyi mübahisəlidir. Əvvəlcə onların slavyan olduqları güman edilirdi. XIX əsrin 80-ci illərində irəli sürülən bu ehtimal bir qədər sonra sübuta ehtiyacı olmayan aksioma kimi qəbul edildi. Yüz ildən çox sürən bu hakim mövqeyə sovet arxioloqlarının yüngül əli ilə ağır zərbə vuruldu. Arxeoloqların gəldiyi nəticə bundan ibarət idi ki, «sarmat – Şərqi Avropada yaşayan irandilli köçəri tayfaların ümumi adıdır». «Sarmat» sözünün etimologiyası iran dilləri əsasında gah «qarasaçlılar», gah «qarapapaqlılar», gah «əsmər əllilər», gah da «sarı at minənlər», «gümüşü – sarı at minənlər» və s. kimi izah olunur.

Antik müəlliflər savromat – sarmatları Şimali Qara dəniz ətrafında yaşayan skiflərdən şərqdə, indiki Don çayının Şərq istiqamətində yerləşdirirlər.

Herodota görə skiflər və savromatlar qohumdurlar. Tarixin atası bu qohumluğu belə şərh edir: Bir dəfə ellinlilər əsir alınmış amazonkaları gəmilərlə daşıyırdılar. Yolda amazonkalar ellinliləri öldürüb qaçdılar, ancaq gəmiləri idarə edə bilmədiklərindən Meotiy





(Azov) dənizində skiflərə rast gələnə qədər dolaşdılar. Sahilə çıxan amazonkalar at ilxısını görüb onlara mindilər və skif torpaqlarını çapıb talamağa başladılar. Skiflərlə amazonkalar arasında bir neçə dəfə vuruşma baş verdi. Ağır döyüşlərin birində skiflər öldürdüklərinin kişi paltarı geyinmiş qadınlar olduğunu biləndə xeyli təəccübləndilər. Sonra qərara gəldilər ki, amazonkalarla bir daha döyüşə girməsinlər, əksinə cavan skifləri onların düşərgələrinə göndərsinlər. Amazonkalara yaxınlaşan cavan skiflər daha geri qayıtmadılar, evləndikləri qadınlara skif dilini öyrətdilər, sonra isə onlarla bir yerdə Tanais, yaxud Tanaid (Don) çayının o biri sahilinə keçərək burada yaşamağa başladılar. Beləliklə, skiflərlə amazonkaların qarışığından savromat tayfaları əmələ gəldi.

Herodot yazırdı ki, amazonkalar skif dilində danışırdılar, ancaq bu dili tam mənimsəyə bilmədiklərinə görə tələffüzləri bir qədər pozuq idi.

Beləliklə, antik və müasir tədqiqatçılar yekdilliklə bu qənaətdədirlər ki, savromatlar ata tərəfdən skif, ana tərəfdən isə «kişiöldürən» amazonkalardır. Bəs sarmatlar?

Bəzi tədqiqatçılar, o cümlədən M. Rostovtsev və Z.Həsənov savromatlarla sarmatların qohumluğu ideyasını qəbul etmirlər. M.Rostovtsev yazır ki, adlardakı oxşarlıq yunan tarixçilərini çaşdırmış və onlar savromatları ilkin sarmatlar adlandırmışlar. Əslində isə, bu tayfalar nə etnik, nə də linqivistik baxımdan bir-birilərinə qohum deyillər. Amma tədqiqatçıların əksəriyyəti tamamilə başqa fikirdədir. Məsələn, e.ə. IV

əsrdə yaşayan Skilak Karnidskinin əsərində Tanaid xalqından söhbət açılır və onlar sarmat kimi təqdim olunur. Ovidiy Nazonda bu xalq gah sarmat, gah da savromat kimi qeyd olunur. Pliniy isə öz kitabında «yunanların savromat adlandırdıqları sarmatlar» ifadəsini işlədir.

Son dövr tədqiqatçıları arasında «sarmat» etnoniminin türk dillərində izahına meyillər artmışdır. Onlar belə hesab edirlər ki, «sarmat» türk dillərindəki «sarı» kökü ilə «mat» komponentindən yaranmışdır. Buna misal olaraq, «mat» komponenti ilə yaranan kumat, dosmat, qasmat, şermat və b. tayfaların adı çəkilir. Altayda yaşayan almat tayfası mövcuddur, bu tayfanın qolları sarı almat və qara almat adlanır.

Etnonimin türkdilli tayfalara aid olması, həm də antropoloji tədqiqatlarla da təsdiqlənir. Məsələn, V.Friştеyn yazır ki, sarmatların kəllə sümüyü Dağlıq Altayın Mayeran və Pazırık mərhələlərinə uyğun gəlir. Romalı şair Publiy Ovidiy Nazon sarmatların monqoloid irqə məxsus fiziki keyfiyyətlərə malik olduqlarını qeyd edirdi. K.V.Smirnov tədqiqatlarının son nəticəsi olaraq bu qənaətə gəlir ki, sarmatların irqi tərkibinin dəfələrlə dəyişməsi onların qarışıq mənşəyindən xəbər verir.

İndi də problemə başqa bir tərəfdən gün işığı salmağa çalışaq. Bir sıra antik müəlliflərdə savromat – sarmatlarla midiyalıların qohumluğu ideyası irəli sürülmüşdür. E.ə. I əsr yazarı Diodor Siciliyalı yazır ki, skif çarları əsir götürdükləri tayfaları sürgün edirdilər, onların arasında ikisi xüsusilə seçilir: biri Assuriya torpaqlarında, Paflaqoniya ilə Pont arasında, ikincisi isə Tanaid çayı ətrafında yerləşdirilmişdi. Sonuncu sürgün olunanlar savromat adlanırdılar. Belə çıxır ki, e.ə. birinci minilliyin ortalarında Don çayı sahillərində «savromat» adı ilə məşhur olan tayfalar bu torpaqlara Midiyadan köçürülmüşlər. Doğrudur, bu zaman savromatların skiflərlə amazonkalardan törəməsi barədə Herodotun verdiyi xəbər bir qədər şübhə altına düşür, yaxud başqa cür desək, bu iki məlumat arasında müəyyən ziddiyyət yaranır.





Pliniy də sarmatlarla midiyalıların qohumluğunu təsdiqləyir. O yazır ki, iki qolu ilə dənizə tökülən Tanaid çayının ətrafında midiya əsilli sarmatlar yaşayırdılar. Yuli Solin də savromat-sarmatlarla midiyalıların qohum olduqlarını xəbər verir. Azərbaycan alimi Q. Qeybullayev bu məlumatlara bir qədər ehtiyatla yanaşır. O yazır ki, «bu məlumatlarda bir neçə qaranlıq məqam vardır. Birincisi, aydın olmur ki, antik müəlliflər «Midiya» deyərkən nəyi nəzərdə tutmuşlar, bütün tayfaların ümumiləşdirici adınımı, yoxsa konkret tayfanımı? Yəni bilinmir ki, sarmatlar Midiyanın hansı konkret tayfası ilə qohum idilər. İkincisi, bu qohumluq genetik qohumluq idi, yoxsa genetik qohumluq deyildi?»

Beləliklə, bütün yuxarıda söylədiklərimizi bir cümlə ilə belə ifadə etmək olar: Pozuq skif dilində danışan savromatlar sarmatların ulu əcdadlarıdır və onlar Don çayı ətrafına, eləcə də Şimali Qafqaza Midiya torpaqlarından köçmüşlər. Bunu təsdiq edəcək ən önməli fakt ondan ibarətdir ki, Şimali Qafqazda tapı-

lan və sarmatlara aid edilən bir sıra məişət əşyalarının üzərində ilan simvolikası həkk olunmuşdur. «İlan kultu» isə e.ə. I minillikdə yalnız Midiya tayfaları ilə bağlı ortaya çıxmışdır. Bunu yadda saxlayaq və təzədən Ptolomeyin fikrinə qayıdaq. Yunan tarixçisi sarmatları üç yerə bölürdü: hökmdar sarmatlar, at əti yeyən sarmatlar, hiperborey sarmatlar.

Hiperborey şimal xalqlarının əfsanələrində yaşayan çox qədim sivilizasiyanın adıdır. Şimal xalqları belə hesab edirlər ki, bəşər sivilizasiyası Şumerdən daha əvvəl məhz burada formalaşaraq bütün dünyaya yayılmışdır. Hiperborey fövqəltəbii gücə və ağıla malik insanların, «maqların sivilizasiyası» idi. Ptolomey «hiperborey sarmatları» deyərkən nəyi nəzərdə tutmuşdur, sarmatların bir qolunun maq olduğunumu, yoxsa onların çox qədim sivilizasiyadan qopub gəldiklərinimi? Əslində, hər iki fikir mahiyyət etibarı ilə eyni mənanı bildirir və görünür Ptolomey bu sarmat tayfalarının qeyri-adi bacarığını, cadugər və sehrbaz olduqlarını nəzərə çarpdırmaq istəmişdir. Burada önəmli olan başqa bir məqam ondan ibarətdir ki, sarmatların bir qolu «hökmdar tayfaları» adlanırdısa və bu tayfaların «allahlarla» qohumluğu güman edilirdisə, ikinci qolu maqlar idi və maq tayfaları Şumer kahinlərinin birbaşa varisləri sayılırdı. Sarmatlarla bağlı fikrimizi yekunlaşdıraraq inamla deyə bilərik ki, onların maq tayfaları midiyalılarla qohumluğu tarixilik baxımından tamamilə real görünür, çünki bu tayfaları uzaq keçmişdən süzülüb gələn qan bağı birləşdirirdi. Həm də bu qohumluq Midiya torpaqlarında deyil, görünür İkiçayarasında, Mesopotamiyada başlanmışdı.





Elm siyasətçiləri türklərin keçmişə uzanan bütün qollarını kəsmək üçün maq-türk yaxınlığının üstündən həmişə qara xətt çəkməyə çalışırdılar. Sovet dövründə belə bir fikir geniş yayılmışdı ki, maqların Azərbaycanla heç bir bağı yoxdur, bu ərazilərdəki muğ, moq adları «sasanilər dövründə və ilk müsəlman müəlliflərində zərdüştiliyin tərəfdarlarını bildirən anlayış» kimi meydana çıxmışdır.

Herodot mik və uti tayfalarının adını çəkir və onları Atropatena ərazisindəki saqartilərlə yanaşı qoyur. İ.Əliyev və E.Qrantovski mikilərin Mukanda yaşadıqlarını iddia edirlər. Mukan isə mik etnonimindən yaranmışdır. E.Qrantovskinin ehtimalına görə bu söz yunanlarda mox (moq), ərəblərdə muk şəklində keçir. Amma maq sözünün Muğan etnoniminə heç bir aidiyyatı yoxdur. Sovet dönəmində ustalıqla qurulmuş bu tələyə bəzi sadəlövh alimlərimiz çox asanlıqla düşürdülər. Nadir Məmmədovun 1993-cü ildə nəşr olunmuş, ümumilikdə çox faydalı olan «Azərbaycanın yer adları» kitabında belə sətirlər vardır: «Toponimik araşdırmalar sübut edir ki, indiki Muğan düzünün guya vaxtilə bu ərazidə yaşamış muğlarla heç bir əlaqəsi yoxdur».

Sonra kitabın müəllifi Ziya Bünyadovun əsərlərindən birində adı çəkilən Muğan xandan söhbət açır və Muğan düzünün hun tayfalarından olan həmin xanın şərəfinə belə adlandırıldığını iddia edir. Ancaq Azərbaycan alimi Q.Qeybullayev problemin həllinə daha yaxın görünür. Alimin fikrincə, maq və mik Midiyada müxtəlif tayfaların adları olub. Astara rayonu

ərazisində bu gün də Miki və Mikelan adları qalmaqdadır. Q.Qeybullayev yazır: «Bizə elə gəlir ki, mik adı müasir talışların bir hissəsinin özlərinə verdikləri addır. Görünür, onlar Midiyanın irandilli tayfaları olmuşlar». Alim hesab edir ki, mik tayfa adı ilə maq, yaxud muğ tayfa adlarını eyniləşdirmək olmaz. Midiyada müxtəlif dilli tayfalar yaşayırdı və onların arasında, heç şübhəsiz ki, irandillilər də vardı.

Maq (muq) tayfaları Azərbaycan ərazisində çox dərin izlər buraxmışlar. Bu gün Ağdam, Ağcabədi, Qazax, Zaqatala, Kürdəmir, Şamaxı rayonlarında Muğanlı, Sabirabadda Muğan-Gəncəli kəndləri vardır. Ümumiyyətlə, bu gün ölkəmizin ərazisində Muğan, Muğan düzü, Muğanlı, Muğancıq adı altında 17 toponim mövcuddur.

Arxeoloji qazıntılar Azərbaycan ərazisində son tunc və erkən dəmir dövrünə aid «Muğan mədəniyyəti»ni aşkara çıxarmışdır. Öz tariximizə başısoyuqluğumuzun nəticəsidir ki, orta əsr müəlliflərinin söhbət açdıqları Muğan şəhərinin harada yerləşdiyini bu günəcən dəqiqləşdirə bilməmişik. Ərəb tarixçisi Məsudi Azərbaycanda iki Muğaniyyənin olduğunu yazır və onları bir-birinə qarışdırmamağı tövsiyə edirdi. Məsudiyyə görə, indiki Qəbələ şəhəri ilə qonşu olan Muğaniyyə ölkəsi Kürdən şimalda yerləşirdi. Paytaxt şəhəri Muğan olan Muğaniyyə ölkəsi isə Xəzər dənizinin sahilində, karvan yolunun üstündə salınmışdı, sonralar tənəzzülə uğrayaraq dağılıb getmişdir. Ərəb müəllifləri Müqəddəsi, ibn Xordadbeh, Yaqut əl-Həməvi Xəzər dənizinin sahilində, İkiçayarasında, Ərdəbildən iki günlük məsafədə yerləşən yaraşıqlı və kölgəli bağlarla əhatə olunan Muğan şəhərindən böyük məhəbbətlə söz açırlar. Yaqut əl-Həməvi bu şəhərdə əhalinin böyük əksəriyyətinin türkmanlardan ibarət olmasını, ibn Xordadbeh isə yerli Şəklə xan haqqında xəbər verir.





Belə görünür ki, maqlar Azərbaycanın sosial-mədəni həyatında, xüsusilə incəsənətində dərin izlər buraxmışlar. E.Əlibəyzadənin də qeyd etdiyi kimi, klassik müsiqimizin şahı sayılan «muğam» sözünün haradan meydana gəldiyini bu günəcən aydınlaşdıra bilməmişik. Xalq ruhunun canlı salnaməsi olan, keçmişin qaranlıqlarını yararaq bu günümüzə gəlib çatan muğamımız, əcəba, öz adını qədim əcdadlarımız olan muğlardanmı almışdır?

Bir xalqı uzun əsrlər əsarətdə saxlamaq olar, onun tarixini dəyişdirmək, saxtalaşdırmaq mümkündür, amma bir xalqın öz soy-kökünü öyrənmək haqqını heç kəs əlindən ala bilməz. Tarixin bizə verdiyi bu haqqa tapınaraq yüzilliklər boyu damcı-damcı qanımıza, beynimizə yeridilən zəhərdən arınıb təmizlənməli, öz soy-kökümüzə qayıtmalıyıq. Amma təkcə qayıtmaq azdır, həm də bunu dünyaya qəbul etdirməliyik. Keçmiş əcdadlarımızın, bu gün bizim, gələcək isə uşaqlarımızın payına düşüb. Amma biz hamımız bir yerdə bu torpağın, bu millətin həm dünəninə, həm bu gününə, həm də sabahına məsuliyyət daşıyırıq. Kim deyibsə, çox gözəl deyib: Tarix ölülərin, dirilərin və hələ dünyaya gəlməyənlərin birliyidir.

# XV FƏSİL

## TÜRKÜN BAŞLANĞIC NÖQTƏSİ: QARANLIQDAN İŞIĞA

Nəhayət, bütün yuxarıda dediklərimizi yekunlaşdıraraq müasir Azərbaycan türk xalqının və dilinin formalaşması problemlərinə toxunmaq istəyirik.

Böyük türk dünyasının ayrılmaz tərkib hissəsi olan Azərbaycanımızın taleyi gizlincə doğuzdurulub, oğrunca göbəyi kəsilən "bic" körpənin gününə bənzəyir. "Doğulduğu" gündən əcnəbi ananın əmcəklərindən süd əmmiş, özgə beşiyində yatızdırılmış, laylası yad dillərdə çalınmışdır. Amma günlərin bir günündə nə "atasını" tanıdığımız, nə "anasının" üzünü gördüyümüz "bici" şəstlə qucağımıza verib, "alın, bu sizindir – demişlər – görün, necə də quldura oxşayır!"

Hər şeyin əldəqayırmasını görmüşdük, Tarixin əldəqayırmasını görməyi də Allah bizə nəsib elədi. "Qardaş, bu mən deyiləm, vallah, mənim Tarixim bu deyil" deyib ha çığır-bağır salsaq da səsimiz dünyanın kar olmuş qulaqlarına çatmır. Çünki dünya qərbin bizim üçün biçdiyi "standartlardan" kənarda heç nəyi qəbul etmir, qərbin "güzgü"sündə biz elə həmişə "bic" doğulmuş "ruhu çirkli" vəhşilər kimi qalacağıq. Öz "güzgümüz" isə pas atıb, neçə yerdən çat verib, bu "güzgü"də burnumuz iri, ağzımız əyri, sifətimiz çopur-mopur görünür.





Azərbaycanlılarda bir məsəl var, deyərlər ki, bir dəli bir quyuya bir daş atdı, yüz ağıllı fikirləşib çıxarda bilmədi. Amma biz yüzlərcə "dəli"nin atdığı daşların əlində əsir-yesir qalmışıq. Çünki bu qırıq-qırıq, doğram-doğram edilmiş "daş parçalarını" öz yerinə oturtmaq elə də asan məsələ deyil.

x x x

İri çaylar kiçik su qovşaqlarından yarandığı kimi, böyük xalqlar da kiçik tayfaların, bəzən qohum, bəzənsə qohum olmayan xalqların birləşməsindən əmələ gəlir. Bir xalqın təşəkkülü əsrlər, bəlkə də minilliklər tələb edən uzun, çətin və mürəkkəb bir prosesdir.

Problem ondadır ki, türk tayfaları müxtəlif səbəblər üzündən ilkin yaşadıqları coğrafi ərazidən dünyanın çeşidli bölgələrinə səpələnmiş, səpələndikcə parçalanmış, parçalandıqca daha kiçik hissələrə bölünmüş, hər bölünən tayfa yeni ad altında "üzə çıxmış", yazılı qaynaqlarda bu geneoloji ardıcıllıq öz əksini tapmadığına görə tarixçilər, əslində, eyni kökdən olan, eyni dilin müxtəlif dialektlərində danışan tayfalar arasında qohumluq əlaqələrini itirmişlər.

Məsələn, L.Qumilyov yazırdı ki, xəzərlərin kimliyini, Kaspi dənizi ətrafına haradan gəldiklərini biz bilmirik, çox ola bilsin ki, eramızın I əsrində yaşayan sarmatlar xəzərlərin ulu əcdadıdır. Xəzərlər tarix səhnəsindən silindikdən sonra da onlar barədə heç bir məlumat qalmamışdır. M.Artamanov qeyd edir ki, xəzərlərin varislərinin axtarışları indiyədək heç bir nəti-

cə verməyib. Yəni xəzərlərin mənşəyi, əcdadları və son taleləri barədə elmi ədəbiyyata heç nə bəlli deyil. Belə çıxır ki, çoxsaylı xəzər tayfaları "qəfildən", "göydən zənbillə" düşdükləri kimi, elə bu cür, qəfildən də yoxa çıxmışlar. Tayfalar arasındakı geneoloji əlaqələrin itməsi bu gün Azərbaycan tarixinin ən qaranlıq səhifələrindən biridir.

Eramızdan hələ üç min il əvvəl Azərbaycan ərazisində qüdrətli dövlət quran qutilərin də başına eyni "əhvalat" gəlib. Tarixçilər bu günəcən müəyyən edə bilməyiblər ki, qutilər bir xalq kimi ilkin olaraq harada formalaşıblar, onların milli mənşəyi, linqivistikası, varisləri barədə də bu günəcən tutarlı dəlil-sübut tapılmamışdır.

Eyni sözləri lullular, subarlar, eramızdan əvvəl birinci minillikdə Azərbaycan ərazisində yaşayan, dövlət quran digər tayfalar – aşquzlar (skiflər), kimmerlər və saklar barədə də söyləmək olar. Tarixin müəyyən zaman kəsiyində "ulduzu parıldayan", işğalçılıq müharibələri aparan, geniş əraziləri fəth etməyi bacaran bir çox qüdrətli xalqın mənşəyini, materialların qıtlığı üzündən, təəssüf ki, bu günəcən dəqiqləşdirmək mümkün olmamış, bu tayfaların irqi, ilkin yayılma coğrafiyası, varislik məsələləri, dilləri axıra qədər diqqətlə araşdırılmamışdır.

Kainatda heç nə itmir, təkcə şəklini, formasını dəyişir. Cəmiyyətdə də belədir, bir xalq "ölürsə", mütləq onun yerində başqa bir xalq "cücərir". Əgər biz





bunu bilmiriksə, öyrənməkdə çətinlik çəkiriksə, bu, tarixin günahı deyil.

Etrusklar bir xalq kimi çoxdan tarix səhnəsindən siliniblər. Ancaq etruskları "ölü xalq" sayanlar, zənnimcə, bərk yanılırlar. Etrusk adı tarix səhnəsindən silinə bilər, ancaq etrusk dili, etrusk mədəniyyəti onlarla xalqa, o cümlədən türklərə yeni həyat vermişdir. Əgər bu gün dünyada yaşayan xalqların az qala yarıdan çoxu özlərini etruskların varisləri sayırsa, o zaman etruskları "ölü xalq" adlandırmaq nə dərəcədə ədalətlidir?

Fransa torpaqlarında yaşayan əhali ta qədimdən kelt dilində danışırdı, italyanlar bu torpaqları tutandan sonra xalq latınca danışmağa başladı. Ölkənin adı isə bu ərazilərə soxulan frank tayfalarının adından formalaşdı. İndi fransızların mənşəyini keltlərəmi, latınlaramı, yoxsa franklaramı bağlayaq?

Bir çox xalqlar indi yaşadıqları ərazilərə başqa torpaqlardan köç etmiş, yerli əhali ilə qaynayıb qarışaraq ya onları öz içərilərində əritmiş, ya da özləri assimilyasiya olunmuşlar. Nəticədə tarix səhnəsinə keyfiyyətcə tamamilə yeni bir xalq çıxmışdır. Dünyada qarışıq olmayan "təmiz" xalq, sadəcə, mövcud deyildir.

Müasir Azərbaycan xalqı da bir çox türkdilli və türkdilli olmayan xalqların qatışığından meydana gəlib. Bəs Azərbaycan xalqının və Azərbaycan türk linqivistikasının formalaşmasında mühüm rol oynayan bu xalqlar hansılardır?

Bu fəsildə biz Azərbaycan türk xalqının və türk dilinin formalaşması ilə bağlı məsələləri qısa şəkildə araşdırmağa və aşağıdakı suallara cavab tapmağa çalışacağıq:

1. Türk tayfalarının kökü, başlanğıc nöqtəsi hara bağlıdır?

2. Sonrakı bütün türk tayfalarına "donorluq" edən ən erkən türk tayfası hansıdır?

3. Bir-birindən ayrılıqda mövcud olan cənub və şimal torpaqlarında Azərbaycan xalqı və eyni qrammatik quruluşa malik vahid Azərbaycan türk dialekti necə formalaşdı?

4. "Azərbaycan" ölkə adı necə və nə vaxt yarandı?

xxx

Beləliklə, türk etnosu (etnosları) hansı zərurətdən meydana gəldi, onların başlanğıc nöqtəsi tarixin hansı dönəminə təsadüf edir?

Təəssüf ki, bu suala dəqiq cavab vermək üçün əldə heç bir tutarlı fakt, dəlil-sübut yoxdur. Bu işdə yeganə mənbə çoxlarının istehza edib dodaq büzdükləri, elmin antipodu hesab etdikləri miflərdir. Miflər isə türklərin yaranışı barədə çox dumanlı, simvollarla pərdələnmiş örtülü məlumatlar verdiyindən təfsirçilər çox vaxt ya bu simvol-informasiyaların üstündən sükutla keçir, ya da onu öz bildikləri kimi, yanlış şərh edirlər.

Tövratdan başlayaq. Bu müqəddəs kitabda bəşəriyyətin, yəni müasir insanların Nuhun üç oğlu Simdən, Xamdan və Yafəsdən törədiyi iddia edilir. Bəzi tədqiqatçılar belə hesab edirlər ki, bəşəriyyəti çiyinlərində saxlayan bu üç sütundan ikisi – Sim və Yafəs türklərin ulu babalarıdır.





Tariximizin salnaməsi hesab edilən "Oğuznamə"də türklərin əcdadı kimi Dib Yavku xan göstərilir. Dib Yavku xanın göylər qızı ilə izdivacından oğuz nəsli törəyib və beləliklə türk hökmdar tayfalarının bünövrəsi qoyulub.

Skif (skit) panteonunda da etnosun yaranması Tarqıtayın adı ilə bağlıdır. Əfsanəyə görə Tarqıtay özü yunan allahı Zevslə Börüsfen çayının qızının nigahından doğulub.

Bu miflərdə qabarıq şəkildə önə çıxan bir məqam diqqəti cəlb edir: bütün hallarda türk tayfalarının yaranması, istisnasız olaraq, bəşəriyyətin "dan çağına", tarixin başlanğıc dövrünə aid edilir və mütləq ilahi kökə bağlanır.

Əksər tarixçilər türklərin ilkin tayfalarını sak adlandırırlar. Lakin yazarların fikrincə, bütün saklar deyil, yalnız hökmdar sak tayfaları türkdilli idilər. Əgər bu, həqiqətdirsə, o zaman türk tayfalarının uzun tarixi yolu əfsanəvi Şumer "allahlarının" zamanına qədər uzanıb gedir. Şumer əfsanələri hökmdar tayfalarının yaranması barədə çox ilginc bir hekayət danışır. "Allah" Ut (Od) yer qadını ilə evlənmiş və ondan Meksiaqqaşer adlı oğlu olmuşdur. Meksiaqqaşerlə hökmdar sak tayfalarının və eyni zamanda birinci Uruk di-

nastiyasının, o cümlədən erkən türk tayfalarının bünövrəsi qoyulmuşdur.

Beləliklə, bizə qədər gəlib çatan ən müxtəlif miflərə nəzər saldıqda, görürük ki, türklərin ilkin yaranışı, Nippur "çar siyahısı"na görə, eramızdan əvvəlki XI minilliyə, günəş "allahı" Uta (Oda) və onun oğlu Meksiaqqaşerə bağlıdır. Təbii ki, bu bir əfsanədir və onun nə qədər gerçək olduğunu söyləmək çətindir. Ancaq gerçək olan budur ki, Azərbaycan türkləri bu gün də özlərini qürurla "Od oğlu" adlandırır və Günəş "allahına" bağlılıqlarını uzun minilliklər boyu ən çeşidli mifik qaynaqlarda təkrar-təkrar bəyan etmişlər.

xxx

Azərbaycan türk dialektinin və bütövlükdə ölkə adının yaranması bu günəcən öz həllini tapmayan problemlər arasındadır. Problemi həll etməyə çalışan mütəxəssislər Azərbaycan ərazisində baş verən hadisələrlə bağlı müxtəlif dövrlərdəki və müxtəlif dillərdəki qaynaqlardan yararlanmağa çalışmışlar. Əvvəla, bu qaynaqlar bir çox hallarda ziddiyyətli məlumatlar verirlər. İkincisi, qaynaqlar yalnız ən mühüm hadisələrdə iştirak edən ölkələrin və tayfaların adlarını çəkdiklərindən, əksər hallarda burada Azərbaycana aid informasiyalar tapmaq olmur. Üçüncüsü, məlumatlarda ardıcıllıq pozulduğundan hadisələr arasında əlaqə qurmaq çətinlik törədir. Dördüncüsü, məlumatlarda yer almış etnonimlər, toponimlər qaynağın mənsub olduğu xalqın dil qaydalarına uyğunlaşdırıldığından bu terminlər





yerli xalqın tələffüz formasından xeyli fərqlənir. Və nəhayət, beşincisi, Lullubi və Quti dövlətləri dağıldıqdan sonra ta XIII-XIV əsrlərədək Azərbaycanın həm şimal, həm də cənub bölgəsinə çoxsaylı türk tayfaları soxulduğuna görə Azərbaycan türk dialektinin bu tayfalardan hansının dil bazası üzərində qurulduğunu aydınlaşdırmaq çətindir.

Görkəmli Azərbaycan alimi Qiyasəddin Qeybullayev belə güman edirdi ki, Azərbaycan ərazisində ilk əvvəl ümumdanışıq dili alban etnonimini daşıyan tayfaların dili olub. Alimin fikrincə eramızın I minilliyindən başlayaraq bu dil Albaniya ərazisində yaşayan türkdilli tayfaların dili ilə qarışmış və Azərbaycan türk dialektinin formalaşmasında yeni mərhələ başlanmışdır.

O zaman belə bir sadə suala cavab tapmaq lazım gəlir: e.ə. birinci minillikdə adı çəkilən alban etnonimi altında hansı tayfalar mövcud idi? İkincisi, alban tayfalarının özləri daha əvvəllərdə yaşamış hansı tayfanın, yaxud, tayfaların varisləri idilər? Ən başlıcası, Azərbaycan türkcəsi uzun əsrlər, hətta minilliklər boyu iki hissəyə bölünmüş Azərbaycan torpaqlarında vahid dilin ünsürləri kimi formalaşıbsa, albanlar isə təkcə Arazdan yuxarıda, şimalda dövlət qurublarsa, o zaman hər iki bölgədə vahid ləhcənin yaranması necə mümkün olmuşdur?

Ən adi məntiq də belə nəticə çıxarmağa əsas verir ki, Azərbaycan türk dili bu ərazilərin həm şimalında, həm cənubunda yaşayan "ortaq tayfaların" danışı-

ğı əsasında formalaşa bilərdi. Bəs bu "ortaq tayfalar" hansılardır?

Vahid türk "gövdəsindən"qopan "etnos qəlpələrini", bu etnosların ulu Şumerə qədər uzanıb gedən dumanlı yolunu, tarixin müəyyən zaman kəsiyində adını dəyişərək (yaxud dəyişdirilərək) səhnəyə çıxan tayfa birləşmələri ilə daha qədimdə qalan tayfalar arasındakı geneoloji əlaqələri bərpa etmədən bu suala dəqiq, dürüst cavab vermək mümkün deyildir. Ağır zəhmət, yuxusuz gecələr və yorulmaz axtarışlar tələb edən bu işi bizim peşəkar, cəfakeş alimlərimiz, yeni yetişməkdə olan gənc tarixçilər nəsli öz çiyinlərinə götürəcəklər. Mən inanmaq istəyirəm, mən inanıram ki, bu açıq qalan suallar nə vaxtsa öz layiqli cavabını tapacaqdır!

Biz isə əldə olan çox cüzi imkanlardan istifadə edərək problemə iynə ucu boyda da olsa işıq salmağa çalışaq.

Gəlin əvvəlcə cənublu-şimallı bütöv Azərbaycan ərazisində qurulan dövlətləri bir daha xatırlayaq. Bunlar şimalda Sakasena və Albaniya, cənubda Aratta, Quti, Lullubi, Turukki, Manna və Atropatenadır.

Sakasena Azərbaycanın həm şimal, həm cənub torpaqlarını birləşdirən ilk dövlətdir, hər halda tarixçilərimiz bu fikirdədirlər. E.ə. VII əsrdə Tuqdamme vahid sak-quti dövləti yaratdı, özünü isə sakların və qutilərin hökmdarı elan elədi. Tuqdammenin qurduğu dövlət mənbələrdə ən çeşidli adlarla göstərilmişdir. Antik müəlliflər onu Aşquzay, Tövrat Aşkenaz, Herodot, Strabon və başqaları Sakasen, bəziləri "skif çarlığı", erkən orta əsr yazarları İşquz, Rəşid əd-Din Azərbaycan, tanınmış türkoloq Y.Yusifov və digər çağdaş yazarlar kimmer-skif-sak padşahlığı adlandırmışlar. Sakasenin süqutundan sonra da bu ölkəni quran saklar Azərbaycanın həm şimal, həm cənub torpaqlarında vahid danışıq dilini formalaşdıran "ortaq tayfalar" kimi uzun yüzilliklər boyu kompakt halda yaşamışlar.





Tədqiqatçılar "sak" adı ilə o qədər "alver" ediblər, bu etnonimin "kələfini" elə dolaşdırıblar ki, artıq "sak" deyərkən kimin kim olduğunu anlamaq heç cür mümkün olmur.

Əslində problemin həlli çox sadədir. Təkamül nəzəriyyəsinin iflasından sonra elmi yolla sübut olundu ki, bəşəriyyət bir Atadan və bir Anadan doğub törəyib, yüz min il əvvəl bütün insanlar bir dildə və bir ləhcədə danışmışlar. Vahid dil ideyası istər-istəməz bu dilin daşıyıcıları olan vahid etnos ideyasına yol açmışdır. Bu isə o deməkdir ki, bəşəriyyəti nəhəng Həyat Ağacına bənzətsək, yüz min il əvvəl bir dildə və bir ləhcədə danışan vahid etnos bu Ağacın gövdəsi, bütün digər xalqlar və tayfalar isə bu "gövdənin" üzərində bitən qol-qanadlardır.

"Bəs bu etnos necə adlanırdı?" deyə soruşsanız cavabı qədim Şumer mətnlərində tapacaqsınız: bu etnosun adı "qarabaşlar", yəni saklardır. Bəzi tədqiqatçılar saklardan danışarkən onları yalnız tarixin müəyyən zaman kəsiyində meydana gələn konkret tayfa, yaxud tayfa birləşməsi hesab edirlər. Lakin "sak" tək-

cə bəlli tayfaların konkretləşdirici adı deyildir, o həm də birləşdirici, ümumiləşdirici addır. Çünki saklar (qarabaşlar) Şumer mənbələrinin və Tövratın xəbər verdiyi "bir dildə və bir ləhcədə danışan" həmin qədim etnosdur.

Tədqiqatçıların "naməlum tayfa" adlandırdıqları şumerlər güman edildiyi kimi heç də tarix səhnəsindən silinib getməmişdi, onlar Ki.en.qir-in siyasi iflasından sonra ən çeşidli adlar altında dünyanın müxtəlif guşələrinə səpələndilər.

Adlar dəyişsə də əslində qədim Mesopotamiyadan çıxan bu tayfaların hamısı mənşəcə sak idi. Fikrimizcə, bir çox şumeroloqları dolaşığa salan problem odur ki, bu tayfalardan bəziləri özlərini yeni coğrafi ərazilərdə də sak adlandırırdılar. Uzun əsrlərdən sonra əksər tayfalar bir növ "yadlaşaraq" öz sak mənşələrini unutsalar da bu adı daşıyan konkret tayfalar isə elə sak olaraq qalmışdılar.

Bu üzdən bəzi antik mənbələrdə skiflərin (skitlərin), kimmerlərin, hunların, maskutların, sarmatların və digər tayfaların çox doğru olaraq sak adlandırılması tədqiqatçılar arasında ziddiyyətli fikirlərin yaranamasına və bundan sui-istifadələrə yol açmışdır.

Türk tafyalarının ilkin "sak budağı" ağ saklar, hökmdar sak tayfalarıdır. Bu "budaq"dan quti, lullu, subar, turuk qolları ayrılmış, hər "qol"dan yeni pöhrələr yaranaraq bu münvalla artıb-çoxalmışdır. Bizim fikrimizcə, etnik və linqivistik mənsubiyyətlərin yaranmağa başladığı ilk türk tayfası – qutilər və onlar-





dan ayrılmış Altay türkləridir. Bu vahid türk etnosu əvvəlcə bir yerdə, Nippurda yaşayırdı. Görünür, üsyan etdikləri üçün qutilərin bir hissəsi Azərbaycan ərazisinə köçürülmüş, başqa bir hissəsi isə daha şərqə, Sibirə tərəf çəkilmişdir.

Mən bu ideyanı göydən götürməmişəm. Altay türklərinin və oğuzların eyni Vətəndən – Nippurdan çıxmaları barədə mifoloji yaddaş nəsillərdən-nəsillərə ötürülərək bu günümüzəcən gəlib çatmışdır.

Altay türkləri neçə min ildən sonra yenidən Ön Asiyaya, öz Ata yurdlarına döndülər. Ancaq onlar bu dəfə sak adı altında və həm də işğalçı kimi qayıtmışdılar. Qayıtdılar, Azərbaycanın hər iki bölgəsini birləşdirdilər, yeni, güclü dövlət yaratdılar və onların bir hissəsi həmişəlik bu torpaqlarda qaldı. Şübhəsiz ki, vahid Azərbaycan türk dialektinin formalaşmasında iştirak edən çoxlu etnoslardan biri, bəlkə də birincisi saklardır. Saklar Azərbaycanın hər iki tərəfinə öz pozulmaz naxışlarını vurublar. Mən bunlardan tək bircəciyi haqqında danışmaq istəyirəm.

Fikir verin, müasir Azərbaycan torpaqlarında üç min ilə yaxındır ki, Qanzak (Gəncə) şəhəri mövcuddur, mənası "sak torpağı", "sak yurdu" deməkdir. Çox ola bilsin ki, bu şəhər adı e.ə. VII əsrdə qurulan Sakasena dövləti ilə əlaqədar meydana gəlib. Amma həmişə unuduruq ki, e.ə. IV yüzillikdə müstəqillik qazanan qədim Manna torpaqlarında qurulan Atropatena dövlətinin paytaxt şəhəri də Qanzak idi. Bu faktı görə-görə, bilə-bilə yenə də yazırıq ki, Atropatena əhalisi-

nin mənşəyi elmi ədəbiyyata bəlli deyil. Bəs "mənşəyi bəlli olmayan xalq" paytaxt şəhərinə öz damğasını nə üçün vurub? Bəyəm Qanzak adı bu xalqın kimliyini ortaya qoymurmu?

Toponimlər tarixin danışan dilidir. Bir xalqın linqvistikası barədə yazılı məlumat olmayanda köməyə gələn ən yaxşı vasitə yer, dağ, çay və şəxs adlarıdır. Bu anlamda, eyni dilli tayfaların Azərbaycanın həm şimal, həm cənub bölgəsində yadigar qoyub getdikləri adlar yaddilli salnaməçilərin hər cür məlumatından daha dəqiq və daha etibarlıdır. Gəlin Albaniya ərazisində yaşayan türkdilli tayfaların siyahısına ötəri nəzər salaq: saklar, qarqarlar, hunlar, siraklar, aranlar, savarlar, kəngərlər, peçeneqlər, bulqarlar, xəzərlər, çollar və başqaları. Bunlar ortaq Azərbaycan türkcəsinin formalaşmasına güclü təsir göstərən tayfalardır və bu tayfalar şimalda olduğu kimi, cənubda da özlərindən sonra çoxlu yadigar qoyub getmişlər. Bu toponimlər türklərin "dil pasportudur" və bunu inkar etməyə heç kəsin gücü çatmaz. Mən aşağıda Albaniyada yaşayan türkdilli tayfaların həm də Cənubi Azərbaycanda yadigar qoyub getdikləri yer adları barədə qısaca məlumat verməklə kifayətlənmək istəyirəm.

**Qarqarlar.** Qarqar, Qerqer, Qerqer-Nəsir, Baba Qarqar, Karkarak, Kerkere, Kerker, Ələmdar Qarqar, Xarxar, Xorxor, Xorxora, Xorxore.

**Siraklar.** Feofilakt Simokatta Atropatenada Siraqan yaşayış məntəqəsinin adını çəkir. Bu ad Ermənistan ərazisində Şirak, Şimali Azərbaycanda Çıraq kimi





göstərilib. Cənub torpaqlarındakı adlar isə belədir: Şiraq-heyl, Şiraq-məhəllə, Çirak, Çirak-Abdal, Çeraktəpə, Çirakçi, Çeraqil (Çıraq eli).

**Aranlar.** Oranar, Aran, Aranlı, Arran. Həmçinin Şiz şəhərindən olan X əsr yazarı Əbu Dulaf qədim Ər-Ran şəhərinin adını çəkir.

**Hunlar.** Unar (Hun+ər), Xunan, Xunanc. Muğanda yaşayan ağ hunlara Abdal (yunanlar Eftal) deyirdilər. Cənubi Azərbaycanda Abdal və Abdallı kəndləri bu gün də qalmaqdadır.

**Savarlar.** Balasavar, Savar-Kalate, Savar-abadbala, Savarabad-poin, Savarin və Savarçi.

**Kəngərlər**. (Kanqarlar). Qanqar, Qanqaray-qala, Kanqarban, Kanqarşax, Kanqare, Kanqari, Kanqaristan.

Bundan başqa Cənubi Azərbaycanda daha üç Kəngərlu kəndi mövcuddur.

**Bulqarlar.** Bulqarların "Qazan" adından yaranan adlar: Qazan, Qazansar, Qazanabad, Qazan-Aqalu, Qazançay, Qazane.

**Xəzərlər.** Xəzərian, Xəzərkənd, Xəzərqeran, Xəzərabad, Xəzərlu, Xəzər-böyük, Xəzər-Çunan, Xəzərşah.

Müxtəlif çağlarda Azərbaycan ərazisinin həm şimal, həm də cənub hissəsində yaşayan bu tayfaların hamısı vahid Azərbaycan dilinin formalaşmasına öz töhfəsini vermişdir. Tarixin amansız gərdişi zaman-zaman onları ayrı salsa da lakin heç vaxt dilimizi ayırmağa, parçalamağa gücü yetməmişdir. Türk dili uca dağ zirvəsi kimi, dənizdə yanan işıqlı mayak kimi hə-

mişə onları birləşdirmiş və yol göstərmişdir. Dilimiz əli qələm tutmağa yatmayan əcdadlarımızın əvəzinə həmişə tariximizin bələdçisi olmuşdur.

x x x

Albaniya barədə Azərbaycanın ən görkəmli tarixçiləri, o cümlədən Ziya Bünyadov, Fəridə Məmmədova, Yusif Yusifov, Qiyasəddin Qeybullayev və başqaları sanballı əsərlər yazmışlar. Lakin bu gün bütövlükdə Alban probleminin qapandığını söyləmək çətindir. Bu problemlər arasında albanların irsi mənsubiyyəti, linqivistikası, əlifbası, qohumluq əlaqələri xüsusilə ön plana çıxır.

Uzun illər elmi ədəbiyyatda belə bir fikir formalaşmışdı ki, Azərbaycanın şimal torpaqlarında Albaniyadan əvvəl heç bir dövlət qurulmayıb. Lakin son dövrlərin araşdırmaları, xüsusilə arxeoloji qazıntılar bu fikrin kökündən yanlış olduğunu ortaya qoydu. Tovuz rayonu ərazisində e.ə. VI minilliyə aid Gültəpə mədəniyyətinin aşkar edilməsi şimal torpaqlarımızda bəşər sivilizasiyasının ilkin çağlarından yüksək inkişaf səviyyəsinə çatan bir cəmiyyətin mövcudluğunu üzə çıxartdı. Belə görünür ki, şimal torpaqlarımız uzun minilliklər boyu ən qədim mədəniyyət ocaqlarından biri olmuşdur. Goranboy rayonunda e.ə. III minilliyə, Oğuzun Kərimbəyli kəndinin Qazi deyilən ərazisində e.ə. XVI-XV əsrlərə aid olduğu güman edilən maddi-mədəniyyət abidələrinin tapılması bir daha göstərir ki, Albaniya dövlətinin təşəkkülündən hələ uzun minil-





liklər qabaq cənubdakı Aratta, Quti, Lullubi, Subar, Turukki dövlətləri ilə paralel (kim bilir, bəlkə də bərabər) həm də şimal ərazilərimizdə bir-birini əvəzləyən dövlətlər qurulmuşdur. Biz hələlik bu dövlətlərin adlarını bilmirik, çünki yazılı mənbələrdə bu dövlətlər barədə heç bir məlumat aşkarlanmayıb. "Nə üçün?" sualına isə birmənalı cavab vermək mümkün deyildir. Ola bilsin ki, tarixçilərimiz lazım olan məlumatları mövcud olduğu yerlərdə axtarmamışlar. Mümkündür ki, bu məlumatları özündə cəmləşdirən qaynaqlar bizə məlum olmayan səbəblər üzündən məhv edilmişdir. Yaxud, bu cür məlumatlar heç yerli-dibli mövcud olmayıb. Axı salnaməçilər adətən müharibələrin, qanlı döyüşlərin, zəbt olunan torpaqların və əsir alınan xalqların xronikasını yazırlar. Karvan yolu üstündə yerləşən Azərbaycan şəhərləri bəlkə də dinc və sakit həyat sürdüyünə görə salnaməçilərin diqqətini cəlb etməmişdir.

Amma müasir Azərbaycan torpaqlarında Albaniyadan daha əvvəl qurulan tək bircə dövlətin adı yazılı ədəbiyyatdan bizə bəllidir. Bu ölkə M.Kalankaytuklunun "Alban tarixi" kitabında "Onoqur çarlığı" adlandırılır. Bir çox müəlliflər, xüsusilə ərəb yazarları belə hesab edirlər ki, "onoqur" "on oğuz" deməkdir. Ərəb tarixçiləri oqurları, sarıqurları və onoqurları birmənalı şəkildə türk mənşəli hesab edirlər.

Başqa bir maraqlı fakt ondan ibarətdir ki, Sasani mənbələrində Albaniya ərazisində yaşayan uti və udin tayfaları ilə yanaşı həm də ud tayfalarının adı çəkilir.

Görünür "ud" etnonimi "uz"un fonetik dəyişikliyə uğramış formasıdır, türk dillərində "d-z" əvəzlənməsinə tez-tez rast gəlirik. Uz tayfaları isə Avropa mənbələrində daha çox quz kimi tanınır. Çox güman ki, Alban ud (uz) tayfaları Onoqur çarlığını yaradanların varisləri idilər və uzun əsrlər boyu Albaniya ərazisində yaşamaqda davam etmişlər.

Sonralar Onoqur çarlığının əhatə etdiyi ərazilərdə Maskut dövləti qurulmuşdu və bu dövlət Albaniyaya daxil olan 26 çarlıqdan biri idi. Bəzi tarixçilər maskutları massaketlərlə eyniləşdirməyə çalışırlar. Lakin Q.Qeybullayev qətiyyətlə bunun əleyhinə çıxır. Maskutlar Albaniyanın şimal-şərqində, indiki Quba, Qusar və Xaçmaz rayonları ərazisində yaşayırdılar. M.İsmayıl bu çarlığın Beşbarmaq dağına qədər uzandığını yazsa da Q.Qeybullayevə görə həmin vaxtlar Beşbarmaq dağı zonasında çağdaş yazarların Şabran adlandırdıqları Savar dövləti qurulmuşdu. "Alban tarixi"ndə də adı çəkilən Maskut çarlığına hunların ölkəsi də deyirdilər. Bəzi tanınmış tədqiqatçılar hunları çağdaş türklərin, oğuzları isə hunların əcdadı saydıqlarına görə "hun ölkəsi" sayılan Maskut çarlığının başlıca özəyinin oğuz tayfalarından ibarət olduğunu güman etmək olar. Maskut çarları Sanatruk və Sanasenin hun qoşunlarına başçılıq etdiyi bir çox yazılı mənbələrdən bizə gəlib çatmışdır.

Amma "Maskutlar türkdürmü?" sualına bir çox tədqiqatçılar mənfi cavab verirlər. Sovet alimləri maskutların mənşəyini birmənalı şəkildə irandilli xalqalara bağlayırlar.





Maskut adına ilk dəfə sasanilərin arxiv sənədlərində rast gəlirik. Bu sənədlərdə sasanilərə tabe olan ölkələr arasında Maskut çarlığının da adı çəkilir.

Maskut adı necə və haradan yaranmışdır? Bu barədə çeşidli və ziddiyyətli fikirlər söylənilib. Təbii ki, Maskut adı meydana çıxana qədər onların varisi olduqları daha qədim tayfalar vardı. Bu tayfaların hansı tayfalar olduğunu aydınlaşdırmağa çalışaq. "Skuz" etnoniminin sami dil qaydalarına uyğun olaraq aşquz (askuz), yaxud işquz (iskuz) formasına düşməsi barədə bir vaxt İ.M.Dyakonov da yazmışdır. Assur mənbələrində isə işquz, iskuz əvəzinə iskut, iskutay yazıldığının şahidi oluruq. Çox güman ki, assurların vaxtilə iskut-askut formasında işlətdiyi etnonim zamanla farsdilli mənbələrdə maskuta dönüb. Hər halda maskut tayfaları yerin dibindən çıxmamışdılar, onlar Onoqur çarlığını quran oğuzların törəmələri idilər. Maskutlar öz çarlıqlarını Onoqur dövlətinin sərhədləri çərçivəsində təsadüfən qura bilməzdilər.

Alban adına yazılı ədəbiyyatda ilk dəfə e.ə. II əsrdə, Qavqamela (Cancal) döyüşündən (e.ə. 330) bəhs edilərkən III Daranın tərəfində vuruşan tayfaların arasında rast gəlirik. Lakin bu məlumatdan "alban" adının ümumiləşdirici, yoxsa konkret tayfa adı olduğu bilinmir. Konkret alban tayfalarının mövcudluğu barədə ilk dəfə Strabon xəbər vermişdir. O göstərmişdir ki, "Albanların bir hissəsi Midiyada yaşayır". Q.Qeybullayevə görə Strabon Midiya deyərkən Atropatenanı nəzərdə tutmuşdur, çünki Strabonun dövründə Midiya

bir dövlət kimi mövcud deyildi. Hər halda bu fakt təsdiq edir ki, bəzi tədiqatçıların iddialarının əksinə olaraq alban təkcə ümumiləşdirici ad deyildi, o həm də ölkənin başlıca əhalisini təşkil edən konkret tayfa adı idi.

Tədqiqatçıların böyük əksəriyyəti bu fikirdədir ki, özünü alban adlandıran tayfaların bu əraziyə nə vaxt və haradan gəldiyi bəlli deyil. Bizim fikrimizcə, albanları kənardan gələnlər arasında axtarmaq yanlış ideyadır. Ən azından ona görə ki, antik qaynaqlarda albanlar yerli xalq kimi təqdim olunurlar. Başqa bir tərəfdən, albanların həm şimalda, həm də cənubda "qəfildən" görünmələrinin iki səbəbi ola bilərdi: ya onlar bu ərazilərə həqiqətən kənardan gəlmişdilər, ya da adlarını dəyişərək yeni keyfiyyətdə üzə çıxan yerli xalqdılar. Hələ ki, albanların Azərbaycan ərazilərinə kənardan gəlmələri barədə qaynaqlarda heç bir məlumat tapılmadığından onların yerli xalq olması ehtimalı güclənir. "Bəs bu yerli xalq "alban" adını nə vaxt və haradan götürmüşdür?" sualı isə bu günəcən açıq qalmaqdadır.

Albanların etnik mənşəyi dəqiqləşdirilməyib. Təbii ki, etnik mənşə aydınlaşdırılmadan etnosun dili barədə hər hansı qəti söz söyləmək mümkün deyildir. Buna baxmayaraq, sovet və bir sıra qərb alimləri albanları Qafqazdilli xalq hesab edirlər. Görünür Strabonun vaxtilə dediyi sözlər buna səbəb olmuşdur. Strabon yazmışdır ki, "iberlər, albanlar və sarmatlar Qafqaz tayfalarıdır". Bu fikrə istinad edən əksər yazarlar albanları Qafqazdilli xalq kimi qələmə verməyə





başladı. Halbuki Strabon "iberlər, albanlar və sarmatlar Qafqaz tayfalarıdır" yazıb, "Qafqazdilli tayfalardır" yazmayıb. Bunlar isə mahiyyətcə ayrı-ayrı şeylərdir. Birinci halda söhbət bu tayfaların eyni coğrafi ərazidə yerləşmələrindən, ikinci halda isə eyni dil ailəsinə mənsubiyyətindən gedə bilər.

Pliniy Sekund Böyük altı Skif tayfasının adını çəkir: udinlər, albanlar, paxarlar, amazonkalar və savramatlar. Müəllif "Təbii tarix" əsərində xüsusi olaraq vurğulayır ki, bu tayfaların heç də hamısı İran dillərində danışmırdı. Bəzi tədqiqatçılar müəllifin bu fikrindən yapışaraq dərhal udinləri və albanları Qafqazdilli, yerdə qalanları isə irandilli kimi qələmə verdilər. Əlbəttə, bu cür "sürüşkən" dəlillərlə albanların linqivistikasının müəyyənləşdirilməsi qəbulolunmazdır və qətiyyən inandırıcı görünmür. Mən alban dilinin mənşəyi üzərində diskussiya açmaq fikrindən uzağam. Bu barədə kifayət qədər deyilib və kifayət qədər yazılıb. Bu gün məni daha çox albanların bir xalq kimi soy kökü, qohumluq əlaqələri maraqlandırır. Qısa və konkret desək, alban adını hansı tayfalar daşımışlar?

Bütün etnosların öz qidaverici mənbəyi olur. Albanların qidaverici mənbəyi kimdir?

Antik qaynaqlar Azərbaycanın cənub torpaqlarında ta qədimdən bəri yaşayan dörd tayfanın adını çəkir: qutilər, lullular, subarlar, turuklar. Erkən orta əsr qaynaqları Azərbaycanın şimal torpaqlarında, Kür-Araz çaylarının arasında yaşayan və Albaniya dövlətinin əsas özəyini təşkil edən beş tayfanı sadalayır: al-

banlar, qarqarlar, saklar, kaspilər, utilər. Əgər Azərbaycan türklərinin tarixini məcrasına sığmayan coşqun bir çaya bənzətsək, demək bu çayın mütləq bir başlanğıcı, su götürdüyü mənbə və bu çaydan ayrılmış qolları olmalıdır. Tarixçilərimiz ayrı-ayrı türk tayfalarının keçdikləri yolu araşdırarkən nədənsə həmişə bu "mənbəni" unudurlar. Türk etnoslarının formalaşma tarixini qələmə alarkən tədqiqatçılarımız, obrazlı desək, böyük və uzun yol keçən çayın yataqlarından, qollarından deyil, nə başlanğıcı, nə də sonu olmayan əlahiddə "su qovşaqları"ndan söhbət açmağa üstünlük verirlər. Lakin heç kəs özündən soruşmur ki, bəs bu "su qovşaqları" necə və haradan yarandılar? Azərbaycanı ulu Şumerə bağlayan möhtəşəm və qüdrətli quti, lullu, subar, turuk tayfaları hara getdilər, tarixin hansı dönəmində it-bata düşdülər və ümumiyyətlə, it-bata düşdülərmi? Doğurdanmı bu tayfalar sonrakı türk etnoslarının təşəkkül tapmasında heç bir rol oynamamışlar?

Heç ağlabatan deyil! Qətiyyən inandırıcı görünmür!

Onda problemi aydınlatmağa belə bir faktdan başlayaq. Tədqiqatçıların böyük əksəriyyəti güman edir ki, albanlar saklardan, udinlər isə skiflərdən törəmişlər. Amma "skif" və "sak" eyni tayfalara verilən iki müxtəlif ad olduğundan qətiyyətlə demək olar ki, albanlar və udinlər eyni vahid kökdən gəlirlər.

Məsələnin başqa bir tərəfi də vardır. Ümumiyyətlə, tarixdə "skif" deyilən tayfa yaşamayıb. Bir yan-





lışlıq üzündən skif kimi oxunan bu etnosun əsil adı yunan mənbələrində "skuz" dur.

Skuzlar isə qərb qaynaqlarında daha çox quz, şərq qaynaqlarında isə uz kimi tanınırlar. Fikir verdinizsə, söhbət yenə hərlənib-fırlanıb quz (uz) tayfalarının, Onoqur çarlığını yaradan oğuz tayfalarının üzərinə gəlib çıxdı.

İndi də problemə Herodotun gözü ilə baxmağa çalışaq. Skif tayfalarından danışan Herodot onları dörd qrupa bölür:əkinçilər, maldarlar, köçərilər və hökmdar tayfaları. İndi biz dəqiq şəkildə bilirik ki, bütün skif (sak, quz) tayfaları deyil, yalnız "çar skifləri" türk dilində danışırdılar. "Çar skifləri", yaxud "ağ saklar" və ya "oğuzlar" isə eyni hökmdar tayfalarına müxtəlif yazılı mənbələrdə verilən fərqli adlardır.

Beləliklə, əgər alban tayfaları həqiqətən türkdillidirsə (mən buna qətiyyən şübhə etmirəm) o zaman bu tayfalar öz mənşələrini yalnız hökmdar türk tayfalarından götürə bilərdilər. Kökü ağ saklardan başlanan hökmdar tayfalar quti, lullu, subar və turuk qolları vasitəsilə Şumerdən Mannaya, Albaniyaya və Atropatenaya qədər gəlib çıxmışlar. Fikrimizcə, albanların mənşəyini məhz bu dörd tayfa arasında axtarmaq çox doğru və faydalı olardı.

Bəs bu tayfalardan hansı albanların ulu əcdadıdır? Əldə kifayət qədər material olmadığından hər hansı ciddi nəticə çıxarmaq mümkün deyildir. Müqayisələr aparmaq üçün toplanmış azsaylı faktlar isə dayanıqsız olduğuna görə etibarlı sayıla bilməz. Mə-

sələn, albanların və lulluların panteonundakı bəzi oxşar cəhətlər diqqət çəkir. Lulluların sitayiş etdikləri "allahlar" arasında Ay "allahı" çox önəmli yer tuturdu. Oğuzlar da öz köklərini Ay "allah"ına bağlayır, sonrakı bütün oğuz tayfalarının Dib Yavku xanın böyük oğlu Qaraxanla Ay qağanın izdivacından doğub törədiklərinə inanırdılar. Albanlar da Ay "allah"ına sitayiş edirdilər. Strabon yazır ki, albanların Ay "allahı"na inancları o qədər böyük idi ki, onlar hətta İberiya ilə sərhəddə yerləşən dağda onun şərəfinə möhtəşəm Ay məbədi ucaltmışdılar. Q.Qeybullayev belə hesab edir ki, Qazax rayonunun Gürcüstanla sərhəddində yerləşən Avey dağı "Ay ev"in yanlış tələffüz formasıdır və çox güman ki, albanlar Ay məbədini məhz bu dağda tikmişdilər.

Maraqlıdır ki, lulluların şimşək allahı Kiur albanlarda azacıq dəyişik şəkildə Kuar adlanırdı. Kur "çar skifləri"nin panteonunda da çox önəmli yer tuturdu. Skiflər onu xeyir və şər allahı adlandırırdılar.

Şübhə yoxdur ki, bu ötəri faktlar albanlarla lulluları eyniləşdirməyə bəs etməz. Ancaq başqa bir önəmli "dəlil" də vardır... Bu barədə bir qədər sonra.

xxx

İndi də Azərbaycanın cənub torpaqlarında qurulan dövlətlərin tarixindən bəzi səhifələri vərəqləməyə çalışaq.

Qutilər barədə kitabın "Sürgün olunmuş xalq" fəslində ətraflı məlumat verməyə çalışmışıq. Bu fəsildə bizi daha çox qutilərin mənşəyi, onların irsi mənsubiyyətləri, Azərbaycan türk dialektinin formalaşmasında yeri və rolu maraqlandırır.





Qutilər e.ə. III minilliyin başlanğıcında, Urmiya gölünün qərb sahillərində yerləşirdilər. Şumer əfsanələrinə görə onlar daha qədim zamanlarda Nippur şəhərində yaşayırlarmış və üsyan etdiklərinə görə Nippurdan Urmiya gölünün qərb sahillərinə köçürülmüşlər. Y.Yusifov belə hesab edir ki, ilk quti çarı Enridavazir (e.ə. 2225-2205) olub. Elulmeş (e.ə. 2177-2171) isə qüdrətli dövlət quraraq Akkadı devirmiş, sonra Şumeri işğal etmişdi. Qutilər İkiçayarasında ağalığı itirdikdən sonra (təxminən e.ə. 2104) xırda dövlətlərə parçalandı və Y.Yusifovun sözlərinə görə, bir daha dirçələ bilmədi.

Əvvəla, Y.Yusifovun qutilərə və quti çarlarına aid etdiyi tarixlər bir qədər mübahisəlidir. Biz bu barədə "Sürgün olunmuş xalq" və "Daşqın" fəsillərində ətraflı söhbət açmışıq. İkincisi, bu görkəmli alimin söylədiyi fikirlər daha geniş araşdırmalar tələb edir. Çünki biz e.ə. II minillik boyu Assur qaynaqlarında qutilərin döyüşlərinə dair çoxlu məlumatlara rast gəlirik. Assur çarı I Adadnirari (e.ə. 1302-1275) Urmu gölü hövzəsinə soxularaq "Qutilərin, lulluların və turukların ölkəsi"ni viran qoymuş, qələbə şərəfinə ucaltdığı abidədə özünü təntənə ilə "qutilərin, lulluların və şubarların (yəqin ki, subarların – R.C.) hökmdarı" elan etmişdi. Abidədəki məlumatdan çıxan məntiqə görə qədim dövrlərin ən qüdrətli dövlətlərini quran bu

xalqlar e.ə. XIV yüzillikdə və bəlkə də bundan daha əvvəl artıq vahid dövlətdə, vahid ittifaqda birləşmişdilər. Onlar əvvəlki kimi güclü olmasalar da hər halda tarix səhnəsindən silinib getməmişdilər. Görünür eyni dilin daşıyıcısı olmaları bu xalqları düşmənlərə qarşı birləşməyə məcbur etmişdir. Qaynaqdan yeni ölkənin adı bizə bəlli olmur. Ancaq gələcək Manna dövlətinin ilkin bünövrəsinin məhz e.ə. XIV yüzillikdə və bəlkə də bundan daha əvvəl qoyulduğunu söyləməyə hər cür əsasımız vardır.

Quti dövlətinin iflasından təxminən 750-800 il sonra Assur çarı I Salmanasar (e.ə. 1274-1245) yazırdı: "Göydə ulduz qədər saysız-hesabsız olan, vurub-çapmağa öyrənəcək qutilər mənə qarşı üsyan qaldırdılar, mənə düşmən oldular, mənə rəqabətə qalxdılar. Mən onların qanını su kimi axıtdım, döyüşçülərinin cəsədi ilə çölləri doldurdum".

Görünür Assuriyadan asılı olan "Qutilər, lullular və turuklar ölkəsi" müstəqillik qazanmaq uğrunda daim mübarizə aparırmış və hələ e.ə. XIII əsrdə quti qoşunlarının sayı "göydəki ulduzlar qədər saysız-hesabsız" imiş.

Sonrakı altı əsr ərzində quti adına demək olar ki, rast gəlmirik. Yalnız e.ə. VII əsrdə Assur qaynaqları yenə bizə qutiləri xatırladır. Assur çarı Asarxaddon (e.ə. 681-668) öz abidəsində qeyzlə belə yazır: "Mən Manna ölkəsinin adamlarını, dinc oturmayan qutiləri darmadağın etdim".

Kim bilir, bəlkə də Assur mənbələrinin xəbər verdiyi "Qutilərin, lulluların və turukların ölkəsi" elə





o vaxtlar, e.ə. II minilliyin ortalarında yerli sakinlər tərəfindən Manna adlanırmış? Şübhəsiz, Manna adı qəfildən, birdən-birə meydana gəlməmişdir. Sadəcə, Assur mənbələri Manna barədə ilk yazılı məlumatı e.ə. IX əsrdə verdiyi üçün tədqiqatçılar Manna tarixini e.ə. birinci minilliyin başlanğıcından götürürlər. Çox ola bilsin ki, hələ e.ə. XIV yüzillikdən bəlli olan quti-lullu-turuk ittifaqı yarandığı ilk gündən Manna dövlətinin bünövrəsi qoyulubmuş. Sadəcə, bu dövlət hələ kifayət qədər güclü olmadığından ətrafdakı dağınıq çarlıqları bir vahid mərkəzdə birləşdirmək e.ə. birinci minilliyin əvvəllərində başa çatıbmış.

Təzədən qutilər barədə söhbətimizə qayıdaq. E.ə. VII əsrə qədər quti adını, demək olar ki, heç bir qaynaqda görmürük. E.ə. VII əsr mənbələri isə həm Manna, həm də Sakasena dövlətlərində əhalinin özəyini qutilərin təşkil etdiyini xəbər verirlər. Özünü sakların və qutilərin hökmdarı elan edən Tuqdammenin yaratdığı vahid Azərbaycan dövlətindən sonra təzədən quti adı yazılı abidələrdən yoxa çıxır. Əvəzində Azərbaycanın cənub bölgələrində iti (itu), şimal bölgəsində isə uti tayfaları peyda olur. Sanki qutilər birdən-birə buxarlanıb göyə çəkilir, yerinə isə utilər (itilər) "zənbillə" göydən düşürlər. Bəs qoşunlarının sayı "göydə ulduz qədər saysız-hesabsız olan" qutilər hara getdilər? Qaynaqlarda adları çəkilmir deyə onların tarix səhnəsindən birdəfəlik silindiklərinimi düşünməliyik? Taleyi etibarsız qaynaqların insafına buraxılan, üç min illik əzablı yol gələn qüdrətli bir xalqın cəmi bir neçə

yüz il ərzində heç bir güclü səbəb olmadan büsbütün dağılması, əriyib yoxa çıxması nə ağıla sığır, nə də məntiqə. Heç kəs zəhmət çəkib özünə sual vermir: Makedoniyalı İskəndərə qarşı farslarla birgə vuruşan iti (itu), əhəmənilərə vergi ödəyən uti tayfaları birdənbirə haradan çıxdılar? İran hökmdarlarının Azərbaycanın şimal torpaqlarına – Albaniyaya köçürdükləri utilər kimlərdir? Nə üçün daha əvvəlki qaynaqlarda onların adlarına rast gəlmirik?

xxx

Utilər barədə qalaq-qalaq məqalələr yazılıb, ancaq buna baxmayaraq tariximizin uti problemi bu günəcən öz həllini tapmayıb. Həqiqətən tariximizdə çoxdan pas atıb yararsız hala düşən bir uti kilidi vardır.

Bir yanlışlıq ardınca onlarla digər yanlış fikirlər doğurur. Skiflər barədə ilk yazılı məlumat Aristejə istinad edən Herodot tərəfindən verilib. Lakin bu yaxınlarda məlum olub ki, Herodot öz "Tarix"ində skif sözü işlətməyib, yunanca bu etnonim skuz formasında tələffüz olunur. Amma assurlar Herodotun danışdığı tarixi əhvalatda, çox doğru olaraq skif deyil, aşquzay tayfalarının adını çəksələr də heç kəs buna ciddi əhəmiyyət verməmiş və beləliklə, eyni kökdən olan quz, aşquz, skut və iskuday tayfalarının kələfi elə dolaşdırılmışdır ki, bu gün də onu açmaq mümkün deyildir.

Utilərin "kələfi"ni isə sovet tarixçiləri dolaşdırıblar. Sovet tarixçilərinin yanlış konsepsiyasına görə müasir Dağıstan dillərinə aid edilən udin dili "ölmüş"





alban dilinin dialektidir. Qədim uti tayfaları olan udinlər isə Azərbaycanın şimal-şərqində, indiki Qəbələ rayonunun Nic kəndində və Oğuzda yaşayan azsaylı udinlərin ulu babalarıdır. Lakin heç kəs zəhmət çəkib bu "dahiyanə kəşf"in müəlliflərindən soruşmayıb ki, əgər aparıcı dil, dilin kökü ölübsə, bu kökün budağı necə salamat qalmışdır?

Faktların daha diqqətli araşdırılması udinlərin Qafqaz dilliliyi barədə ideyanın kökündən yanlış olduğunu ortaya çıxarır.

Söhbətə ondan başlayaq ki, quti adına yalnız qədim assur mənbələrində rast gəlirik. Assurların siyasi iflasından sonra quti tayfa adı da qaynaqlardan birdəfəlik silinir. Əvəzində irandilli mənbələrdə yeni tayfa adları peyda olur. Arxiv sənədlərində gah iti, gah da uti şəklində yazılan bu tayfa adlarının qutilərlə hər hansı bağlantısı ola bilərmi? Z.İ.Yampolski bu suala müsbət cavab verir. O qəti şəkildə bildirir ki, uti quti adının yanlış tələffüz formasıdır. Nə qədər qəribə də görünsə, sovet tarixçiləri də utiləri qutilərin birbaşa varisləri sayırlar, ancaq onlar birmənalı şəkildə deyirlər ki, qutilər Qafqazdilli xalqdır. İ.Əliyev də bu fikri dəstəkləyir və yazır ki, utilər şimali Azərbaycan torpaqlarına cənubdan gəliblər, onlar əvvəllər qutilərin yaşadıqları torpada yerləşirdilər.

Belə görünür ki, uti- udi- udin – odin adı Atropatena ərazisində atəşpərəstliklə bağlı meydana gəlmişdir. İndi bu prosesin necə baş verdiyini söyləmək çətindir. Ancaq dəqiq o məlumdur ki, artıq e.ə. VI əsrdən başlayaraq irandilli mənbələrdə uti və udin adı yanaşı

işlədilir. Eramızın II əsrində yazıb-yaradan Ptolomey özünün "Coğrafi təlimnamə" əsərinin 5-ci cildində Oteni ölkəsindən bəhs edir və bu ölkəni Azərbaycanın cənub torpaqlarında yerləşdirir. Etnonimə yunan dil qaydalarına uyğun şəkildə artırılmış i sonluğunu tullasaq o zaman tayfa və ölkə adının oten, yaxud utin (udin) olduğu ortaya çıxacaq.

Mütəxəssislər bir neçə "Uti ölkəsi"nin olduğunu iddia edirlər. Onlaran birincisi Ptolomeyin adını çəkdiyi və Atropatena ərazisində yerləşdirdiyi Otenidir. Utilərdən bəhs edən Herodot da onların cənubda, saqartilərlə qonşuluqda yaşadıqlarını iddia edir. Aqafangelə görə ikinci "Uti ölkəsi" Ermənistanın Sevan rayonunda yerləşirdi. Qədim erməni mənbələri isə üçüncü Uti vilayətinin Albaniya ərazisində, Partav (indiki Bərdə) ətrafında mövcud olduğunu xəbər verir.

Utilərin Albaniya ərazisinə gəlişi barədə iki versiya mövcuddur. Birinci versiyanın müəllifi olan L.M.Meliksetbekov iddia edir ki, utilər Albaniya ərazisinə Ermənistandan köçmüşlər. Utiləri urartu qaynaqlarındakı etuenlərlə eyniləşdirən müəllif onların əvvəlcə Kürün sağ sahilində yerləşdiklərini yazır. Ptolomey Alazan və İberiya arasında yerləşən bu torpaqları Niqa adlandırır. Tədqiqatçı daha sonra belə davam edir: Kürün sağ sahilindən sol sahilinə köçən utilər Niq toponimini də özləri ilə apardılar və beləliklə indiki Nic yaşayış məntəqəsi yarandı.

İkinci versiyaya görə, utilər Albaniyaya Atropatenadan köçüblər. Cənubda utilərlə qonşuluqda yaşayan saqartilərin paytaxt şəhəri Parta (Bərdə) idi. Belə





görünür ki, utilər cənubdan şimala köçərkən Parta-Bərdə adını da özləri ilə gətirmişlər.

"Alban tarixi"ndə də özünə yer almış belə bir əhvalat danışılır ki, Albaniyanın ilk xristian vaizi Yelisey Yerusəlimdən əvvəlcə Maskutlar ölkəsinə gəlir və Çol şəhərində moizələr oxuyur. "Alban tarixi"ndə yazılır: sonra Yelisey Maskutlar ölkəsindən Utilər ölkəsinin Srxari şəhərinə keçir. Oradan isə Qisə gələrək burada kilsə tikdirir. Qis Şəki rayonundakı Kiş yaşayış məntəqəsinin adıdır və Yeliseyin tikdirdiyi həmin kilsə bu gün də qalmaqdadır. Srxari isə Qəbələ rayonundakı Srxov qalasıdır. Buradan dəqiq şəkildə aydın olur ki, Albaniyanın şimal-qərbindəki Uti vilayəti indiki Şəki-Zaqatala zonasında yerləşirmiş və Ermənistandan gələn utilər məhz bu əraziyə köçüblərmiş.

Faktlardan da göründüyü kimi, utilərin Albaniyaya gəlişi iki istiqamətdə baş tutub. Onlar Ermənistanın Sevan rayonundan Şəki-Zaqatala, Cənubi Azərbaycandan isə Bərdə zonasına köçmüşlər. Buradan çıxan ən doğru nəticə ondan ibarətdir ki, Atropatenadan köçən utilər heç vaxt Qafqazdilli ola bilməzdilər. Bunu erməni yazarı S.T.Yeremyan da təsdiqləyir. O yazır ki, İori və Alazani vadisində uti əhalisi yaşayırdı və onlar gürcü tayfaları olan kartlar və kaxlar tərəfindən assimilyasiya olundular.

Beləliklə, aydın görünür ki, Albaniyadakı bütün uti tayfalarının Qafqazdilli olması barədə ideya çat vermişdir, çünki o, reallığı əks etdirmir. Uti tayfalarının türkdilli olması barədə çoxlu faktlar mövcuddur. Hələ Rəşid əd-Din utuid və udu türkdilli tayfaları ba-

rədə xəbər vermişdir. İrandakı şahsevən türk icmasının tərkibində udulu tayfaları vardı. Azərbaycan Rusiyaya qatılandan sonra onlar şimala köçdülər, Şamaxı və Şabran rayonlarında Udulu kəndlərinin bünövrəsini qoydular.

Erməni yazarı M.Barxudaryan göstərir ki, Dağlıq Qarabağın Seysulan kəndində etnik mənşəyi udin olan tayfalar yaşayır, amma onların dili türk dilidir. Krasnoyarskda da türkdilli udin etnik qrupu mövcuddur, onlar öz tayfa adlarını Nijne-Udinsk şəhər adında yaşadırlar.

Bu arada, Ptolomeyin Atropatenada yerləşdirdiyi Oteni ölkə adı da diqqət çəkir. Bildiyimiz kimi, Atəşpərəstlik dini məhz Atropatena ərazisindən cücərmişdi. Bu anlamda quti (uti) ölkəsinin əcnəbi yazar tərəfindən Oteni adlandırılması çox təbii görünür. Faktlar açıq-aydın göstərir ki, udin etnoniminin daşıyıcıları öz köklərini "allah" Uta bağlayan, bu sözü Odin şəklində uzaq Skandinaviya ölkələrinə daşıyan məhz türk tayfalarıdır, bir başqası yox.

Qutilərin türkdilli olmasını Manna ərazisindəki çoxsaylı toponimlər də təsdiqləyir. Bu barədə bir qədər sonra.

Lullubi dövləti Urmiya gölünün cənubunda, Süleymaniyyə keçidindən yuxarıda, Qızıl Üzən çayının aşağı axarında yerləşirdi. Aratta daha qədim dövrlərdə məhz bu ərazilərdə təşəkkül tapmışdı və Lullubi Arattanın varisi idi.





Lullubi ölkəsi, əhalinin mənşəyi, dili, varisliyi ilə bağlı elmi ədəbiyyata demək olar ki, heç nə bəlli deyil. Lulluları müxtəlif dil qruplarına aid etsələr də bu ehtimalların heç biri öz təsdiqini tapmayıb. Azərbaycan alimi Y.Yusifov lulluları prototürklər hesab edir, digər çağdaş türkoloqlarımız da bu fikrə şərik çıxırlar. Lakin obyektivlik naminə qeyd edək ki, lulluların türkdilli olması barədə də tutarlı dəlil-sübut yoxdur. Təkcə o məlumdur ki, türkdilli hun tayfalarından biri lulu adlanırmış. Y.Yusifov yazır: "belə təsəvvür yaranır ki, Lullubi Azərbaycanın erkən türk əhalisinə kənardan verilən ad olmuşdur".

Bəs lullular özlərini necə adlandırmışlar? Təəssüf ki, qaynaqlar bu barədə susur. Kim bilir, bəlkə də bu susqunluğun pozulduğundan bizim xəbərimiz yoxdur?

Lullubi ölkəsinin ilk çarı Satunu e.ə. 2230-2200-cü illər arasında hakimiyyətdə olub. E.ə. XII əsrin sonlarına doğru, yəni təşəkkül tapdığından təxminən 1000 il sonra Lullubi ölkəsi tarix səhnəsində yox idi, amma məhv də olub getməmişdi. Assur çarı I Tiqlatpalasar (e.ə. 1115-1077) öz yazılı abidəsində Zamua adlanan Lullume ölkəsindən bəhs edir. Ölkənin adı dəyişsə də lullular bir xalq kimi yaşayır və mübarizə aparırdılar.

Cənubda qurulmuş bütün dövlətlərin yolu son dayanacağa, Mannaya doğru gedirdi. Turukki dövləti Şumerin süqutundan sonra meydana çıxmış, daha geniş ərazilərə sahiblənmək uğrunda ölüm-dirim savaşına qalxmışdı. Artıq e.ə. II minilliyin lap əvvəlində

turuk və su tayfaları mühüm hərbi-siyasi qüvvəyə çevrilmişdilər. Babilistan hökmdarı Hammurapinin (e.ə. 1762-1760) dövründə Turukki, Su, Quti, Subar və Lullubi dövlətləri eyni vaxtda güclü dövlət kimi mövcud idilər. Turuklar öz müstəqilliklərini e.ə. II minilliyin sonuna qədər qoruyub saxlaya bilsələr də, e.ə. I minilliyin başlanğıcında artıq dağınıq halda idilər. Turukların Manna ərazisindəki hansı çarlıqda təmsil olunduqlarını müəyyənləşdirmək bu günəcən mümkün olmayıb. Bizim fikrimizcə, Midiya ərazisində məskunlaşan struxat tayfaları qədim turukların varisləri idilər.

Görkəmli tədqiqatçı Z.İ.Yampolski turuk dilinin Azərbaycan türk dialektinin kökündə durduğunu iddia edir.

xxx

Eramızdan əvvəlki birinci minilliyin lap başlanğıcında tarix səmasında Manna günəşi doğdu. Eramızdan əvvəlki birinci minilliyi qürurla türklərin erası adlandırmaq olar. 1500 illik fasilədən sonra cənub torpaqlarında Manna və Atropatena, şimal torpaqlarında isə Sakasena və Albaniya kimi yeni türk dövlətləri təşəkkül tapdı.

Əslində Mannanı və Albaniyanı təcavüzkar qonşu dövlətlərlə mübarizə zərurəti meydana gətirmişdi.

Əvvəlki qüdrətini itirmiş və xırda çarlıqlara bölünmüş super dövlətlər yenidən bir ittifaqda birləşmək istəyirdilər. Qorxu, ehtiyac və zərurət qüdrətdən düşmüş onlarla çarlığı bir araya gətirdi, beləliklə, yeni





Manna dövləti tarix səhnəsinə çıxdı. Lakin o qədər də sabit olmayan, bir az sürüşkən və bir az da xəyanətə meylli bu çarlıqların xoşluqla, sadəcə sözləşmə əsasında bir vahid mərkəzdə birləşdiklərinə mən inanmıram. Onları "yarı xoş, yarı zor" birləşməyə razı salan, öz arxasınca aparmağı bacaran daha üstün, daha qüdrətli bir güc mənbəyi olmalıydı. Fikrimcə, bu "güc mənbəyi" – cəsur qutilər idi. Manna dövləti Urmiyaboyu sahillərdə, Zaqroş dağları zonasında yaranmışdı.

Manna ərazisində yaşayan yerli tayfaların etnik tərkibi barədə elmi ədəbiyyata heç nə bəlli deyil. Y.Yusifov yazır ki, kimmerlər, saklar və skiflər bu ərazilərə sonradan gəlmişdilər. Müxtəlif yazılı abidələrdə Mannada yaşayan bəzi tayfaların adlarına rast gəlirik: taurlay, mesiy, sunbiy, kumurdiy, dalay və s. Bu etnonimlərin ilkin yazılış formasını heç kəs bilmir, adlar bizə təcavüzkar qonşu dövlətlərin öz qələbələri şərəfinə ucaltdıqları abidələrdən gəlib çatıb. Yeganə ümid məntiqi düşüncəyə və ehtimallara qalır. Məsələn, alimlər belə güman edirlər ki, sunbiy tayfa adı tarixən Azərbaycan torpaqlarında yaşayan suvbi adına uyğun gəlir. Mümkündür ki, taurlay türk tavar tayfalarıdır. Bu ad skiflərdə (skitlərdə) tavr, xəzərlərdə tavris şəklində keçir. Kumurdiy tayfa adının kökündə duran kumur türk tayfaları qımırlar (kimmerlər) ola bilər. Bunlar doğrudurmu, doğru deyildirmi, demək çətindir. Ancaq problemə faktların-türkdilli toponimlərin, antroponimlərin, hidronimlərin, digər oykonimlə-

rin "işığında" baxanda bu tayfa adlarının da türklərə məxsusluğu adamda şübhə doğurmur.

Manna xalqının dili tədqiqatçılar üçün bu günəcən müəmma olaraq qalır. Bəzi tədqiqatçılar belə hesab edirlər ki, Mannada kaspi, elam, yaxud hurri dilində danışırdılar. Lakin bu iddia quru ehtimaldan başqa bir şey deyildir. Çünki mannalıların kaspi, elam, yaxud hurri dilində danışdıqlarını təsdiq edəcək heç bir dəlil-sübut tapılmamışdır.

Azərbaycan alimi Q.Qeybullayevə görə Manna tarix səhnəsində çox qısa müddətdə, təxminən 130 il qaldığına görə bütün ölkəni əhatə edən vahid danışıq dili formalaşmamışdı. Məncə, alim "Mannada dəftərxana dilinin və aparıcı danışıq dilinin hansı tayfaya məxsus olduğu bu günəcən dəqiqləşdirilməyib" desəydi, bəlkə də daha doğru olardı. Çünki Manna dövləti quru yerdən yaranmamışdı, bu ərazidə yaşayan daha güclü, daha qüdrətli tayfa birləşməsi çoxsaylı çarları özünə tabe edərək vahid dövlət qurmuşdu. Əgər aparıcı etnos varsa, deməli ölkədə aparıcı dil də vardır.

Manna lulluların və qutilərin əvvəlki torpaqlarında bərqərar olmuşdu. "Lullu" adı kimi, "quti" adı da bu etnosa kənardan, bizim ehtimalımıza görə, Şumer mədəniyyətini yaradanlar tərəfindən verilmişdi. Şumer dilindən tərcümədə "quti" "allahın ruhunu daşıyanlar" kimi başa düşülür. Əfsanəyə görə, günəş "allahı" Ut ağ sakların, bir etnos kimi qutilərin kökündə dayanan hökmdar tayfalarının soy babasıdır. Manna, əsasən,





qutilərin torpağı idi. Alimlər iddia edirlər ki, "manna" adının mənşəyi bu günəcən elmə bəlli deyil. Amma tədqiqatçılar nədənsə unudurlar ki, altay türklərinin dilində "manaş", qırğız türklərinin dilində "manas" kənardan verilən "quti" adı kimi "allahın ruhu" deməkdir. Assur qaynaqlarında ölkənin adı həm "manna", həm də "manaş" şəklində yazılmışdır.

Mən bunu bir təsadüflə bağlamaq istəyən heç bir fikirlə şərik deyiləm. Çünki kənardan verilmiş adları özününküləşdirmək türklərin tarixində dəfələrlə təkrar olunub. Bir vaxt Şumerdə Kİ.EN.QİR sözü geniş şəkildə işlədilirdi, hərfi mənası "müqəddəs torpaq, dağ", məcazi mənası isə Ölkə idi.

Türkdilli subar tayfaları bu adı "özününküləşdirərək" "er.sub" eləmişdilər. "Er. sub" eynən şumercədə olduğu kimi ki. en. qir. - in mənasına gəlirdi: yəni, hərfi anlamda "yer-su", məcazi anlamda Ölkə.

İndi də "mənşəyi bilinməyən" Lullubi sözünün etimologiyasına gələk. Şumercədən tərcümədə "Lullubi" – "cəsurların ölkəsi" deməkdir. Məsələ burasındadır ki, "alban" sözünün etimologiyası da "Lullubi" kimi eynən "cəsurların ölkəsi" anlamını verir. Ola bilər ki, kənardan Lullubi adı verilmiş ölkənin əhalisi içəridə özlərini doğma ana dillərində "alban" adlandırsınlar. Heç şübhəsiz ki, bu bir ehtimaldır və bu ehtimalın daha dərindən araşdırmaya, dəqiqləşdirməyə ehtiyacı var. Ancaq düzünü desəm, bu ehtimal mənə çox cəzbedici və perspektivli görünür. Biz belə hesab edirik ki, Şumer təcrübəsini nəsillərin yaddaşına köçürən

türk xalqı zaman-zaman bu təcrübədən gen-bol istifadə etmişdir.

Elə bu yerdə türklərin digər adyaratma prinsiplərini də xatırlamaq yerinə düşərdi. Qədim türk tayfalarının adyaratma prinsiplərini diqqətlə öyrəndikcə bu qaba, sərt və bir qədər də sadəlövh insanların heç də göründükləri, yaxud qələmə verildikləri kimi olmadıqları meydana çıxır. Türklər öz tarixlərini həmişə göz qabağında tutmuş, onu bircə kəlmə sözdə, özlərinə verdikləri tək bircə adda yaşatmışlar. Tədqiqatçılar xunların tarix səhnəsinə çıxmalarını israrla eramızın birinci minilliyinə bağlamaq istəyirlər. Halbuki özlərinə xun deyən bu türk tayfaları seçdikləri tayfa adı ilə həm də öz tarixlərini kodlaşdırmışlar. Xun Nux sözünün çevrilmiş formasıdır. Xunlar bu adla öz köklərinin Nuhun şəcərəsinə, bəşər sivilizasiyasının yaradıcısı hesab edilən "üç sütuna" bağlı olduğunu göstərməyə çalışmışlar.

Bu ad həmçinin sovet tarixçilərinin başqa bir yalanını da ifşa edir. Sovet türkoloqları xunların mənşəyini israrla Mərkəzi Asiyaya bağlayır və Avropa hunlarının çinlilərin hücumlarından qaçan xunlarla cadugar qadınların hibridindən yaranması barədə "əyləncəli" bir nağıl uydururdular. O zaman belə sadə bir suala cavab vermək lazım gəlir: Mərkəzi Asiyada yaşayan türk tayfası minlərlə kilometr uzaqda yaranan Nuh haqqında Tövrat hekayəsini nə vaxt və ən başlıcası necə öyrənə bilərdi?

Həyat həqiqətlərinə dərindən bələd olan babalarımız dünyanın riyakarlığından və ikiüzlülüyündən yaxa





qurtarmaq üçün öz tarixlərini çox bəsit şəkildə, amma inanılmaz dərəcədə ustalıqla reallaşdırmışlar. Ən çətin tapılan şey həmişə göz qabağında olan şeydir. Bu sadə həqiqəti biz hələ bu günəcən anlamamışıq. Əcdadlarımız bəşər sivilizasiyanın ilkin dövrlərinə bağlı olan tarixi adları tərsinə oxumaqla özlərinin tayfa adına çevirmiş və bununla sivilizasiyanın ilkin çağlarına aid olduqlarını yığcam şəkildə gələcək nəsillərə xəbər vermişlər.

Bu gün elmi ədəbiyyatda "güzgü üsulu", (palindrom, yaxud metateza) adlanan formadan başqa xalqlar, xüsusilə Şumer kahinləri geniş istifadə ediblər. "Güzgü üsuluna" hətta Gəmiqayadakı petroqliflərdə və Qobustan qayaüstü yazılarında da rast gəlmək mümkündür. Bu petroqliflərin yaşı 4 min illə 6 min il arasında dəyişir.

Saklar dünya mədəniyyətinin kökündə duran super etnosdur. Türklər bu etnosa bağlılıqlarını görün necə ustalıqla əbədiləşdirmişlər.

**Qazax.** Azərbaycanın bu qədim şəhərinin yaşını heç kəs dəqiq bilmir, hər halda alimlərimizin çağdaş təfsiri şəhərin həqiqi yaşından xeyli kiçikdir. Qazax sözü tərsinə oxunan "ağ sak"dan yaranıb, bu isə inamla deməyə əsas verir ki, şəhər Azərbaycanda sak dövlətini quranların – ağ sakların dövründən, e.ə. VII əsrdən yadigar qalmadır. Mərkəzi Asiyada yaşayan türkdilli kazax tayfalarının adının da eyni etnos tərəfindən, həm də eyni "güzgü üsulu" ilə yaradıldığı heç bir şübhə doğurmur.

**Kaspi.** Sözün kökündəki "kas" "sak" sözünün tərsidir, pi (bi) cəm şəkilçisi artırmaqla yaranıb. Bəzi tədqiqatçılar pi(bi) cəm şəkilçisinin guya Qafqazdilli xalqlara, yaxud elamlara məxsus olduğunu yazsalar da, zənnimcə, bu, yanlış fikirdir. Pi(bi) cəm şəkilçisi daha qədimdən, Şumer dönəmindən mövcuddur və qonşu xalqlara da şumerlərdən keçib. Ən azından Lullubi və traspi adlarının Qafqazdilli xalqların tarixindən daha yaşlı olduğu bizə bəllidir.

Azərbaycanın bir sıra tanınmış alimləri, o cümlədən F.Cəlilov və Q.Qeybullayev belə hesab edirlər ki, xəzər (xazar) etnonimi də kaspi ilə eyni mənşəlidir. Xaz+ar komponentində çevrilmiş sak və ər şəkilçisi diqqət çəkir, mənaca sak kişiləri, yaxud sak igidləri anlamına gəlir.

**Xakas.** Tuva Muxtar Respublikasında yaşayan bu türkdilli tayfanın adını da tərsinə oxuduqda "sak ax", yəni "ağ sak" alınır. Xalqın tarixi, mənşəyi bu yığcam adda çox gözəl şəkildə ifadə edilmişdir.

**Qam.** Eyni üslubda yaranan bu tayfa adı fövqəltəbii gücə malik insanların qədim "maq"lar olduğunu və Şumer kahinlik məktəbinin davamçıları kimi tarix səhnəsinə çıxdıqlarını bariz şəkildə ortaya qoyur. Yeri gəlmişkən, Şamaxı (qədim adı Kemaki, bəzi mənbələrdə Jemaki) şəhərinin bünövrəsini qoyan qədim Kamak tayfaları da öz adlarını "ağ maq" sözündən götürüblər.

Biz Araz çayının adının da Azar etnonimindən, hecaların yerini dəyişməklə (Ar+az – Az+ar) yarandığını güman edirik. Necə ki, bir vaxtlar "er-sub" "suber" olmuşdu. Beləliklə, fikrimizi yekunlaşdıraraq türklərin sadə adyaratma prinsiplərinin fonunda lulluların və qutilərin kənardan verilmiş adları yerli dilə çevirərək özününküləşdirilməsi çox təbii və inandırıcı görünür. Amma bunun məhz belə olub-olmadığı problemin başqa üzüdür.





Manna e.ə. III-II minilliklərdən sonra türk tayfalarının qurduğu ən qüdrətli dövlət idi. Bu dövlətdə müxtəlif dilli xalqlar birləşsə də, ölkənin "güc mərkəzi", həyatverici mənbəyi hakim xalqdı. Bu xalqın dilində heç bir yazılı mətn tapılmayıb. Əldə edilmiş mixi işarəli nadir Manna yazılarının isə şifrəsini açmaq mümkün olmamışdır. Əvəzində hakim xalqın dilində olan çar adları, toponimlər, hidronimlər, ölkə həyatına öz damğasını vurmuş digər adlar bu xalqın kimliyi barədə mülahizələr irəli sürməyə imkan verir.

Görkəmli Azərbaycan alimi F.Cəlilov e.ə. III minillikdə yaşamış quti çar adlarını türk ləhcəsi ilə qarşılaşdırarkən çox maraqlı uyğunluqlar və paralellər aşkara çıxarmışdır. Manna çarlarının adlarını türk dialektləri ilə şərh edən Y.Yusifov da, elə başqa alimlərimiz də eyni paralellərlə üzləşirlər.

Gəlin Manna hökmdarlarının adlarını diqqətlə nəzərdən keçirək.

1. İranzu (e.ə. 740-719)
2. Aza (oğlu) (e.ə. 718-716)
3. Ullusunu (qardaşı) (e.ə. 716-680)

4. E.ə. 680-675-ci illərdə kimin çar olduğu bəlli deyil.

5. Ahşeri (e.ə. 675-650)

6. Ualli (Valli, yaxud Ballı, Ahşerinin oğlu) – (e.ə. 650-630)

7. Erisinni (Ballının oğlu) – (e.ə. 630 -?)

Y.Yusifov belə güman edir ki, **İranzu** adındakı "İran" kökünü fars dilinə bağlamaq cəhdi səhvdir. Antroponim türk dilindəki ir (ər) kökündən və an şəkilçisindən yaranıb, "ən igid", "ən cəsur" deməkdir. Alimin fikrincə bu adın ilkin variantı İrançu olub, çünki mixi işarələrində **ç** hərfi yoxdur. Bütövlükdə İrançu türk dilləri baxımından "ən igidlərdən biri", yaxud "ən cəsurlara mənsub" olacaqdır.

Q.Qeybullayev də İranzunu fars dili ilə bağlamağın əleyhinədir. Alim antroponimin türk dillərindəki "ərən" və "su" komponentlərindən yarana biləcəyini ehtimal edir. "Ərən" – "igid, qoçaq, qəhrəman", "su" isə Altay dialektində "kiməsə bənzəyən", "kimsə tək olan" anlamına gəldiyindən İranzu "qəhrəmana bənzəyən", yaxud "qəhrəman kimi olan"mənasını verəcəkdir.

Y.Yusifov **Aza** adını bir qədər inamsız halda "gərək ki, "aca", türkcə "böyük qardaş" deməkdir" şəklində yorumlayır. Əslində Aza türk dillərində geniş yayılmış sözdür, həm etnonim, həm antroponim, həm də toponim kimi işlədilir. Türk az tayfaları dünyanın çox geniş bir ərazisinə yayılmışdılar. Əgər türk dilləri baxımından şərh edilərsə, Aza "az tayfasına mənsub" olacaqdır.





Maraqlıdır ki, mannalılara məxsus olan "Aza"nı albanlar "Asay", midiyalılar isə "Asau" şəklində tələffüz etmişlər.

**Ullusunu** – ullu, ulu və sun (sin) komponentlərindən yaranıb. İ.Məmmədov "sin"i həm mənsubiyyət şəkilçisi, həm də "adam" mənasında təfsir edir – yəni ulu adam, müdrik adam.

Q.Qeybullayevə görə Ullusunu türk "ulu(q)" və "sun" komponentlərindən əmələ gəlib, **u** sonluğu isə assurlar tərəfindən artırılıb. "Uluq" türklərdə geniş yayılmış addır, mənası "güclü" və "məğrur" deməkdir. "Sun" isə türk ləhcələri ilə çeşidli anlamlarda işlədilmişdir. Yakut dilində "sun" "zəhmli, görkəmli"dir, altay türklərində "sun" - "zoğ, pöhrə"dir. Mahmud Kaşğariyə görə "sun kişi" "yumşaq xasiyyətli adam" mənasını ehtiva edir. Bütövlükdə Ullusun türk ləhcəsi ilə şərh ediləndə "yumşaq xasiyyətli güclü adam", ya da "güclü kişinin pöhrəsi (törəməsi)" ola bilər. Ullusun İranzu kimi qüdrətli bir hökmdarın oğlu olduğundan bu titul tamamilə özünü doğruldur.

Mənbələr "sun" komponentindən yaranmış daha bir neçə Manna çarının adını xatırladır. Görünür, onlar e.ə. IX əsrdə, Manna ətafındakı türkdilli ölkələrdən birinin çarı olmuşlar. Bu adlar arasında **Telusunu** və **Şulusunu** xüsusilə diqqət çəkir.

Telu – qədim türk dillərində "cəsur", "qoçaq", "uğurlu" anlamına gəlir. Şulu–Sulu isə geniş yayılmış addır və hətta Sulu türk xaqanlarından birinin adı idi. Midiyanın tərkibindəki Harun vilayətinin çarı da mən-

bələrdə Şulusunu kimi qeyd edilmişdir. Açıq görünür ki, Midiyada və Mannada eyni türkdilli tayfalar yaşayırdılar. Təsadüfi deyildir ki, İ.M.Dyakonov Midiyaya tabe edilmiş 28 çarlıqdan vur-tut yeddisinin irandilli olduğunu yazırdı.

E.Qrantovski **Ahşeri** antroponimini iran dillərindəki "xşau" – "hökmranlıq etmək" sözü ilə bağlamağa çalışır. Fikrimizcə bu, yanlış ideyadır. Antroponimin türkcə təfsiri adın mənasını daha dəqiq şəkildə açır.

Türk dialektində Ahşeri adının birinci mənası "axş (axs)"- "axsaq, ləng kişi", ikinci mənası isə "alçaq, mənfur kişi" dir. Yadımıza salaq ki, Ahşeri urartulara satıldığı üçün mannalılar onu daş-qalaq edib öldürmüşdülər.

**Erisinni** İ.Əliyev antroponimi hurri adı İrişenni ilə müqayisə edir və yazır ki, "şenni" hurricə, "qardaş" deməkdir. Lakin bu fikir yanlışdır, ən azından ona görə ki, hurricə "qardaş" – "zena" dır. Q.Qeybullayev çox haqlı olaraq göstərir ki, Erisinni türkcə er (ər) və sin (çin) komponentlərindən yaranamışdır, mənası "güclü igid" deməkdir.

Manna əvvəllər mövcud olan çoxlu sayda çarlıqların birləşməsindən yaranmışdı. Bu çarlıqların böyük əksəriyyətinin etnik tərkibi bu gün də qaranlıq olaraq qalır. Mannayla ittifaqa girən ölkələrin adları bizə qonşu Assuriya və Urartu qaynaqlarından gəlib çatmışdır. Bu çarlıqlar aşağıdakılardır: Gilzan, Zamua, Alateye, Andia, Allabria, Vara-Sanqibut, Zikirtu, Karalla, Qızılbunda, Minşita-Mesi, Messi, Surikaş, Uişdiş (Vişdiş), Hubuşkia...





Daha sonra qaynaqlar Zamuanın xeyli hissəsini öz torpaqlarına qatan Dağarra vilayətindən söz açırlar.

Mənbələrdə həmçinin Gilzan dövlətinin sərhədləri sadalanarkən, Hubuşkia ilə yanaşı Kerruri ölkəsi yad edilir.

Bundan başqa e.ə. IX əsrə aid olan yazılı abidələr bizə Qızılbundadan şərqdə, Zikirtudan cənub-şərqdə, Qızıl Üzən çayının hövzəsində, paytaxt şəhəri Saqbitu olan Amaday vilayəti barədə xəbər çatdırır.

Nəhayət, e.ə. VIII əsrdə, təqribən indiki Marağa ilə Ərdəbil arasındakı torpaqları əhatə edən Suridira, Haruna, Ulmania və Puluadi çarlıqları barədə yenə həmin qaynaqlardan məlumat alırıq.

Mütəxəssislər belə güman edirlər ki, bu vilayətlərdən – Gilzanda sub tayfaları, Alateyedə - Arattanın qədim sakinləri, Zamuada lullular yaşayırdılar. Paytaxt şəhəri Saqbitu adından çıxış edərək Amadayda sakların üstünlük təşkil etdiyi ehtimalını irəli sürmək olar. Digər çarlıqlardakı əhalinin milli mənsubiyyətini öyrənmək Azərbaycanda yaşayan sonrakı etnik qruplar arasında geneoloji əlaqə yaratmaq baxımından çox vacib olsa da hələlik tədqiqatçılar bu çətin işə girişməyə cəsarət etməyiblər.

Lakin onu da deməyi özümə borc bilirəm ki, bu vilayətlərdən bir çoxunun adı, o cümlədən digər toponim və hidronimlər türk dilləri baxımından çox asanlıqla şərh olunur.

**Qızılbunda.** "Qızıl" – türk dillərində "qırmızı" rəngi bildirir, "bud" isə "təpə, yüksəklik" deməkdir.

**Mesu qalası.** Dağın iti zirvəsinə, meşəsiz dağa türklər "mes" deyiblər. Görünür Mannanın cənubunda yerləşən Messi vilayətinin adı elə bu sözdən götürülüb.

**Edir çayı.** Türklər ta qədimdən çaya etil, atil, itil deyiblər. Təsadüfi deyil ki, Volqa çayının ən qədim adlarından biri İtildir.

**Uaşdirikku.** Uaş (baş) türk dillərində baş, uca, dirik – tarak, daraq – yəni "daraq şəkilli uca dağ silsiləsi" olacaqdır.

**Uişdiş.** – uiş (viş, biş, beş), diş isə barmaqdır. Beşbarmaq dağı bu gün həm cənubi, həm də şimali Azərbaycanda mövcuddur.

**Uskaya** – us (uş) və kaya sözlərindən əmələ gəlib – Üç qaya.

**Surikaş.** Suri (sivri) – itiuclu, kaş (qaş) – silsilə anlamına gəlir. İtiuclu dağ silsiləsi.

**İzirtu** (Zirtu). Mannanın paytaxt şəhəri. Türk dialektlərində samitdən əvvəl **i** hərfinin artırılması tarixi bir faktdır. Sözün kökü sirt, siirt, yaxud sırtdır. Sırt, sirt, siirt isə türk dillərində yastı yüksəklik, dağ yamacıdır. İzirtunun dağ yamacında yerləşməsi də bunu bir daha təsdiqləyir. Bu gün qardaş Türkiyə ərazisində Siirt şəhəri vardır.

**Lallu çayı.** Mütəxəssislər bu adın türk dillərindəki lal və lu birləşməsindən yarana biləcəyini iddia





edirlər. Hesab edirlər ki, çay sakit axdığı üçün onu belə adlandırmışlar. Bizim fikrimizcə, Lallu lullu sözünün təhrif olunmuş formasıdır. Həmin çay bu ərazidə yaşayan lulu tayfasının adı ilə bağlıdır.

Bu misalların sayını istənilən qədər artırmaq olar. Etnonimlər, toponimlər və hidronimlər açıq-aydın göstərir ki, Mannada əhalinin aparıcı danışıq dili türk dili, ölkə xalqının özəyini təşkil edən qədim quti tayfalarının dili olmuşdur. Sonralar bu ərazilərə soxulan türkdilli kimmer, sak və skit tayfaları yerli əhali ilə qaynayıb qarışaraq müasir Azərbaycan türk ləhcəsinin formalaşmasında mühüm rol oynamışlar.

İlk baxışdan türk subar tayfalarının Mannada iştirakına rast gəlmirik. Çox ola bilsin ki, bu, assur və urartu qaynaqlarında terminlərin təhrif olunması ilə bağlıdır. Assur qaynaqlarının birində Spermen vilayətinin adı çəkilir. Men (mən) türk dillərində mənsubiyyət şəkilçisidir. Sper (siper) isə suber, subar tayfalarının adına uyğun gəlir. Hər halda Manna ərazisində subar tayfalarının axtarılması faydasız olmaz. Eramızın birinci minilliyində Azərbaycanın şimal torpaqlarına soxulan, paytaxt şəhəri Şabran olmaqla Savar dövlətini quran savarlar (suvarlar) hər halda göydən düşməmişdilər. Alimlərin yekdil qənaətinə görə suvarlar Azərbaycan türk dialektinin formalaşmasına çox güclü təsir göstərmişlər.

E.ə. III əsrin ikinci yarısında formalaşan Manna dövləti yarandığı gündən daxildə baş verən ikitiraliyin, xəyanətin qurbanı oldu. E.ə. 613-cü ildə Midiya

Mannanı işğal etdi. Ölkə e.ə. 590-cı ilə qədər öz müstəqilliyini qismən saxlasa da nəhayət ki, e.ə. VI əsrin başlanğıcında birdəfəlik Midiya torpaqlarına qatıldı.

Lakin mütəxəssislərin qənaətinə görə məlum olmayan səbəblər üzündən Midiya özü də iki hissəyə parçalandı. Strabon bunu belə təsvir edir: "Midiya iki hissəyə bölündü, bir hissə böyük Midiya, ikinci hissə Midiya-Atropatena adlandı. Ölkə bu adını hərbi sərkərdə Atropatdan almışdır. Hökmdar elan olunduqdan sonra Atropat bu ölkəni öz bildiyi kimi müstəqil etmişdi və indi də (yəni Strabonun dövründə - R.C.) vərəsəlik onun əlində qalır".

Mannanın, yəni Atropatenanın öz müstəqilliyini elan etməsi əhəmənilərin Makedoniyalı İsgəndərə məğlubiyyətindən və siyasi iflasından 10 il sonra, e.ə. 320-ci ildə baş vermişdir. Atropatena təxminən 500 il, sasanilərin hakimiyyətə gəlişinə qədər qismən də olsa öz müstəqilliyini qoruyub saxlaya bildi.

xxx

Atropatena əvvəlki Manna ərazisində yaranmışdı. O, şimalda Araz çayı, qərbdə Zaqroş dağları, cənubda Midiya torpaqları, şimal-şərqdə isə Xəzər dənizi ilə əhatə olunurdu. Mənbələrin verdiyi məlumata görə müasir Azərbaycanın cənub bölgəsi, Talış-Muğan zonası da Atropatenanın tərkibinə daxil idi. Paytaxtı Qanzak şəhəri qaynaqlarda gah Gəncək, gah Cənzə, son dövrlərdə isə Fraaspe kimi qeyd olunmuşdur. Bu şəhər Təbrizdən cənubda yerləşirdi.





Mütəxəssislər yazırlar ki, e.ə. III-II əsrlərdə artıq vahid atropaten xalqı və atropaten dili formalaşmışdı.

Doğrusu, mən bu sözlərdəki məntiqsizliyi anlamıram. Bəs cəmi 170 il əvvəl elə bu torpaqlarda qurulan Manna dövlətinin əhalisi hara getdi, yaşadıqları şəhərləri, vilayətləri, dağları, çayları öz doğma ana dillərində adlandıran, ölkənin hər qarışına öz möhtəşəm damğasını vuran türk dilinin daşıyıcıları necə oldu? Axı iki min illik tarixi olan bir xalqın inkişaf yolunun üstündə Manna nə ilk, nə son dayanacaqdı. Min illər boyu dayanmadan "yürüyən", zənginləşən, lüğət fondu daha da genişlənən bir dilin tarixini yalnız e.ə. I minilliyin son rübünə bağlamaq nə qədər ədalətlidir?

Q.Qeybullayev haqlı olaraq yazır ki: "Böyük Midiya və Kiçik Midiya adını qazanan bu ölkələri fərqləndirən başlıca keyfiyyət onların etnik tərkibi və linqivistikası idi". Çox güman ki, Midiya məhz bu zərurətdən iki hissəyə parçalanmışdı. Türkdilli Manna əhalisi daha işğal altında qalmaq istəmirdi. Vaxtilə Mannanı zorla ilhaq edən Midiya artıq bir dövlət kimi mövcud deyildi, iki əsr əvvəl İrana tabe edilmişdi. İrandakı hakim sülalə (əhəmənilər) Makedoniyalı İsgəndərin qələbəsindən sonra süqut edib tarix səhnəsindən çəkildi. Görünür məhz bu boşluqdan istifadə edən mannalılar yenidən öz müstəqilliklərini bərpa etdilər. Alim fikrini bu şəkildə davam etdirir: "Kiçik Midiya, yaxud gələcək Atropatenada türkdilli tayfalar üstünlük təşkil etdiyindən artıq e.ə. IV əsrdən başlaya-

raq atropaten – türkdilli Azərbaycan xalqı formalaşmağa başlayırdı".

Onda belə bir suala cavab tapmaq lazım gəlir: keçmiş Manna, gələcək Atropatena ərazisində yaşayan qutilər, lullular, subarlar, turuklar, "sonradan bu əraziyə soxulan" kimmerlər, saklar, skitlər hansı dildə danışırdılar? Mannada xalq formalaşmamışdısa, bu proses yalnız Atropatena yaranandan sonra (e.ə. 320) başlanmışdısa, o zaman Manna ərazisindəki çoxsaylı türkdilli adlar haradan və necə meydana gəlmişdir? Bəs Manna ərazisindən tapılmış saz çalan ozan şəklini necə izah edək? Saz yeganə musiqi alətidir ki, yalnız türklərə məxsusdur, sazın yaradıcısı türk xalqıdır! Axı bu ölkəyə öz pozulmaz damğasını vuran etnoslar bir gündə, bir ildə, yaxud bir əsrdə təşəkkül tapmamışdılar. Onlar e.ə. III minillikdən, bəlkə də bu tarixdən daha əvvəl Azərbaycan torpaqlarında yaşayırdılar, onların öz dilləri vardı və bu dil heç vaxt itməmişdi, ölməmişdi, assimilyasiyaya uğramamışdı, daim yaşayırdı, inkişaf edirdi, bura köçən və ya işğalçı sifətində gələn digər türkdilli tayfaların hesabına daha da zənginləşirdi. Azərbaycan türk xalqının və Azərbaycan türk dialektinin formalaşmağa başlamasını e.ə. I minilliyə bağlamaq əslində I minillikdən əvvəlki bütün tariximizin üstündən qələm çəkmək kimi bir şeydir.

Hər bir xalqın tarixi ayrı-ayrı mərhələlərə bölünür, bir mərhələdə yüksək inkişaf səviyyəsinə çatan xalq sonrakı dönəmdə tənəzzülə uğrayıb öz əvvəlki qüdrətini itirə bilər. Xalqların tarixi heç vaxt düz xətt





üzrə getmir. Lakin tədqiqatçıların hər konkret dövrü özündən əvvəlki və sonrakı mərhələdən ayrı, təcrid olunmuş şəkildə dəyərləndirməsi heç vaxt reallığı əks etdirməyəcək və mütləq yanlış nəticələrə gətirib çıxaracaqdır!

Bir xalqın formalaşma prosesi onun yarandığı ilk gündən başlayır. Bu, yüz illik, iki yüz illik, yaxud beş yüz illik məsələ deyildir, minilliklər boyu davam edən ağır və mürəkkəb bir prosesdir. Bu proses bəzən sürətlə, bəzən yavaş gedə bilər, ancaq heç vaxt qırılmaz, üzülməz, üzüldüsə, artıq etnos yoxdur deməkdir. Böyük xalqın qüdrətli dili tarix üçün heç nə sayılan yüz – iki yüz il ərzində heç vaxt yoxa çıxa bilməz.

Cənubi Azərbaycan türkləri gör neçə əsrdir ki, farsların tərkibində yaşayırlar, bəyəm türk dili məhv olub aradan çıxdımı? Ruslar Azərbaycanın şimal torpaqlarını 250 il əsarətdə saxladılar, bəyəm biz türkcə danışmağı tərgitdikmi? Q.Qeybullayev çox haqlı olaraq yazır ki, nə əhəmənilər dövründə Mannanı, nə də arşakilər dövründə Atropatenanı farslaşdırmaq mümkün olmadı. Bəs niyə mümkün olmadı, bilirsinizmi? Çünki Azərbaycan ərazisində yaşayan türklərin və onların bir-birləri ilə ünsiyyət saxladıqları dilin çox dərin tarixi kökləri vardır. Türklər siyasi cəhətdən qeyri-sabit ola bilərdilər, döyüşdə əvvəlki qüdrətlərini itirə bilərdilər, ancaq minillərin ağır sınağından keçən, sağlam kök üstündə yetişən dili, düşmən nə qədər güclü olursa olsun, öz içərisində əridə bilməzdi.

Bənzətmələrə diqqətlə fikir verin. Hələ eramızdan əvvəlki üçüncü minillikdə Akkadın daşını daş üstə qoymayan qutiləri düşmən salnaməçisi çöldəki çəyirtkə sürüsünə bənzədir, qoşunlarının saysız-hesabsız olduğunu söyləyir. Qutilər Akkadın üzərinə 200 minlik qoşunla yerimişdilər. Bundan 2500 il sonra başqa bir düşmən salnaməçisi quti qoşunlarını göydəki ulduzlarla müqayisə edir, yenə də onların saysız-hesabsız olduqlarını yazır. Nəticə? Deməli qutilər ən azından say hesabı ilə öz əvvəlki qüdrətlərini saxlamışdılar. Diqqətlə fikir verin, həm də 2500 il sonra! Belə böyük bir tarixi olan xalq təbii ki, Mannadan sonrakı yüz il, iki yüz il ərzində tarix səhnəsindən silinə bilməzdi və heç şübhə yoxdur ki, qutilər bu torpaqlarda qurulan dövlətin – Atropatenanın tərkibində yenə ölkə əhalisinin özəyini təşkil edirdi. Atropatena xalqının e.ə. IV əsrdə, Atropaten dilinin isə bundan 200 il sonra formalaşdığı barədə iddianın nə qədər yanlış olduğu bəyəm göz qabağında deyilmi?

Q.Qeybullayevin, Azərbaycan tarixçilərinin nəhəng və unudulmaz simalarından biri olan bu böyük alimin Azərbaycan torpaqlarında ta qədimdən Altay mənşəli türklərin yaşaması barədə fikirləri ilə də razılaşmaq mümkün deyildir. Altay türkləri Şumer mənşəlidir, onlar ilk bəşər sivilizasiyasının bağrından qoparaq Şərqə, Mərkəzi Asiyaya üz tutmuşdular. Onların doğma Vətəni, Ata yurdu, bir etnos kimi formalaşdıqları ilkin coğrafi ərazi qutilərin də Ata yurdu olan Nippur şəhəri idi. (Bax: "Dədə Qorqud peyğəmbərliyi" fəsli).





Bir vaxtlar Qərbdən Şərqə, İkiçayarasından Mərkəzi Asiyaya köç edən türk tayfaları həqiqətən e.ə. I minillikdə geriyə, Ön Asiyaya, o cümlədən Azərbaycan torpaqlarına qayıtmışdılar. Ancaq bu, ta qədimdən Azərbaycanda Altay mənşəli türklərin yaşadığını iddia etməyə əsas vermir. Əksinə, Altay türkləri qutilərlə eyni kökdən ayrılsalar da İkiçayarasından köçkün kimi getmiş, Azərbaycan ərazilərinə işğalçı kimi qayıtmışdılar.

Beləliklə, mövzumuzun ən çətin, ən ağrılı suallarına gəlib çatdıq.

Niyə görə yenidən müstəqillik qazanan Manna əvvəlki adı ilə deyil, Atropatena adlandırıldı?

Nə üçün beş yüz il (e.ə. 320- eramızın 224-cü illəri arasında) müstəqil siyasət yürüdən Atropatenada rəsmi dəftərxana dili türk dili olmadı?

Əgər bəzi mütəxəssislərin israrla qeyd etdikləri kimi, Atropatenada həqiqətən bütün əhali farsyönümlü azəri dilində danışırdısa və bu dilin daşıyıcıları irandilli tayfa idisə, niyə bu azəri tayfasının mənşəyi bəlli olmadı, onlar haradan gəlmişdilər və nə üçün birdən-birə yoxa çıxdılar?

Ən başlıcası, necə oldu ki, türkdilli ölkənin xalqı həyatda mövcud olmayan irandilli tayfanın adını götürdü və özünü Azərbaycan adlandırdı?

xxx

Türk tayfalarının keçdiyi yolun başlanğıcı nə qədər qaranlıqdırsa, bizə daha yaxın olan, qaranlıqdan

işığa çıxan hissəsi də bir o qədər sirli və müəmmalıdır.

Söhbətə Atropatena adından başlayaq. Azərbaycan türkoloqları bu günəcən aydınlaşdıra bilməyiblər ki, qədim Quti, ondan sonrakı Manna torpaqlarında yaradılan müstəqil ölkəyə nə üçün Atropatena adı verildi. Doğrudur, izah olunur ki, ölkənin adı ona başçılıq edən sərkərdənin adından götürülüb. Lakin məlumdur ki, ölkə adları, adətən, bu ərazidə çoxluq təşkil edən xalqın adından yaranır. Dünyada bir adamın adı ilə çağırılan yeganə ölkə Amerikadır. Ancaq bu tarixi təcrübəni Atropatena ilə heç müqayisə etmək olmaz. Yəqin ki, Atropatena adını Strabonun və digər yaddilli salnaməçilərin vicdanına buraxmaq lazım gələcək. Çünki əksər qaynaqlarda ölkənin adı vahid şəkildə yazılmayıb, bəzilərində sadəcə "satrapey", bəzilərində "Artobazın ölkəsi", digərlərində "Atropatın ölkəsi", Strabonda isə Midiya-Atropatena kimi göstərilib. Çox güman ki, elə həmin dövrlərdə ölkənin adı yerli tələffüzdə əcnəbi qaynaqlardakından tamam fərqli imiş. Çünki ortada düşündürücü bir məqam var. Təəssüf ki, indiyədək heç kəs buna əhəmiyyət verməyib. Atropatın dövlət başçısı olduğu güman edilən e.ə. IV əsrdən ta eramızın I əsrinə qədər Azərbaycan ərazisi Atropatena adlandırılmayıb. Atropatena adına ilk dəfə Strabonda (e.ə. 64 – eramızın 24-cü illəri) rast gəlirik. Deməli, keçmiş Manna ərazisi yarandığı tarixdən təxminən 350 il sonra, həm də kənardan Atropatena kimi





qeyd olunub. Bəs yerli əhali öz ölkəsini necə adlandırırdı sualına təəssüf ki, biz hələlik müsbət cavab verə bilmirik.

Strabon yazırdı ki, Atropat satraplığa başçılıq edən hərbi sərkərdənin adıdır, ölkə də onun şərəfinə Atropatena adlandırılmışdır.

Azərbaycan alimi Yusif Yusifov isə güman edir ki, atropat xüsusi ad yox, dini rütbə olmuşdur. Bu ad İran dillərindən tərcümədə "od saxlanılan", yaxud "od saxlayan" kimi izah olunur. Alim yazır: "Ehtimal etmək olar ki, atropat rütbəsini atəşpərəst kahin daşıyırmış, bu kahin eyni zamanda ölkəni idarə edirmiş".

Məhz bundan çıxış edərək bəzi türkoloqlar belə hesab edirlər ki, Atropat indiki Azərbaycan adının ilkin yazılış formasıdır. Sonralar tələffüzdə fonetik şəklini dəyişərək Atropatakan, Adurbadaqan və nəhayət Azərbaycan formasına düşmüşdür. Amma bunun nə qədər yanlış olduğunu bir qədər əvvəl gördük. Atropatena tədqiqatçıların verdiyi addır. Ölkə öz daxilində heç vaxt belə çağırılmayıb, təşəkkül tapdıqdan 350 il sonra yalnız qaynaqlarda bu cür adlandırılıb. Ona görə də tarixçilərin uydurduğu adın guya şəklini dəyişərək Atropatakan, Adurbadaqan və Azərbaycan formasına düşməsi nağıldan başqa bir şey deyildir.

Azərbaycan adının yaranması barədə bir çox başqa versiyalar da mövcuddur. İ.Məmmədov Y.Yusifova istinad edərək yazır ki, hələ e.ə. I minilliyin əvvəllərindəki mixi qaynaqlarında Qızıl Üzən çayının mən-

səblərində yerləşən Andirpatianu (Andirpatiyan) məskəninin adı çəkilir. Bu adın mənası, alimə görə, "dağlı-dərəli düzən yer", "dağaltı yer", yaxud "dağ silsiləsi" imiş. Sonradan Midiyadan şimalda yerləşən bütün Cənubi Azərbaycan torpaqlarına şamil edilərək fonetik dəyişikliklər nəticəsində Andirpatianu, Andirpatiyan, Adirpatakan, Adərpatan, Azərbayqan, Adirbican və Azərbaycan şəklini almışdır.

Doğrusu, bu o qədər ucuz, bayağı bir ideyadır ki, hətta onu şərh etməyə belə dəyməz. Azərbaycan tarixini öz həqiqi inkişaf yolundan sapdırmaq üçün qurulan bu tələyə bəzi türkoloqlarımızın çox asanlıqla düşməsi adamda təəccüb və təəssüf hissi doğurur.

Üçüncü versiyaya görə Azərbaycan adı bu ərazidə yaşayan fars dilli "azəri" tayfalarının adından yaranmışdır. Elmi ədəbiyyatda formalaşan üstün rəyə görə azəri dili İran dillərinə daxildir və bütün Azərbaycan ərazisində ümumxalq danışıq dili kimi işlədilib.

İ.Əliyev bununla bağlı belə yazır: "Atropatenanın ümumxalq dili ərəb mənbələrində azəri dili kimi qeyd olunur. Bu qədim dili türk dili adlandırmaq üçün alimizdə heç bir əsas yoxdur. Ola bilsin ki, bu dil həqiqətən İran dili idi. Görünür bu qədim Azərbaycan danışığı orta əsrlərdə bütün Azərbaycan ərazisində işlədilirmiş... "

B.V.Miller uzun illərin araşdırmalarından sonra bu qənaətə gəlir ki, azəri dili Azərbaycanın şimal-şərqində, Ərdəbil ətrafında yayılmışdı. Onun fikrincə bu dildə kerinqani, xarzani və xalxal tayfaları danışırlarmış.





Səfəvi Rəhimzadəyə görə azəri dili talışların və kürdlərin dilidir. Əhməd Kösrəvi də azəri dilində talışların danışdığını qeyd edir. Ş.Y.Qasımova bu fikirdədir ki, sasanilərin hakimiyyəti dövründə Cənubi Azərbaycanda əhalinin əksər hissəsi İran dilində və İran dialektində danışırdı.

Təəssüf ki, görkəmli Azərbaycan alimi Q.Qeybullayev bu deyilənlərlə qismən də olsa razılaşaraq fikrini belə formalaşdırır: "Azəri dilinin tipinə görə İran mənşəli olması tamamilə doğrudur, lakin onun bütün Azərbaycan ərazisində işlədilməsi ilə razılaşmaq mümkün deyildir. Aydın görünür ki, ilkin orta əsr Atropatenində bütün xalq bu dildə danışmırdı, ərəb yazarları "azəri dili" deyəndə Atropatena əhalisinin yalnız müəyyən qisminin danışdığı dili nəzərdə tutublar".

Fikrimizcə, bu iddiaların heç birinin dərin elmi əsasları yoxdur, çünki etnonimin mənşəyini, yaranma səbəblərini öyrənmədən söylənən fikirlər gün altında əriyən buz dağına bənzəyir, zaman keçdikcə mütləq öz dəyərini itirəcək.

Bu bir həqiqətdir ki, əhəmənilərin hakimiyyətə gəlişindən sonra fars dili bu bölgədə xeyli möhkəmləndi. İrana tabe edilən ölkələrdə əhali fars dilində danışmağa məcbur edilirdi. Bu təzyiq uzun əsrlər boyu,

ərəblərin istilasına, hətta bu istiladan 5-6 əsr sonrayadək uğurla davam etmişdir.

Farslaşdırma, digər xalqlar kimi, bölgədə yaşayan türklərdən də yan keçmədi. Türk əhalisi hakim təbəqənin dilində danışmaq məcburiyyətində qalmışdı, rəsmi dəftərxana dili də fars dili idi. Lakin mümkün olan və olmayan bütün basqılara baxmayaraq türk tayfalarının çox böyük əksəriyyəti öz ləhcələrini gələcək nəsillər üçün qoruyub saxlaya bilmişdi.

İranşünas alimlər belə bir rəy formalaşdırıblar ki, Cənubi Azərbaycan ərazisində, ümumiyyətlə, türklər yaşamayıblar, guya Azərbaycanın farsdilli əhalisi XI əsrdə səlcuqların işğalından sonra zorla türkləşdiriliblər. Bunun uydurma və cəfəngiyyat olduğunu ən adi məntiqlə də sübut etmək olar. Birincisi, əgər Atropatenada həqiqətən ancaq irandilli tayfalar yaşayırdısa, o zaman məlum olmur ki, nə üçün eyni ərazidə yaşayan vahid xalqın bir hissəsi o biri hissəsindən ayrılaraq yeni, müstəqil dövlət qurdu?

Bunun nə qədər absurd olduğu belə bir faktdan da aydın görünür ki, Manna hətta Midiyaya qatılandan sonra da öz varlığını qoruyub saxlaya bilmişdi. Bu torpaqlar Midiyanın işğalından ta müstəqillik qazananadək ya şimali Midiya, ya da Kiçik Midiya adlandırılmışdır. Heç də təsadüfi deyil ki, Atropatena dövləti məhz Kiçik Midiya ərazilərində, işğaldan əvvəlki sərhədlər çərçivəsində yenidən yaradılmışdı. Tarixi təcrübə göstərir ki, bütün ayrılmaların kökündə linqivistik mənsubiyyət dayanır.





İkincisi, iranşünasların sözlərinə inansaq, yenə aydın olmur ki, səlcuqların işğalından sonra nə üçün ərazinin bir hissəsi, konkret olaraq Atropatena əhalisi türk dilində danışmağa başladı, başqa bir hissəsi, konkret olaraq Böyük Midiya irandilli olaraq qaldı?

S.M.Onullahi İran tarixçisi Camal əd-Din Faqihə istinad edərək yazır ki, iranşünasların uydurduğu bu böyük yalanın heç bir əsli-kökü yoxdur, səlcuqlar Azərbaycan əhalisini necə türkləşdirə bilərdilər ki, onların özləri bütün dəftərxana işlərini fars dilində aparırdılar!

Əgər siz "bəs niyə türk çoxluq öz ana dilində deyil, fars dilində yazıb-oxumuşdur?" deyə soruşsanız, cavab birmənalı olacaq: çünki hakim fars dilinin bölgədəki nüfuzu çox böyük idi, işğal altında yaşayan xalqların, hətta işğaldan kənarda qalan səlcuqların da anlaşmaq üçün bu dildə danışmaqdan başqa çarələri qalmamışdı.

Yaxın keçmişimizi, sovet imperiyası dönəmini yada salaq. Hakim dilin "əsarətə" alınmış dilləri necə sıxışdırdığı yaşlı nəslin gözləri qarşısında baş vermişdir. İrəli getmək, cəmiyyətdə müəyyən mövqe tutmaq, ən başlıcası, ətrafda yaşayan bütün digər xalqlarla anlaşa bilmək üçün hamı hakim dili mükəmməl öyrənməyə çalışırdı. Alimlər, yazıçılar, şairlər, tarixçilər, digər söz sahibləri bu dildə yazıb-yaradırdılar ki, daha böyük auditoriyada tanınsınlar. Rus dilində yaza bilməyənlər öz əsərlərini dərhal bu dilə tərcümə etdirir-

dilər ki, imperiyanın başqa ölkələrinə, beynəlxalq arenaya çıxış imkanı qazansınlar. Bu, "əsir alınmış" bütün dillərin faciəsidir. Türk dili öz çoxminillik tarixi ərzində bu faciəni təkrar-təkrar yaşamalı olub, amma əyilməyib, sınmayıb, dimdik ayaq üstə qalıb. Çünki türk dili qüdrətli xalqın dilidir.

Millətimizin bəzi manqurtlaşmış ziyalıları isə ərəb mənbələrində adı çəkilən "azəri dili"nin türk dili olmadığını, üstəlik heç bir dəlil-sübut gətirmədən İran dillərinə daxil olduğunu iddia edirlər. Halbuki ərəb mənbələrində "azəri dili"nin farsyönümlü olduğu heç yerdə yazılmayıb, əksinə, Azərbaycanın türklərin ölkəsi olduğu israrla vurğulanıb. IX əsr ərəb yazarı Əbu Məhəmməd Əbdül Malik ibn Xişam öz əsərində yazır ki, xəlifə I Müaviyyə (661-680) Übeyd ibn Şarim əl-Cüruhimidən Azərbaycan barədə soruşanda o, xəlifəyə belə cavab verdi: "Azərbaycan türklərin ölkəsidir, ta qədimdən orada türklər yaşayır".

Əgər ərəb tarixçiləri hələ VII əsrdən də qabaq Azərbaycanda türklərin yaşadığını xəbər verirlərsə, bəs onda İ.Əliyev hansı haqla və hansı məntiqlə ərəb mənbələrinə istinad edərək azəri dilinin İran dillərinə daxil olduğunu iddia edir?

Bizans tarixçisi Feofilakt Simokatta xəbər verir ki, ərəb qaynaqlarındakı məlumatdan hələ yüz il qabaq, 590-cı ildə "Xosrov Azrabican ölkəsinə qaçdı". Bu məlumatdan iki mühüm nəticə çıxartmaq olar. Əgər VI əsrdə "Azrabican" adı mövcud idisə, deməli





bu adın formalaşması daha qədimdə baş vermişdir. Sonrakı faktlardan da görəcəyimiz kimi, bu "daha qədim dövr" hətta eramızdan əvvəlki I minilliyin başlanğıcına qədər uzanıb gedir. İkincisi və ən başlıcası, nə ərəb, nə Bizans, nə də digər qaynaqlarda Azərbaycanda farsyönümlü xalqların üstünlük təşkil etdiyi və bu dildə danışdığı göstərilmir. Əksinə, bir çox tədqiqatçılar, məsələn, E.Xerifeld tarixi mənbələrə istinad edərək yazır ki. "hələ e.ə. VI-V əsrlərdən Azərbaycan ərazisində irandilli xalqlar üstünlük təşkil etmirdilər".

Yaqut əl-Həməvi "Musəm əl-buldən" əsərində hətta "Azərbaycan" adının necə yaranmasını bir dilçi kimi təhlil edərək etnonimin Azər və bican komponentlərindən düzəldildiyini, həm Azri, həm də Azərbi şəklində yazıldığını da bizə çatdırır. Amma burada da Azri, yaxud Azərbinin farsdilli ölkə olması barədə bircə işarət belə yoxdur.

Üçüncüsü, hətta qəbul etsək ki, Atropatenada hakim mövqe həqiqətən farsdilli xalqa məxsus idi, onda mütləq belə bir suala cavab tapılmalıdır: bu, hansı icmadır, İran dillərində danışan talışlar, gilyakilər, kürdlərmi, yoxsa İran dialektində danışan xarzanilər, kerinqanilər, tat adlanan xalxallarmı? Axı bu tayfaların heç biri Azərbaycan ərazisində çoxluq təşkil etmirdi, onlar azsaylı xalqlar idi.

Buna cavab olaraq yenə heç bir fakta, elmi əsaslara söykənmədən iddia edilir ki, bu dillərin hamısı bir yerdə "azəri" adlanırdı. O zaman belə bir sadə suala

cavab verilməlidir: Bəs nə üçün etnik proseslərin son nəticəsi olaraq bu torpaqlarda Azərbaycan türk xalqı formalaşdı, İran dilində, yaxud İran dialektində danışan hər hansı başqa bir xalq yox? Nə üçün hakim mövqedə olan türklər xalq və ölkə olaraq özlərini azlıqdakı tayfaların adı ilə adlandırmalı idilər? Bu sadə sualların heç bir qaneedici cavabı yoxdur və ola da bilməz. Çünki Cənubi Azərbaycan ərazisində heç vaxt İran mənşəli azəri tayfası olmayıb, bu iddia ağbədiyə yalandan və uydurmadan başqa bir şey deyildir. Azər, azar, yaxud azari etnoniminin kökü, mənşəyi türklərin və yalnız türklərin tarixi ilə bağlıdır!

Azər sözünün kökündə duran az xalqı ta qədimdən türkdilli tayfalar hesab olunur. Bu barədə ən çeşidli mənbələrdə tutarlı faktlar tapmaq mümkündür.

Göy türklərin Orxon-Yenisey abidələrində türkdilli az xalqından danışılır, "az budun" və "az kişi" ifadələri işlədilir. O.Pritcak göstərir ki, "az" bulqar-çuvaş dillərində "böyük, uca, nəhəng, zirvə" deməkdir. A.Vemberi "az" sözünü türk ləhcəsində şərh edərək mənasının "dost, yol yoldaşı" olduğunu göstərir.

Doğrudur, Menxen-Xelfen "az" sözünün türklərə mənsub olduğuna şübhə ilə yanaşır, onun fikrincə, "az"ın mənası hələ elmə bəlli deyil. Ermənilər isə "az"ları osetinlərlə, irandilli tayfalarla eyniləşdirirlər.

Lakin bütün azsaylı "müxalifətə" rəğmən tədqiqatçıların böyük əksəriyyəti "az"ları türkdilli tayfalar hesab edirlər. Rəşid əd-Din yazırdı ki, azlar qədim





türk tayfalarıdır, adın mənası isə "hündür, uca, böyük" anlamına gəlir. Bu söz hətta bu gün də dilimizdə qalmaqdadır, biz öz peşəsində böyük nailiyyət qazananlara, sənətinin mahir bilicisinə "as" deyirik.

Bəzi mənbələrdə "az"ın "yaz", "yazır" formalarına da rast gəlmək mümkündür. Məsələn, Qrum-Qrijimaylo göstərir ki, şimal-qərbi Monqolustanda, qırğız Azuxurman tayfaları ilə qonşuluqda türkdilli yaz tayfaları yaşayırdılar. İstanbulun Topqapı kitabxanasında saxlanan "Oğuznamə" dastanında isə "yazır" tayfalarının və "yazır eli"nin adı çəkilir. Dastanda bu sətirlər vardır: "Oğuz tayfaları bölünüb yayılanda yazır qolundan olan Şah Məlikin bəylərindən biri, həmçinin Alı xanın uşaqları Yazıra üz tutdular".

Yazıçı Anar və Z.Həsənov Yazırın antik mənbələrdə adı çəkilən Azar, yaxud Azər ölkəsi ola biləcəyi, ölkə adının da bu sözdən götürüldüyü ideyasını irəli sürürlər.

Tariximizin əvəzolunmaz salnaməsi "Oğuznamə" oğuzların bəlli bir hissəsinin Yazır və ya Azər kökündən ola biləcəyi ideyasını xeyli möhkəmləndirir. Antiq müəlliflərin işquz, müasir tədqiqatçıların "İç oğuz" adlandırdıqları etnotoponimin daşıyıcıları Azərbaycan türklərinin və digər türk tayfalarının formalaşmasında müstəsna rol oynamışlar. Tanınmış türkoloq A.N.Bernştam yazır ki, "türk etnogenezinin qidaverici mühiti hun cəmiyyəti olmuşdur. Sonuncuların isə sə-

ləfi işquzlardır. İstər Asiya, istərsə də Avropa hunları eyni işquz kökündən əmələ gəlmişdir".

F.Cəlilov çox haqlı olaraq yazır ki, "ilkin anlamını "azman" sözündə saxlayan və daha çox "az" adı ilə tanınan Azər boylarının izinə (Aza, Azuq-Azov, Astarxan-Həştərxan, Astara, Aştarak, Askişi) müxtəlif bölgələrdə rast gəldiyimiz kimi, bu boyların Kas (kaz) variantı ilə (Kazan, Qazax, Kazak, Xazar (Xəzər), Kaspi və s. ) də geniş əraziyə yayıldıqlarını görürük".

Tarixi qaynaqlar açıq-aydın göstərir ki, az və azar adı Atropatena dövlətindən ən azı 4-5 əsr qədimdir. Təəssüf ki, bu adın yazılı qaynaqlardan neçə əsr əvvəl mövcud olduğu hələlik bizə bəlli deyil.

E.ə. VIII əsrdə yaşayan Assur çarı II Sarqonun arxiv sənədlərində Azari şəhərinin adı çəkilir. Bu şəhər adının türkdilli tayfalara mənsub olduğunu bildirən fakt ondan ibarətdir ki, həmin şəhər vaxtilə lulluların, turukların, zəngilərin və kumanların yaşadığı Zamua bölgəsində tikilmişdi. Məlumatda göstərilir ki, Azari şəhəri Manna dövlətinin mərkəzində yerləşirdi.

Bundan başqa, Assur çarı II Aşşurnasirpalın dövrünə aid olan sənədlərdə Zamua ölkəsindəki Azir dağının adı çəkilir. Bu həmin Zamuadır ki, əhali ölkə başçısına, bir qayda olaraq, Ata deyirdi.

Urartu çarı I Arqiştinin (e.ə. VIII əsr) vaxtında urartu qoşunları Van gölündən çıxıb Araz çayını keçir və Aza ölkəsini tuturlar. Qaynaqlarda "düşmən ölkə" adlandırılan Aza zəbt olunandan sonra I Arqişti bura-





da kanallar çəkdirir, qala tikdirir. Mütəxəssislər Aza adının etnotoponim olduğunu bildirirlər.

Aza ölkəsinin qərb sərhədlərində yerləşən bir yaşayış məntəqəsinin adı romalıların yol xəritəsində Aza şəklində göstərilmişdir.

E.ə. I əsrdə yaşayan Strabonun vaxtında ölkə adı artıq Aza deyil, Azar yazılırmış. Strabon qeyd edir ki, "Araz çayı Azar ölkəsinin yanından axır, Araksena düzündən keçib Kaspi dənizinə tökülür".

Görkəmli Azərbaycan alimi F.Cəlilov bütün bu faktları gətirdikdən sonra fikrini belə yekunlaşdırır: "Tarixi mənbələrdən görünür ki, Azərbaycanın İrəvan bölgəsi qədim çağlardan Azar (Azər) adlanırmış, Arazboyu məntəqələrdə Azərlə yanaşı Aza forması da işlək olmuşdur. Naxçıvanda bu gün də Yuxarı Aza adlı kənd vardır".

Assur qaynaqları Hələb ətrafındakı Azar-türkmən oylağının adını bizlərə xəbər verir. Bundan başqa, Azar tayfaları həmçinin Aral gölünün şərqində də yaşamışlar. Bunu həmin bölgədə indi xarabalıqları qalan yaşayış məskənlərinin adlarından da görmək olar: Çeti Asar, Altın Asar, Unqirli Asar, Baybolat Asar.

Asların Avropaya yayılması, hətta İslandiyaya qədər gedib çıxmaları bizə VIII-IX əsrlərə aid tarixi qaynaqlardan məlumdur. F.Cəlilov bununla bağlı yazır: "İsland tarixçisi Snorri Sturlusonun 1222-1225-ci illərdə qədim saqalardan istifadə edərək qələmə aldığı "Kiçik Edda" əsərində göstərilir ki, as boyu Troyadan

çıxıb Avropanın şimalındakı Saks ölkəsinə gəldi, bu gözəl görkəmli qərib asları yerli əhali maraqla qarşıladı, onlara ərazi verdi. As gəncləri yerli qızlarla evləndi, onların sayı get-gedə artdı".

Daha sonra S.Sturlusonun əsərində oxuyuruq: "Avropadan gələn aslar bura türk adət-ənənəsini gətirdilər, burada türklərin vərdiş etdiyi qanunlar tətbiq olundu". O vaxtdan çox zaman keçsə də yazılı qaynaqlar hələ də asların Asiyadan gətirdikləri adları saxlayır.

Skandinaviyada türklərə məxsus yer, çay və şəxs adlarına diqqətlə fikir verin.

Asqard (As kəndi) – toponim.

Göl, Orun, Qöpül, Qömül, Eykin – hidronim.

Anar, Torkel (Türkel), Atlı, Qamlı, Qunn, Qunlauq, Eynar, Elli, Aslauq, Asdis və s. – antroponim.

As boylarının Norveçə gedib çıxmaları bizə Tur Xeyerdalın qələmindən bəllidir. Tur Xeyerdal yazır: "Türkdilli azar boyundan ayrılıb Norveçə gələnlərdən məşhur Konunq soyu yarandı".

Konunq sülaləsi Norveçi idarə edən hökmdar sülalədir. Qədim Norveç dilində Nonunqr skandinaviya xalqlarında hərbi rəhbər vəzifəsini daşıyanlara deyilirdi.

Az tayfaları ilə qaynayıb qarışandan sonra konunqlar hərbi rəhbər sülaləsindən hökmdar sülaləsinə çevrildilər. Belə görünür ki, azarlar türkdilli ağ sakların, hökmdar sakların nəslindən imiş. Çünki "hökmdar tayfası" anlayışı yalnız Şumerdən çıxan türk tayfalarına məxsusdur.





Bəs «as(az)» tayfalarının adı necə və haradan meydana gəlmişdir? Bu barədə elmi ədəbiyyata heç nə bəlli deyil. Problemin üzərinə qədim Şumer və Misir mifləri işıq sala bilər. Lakin Azərbaycanda miflərə heç vaxt tarixi qaynaq kimi yanaşılmadığına, onu «elmin və mədəniyyətin antipodu» (L.Qumilyov) hesab etdiklərinə görə türk as (az) tayfa adının mənşəyi barədə miflərə söykənən ciddi elmi axtarışlar aparılmamışdır. Halbuki dünya xalqlarının əksəriyyətinin, o cümlədən yunanların, yəhudilərin, misirlilərin və b. tarixi başlıca olaraq miflər üzərində qurulmuşdur.

As (az), asar (azar), asir (azir), asari (azari) formalarında işlədilən etnonimin mənşəyi, yaranma tarixi barədə miflərdən ən çeşidli məlumatlar əldə etmək mümkündür.

Azar (asar) kultunun meydana gəldiyi dövr bizdən o qədər uzaqdır ki, onu hər hansı zamanla bağlamaq cəhdi mütləq yanlış olardı. Ancaq təkcə o dəqiq məlumdur ki, az tayfalarının özləri ilə uzaq Skandinaviyaya apardıqları Azər - Odin adı qədim türklərin günəş «allahı» Uta (Oda) sitayişlərinin nəticəsi kimi ortaya çıxmışdır. Şumer əfsanələrinə görə «günəş allahı» Ut yer qadını ilə izdivaca girmiş, bu izdivacdan dünyaya gələn Meksiaqqaşerlə ağ sak adlanan hökmdar sülaləsinin, o cümlədən hökmdar türk tayfalarının bünövrəsi qoyulmuşdur. Şumerdə Ut kimi tanınan «günəş allahı»na Misirdə Asar, yaxud Asari deyirdilər. Qədim Şumer əfsanələrindən göründüyü kimi, hər bir «allah» həyatı boyu bir neçə ad qazana bi-

lirdi. Misir əfsanələrinə görə Asar (Asari) «günəş allahı»nın ən qədim adıdır. Şumerdə hökmdar türk tayfalarına «allahın oğlanları», yaxud «allahın ruhunu daşıyanlar» deyirdilər. Dədə Qorqud adında da ilişib qalan qut Şumer dilində «allahın ruhu» deməkdir. Heç də təsadüfi deyil ki, Azərbaycan torpaqlarında qurulan ən qədim, ən qüdrətli dövlətlərdən biri Quti adlanırdı. Qutilərin yaşadıqları torpaqlarda sonradan Manna dövləti, Manna ərazisində isə Atropatena ölkəsi qurulmuşdu. Atəşpərəstliyin, oda sitayişin məhz Atropatenadan cücərməsi türklərin «günəş allahı» Uta bağlılıqlarının bariz nümunəsi kimi meydana çıxmışdır. Yəqin o da təsadüfi deyil ki, Azərbaycan türkləri bu gün də öz Vətənlərini «Odlar yurdu», özlərini isə «od oğlu» adlandırırlar.

Misirdə Asar (Osiris) haqqında əfsanənin yüzlərcə versiyası mövcuddur. Bu, uzun və ağır mövzudur. Qısaca olaraq deyim ki, Asar haqqında ilk bilgiləri Plutarx verib. Plutarx yazırdı ki, Asar Misir panteonuna daxil olan "allah" idi, ancaq Misir mənşəli deyildi, bu ölkəyə kənardan gətirilmişdi. Plutarxın sözlərinə görə Asar əfsanəsi onu Misirə gətirən xalqın da özünə məxsus deyilmiş, onlar da bu hekayəti başqa xalqdan əxz ediblərmiş.

Yunanların "Osiris" adlandırdıqları Asar kimdir? E.A.Uollis-Bac yazır ki, "allahlar" arasında Asar ən böyüyü və ən qədimidir, o, hətta "allah" Ra-dan da yaşlıdır.





Osiris adının yazılışı heroqliflərlə taxt-tac və göz şəklində göstərilir. Mütəxəssislər bu heroqlifləri As+ar, yaxud As+ari şəklində oxuyurlar. Mənası üstündə çoxlu mübahisələr gedib və əksəriyyətin qənaəti bu olub ki, heroqliflər "çoxlu göz" anlamını verir. Yada salaq ki, Şumer həm də "gözətçilər, nəzarətçilər ölkəsi" adlandırıldığından ola bilsin ki, bu heroqliflər Asarın Şumer ölkəsindən gəldiyinə işarədir. Zatən, misirlilərin inancına görə neterlər ("allahlar") onların ölkəsinə ta-Urdan (Ur torpağından, yəni Şumerdən) gəlmişlər.

Misir heroqlifləri həm ayrıca səsi bildirir, həm də bu səsi ehtiva edən heroqlif öz şəklinə uyğun olaraq çeşidli mənalarda yozumlanırdı. Əgər biz taxt-tac və göz heroqliflərini şəkilcə mənalandırsaq, taxt-tac ucalıq, böyüklük, hökmdarlıq (as), göz isə "gözətçilik", "nəzarətçilik", başqa sözlə desək, "allahlıq" rütbəsini (ar, ari) anlatmış olacaq. Şumerdə "allah" termini işlədilmirdi, bir çox əfsanələrdə Şumer "nəzarətçilərin ölkəsi", ya da mütəxəssislərin sonradan adlandırdıqları kimi "allah"ların ölkəsi" şəklində yazılırdı. Beləliklə, taxt-tac və göz heroqlifini həm də "ən böyük nəzarətçi", yaxud "şumerdən gələn ən böyük allah" kimi də yorumlamaq mümkündür.

Asarın başqa dillərdəki yazılış formalarına diqqət yetirək. Misir əfsanələrində Asarın başlıca titullarından biri taxt-tac və göz heroqlifləri ilə işarə olunur, amma "Un Nəfər" kimi oxunurdu. "Un Nəfər" qədim Misir dilində "yaxşı adam" deməkdir.

Bu söz akkad dilində mixi işarələrlə çadır, yaxud yuva və bu yuvanın içərisində yerləşdirilən göz şəklində göstərilir, Asar və ya Asari kimi oxunurdu. Akkad dilində də Asarın mənası "yaxşı adam" anlamına gəlir. Şumer dilində isə Asar mixi işarələrlə Lu. Duq kimi oxunur və yenə "yaxşı adam" kimi tərcümə olunur.

Bu yerdə kiçik bir haşiyyəyə çıxmaq zərurəti yaranır. «As» və «ari» komponentləri bu gün yalnız türk dillərində ilkin mənasını qoruyub saxlamışdır. Qədim türklər kimi çağdaş türklər də «böyük, uca, nəhəng» olana «as», saf, təmiz qatışıq olmayan şeylərə isə «ari» deyirlər. Bəlkə də çox az adam bilir ki, «ari irq» nəzəriyyəsinin kökündə məhz türklərin «günəş allahı» Asari dayanır. Bu nəzəriyyəni ilk dəfə ortaya atan Yelena Blavatskaya belə hesab edirdi ki, bəşəriyyət iki qrupa bölünür: heç bir qatışığı olmayan, birbaşa «allah» Asaridən törəyən ilahi kökənlilər və qatışıq irqlərdən yarananlar. Sonradan fransız Qobinonun və alman Lentsin sayəsində bu nəzəriyyə ideologiya səviyyəsinə qaldırıldı, onun mahiyyəti isə dəyişərək mürtəce xarakter aldı. Amma bütün hallarda bu nəzəriyyənin yaradıcıları onun ilkin mənbəyini, haradan qaynaqlandığını unutdular. Əgər unutmasaydılar bəşəriyyəti «yuxarı sort» və «aşağı sort» xalqlara bölənlərin türkləri ikincilərə aid etməyə heç vaxt cəsarətləri çatmazdı.

(Əslində «Asar»dakı «as» və «ar» komponentləri yalnız türk dilləri baxımından heç bir tərcüməyə ehtiyac qalmadan izah oluna bilir. «As» – böyük, uca,





nəhəng deməkdir, «ar» isə türklərin sonralar daha çox «ər» şəklində işlətdikləri «kişi», «adam», «igid», «döyüşçü» anlamındadır. Yəni «asar» xalis türkcədir. «Böyük kişi», «təmiz, uca, nəhəng adam» mənasını ehtiva edir).

Görkəmli Azərbaycan mifoloqu M.Seyidov öz araşdırmaları nəticəsində müəyyən edib ki, digər ölkələrdəki günəş allahlarının daşıdıqları titulları Azərbaycan türklərində Xızır daşıyırmış. Politeizm vaxtlarında "allah" sayılan, monoteizmə keçiddən sonra küfr hesab edildiyi üçün "allah" titulu peyğəmbərliklə əvəz olunan Xızır Attis, Adonis, Aşur və Odin kimi həm Günəş "allahı", həm ölən və dirilən təbiətin "allahı", həm də yol və tale, xoş xəbərlər çatdıran və şəfaverən "allahdır". Xızır sözünün etimologiyasını açan M.Seyidov etnonimin "güclü kişi", "hörmətli kişi", "yaxşı kişi" anlamına gəldiyini iddia edir. Bu isə Xızır adının eyni məna yükü daşıyan Asardan yarana biləcəyi ehtimalını gücləndirir. Mütəxəssislər belə güman edirlər ki, çox böyük zaman kəsiyində formalaşan antroponim Asar-Azar-Hazar-Hızır və Xızır şəklinə düşmüşdür.

Asar adı türkdilli "çar skifləri"nin panteonunda Qoytasir kimi əks olunub. Qoytasir eynən Xızır kimi həm günəş "allahı", həm yol və tale "allahı", həm də ölən və dirilən təbiətin "allahı" sayılırdı.

Qoytasir adının etimologiyasını araşdıran Z.Həsənov belə nəticəyə gəlir ki, etnonim qoy və tasir komponentlərindən yaranıb. Tədqiqatçıya görə başqırd və tatarlarda koyaş, özbək və uyqurlarda kuyaş

"günəş" deməkdir. Mahmud Kaşğaridə isə "koy" həm də "yanmaq" anlamında işlədilib. Z. Həsənov belə hesab edir ki, "tos" türklərdə ruhun dərəcəsini bildirir və ən çox yeraltı dünyanın "allahı" Erlikə aid edilir. Tuvinlərdə bu allaha Erlik-tos deyirlər. Z.Həsənov güman edir ki, Qoytasir adının mənası "odun, günəşin ruhu"dur.

Bizim fikrimizcə, Qoytasirin qoyt və asir komponentlərindən yarana biləcəyi ehtimalı daha perspektivlidir. Əfsanəyə görə bütün günəş "allahları" hökmən ölmüş və yenidən dirilmişlər. "Qoyt", "qayıt", yaxud "qayıdan" burada ölüb yenidən dirilmək anlamını verir. Asir isə Günəş "allahı"nın ən qədim adıdır. Bu anlamda skif Qoytasirinin mənası "ölüb yenidən dirilən günəş allahı" olacaq.

Bütün yuxarıda deyilənlərdən çıxara biləcəyimiz yeganə və ən düzgün nəticə ondan ibarətdir ki, görünür Asar və ya Asari Günəş "allahı" Utun ən qədim adlarından biri olmuşdur. Bunu Asar haqqında əfasanənin Misirə kənardan gətirilməsi, həmçinin Asarın heç vaxt Misirdə çarlıq etməməsi barədə Plutarxın sözləri də təsdiqləyir. Enlilin klanından olduğuna görə Utun (Asarın) əmisi Enkiyə məxsus Nil vadisi regionunda çar olması, həqiqətən, mümkün deyildi. Bu anlamda, Günəş "allahı" Utu özlərinin ulu əcdadı hesab edən türklərin Asar – Asari adını tayfanın damğasına çevirmələri və özləri ilə dünyanın hər yerinə daşımaları çox inandırıcı görünür.





Asar (Asir) nə misirlilərə, nə akkadlara, nə babillərə, nə də digər qədim xalqlara mənsub deyildi. Amma bu ada və onun müxtəlif məna çalarlarına türk xalqlarında bol-bol rast gəlmək mümkündür.

Z.Həsənov yazır: "Belə düşünmək olar ki, skiflərin ilk dini görüşləri "allah" Asara sitayiş etməklə bağlı olmuşdur". Müəllifin özünün də qeyd etdiyi kimi, bu, hələ əlavə axtarışlar və sübutlar tələb edən bir ehtimaldır, amma bizim fikrimizcə, həm də tarixçilərimizi dərindən düşünməyə və hərəkətə keçməyə vadar edən bir ehtimaldır!

Düşündürücü və bu ehtimalın doğru ola biləcəyini gücləndirən maraqlı bir fakt ondan ibarətdir ki, bir çox dünya xalqlarının panteonlarındakı günəş "allahlarının" adları eyni as (az) kökündən yaranıb. Diqqətlə fikir verin: bu ad yunanlarda Adonis, rimlilərdə Attis, skandinavlarda Odin, assurlarda Aşurdur. Geniş və əhatəli araşdırmalardan sonra Z.Həsənov belə bir qənaətə gəlir ki, bu "allahlar" arasında qəribə bir uyğunluq vardır. Hamısı ölüb yenidən dirilib, hamısının adı eyni kökdən yaranıb. Əgər yunanlarda "**s**" və "**z**" səslərinin qoşa "**tt**" kimi yazıldığını, "**z**"-nın "**d**"-ya, "**u**"-nun "**i**"-yə, "a"nın "**o**"-ya, "**s**"-nın "**ş**"-ya keçidindəki qrammatik qanunauyğunluğu nəzərə alsaq, Attis və Adonis antroponimlərindəki "**is**" yunan sonluqlarını ataraq adları ilkin yazılış formasına qaytarsaq, o zaman bütün "allah" adlarının eyni "**az**" kökündən yarandığının şahidi olacağıq. Attis-Att-Az, Adonis-Adon-

Azon, Aşur-Asir-Azir, Odin-Ozin-Ozan. Bu isə belə bir fikir söyləməyə əsas verir ki, fonetik oxunuşca müxtəlif olsalar da, bu adlar mənaca eynidir, yəni əslində bir, vahid "allah"ın adının müxtəlif tələffüz formasıdır. Bəs bütün günəş "allahlarının" kökündə duran tək, vahid "Asar" adı kimə məxsusdur deyə soruşsanız, cavab birmənalı olacaq: heç şübhəsiz ki as(az), Asar (Azar) bu adı damğaya çevirib, özü ilə dünyanın hər bir köşə-bucağına daşıyan, yaşadan və əbədiləşdirən xalqa, türklərə məxsusdur.

Əgər azar tayfaları irandilli olsaydılar fars qaynaqları bu addan yaranan Azarbiçan adını göydə qapar və dərhal bunu şişirdərək ortaya çıxardardılar, daha məhdud azəri tayfası barədə əfsanə uydurmazdılar.

Azar adı fars mənbələrində nə tayfa, nə də ölkə adı kimi heç vaxt işlədilməyib. Bəlkə onların yerli tələffüzdən heç xəbərləri yox imiş? İnandırıcı görünmür.

Yuxarıda da göstərdiyimiz kimi "azar", "azari" adı təzkirəçilərə hələ e.ə. VIII əsrdən bəlli idi. Eramızın I əsrində Strabon da öz əsərlərində Araz çayı boyunca yerləşən Azar ölkəsindən söz açır. Lakin Cənubi Azərbaycan torpaqlarını işğal edən farslar öz ağalıqları dövründə "azar" sözünü yaxına buraxmadılar, şimali Midiya, Kiçik Midiya, Atropatakan sözlərini işlətdilər. Sasanilərin süqutundan və ərəblərin Azərbaycanı işğalından sonra qaynaqlarda yenidən Atropatena deyil, Azrabiqan, Azarbican ölkəsinin adı çəkilməyə başladı, bu torpaqlarda ta qədimdən türklərin yaşadığı israrla bildirildi. Bəs niyə belə olmuşdur? Səbəb çox





sadədir. Farslar da, ərəblər də Azərbaycanı işğal etmişdilər. İslam dinini yayan ərəblər ölkə əhalisinin mənəvi dünyasını fəth etməklə vahid müsəlman xalqı yaratmaq istəyirdilər. Ona görə də ölkənin necə adlanması ərəblər üçün əhəmiyyətli deyildi, onlar bu adı eşitdikləri, gördükləri kimi yazırdılar. Farslar isə işğal etdikləri xalqların dilini assimilyasiya etməklə torpaqlara sahib çıxmaq, ümumfars dilli ölkə yaratmaq niyyətindəydilər. Farslar yerli adın qaynaqlara düşməsini istəmirdilər, əksinə, yerli tələffüzdəki bütün toponimləri, hidronimləri, digər oykonimləri farslaşdıraraq unutdurmağa çalışırdılar. Ruslar da şimal torpaqlarımızda eyni işğalçılıq siyasəti yeritməkdəydi.

Amma o da mümkündür ki, Ərdəbil ətrafında yaşayan Azar (Azər) tayfalarından bir hissəsi həqiqətən farslaşmış olsun. F.Cəlilov yazır ki, vaxtilə Əfqanıstanda yaşayan türk-monqol soylu xəzər tayfaları dillərini dəyişərək irandilli olmuşdular. Alim bəzi iranşünas alimlərin azəri adlanan bir boyun orta əsrlərdə talış dilinə yaxın bir dildə danışması barədə gətirdikləri faktı da bu qəbildən olan məhdud saylı hadisələrdən hesab edir. Alim daha sonra deyir:Amma bu fakt bütövlükdə Azər tayfalarının irandilli olduğunu söyləməyə əsas vermir.

x x x

İndi də mövzumuzun sonuncu sualına keçək: Vahid Azərbaycan türk dialekti nə vaxt yaranmışdır? Azərbaycan xalqının təşəkkülündən danışarkən mütə-

xəssislər nədənsə bu prosesin e.ə. IV yüzillikdən başlandığını, eramızın X-XI əsrlərində isə sona çatdığını iddia edirlər. Tədqiqatçılar Azərbaycan türk dilinin təşəkkülünü də elə həmin dövrə aid edərək üç mərhələyə bölürlər: alban dili mərhələsi, arran dili mərhələsi və Azərbaycan dili mərhələsi. Bəs Alban dövlətindən qabaq tariximiz və dilimiz olmayıb? Bu nədir, unutqanlıq, yoxsa fakt qıtlığı qarşısında susqunluq? Axı Azərbaycan türk xalqının dili, bu dili yaradan əcdadlarımızın özü qədər qədimdir. Tarixi dialektologiyanın ayrı-ayrı konkret mərhələlər üzrə öyrənilməsi, əlbəttə, çox vacibdir. Ancaq dilin kökünü tapmadan onun budaqlarından danışmaq, mütləq, yanlış nəticələr çıxarılmasına yol açır. Tarixən formalaşan dil laylarını bilmədən, bu laylar arasında geneoloji bağların mövcudluğunu üzə çıxartmadan müasir Azərbaycan dilinin formalaşmasını obyektiv şəkildə araşdırmaq, sadəcə, mümkün deyildir.

Azərbaycan türk dialektinin bu günkü səviyyəyə çatmasında çoxsaylı türk tayfaları yaxından iştirak etmişlər. Qutilərdən və lullulardan başlayan "dil marafonumuz" ən azı beş min illik yol qət edib. Öz sərt qrammatik quruluşu və konservatizmi ilə seçilən türk dilləri, mütəxəssislərin də təsdiq etdikləri kimi, tarixin erroziyasına mətanətlə sinə gərmiş və lüğət fondunu uzun əsrlər boyu qoruyub saxlamağı bacarmışdır. Bütün bunları nəzərə alsaq, Azərbaycan türk dialektinin formalaşmasını 4 laya bölmək olar.





Birincisi, lulluların, qutilərin, turukların, subarların iştirak etdiyi qədim türk dili layı;

İkincisi, Manna, Midiya, Sakasena, Albaniya və Atropatenanın türkdilli tayfalarının iştirak etdiyi erkən orta əsr türk dili layı;

Üçüncüsü, oğuzların, qıpçaqların və suvarların iştirak etdiyi orta əsr türk dili layı;

Dördüncüsü, təkmilləşmiş, yeniləşmiş və daha da zənginləşmiş çağdaş Azərbaycan türk dili layı.

Ola bilsin ki, indi bu "dil layları" arasında müəyyən əlaqə yaratmaq həqiqətən mümkün olmasın, ancaq bundan qorxmaq lazım deyil, cavab nə vaxtsa mütləq tapılacaq. Önəmli olan odur ki, biz tariximizi, dilimizin kökünü unutmayaq, onu yadda saxlayaq və həmişə axtaraq.

xxx

Beləliklə, fikrimizi yekunlaşdıraraq əminliklə söyləyə bilərik ki, ölkəmizin adı nə uydurma Atropatakan, nə dilə yatmayan Andirpatianu sözlərindən, nə də yalançı farsdilli azəri tayfalarının adından götürülməyib. Azərbaycan türk kökənli azər (azar) tayfalarına məxsusdur, ilkin olaraq Azarbiqan, zamanla Azarbican və Azərbaycan şəklinə düşmüşdür.

# XVI FƏSİL

## TALE KİTABIM – TÜRKLÜYÜM

Pəncərə qarşısında oturub bayıra baxıram. Çöldə, qalın şüşənin o üzündə qarlı qış lövhəsi "asılıb". Göydən narın qar ələnir, hər tərəf ağappaq dona bürünüb. Qış həmişə mənə dərin qüssə gətirir.

Mən qışı sevmirəm, qış varlılar fəslidir. Qışda təbiət soyunur, çılpaqlaşır, yalın ağaclar yetim uşaqlar kimi soyuqdan və küləkdən titrəşib çığırışırlar.

Mən qışı heç sevmirəm, dünyanın qocalığıdı qış. Şaxtalar və qarlar fəsli həmişə mənə həyatının son günlərini yaşayan insanı xatırladır. Ömrünün əbədiyyət nəğməsi çalınan insan ümidsiz və köməksiz olur. Ümidsizliyin və köməksizliyin insana necə acı verdiyini məndən yaxşı kim bilə bilər ki!

Deyirlər, son anında insanın bütün həyatı onun gözlərinin önündən keçir. Amma mənim içərimdə qıpırtı yoxdur, hər şey donub sanki. Uzaqda, lap uzaqda, ömrümün hansı anındasa zəif bir işıq yanır, bu işığı tutub qızınmaq istəyirəm, amma nə əlim yetir, nə ünüm çatır. Bu işıq qeybə çəkilən planetə bənzəyir, hər dəfə mənə "uzaq, yaşıl ada"nı – Şumeri xatırladır.

Mən Şumeri düşünəndə qəribə şəkildə gümrahlaşıram, qəlbimə xoş, giziltili bir həyəcan dolur. Bəlkə ona görə ki, Şumer mənim Ata yurdumdur, insan ömrünün son çağlarında həmişə Ata yurduna can atır?





Bəlkə ona görə ki, zamanın hansı ucundasa tanımadığım, üzünü görmədiyim, amma həmişə varlığını hiss etdiyim, öyündüyüm əcdadlarım yaşayır? Axı insan köklü-kökməli, arxalı olduğunu biləndə qürurlanır, sanki yeni güc, yeni qüvvət alır.

Mən Şumeri düşünəndə bir də türklər gəlir gözümün önünə. Ata yurdunda qərib sayılan, tarixi zorla əlindən alınan türklər.

Tarix də torpaq kimidir, sahib çıxmasan, qorumasan, səndən üz çevirəcək, yabanı otlar bitirəcək. Keçmişlə bu günümüzün arasına "Çin səddi" çəkib bizi bizdən aldılar, nəsilləri bir-birindən ayırdılar, tariximizi, Ata yurdumuzu unutdurmağa çalışdılar. Bu "Çin səddi" uçurulub dağılmayınca nəsillərin görüşü, onların bir-birlərini tanıması, öz köklərinə qayıtması, sadəcə, mümkün deyil.

Türklərin tərcümeyi-halı təzədən yazılmalıdır. Uzaq keçmişin arxasından intizarla boylanan ulularımızın sızıldayan Ruhunu rahatlatmaq üçün onları layiq olduqları taxt-taca oturtmalıyıq.

Vaxtımız daralıb, Zamanımız tükənib. Keçmiş zərblə qapımızı çalır: oyan, oyan, oyan! Gələcək əndişə içində pəncərəmizdən boylanır: tələs, tələs, tələs!

Amma biz yüz il öncə necə xorna çəkib yatırdıqsa, yüz il sonra da eləcə mürgü vururuq.

Oddan kül törəyər, deyiblər. Külümüz göyə sovrulur, başımız cürbəcür işlərə elə qarışıb ki, hələ bundan xəbərimiz yoxdur.

...Bayırda qar yağır, elə hey yağır. Səma o qədər alçaqdır ki, sanki qazan qapağıyla yerin ağzını örtüb-

lər, yerlə göyün arasında elə bil minlərcə ağ kəpənək uçuşur. İsti otaqdan qışın şaxtalı-boranlı havasına baxmaq adama ləzzət eləyir. Qismətə bax, bir yaz günü başladığım kitabı bir soyuq qış axşamı başa çatdırıram. Amma fikirlərimin çoxu ürəyimdə qalıb, yazdıqlarım yazmaq istədiklərimdən qat-qat azdır.

Həyatda nəyimiz varsa hamısını Anamıza və Vətənimizə borcluyuq. Borcu qaytarmaq namus işidir. İnsanın namusu onun bütün həyatından qat-qat baha olur. Mən borcumu qaytarmaq istəyirəm.

Müdriklik öyrədir ki, həyatın gözəlliyi firavan yaşamaqda deyil, xalqa, millətə xidmət etməkdədir. Dünyada ən dadlı zövq, millətinə faydalı olmaqdan alınan zövqdür.

Uzun və əzablı həyatımda həmişə buna can atmışam. İndi, bir soyuq qış günündə kədərlə düşünürəm ki, heyhat, buna nail ola bilmədim. Əgər nail olsaydım, xalqım məni tanıyardı, sevərdi və dəyərləndirərdi.

Amma qəlbim pıçıldayır, məyus olma, xalqın səni tanımasa da keçər, hamı anadan qəhrəman doğulmur, hamı həyatda müdriklik zirvəsinə çatmır, əsl faciə o zaman baş verər ki, sən xalqını tanımayasan!

Mən bu kitabı xalqımı tanımaq və tanıtmaq üçün yazdım. XX əsrin və bütün zamanların ən atəşli şairi Xəlil Rza Ulutürk deyirdi ki, dayağımızdır, bayrağımızdır, varlığımızdır türklüyümüz!

Türklük mənim alın yazım, tale kitabımdır. Bu gün türk adı mərdliyin, sadəliyin və cəsurluğun simvoluna çevrilib. Tarix səhnəsinə tufan kimi girən





türklər şimşək kimi çaxdılar, göy kimi guruldadılar, leysan kimi dünyanın başına yağdılar. Türklər olmasaydı, tarix bu qədər maraqlı və zəngin görünməzdi. Türklər olmasaydı, bu gün bəşər sivilizasiyasının beşiyi sayılan Şumer də yox idi! Şumerlər barədə cild-cild monoqrafiyalar yazıb şöhrət zirvəsinə ucalanlar nədənsə həmişə bunu unudurlar.

...Bayırda qar kəsib, hava açılıb. Üfüqdə soyuq qış Günəşi gülümsəyir. Nə qəribədir, səhər qarlı-boranlı sərt qış rüzgarı vardı, axşamüstü hər şey dəyişdi, soyuq Günəş şüaları dünyamızı qızılı rəngə boyadı. Həyat da belədir, zaman-zaman səni ağladır, zaman-zaman səni güldürür. Bir gün sonra başımıza nə gələcəyindən xəbərsiz halda, tale gəmisinin bizi hara sürüklədiyini bilmədən öz qədərimizi yaşayırıq.

Qürub Günəşi əriyib qurtarmaqda olan əzablı günün son ümid işığı kimi pəncərəmdən süzülərək otağa qüssəli bir kölgə salıb. Mən həyatə açılan dar pəncərəmdən gen dünyaya baxıram və onun nə qədər ədalətsiz olduğu barədə düşünürəm. Niyə dünya türklərə qarşı bu qədər amansızdır? Minilliklərin qorxunc yollarından keçərək gələn bu kinin, bu düşmənçiliyin səbəblərini heç cür anlaya bilmirəm. Tarixin bütün dönəmlərində türk adının yaratdığı təşviş içərisində bizim haqqımızı yemiş, adımızın çəkilməsinə qadağalar qoymuş, tərcümeyi-halımızı büsbütün dəyişdirmiş və təəssüf ki, həmişə bunu öz əlimizlə həyata keçirmişlər.

Görünür, igidliyin, cəsurluğun, döyüşdə amansızlığın bədəlini ödəyir babalarımız. Türk qılıncının

vahiməsi, görünür, bu gün də dünyanın yaddaşından çıxmayıb.

Yüz illər, min illərdir ki, türkləri arxadan vururlar. Çox vaxt türkü türkə qarşı qoyublar, öz qılıncımız öz başımızı kəsib. Gah Turan xofu ortaya atılıb, gah pantürkizm təhlükəsi. Yüz illərdir ki, Qərbin ağır təbliğat maşını türklərin əleyhinə təhqiramiz, alçaldıcı ittihamlar yayır. Amerikanın, İngiltərənin, Fransanın, Rusiyanın, digər ölkələrin bəzi söz sahibləri türkün quldur, başkəsən, qaniçən, vəhşi obrazını yaratmaqdan xüsusi zövq alırlar. Sovet imperiyası dövründə türkə xoş münasibət bildirən hər kəsin perspektivinin üstündən ömürlük xətt çəkilirdi. Bünövrəsi min illər əvvəl qoyulmuş bu "təkləmə siyasəti" XXI yüzildə də böyük müvəffəqiyyətlə davam etdirilməkdədir.

Sovet imperiyası dövründə bizi türklükdən "çıxartdılar", soy-kökümüzü İrana bağlayıb, tariximizi saxtalaşdırdılar, dövlətimizi, dövlətçiliyimizi tutub zorla əlimizdən aldılar, millətimizi bir qələmlə silib atdılar. Həm də sapı özümüzdən olan baltaların əli ilə.

Əgər tariximizin erməni xislətli "tədqiqatçıların" əlində girov qalmasını istəmiriksə, onu "ölü nöqtədən" çıxartmalıyıq.

Bunun üçün Yeni sistem, Yeni yanaşma, Yeni söz sahibləri və Yeni söz lazımdır. Səsi Biləcəridən o tərəfə keçməyən "tarixçilər"dən yaxa qurtarmalıyıq. Gəlin Köhnəni uçuraq ki, Yenisini quraq, daha möhkəm, daha sanballı, tarixin qarına-yağışına, selinə-suyuna, tufanına-sunamisinə, ildırımına-zəlzələsinə davam gətirən Yeni Türk Qalası. Bunun üçün Qərbin,





bütün dünyanın "əjdaha" söz sahibləri ilə dör-dör döyüşə bilən, mövqeyini, elmi nəticəsini cəsarətlə, aslanlar kimi müdafiə etməyi bacaran və qalib gələn Yeni Nəsil lazımdır. Herodotu, Strabonu, Aristoteli onların ana dilində oxuyan, qədim mətnlərin yazıldığı qədim dilləri beş barmağı kimi bilən savadlı, istedadlı nəsil! Bir sözlə, yeni Ziya Bünyadovlar.

Böyük təəssüf və ürək ağrısı ilə deyim ki, bu günə qədər qədim Şumer mətnlərindən bəhs edən heç bir alimimiz, təkcə Osman Tuna Nədimdən başqa, qədim mətnləri orijinaldan araşdırmamış, yalnız onlara qədər yazılmış əsərlər əsasında təhlil aparıb fikir söyləmişlər.

Tariximizin təzədən yaradılması üçün yeni baxış – siyasi iradə, dövlətin maliyyə yardımı, tədris sisteminin kökündən dəyişdirilməsi və ən başlıcası, bütün bu işlərin prinsipiallıqla, ardıcıl şəkildə və dönmədən həyata keçirilməsi tələb olunur. Bu məqsədlə:

1. Uzunmüddətli dövlət proqramı hazırlanmalı və bu işlər bir mərkəzdən idarə olunmalıdır;

2. Büdcədənkənar maliyyə fondu yaradılmalı, alimlərimizin ezamiyyə, elmi axtarışla bağlı digər xərcləri ödənilməlidir;

3. Azərbaycan tarixinin tədqiqi ilə məşğul olan gənc istedadlara xüsusi şərait yaradılmalı, onların əmək haqqı artırılmalıdır. Qədim mətnlər bir çox dünya ölkələrinin muzeylərində, arxivlərində saxlanılır. Bu gün tədqiqatçı alimlərimizin maliyyə durumu, aldıqları məvacib nəinki uzaq ölkələrdə, heç Azərbaycan arxivlərində də işləməyə imkan vermir;

4. Ali məktəblərdə tarix fənninin tədrisinə münasibət kökündən dəyişməli, lüzumsuz, əhəmiyyətsiz fənlər tədrisdən çıxarılmalı, əvəzində tarix şöbələrində dünyanın aparıcı dilləri, xüsusilə qədim dillər öyrədilməlidir;

5. Gənc tarixçi alimlərin dünyanın tanınmış elm mərkəzlərində təcrübə keçməsi, yaxud təhsilini davam etdirmələri, elmi ezamiyyətlərə göndərilmələri ardıcıl, planlı şəkildə həyata keçirilməlidir;

6. Azərbaycan tarixinin hər dövrü üçün yeni düşüncəli elmi əsərlərin yazılması barədə müsabiqələr elan olunmalıdır;

7. Dünya şöhrətli mütəxəssislərin iştirakı ilə Bakıda müxtəlif konfranslar, simpoziumlar, diskussiyalar keçirilməlidir;

8. Azərbaycan tarixinə yeni baxışları əks etdirən əsərlər populyar dünya dillərinə tərcümə edilib yayılmalıdır. Yeniləşmiş Azərbaycan tarixinə dair alimlərimizin mövqelərinin dünyaya qəbul etdirilməsinə ardıcıl səylər göstərilməlidir. Dünyanın qəbul etmədiyi tarix – ölü tarixdir;

9. İnkişaf etmiş dünya ölkələrinin mətbuatında, elmi dərgilərində vaxtaşırı çıxışlar edilməli, Azərbaycanın tarixi ilə bağlı yeni informasiyaların çevik şəkildə yayılması, yanlış informasiyaların təkzib olunması üçün tarixçi alimlərdən ibarət xüsusi şura və daimi fəaliyyət göstərən internet saytları yaradılmalıdır.





***

Vətəni uca dağlarına, sərin meşələrinə görə sevmirlər, əcdadların sümükləri çürüyən torpağına görə sevirlər. Vətən sevgisi hisslərin ən təmizi, ən ülvisi, ən müqəddəsidir.

Ulularımız bu sevgini öz qanları ilə əbədiləşdiriblər:

Gözsüz yaşamaq olar, Vətənsiz yox!

Vətənin bir qışı qürbətin min baharından yaxşıdır!

Vətən viran da olsa, cənnətdir!

Vətən sevgisi insanla birgə doğulur, amma insandan daha ucadır. Çünki bizi doğuranlar da, doğuranları doğuranlar da bu sevgi ilə dünyaya gəliblər.

"Vətən, sənə qurban olum!" deməyin lazım olub-olmadığını mən bilmirəm, hərçənd müdriklərimiz öyrədir ki, hisslərin ən dərini dilə gətirilməyənidir, ancaq onu dəqiq bilirəm ki, biz hər birimiz Vətən üçün faydalı olmağı, onun yolunda həqiqətən qurban getməyi bacarmalıyıq.

Təkcə Vətəni sevmək azdır, bu sevgini işdə, fəaliyyətdə, əməldə göstərməliyik. Biz dünya xalqlarının tarixi arasında Azərbaycanımızın özünə layiq yerini tutmasını istəyiriksə ətaləti, biganəliyi, başısoyuqluğu, tənbəlliyi, bir-birimizə kini-küdurəti bir tərəfə buraxıb tariximizin yenidən yaradılmasına və onun geniş şəkildə təbliğ olunmasına sabahdan yox, elə bu gündən başlamalıyıq. Biz vaxtı öldürməyə başladığımız gündən vaxt da bizi öldürür!

...Mən peşəkar tarixçi deyiləm, əslində bu yazı ilə heç nəyə iddiam da yoxdur. Sadəcə Vətənini, millətini, torpağını, tarixini sevən sadə bir türk kimi öz ürək ağrılarımı qanı qanımdan, canı canımdan olan insanlarla bölüşmək istədim. Ola bilsin ki, mən araşdırmalarımın bəzi məqamlarında səhvə yol vermişəm, ola bilsin ki, bəzi məqamlarda ehtiyatsızlıq etmişəm, ola bilsin ki, bəzi iddiaları irəli sürərkən çox sadəlövh görünürəm. Tarix elmində dərin bələdçilik təcrübəsi olmayan mənim, bütün həyatını başqa sahələrə həsr edən bir insanın məqsədi əsl peşəkarlarla mübahisəyə girmək, onların səhvə yol verdiklərini üzlərinə çırpmaq, biliyi-bacarığı və qələmiylə tarix elmində sanballı söz sahibi olanlara ağıl öyrətmək deyildir. Haşa, mən bu fikirlərdən çox-çox uzağam. Mənim başlıca məqsədim tariximizi ambisiyalardan, yad təsirlərdən qorumağın vacibliyini önə çıxartmaqdır. Artıq yüz illərdir ki, torpaqlarımız kimi, tariximiz də əsirlikdədir. Onu bu əsirlikdən qurtarmağın vaxtı çatmışdır.

Mümkündür ki, kimsə mənim gümanlarımla, ehtimallarımla razılaşmasın. O da mümkündür ki, mənim bəzi arqumentlərim həqiqətən yanlış olsun. Bu, məni qorxutmur, mən tək bir şeyə əminəm: biz düz yoldayıq, zənginləşən, yeniləşən Tariximizin axtarışı yolunda. Səhv etmək isə eyib deyil, "qapını səhvlərin üzünə bağlasanız, həqiqət içəri girə bilməz". (R.Taqor).



## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


**1. Azərbaycan tarixi.** Ən qədim dövrlərdən XX əsrin əvvəllərinədək. İ.Əliyevin redaktorluğu ilə. Bakı, 1993.

**2. Azərbaycan tarixi.** Tarix elmləri doktoru S.Əliyarlının redaktorluğu ilə. Bakı, 1996.

**3. Azərbaycan tarixi,** I cild. (Z.M.Bünyadov, Y.B.Yusifovun redaktorluğu ilə). Bakı, 2005.

**4. Azərbaycan SSR-in izahlı coğrafi adlar lüğəti.** Bakı, 1960.

**5. Azərbaycan tarixi coğrafiyası.** (İ.Əliyevin redaktorluğu ilə). Bakı, 1987.

**6. Azərbaycan tarixi.** VII cilddə. I cild. (F.Maqsudov və b. redaksiya heyəti ilə). Bakı, 1998.

**7. Azərbaycan Sovet Ensiklopediyası.** I-X c. Bakı, 1976-1987-ci illər.

**8. Azərbaycan dilinin izahlı lüğəti.** I-IV c. Bakı, 1966-1990.

**9. Азимов Айзек.** Ближний Восток. Москва, 2006.

**10. Аджи Мурад.** Азиатская Европа. Москва, 2006.

**11. Abbasova Mahirə.** Böyük Qafqazın cənub-şərq hissəsinin toponomiyası. Bakı, 1971.

**12. Абаев В.И.** Скифо-европейские изоглоссы. Москва, 1965.

**13. Авдиев В.И.** История древнего Востока. Ленинград, 1948.

**14. Ana kitabələr.** Tərtib edəni Elməddin Əlibəyzadə. Bakı, 1996.

**15. Алексеев В. П.** Этногенез. Москва, 1986.

**16. Алексеев В. П.** География человеческих рас. Москва, 1974.

**17. Aslanov Vaqif.** Süni dil nə zaman və harada yaranmışdır? «Elm və həyat» jur. 1987, № 12.

**18. Aslanov Ə.** Beynəlxalq köməkçi dil problemi. «Ədəbiyyat və incəsənət» qəzeti, 1969, 4 yanvar.

**19. Ağasıoğlu Firidun.** Azər xalqı. Bakı, 2005.

**20. Ağasıoğlu.** Qədim türk eli. Saqa-Qamər boyları. Bakı, 2006.

**21. Ağasıoğlu.** Tanrı elçisi İbrahim. Bakı, 2007.

**22. Ağasıoğlu F.** Azərbaycan türklərinin islamaqədərki tarixi. 9 bitik. I bitik. (Əlyazması)

**23. Ağasoy Fərid.** "Qızıldərililər türklərdirmi?" "24 saat" qəzeti, № 15 (479).

**24. Бартольд В.В.** Сочинения. I-V т. Москва, 1968.

**25. Bakuvi Əbdürrəşid.** Kitab təlxis əl-asar və əcaib əl-məlik əl-qəhhar. (Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri). Tərcümə edəni Z.Bünyadov. Bakı, 1992.

**26. Баскаков Н.А.** Тюркская лексика в "Слове о полку Игореве", Москва, 1985.

**27. Бэйджент Майкл.** Запретная археология. Москва, 2007.

**28. Белицкий Мариан.** Забытый мир шумеров. Москва, 1980.





**29. Боги, создавшие небо и землю.** Москва, 2001.

**30. Бьювел Роберт, Джилберт Эдриан.** Мистерия Ориона. Москва, 2005.

**31. Бромлей Ю.В.** Очерки теории этноса. Москва, 1987.

**32. Cəlilov F.A.** Azərbaycan dilinin morfonologiyası. Bakı, 1988.

**33. Cəlilov Firidun.** Azərbaycan dili morfonologiyasından oçerklər. Bakı, 1985.

**34. Cəfərzadə İ.M.** Qobustan qayaüstü rəsmləri. ÜNE «XXI», 1999.

**35. Dədə Qorqud dünyası.** Bakı, 2004.

**36. Divitçioğlu S.** Gög türklər. İstanbul, 2000.

**37. Дирингер Д.** Алфавит. Москва, 1963.

**38. Джеймс Питер, Горп Ник.** Тайны древних цивилизаций. Москва, 2007.

**39. Durmuş İ.** İskitlər (saklar). Ankara, 1993.

**40. Dekini Jozef.** Türklərin ümumi tarixi. Tərtib edəni Miribrahim Hüseynov. Bakı, 1995.

**41. Дубнов С. М.** Краткая история евреев. Ростов-на Дону. 1997.

**42. Древнетюркский словарь.** Ленинград, 1969.

**43. Дьяконов И.М.** Люди города Ура. Москва, 1990.

**44. Дьяконов И.М.** История Мидии. М.Л. 1956.

**45. Dilçilik ensklopediyası** (I cild). Bakı, Mütərcim nəşriyyatı. 2006.

**46. Dilçilik ensklopediyası** (II cild). Bakı, Mütərcim nəşr., 2008.

**47. Дьяконов И.М.** Общественный и государственный строй древнего Двуречья – Шумера. Москва, 1959.

**48. Есаян С.А. , Погребова М. Н.** Скифские памятники Закавказья. Москва, 1985.

**49. Əbü-l Qazi Bahadır xan.** Türkmənlərin soy kitabı. (Hazırlayanı İ.M.Osmanlı). Bakı, 2002.

**50. Əliyev N.** "Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində. Bakı, 1999.

**51. Əlibəyzadə Elməddin.** Qədim dünyamızın ulu kitabı. Bakı, 1996.

**52. Əlibəyzadə E.M.** Türk-Azərbaycan bədii düşüncəsinin ilkin qaynaqları. Bakı, 2007.

**53. Əsədov Əsəd.** Toponimlər coğrafi xəritələrdə. Bakı, 1985.

**54. Əfəndiyev Əmin.** Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu. İzahlı biblioqrafiya. Bakı, "Qartal" nəşr. , 1998.

**55. Əliyev V.H.** Gəmiqaya abidələri. Bakı, 1993.

**56. Алиев И.М.** История Мидии. Баку, 1960

**57. Феофилакт Симокатта.** История. Москва, 1957.

**58. Hacıyev T.İ.** Azərbaycan dili və türk etnik anlayışı haqqında. «Müqayisəli tarixi türkologiyanın aktual problemləri». Bakı, 1984

**59. Hacıyev T.İ.** Azərbaycan dilinin təşəkkülü tarixinə dair. Bakı, 1983.





**60. Hacıyev T.İ., Vəliyev V.İ.** Azərbaycan dili tarixi. Bakı, 1983.

**61.Константин Багрянорадный.** Об управлении империи. Москва, 1989.

**62. Həbiboğlu Vəli.** Qədim türklərin dünyagörüşü. Bakı, 1996.

**63. Hüseynzadə Əli bəy.** Qərbin iki dastanında türk. Tərtib edəni O. Bayramlı. Bakı, 1998.

**64. Hüseynzadə Əli bəy.** Türklər kimdir və kimlərdən ibarətdir. Bakı, "Mütərcim" nəşr. , 1997.

**65. Hüseynov Miribrahim.** Dünya türklərinin müxtəsər tarixi. "Elm", Bakı, 1999.

**66. Новосельцев А.П.** О местонахождении библейской «Горы Арарат» (Восточная Европа в древности и средновековье. Сборник статей) Москва, 1978

**67. Хазанов А.М.** Социальная история скифов. Москва, 1975.

**68. Хенкок Грэм.** "Следы богов". Москва, Ексмо, 2006.

**69. Хэнкок Грэм.** Мистерия Марса. Москва, 2006.

**70. Хэнкок Грэм.** Загадки затонувших цивилизаций. Москва, 2007.

**71. Ибн-Хордадбех.** Книга путей и стран. Баку, 1986.

**72. İbn əl-Əsir İzzəddin.** Əl-Kamil fi-t-tarix. (Mükəmməl tarix). Azərbaycan və qonşu ölkələrin

tarixinə dair iqtibaslar. Tərcümə, ön söz və qeydlər Z.Bünyadovundur. Bakı, 1996.

**73. Ильин Вадим.** Тайны исчезнувших цивилизаций. Москва. "Астрель-СПб". Санкт-Петербург, 2007.

**74. История Востока.** (под руководством П.Б.Рыбакова). Москва, Восточная литература, РАН, 2000. I т.

**75. Kalankaytuklu M.** Albaniya tarixi. (Z.Bünyadovun tərcüməsi). Bakı, 1993.

**76. Kitabi-Dədə Qorqud.** Bakı, 2004.

**77. Котрелл Морис.** Грааль друидов. Москва, 2007.

**78. Котрелл Морис.** Хранители гробниц. Москва, 2006.

**79. Клинописные тексты из Кюл-тепе.** Москва, 1968.

**80. Гасанов Заур.** Царские скифы. Нew Йорк, 2002.

**81. Qorqud ədəbiyyatı.** Bakı, 2004.

**82. Гейбуллаев Г.** К этногенезу азербайджанцев. Баку, 1991.

**83. Qeybullayev Q.** Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, 1994.

**84. Qeybullayev Q.** Qədim türklər və Ermənistan. Bakı, 1992.

**85. Геродот.** История. I-IX т. Ленинград, 1972.

**86. Quliyev Vahid.** Azərbaycanın bitki aləmi və onun coğrafiyası. Bakı, 1984.





**87. Гумилев Л.Н.** Древние тюрки. Москва, 1993.

**88. Гумилев Л.Н.** Поиски вымышленного царства. Москва, 2002.

**89. Гумилев Л.Н.** Этногенез и биосфера Земли. Ленинград, 1989.

**90. Гумилев Л.Н.** Тысячалеттия вокруг Касспия. Баку, 1991.

**91. Гельб И.Е.** Опыт изучения письма. Москва, 1982.

**92. Граков Б.Н.** Скифы. Москва, 1971.

**93. Мамедова Ф.** Политическая история и историческая география Кафказской Албании. Баку, 1986

**94. Масон В.М.** Средная Азия и Древний Восток. Москва, 1964.

**95. Масон В.М.** Первые цивилизации. Ленинград, 1989.

**96. Марр Н.Я.** Избранные работы. I-IV т. Москва, 1937.

**97. Mahmud İsmayıl.** Azərbaycan tarixi. Bakı, 1997.

**98. Məmmədov İsmayıl.** Azərbaycan tarixi. Bakı, 2005.

**99. Məmmədov Altay.** Kəngərlər. Bakı, 1996.

**100. Məmmədov Nadir.** Azərbaycanın yer adları. Bakı, 1999.

**101. Mərdanov İ.** Böyük Qafqazın cənub yamacında sellərin inkişafının geomorfoloji şəraiti. Bakı, 1978.

**102. Məmmədov C.** "Qut" sözünün mənşəyinə dair. Bakı, 1989.

**103. Məmmədov Əli.** Elm dili. «Ədəbiyyat və incəsənət» qəzeti, 1969, № 1.

**104. Мусаев К.М.** Лексикология тюркских языков. Москва, 1984.

**105. Muxtarova Əsməd.** Türk xalqlarının tarixi. Bakı, 2005.

**106. Müseyibli Nəcəf.** Böyükkəsik Encolit dövrü yaşayış məskəni. Bakı, 2007.

**107. Müseyibli N.Ə.** Gəmiqaya petroqliflərinin Yaxın Şərq paralelləri. «Azərbaycan arxeologiyası və etnoqrafiyası» jur. 2006, № 2.

**108. Müseyibli N.** Gəmiqaya təsvirlərindəki bir qrup işarə haqqında. «Azərbaycanın qədim və orta əsrlər tarixi problemi» jur. 1992.

**109. Müseyibli N.Ə.** Qədim Azərbaycanda itlərdən istifadə və it kultu. (Etnoarxeoloji tədqiqat). «Azərbaycan arxeologiyası və etnoqrafiyası» jur. 2007, № 2.

**110. Müseyibli Nəcəf.** Gəmiqaya. Bakı, Çaşoğlu, 2004.

**111. Ллойд С.** Археология Месопотамия. Москва, 1984.

**112. Оппенхейм А.** Древняя Месопотамия. Москва, 1990.





**113. Ожегов С.И., Шведова Н.Ю.** Толковый словарь русского языка. Москва, 2005.

**114. Погребова М.Н.** Закавказье и его связи с Передней Азией в скифское время. Москва, 1984.

**115. Ramiz Əsgər.** Mahmud Kaşğari və onun «Divanı lüğət-it-türk» əsəri. Bakı, 2008

**116. Раевский Д.С.** Искусство и мифы скифов. Курьер ЮНЕСКО. Москва, 1977.

**117. Раевский Д.С.** Очерки идеологии скифосакских племен. Москва, 1977.

**118. Райс Т.Т.** Скифы. Строители степных пирамид. Москва, 2003.

**119. Редер Д.Г.** Мифы и легенды древнего Двуречья. Москва, 1965.

**120. Rəcəbov Ə., Məmmədov Y.** Orxon-Yenisey abidələri. Bakı, 1993.

**121. Rəhimov A.** Mahmud Kaşğarinin "Divanilüğət-it türk əsəri. (Avtoreferat).

**122. Rəşid əd-Din F.** Oğuznamə. (R.Şükürovanın tərcüməsi). Bakı, 1992.

**123. Rzayev Nəsir.** Əcdadların izi ilə. Bakı, 1992.

**124. Svadost E.** Ümumi vahid dil necə yarana bilər. «Elm», Bakı, 1968.

**125. Смирнов К.Н.** Материалы и этнографии Нахичеванского края. Баку, 1999.

**126. Ситчин Захария.** Колыбели цивилизации. Москва, 2006.

**127. Ситчин Захария.** Двенадцатая планета. Москва, 2006.

**128. Ситчин Захария.** Лестница в небо. Москва, 2006.

**129. Ситчин Захария.** Божества 12-й планеты. Москва, 2006.

**130. Ситчин Захария.** Войны богов и людей. Москва, 2006.

**131. Ситчин Захария.** Космический код. Москва, 2006.

**132. Ситчин Захария.** Потерянные царства. Москва, 2006.

**133. Советский энциклопедический словарь.** Москва, 1995.

**134. Севортян Э.В.** Этимологический словарь тюркских языков. I-II т. Москва, 1974, 1978.

**135. Seyidov Mirəli.** Qam-şaman və onun qaynaqlarına ümumi baxış. Bakı, 1994.

**136. Seyidov M.** Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı, 1989.

**137. Seyidov M.** Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı, 1983.

**138. Solakzadə Mehmet.** Tarix. Azərbaycan tarixinə dair iqtibaslar. Tərcümə edəni Z.Bünyadov. Bakı, 1992.

**139. Сулейменов О.** Аз и Я. Алма-Ата, 1975.

**140. Средняя Азия, Кавказ и зарубежный Восток в древности.** (Под редакцией Б.А.Литвинского). Москва, 1983.





**141. Струве В.В.** Советское востоковедение. Москва, 1949.

**142. Страбон.** География. Москва, 1979.

**143. Самуэл Н.Крамер.** История начинается в Шумере. Москва, 1965.

**144. Taberi.** Milletler ve hükümdarlar tarihi. I-III c. İstanbul, 1991.

**145. Тайная история человечества.** Москва, 2005.

**146. Таланцев Николай Карпович и др.** Кедровые леса. Москва, 1978.

**147. Тураев Б.А.** История древнего Востока. Москва, 2004.

**148. Тюменев А.И.** Государственное хозяйство древнего Шумера. Москва, 1956.

**149. Вайнштейн С.И. , Крюков М. В.** Об облике древних тюрков. Москва, 1966.

**150. Винклер Гуго.** Западная Азия в древние времена. "История человечества". т. III, СПб, 1903.

**151. Верещагин Н.К.** Записки палеонтолога. Ленинград, 1981.

**152. Vəlixanlı N.M.** IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, 1974.

**153. Vəliyev Seyran.** Qədimdən qədim Azərbaycanım. Bakı, 1995.

**154. Vəliyev Məhəmməd Həsən (Baharlı).** «Azərbaycan». Bakı, 1993.

**155. Всемирная иллюстрированная энциклопедия.** (Fransızcadan tərcümə). Москва, 2004.

**156. Якубовский Л.П.** История древнорусского языка. Москва, 1953.

**157. Йакут ал-Хамави.** Сведение об Азербайджане. Баку, 1983.

**158. Yusifov Yusif.** Qədim Şərq tarixi. Bakı, 2005.

**159. Энциклопедия символов, знаков, эмблем.** Москва, 2007.

**160. Эрих фон Деникен.** Глаза сфинкса. Киев, "София", 2004.

**161. Эрих фон Деникен.** Наследие богов. Москва, 2006.



# KİTABIN İÇİNDƏKİLƏR

SUSAN QƏLƏMİMİZ VƏ SUSDURULAN TARİXİMİZ ........ 3

TÜRKÜN BAŞLANĞIC NÖQTƏSİ:
İŞIQDAN QARANLIĞA ........ 17

ERKƏN TÜRKLƏR. ONLAR KİMDİR? ........ 27

DAŞQIN ........ 55

ŞUMER KİLİDİNƏ TÜRK AÇARI ........ 90

QILINC VƏ QƏLƏM ........ 99

URUK ŞƏHƏRİNDƏ YAŞAYANLAR – TURUKLAR ........ 122

DƏDƏ QORQUD PEYĞƏMBƏRLİYİ ........ 139

AĞ SAKLAR, HÖKMDAR SAKLARI ........ 173

«ÇAR SKİFLƏRİ» VƏ ŞUMER PANTEONU ........ 210

SAK – SKİF – QUZ ÜÇBUCAĞI, YAXUD QALİBLƏRİN
MƏĞLUBİYYƏT YOLU ........ 227

SUBAR – KENGİR:
BİR ALMANIN İKİ ÜZÜ ........ 260

SÜRGÜN OLUNMUŞ XALQ ........ 289

İLAN XALQI ........ 335

TÜRKÜN BAŞLANĞIC NÖQTƏSİ:
QARANLIQDAN İŞIĞA ........ 382

TALE KİTABIM – TÜRKLÜYÜM ........ 458

«Nərgiz-R» Nəşriyyat-Poliqrafiya firması

Baş direktor: ***Hidayət Musabəyli***

**«Nərgiz» nəşriyyatı**

Texniki redaktor: ***Kəmalə Məmmədova***
Korrektor: ***Yasəmən İsmayılova***
Dizayn: ***Yeganə İmanova***

Mətbəə müdiri: ***Akif Musayev***

Çapa imzalanmışdır: 16.11.2011
Kağız formatı: 60x84 1/16
Həcmi: 30,0 çap vərəqi
Tiraj: 300 nüsxə; Sifariş: 856

Nərgiz - NƏŞRİYYATI

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi tərəfindən 1998-ci ildə qeydə alınmışdır.
Şəhadətnamə № 45.
Ünvan: 8-ci km qəsəbəsi R.Rüstəmov küç. 36
Nəşriyyatla əlaqə telefonları: 323-69-53
050-738-37-22